ŞÜKRAN DƏDƏYEV

# PSİXİKA

## İNSAN ORQANİZMİNDƏ PSİXİKANIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ ÖYRƏNİLMƏSİ

## YENİ FUNDAMENTAL PSİXOLOGİYANIN ƏSASLARI

QANUN – 2007

15
D42

Az2

**Rəyçilər:**

**C. Bryus Overmyer (J. Bruce Overmier)**
Psixologiya Professoru, Minnesota Universiteti, ABŞ
Psixologiya elmləri üzrə Beynəlxalq İttifaqın Prezidenti (2004-2008)

**Maykl C. Stevens (Michael J. Stevens, Ph.D, DHC)**
Psixologiya Professoru
İllinoys Dövlət Universiteti, ABŞ
Lusian Blaqa Universiteti, Rumınya

**Mariya Levintova (Marya Levintova, Ph.D.)**
Psixologiya doktoru
"Fogarty" Beynəlxalq mərkəzi
Birləşmiş Ştatların Milli Sağlamlıq İnstitutları, ABŞ

268638

**Şükran Dədəyev. Psixika: İnsan orqanizmində psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi.** Yeni fundamental psixologiyanın əsasları. Bakı, Qanun, 2007, 456 səh.

Kitab insan orqanizmində Psixikanın müəyyənlişdirilməsi, öyrənilməsi və yeni fundamental psixologiyanın yaranma problemlərini əhatə edir. Psixikanın psixi və bioloji varlığı ilk dəfə olaraq insan organizminin baş beyin hissəsində müəyyənləşdirilir, öyrənilir və Psixikanın daxili strukturu, fəaliyyəti tədqiq edilir. Psixika ümumi problemdir. Ona görə Psixika psixoloji, bioloji, neyroloji və sosial baxımdan universal formada araşdırılır və hazırlanmış yeni ümumi metodikanın köməkliyi ilə öyrənilir. Psixika və beyin yeni elmi statuslarda öyrənilir.

Kitabda yeni həqiqi, fundamental psixologiyanın yaranması haqqında məlumat verilir. Yeni Psixologiyanın yaranma səbəbləri, prinsipləri irəli sürülür və əsaslandırılır. Psixologiyanın yeni ümumi strukturu, əsas tədqiqat istiqamətləri müəyyənləşdirilir. Psixologiyanın müasir dünyada təkmilləşməsi, ümumiləşməsi və bütövləşməsi problemləri nəzərdən keçirilir. Psixologiyaya yeni vahid beynəlxalq tərif verilir. Yeni psixologiyanın gələcəkdə cəmiyyətdə, elmlər sistemi daxilində formalaşması və prespektivli inkişafı təhlil olunur.

Kitab dünyanın tanınmış mütəxəssisləri ilə fikir mübadiləsi əsasında yazılmış, mühüm psixoloji və elmlər sistemi üçün də ümumi olan fundamental problemlərin tədqiqini əhatə edən beynəlxalq səviyyəli müasir elmi işdir.

Kitab Psixologiyanı, Psixikanı, beyni ümumiyyətlə, insanı öyrənən bütün mütəxəssislər və sadə vətəndaşlar üçün nəzərdə tutulub.

$Q\frac{1500005104}{AB\ 022051}$ sifarişli-07

Az2

© QANUN, 2007
© Ş.Dədəyev

# Kitabın içindəkilər


Ön söz: Professor Bryus Overmyer ...........................11
Foreword: Professor J. Bruce Overmier ..........................13
Ön söz: Professor Maykl Stevens ..............................15
Foreword: Professor Michael J. Stevens ........................17

**Müəllifdən** ..................................................**19**

***I HİSSƏ.***
**İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi ..........26**

**1. Giriş ..................................................27**
**1.1 "Psixika" sözü, anlamı və mövcudluğu haqqında qısa məlumat ..............................27**
**1.2 Psixika fundamental bəşəri problem kimi ...............28**
**1.3 Psixikanı öyrənmənin yeni metodik xüsusiyyətləri .....32**

**2. Psixikanın daxili fəaliyyət strukturu ....................40**
**2.1 Psixikanın yerləşdiyi məkan və onun daxili strukturu ..........................................40**
**2.2 Psixika və əsaslandırıcı elmi nəticələr ....................57**
**2.3 Psixikanın mövcudluğ xüsusiyyətləri ......................64**

**3. Psixikanın şöbələri ........................................74**
**3.1 Ekzistensial şöbə (sağ yarımkürə) ..........................74**
**3.1.1 Hafizə ..................................................75**
**3.1.2 Daxili ekzistensial nitq ....................................87**
**3.1.3 Ekzistensial şöbənin fundmental və qeyri-subyektiv ruhi proseslərlə əlaqələri ...............93**
**3.2 Koqnitiv şöbə (sol yarımkürə) ..............................98**
**3.2.1 Nitq ..................................................100**
**3.2.2 Şüur ..................................................104**
**3.3 Qarşılıqlı əlaqə zonası (QƏZ) ............................108**

4. Psixi proseslərin yaranması. Psixikanın fəaliyyəti ....112
4.1 Psixikanın informasiya qəbulu ....112
4.2 Psixi proseslərin yaranması. İnkişaf sadəliklərdən doğan mürəkkəb proseslər sisitemidir ....117
4.2.1 Psixi prosesin tərkib hissəsi ....128
4.2.2 Psixikada dominant şöbə varmı? ....131
4.2.3 Psixika - dövlət, şüur – prezident ....135

5. Psixikanın formalaşması ....139
5.1 Psixikada dünyanın mövcudluq formaları vasitəsilə qavranılması və mənimsənilməsi ....139
5.1.1 Psixikadaxili mövcudluq formaları və xüsusiyyətləri ....144
5.1.2 Mövcüdluq formalarının düzgün mənimsənilməməsi ....148
5.1.3 Psixika və kompyüter ....153
5.2 Psixika və beyin ....154
5.3 Psixikanın neyroanatomik quruluşu ....163

6. Psixikadaxili fəaliyyət xüsusiyyətləri ....169
6.1 Şüursuzluq hallarının yeni formada öyrənilməsi. Asılı olmayan psixikadaxili proseslər ....169
6.1.1 Asılı olmayan psixikadaxili proseslərin növləri ....171
6.1.2 Asılı olmayan psixikadaxili proseslərin mövcudluq xüsusiyyətləri ....179
6.2 Psixika və ruh. Psixi enerji ....187
6.3 Psixikada fəaliyyət pozğunluğu. Psixikadaxili neyron xəstəlikləri ....194
6.4 Psixikanın nisbi fəaliyyət qanunauyğunluğu ....199

7. Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması. Psixikanın tərifi ....206
7.1 Psixika və yaşamaq ....206
7.2 İlkin instinktlər ....210

7.3 Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələləri ....213
7.3.1 Birinci mərhələ: yaşamağa olan ilkin psixikadaxili meyllərin yaranması (0-3 yaşlar) ....216
7.3.2 İkinci mərhələ: yaşamaq uğrunda mübarizənin yaranması (4-9 yaşlar) ....218
7.3.3 Üçüncü mərhələ: yaşamaq uğrunda mübarizəni əsaslandıran ekzistensial və koqnitiv sosial amillərin yaranması (10-14 yaşlar) ....226
7.3.4 Dördünücü mərhələ: Psixikada tam formalaşmış yaşamaq xüsusiyyətlərinin yaranması (15-20 yaşlar) ....230
7.4 Ekzistensial psixi fəaliyyət ....233
7.4.1 Ekzistensial qorxu ....236
7.4.2 Ekzistensial sağlamlıq ....238
7.5 Mənəvi-sosial dəyərlər ....240
7.5.1 Nəfs və tamah ....243
7.5.2 Arzular, xəyallar, xülyalar ....245
7.5.3 Vicdan ....246
7.5.4 Məhəbbət ....247
7.5.5 Xoşbəxtlik ....249
7.5.6 İnam ....251
7.5.7 Ümid ....253
7.5.8 İradə ....254
7.5.9 Şübhə ....255
7.5.10 Azadlıq ....256
7. 6 Psixikanın tərifi ....259

8. Psixikadaxili ali xarakter və şəxsiyyət tipləri ....261
8.1 Ali xarakter və şəxsiyyət tiplərinin müəyyənləşdirilməsi ....261
8.2 Ekzistensial tip ....262
8.3 Daxili qarışıq tip ....267
8.4 Subyektiv-normal tip ....273

9. Psixikanın cinsi mövcudluq xüsusiyyətləri ............280
9.1 Psixika və cinsi xüsusiyyətlər ............281
9.2 Cinsi forma. Cinsi formaların düzgün mənimsənilməməsi ............283
9.3 Cinsi məsuliyyət subyektləri ............288
9.4 Cinsi qorxu ............291

*II HİSSƏ.*
Psixika, beyin və insan orqanizmi ............295

1. Psixikanı tədqiq etmədən insanı öyrənmək qeyri-mümkündür ............296

2. Psixikada neyronların fəaliyyət xüsusiyyətləri ............299
2.1 Psixikadaxili neyronlar ............299
2.2 Alın payı neyronları ............302

3. Psixika və beyin. Beyin necə işləyir? ............305
3.1 Psixika və beyin orqanları ............305
3.2 Psixika və beyincik ............308
3.3 Beyin necə işləyir? ............313

4. Psixika və insan orqanizmi ............317
4.1 Psixika və bədən orqanları ............317
4.2 Psixika insanı necə idarə edir? ............320
4.3 Psixikanın ali idarəetmə funksiayları və xüsusiyyətləri ............323

5. Psixi informasiyalar ............327
5.1 Psixika və psixi informasaiyalar ............327
5.2 Psixi informasiyaların mövcudluq xüsusiyyətləri ............328

6. Orqanizmin psixi immunosistemi ............332

7. Psixikada yuxugörmənin yaranması ............336
7.1 Problemə giriş ............336

7.2 Yuxugörmə və psixi informasiyalar ......................337
7.3 Yuxugörmədə hadisələr və vaxt amili ....................340
7.4 Yuxugörmə və yaradıcılıq ....................................346

8. Psixika insan orqanizminin konstitusiyası kimi ........349

*III HİSSƏ.*
Yeni fundamental Psixologiyanın yaranma əsaslrı ............351

1. Yeni Psixologiyaya giriş ......................................352
1.1 Qısa tarixi məlumat ............................................352
1.2 Təhliledici məktublar ..........................................354

2. Yeni fundamental Psixologiya nədir?
Yeni Psixologiyanın yaranma səbəbləri ....................358

3. Psixologiyaya yeni vahid beynəlxalq tərifin verilməsi. Yeni Psixologiyanın ümumi strukturu ..........................................................364
3.1 Psixologiyanın yeni tərifi ....................................364
3.2 Yeni Psixologiyanın ümumi strukturu ....................365

4. Yeni Psixologiyanın əsas vəzifələri və tədqiqat istiqamətləri. Dünyada Psixologiya elminin təkmilləşdirilməsi və ümumiləşdirilməsi problemləri ..........................................................367
4.1 Yeni Psixologiyanın əsas vəzifələri .........................367
4.2 Yeni Psixologiyanın əsas tədqiqat istiqamətləri ........376

5. Yeni fundamental Psixologiya və elmlər sistemi .......381
5.1 Yeni Psixologiya və elmlər sistemi ..........................381
5.2 Yeni Psixologiya və psixoloji elmlər sistemi ............384

6. Yeni Psixologiyada ruh və zehn problemləri ............387
6.1 Yeni Psixologiyada ruh problemi ............................388

6.2 Yeni Psixologiyada zehn problemi ........................390

7. Yeni Psixologiyada sosial-psixoloji problemlər .........392
7.1 Yeni Psixologiyada xarakter problemi ..................393
7.2 Yeni Psixologiyada şəxsiyyət problemi ..................395

8. Yeni Psixologiyanın formalaşma və inkişaf prespektivləri ........................................397

Qısa nəticə məqaləsi ...............................................402

Psyche: Determination and studying of Psyche in the human organizm. The foundations of new fundamental Psychology ........................................423

Психика: Определение и изучение Психики в человеческом организме. Основы новой фундаментальной Психологии ..................................439

Ədəbiyyat ..........................................................446

İstifadə olunmuş şəkillərin mənbə ünvanlarının siyahısı ................................................448

# ÖN SÖZ

Mən ilk dəfə Şükram Dədəyevlə 1999-cu ildə tanış olmuşam və onun elmi işi haqqında 2004-cü ildə məlumat əldə etmişəm. Şükran Dədəyevin 2001-ci ildə Kalqari (Kanada) Universitetində kecirilən Nəzəri Psixologiya üzrə Beynəlxalq Konfransda təqdim olunan elmi hesabatından mən öyrəndim ki, o, psixologiya elmi üçün yeni fundamental nəzəri əsaslar kimi orijinal yunan mənasında olan "Psixikanı" axtarmışdır. Bu elmi hesabat "İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi" kimi adlanırdı. Bunun ardınca 2002-ci ildə Şükran Dədəyev "Psixika: insan orqanizmində Psixikanın müəyyənləşdirilməsi" adlı digər elmi hesabatını Sosial Elmlər üzrə Havay (ABŞ) Beynəlxalq Konfransına təqdim etmişdir. Beləliklə, Şükran Dədəyevin **"Psixika: İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi. Yeni Fundamental Psixologiyanın əsasları"** adlı bu yeni kitabının meydana çıxması təəccüblü sayıla bilməz.

Kitabla tanış olarkən şahid olacaqsınız ki, Dədəyev müasir psixologiyanı onun bioloji amilləri ilə birlikdə rədd etmir (ətraf mühitlə təmaslı beyində hazırlanan informasiyalı hiss reseptorlar zehni proseslərin müxtəlifliyini aktivləşdirir) amma hesab edir ki, əslində duyğu (hisslər sistemi) burada sadəcə olaraq Psixikanın ilkin mühüm problemləri ilə və davranışı yaradan bütün psixi proseslərin əsasları ilə əlaqələri itirir. Dədəyev isbat edir ki, Psixika iki cür informasiyalar – həm bioloji, həm də gözəgörünməz ruhi informasiyaları hisslər sistemindən qəbul edərək onları işləyir, hazırlayır. Bu sonuncu yanaşma onun kitabını digər müasir elmi təhlil işlərindən fərqləndirir.

Bildiyimiz kimi, (1) fundamental ruhi inamlar (etiqadlar) var və onlar uzun müddət ərzində yaxşı fiziki gümrahlığa, cərrahiyyə əməliyyatlarından sonra tezliklə sağalmaya kömək edir. O da bəllidir ki, (2) Dekart XVII əsrdə insan orqanizmi ilə, insan idrakı arasında saxta dixotomiya yaradıb. Beləlikə, insan orqanizmi ilə idrak arasında necə qarşılıqlı əlaqə olması sual dogurmur, amma Dədəyev iddia etdiyi kimi, idrak da Psixika kimi daxil olan əlavə "gözəgörünməz"

(fundamental) ruhi informasiyalar əldə edir. Belə olan təqdirdə, bəs bu informasiyaların "görünən" (birbaşa elmi biliklər) mənbələri, başlanğıcı avtomatik ölçülə və ayrıla bilir? Maraqlı məsələlərdir! Dədəyev bunu "Ruhi və Koqnitiv" problem kimi qəbul edir.

Çünki müəllifin fikrincə, Psixika beyində yerləşməsinə baxmayaraq ondan (beyindən) fərqlənir. Dədəyev bu elmi əsərində Psixikanın müxtəlif şöbələrini beynin tanınmış şöbələri ilə əlaqələndirir və sonra ora növbə ilə mürəkkəb idraki prosesləri yerləşdirir. O, bunu yeni, real psixologiya adlandırır. O, inanır və sübut etməyə çalışır ki, bu yanaşmanın alternativi yoxdur. Dədəyev hesab edir ki, onun yeni, "həqiqi psixologiya"sına, "psixologiya"sına "dünya psixologiyasının ümumiləşdirilməsi və təkmilləşdirilməsi" daxil olmaqla psixologiyanın əsas yeganə məqsədi və vəzifəsi kimi baxılmalıdır.

Üç əsas hissəli bu elmi buraxılış müəllifin məgsədlərinə nail olması problemini oxucular üçün həll edir. Təəssürat yaratmaq lazım deyildir ki, burada ancaq fundamental müstəqil ruhi tərkibli proseslərlə bağlı səbəb dəyişikliyini əhatə edən yeni Psixologiyanın yaranmasına xüsusi səylə çağırışlar edilir. Beynəlxalq Psixologiya düzgün yeni elmi yanaşmalara və yerli (milli) psixologiyalara ehtiyac duyur.

**C.Bryus Overmyer**
**Prezident, Psixologiya elmləri üzrə**
**Beynəlxalq İttifaq (2004-2008)**
**Psixologiya Professoru**
**Minnesota Universiteti**
**Minnepolis Minnesota, ABŞ**
**1 iyun, 2007**

# FOREWORD

I first met Shukram Dadayev in 1999, and I have had communications with him about his work since 2004. Shukram Dadayev has been seeking new theoretical foundations for psychology on its original Greek sense of "The Psyche" since at least 2001, that I know of, when he presented a poster at the International Conference for Theoretical Psychology meeting held at the University of Calgary. That paper was entitled "Determination of Psyche in the human organism." In 2002, there followed another paper at the Hawaii International Conference on Social Science by Dadayev entitled "Psyche: Determination of Psyche in the human organism." Thus, the appearance of this new book by Dadayev, ***"Psyche: Determination and Studying of Psyche in the Human Organism. Foundations of a New Fundamental Psychology"*** comes as no surprise.

Dadayev does not, as you will read, reject modern psychology with its biological emphases (environment impinging on the sense receptors with information processed in the brain to activate a variety of cognitive processes), but rather feels that it simply falls short of dealing with the true primary issue of The Psyche and the origin of all of the psychical processes that determine behavior. Dadayev argues that The Psyche receives and processes both biological information from the senses, but also spiritual invisible information. And, it is this latter that sets this book apart from other contemporary explanatory works.

We do know (1) that those with deep spiritual beliefs have, over the long term, better physical health and faster recoveries from surgery and (2) that Descartes in the 17$^{th}$ century created a false dichotomy between body and 'mind.' So the issue is not whether 'mind' and body interact but how, and whether as Dadayev here asserts the 'mind' as The Psyche has additional causal inputs from invisible spiritual information. If so, how and how does this modulate the 'visible' (directly scientifically knowable) sources of infor-

mation? Challenging questions! Dadayev refers to this as the "Spiritual and Cognitive" problem.

Because in the author's view The Psyche is residual in the brain but distinct from it, Dadayev in this volume links various divisions of The Psyche to known divisions of the brain, and then these, in turn, to complex cognitive processes. This he terms the new, real psychology. He believes and argues herein that there is no real alternative. Dadayev believes that for his new, 'real psychology', 'psychology' should be redefined as including the "generalization and perfection of the world" as one aim and duty of psychology.

Whether the three main sections of this volume achieve the author's goals is for the reader to decide. One cannot but be impressed by the effort herein to meet the formidable challenge of creating a psychology that includes an independent spiritual component as a causal variable. International psychology needs to fairly allow for new approaches and indigenous psychologies.

**J.Bruce Overmier**
**President, International Union of**
**Psychological Science (2004-2008)**
**Professor of Psychology**
**University of Minnesota**
**Minneapolis Minnesota, USA**
**June 1, 2007**

# ÖN SÖZ

***Psixika: İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi. Yeni fundamental Psixologiyanın əsasları***

**Maykl C. Stevens, PhD, DHC**
**İllinoys Dövlət Universiteti, Normal, İL ABŞ**
**Lusian Blaqa Universiteti, Sibiu, Rumınya**

Şükran Dədəyev özünün ***"Psixika: İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi. Yeni fundamental Psixologiyanın əsasları"*** adlı kitabında ambisiyalı bir vəzifəni öz üzərinə götürüb. O, on il ərzində Psixika ilə insan orqanizmini yeganə bir vəhdətdə sintez etməyə, birləşdirməyə səy göstərən maraqlı araşdırmaları ilə psixologiya elmi və ixtisası üçün orijinal əsaslı perspektivlər hazırlayıb. Bu kitab üçün əsas məqsəd həqiqətdir, çünki doğrudan da müasir psixologiya böhran içərisindədir. Bu böhran onda əks olunur ki, Psixika ilə orqanizmin vəhdəti və birliyi üçün çağırışlar olsa da, elmdələngimə Psixika ilə orqanizmi daha da ayırır. Bu böhran onda əks olunur ki, psixologiyada gizli parçalanmalar davam edir və bu halda qarşılıqlı informasiyalar vermək üçün şərait getdikcə pisləşir. Bu böhran onda əks olunur ki, psixologiyadakı ahəngsiz, zəif yerli (milli) hərəkat psixologiya üçün "qiyamət qalasına" çevrilib. Bu böhran onda əks olunur ki, psixologiya dominant ABŞ hakimiyyəti timsalında ideologiyaya və siyasətə tabe etdirilib və yaxud psixologiya bəzi millətlərin siyasi idarəetmə sistemində müstəqil fikirlər üçün açıq və ciddi təhlükə kimi qəbul olunur.

Dədəyev 1994-cü ildəki "Psixi enerji" kitabının ardınca yazdığı bu tayı-bərabəri olmayan unikal əsərində yeni fundamental psixologiyanın yüksək səviyyədə təqdimatını və yaradılışını irəli sürür hansı ki, bu, psixologiyada xüsusi perspektivin və məktəbin təsviri deyil, daha doğrusu Psixika və beyin meta - nəzəriyyəsi haqqında insan orqanizmindən xaricdə olan elm - informasiyadır. Dədəyev

Psixikanı metoforik idarəetmə mərkəzi kimi anlayaraq Psixikanın necə ekzistensial və koqnitiv şöbələrə bölünməsini, onlara aid olan ayrı-ayrı qarşılıqlı əlaqələr funksiyalarının beyin qabığı və döyənək cisimlə assosiasiyasını aydın formada təsvir edir. O, psixi proseslərin neyroloji informasiya daxil olmalarına əsaslanan təsvirini verməkdə davam edir və göstərir ki, analitik, intellektual və məntiqi fəaliyyət **Koqnitiv şöbəyə**, hamıya az məlum olan intuitiv və ruhi fəaliyyət isə **Ekzistensial şöbəyə** aiddir. Ümumi psixi proseslərin araşdırılmasına əlavə olaraq Dədəyev psixi funksiyaların tədqiqini beynin alın payı hissəsinə, neyroloji sistemə bağlayır və psixi proseslərin xüsusiyyətlərini müəyyən etmək üçün onları **sadə, mürəkkəb və avtomatik** kimi növlərə bölür. Bütün kitab boyu Dədəyev göstərir ki, Psixika yüksək tənzimləyici və effektiv səviyyədə fəaliyyət göstərərək beyni idarə edir və insan fəaliyyətinin və həyat təcrübəsinin müxtəlifliyini təmin edir.

***Psixika: İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi*** struktur etibarilə məntiqli hüdud çərçivəsindədir. **Birinci hissə** yeni fundamental psixologiyanın əsaslarını qoyan - Psixikanın formasının, strukturunun, funksiyalarının və xüsusiyyətlərinin tədqiqini əhatə edir. **İkinci hissə** aydın şəkildə psixi-beyin proseslərinin vəhdətini və psixi proseslərin müxtəlif nəticələrini əhatə edir. Kitabın ən maraqlı hissəsi olan **üçüncü hissəsində** Dədəyev xüsusi universal yanaşma ilə yeni fundamental psixologiyanın yaradılması haqqında müraciət edir və yeni psixologiyanın missiyalarını (vəzifələrini), tədqiqat istiqamətlərini, insan idrakı ilə əlaqədar prosesləri sadalayır hansı ki, bu məsələlər gələcəkdə fundamental psixologiyanın ənənəvi elmlərlə qarşılıqlı əlaqələri üçün daha da inkişaf etdirilməlidir. Əlbəttə, Dədəyev müasir dövr üçün qıcıqlandırıcı, təxribatçı bir kitab yazmışdır. Bu kitab elmi vahidliyə və universallığa dogru atılan bir addım olmaqla, dünyanın bütün alimlərinə, tədqiqatçılarına əlaqə yaratmaq və aparıcı psixoloji fenomenal problemləri təcili tələbat olan ümumi əsaslardan, yeganə bünövrədən öyrənmək imkanı verəcək.

**10 iyul, 2007**

# FOREWORD

*to*

268638

*Psyche: Determination and Study of Psyche in the Human Organism. Foundations of a New Fundamental Psychology*

**Michael J. Stevens, PhD, DHC**
**Illinois State University, Normal, IL USA**
**The Lucian Blaga University, Sibiu, Romania**

Dadayev Shukran has undertaken an ambitious task in his book, *Psyche: Determination and Study of Psyche in the Human Organism. Foundations of a New Fundamental Psychology.* He has fashioned an original perspective for the discipline and profession of psychology, one based on ten years of investigative study, that attempts a synthesis of the psyche and brain into a true unity. A main motivation for this book is the reality that contemporary psychology is in crisis. This crisis reflects the lingering disconnect between mind and body, notwithstanding calls for their unification. This crisis reflects the fragmentation of psychology into highly specialized sub-fields that increasingly fail to inform one another. This crisis reflects the cacophony of the indigenization movement in psychology that has become a canonical Tower of Babel. This crisis reflects the subjugation of psychology to ideology and policy, whether the dominant U.S. mainstream or the psychology found in nations whose political machinery pose a more clear and grave danger to independent thought.

In this unique volume, a follow-up to his 1994 book, *Psychic Energy*, Professor Dadayev presents and makes a strong case for a new fundamental psychology, one that is not representative of a particular perspective or school, but rather a science-informed meta-theory of psyche and brain within the human organism. Conceiving the psyche as a metaphorical administrative center, Dadayev articulates how the psyche may be segmented into an existence division and a cognitive division, whose separate yet interconnec-

ted functions are associated with brain lateralization and the corpus collosum. He goes on to delineate psychical processes in which data is inputted neuronally, but is informed by the analytical, intellectual, and logical activities of the cognitive division and by the less well-known intuitive and spiritual workings of the existence division. Beyond his examination of general psychical processes, Dadayev undertakes a closer examination of the psychical functioning of the lobes of the brain, neuronal systems, and specific psychical processes, including those identified as simple, complex, and automatic. Throughout the book, Dadayev shows how the psyche manages the brain, operating in a highly coordinated and effective manner, and accounts for the diversity of human activity and experience.

The structure of *Psyche: Determination and Study of Psyche in the Human Organism* is impressive in its scope. Part one lays out the need for a new fundamental psychology as well as the formation, structure, functions, and characteristics of the psyche. Part two articulates the psych-brain unity and various outcomes of psychical processes. Part three, the most ambitious section of the book, addresses the universal relevance and appeal of Dadayev's new fundamental psychology by enumerating its mission, research goals, and issues related to the mind that must be developed further, such as the relationship of fundamental psychology to traditional science. Without question, Dadayev has written a provocative book for our times, one that will take us a step closer to the disciplinary unity and universalism that are so urgently needed and make it possible for scholars and practitioners from around the globe to communicate and explore a host of psychological phenomena from a unified framework.

**July 10, 2007**

# MÜƏLLİFDƏN

**Hörmətli oxucular,** sizin hər birinizi ayrı-ayrılıqda salamlayıram və yazdığım bu elmi işi böyük məmnuniyyətlə sizlərə təqdim etməkdən hədsiz qürur və sevinc duyuram.

Öncə onu qeyd edim ki, kitab Azərbaycan dövləti və xalqı üçün psixoloji, siyasi və sosial baxımdan çox mürəkkəb olan keçid dövründə yazılıb. Məlumdur ki, yaşadığımız və qismən arxada qoyduğumuz bu keçid dövründə bütün sahələrdə olduğu kimi elm sahəsində də çox ciddi çətinliklər mövcud idi. Maddi və sosial vəziyyət isə bu sahədəki problemləri daha da ağırlaşdırırdı. Elə bil hər şey elmi fəaliyyətin zəiflədilməsinə və dayandırılmasına kömək edirdi, şərait yaradırdı. Lakin bütün bu maddi və mənəvi çətinliklərə baxmayaraq, böyük əzmkarlıq, səbir, dözüm və hədsiz zəhmət nəticəsində qarşınızdakı elmi işi sona çatdırmaq mümkün oldu. **Böyük Allah,** hədsiz insan zəhməti, təbii proseslər və fundamental elmi fəaliyyət xüsusiyyətləri hər şeyi unutduraraq son nöqtəni qoymağa və mənəvi qələbəni qazanmağa kömək etdi.

Qarşınızdakı kitabın yazılmasının əsas məqsədi insan orqanizmində Psixikanın müəyyənləşdirilməsi, öyrənilməsi və yeni Psixologiya elminin yaradılmasıdır. Kitab təxminən on ildən artıq vaxt ərzində yazılmış üç hissədən ibarətdir.

Birinci hissə ən əhəmiyyətli və ən böyük hissədir. Məlum hissə **"İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi"** adlanır. Bu hissədə insan orqanizmində Psixikanın yeri, daxili strukturu və fəaliyyəti müəyyənləşdirilib tədqiq edilir. Elmlər tarixində ilk dəfə olaraq Psixika insan orqanizmində həm bioloji – obyektiv, həm də subyektiv-psixi varlıq kimi müəyyənləşdirilir və öyrənilir. Psixika insan orqanizmində yeni formada və yeni ümumi metodik yanaşma ilə tədqiq edilir.

İkinci hissə **"Psixika, Beyin və İnsan orqanizmi"** adlanır. Bu hissə Psixikanın beyin və bütün insan orqanizmi ilə qarşılıqlı fəaliyyət problemlərinin tədqiqini əhatə edir. Burada bir daha Psixikanın insan orqanizmində bioloji və psixoloji mövcudluğunu sübuta yetirən müxtəlif proseslər və problemlər sistemi təhlil edilir.

Üçüncü hissə **"Yeni Fundamental Psixologiyanın yaranma əsasları"** adlanır. Bu hissədə yeni fundamental Psixologiyanın yaranma əsasları haqqında məlumat verilir. Yeni psixologiyanın mövcud olma əsasları irəli sürülür və onun yaranma səbəbləri əsaslandırılır. Bu proseslər birbaşa Psixologiyanın həqiqi predmeti olan Psixikanın insan orqanizmində artıq müəyyənləşdirilib öyrənilməsi ilə əlaqələndirilir. Yəni Psixikanın öyrənilməsi bizə imkan verir ki, artıq yeni vahid, həqiqi Psixologiyanın əsaslarını yaradaq. Burada psixologiyaya vahid beynəlxalq tərif verilir. Şübhəsiz, bu artıq dünyada mövcud olan parçalanmış, predmeti olmayan və yaxud predmeti öyrənilməmiş böhranlı tarixi Psixologiyanın iflası deməkdir. Artıq dünyada fəaliyyət göstərən uzaqgörən psixoloqlar bu tipli mühüm problemlərin mahiyyətini, mövcudluğunu anlamağa başlayıblar. Yəni onlar da mənimlə razılaşaraq etiraf edirlər ki, Psixologiya elmi daxilində fundamental köklu dəyişiliklərə güclü tələbat var **(Bax: "Ön sözlərə")**. Onlar da bunun Psixologiyada bohranın aradan qaldırılmasına, Psixologiyanın vahidləşməsinə və bir elm kimi aktiv inkişafına əsas maneə olduğunu qeyd edirlər. Bu baxımdan, gələcəkdə dünyadakı real dəstəyə arxalanaraq, müəyyən təzyiqlərə baxmayaraq, beynəlxalq aləmdə predmeti öyrənilmiş həqiqi fundamental Psixologiyanın yaradılması və perspektivli inkişafı üçün sona qədər mübarizə aparılacaq.

İndi isə mən sizə qarşınızdakı elmi işin yazılma tarixi haqqında qısa məlumat vermək istəyirəm. Bu elmi işimin yaranma tarixi 1995-ci ildən başlayir. Onda mən Bakı Dövlət Universitetinin sonuncu kursunda təhsil alırdım. Psixoloji və fəlsəfi ədəbiyyatlarla tanışlıq məni tez-tez Psixika problemi ilə üzləşdirirdi. Müasir dövrə qədər Psixologiyanın predmetinin öyrənilməməsi məni çox narahat edirdi. Təəssüflənirdim ki, Psixika haqqında heç bir real nəzəri və kliniki elmi nailiyyətlər yoxdur. Şübhəsiz, bu narahatçılıq məni Psixika barədə ciddi düşünməyə məcbur edirdi. Nəhayət, Psixika problemində nəzərimi cəlb edən ilkin amil **psixi prosesin tərkib hissəsi** oldu. Psixika probleminə girişi yalnız psixi proseslərin yaranma xüsusiyyətlərinin və onun tərkib hissəsinin öyrənilməsi ilə mümkunlüyünü yəqin etdim. Psixi prosesin tərkib hissəsini insanın formalaşma və inkişaf xüsusiyyətlərinə uyğun olaraq blok-sxemdə

təsvir etdim. Həmin blok-sxem tipli aparata “Psixika” adı verdim. Bu ilkin Psixika üç şöbədən ibarət idi. **Ekzistensial şöbə, subyektivləşmiş şöbə, qarşılıqlı təsir zonası (QTZ).** Yəni insanın formalaşma xüsusiyyətlərinə uyğun **mövcud olmaq ( ekzistensial şöbə )** və **subyektivləşmək (subyektivləşmiş şöbə)** informasiyaları Psixika daxilində qarşılıqlı təsirdə (**qarşılıqlı təsir zonası)** olaraq psixi prosesi hazırlayır. Nəticədə insan Psixikası yaranır.

Getdikcə bu primitiv sırf nəzəri yanaşma məni yorurdu. Hələlik baş beyində Psixikanın mövcudluğunu sübuta yetirən kliniki laborator exsprement aparmaq qeyri-mümkün olsa da, mənə heç olmasa qismən əsaslandırıcı fundamental tədqiqat nəticələri lazım idi. Kitabxanada Neyroelmlər sistemindəki son fundamental kliniki tədqiqat nəticələri ilə tanışlıq düzgün fikirləşdiyimi təsdiq etdi. Bu baxımdan, mühüm əsaslandırıcı nəticələr **S.Sprinqer və Q.Deyçin “Sol beyin, Sağ beyin”**( Bax: **С.Спрингер, Г.Дейч. “Левый мозг, правый мозг”. М. 1983) (Sally D. Springer, Georg Deutsch. 1981. “Left Brain, Right Brain” Deutsch, Georg. PUBLISHER)** adlı müştərək kitabında idi. Kitabda **beyin yarımkürələrini** əhatə edən son illərin neyroloji tədqiqat nəticələri barədə məlumatlar verilir. Orada daha çox diqqəti cəlb edən 1960-70-ci illərdə ABŞ-da **“döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış fundamental tədqiqatlar”**ın nəticələri oldu. Bu tədqiqat nəticələri Psixikanın öyrənilməsinə çox güclü əsaslandırıcı təkan verdi. Sonrakı mütaliələr nəticəsində psixi prosesin yaranma sxemini baş beyində yerləşdirdim. Psixikanın şöbələri beyin yarımkürələrinə və bu yarımkürələri birləşdirən döyənək cismə uyğun gəlirdi. Sağ yarımkürə exzistensial şöbənin, sol yarımkürə subyektivləşmiş şöbənin, döyənək cisim isə qarşılıqlı təsir zonasının funksiyalarını əks etdirirdi. Fərq yalnız onda oldu ki, “qarşılıqlı təsir zonası” anlamını “qarşılıqlı əlaqə zonası (QƏZ)”- lə əvəz etdim. Sonralar “subyektivləşmiş şöbəni” “koqnitiv şöbə” kimi də adlandırmağa başladım.

Beləliklə də, Psixika və onun daxili fəaliyyət strukturları ilkin olaraq şəkil-sxemdə cəmləşdi. Şübhəsiz, Psixikanın ən mühüm fəaliyyət funksiyaları yarımkürələrin beyin qabıqlarında baş verir. Orada psixi proseslər və ali psixi funksiyalar yaranır. Şüur, nitq,

təfəkkür, hafizə, təxəyyül, qavrayış, digər ali proseslər müvafiq olaraq Psixikanın şöbələrində yerləşir və onlar yeni iş statuslarında öyrənilir. Şüursuzluq hadisələri yeni psixi statusda "asılı olmayan psixikadaxili proseslər" kimi tədqiq edilir. Psixikada yaşamaq məfhumunun hazırlanması, insan kimi yaşamaq xüsusiyyətlərinin yaranması yaş dövrlərini əhatə edən mərhəli proseslər şəklində öyrənilir. Bu çox mürəkkəb problem olmaqla yanaşı Psixikanın ətraflı öyrənilməsində də mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, kitabda çoxlu müxtəlif problemlərə toxunulmuşdur. Lakin onların hamısı Psixika problemində və onun öyrənilməsində cəmləşir. Ümumiyyətlə isə, Psixika yeni ümumi metodika ilə öyrənilir.

Psixika elə bir problemdir ki, onun öyrənilməsi hədsiz güclü səbir və dözüm tələb edir. Çünki burada insanın formalaşma və inkişaf qanunauyğunluqlarının öyrənilməsi və müqayisəli təhlili incəliklərinə qədər nəzərə alınmalıdır. Bu da təbiidir, Psixika qədim tarixə malik mürəkkəb və nəhəng problemdir. Psixikanı öyrənmək qorxmaz cürətli addımlar, əzab və tükənməz səbir tələb edir. Lakin nə etməli? Freydi də tez-tez sakitləşdirən şair Ryukkert demişkən "nəyə uçmaqla nail olmaq mümkün deyilsə, ona sürünə-sürünə nail olmaq lazımdır"( Bax: **З. Фрейд. "Я и оно". Книга I. Тбилиси "Мерани" 1991, səh. 192**). Mən deyərdim ki, Psixikanı öyrənmək isə yeri cırmaqlaya-cırmaqlaya sürünmək deməkdir. Deməli, Psixika həmişə bütün həyatını elmə vermiş, əzab çəkməyi bacaran qətiyyətli, iradəli mütəxəssislərin tədqiqat problemi olacaqdır.

Xatırladırıq ki, bu elmi iş Psixikanın insan orqanizmində müəyyənləşdirilməsi, öyrənilməsi və yeni fundamental, həqiqi Psixologiyanın yaranması ilə bağlı **ümumi yanaşmanı** əhatə edir. Psixika və yeni fundamental Psixologiya kimi nəhəng problemlər sistemini qısa müddətdə (burada 10–15 il də qısa müddət sayıla bilər), ətraflı şəkildə və incəlikləri ilə öyrənmək qeyri-mümkündür. Burada mövcud olan problemlər həddən çoxdur, universaldır, müəmmalıdır və mürəkkəbdir. Burada ümumi – psixoloji, neyroloji, bioloji və sosial problemlər sistemi vardır. Ona görə də ilk növbədə Psixikanın insan orqanizmində müəyyənləşdirilməsinin, öyrənilməsinin və yeni fundamental Psixologiyanın yaranmasının əsaslarını qoymaq üçün ətraflı, elə fundamental şəkildə hazırlanmış **ümumi**

**yanaşma** tələb olunur. Bu, Psixika və yeni Psixologiya kimi nəhəng problemlər sistemini öyrənmək üçün ilkin, yeganə, alternativi olmayan ali metodik yanaşmadır. Bu ilkin yanaşmanın özü də belə mürəkkəb və ziddiyyətli problemlərin araşdırılmasını əhatə edir.

Bütün bunlara baxmayaraq, irəli sürdüyümüz **ümumi yanaşma** elmlər sistemində ilk dəfə olaraq Psixikanın insan orqanizmində yerini, daxili strukturunu, fəaliyyət xüsusiyyətlərini müəyyənləşdirməyə, öyrənməyə və yeni fundamental Psixolgiyanın əsaslarını yaratmağa real metodik imkanlar verdi. Nəticədə, ilk dəfə olaraq biz həqiqi formada Psixikanı Psixologiya elminin və Neyroelmlər siteminin daxilinə gətirərək onu Psixologiyanın və Neyroelmlər siteminin mövcud olan real tədqiqat probleminə çevirdik. İnanmaq istərdik ki, məlum ümumi yanaşma bundan sonra da uzun illər boyu Psixikanı ətraflı şəkildə öyrənmək və dünyada yaranan yeni Psixologiyanın tam formalaşması, perspektivli inkişafı üçün əvəzedilməz layiqli metodik bünövrə rolunu oynayacaqdır.

Kitabda bizim tanıdığımız və tanımadığımız bütün əsas problemlərə - Psixikaya, onun şöbələrinə, beyinə, psixi proseslərin yaranmasına, şüura, hafizəyə, qavrayışa, təfəkkürə, təxəyyülə, insan orqanizminə, hətta Psixologiya elminin özünə və sairə kimi problemlər sisteminə tamamilə yeni, fərqli formalarda yanaşılır. Onlar yeni metodlarla, fərqli obyektiv və subyektiv yanaşmalarla, fundamental formalarda öyrənilir.

Bu baxımdan, kitabda **"Psixologiya"ya, "Psixika"ya, "psixi proseslər"ə, "şəxsiyyət"ə** və **"xarakter"ə** öz həqiqi yeni **tərifləri** verilib.

Kitabda elmdə indiyə qədər öyrənilməmiş problemlər, baş beyində (Psixikada) yeni fəaliyyət sahələri müəyyənləşdirilmiş və onlar yeni elmi terminlərlə adlandırılmışdır. Məsələn, **"Ekzistensial şöbə", "Koqnitiv (subyektiv) şöbə", "Qarşılıqlı əlaqə zonası (QƏZ)", "daxili ekzistensial (məkan) nitq"** və sairə.

Bundan əlavə, kitabda baş beynin, beyin yarımkürələrinin, onların assimetriyasının, özünəməxsus funksiyalarının öyrənilməsində əldə edilmiş elmi nailiyyətlər haqqında məlumatlar ilk dəfə olaraq Azərbaycan oxucularına Azərbaycan dilində təqdim edilir. Hansı ki, bu yeni elmi məlumatlardan xarici dilləri bilməyən müəllimlər və elmi işçilər istifadə edə bilərlər.

1999-cu ildən başlayaraq Psixikanın öyrənilməsi ilə bağlı dünyanın müxtəlıf universitetlərində və psixoloji təşkilatlarında işləyən tanınmış mütəxəssislərlə ətraflı şəkildə fikir mübadiləsi aparılıb. Bu fürsətdən istifadə edib Azərbaycan elmini dünyada ən yüksək səviyyələrdə layiqincə təmsil etməyə çalışmışam.

Nəzərinizə catdırmaq istəyirəm ki, kitab daxilindəki elmi işlər 2001-ci ildən başlayaraq Kanadada, Amerikada və digər xarici ölkələrdə kecirilən beynəlxalq konfranslara, konqreslərə qəbul edilib və həmin konfrans, konqres materialları daxilində çap edilib. Bu informasiyalar haqqında aşağıdakı internet ünvanlarında da məlumatlar var.

http://www.udallas.edu/istp/resources/ISTP2001PROGRAMME.htm
http://www.icp2004.org/symposia-1.htm
http://www.hicsocial.org/Social2003Proceedings/Shukram%20Dadayev.pdf
http://www2.u-netsurf.ne.jp/~wisdom/ICPO4abstract.pdf ( səh. 154)
http://www2.u-netsurf.ne.jp/~wisdom/ICPO4abstract.pdf ( səh. 432)
http://www.hicsocial.org/SOCO4.PDF (səh. 837)
http://www.ecp2005.com/horary.asp (7 iyul, 2005. Poster)
http://www.hicsocial.org/SOC2005.pdf (səh. 548)
http://www.hicsocial.org/SOC2006.pdf (səh. 1743)

Bundan əlavə, Psixika ilə bağlı qısa nəticə məqaləsi **"Qanun"** jurnalının 2004-cü ildəki 6-cı sayında cap edilib.

İlk növbədə, tələbəlik illərindən başlayaraq mənim bir psixoloq və bir elm adamı kimi formalaşmağımda mühüm rolu olan bir insana, həqiqi elm adamına – professor **Əkbər Bayramova** öz xüsusi minnətdarlığımı bildirirəm. Azərbaycanda Psixologiya elminin aparıcı ağsaqqalını bir daha böyük ehtiramla salamlayıram və ona can sağlığı arzulayıram.

İndi isə kitabın yazılmasında mənə mənəvi dəstək olmuş, elmi işimin dünyada təbliğində mənə kömək etmiş insanlara – Amerika Psixoloji Assosiasiyasının xarici işlər idarəsinin direktoru xanım **Coan Bucanana (Joan Buchanan)**, Psixologiya Elmləri üzrə Beynəlxalq İttifaqın (IUPsyS) prezidenti, Minnesota Universitetinin (ABŞ) professoru cənab **Bryus Overmyerə (J. Bruce Overmier)**, Kanadanın Kalqari Universitetinin professoru cənab **Hank Stama (Henderikus J. Stam**; elmi işin dünyada düzgün başa düşülməsini

və geniş təbliğini nəzərə alaraq birinci hissəyə verilmiş ad – **"İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi"** ona məxsusdur), Amerikanın Havay adalarında keçirilən Sosial elmlər üzrə Beynəlxalq Konfransın koordinatoru cənab **Andrev Burqeyə (Andrew Burge)**, **"Fogarty"** Beynəlxalq mərkəzinin (Birləşmiş Ştatların Milli Sağlamlıq İnstitutları, ABŞ) əməkdaşı **Mariya Levintovaya (Marya Levintova)**, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının bütün əməkdaşlarına, xüsusilə də "Humanitar elmlər zalında" çalışan işçilərə, eləcə də adını çəkə bilmədiyim bütün insanlara, yaxın və uzaq qohumlarıma öz dərin minnətdarlığımı və ehtiramımı bildirirəm.

Fürsətdən istifadə edib, keçmiş elmi məqalələrimi, qarşınızdakı kitabı çap edən və yaranan müəyyən problemlərə baxmayaraq öz köməyini əsirgəməyən **"Qanun"** nəşrlər evinin rəhbəri cənab **Şahbaz Xuduoğluna** öz xüsusi minnətdarlığımı bildirirəm. Şübhəsiz, kitabın çap edilməsində zəhmət sahibi olan **"Qanun"** nəşrlər evinin bütün əməkdaşlarına öz böyük ehtiramımı çatdırıram.

Tələbəlik illərində **"Psixi enerji"** kitabımın çap edilməsində müstəsna rolu olan cənab **Vasif Quliyevə** də öz dərin minnətdarlığımı bildirirəm.

Yuxarıda təşəkkür etdiyim bütün şəxslər üçün **Böyük Allahdan** can sağlığı və uzun ömür diləyirəm.

Hörmətli oxucular, bu kitabı oxumaq istəyinizi yüksək səviyyədə qiymətləndirir, sizin tənqidi fikirlərinizə hörmətlə yanaşır və ümumiyyətlə, kitabla maraqlanıb onu əlinizə götürdüyünüzə, onu oxumağa başladığınıza görə sizlərə öz dərin minnətdarlığımı bildirirəm. Elm **Böyük Allah** tərəfindən seçilmiş və qiymətləndirilmiş önəmli, əzablı fəaliyyət sahələrindən biridir. Düşünürəm ki, bu sahədə qarşımıza çıxan hər bir həqiqi elmi işə, hər bir həqiqi elm adamına hörmət etmək, onların əzablı zəhmətlərini qiymətləndirmək və onlara düzgün tənqidlə yanaşmaq, bizim hər birimizin müstəsna borcudur.

Bir daha sizlərə öz dərin minnətdarlığımı bildirir və sizlər üçün **Böyük Allahdan** can sağlığı və günahsız həyat diləyirəm.

**Şükran Dədəyev**
**Bakı, 26 oktyabr, 2007**

**1996-99-cu illər, Bakı**

# I HİSSƏ.

# İNSAN ORQANİZMİNDƏ PSİXİKANIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

# 1. GİRİŞ

## 1.1 "PSİXİKA" SÖZÜ, ANLAMI VƏ MÖVCUDLUĞU HAQQINDA QISA MƏLUMAT

Psixika sözünün və anlamının nə vaxt yaranması haqqında dəqiq tarixi məlumatlar vermək qeyri-mümkündür. Elə bu amil Psixikanın qədim tarixə malik bir söz və məfhum olduğunu təsdiqləyir. Lakin Psixika haqqında qısa tarixi elmi və ictimai məlumatlar vermək mümkündür.

Psixika qədim yunan mənşəlli bir sözdür. Yunan dilində ona **"Psixo" (Psycho)** deyilir. Mənası Azərbaycan dilində "ruhi" və "psixi" olan deməkdir. İngilis dilində Psixikaya **"Psyche"** deyilir. Onlar bu sözü ruhi olan (soul, spirit) və hətta Psixikanı (məsələn, qərb psixologiyasında) idrak, şüur (mind, consciousness) kimi də qəbul edirlər. Rus dilində Psixikaya **"Психика"** deyilir. Rus dilində onun mənası psixi olan və "душа" kimi də adlandırılır.

Psixologiya elminin adı da qədim yunan mənşəlı olan Psixikadan yaranmışdır. **Psixologiya = psycho + logos.** Yəni Psixologiya **Psycho (Psixika)** haqqında elmdir.

Tarixdə ilkin yazılı elmi və ictimai ədəbiyyatlarda Psixika haqqında həyatverici, hərəkətverici, enerjiverici bir mövcudluq kimi yazmışlar. Platon, Sokrat və Aristotel kimi yunan filosofları da Psixikanı həyatverici, hərəkətverici, enerjiverici bir mövcudluq kimi qəbul ediblər. Bir çox elmi nəzəriyyələrdə Psixika "psixi enerji" kimi də qəbul olunub.

Bütün tarixi çətinliklərə, təzyiqlərə və müxtəlif vaxtlarda yaranmış mürəkkəb tarixi şəraitlərə, siyasi ideologiyalara baxmayaraq Psixika öz real anlamını və mövcudluğunu qoruyub saxlamışdır. Yəni Psixika öz həqiqi mövcudluq və fəaliyyət statusunu bu gündə sübuta yetirməkdədir. Psixologiya elminin **"Psixologiya"** adının müasir dövrə qədər gəlib çıxması buna primitiv təsdiqləyici misal ola bilər. Çünki həqiqi, real və fundamental olmayan bir anlam, bir mövcudluq bu günümüzə qədər gəlib çıxmazdı.

Psixika indiyə qədər sırf ruhi, subyektiv mahiyyətli mövcudluq kimi qəbul olunmuşdur. Elmlər tarixində ilk dəfə olaraq biz Psixika-

nı həm də obyektiv bioloji və sosial mövcudluq, insan orqanizmində yeri və daxili strukturu olan bir orqan kimi öyrənməyə çalışmışıq.

Biz Psixikanın həqiqi mövcudluq və fəaliyyət mənasının ona qaytarılması üçün sona qədər sanballı, məntiqli elmi mübarizə aparacağıq. Çünki bu mübarizə fundamental əsaslara, elmi tələbatlara və real elmi nəticələrə malik təbii mübarizədir.

## 1.2 PSİXİKA FUNDAMENTAL BƏŞƏRI PROBLEM KİMİ

Məlum oldu ki, Psixika elmlər sistemi tarixində ən müəmmalı fundamental problemlərdən biridir. Elə bil bu fundamentallıq dünyanın mövcudluq və inkişaf tarixi ilə paralel addımlamışdır. Bunu biz tarix boyu yaradılan bütün mədəniyyət, ədəbiyyat, incəsənət və elmi əsərlərdə hiss edə bilərik.

Antik fəlsəfədən başlamış müasir əsrimizə qədər Psixika qəbuledici, rəddedici və utopik müəmmalarla damğalanan problem olmuşdur. 1963-cü ildə isə P.Fress Psixologiyanın predmetı probleminə toxunarkən ümumiyyətlə, "Psixika" termininindən əl çəkməyi məsləhət görürdü. O, bunu Psixikanın artıq fantastik və müəmmalı problem olması ilə əlaqələndirirdi. Nəticədə, bəzi qərb ölkələrində Psixika probleminin tədqiqi və hətta bu problemin mövcudluğu rəsmən psixoloqlar tərəfindən rədd edildi və onlar Psixikaya orqanizm daxilində obyektiv mövcudluğu olmayan sırf subyektiv mahiyyətli problem kimi baxmağa başladılar. Təbii ki, bu qəbuledilməz və anlaşılmaz bir elmi yanaşmadır.

Hətta Psixologiya elmi daxilində də Psixikaya müsbət münasibət bəslənilməyib. Nəticədə Psixologiyada müxtəlif kortəbii metodik yanaşmaları əhatə edən müəyyən (xüsusilə də ABŞ-da) elmi-psixoloji cərəyanlar (koqnitiv psixologiya, biheviorizm - davranış psixologiyası, geştalt psixologiya və s.) yaranmışdır. Əslində bu istiqamətlərin və elmi cərəyanların heç biri Psixikanın tədqiqi baxımından müsbət əhəmiyyət kəsb etmir. Əksinə, bu cərəyanlar Psixikanı rədd edir və Psixologiyada "predmet" böhranını daha da dərin-

ləşdirirlər. Məsələn, **təsadüfi deyildir ki, biheviorizmi "psixikasız psixologiya" adlandırırlar. (Bax: Bayramov.Ə.S, Əlizadə.Ə.Ə "Psixologiya". Bakı, 2002. Səh. 70).**

Keçmiş sovet Psixologiyasında da Psixika ilə bağlı problemlər ürəkaçan olmayıb. Gecə-gündüz Psixika haqqında danışan sovet psixoloqları onun insan orqanizmində (beyində) real tədqiqi üçün heç bir sanballı addım atmayıblar. Təbii ki, onlar Psixikanı məntiqsiz siyasi mahiyyətli materializmə qurban vermişlər. Qərb psixoloqları isə əksinə, Psixikanı öz məntiqsiz idealist fikirləri ilə rədd etmişdilər **(Bax: bu haqda III hissənin əvvəlində ətraflı yazılıb).**

Bütün bunlar Psixikanı Psixologiyanın predmeti kimi çox gülünc bir vəziyyətə salmışdı. Psixologiya elmi yarandığı gündən öz predmeti ilə bağlı rastlaşdığı bu gülünc tarixi vəziyyəti Britaniya ensiklopediyasının müəlliflərindən biri çox ətraflı şəkildə təsvir edib: "Yazıq, yazıq Psixologiya əvvəl ruhu itirdi, sonra Psixikanı, sonra da şüuru, indi də davranışla bağlı həyəcanlı problemlərlə üzləşib" (Bax: **М.Г. Ярошевский. "История психологии". М, "Мысль"-1985. səh. 16**).

Göründüyü kimi, elmi ədəbiyyata kiçik bir səyahətlə Psixikanın və Psixologiyanın necə böhranlı vəziyyətdə olduğunu təsəvvür etmək mümkündür. Əslində müasir elmlər sistemində bu böhran Psixologiyada "predmet böhrani" kimi çıxılmaz bir vəziyyət yaradıb. İrəli sürülmüş nəzəri yanaşmalar, böyük maliyyə tələb edən neyroloji kliniki tədqiqatlar bu sahədə fundamental nailiyyətlərin qazanılmasına səbəb olmayıb.

Fikrimizcə burada əsas neqativ hal Psixikanı öyrənmək üçün ətraflı şəkildə hazırlanmış sanballı nəzəri və klinik metodik yanaşmanın olmamasıdır. Bizi narahat edən əsas amil məhz, bu olmuşdur. Gəlin Psixikanın tədqiqində fantaziyadan, ziddiyyətlərdən, siyasi ideologiyadan çəkinərək özümüzü aldatmayaq. Hər şeyi öz həqiqi adı kimi qəbul edək və hər şeyi öz yerinə qoymağa çalışaq. Artıq Psixikanın öyrənilməsində "geri çəkilmək və təslim olmaq qəti qadağandır".

Tarix göstərir ki, indiyə qədər biz Psixikanı, Psixologiyanı aşağıdan yuxarı öyrənmişik. İndi isə onu yuxarıdan aşağı öyrənməyin vaxtı gəlib çatıb. Yəni insanın öyrənilməsində də, insanın orqaniz-

mində də (baş beyində) ən yüksəkdə duran Psixikanı tədqiq etməklə yalnız Psixikanın özünü və insanı ətraflı şəkildə öyrənmək mümkün olacaq. Yalnız bu yolla səpələnmiş, qeyri-standart psixoloji tədqiqat nailiyyətlərini bir yerə cəmləşdirərək bu böhranı aradan qaldırmaq mümkündür. Bunun üçün insan orqanizmində Psixikanın yerləşdiyi məkanı tapmalı, onun strukturunu və əsas fəaliyyət prinsiplərini öyrənməliyik. Bu da Psixikaya ümumi metodik yanaşmanı tələb edir. Psixika ilə bağlı bütün ziddiyyətli rəsmi və qeyri-rəsmi mülahizələri nəzərə almaq və müqayisə etmək gərəkdir. Məlum müqayisələr Psixikanın, insanın formalaşma və inkişaf qanunauyğunluqlarına əsasən aparılmalıdır. Bu işdə çətinlik yaradan əsas səbəb odur ki, Psixika ilə bağlı ciddi elmi nailiyyətlər yox dərəcəsindədir. Düzdür, elmlər tarixində alimlər Psixika haqqında elmi yanaşmalar və mülahizələr irəli sürmüşlər.

Bu sahədə adı şəkilən şəxslər qədim yunan filosofları olan **Sokrat, Platon və Aristoteldir.** Qəribə də olsa bu sahədə ən sanballı və ətraflı yanaşma isə elə Aristotelə məxsusdur. Onun "Ruh haqqında kitab"ı ( **Bax: Аристотел. "Книга о душе". "Мысль", Москва 1975. Том 1. Səh. 371-448**) bu gundə öz müasirliyini və əhəmiyyətini itirməyib. Çünki Aristoteldən sonra Psixika haqqında daha aktual və sanballı heç bir elmi yanaşma yoxdur.

Müasirlərdən isə K.Yunqu və Z.Freydi misal göstərmək olar. Lakin onların da heç biri Psixikanı insan orqanizmində ayrı bir struktur kimi öyrənməyib. Psixikanın insan orqanizmində yerini dəqiqləşdirməyib və onun daxili fəaliyyət strukturunu göstərməyib.

Çox qəribədir, elmlər tarixində həmişə Psixikaya obyektiv, real varlıq kimi yanaşmaqdan çəkiniblər. Bu baxımdan, düşünürük ki, bizim müəyyənləşdirib öyrəndiyimiz Psixika həqiqi obyekiv Psixikadır və bizim tədqiqt metodikamız əsas şübhələrə son qoyan fundamental üstünlüklərə malikdir.

Bizi maraqlandıran əsas məsələ insan orqanizmində Psixologiya elminin fundamental əsaslarını tapmaqdır. Yəni insan psixologiyasının, zehninin, xarakterinin, davranışının yarandığı və mövcud olduğu yeri müəyyənləşdirib öyrənməkdir. Nəhayət, insanı idarə edən, onun orqanizmini tənzimləyən mərkəzi tədqiq edib tapmaqdır. Bəli, bu mərkəz insan orqanizmində yerləşən obyektiv və

subyektiv varlıq olan Psixikadır. Psixika Psixologiya elminin həqiqi predmetidir və o, təzyiqlərə baxmayaraq öyrənilməlidir. Artıq Psixika XXI əsrin problemidir. Müasir elmlər sistemində Psixikanı tədqiq etmədən beyni, ümumiyyətlə, insanı ətraflı şəkildə öyrənmək qeyri-mümkün olacaq.

Psixikaya müxtəlif dillərdə müxtəlif mənaların verilməsi Psixikanın insan orqanizmində müəyyənləşdirilməməsi və öyrənilməməsi ilə bağlı olub. Bu problem də dünyada Psixologiya elmi daxilindəki beynəlxalq böhranı yaradan əsas amillərdən biridir.

Biz məhz, "Psixika" anlamı və mövcudluğu ilə bağlı dünya elmində yaranmış məlum səhvlərə, anlaşılmazlıqlara, təbii böhrana birdəfəlik son qoymaq üçün Psixikanın insan orqanizmində müəyyənləşdirilməsinə və öyrənilməsinə ciddi qərar vermişik.

Psixika dünyada ən qədim tarixə malik bir orqandır. Şübhəsiz, Psixika şüura və idraka nisbətən daha qədim, daha geniş və daha mürəkkəb mövcudluğa, fəaliyyət xüsusiyyətlərinə malikdir. Psixika insan orqanizminin ən qədim, ən fundamental, ən universal və ən əhəmiyyətli bir orqanıdır.

**Bu elmi işin əsas məqsədi, Sokratdan, Platondan, Aristoteldən və digər qədim yunan filosoflarından başlayan bütün tədqiqat nəticələrini müasir formada daha da təkmilləşdirərək, yeniləşdirərək Psixikanı insan orqanizmində real bioloji varlıq kimi müəyyənləşdirmək, öyrənmək və Psixika haqqında beynəlxalq səviyyəli fundamental nəzəriyyəni ətraflı şəkildə işləyib hazırlamaqdır. Nəticə olaraq böhranlı, parçalanmış Psixologiyanı artıq öyrənilmiş predmeti movcud olan fundamental, dəqiq və real elmə çevirməkdir.**

**Psixikanın insan orqanizmində müəyyənləşdirilib tədqiq edilməsi artıq qaçılmaz təbii zərurətə çevrilib. Çünki Psixikanın öyrənilməməsi təkcə Psixologiyaya deyil, həm də insanı, beyni öyrənən bütün elmlər sisteminə, mədəni və sosial inkişafa mənfi təsir göstərir.**

## 1.3 PSİXİKANI ÖYRƏNMƏNİN YENİ METODİK XÜSUSİYYƏTLƏRİ

Qeyd etdiyimiz kimi, mürəkkəb bəşəri problem olan Psixikanı öyrənmək üçün ətraflı hazırlanmış çox universal və çevik bir ümumi metodika lazımdır. Psixikanı öyrənmənin öz metodik xüsusiyyətləri vardır. Burada çoxlu səbəblər var. Məsələn, biz Psixikanı psixoloji, bioloji (neyroloji) və sosial problem kimi öyrənəcəyik. Deməli, Psixikanı öyrənmək üçün psixoloji, bioloji və sosial prosesləri qarşılıqlı fəaliyyət prinsipləri nəzərə alınmalıdır. Burada müxtəlif istiqamətlərə yönəlmiş çoxlu metodik yanaşmalar meydana çıxır. Lakin onların hamısı Psixikanı öyrənən ümumi universal metodikaya qulluq edəcək. Bundan əlavə, ekzistensial, subyektiv, genetik, fizioloji, freydist, biheviorist, geştalt-psixoloji, koqnitiv və s. kimi elmi istiqamətlər də müqayisəli şəkildə yalnız bizim ümumi metodikamıza xidmət edəcək və tabe olacaq.

Psixikada ilk növbədə mövcud olmaq və subyektivləşmək xüsusiyyətləri öyrəniləcək. Psixika insana mövcud olmaq, insan kimi yaşamaq və həyat bəxş edir. Psixikada dünyanın, insanın formalaşma və inkişaf qanunauyğunluqları əks olunub. Bu qanunauyğunluqlar Psixikanın fəaliyyətinin tərkib hissələridir. Biz bu təbii prosesləri görməli, yalnız həmin proseslərin mahiyyətini, təsirini tədqiq etməklə Psixikanın insan orqanizmində yerləşdiyi məkanı və iş strukturunu müəyyənləşdirə bilərik.

Ümumi universal yanaşmaya uyğun olaraq müxtəlif tədqiqat istiqamətlərinin köməyi ilə Psixikanın öyrənilməsində aşağıdakı beş əsas metodik xüsusiyyətlər sistemi nəzərə alınacaq.

1. **Psixikanın baş beyində yerləşdiyi məkan və yeganə iş strukturu baxımından öyrənilməsi. Bura Psixikanın şöbələri, orqanizmdə tutduğu mövqeyi, iş üsullarını, əsa funksiyalarını və bütün fəaliyyət prinsiplərinin öyrənilməsini nəzərdə tutan tədqiqatlar sistemi daxildir.**
2. **Psixikanın beyin, insan orqanizmi və təbiətlə qarşılıqlı münasibətlər baxımından öyrənilməsi. Bura beyin orqanları, orqanizmin digər hissələri, ətraf mühitlə olan**

prosesləri əhatə edən neyroloji, bioloji və psixofiziki problemlərin öyrənilməsini nəzərdə tutan tədqiqatlar sistemi daxildir.

3. Psixikanın orada insan kimi yaşamaq məfhumunun hazırlanması baxımından öyrənilməsi. Bura Psixikada yaşamağın formalaşmasını göstərən mərhəli sxemini, insan kimi yaşamaq xüsusiyyətlərini, yaşamaq uğrunda mübarizə metodlarını, ali xarakter tiplərini, cinsi mövcudluq xüsusiyyətlərini və digər buna oxşar problemlərin öyrənilməsini nəzərdə tutan tədqiqatlar sistemi daxildir.

4. Biz rəsmən Psixikanı psixoloji, bioloji (neyroloji) və sosial problem elan edirik. Psixika, həqiqətən də psixoloji, bioloji və sosial problemdir. Psixika həm də Neyroelmlər sisteminin problemidir (neyroloji problemdir). Psixika bütün istiqamətlərdə məhz, psixoloji, bioloji (neyroloji) və sosial baxımdan qarşılıqlı şəkildə öyrənilməlidir. Bura Psixikanın öyrənilməsini əhatə edən bütün universal metodik tədqiqatlar sistemi daxildir. Bu universal metodik yanaşma Psixikanı ətraflı şəkildə oyrənmək üçün alternativi olmayan yeganə ali metodikadır.

5. Biz Psixikanı rəsmən həm subyektiv, həm də obyektiv varlıq elan edirik. Həqiqətən Psixika subyektiv və obyektiv mövcudluq xüsusiyyətlərinə malikdir. Yəni biz rəsmi olaraq Psixikanı və bütün insan orqanizmini ruhi və bioloji olanın birləşdiyi, vəhdət təşkil etdiyi mövcudluqlar kimi qəbul edirik. Psixikanın bütün əsas istiqamətlərdə tədqiqi zamanı onun subyektiv və obyektiv (ruhi və bioloji) varlıq olma xüsusiyyətləri nəzərə alınacaq. Psixikanın insan orqanizmində müəyyənləşdirilməsində və öyrənilməsində bu amil mühüm əhəmiyyət kəsb edir. Məlum yanaşma Psixikanın öyrənilməsində tarix boyu ziddiyyətlər və müəmmalar yaradan bir çox problemləri aradan qaldırmağa kömək edəcək.

Beləliklə də, yuxarıdakı əsas metodik istiqamətlərin köməyi ilə Psixikanın orqanizmdə yerinin, daxili strukturunun, iş üsulunun, ali fəaliyyət funksiyalarının, orada yaşamaq xüsusiyyətlərinin hazırlanması proseslərinin və digər vacib problemlərin öyrənilməsinə nail ola biləcəyik.

İnsanın, Psixikanın formalaşmasında bioloji və sosial amillərin hansınınsa rolunu yüksəltmək bizim üçün köhnəlmiş səhv yanaşmadır. Psixikanın öyrənilməsində bu amil rədd edilir. Çünki bu amillərin hər ikisi formalaşma və inkişaf proseslərində eyni hüquqa və rola malikdirlər. Ola bilər onlardan biri yaranmış şəraitdə dominant mövqeyə malik olsun, başqa şəraitdə isə əksinə digəri bu dominantlığı əldə edəcək. Ümumi kluminasiya nöqtəsində isə bioloji və sosial amillər eyni əhəmiyyətə malikdir. Onların ikisi də formalaşmanın, inkişafın mühüm tərkib hissələridir və bir-birlərinin nisbi fəaliyyət dairələrini tənzimləyirlər.

Psixikanın öyrənilməsində "kliniki ekspremen t" problemi mövcuddur. Şübhəsiz, Psixikanın insan orqanizmində mövcudluğunu, fəaliyyətini tam təsdıq etmək üçün klinik ekspreme nt aparılmalıdır. Lakin bu prosesı kortəbii formada yerinə yetirməyə dəyməz. Artıq bizə məlumdur ki, baş beyində kiliniki tədqiqat aparmaq çox çətindir, beyin qabığında bunu etmək isə ümumiyyətlə, qeyri-mümkündür. Bu sahədə ən mühüm nailiyyət 60-cı illərdə ABŞ-da aparılmış kliniki tədqiqatlar sayıla bılər. Həmin tədqiqatlar "döyənək cisimləri çıxarılmaqla beyin yarımkürələrı üzərində aparılmış kliniki ekspreme ntlərdir". Burada əsas məqsəd beyin yarımkürələrinin ayrı-ayrılıqda funksiyalarını öyrənmək idi. Bu tədqiqatları baş beynin öyrənilməsində son və ən fundamental nailiyyət saymaq olar. Sevindirici hal odur ki, bu tədqiqatlar təkcə Neyroelmlər sistemi üçün deyil, insan orqanizmində Psixikanın öyrənilməsi üçün də çox qiymətli məlumatlar vermişdir. Biz bu fundamental nəticələrdən Psixikanın öyrənilməsində əsaslandırıcı və sübuta yetirici məlumatlar kimi istifadə etmişik. Bu tədqiqatlar bizim əsas fundamental nəticələrimizi ümumiyyətlə, Psixika haqqında irəli sürdüyümüz ümumi nəzəri yanaşmanı təsdiq edir. Kitabı oxuyarkən özünüzdə bunun şahidi olacaqsınız.

Bütün bunlara baxmayaraq, həlledici anlarda Psixikanın mövcudluğunu tam təsdiq etmək üçün xüsusi kliniki ekspreməntə ehtiyac yarana bilər. Belə olan halda bu xüsusi kliniki ekspreməntin layihəsini hazırlayana qədər bir çox mühüm fundamental nəzəri məsələlər həll edilməlidir. Burada çox həssas, ağıllı mülahizələri əhatə edən ətraflı hazırlanmış nəzəri yanaşma lazımdır. Psixika nəzəri baxımdan tamamilə öyrənilməlidir. Çünki Psixika dünyanı qavrama və mənimsəmə xüsusiyyətlərini tam əhatə edir. Burada mövcudluğun, canlıların, dünyanın formalaşma xüsusiyyətlərinin Psixikada cəmləşməsi və fəaliyyət reaksiyalarına çevrilməsi prosesləri ətraflı tədqiq olunmalıdır. Məhz, bu daxili proseslər Psixikanın özünü də formalaşdırır, onu real fəaliyyət və tənzimləyici orqana çevirir. Psixikanın öyrənilməsində fundamental kliniki ekspreməntlərin aparılması üçün ilk növbədə onun formasını, iş strukturunu görmək və onun real fəaliyyətini təsəvvür etmək lazımdır. Elə ona görə də biz Psixikanı şəkil-sxemlərdə psixi aparat formasında təsvir etməklə öyrənməyə üstünlük vermişik. Bu şəkil-sxemlərdə Psixikanın yerləşdiyi məkan və onun daxili fəaliyyət orqanları təsvir edilib. Yuxarıda da qeyd etdiyimiz kimi, bizim şəkil-sxemdə təsvir edilən "Psixika" aparatımızın fəaliyyəti də əsas mənalarda indiyə qədər aparılmış fundamental kliniki ekspreməntlərin nəticələri ilə təsdiq olunur. Bu təsdiqedici amillərin bizim üçün cox böyük əhəmiyyəti var. Çünki biz Psixikanı ziddiyyətli müəmmalardan və utopizmdən qoruya bildik. Ən əsası odur ki, Psixikanın insan orqanizmində yerini müəyyən etməyə və onu məhz, insan orqanizmi daxilində öyrənməyə nail olduq.

Psixika heç də tam ruhi formaya və fəaliyyətə malik deyil. Elə olan halda onu ancaq insan orqanizmində axtarmağa belə ehtiyac düyulmazdı. Psixika bioloji (obyektiv varlıq) və ruhi varlıqa malikdir. Hələlik onun bioloji varlığı bizi daha çox maraqlandırır. Çünki Psixikaya birbaşa ruhi yanaşma çox ciddi məsələdir. Psixikanı tam ruhi problem kimi qəbul etsək də onu ətraflı şəkildə öyrənməyə qadir deyilik. Psixikanı ruhi problem kimi öyrənmək üçün ilk növbədə onun bioloji mövcudluğu yerləşdiyi məkan müəyyənləşdirilməlidir. Yalnız insan orqanizmində mövcudluğu dəqiqləşdirilmiş Psixika bizi ruhi problem kimi maraqlandıra bilər. Çünki Psixikanı sırf

ruhi problem kimi tədqiq etmək onu yenə də fantastik, müəmmalı və "rəddedici" bir statusa gətirib çıxarar. Şübhəsiz, Psixika məntiqi-filoloji baxımdan ruhi termindir. Psixika insanların nəzərlərini də elə ilk növbədə öz ruhi mahiyyəti ilə cəlb etmişdir. Nəticədə "Psixika" termini gəlib bu günümüzə qədər çata bilmişdir. Psixika insan orqanizmində ruhun daşıyıcısı və yerləşdiyi məkandır. Biz ruhi prosesləri məhz, Psixikamız vasitəsilə qəbul edir və onlara qarşılıqlı təsir göstərə bilirik.

Psixikanın öyrənilməsində çox mürəkkəb bir problem mövcuddur. Bu da "Psixika və Beyin" problemidir. Biz bu problemə çox fərqli yanaşacağıq.

Qeyd etmişik ki, Psixika orqanizmin baş beyin hissəsində yerləşir. Lakin biz Psixikanı beynin daxili orqanı kimi qəbul və tədqiq etməyəcəyik. Çünki burada meydana çıxan bir çox fundamental proseslər bizə digər yolu seçməyə şərait yaratmışdır. Ümumiyyətlə, beynin öyrənilməsində həmişə "beyin və psixi proseslər" problemi aktual maneə amili olmuşdur. Bu da təbiidir, Psixika öz hegemon təsir dairəsini daim büruzə vermiş, lakin tədqiqatçılar tərəfindən diqqətdən kənarda qalmışdır. Ancaq bunu hiss edən alimlər də olmuşdur. Məsələn, Çarlz Şerrinqton. O öz ömrünün sonuna yaxın iki kitab yazmışdır. "Psixika və Beyin", "İnsan öz daxilində". Hər iki kitabda qeyd etdiyimiz məsələyə toxunulmuşdur. Ç.Şerrinqton belə bir fikrə gəlmişdir ki, fizioloqlar, neyrofizioloqlar insanın ruhi dünyasını, oradakı ideal ruhi prosesləri təhlil edə bilmirlər (**Bax: A.P. Лурия "Язык и сознание". МГУ. 1979, səh. 18**).

C.Ekklz də yuxarıdakı yanaşma ilə həmfikir olmuşdur. O, bu haqda özünün "Reallıqla üz-üzə" adlı kitabında yazmışdır (**Bax: A.P. Лурия "Язык и сознание". МГУ. 1979, səh. 18**).

Bütün bunlara baxmayaraq, "Psixika" və "Beyin" ayrı-ayrılıqda nəzərləri cəlb etməyib. Biz isə Psixikanın öyrənilməsi ilə əlaqədar olaraq Psixikanın və Beynin insan orqanizmində mövqelərini, ali funksiyalarını dəqiqləşdirməyə məcburuq. Əslində bu, insan orqanizminin fəaliyyət və idarəetmə prinsiplərini əhatə edən çox ciddi məsələdir. Hansı ki, bizim bu problemə köklü fərqli yanaşmamız özünü açıq şəkildə göstərəcək. Məsələn, biz burada idarəetmənin Psixikaya məxsus olduğu ideyasını irəli sürmüşük. Tədqiqat nə-

ticələrimizlə də bu ideyanı təsdiq etməyə çalışmışıq. Psixika yaxşı tanıdığımız baş beyində yerləşərək Beyni idarə edir və onunla birgə orqanizmin fəaliyyətini də tənzimləyir.

Psixikanın beyni idarə edən orqan olması haqqında tarixi-elmi mülahizələr də vardır. Məsələn, Beynin Psixikanın orqanı olması amilini eramızdan əvvəl VI əsrdə Kratonda yaşamış Alkmeona söyləmişdir. Sonralar onu Hippokrat da müdafiə etmişdi və beyni Psixikanın orqanı kimi "böyük dəmir" adlandırmışdı (**М.Г. Ярошевский. "История психологии". М, "Мысль"-1985. səh. 63**). Sonralar bu tipli mülahizələr uğur qazanmadılar və tez unuduldular. Çünki bu fikirlər sırf nəzəri-fəlsəfi mülahizələr idi. Digər əsas səbəb isə tədqiqatlar tarixi ilə bağlıdır. Beyin daha cox elmlər tərəfindən öyrənilməyə başlandı. Psixika isə müəmmalı problem kimi bir qıraqda qalaraq, bu günə kimi öz mövcudluğunu belə sübuta yetirə bilmədi.

Psixikanın öyrənilməsində "Psixika və Beyin" problemində əsas məsələlərə aydınlıq gətirilməsi zəruridir. Bu istiqamətdə real olanını aydınlaşdırmağa çalışacağıq. Şübhəsiz, Psixika daha mürəkkəb, geniş və dominant fəaliyyətə malik bir orqandır. Elə bu neyroloji tədqiqatlarda çaşqınlıq yaradır. Baş beynin müəyyən hissələrində şüuru və yaxud hafizəni axtarmaq kimi maraqlı mülahizələr meydana çıxır. Bu çox səhv yanaşmadır. Şüur və hafizə psixikadaxili proseslərdir və onları Psixikada axtarmaq lazımdır. Biz əsasən bu tipli vacib məsələlərə aydınlıq gətirəcəyik.

Psixikanın beyni idarəetməsi amili bir çox mübahisəli məsələlərin həllinə şərait yaradacaq. Beynin ətraflı tədqiqinə kömək edəcək. İnsan orqanizmində Psixikanın, Beynin mövqelərini, statuslarını dəqiqləşdirməyə imkan yaradar, Neyroelmlər sistemində yeni fundamental nailiyyətlərin qazanılmasına təkan verər.

Psixologiyanın həqiqi, fundamental bir elm kimi formalaşmasının vaxtı çatıb. Məhz, Psixikanın öyrənilməsi bu cür təbii proseslərin fundamental əsaslarını qoyacaq. Biz istəyirik ki, bundan sonra Psixika və Psixologiya haqqında kütləvi kortəbii, utopik mülahizələr irəli sürülməsin. Hər şeyi öz fundamentində axtarmaq lazımdır. Psixika Psixologiyanın fundamenti, predmetidir. Psixologiya Psixika üzərində yaranır, formalaşır və inkişaf edir. İnsan zehni, fəaliy-

yəti, davranışı Psixikada yaranır və oradan idarə olunur. Çünki Psixika insan orqanizmini idarə edən və onun fəaliyyətini tənzimləyən bir mərkəzdir.

Psixikanı öyrənərkən tarix boyu formalaşmış bütün **materialist** və **idealist** baxışlar rədd ediləcək. Biz **"Qərb psixologiyası"**, **"Keçmiş sovet psixologiyası"** kimi terminləri də rədd edirik. Psixikanın öyrənilməsi heç bir siyasi və ideoloji mahiyyət daşımır. Biz Psixologiyanın həqiqi fundamenti, predmeti olan Psixikanı tədqiq edirik. Biz real və həqiqi mövcud olanını öyrənirik. Bu ən dəqiq və ən ali metodik yanaşmadır.

Bu elmi iş daxilində problemlərin ətraflı öyrənilməsi ilə əlaqədar olaraq təkrarçılığa və xatırlatmalara tez-tez rast gəlinir. Xahiş olunur bunu unutqanlıq və texniki səhv kimi anlamayasınız. Psixikanın öyrənilməsi həddən çox mürəkkəb və ziddiyyətli problemləri əhatə etdiyindən orada ümumi, ətraflı təhlil üçün təkrarlamalara, xatırlamalara xüsusi ehtiyac var. Bu cür metodik yanaşma yalnız lazım olan şəraitdə məlum problemlərin sanballı şəkildə başa düşülməsi və dərk edilməsi üçün irəli sürülür. Yəni müəyyən prosesləri nəticələri lazım olan vaxtda, şəraitdə təkrarlamaq, xatırlamaq biz tərəfdən əvvəlcədən düşünülmüş bir metodik tədqiqat yanaşmasıdır və bu amil Psixikanın ətraflı, sanballı şəkildə öyrənilməsinə xidmət edir.

Mürəkkəb və ziddiyyətli problem olan Psixikanın öyrənilməsi təbii olaraq çoxlu mübahisələr və fikir ayrılıqları yaradacaq. Bu müsbət haldır və biz hər bir fikri alqışlayacaq və onlara səbirlə yanaşacağıq. Lakin Psixikanın tədqiqi geniş və mürəkkəb problemləri əhatə etdiyindən kitabı oxuyarkən bəzi mütaliə proseslərinə riayət etmək lazımdır. Baxmayaraq ki, elmi işi yazarkən elmi-filoloji nitqin başa düşülən və sadə məntiqli olması amilinə xüsusi diqqət yetirilib. Məsələn, kitabda Psixikanın öyrənilməsi mütəmadi olaraq sadədən mürəkkəbə doğru yüksəlir. Bütün bunlara baxmayaraq, kitabı oxuyarkən ciddi, diqqətli və səbirli olmaq gərəkdir. Səbirsizlik, diqqətsizlik, beyin haqqında primitiv biliklərə belə malik olmamaq bu elmi işin başa düşülməsində problemlər yaradacaq. Lazım gələrsə kitabdakı problemləri səbrlə bir neçə dəfə oxumaq daha məqsədəuyğundur. Məncə bunun səbəbini təkcə elmdə və yaxud

mənim elmi-filoloji yazı nitqində axtarmaq düzgün olmazdı. Bu problemin əsas günahkarı elə Psixikadır.

**Psixika dünyada alternativi olmayan nəhəng iş strukturu, müqayisə olunmaz qarşılıqlı əlaqələr sistemi, analoqu olmayan nəhəng informasiyalar ehtiyatı, qeyri-subyektiv fundamental ruhi proseslərlə qarşılıqlı iş əlaqələri yaradan, insanı mövcud edən, onu hərəkətə gətirən, yaşadan neyrobioloji və ruhi funksiyalar sistemidir. Psixika insan orqanizmində Böyük Allaha lazım olan, Ona yaxın yeganə fundamental bir orqandır. Dünyanı, planetləri, ulduzları, nəhəng qalaktikalar sistemini yaradan və idarə edən Böyük Allahın insan orqanizmində yaratdığı, seçdiyi və insanlara bəxş etdiyi bir orqan sadə ola bilərmi? Yaradana və idarə edənə eşq olsun!**

Təbii, bu cür bir orqanı sadə şəkildə öyrənmək və başa düşmək qeyri-mümkündür.

Bir məsələni də diqqətinizə çatdırmaq istərdik. Kitabda Neyroelmlər sistemindəki son elmi nailiyyətlər haqqında məlumatlarla ətraflı şəkildə tanış olmaq üçün rus və ingilis dillərindən heç olmasa birini bilmək lazımdır. Çünki bu haqda məlumatlar yalnız rus və ingilis dilli elmi ədəbiyyatlar da vardır.

Ümumiyyətlə isə, Psixika haqqında həqiqi elmi məlumatlar və Neyroelmlər sistemindəki son fundamental elmi nailiyyətlər çox azdır. Elə ona görə sizə təqdim olunan bu elmi iş də çox az sayda **ədəbiyyat** siyahısını əhatə edir.

# 2. PSİXİKANIN DAXİLİ FƏALİYYƏT STRUKTURU

## 2.1 PSİXİKANIN YERLƏŞDİYİ MƏKAN VƏ ONUN DAXİLİ STRUKTURU

Psixika və onun fəaliyyəti haqqındakı ümumi yanaşmanı sizə təqdim edirik. Düşünürük ki, Psixika haqqında irəli sürdüyümüz yanaşma bütün subyektiv, sırf nəzəri-fəlsəfi mülahizələrə və kortəbii elmi-ictimai fikirlərə son qoyacaq iş prinsipinə malikdir. Orada insanın formalaşma, inkişaf qanunauyğunluqları, insan psixologiyası, davranışı və yaşamaq amilinin yaranma xüsusiyyətləri cəmləşir. Gəlin Psixika ilə tanış olaq.

Psixika insan orqanizminin baş beyin hissəsində yerləşir. O, **baş beynin sağ və sol yarımkürələrindən** və onlar arasında ən böyük komissur (bitişdirici) olan **döyənək cisimdən** ibarətdir. Psixika üçün bütün beyin və orqanizm işləsə də informasiyaların tam işlənib hazırlanmasında, psixi proseslərin və ali psixi funksiyaların yaranmasında əsas orqanlar kimi beyin yarımkürələri (onların beyin qabıqları) və onları bitişdirən döyənək cisim iştirak edirlər. Biz bu orqanları birlikdə Psixika adlandıracağıq. Deməli, Psixika üç ümumi şöbədən ibarətdir. Sol yarımkürə, sağ yarımkürə və döyənək cisim. Psixikadakı iş funksiyalarına uyğun olaraq bu şöbələri aşağıdakı terminlərlə adlandıracağıq. **Sol yarımkürə - koqnitiv şöbə (subyektivləşdirici şöbə), sağ yarımkürə - ekzistensial şöbə, döyənək cisim – qarşılıqlı əlaqə zonası (QƏZ).**

Baş beyində Psixikanın yerləşdiyi məkanı dəqiqləşdirmək üçün **beyin yarımkürələrini (Hemispheria cerebri) və döyənək cismi (Corpus callosum)** təsvir edən şəkilləri sizin nəzərinizə çatdırırıq **(Bax: Şəkil -1, Şəkil - 2). Şəkil 3-dəki** şəkil-sxemdə isə Psixika, onun şöbələri təsvir edilib **(Bax: Şəkil - 3).** Siz burada birlikdə təsvir edilmiş hər üç şöbəni görə bilərsiniz.



**Şəkil -1. Beyin yarımkürələri (Hemispheria cerebri).**




**Şəkil – 2. Döyənək cisim (Corpus callosum).**




**Şəkil – 3. Psixika** (primitiv forma)

Biz prosesləri qabaqlayaraq, sizə Psixikanın daxili fəaliyyət strukturu haqqında qısa məlumat vermək istəyirik. Söhbət Psixikanın daxili işini yaradan, şüur başda olmaqla bütün ali zehni proseslərdən gedir. **Şüur, nitq, hafizə, təfəkkür, təxəyyül, qavrayış.** Onlar psixi proseslərin yaranmasında gördükləri işlərə uyğun olaraq Psixikanın müvafiq şöbələrində (onların beyin qabıqlarında) yerləşirlər. Beyin qabığı psixi proseslərin hazırlanmasını başlayan və sona çatdıran psixikadaxili məkandır. Mövcudluğu, məkanı, əşyaları qavramaq funksiyalarını yaradan ali psixikadaxili zehni proseslər – qavrayış, hafizə və s. ekzistensial şöbədə (sağ yarımkürədə). Sub-

yektivləşdirici, dərkedici, analitik ali psixikadaxili proseslər isə - şüur, nitq və s. koqnitiv şöbədə (sol yarımkürə) yerləşirlər. Deməli, Psixikanın formasını, iş strukturunu göstərən şəkil-sxem mürəkkəbləşdı **(Bax: Şəkil - 4).**

## Psixika




**Şəkil – 4. Psixika**

Psixika ilə qısa tanışlıqda bir az da qabağa gedərək "Psixika və yaşamaq" probleminə toxunaq. Psixikada yaşamaq məfhumu, insan kimi yaşamaq xüsusiyyətləri hazırlanır. Bu proseslər cox mürəkkəb məsələləri əhatə edir. Orada insanı yaşamağa təhrik edən instinktlər, meyillər və mübarizələr problemi vardır. Psixikada "mövcud

olmaq" və "yaşamaq" amillərini, onların müqayisəli xüsusiyyətlərini görmək mümkündür. Psixikada yaşamaq məfhumunun hazırlanması prosesini göstərən primitiv blok-sxemi sizə təqdim edirik (**Bax: Şəkil - 5**).




**Şəkil – 5. Psixika – yaşamaq** (primitiv).

Psixikada yaşamaq xüsusiyyətlərinin öyrənilməsi Psixikanın daxili fəaliyyətinin tədqiqində mühüm əhəmiyyət kəsb edir. Məntiqi nəticə baxımından yaşamaq amili Psixikanın mövcudluğunu təsdiqləyən yeganə amildir. Çünki yaşamaq Psixikanı, Psixika isə yaşamağı yara-

dan ilkin şərtlərdir. Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması problemləri bu hissənin (I hissə) sonuncu fəslində araşdırılır.

İndi isə gəlin Psixikanın insan orqanizmində yerləşdiyi məkanla, obyektiv şəraitlə tanış olaq. Beyin haqqında ümumi anlayışın verilməsi zəruridir. Bu sizə Psixikanı obyektiv şəkildə təsəvvür etməyə, anlamağa kömək edər.

**Beyin** sinirlərdən təşkil olmuş orqandır. Beynin iki böyük şöbəsi var. **Mərkəzi sinir sistemi (MSS) və periferik sinir sistemi.** Mərkəzi sinir sistemi kəllənin içərisində və onurğada yerləşən sinir strukturlarını əhatə edir. Baş beyin Mərkəzi sinir sisteminin ən böyük və əhəmiyyətli şöbəsidir. Mərkəzi sinir sisteminin ikinci böyük şöbəsi onurğa beynidir. Sinirlər mərkəzi sinir sisteminə daxil olur və oradan çıxır. Əgər bu sinirlər kəllədə və onurğada deyilsə, deməli, onlar periferik sinir sisteminə aiddir. Periferik sinir sisteminin bəzi hissələri mərkəzi sinir sistemindən daha çox ayrılmış şəkildə fəaliyyət göstərirlər. Həmin hissələr avtonom və vegetativ sinir sistemləridir.

Əlbəttə, beyində Psixika baxımından ən çox əhəmiyyətli görsənən mərkəzi sinir sistemi, xüsusilə də onun baş beyin hissəsidir. Ona görə baş beyin və onun şöbələri ilə ətraflı tanış olmalıyıq. Baş beyin üç böyük hissədən ibarətdir. Üc beyin, orta beyin, arxa beyin **(Bax: Şəkil 6).**



**Üc beyin (qara hissə)**



**Orta beyin (qara hissə)**



**Arxa beyin (qara hissə)**

**a)**




b)

**Şəkil – 6. Üc beyin (Telencephalon), orta beyin (Diencephalon), arxa beyin (Metencephalon).**

**Üc beyin (Telencephalon).** Psixikanın yerləşdiyi beyin məkanı. Üc beyin beyin yarımkürələrindən, onları bir-birinə bitişdirən döyənək cisimdən, beyin qabığından ibarətdir (Bax: Şəkil 1). Bundan əlavə, orada dörd kiçik strukturlar vardır. Bunlar mindalin, hippokamp, bazalnaya, qanqliya, və arakəsmədir. Üc beyin, xüsusilə də onun beyin qabığı neyronların işi və Psixikanın fəaliyyəti baxımından ən mühüm strukturdur. Üc beynin daxili kimyəvi tərkibinə gəldikdə isə onun beyin yarımkürələrinin daxili ağ maddədən, onların beyin qabığı isə boz maddədən təşkil olunmuşdur. Beyin qabığı həmişə nəzərləri cox cəlb edib. Beyin qabığının (Cortex cerebri) ümumi səthi 1500-1700 $sm^2$. Beyin qabığı əsas həyati funksiyaları

yerinə yetirir. Məsələn, artıq elmə məlumdur ki, insanın hərəki fəaliyyəti və nitqi (sol yarımkürə) beyin qabığından idarə olunur.

Beyin qabığı müxtəlif funksiyaları yerinə yetirən dörd paydan ibarətdir. **1. Alın payı.** Beyin qabığında mühüm funksional və əlaqələndirici prosesləri yerinə yetirir. **2. Gicgah payı.** Nitq proseslərini tənzimləyir. **3. Ənsə payı.** Görmə proseslərini tənzimləyir. **4. Təpə payı.** Sensor reaksiyaları və hərəki fəaliyyəti tənzimləyir **(Bax: Şəkil 7).**




**Şəkil – 7. Beyin qabığı payları:** Alın payı (Frontal lobe), Təpə payı (Parietal lobe), Ənsə payı (Occipital lobe), Gicgah payı (Temporal lobe).

Beyin qabığında bəzi funksional prosesləri yerinə yetirən müəyyən nahiyələr də müəyyənləşdirilib. Böyük rus fizioloqu İ.P.Pavlov

beyin qabığında vəzifəcə üstün və ümumi funksional nahiyələri ayırd etmişdir. Onlar aşağıdakılardır: hərəki nahiyə, görmə nahiyəsi, eşitmə nahiyəsi, qoxu nahiyəsi, dad nahiyəsi, praksiya vəzifəsinə aid hərəki nahiyə, stereoqnoziya vəzifəsinə aid hissi nahiyə.

Beyin qabığında nitqlə bağlı dörd nahiyə ayırd edilir. 1.Yazı nitqinin hərəki nahiyəsi. 2.Şifahi nitqin hərəki nahiyəsi. 3.Yazı işarələrinin görmə nahiyəsi. 4.Nitq siqnallarının eşitmə nahiyəsi.

Bundan əlavə, beyin qabığında "hərəki qabıq" və "sensor qabıq" ayırd edilir.

Artıq qeyd etdiyimiz kimi, beyin qabığı Psixikanın ən mühüm mövcudluq və fəaliyyət məkanıdır. Biz Psixikanın öyrənilməsində beyin qabığı haqqında tez-tez danışacağıq.

**Orta beyin (Mesensephalon).** Orta beynin əsas şöbələri **talamus** və **hipotalamusdur**. Bu şöbələr beyində mühüm ötürücü və idarəetmə funksiyalarına malikdirlər. Orta beyin orqanizmin mürəkkəb hərəkətlərini və emosional fəaliyyətini tənzimləyir. Məsələn, talamus insan orqanizmindən gələn bütün emosional informasiyaları beyin qabığına ötürməklə məşğul olur. Hipotalamus isə ürəyin fəaliyyətində neyrohumoral funksiyası ilə birbaşa iştirak edir. Orta beyin Psixika ilə də sıx əlaqədə olur. Xüsusilə də talamus informasiyaların ötürülməsində əvəzedilməz aktiv rola malikdir.

**Arxa beyin (Metencephalon).** Arxa beynin əsas hissələri **varolio körpüsü, uzunsov beyin, beyin kötüyü və beyincikdir.** Arxa beyin insan həyatı üçün vacib əhəmiyyət daşıyan tənəffüs proseslərinin və ürək ritmlərinin tənzimlənməsində mühüm rol oynayır. Xüsüsilə də, beyincik hərəki reaksiyaları bütün orqanizm üzrə tənzimləyir. Beyincik orqanizmin müvazinətini də tənzimləyərək əsasən onun bioloji funksiyalarına xidmət edir. Psixikaya informasiyaların ötürülməsi və qəbul edilməsi baxımından, arxa beyin də təbii olaraq fəal iştirak edir.

Beyində işləyən, onun mürəkkəb və nəhəng fəaliyyətini yaradan **neyronlardır (sinir hüceyrələri).** Beynin daxili strukturlarında 50 milyarda yaxın neyron fəaliyyət göstərir. Bunların 14 milyarda yaxını beyin qabığındadır. Bizi daha çox maraqlandıran da məhz, beyin qabığı neyronlarıdır. Orada neyronlar daha aktiv funksional işlərlə məşğul olurlar. Bu baxımdan, beyin qabığı coxdandır kı, insan-

ların maraq dairəsindədır. Beyin qabığındakı həyati proseslər nəticəsində biz insan kimi yaşayır və fəaliyyət göstəririk. Beyin qabığı bütün orqanizmdən və xarici aləmdən informasiyalar alır, onları işləyib hazırlayaraq fəaliyyət xüsusiyyətlərinə çevirir (bu proses Psixikanın əsas daxili fəaliyyət proseslərini əhatə edir). Bu işdə ona neyronların çıxıntılarından təşkil olunmuş bitişmə liflər sistemi kömək edir. Bu liflər sistemi üç formada olur **(Bax: şəkil - 8)**

1. **Xüsusi assosiatik liflər sistemi.** Bu cür liflər hər yarımkürənin müxtəlif nahiyələrini bir-birinə birləşdirir. Məlum birləşdirmə əlaqəsi ayrılıqda hər bir yarımkürə daxilində baş verir.
2. **Komissural liflər sistemi.** İki yarımkürənin müxtəlif nahiyələrini (döyənək cisim vasitəsilə) birləşdirir. Psixikanın daxili işində şöbələrin bir-biri ilə qarşılıqlı əlaqələri baxımından komissural liflər sistemi bizim üçün xüsusi əhəmiyyət kəsb edir.
3. **Proyeksion liflər sistemi.** Beyin qabığını beynin aşağı şöbələri ilə və onurğa beyni ilə birləşdirir. Proyeksion liflər iki yerə bölünür: afferent (qalxan) və efferent (enən). Psixikanın işi baxımından, informasiyaların ötürülməsində proyeksion liflər sistemi də əhəmiyyətə malikdir.




**Şəkil – 8. Sinir lifləri: xüsusi assosiatik (a), komissural (b) və proyeksion (v) liflər sistemi.**

Bəs görəsən, neyronlar öz aralarında necə rabitə yaradırlar? Neyron sinir hüceyrəsinin çıxıntıları və onların üc (hərəki və hissi) aparatlarından ibarətdir **(Bax: Şəkil 9)**. İlk növbədə neyronların işi bizə çox sadə görsənə bilər. Onlar tək işləmir. Onlar sinir impulsları törədir və həmin impulsları alır, digərlərinə ötürürlər. Neyronların quruluşu və ölçüləri kəskin fərqlənir. Məsələn, onların bəzilərinin diametri 4-6 mikron olduğu halda, beyin qabığındakı piramid hüceyrələrin ölçüləri isə 130 mikrona çatır. Neyronların formaları da müxtəlif olur. Beyin qabığı və beyincik neyronları çox mürəkkəb quruluşa malikdir. Əlbəttə, bu həmin orqanların funksiyaları ilə bağlıdır.




**a)**



b)

**Şəkil – 9. Neyron (Sinir hüceyrəsi)**

Neyronların çıxıntıları olur. Uzun çıxıntıya akson və ya neyrit, qısa çıxıntılara isə dendrit deyilir (Bax: Şəkil 8). Hər neyronun (sinir hüceyrəsinin) yalnız bir aksonu olur. Aksonun vəzifəsi mərkəzi sinir sistemini ucqar üzvləri olan əzələ, vəzi və s. ilə birləşdirmək və ya mərkəzi sinir sistemi daxilində impulsları, informasiyaları bir mərkəzdən digərinə nəql etməkdir. Dendritlər isə digər neyronlardan gələn impulsları qəbul edib neyronun cisminə ötürür. Deməli, dendritlər mərkəzi sinir sistemi hüceyrələri arasında əlaqə yaradır. Sinir hüceyrələrinin quruluşuna gəldikdə isə onu mərkəzi sinir sisteminin "en" kəsiyinə baxmaqla görmək olar. Orada fərqli iki təbəqə görünür. Boz və ağ maddə. Boz maddə sinir hüceyrələrindən və qismən onların çıxıntılarından, ağ maddə isə əsas etibarı ilə sinir çıxıntıları olan aksonlardan ibarətdir.

Neyronlar (sinir hüceyrələri) Psixika üçün gecə-gündüz işləyirlər. Xüsusilə də, Psixikanın şöbələrində yerləşən neyronlar daha aktivliyi ilə seçilir. Çünki burada psixi proseslər, insan zehni, nəhayət, Psixika formalaşır. Burada milyonlarla informasiyalar Psixikanın nəhəng daxili işində iştirak edir. Onlar şüur, nitq, hafizə, təfəkkür, təxəyyül və qavrayış kimi mürəkkəb proseslərin fəaliyyət

əsaslarını qoyaraq insan psixologiyasını yaradırlar. Psixika beynin bütün strukturları ilə sıx qarşılıqlı əlaqədə işləyir. Qeyd etdiyimiz kimi, Psixikanın əsas daxili işində isə onun şöbələri olan beyin yarımkürələri və döyənək cisim iştirak edir.

Psixikanın daxili işində Psixikanın şöbələri olan beyin yarımkürələrinin tərkibi nəzəri cəlb edir. Yarımkürələrin daxili tərkibi olan ağ maddə gələn və ötürülən informasiyaların işini təşkil edir. Bu informasiyalar beyin qabığına ötürülür və qəbul edilir. Yarımkürələrin beyin qabıqlarının daxili tərkibi isə boz maddədən təşkil olunub. Boz maddə daha aktiv və mürəkkəb işlə məşğul olur. Boz maddədə informasiyalar qəbul edilir, işlənib hazırlanır və yenidən orqanizmin fiziki və emosional fəaliyyətinin yaradılmasına sərf edilir. Şübhəsiz, bu işdə onlara sinir lifləri kömək edir.

Bir mühüm amili sizin nəzırinizə çatdırmaq istəyirik. İnsan orqanizminin sağ tərəfindən gələn bütün informasiyalar sol yarımkürəyə, sol tərəfindən gələn informasiyalar isə sağ yarımkürəyə daxil olur. Bu proses görmə, eşitmə və digər informasiya qəbuledici orqanlarda da belədir. Ümumiyyətlə, insan orqanizmi elə qurulub ki, baş vermiş hər hansı bir hadisə, reaksiya, təsir informasiya halında bütün baş beyinə və sonda beyin qabığna, Psixikaya gəlib çatır. Orqanizmin əsas orqanlarının mövcudluq strukturu da buna xidmət edir. Məsələn, görmə sinirlərinin beyin yarımkürələrinə getmə yolu buna misal ola bilər. Sol gözdən gələn sinirlərin yarısı sağ yarımkürəyə, yarısı isə elə sol yarımkürəyə gedir. Sağ yarımkürədən gələn sinirlərdə, həmçinin yarısı sol yarımkürəyə, yarısı isə elə sağ yarımkürəyə. Tanınmış amerikan neyrobioloqu və neyropsixoloqu **D.Hubelin "Göz, beyin, görmə"(1)(David H. Hubel. 1988. "Eye, Brain and Vision". By Scientific American Library.)** adlı kitabında verilmiş şəkildə də bunu açıq-aydın görmək mümkündür **(Bax: Д.Хьюбел. "Глаз, мозг, зрение". Москва. 1990, səh. 67)**.

Beləliklə, biz Psixikanın yerləşdiyi məkanla və orada olan digər orqanlarla qısa şəkildə tanış olduq. Beyin haqqında ümumi anlayış əldə etdik.

Deməli, Psixika iki beyin yarımkürələrindən və döyənək cisimdən ibarətdir. Ekzistensial şöbə (sağ yarımkürə) Psixika üçün mövcudluğu, əşyaları qavrayaraq primitiv hafizəyə çevirir. Koqnitiv şö-

bə isə (sol yarımkürə) mövcudluğu, ətraf aləmi, əşyaları dərketmə, subyektivləşdirmə xüsusiyyətlərinə malikdir. Yəni bu şöbənin köməyi ilə Psixikada ətraf aləm, əşyalar dərk olunur, subyektivləşir. Bu iki şöbə öz aralarında qarşılıqlı əlaqə zonası vasitəsilə (QƏZ) birgə işləyərək psixi prosesi yaradırlar. Psixikanın ümumi işi sadə formada bu prosesə əsaslanır.

Sağ yarımkürə tədqiqat tarixində cox sirli və müəmmalı yarımkürə olmuşdur. Təbii, məkanın və bütün dünyanın qavranılması ilə məşğul olan bir şöbənin müəmmalı mürəkkəb mahiyyəti hec kəsdə şübhə doğura bilməz. Sağ yarımkürə Psixikanın tədqiqi baxımından bizim də ciddi yanaşmamıza səbəb olmuşdu. Sonralar bu yarımkürə ilə yaxından tanışlıq bizim ciddi mülahizələrimizi təsdiq etdi.

Ekzistensial şöbə dünyanı, mövcudluğu qavrayaraq Psixikaya gətirir. Ekzistensial şöbə yalnız biz tərfindən öyrənilən "ekzistensial nitq"ə malikdir. Bu şöbənin daxilində qavrayışın, hafizənin nəhəng işi baş verir. Hafizənin fəaliyyəti nəticəsində ekzistensial şöbədə nəhəng informasiya ehtiyatı yaranır. Hafizə dünyanı, mövcudluğu Psixikada yaddaşa keçirərək qoruyub saxlayan bir strukturdur. Hafizənin fundamental əsasları ekzistensial şöbədədir. Lakin hafizə ümumi Psixika üçün işləyən, orada "gəzən" bir ali prosesdir.

Bütün dünyanı, mövcudluğu görmə qabiliyyətləri məhz, ekzistensial şöbənin funksiyaları ilə reallaşır. Bu baxımdan, ekzistensial şöbə psixi prosesin tərkib hissəsində dünyanı görmə və qavrama funksiyalarını yerinə yetirir. Ona görə də ekzistensial şöbə Psixika üçün "mövcud olmaq" və "mövcudluq" anlayışları deməkdir.

Şübhəsiz, dünyanı və oradakı əşyaları görməklə, qavramaqla, onun formasını mənimsəməklə iş bitmir. Dünyanı və oradakı əşyaları, insanları görməklə, qavramaqla, yanaşı onları anlamaq, dərk etmək lazımdır. Problemin bu tərəfi ilə Psixikada koqnitiv (subyektivləşdirici sol yarımkürə) şöbə məşğul olur. Sol yarımkürə (koqnitiv şöbə) tədqiqat tarixində elmlər sisteminə qismən məlum olan, müəmmaları az olan bir beyin orqanıdır. Bu yarımkürə müəyyən qədər öyrənilmişdir. Məsələn, elmə çoxdan məlumdur ki, nitq və danışmaq xüsusiyyətləri məhz, sol yarımkürədən (koqnitiv şöbədən) idarə olunur. Sonralar bu informasiya kliniki laborator tədqiqatlar tərəfindən də təsdiqləndi.

Koqnitiv şöbə Psixikada insan kimi yaşamaq üçün lazım olan analitik və subyektiv xüsusiyyətlərin yaranma funksiyalarını yerinə yetirir. Təkcə onu xatırlatmaq kifayətdir ki, orada şüur, nitq və təfəkkür kimi mühüm ali zehni proseslər işləyir. Psixikada **"Prezident"** vəzifəsini tutan şüur koqnitiv şöbədə yerləşir və onun "iqamətgahı, Prezident Aparatı" da orada fəaliyyət göstərir. Koqnitiv şöbə insanlara subyektivlik statusu verən bütün real imkanlara malikdir. Ünsiyyəti yaradan nitq və dil xüsusiyyətləri, bütün analitik və məntiqi fəaliyyət prosesləri burada yaranır və oradan idarə olunur. Deməli, koqnitiv şöbə psixi prosesin yaranmasında, onun tərkib hissəsində insan kimi yaşamaq xüsusiyyətlərini yaradan bir şöbədir. Koqnitiv şöbə zehni yaradan bir şöbədir. Bu baxımdan, Psixika üçün koqnitiv şöbə "dərk olunmaq", "subyekt olmaq, "insan kimi yaşamaq" deməkdir.

Psixi proses Psixikanın ümumi məhsuludur. Onun tərkib hissəsinə koqnitiv və ekzistensial şöbələrə gəlmiş, qarşılıqlı əlaqələrdə olmuş və sonra ümumi nəticə üçün işlənilmiş informasiyalar daxildir. Deməli, psixi proses hər iki şöbənin assimetriyasının nəticə məhsuludur. Bu assimetriyanı yaratmaqla 200 milyondan çox sinir hüceyrəsinə malik olan, çoxlu müəmmalı mülahizələrə səbəb olan döyənək cisim (qarşılıqlı əlaqə zonası) məşğul olur.

Öncə onu qeyd edək ki, primitiv bitişdirmə funksiyası döyənək cisim üçün çox zəif bir iş kimi nəzəri cəlb edir. Lakin beyni öyrənən elmlər sistemində döyənək cisim əsasən ən böyük bitişdirici kimi öyrənilib. Biz düşünürük ki, bu bəsit bitişdirmə deyildir. Məhz, ona görə Psixikanın öyrənilməsi baxımından döyənək cisim (QƏZ) bizim üçün başqa bir mahiyyət daşıyır. Psixika bu problemdə də bir çox şübhələrə son qoyacaq. İnsanın neyroanatomiyası üçün ali bitişdirici rolunu oynayan bu orqan, Psixika üçün ali əlaqələndirici, analitik və formal qarşılıqlı münasibətlər yaradan rolunda çıxış edəcək. Ancaq Psixika daxilində məlum olacaq ki, döyənək cismin mühüm funksiyaları hansılardır və o, daha hansı işlərlə məşğul ola bilir. Biz artıq döyənək cismə yeni fəaliyyət statusunda baxaraq, onu Psixikanın daxili orqanı kimi "qarşılıqlı əlaqə zonası" adlandırmışıq. Təbii, bu bəsit əlaqə deyildir. Bura dünyada analoqu olmayan iki işlək nəhəng şöbənin qarşılıqlı təsir zonasıdır. Qarşılıqlı əla-

qə zonası nəhəng iş strukturu daxilində, nəhənglərin qarşılıqlı təsirini, assimetriyasını yaradan nəhəng qarşılıqlı təsir sistemidir. Əlbəttə, bu cür nəhəng sistemin işi mürəkkəb və müəmmalı olmalıdır.

Yuxarıda Psixikanın daxili strukturu, yerləşdiyi məkanla, fəaliyyəti ilə qısa, primitiv şəkildə tanış oldunuz. İndi isə bu primitiv tanışlığı əsaslandırmaq üçün tarixi tədqiqat materiallarına, kliniki laborator ekspremenlərin nəticələrinə istinad edək. Sonra Psixika ilə tanışlığı daha mürəkkəb və geniş şəkildə davam etdirəcəyik. Psixikanı ətraflı şəkildə öyrənmək üçün bu ən real və məqsədəuyğun metodik yoldur.

## 2.2 PSİXİKA VƏ ƏSASLANDIRICI ELMİ NƏTİCƏLƏR

Beyin yarımkürələrinin təbiəti və onların ayrı-ayrılıqda fəliyyət funksiyaları haqqında məlumatlar XX əsrin ikinci yarısında ABŞ-da **"döyənək cisimləri kəsilib çıxarılmaqla iki ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar"**ın fundamental nəticələridir. Rus dilində bu tədqiqatlar **"Исследование расщепленного мозга"**, ingilis dilində isə **"Split Brain Operation"** və yaxud **"Split-Brain Research"** adlanır. Artıq qeyd etdiyimiz kimi, bu nəticələr bizə qismən əsaslandırıcı və təsdiqedici məlumatlar kimi lazımdır. Psixikanın öyrənilməsində məlum nəticələr böyük əhəmiyyət kəsb etdiyindən onlarla yaxından tanış olmalıyıq.

"Döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar" kliniki cərrahiyyə yolu ilə beyin yarımkürələri arasında yerləşən, onlar üçün ən böyük bitişdirici olan hüceyrə kütləsinin - döyənək cismin kəsilib götürülməsini nəzərdə tutur **(Bax: Şəkil - 10).**




**Şəkil – 10. Döyənək cismin kəsilməsi.**

Bu tədqiqatların məqsədi ayrı-ayrılıqda beyin yarımkürələrin funksiyalarını öyrənməkdir. Çünki ən böyük bitişdirici olan döyənək cisim kəsilib götürüldükdən sonra yarımkürələr arasındakı əlaqə olmur.

Əslində məlum kliniki əməliyyatların müalicəvi məqsədi ilk növbədə epilepsiya xəstəliyinin qarşısının alınmasına yönəlmişdi. Bu cərrahiyyə əməliyyatından epilepsiya reaksiyalarının bir yarımkürədən digər yarımkürəyə keçməməsi üçün bir müalicə metodu kimi istifadə ediləcəkdi. Əlbəttə, söhbət epilepsiya xəstəliyindən getsə də, o dövrə qədər tədqiqatçıları beyin yarımkürələri, onların assimetriyası və onların ayrılıqda fəaliyyət funksiyaları çox maraqlandırırdı. Xüsusilə də, döyənək cismin mahiyyəti sirr olaraq qalırdı. Ona görə də, fürsətdən istifadə etməli, epilepsiya xəstəliyinə qarşı mübarizə şüarı altında döyənək cismi kəsilib götürülmüş beynin yarımkürələrini, onların ayrılıqda özünəməxsus funksiyalarını və bu cür şəraitdə insan davranışını öyrənmək lazım idi. Necə deyərlər, ABŞ-ın tanınmış neyroloqları, neyrobioloqları və neyropsixoloqları fürsəti əldən vermədilər.

Çoxlu xəstələr üzərində məlum kliniki cərrahiyyə əməliyyatları aparıldı. Bu xəstələr çoxlu testlərlə və sorğularla yoxlanıldı. Mühüm olan bir çox məsələlərə aydınlıq gətirən elmi nailiyyətlər qazanıldı. Bəzi məlum informasiyalar isə bir daha təsdiq edildi. Məsələn, nitq və dil xüsusiyyətlərinin sol yarımkürəyə aid edilməsi faktı (M.Daks, Zona Broka, Zona Vernike). Artıq bu tədqiqatlardan sonra nitqin sol yarımkürədən (koqnitiv şöbədən) idarə olunmasına heç bir şübhə qalmadı.

"Döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar"ın tarixi təxminən keçən əsrin 40-cı illərindən başlayır. Tədqiqatlar çox riskli olduğundan ilk dəfə elə ABŞ-da 1940-cı ildə meymunlar üzərində aparılmışdır. Bu əməliyyatı insanlar üzərində ilk dəfə amerikalı neyroxirurq Uilyam Van Veqenen aparmışdır. Əməliyyatdan sonra nəticə almaq tədqiqatlarını isə Endryu Akelaitis yerinə yetirmişdir. Lakin onlar burada mühüm nəticələr əldə edə bilmədilər. Epilepsiya xəstəliyinin qarşısını almaq üçün də heç bir nailiyyət qazanılmadığına görə V.Veqenen tədqiqatları dayandırdı.

XX əsrin 60-cı illərindən sonra bu tədqiqatlara yeni yanaşma ilə bir çox alimlər mühüm nəticələr əldə etdilər. Beyin yarımkürələrinin özünəməxsus fəaliyyət funksiyaları haqqında yeni elmi nailiyyətlərə nail olundu. Döyənək cisimləri çıxarılmaqla beyin yarımkürələri bir-birindən ayrılmış xəstələr üzərində əsas testoloji və sorğu tədqiqatları aşağıdakı tarixlərdə aparılıb: (tarixlər ingilis dilində verilir, Neyroelmlər sistemindəki son elmi nailiyyətlər haqqında məlumatlar ancaq rus və ingilis dilli elmi ədəbiyyatlardadır) **Gazzaniga et. al 1965; Levy-Agresty, Sperry 1968; Levy et. al 1972; Gazzaniga, 1974; Sperry 1974; Levy, Trevarthen, 1976, 1977; Nebes, 1978; Sperry et. al 1979** və başqaları. Xatırladırıq ki, bu alimlərin bəziləri məlum elmi nailiyyətlərə görə tibb elmləri üzrə Nobel mükafatı alıblar.

İndi isə bu tədqiqatlar arasında ən nəzərə çarpanını sizə təqdim edirik. Bu tədqiqatı M.Qazzaniqa və R.Sperri aparıblar. Tədqiqat subyekti epilepsiyaya tutulmuş kolifomiyalı evdar qadın **N.C (N.Dg)-dir**. N.C-nin beyin yarimkürələrini bitişdirən döyənək cisim kəsilib çıxarılmışdır. Sonra isə müəyyən testlər və sorğular vasitəsilə onun davranış və qabiliyyətləri hər iki yarımkürəyə ayrı-ayrılıqda təsir etməklə yoxlanılmışdır. Deməli, beyin yarımkürələri (Psixikanın şöbələri) ayrı-ayrılıqda öyrənilir. Bu testlərdən biri ilə tanış olaq. Xatırladırıq ki, insan orqanizminin sinir sistemi elə qurulub ki, orqanizmin sol tərəfindən gələn informasiyalar sağ yarımkürəyə, sağ tərəfdən gələn informasiyalar isə sol yarımkürəyə ötürülür.

Beləliklə, N.C-nin üzərində aparılmış testlərdən biri:

**Xəstə N.C. ekranın qarşısında oturub, ekranın ortasında isə böyük bir qara nöqtə təsvir edilib. Ondan xahiş edirlər ki, düz bu nöqtəyə baxsın. Ekspremantator xəstənin bu nöqtəyə baxmasına tam əmin olduqdan sonra ekrandakı nöqtənin sağ tərəfində ani olaraq fincanın təsviri verilir və tezliklə təsvir itir. N.C. söyləyir ki, o, fincanı gördü. Ondan yenə də xahiş edirlər ki, diqqətlə ekrandakı nöqtəyə baxsın. Bu zaman isə nöqtənin sol tərəfində ani olaraq qaşıq təsviri verilir (Bax: Şəkil - 11). Xəstədən indi nə gördüyünü soruşurlar. O deyir: "heç nə". Bu vaxt ondan xahiş edirlər ki, o, sol əlini ekranın qabağına aparıb oradakı bir çox əşyaların arasından ekranda gördüyünü seçib**

götürsün. N.C-nin sol əli bu əşyaları yoxlayaraq oradan qaşığı seçir (əşyalara baxmadan). Ondan soruşurlar ki, əlindəki nədir, o cavab verir: "qələm".

Yenə də N.C-dən xahiş edirlər ki, diqqətlə ekrandakı nöqtəyə baxsın. Bu zaman nöqtənin sol tərəfində ani olaraq çılpaq qadın şəklinin təsviri verilir. N.C-nin sifəti qızarır. O, gülməyə başlayır. Ondan soruşurlar ki, nə gördü, cavab verir: "heç nə, sadəcə olaraq qızılcım". Sonra N.C. əlini ağzına apararaq yenə də gülür. Ekspremerıtator ondan soruşur "Bəs siz niyə gülürsünüz?". O cavab verir: "Oh, həkim, sizin çox qəribə ekranınız var"( С. Спрингер, Г. Дейч. "Левый мозг, правый мозг". М. 1983, səh. 37-38).



Şəkil – 11. Xüsusi test aparatı.

Göründüyü kimi, "Döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar" həmin vaxta qədər elmə məlum olmayan çox mühüm və qəribə nəticələr meydana çıxartdı. Aşağıda həmin elmi nailiyyətləri ümumiləşdirək.

İlk dəfə olaraq bu tədqiqatlarda kliniki cəhətdən təsdiq edildi ki, hər yarımkürə özünəməxsus iş funksiyalarına və fəaliyyət xüsusiyyətlərinə malikdir. Artıq yarımkürələr arasında çox ciddi fərqlər yaranmağa başladı. Bu da gələcəkdə yarımkürələrin assimetrik fəaliyyətlərinin öyrənilməsi üçün şərait yaratdı. Nəticələri bir az da ümumiləşdirsək, onda yarımkürələr üçün ümumi olan məfhumlar və xüsusiyyətlər sistemi meydana çıxır. Sol yarımkürə (koqnitiv şöbə) proseslərə, məkana, əşyalara münasibətdə analitikdir, məntiqidir və nitq, ünsiyyət xüsusiyyətlərinə malikdir. Sağ yarımkürə isə (ekzistensial şöbə) prosesləri, məkanı, əşyaları qavrama və görmə xüsusiyyətlərinə malikdir. Lakin yarımkürələr bir-birlərinin funksiyalarını ayrı-ayrılıqda bacarmırlar.

Siz hiss etdiniz ki, yuxarıda yarımkürələrin fərdi fəaliyyət xüsusiyyətləri ilə bağlı əldə olunmuş nəticələr, Psixikanın şöbələrinin iş funksiyaları ilə üst-üstə düşür. Düzdür, bu tədqiqatlarda yarimkürələrin birgə işini göstərən nəticələr sistemi əldə olunmadı. Tədqiqatçılar da buna nail ola bilmədilər. Amma bu yolda mühüm addımlar atıldı. Psixikanın öyrənilməsində bizi məhz, bu **birgə iş** və onun forması, xüsusiyyətlər sistemi maraqlandırır. Buna isə yalnız insan orqanizmində Psixikanın ətraflı tədqiqi ilə nail olmaq olar. Elə ona görə "Döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar"ın nəticələri bizim üçün mühüm təcrubi məlumatlardır. Gəlin baxaq beyin yarımkürələri haqqında daha nələr deyilir.

Neyroelmlər sistemindəki tədqiqtlar sürətlə inkişaf etsə də, hələlik beyin yarımkürələri haqqında irəli sürülən əsas fikirlər üst-üstə düşür. Yəni kliniki ekspredmentlərin nəticələrinə əsaslanan tədqiqatçılarla, bu nəticələrə əsaslanan, əsaslanmayan nəzəriyyəçi alimlərin beyin yarımkürələri barədə dedikləri məntiqi baxımdan eynidir. Artıq elmi ədəbiyyatlarda beyin yarımkürələrinin funksional xüsusiyyətlərini sistemləyiblər. Həmin xüsusiyyətləri və dixotomi-

yaları aşağıda sizə də təqdim edirik ( **Bax: C. Спрингер, Г. Дейч. "Левый мозг, правый мозг". M. 1983, səh. 204).**

| **Sol yarımkürə** | **Sağ yarımkürə** |
|---|---|
| **Verbal (şifahi)** | **Qyeri-verbal (qeyri-şifahi),** |
| **Ardıcıl, müvvəqqəti** | **Məkanı, əşyaları görən** |
| **Diskret**[1] | **Eyni vaxtlı, məkanı** |
| **Rasional**[2] | **Fasiləsiz** |
| **Qərb texnisizmi**[3] | **İntuitiv, intuisiyalı** |
| **Şərq mistisizmi**[4] | **Dixotomiyalar**[5] |
| **Sol yarımkürə** | **Sağ yarımkürə** |
| **İdrak, ağıl** | **İntuitiv, intuisiyalı** |
| **Konverqent**[6] | **Subyektiv, fərdi** |
| **İntellektual** | **Hissiyyatlı** |
| **Deduktiv**[7] | **Obrazlı, canlı** |
| **Rasional** | **Metaforik, məcazi** |
| **Vertikal (şaquli)** | **Qorizontal (üfüqi)** |
| **Diskret** | **Fasiləsiz** |
| **Absrakt (mücərrəd)** | **Konkret** |
| **Realist (praktiki)** | **İmpulsiv (qeyri-iradi)** |
| **İdarə olunan** | **Azad, müstəqil** |
| **Diferensial**[8] | **Ekzistensional**[9] |
| **Tarixi** | **Vaxtsız (zaman xaricində)** |
| **Analitik (təhliledici)** | **Xolistik**[10] |
| **Açıq (açıq-aşkar)** | **Fərz edilən** |
| **Obyektiv** | **Diverqent**[11] |
| **Ardıcıl** | **Eyni vaxtlı** |

1. **Diskret** – öz bildiyi kimi hərəkət edən, davranan.
2. **Rasional** – səmərəlilik, ağla müvafiq olma.
3. **Texnisizm** – elmi-texniki tərəqqiyə və texniki proseslərə daha çox meyillilik.
4. **Mistisizm** – mistik, anlaşılmaz, sirli.
5. **Dixotomiya** – ikiyəbölünmə, ardıcıl surətdə ikiyəbölünmə.

6. **Konvergent** – bənzəyən, uyğunlaşan, birləşən, eyniləşən.
7. **Deduktiv** – fikirləşmədə ümumidən xüsusiyə getmə.
8. **Diferensial** - əsasən riyazi anlamdır - ayrılmış, fərqləndirilmiş mənasını verir.
9. **Diverqent** – inkişaf prosesində əlamətlərin bir-birindən fərqlənməsi.
10. **Ekzistensional** – ekzistensial, mövcudluq, mövcudolma.
11. **Xolistik** – xolistik, "yağlı boyalarla çəkilmiş şəkil" mənasını verir.

Yuxarıdakı "Qərb texnisizmi" ("Западный техницизм") və "Şərq mistisizmi" ("Восточный мистицизм") mülahizələri 1970-ci ildə R.Ornsteynin "Şüurun psixologiyası" ("Психология сознания") kitabında irəli sürülmüşdür. ( **Bax: С. Спрингер, Г. Дейч. "Левый мозг, правый мозг". М. 1983, səh. 206**). O, mistik, fantastik görsənən şərqi müəmmalı, sirli mahiyyətə malik sağ yarımkürə ilə, texniki və sosial inkişafa malik qərbi isə analitik, qismən aydın funksiyalı sol yarımkürə ilə eyniləşdirir. Gələcək fəsillərdə bu yanaşmaya öz xüsusi fərdi münasibətimizi bildirəcəyik.

Beyin yarımkürələrini əhatə edən yuxarıda nəzərdən keçirdiyimiz xüsusiyyətlər və dixotomiyalar sisitemi də bizim Psixika ilə bağlı irəli sürdüyümüz elmi yanaşmanı təsdiqləyir və əsaslandırır.

## 2.3 PSİXİKANIN MÖVCUDLUĞU XÜSUSİYYƏTLƏRİ

Psixika ilə daha mürəkkəb şəkildə tanışlığımızı davam etdirərək onun və şöbələrinin mövcudluq xüsusiyyətlərini təhlil edək.

Niyə Psixika üç şöbədən ibarətdir? Şöbələr arasında hansı köklü fərqlər var? Bu şöbələr Psixikada qarşılıqlı şəkildə işləmək üçün hansı imkanlara malikdirlər?

Psixika ilk növbədə şöbələrin qəbul etdiyi informasiyaların işlənilməsi, bu informasiyalarla bağlı birgə qarşılıqlı əlaqə nəticəsində meydana çıxan ümumi məhsulun – psixi prosesin yaranması üçün işləyir. Şöbələr Psixika üçün lazım olan bütün informasiya

ehtiyatlarına və fərdi fəaliyyət funksiyalarına malikdirlər. Yəni şöbələri fərqləndirmək və müqayisə etmək artıq mümkündür.

Elmi-ictimai fikirdə yarımkürələrin (Psixikanın şöbələrinin) ayrı-ayrılıqda hegemon fəaliyyətləri ilə bağlı mülahizələr mövcuddur. Guya yarımkürələrə uyğun olaraq iki beyin və iki şüur var. Əlbəttə, bu çox səhv yanaşmadır. Bir orqanizm, bir beyin, bir əsəb sistemi iki müxtəlif orqanlarla işləyə bilməz. Orqanizm, əsəb sistemi yalnız bir mənbəyə informasiyalar ötürə bilər və oradan qəbul edə bilər. Bir insan bir beyinə və bir Psixikaya malik ola bilər. Çünki burada yalnız bir idarəetmə mərkəzi ola bilər. Əgər iki yarımkürə iki şüura, iki dərketmə üsuluna malik olsaydı, onda bizim sağ əlimiz başqa işlə, sol əlimiz isə digər bir işlə məşğul olardı. Gözlərimizin biri o tərəfə, digəri isə bu tərəfə baxardı. Təbii heç bir yarımkürə ayrı-ayrılıqda informasiyaları tam işləyə bilmir. Tam işləmə prinsipi yalnız Psixikaya məxsusdur. Yarımkürələr (Psixikanın şöbələri) fərdi funksiyaları ilə qarşılıqlı əlaqədə olaraq ümumi işi yaradırlar. Bir beyin, bir Psixika, bir orqanizm vardır. Psixikada məhz, yeganə iş strukturuna malik yeganə idarəetmə mərkəzidir.

Psixikanın mövcudluq xüsusiyyətləri dünyanın və insanın mövcudluq xüsusiyyələrinə, inkişaf qanunauyğunluqlarına əsaslanır. Bu qanunauyğunluqlar və təbii proseslər sistemi Psixikada öz əksini tapır və onlar Psixikanın özünü də formalaşdırırlar. Bu baxımdan, ümumi fəlsəfi yanaşma da Psixika üçün realdır. Mövcud olmaq (ekzistensial şöbə), dərk edilmək, subyektivləşmək (koqnitiv şöbə) və nəhayət, insan kimi yaşamaq xüsusiyyətləri Psixikada gercəkləşir. Əlbəttə, biz Psixikanın işini çox sadə formada təsəvvür edirik. Əslində isə, psixikadaxili işi təsəvvürə gətirmək, onun nəhəng iş intensivliyini dünyada nə ilə isə müqayisə etmək, Psixika neyronlarının universal fəaliyyətinə bərabər aparat, kompyuter düzəltmək sadəcə olaraq qeyri-mümkündür və ağlasığmazdır. Bu amili daim diqqət mərkəzində saxlamaq lazımdır.

Psixika şöbələrinin fərdi fəaliyyət xüsusiyyətləri elə bizim hər birimizin gündəlik həyat fəaliyyətini əks etdirir. Beynimizin yarımkürələri, onları bitişdirən döyənək cisim Psixika ilə bağlı olaraq indi bizim üçün yeni mahiyyət və fəaliyyət mənası kəsb etməyə baş-

layır. Məsələn, bizə məlumdur ki, aktiv işləyən, düşünən yarımkürə məhz, sol yarımkürədir (koqnitiv şöbədir). Fikirləşəndə də əksər hallarda sol əlimizi başımızın sol tərəfinin (sol yarımkürənin) üstünə qoyuruq. Elə bil sol əlimizlə, başımızın sol tərəfi ilə fikirləşirik. "İlhama gəlmək" halında, yaradıcılıq fəaliyyətində də bu vəziyyətdə oluruq. Bəli, deməmişkən məişətdə görüb əhəmiyyət vermədiyimiz bu sadəliklərin mənası varmış. Deməli, biz düzgün olaraq sol yarımkürəni (koqnitiv şöbəni) düşünən, analitik aktiv yarımkürə kimi qəbul etmişik. Əksinə sağ yarımkürə haqqında çox məlumatımız olmayıb. Sağ yarımkürəyə (ekzistensial şöbəyə) informasiya ötürən, ona uyğun özünü aparan sol əl, düşünməkdə, qərar çıxarmaqda sağa yox, sol yarımkürəyə kömək edir. Burada da yanılmırıq. Çünki, sağ yarımkürə real informasiya gücünə və ehtiyatlarına malikdir. Orada qavranılan və primitiv yaddaşa çevrilən dünya, oradakı əşyalar haqqında nəhəng informasiya ehiyatları var. Sağ yarımkürədə (ekzistensial şöbədə) **daxili ekzistensial nitq** adlanan formal informasiya nitqi yerləşir. **Ekzistensial nitq** qavrayış və hafizə üçün informasiya qoruyucusudur. Yəni avranılan, primitiv yaddaşa keçən informasiyaları ekzistensial nitq yaşadır, onları Psixikanın və ümumi insan nitqinin işi üçün sərf edir.

Psixika şöbələrinin daxilində yerləşən ali psixikadaxili proseslər də özünəməxsus funksiyaları ilə ümumi işə xidmət edirlər. Məsələn, şüur, nitq və təfəkkürün bir şöbədə yerləşməsi təsadüfi deyil. Onlar çox yaxın iş prinsiplərinə malikdirlər. Təbii, onların ayrılıqda fəaliyyəti qeyri-mümkündür. Onlar tərkib hissəli proseslərdir. Təxəyyül onlardan fərqlənir. Bildiyimiz kimi, o Psixikada yaradıcılıq fəaliyyətinin əsaslarını yaradır. Lakin onun da fəaliyyətinin fundamental əsasları koqnitiv şöbədə - şüurun, nitqin və təfəkkürün yanındadır. Ona görə də təxəyyülün də koqnitiv şöbədə yerləşməsi zəruridir. Amma unutmaq olmaz ki, təxəyyül proseslərində ekzistensial şöbənin informasiya ehtiyatlarından çox geniş şəkildə istifadə olunur. Məsələn, aparılmış tədqiqatlar sübut etmişdir ki, rəssamlar hüquqşünaslara nisbətən daha çox sağ yarımkürədən (ekzistensial şöbədən) istifadə edirlər (**Bax: С. Спрингер, Г. Дейч. "Левый мозг, правый мозг". M. 1983, səh. 209-210**). Bunu anla-

maq mümkündür. Çünki rəssamlar dünyanı, reallığı təsvir etməklə məşğul olan yaradıcı təxəyyül sahibləridirlər. Dünyanı, mövcudluğu təsvir etməklə məşğul olduqları üçün hüquqşünaslara nisbətən onların sağ yarımkürələri (ekzistensial şöbələri) hiss olunan səviyyədə daha aktiv işləyir.

Hafizənin, qavrayışın ekzistensial şöbədə bir yerdə olmaları da təbiidir. Burada **"diqqət"** və **"duyğu"** problemi vardır. Heç də fikirləşməyin ki, bu proseslər diqqətimizdən kənarda qalaraq unudulub. Sadəcə olaraq, Psixikanın tədqiqi baxımından biz daha mürəkkəb, işlək proseslər sistemini ümumi şəkildə örəndiyimiz üçün bu **"primitiv psixofizioloji reaksiya proseslərinə"** çox da diqqət yetirmirik. Diqqət və duyğu Psixikanın, orqanizmin impulsiv reaksiyalarıdır. Şübhəsiz, onlar ilkin həlledici raksiyalardır. Yalnız bu reaksiyalardan sonra ekzistensial şöbədə qavrayışın, hafizənin işi başlayır. Ümumiyyətlə, bu raksiyalardan sonra Psixika daxilində ilkin əsas işi qavrayış başlayır. Bu daha çox əksetdirmə funksiyasına malik psixofizioloji mahiyyət daşıyır. Sonra isə daha mürəkkəb proses olan hafizə və yaddaş strukturlarının fəaliyyəti başlayır. Əgər qavrayış ekzistensial şöbə vasitəsilə dünyanı Psixikaya gətirirsə, hafizə isə dünyanı orada qoruyub saxlayan, yaddaşa keçirən ali prosesdir.

Tez-tez ilkin primitiv hafizənin ekzistensial şöbədən başlanmasını qeyd edirik. Bu təbiidir. Çünki hafizə ümumi Psixikaya daxil olmayıbsa, şüur, nitq, təfəkkür və təxəyyüllə birgə işləməyibsə deməli, o, hələlik primitiv informasiyalar sistemi kimi mövcuddur. Hafizə bütün Psixikaya daxil olduqca bu primitivlik aradan qalaxaraq mürəkkəbləşməyə və subyektivləşməyə başlayır. Nəticədə hafizə Psixikanın əsas ümumi məhsulu olan psixi prosesin yaranmasında mühüm rollardan birini oynayır. Hafizənin "evi" isə ekzistensial şöbədədir. Hafizə Psixika üçün işləyən ən geniş inteqrasiya imkanlarına malik psixikadaxili prosesdir. Hafizənin əməyi nəticəsində dünya, mövcudluq informasiya şəklində Psixikada qorunub saxlanılır. Bundan əlavə, hafizə psixikadaxili proseslərdə informasiyaları da orada qoruyub saxlayır. İnformasiyalar Psixikada işlənildikdən sonra onlar və bu prosesdə yaranan digər informasiyalar hafizə vasitəsilə elə Psixikada - ekzistensial şöbənin informasiya ehtiyatlarında saxlanılırlar.

Qeyd etdiyimiz kimi, qarşılıqlı əlaqə zonası (QƏZ) şöbələrin bütün hissələrini bir-birilə əlaqələndirir. Qarşılıqlı əlaqə zonası tədqiqatçıların da, bizim də diqqətimizi cəlb edən bir struktur idi. İndi məlum olur ki, bu qeyri-adi bitişmə məhz, Psixikaya lazım imiş. Qarşılıqlı əlaqə zonası Psixika üçün çox mühüm və mürəkkəb işlə məşğul olur. Bu mürəkkəbliyi yaradan amillər var. Məsələn, QƏZ Psixikanın nəhəng işini formalaşdıran bütün növ informasiyalarla işləyir. Məlum informasiyalar vasitəsilə şöbələrin bütün nahiyələrini əlaqələndirir. Deməli, QƏZ Psixikanın bütün informasiyalarını tanıyır. QƏZ Psixikada dünyanı qavramaqla (ekzistensial şöbə ilə) dərketmənin (koqnitiv şöbənin) təbii birgə işini Psixikada yaradır.

İndi isə Psixikanın şöbələrinin özünəməxsus iş xüsusiyyətlərini və fərqli funksiyalarını təhlil edən tədqiqat materiallarına diqqət yetirək. Onları Psixikanın mövcudluq xüsusiyyətləri ilə müqayisə edək.

Yenə də köməyə "Döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar" gəlir. Çünki bu tədqiqatlarda istifadə olunan sorğular, testlər müxtəlif olmuşdur. Onların bəziləri nitqi, ünsiyyət xüsusiyyətlərini, bəziləri görmə proseslərini, digərləri isə anlama və məntiqi funksiyaları öyrənməyə imkan vermişdi. Bu nəticələr Psixikanın öyrənilməsində bizə kömək edən yeganə elmi istinad mənbəsidir.

Yarımkürələrin (Psixikanın şöbələrinin) nitq və ünsiyyət xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı aparılmış testlərlə başlayaq. Biz artıq bilirik ki, nitq və ünsiyyət xüsusiyyətləri koqnitiv şöbədə yaranır və oradan idarə olunur. Testlərdə bunu sübut etdi. Döyənək cisimləri kəsilib çıxarılmış xəstələrin sağ yarımkürələri (Psixikalarının koqnitiv şöbələri) ekranda yazılmış sadə isimləri tanıyır və onları müxtəlif əşyaların içindən axtarıb tapır. İsimlərdən başqa heç nə tanımır, məsələn, felləri ümumiyyətlə, tanımır. "Gülmək" sözünü, felini sol yarımkürə (koqnitiv şöbə) anladığı halda, sağ yarımkürə (ekzistensial şöbə) isə onu qəbul etmir **(Bax: С. Спрингер, Г. Дейч. "Левый мозг, правый мозг". М. 1983, səh. 47)**. Psixika şöbələrinin fəaliyyəti baxımından nəzərdən keçirdiyimiz testin nəticələrini qanunauyğun və düzgün saymaq olar. Sadə isimlərin ekzistensial şöbə (sağ yarımkürə) tərəfindən tanınması, qəbul edilməsi bu şöbənin fəaliyyət xüsusiyyətləri ilə

əlaqədardır. Sadə isimləri tanıyaraq müxtəlif əşyalar içərisindən onları tapması ekzistensial şöbənin (sağ yarımkürənin) dünyanı, əşyaları qavraması, primitiv hafizəyə keçirməsi fəaliyyətinin adi nəticəsidir. Ekzistensial şöbə (sağ yarımkürə) dərk etmək kimi məntiqi subyektiv xüsusiyyətlərə malik deyil. Əksinə, koqnitiv şöbə (sol yarımkürə) hətta mürəkkəb felləri belə tanıyır. Bu da onun analitik və dərketmə kimi subyektiv fəaliyyət xüsusiyyətləri ilə bağlıdır.

İndi də məkanı görmə və qavrama xüsusiyyətlərini öyrənən testləri nəzərdən keçirək. Burada çox sadə bir tədqiqat bizə kömək edəcək (**Bax: С. Спрингер, Г. Дейч. "Левый мозг, правый мозг". M. 1983, səh. 55**). Bundan əlavə, **şəkil - 12-yə** bax. Bu şəkildən sizlərə çox şeylər aydın olur. Orada döyənək cismi kəsilməmişdən qabaq xəstənin sağ və sol əllərinin çəkdiyi fiqur şəkillər və döyənək cismi kəsilib çıxarılandan sonra onun sağ və sol əllərinin çəkdiyi fiqur şəkilləri təsvir edilmişdir. Şəkildən göründüyü kimi, yarımkürələri iki yerə bölünmüş xəstənin sol əli bu işi sağ ələ nisbətən zəif bacarır. Psixikanın tədqiqi baxımından bu bizim üçün qəbul olunandır. Şübhəsiz, ekzistensial şöbə (sağ yarımkürə) sol əl bu işi ayrılıqda daha yaxşı bacarmalıdıdr. Çünki ekzistensial şöbə (sağ yarımkürə) dünyanı, oradakı mövcud əşyaları qavramaqla məşğuldur. Koqnitiv şöbə (sol yarımkürə) sağ əl isə bu işi ayrılıqda pis yerinə yetirdi. Çünki koqnitiv şöbə (sol yarımkürə) bibaşa dünyanı, əşyaları qavramaqla məşğul deyil. Fiqurların şəkillərini çəkməkdə şübhəsiz, ona şüur, təfəkkür, dərketmə xüsusiyyətləri kömək edə bilməz. Bu test bir daha sübut edir ki, ilkin qavrayış və hafizə prosesləri məhz, Psixikanın ekzistensial şöbəsindədir.

| | Sol əl | Sağ əl |
|---|---|---|
| Əməliyyatdan əvvəl |  |  |
| Əməliyyatdan sonra |  |  |

**Şəkil – 12. Əməliyyatdan əvvəl və sonrakı fərqlər.**

İndi də tədqiqat testlərində Psixika şöbələrinin mürəkkəb funksiyalarına, məntiqi dərketmə xüsusiyyətlərinə diqqət yetirək. Burada nəzəri cəlb edən kolifomiyalı evdar qadın N.C.-nin üzərində aparılmış test yoxlamalarıdır. Qadının iki yerə bölünmüş beyin yarımkürələri üzərində aparılmış testlər çox qəribə nəticələr vermişdir. Bu testlərdən birini sizə olduğu kimi təqdim etmişik. Yenə də həmin test nəticələrini təhlil edəcəyik.

Burada sol yarımkürə (koqnitiv şöbə) fincanı görüb ona şifahi nitq vasitəsilə "fincan" deyir, lakin onu çəkə və göstərə bilmir. Sağ yarımkürə (ekzistensial şöbə) isə fincanı görüb qavrasa da, çəksə də ona "fincan" sözünü deyə bilmir. Bu nəticələr Psixika şöbələrinin bizə artıq məlum olan özünəməxsus funksiyalarını əks etdirir.

Sonra isə sağ yarımkürəyə (ekzistensial şöbəyə) ekranda "çılpaq qadın" şəkli göstərilir. Bu zaman qadının üzü qızarır və o gülür. Soruşanda ki, nə olub? Deyir: "Oh, həkim sizin çox qəribə ekranınız var". Artıq burada bizim üçün Psixika şöbələrinin işi ilə bağlı daha ciddi məsələlər meydana çıxır. Qadının sağ yarımkürəsinin (ekzistensial şöbəsinin) "çılpaq qadın"a reaksiyasının təhlili Psixika şöbələrinin (yarımkürələrin) mühüm bir funksional xüsusiyyətini müəyyənləşdirməyə kömək etdi. Aşağıda bu xüsusiyyəti aydınlaşdırmağa çalışaq.

Məlum olur ki, koqnitiv şöbəni (sol yarımkürəni) analitik, subyektiv dərketmə fəaliyyətinə təhrik edən ilk növbədə onun nitq və

ünsiyyət xüsusiyyətləridir. Burada qəribə heç nə yoxdur. Lakin qəribəsi odur ki, yarımkürələrin (Psixika şöbələrinin) ayrılmasına, ümumi işin pozulmasına baxmayaraq koqnitiv şöbə (sol yarımkürə) qavrama, məkanı görmə xüsusiyyətlərinə malik olmadığı halda fincana şifahi nitq vasitəsilə "fincan" deyə bildi. Bu birbaşa şöbələrin yaddaşda qalan informasiya ehtiyatları və hafizəli təcrübəyə malik olmaları ilə əlaqədardır. Deməli, koqnitiv şöbə (sol yarımkürə) fincan formasını qavraya bilmir, lakin öz informasiya ehtiyatlarından istifadə edərək ona "fincan" deyir. "Fincan" sözü qadının sol yarımkürəsindəki şifahi nitqlə əlaqədar qorunan informasiya ehtiyatlarında söz səsi kimi saxlanılır. Yəni "fincan" sözü koqnitiv şöbə (sol yarımkürə) üçün yalnız informasiya ehtiyatlarında saxlanılan **söz səsi** kimi şifahi nitqə gətirilir (nitqin informasiya strukturu və ehtiyatları haqqında "Koqnitiv şöbə" hissəsində ətraflı danışılacaq). Əksinə ekzistensial şöbə (sağ yarımkürə) fincanı tanısa da ona şifahi nitqlə "fincan" deyə bilmir. Çünki ekzistensial şöbə (sağ yarımkürə) nitq funksiyasına, söz və səslər ehtiyatlarına malik deyil. Lakin sol əl (ekzistensial şöbə, sağ yarımkürə) fincanı tanıyaraq onun şəklini çəkə bilir. Elə bu qeyd etdiyimiz, daxili ekzistensial nitqdir (buna daxili məkan nitqi də demək olar). Bu baxımdan, ekzistensial şöbə (sağ yarımkürə) isə ekzistensial nitqlə və məkanı formal şəkildə görmə ilə əlaqədar informasiya ehtiyatlarına malikdir.

Yuxarıda aydınlaşdırdığımız "fincan" problemindən sonra koliforniyalı qadının sağ yarımkürəsinin (eksiztensial şöbəsinin) "çılpaq qadın"a reaksiyasını təhlil edə bilərik. Qadının sağ yarımkürəsi (eksiztensial şöbəsi) gördüyünü şifahi nitqində səsləndirə bilmir. Bu zaman gülür, hətta sifəti buna reaksiya verərək qızarır. Bu o deməkdir ki, qadının sağ yarımkürəsi (eksiztensial şöbəsi) şəkli formal şəkildə görərək qavrayıb. Sadəcə olaraq, onun Psixikasının bu şöbəsi (eksiztensial şöbəsi) nitq və ünsiyyət xüsusiyyətlərinə malik olmadığına görə o, bu mənzərəni şifahi nitqə gətirib səsləndirə bilmədi. Lakin qadın güldü və buna məntiqi analitik reaksiya verdi. Hansı ki, bu analitik xüsusiyyətlərə onun Psixikasının sağ yarımkürəsi (eksiztensial şöbəsi) malik deyil. Lakin burada alınan məntiqi nəticə var: deməli, qadın Psixikasının sağ yarımkürəsinin (eksiztensial şöbəsinin)

analitik "sifəti qızarma" reaksiyası verməsi sağ yarımkürənin (eksiztensial şöbənin) məhz, qismən subyektiv anlama xüsusiyyətlərinə malik olması ilə birbaşa əlaqəlidir. Bəli, bu primitiv subyektiv anlama xüsusiyyətləri sağ yarımkürənin (eksiztensial şöbənin) mürəkkəb informasiya ehtiyatlarında olur. Bu, Psixika daxilində şöbələrin çox geniş və mürəkkəb qarşılıqlı əlaqəsindən yaranan təbii proseslərin nəticə məhsuludur. Yəni şöbələr fasiləsiz, aktiv qarşılıqlı əlaqədə olduqlarından bir-birlərinin bəzi funksiyalarını qismən mənimsəyirlər. Məlum mənimsəmə materialları Psixika şöbələrinin hafizəli informasiya ehtiyatlarında primitiv reaksiya formasında saxlanılır.

Qadının sağ yarımkürəsinin (eksiztensial şöbəsinin) şəkili görüb gülməklə, sifəti qızarmaqla reaksiya verməsi də məhz, eksiztensial şöbənin koqnitiv şöbədən (sol yarımkürədən) mənimsədiyi və öz informasiya ehtiyatlarında qoruyub saxladığı cüzi subyektiv anlama xüsusiyyətidir. Özü də bu mənimsəmə informasiyası ekzistensial nitqdədir. Şübhəsiz, "gülmək", "sifəti qızarma" eksiztensial şöbədə yerləşən daxili ekzistensial nitqin reaksiyaları idi. Qadın yaranmış şəraitdə bu primitiv reaksiyalardan başqa heç nə bacarmır. Çünki onun Psixikasının eksiztensial şöbəsi şüura, şifahi ünsiyyət xüsusiyyətlərinə malik deyil.

Əksinə koqnitiv şöbə (sol yarımkürə) də ekzistensial şöbənin (sağ yarımkürənin) müəyyən funksional xüsusiyyətlərini qismən bacarır. Məsələn, ayrılıqda sol əl (ekzistensial şöbə, sağ yarımkürə) fiqur şəkilini sağ əldən (koqnitiv şöbə, sol yarımkürə) yaxşı çəkir. Lakin bu o demək deyildir ki, ayrılıqda sağ əl (koqnitiv şöbə, sol yarımkürə) ümumiyyətlə, şəkil çəkə bilmir. O, da sol əlin (ekzistensial şöbə, sağ yarımkürə) bu işini qismən bacarır. Məlum oldu ki, Psixika şöbələri bir-birlərinin fuksiyalarını primitiv formada qismən bacarırlar, bu da onların nisbi və universal fəaliyyət xüsusiyyətlərini yaradır.

Yuxarıdakı müqayisəli təhlil göstərdi ki, bütün Psixika **hafizəli təcrübəyə** malikdir. Şöbələr öz fəaliyyət funksiyalarına uyğun olaraq bu təcrubi ehtiyatları qazanırlar. Yəni psixi proses yaranandan sonra psixi prosesla yanaşı bu prosesla bağlı meydana çıxan informasiyalar da Psixikanın ümumi məhsuluna çevrilirlər. Məsələn, ekzistensial şöbənin xarici formaya görə dünyanı, əşyaları seçməsi onun Psixikada qazandığı təcrübəyə əsaslanır. Əksinə, koqnitiv şö-

bə Psixikada qazandığı təcrübəsinə əsaslanaraq əşyaları, mövcudluğu anlayıb dərk edə bilir.

Psixika ümumilikdə koqnitiv-subyektiv və formal-ekzistensial hafizəli təcrübi ehtiyatlara malikdir. Psixikadaxili proseslərdə, psixi proseslərin yaranmasında bu təcrübi ehtiyatlardan istifadə olunur. Hər an Psixika öz fasiləsiz daimi fəaliyyəti nəticəsində təcrübi və informasiya ehtiyatlarını inkişaf etdirir, zənginləşdirir. Təbii ki bu proseslərdə hafizə əsas rol oynayır. Ona görə hafizə bizim üçün şüur və nitq qədər mürəkkəb və geniş bir problemdir.

Psixikanın təcrübəli hafizəyə və təcrübəli informasiya ehtiyatlarına malik olması onun mövcudluq xüsusiyyətlərindən biridir.

Psixika haqqında ümumi yanaşmamıza uyğun olaraq indi də Psixikanın şöbələri ilə yaxından tanış olaq. Sonra isə Psixikanın ən mürəkkəb daxili işi olan psixi proseslərin yaranmasını öyrənəcəyik.

# 3. PSİXİKANIN ŞÖBƏLƏRİ

## 3.1 EKZISTENSIAL ŞÖBƏ (SAĞ YARIMKÜRƏ)

Niyə bu şöbə "ekzistensial şöbə" adlanır? Sağ yarımkürə dünyanı, mövcudluğu görmə və qavrama xüsusiyyətlərinə malikdir. Yəni bu şöbə dünyada "mövcud olan"ı formal şəkildə Psixikaya gətirir. Onun üçün də bu şöbə (Sağ yarımkürə) "ekzistensial şöbə" ("ekzist" mövcudluq, mövcud olmaq deməkdir) adlandırıldı. Bu şöbəni qapalı və mistik şöbə kimi qəbul etmək mümkündür.

İnsanlar üçün bu şöbə xüsusi mahiyyət daşımalıdır. Çünki hər bir insan dünyaya gəldikdən sonra onun Psixikasının ilkin fəaliyyəti ekzistensial şöbədən başlayır. Bu, təbii prosesdir. Uşaq doğulan kimi ətraf aləmi, əşyaları, hətta anasını belə mövcudluq formaları şəklində qavramağa başlayır. Ekzistensial şöbənin ilkin dominant fəaliyyəti Psixikanın aktiv formalaşmasına xidmət edir. İlk dəfə olaraq insan Psixikasında "dünya" formal olaraq öz primitiv əksini tapır. Sonradan bu primitivlik Psixikaya yayılaraq aşınır, dərk edilir və subyektivləşir. Ekzistensial şöbə çox müəmmalı və sirli şöbə olduğundan, müasir Neyroelmlər sistemində bu yarımkürəyə aid tədqiqat nəticələri az olduğundan koqnitiv şöbəyə nisbətən ona daha ətraflı şəkildə yanaşacağıq.

Ekzistensial şöbədə (sağ yarımkürənin beyin qabığında) hafizə, qavrayış, ekzistensial nitq (bu nitq "daxili məkan nitqi kimi" də adlandırıla bılər), digər aşkar və hələlik bizə bəlli olmayan qeyri-aşkar ekzistensial proseslər yerləşir. Bundan əlavə, ekzistensial şöbə qeyri-subyektiv fundamental ruhi proseslərlə əlaqə yaratmaq imkanlarına malikdir (Bax: Şəkil 4).

Qeyd etdiyimiz kimi, ekzistensial şöbədə zəngin informasiya ehtiyatları da var. Qavrayış və hafizə ekzistensial şöbədə dünyada analoqu olmayan nəhəng informasiya ehtiyatları yaradır. Ekzistensial şöbənin sirli, müəmmalı olması elə onun nəhəng informasiyaya malik olması və çox "bilməsi" ilə bağlıdır.

Aparılmış kliniki tədqiqatlar, müşahidə materialları ekzistensial şöbənin dünyanı, mövcudluğu görmə, qavrama funksiyalarına malik olmasını təsdiq edir. Biz bunun "döyənək cisimləri kəsilib çıxarıl-

maqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar''la tanışlıq zamanı da şahidi olduq. Digər təsdiqedici məlumatlar sağ yarımkürənin (ekzistensial şöbənin) zədələnməsi ilə bağlıdır. Artıq elmə məlumdur ki, sağ yarımkürənin (ekzistensial şöbənin) zədələnməsi insanın mövcudluğu, əşyaları görmə, qavrama və tanıma qabiliyyətlərini kobud şəkildə pozur. Aqnoziyanın (tanımanın olmaması, tanımada anomallıq) bütün növləri sağ yarımkürənin (ekzistensial şöbənin) zədələnməsi zamanı özünü büruzə verir. Məsələn, məkan aqnoziyası. Belə olan halda məlum şəxs yaşadığı evi, küçəni tanımır, Psixikada fiqurların qurulmasını formal şəkildə planlaşdıra bilmir. Bundan əlavə, əsas aqnoziya hallarından biri olan sifətlərin tanınmaması ilə bağlı yaranan anomal vəziyyətdir. Bu zaman şəxs doğma adamlarını belə tanıya bilmir. İnsanları bir-birindən ayıra bilmir. Göründüyü kimi, sağ yarımkürənin (ekzistensial şöbənin) zədələnməsi ilə aqnoziyanın baş verməsi qavrayışın və ilkin hafizənin məhz, ekzistensial şöbədə yerləşməsini bir daha təsdiq edir.

Burada digər bir məsələ amneziya-yaddaşın, hafizənin itməsi ilə bağlıdır. Amneziya xəstəliyi də sağ yarımkürədə (ekzistensial şöbədə) problemlərlə əlaqəli ola bilər. Sol əlin, sol tərəfin bioloji cəhətdən zəifliyi, sinir sistemi ilə əlaqədar ümumiyyətlə işləməməsi hafizə və yaddaş strukturlarına güclü mənfi zərbə vurur. Xüsusilə də keçmiş yaddaş və hafizə informasiyaları unudulur. Amneziya da müxtəlif formalarda yaranır. Amneziyaın çox mürəkkəb və ağır xəstəlik olması hafizənin Psixikada tutduğu mövqeyi və səpələnmiş psixikadaxili fəaliyyəti ilə bağlıdır. Gəlin hafizə probleminə ətraflı yanaşaq.

### 3.1.1 Hafizə

Hafizə təkcə insanlara yox, ümumi canlılara məxsusdur. O, ekzistensial şöbədən başlayaraq Psixikaya daxil olur və nəhəng psixikadaxili işdə mühüm rol oynayaraq özü də formalaşır, zənginləşir. Beləliklə, o, insan hafizəsinə çevrilir. Heyvanlarda da hafizə vardır və bu hafizə məlum heyvani yaşayışa xidmət edir.

Əgər hafizə koqnitiv şöbə ilə işləmirsə o, primitiv qavrama hafizəsinə çevrilir. Primitiv hafizə mövcudluğu, əşyaları olduğu kimi görmək, qavramaq, hafizədə forma şəklində yadda saxlamaq deməkdir. Primitiv hafizə oliqofreniya xəstəliyində (əqli zəiflik, ağıl zəifliyi) özünü açıq şəkildə büruzə verir. Artıq Psixikanın öyrənilməsi baxımından deyə bilərik ki, oliqofreniya xəstəliyi Psixika şöbələrinin qeyri-assimetrik və qeyri-ümumi fəaliyyətinin real anormal nəticəsidir. Xüsusilə də, burada koqnitiv şöbə (sol yarımkürə) çox zəif inkişaf edir. Bu da əqli zəifliyin, əqli yaddaşın pozulmasının əsaslarını qoyur. Oliqofreniya xəstəliyinə tutulmuş uşaqlar üzərində aparılmış müşahidələr də bunu təsdiq edir. Aşağıda 7 yaşlı İ adlı qız uşaqı üzərində apardığım şəxsi müşahidələrimi sizə təqdim edirəm.

7 yaşlı bu qız oliqofrendir. Bütün oliqofren xəstələrdə olduğu kimi onda da primitiv hafizə əqli-subyektiv hafizəyə nisbətən çox inkişaf edib. Gəlin İ-nin timsalında bunu sübut edək. İ anasının nə vaxtsa öz rəfiqəsinə bağışladığı çantanı görəndə onu tanıyır və xatırlayır ki, bu çantanı həmin qadına anası verib. Lakin İ iki üstə üç gələndə neçə edəcəyini söyləyə bilmir. Ümumiyyətlə, o, ən bəsit hesablamaları belə apara bilmir. İ yalnız primitiv hafizə və yaddaşdan geniş şəkildə istifadə edir. Məntiqi nəticə baxımından İ-nin ümumi Psixikası zəif inkişaf etmişdir və onlar öz funksiyalarını layiqincə - yerinə yetirə bilmirlər. Yalnız primitiv hafizə fəaldır. Bu da ümumi canlı xüsusiyyəti kimi hafizənin primitiv funksional borcudur.

Deməli, hafizə İ-nin Psixikasında koqnitiv şöbə (sol yarımkürə) ilə normal şəkildə əlaqəyə girib şüurdan, nitqdən, təfəkkürdən bəhrələnə bilmir. Və yaxud əksinə, koqnitiv şöbə (sol yarımkürə) zəif inkişaf etdiyi üçün ekzistensial şöbə (sağ yarımkürə), hafizə ilə normal psixikadaxili qarşılıqlı münasibətlər qura bilmir. Elə bu məsələ bir daha sübut edir ki, Psixika şöbələri ayrı-ayrılıqda işləyə bilməz. Belə olan halda psixi prosesin tərkib hissəsi pozulur, sağlam insan fəaliyyətinə, davranışına lazım olan şöbələrarası assimetriya və onların birgə vacib işi baş vermir. Yuxarıda nəzərdən keçirdiyimiz oliqofreniya xəstəliyinin yaranma səbəbləri buna parlaq misaldır.

Hafizə qavrayışın köməkliyi ilə Psixika üçün mövcudluğu yaradan ilkin ali prosesdir. Qavrayış daha çox ilkin neyrofizioloji

qavrama, görmə mahiyyəti daşıyır. Onun fəaliyyətinin real nəticələrini Psixika üçün gerçək edən məhz hafizədir. Hər halda qavrayış dünyanı, mövcudluğu Psixikada yaradan ilkin formal bünövrədir. Deməli, Psixika üçün qavrayış dünyanı, mövcudluğu qavrama baxımından giriş qapısıdır. Lakin o, möhkəm olmayan "primitiv taxta qapıdır". Psixika üçün dünyanı, mövcudluğu qavrama baxımından "dəmir giriş qapı"nı isə məhz hafizə yaradır.

Beləliklə, hafizə psixi proseslərin yaranmasında ilkin "bünövrə daşı" olan qavrayışdan bəhrələnərək Psixikada yaddaş strukturlarını formalaşdırır və nəhəng informasiya ehtiyatlarını yaradır. Adətən yaddaş strukturlarını qısamüddətli və uzunmüddətli kimi təsnif də edirlər. Əslində, hafizə proseslərini təsnif etmək qeyri-mümkündür. Bu mürəkkəb və nəhəng problemi ətraflı öyrənmək lazımdır. Çunki hafizə canlı orqanizm fəaliyyətinin tərkib hissəsidir. Məsələn, insan üçün fəaliyyətdə olmaq, hafizəli fəaliyyətdə olmaq deməkdir. Əgər bu belə olmasaydı, insan əşyaların, maddi proseslərin yerini və formalarını məntiqi fəaliyyət üçün müəyyənləşdirə bilməzdi. Çünki Psixikanın əsas fəaliyyət məhsulu olan psixi prosesin tərkib hissəsində ən çox hafizə informasiyaları vardır. Hafizə bütün orqanizm və beyin orqanları ilə qarşılıqlı əlaqədə işləyir. Xüsusilə də bir çox beyin orqanları hafizə ilə birbaşa əlaqədədirlər. Neyroelmlər sistemində bu barədə real nəticələr var **(Bax: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум, поведение", М. 1998. səh. 156-172)**. Bu orqanları biz yalnız hafizəli fəaliyyətin beyin orqanlarında real aktivlik təcəssümü kimi qəbul edə bilərik. Bunlar beyin qabığının müəyyən hissəsi, mindalin, hippokamp və beyincikdir.

Ən mürəkkəb problem hafizənin Psixikada ümumi işi ilə bağlıdır. Qeyd etdiyimiz kimi, hafizə Psixikada ən çox "gəzən", qarşılıqlı münasibətlərdə olan ali prosesdir. Psixika şöbələri qarşılıqlı münasibətlərdə olaraq bir-birlərinin tərkib hissələrinə qismən bələddirlər. Lakin bu assimetriyada ən cəld hərəkət edən hafizədir. Hafizənin geniş fəaliyyəti nəticəsində Psixika, onun şöbələri, bu şöbələr daxilində yerləşən ali psixikadaxili prosesılər (şüur, nitq və s.) hafizəli təcrübəyə malikdirlər. Bu təcrübə ilk növbədə psixi proseslərin yaranması üçün çox vacibdir. Əlbəttə, hafizəli təcrübə olmadan təkrarlanan dünyanı, prosesləri və bu təkrarlananların üzərində ye-

niləşən, təkmilləşən fəaliyyəti qurmaq qeyri-mümkündür. Hafizəli təcrübə Psixikada zəngin informasiya ehtiyatlarının yaranmasına, qorunmasına şərait yaradır. Biz sizə artıq nitqin təcrübəli hafizəsi və informasiya ehtiyatları haqqında qismən məlumat vermişik (Bax: "Psixikanın mövcudluq xüsusiyyətləri" hissəsinin sonu).

Koqnitiv şöbədə yerləşən digər ali proseslər - şüur, təfəkkür, təxəyyül də nitq kimi hafizəli təcrübəyə malikdirlər. Əslində, hafizəli təcrübə bu proseslərin fəaliyyət funksiyalarının tərkib hissələrindədir. Məsələn, şüurlu fəaliyyət göstərmək özü elə real halda hafizəsi-şüurlu fəaliyyətdə olmaq deməkdir. Yəni "kitab oxumaq" şüurun, koqnitiv şöbənin aktiv fəaliyyətini tələb edirsə, artıq "kitab oxumaq" psixi proseslər sistemi koqnitiv şöbənin informasiya ehtiyatlarında var. Bu mütaliə prosesi hafizənin və hafizəli təcrübənin hesabına koqnitiv şöbənin təkrarlanan adi fəaliyyət funksiyasına çevrilib. Əgər biz kitabın içindəki şəkillərə baxırıqsa, artıq bu halda hafizə öz "evindəki"- ekzistensial şöbədəki funksiyalarından daha çox istifadə etməyə başlayır.

Məlum oldu ki, bütün Psixika hafizənin köməkliyi ilə informasiya ehtiyatları və hafizəli təcrübə qazanırlar. Şübhəsiz, onlar bu təcrübəni Psixikanın gündəlik fəaliyyəti zamanı milyonlarla informasiyaların işlənilməsi və inteqrasiyası zamanı əldə edirlər. Hafizənin özü də bu proseslərdə zənginləşir, subyektivləşir.

Əgər şüur, nitq, təfəkkür və digər ali proseslər informasiya ehtiyatlarına, hafizəli təcrübəyə malik olmasalar, nəinki onların, həm də bütün Psixikanın iş intensivliyi pozular. Yəni bu elə olmasaydı onlar psixikadaxili fəaliyyətləri zamanı tez-tez hafizəni narahat edərdilər. Sadəcə olaraq hafizə eyni vaxtı, Psixikanın fasiləsiz işi zamanı bu qədər sifarişləri yerinə yetirə bilməzdi. Bu hafizəli təbii proses Psixikanın iş prinsiplərindən doğan qanunauyğunluqdur.

Yuxarıda nəzərdən keçirdiyimiz məsələlər hafizənin ümumi Psixikadakı cüzi fəaliyyətini əks etdirdi. Təbii, hafizə əsas fundamental fəaliyyəti ilə ekzistensial şöbədə məşğul olur. Biz yuxarıda hafizənin ümumi Psixikadakı fəaliyyət prinsiplərinə və yaratdığı informasiya ehtiyatlarına ilkin olaraq ona görə toxunduq ki, siz onları hafizənin ekzistensial şöbədəki işi və yaratdığı formal

informasiya ehtiyatları ilə səhv salmayasız. Ekzistensial şöbə dünyanı, mövcudluğu qavrayıb Psixikaya gətirməklə işini bitmiş hesab etmir. Əslində, bütün dünya, oradakı əşyalar formalar sistemi halında ekzistensial şöbədədir. Görəsən, hafizə dünyanı, oradakı çoxlu sayda əşyaları ekzistensial şöbədə necə yerləşdirir?

Burada biz "forma" sözündən istifadə edəcəyik. Bütün dünya, oradakı əşyalar məhz formalar sistemi şəklində Psixikada qavranılır. Ekzistensial şöbədəki nəhəng yaddaş informasiyaları da formalar şəklindədir. Hafizə elə bu formalar sisteminin məcmusudur. Hafizənin müəyyən bir reallığı yaddaşa keçirməsi prosesinə nəzər salaq. Məsələn, stol ekzistensial şöbədə qavranılır və "stol" formasında hafizənin köməyi ilə yaddaşa keçir. Bu zaman qavrayış vasitəsilə stolun yalnız forması Psixikada - ekzistensial şöbədə yaranır. Bu, obyektiv və sönük formalizm deyildir. Məlum proses hafizənin dünyanı, əşyaları primitiv formal yaddaşa keçirmə üsuludur. Stol yalnız primitiv forma şəklində ekzistensial şöbədə mövcud olur. O, yalnız ekzistensial şöbənin informasiya ehtiyatlarında "stol" formasındadır. Ondan müxtəlif üsullarla şüurlu şəkildə istifadə etmək üçün onu ümumi Psixikanın daxili işində hazırlamaq lazımdır. Yəni o, subyektivləşməli, dərk edilməli və sosial mahiyyət kəsb etməlidir. Bunun üçün "stol" formalı informasiya bütün Psixikaya, koqnitiv şöbəyə yayılmalıdır. Necə deyərlər, "stol" informasiyası Psixikanın ümumi istifadəsinə verildi. Bu informasiya işlənir, subyektivləşir, koqnitiv şöbədəki nitq və ünsiyyət strukturlarına daxil olur. Artıq "stol" forması səsləndirilən, dərk edilən sözə çevrilir. Stoldan nitq proseslərində və sosial fəaliyyətdə istifadə olunur. Stol məntiqi-şüuri mahiyyət kəsb etdi. İndi artıq "stol" formalı informasiyası bütün Psixikanın və koqnitiv şöbənin informasiya və yaddaş ehtiyatlarına daxil oldu. "Stol" forması ekzistensial şöbənin informasiya ehtiyatlarında da qorunub saxlanılacaq.

Deməli, koqnitiv şöbə hafizədən yaddaş formalarını alır və ona şüurlu - məntiqli ad verir, onu subyektivləşdirir və normal fəaliyyət üçün onlardan istifadə edir. Ekzistensial şöbənin, hafizənin Psixika üçün formal informasiya ehtiyatı rolunu oynaması elə buradan başlayır.

Görəsən biz nağılı, rəqəmləri, riyaziyyatı və s. necə hafizə vasitəsilə yaddaşa keçiririk? Şübhəsiz, burada problem mürəkkəbləşir.

Burada hafizə prosesləri Psixikanın ümumi iş nəticəsi kimi baş verir. Rəqəmləri, nağılı və sairəni mövcud edən reallıqlar sistemi formalar şəklində hafizədə yaranaraq ümumi Psixikaya keçir, orada daha mürəkkəb məntiqi-əqli proseslərdə işlənib hazırlanırlar. Bu prosesi bir riyazi əməliyyatda aydınlaşdırmağa çalışaq.

Məsələn, 5 x 10 = 50 əməliyyatı. "5", "10" və "50" rəqəmləri formalar şəklində qavranılaraq hafizə vasitəsilə ekzistensial şöbədə yaddaşa keçirilir. Bu rəqəm informasiyaları bütün Psixikaya və koqnitiv şöbəyə işlənib hazırlanmaq üçün ötürülür. Artıq Psixika "5", "10" və "50" rəqəmlərini tanıyır. Koqnitiv şöbə məlum rəqəm informasiyalarını "beş", "on" və "əlli" kimi səsləndirilən söz səslərini məntiqi-əqli baxımdan hazırlayır və bu subyektiv informasiyaları istifadə edilmək üçün nitqə ötürür. İndi artıq 5 x 10 = 50 əməliyyatı yaddaşa keçməlidir. Burada ümumi hafizə prosesləri baş verir. Ümumi Psixikada 5 x 10 = 50 əməliyyatı ilə bağlı baş verən ekzistensial və əqli proseslərdən sonra bu əməliyyat informasiyaları qorunmalıdır. Bu əməliyyat informasiyaları bütövlükdə hafizə strukturlarına keçir. Hər bir şöbə öz funksiyalarına uyğun hafizəli informasiyaları və bu əməliyyatla bağlı təcrübəni əldə edib qoruyur. Bu əməliyyatdan sonra Psixika artıq bilir ki, "5" formalı "beş" sözünü, "10" formalı "on" sözünə vurduqda "50" formalı "əlli" sözü edir. Məlum prosesin birinci hissəsi - "5", "10" və "50" formalı rəqəmlər rəqəm formaları şəklində Psixikanın ekzistensial şöbəsinin informasiya ehtiyatlarına keçir. Bu prosesin ikinci hissəsi - "beş" sözünü "10" sözünə vurduqda "50" sözü edir isə koqnitiv şöbənin və nitqin əqli hafizəli informasiya ehtiyatlarında və hafizəli təcrübələrində saxlanılır **(Bax: Şəkil - 13).**




**Şəkil – 13. Psixikada "beşin ona vurulması"nın primitiv təsviri.**

Beləliklə də ikinci dəfə bu əməliyyat və onun nəticələri soruşulanda Psixikanın əqli fəaliyyət şöbəsi kimi koqnitiv şöbə və nitq bu suala birbaşa cavab verirlər. Əgər Psixika bunu unudubsa və yaxud nitqin informasiya ehtiyatları zəifdirsə, onda suala cavab vermək üçün yuxarıdakı proseslər yenidən baş verməlidir. Psixikanın yenidən bu işi görməsi üçün isə heç bir problem yoxdur. Çünki koqnitiv şöbə və nitq bunu unudubsa, köməyə ilkin primitiv hafizə və ekzistensial şöbə gələcək. Buna isə adi şöbələrarası əlaqələr kifayətdir. Psixika fasiləsiz, universal iş prinsiplərinə, qarşılıqlı əla-

qələrə, aktiv hafizəyə və informasiya ehtiyatlarına malikdir. Biri unudubsa, o birisi yada salar, o birisi də unudubsa, digəri köməyə gələr. Bütün bu imkanları Psixikaya orada fasiləsiz "gəzib" işləyən hafizə bəxş edir.

Nağılların hafizə vasitəsilə yaddaşa keçməsi də məntiqi-əqli mahiyyət daşıyan formalar vasitəsilə baş verir. Lakin bu, riyazi əməliyyata nisbətən daha sadə baş verir. Məsələn, "Qırmızıpapaq" nağılında "canavarın qızı yeməsi" səhnəsini yaddaşa keçirək. Öncə sadə ekzistensial formalardan başlayaq. "Canavar" və "qız" formaları və sözləri artıq bizim ümumi Psixikamıza, yəni hər iki Psixika şöbəsinə məlumdur. Burada Psixikaya aktiv işləmək lazım deyil. Yalnız "yemək" fəaliyyət xüsusiyyətini Psixikada işləyib hazırlamaq lazımdır. Məlum proses də asanlıqla ekzistensial və koqnitiv şöbələri arasındakı əlaqələrdə əqli-nitqi mahiyyət kəsb edərək dərketmə səviyyəsinə çatır. Nəticədə həmin informasiya nitqin informasiya ehtiyatlarına daxil olur. Beləliklə, "canavarın qızı yeməsi" səhnəsi Psixikada yaranır, dərk edilir və hafizə vasitəsilə yaddaşa keçir.

Bu misal ola bilsin sizdə qəribə və anlaşılmaz təəssürat oyatsın. Ona görə prosesi bir az da dəqiqləşdirək. Təsəvvür edin ki, sizə yuxarıdakı nağılla bağlı bir sual verirlər. Məsələn: **"Qırmızıpapaq"** nağılında canavarın qızı necə yeməsi səhnəsini xatırlayırsınızmı? Siz cavab verirsiniz: "bəli". Sual verən şəxs nədənsə məsələni ətraflı şəkildə aydınlaşdırmaq üçün sizə yenə sual verir: "Canavar qızı necə yedi?" Siz əlacsız qalıb bu səhnəni formal səhnə şəklində ona göstərirsiniz, "bax belə". Əslində bu cavab ilkin formal hafizəli primitiv cavabdır. Bu, ekzistensial şöbənin cavabıdır. İkinci cavab "canavarın qızı yeməsi" səhnəsinin hafizə vasitəsilə ekzistensial şöbədə qorunan informasiyasıdır. Sizin suala verdiyiniz birinci cavab isə ümumi Psixikanın, həm də koqnitiv şöbənin informasiya ehtiyatlarında saxlanılan cavab idi.

"Canavarın qızı yeməsi"nin formal səhnə şəklində göstərilməsi jestlərlə, formalarla yadda saxlamadır. Bu prosesdə yalnız Psixikanın ekzistensial şöbəsindəki informasiya ehtiyatlarından istifadə olunur. Psixoterapiyada hafizə problemlərinin həllində də bu üsuldan istifadə olunur. Müəyyən bir şeyi, prosesi unutmamaq üçün hə-

min şeylərin formasını, primitiv strukturunu, şəklini yadda saxlamaq məsləhət görülür. Tanınmış filosof Kant da unutqanlılığa qarşı bu formada mübarizə aparmağı məsləhət görürmüş. Bu da yaranmış şəraitdə, bizim indi tədqiq etdiyimiz ilkin primitiv hafizə ilə və Psixikanın ekzistensial şöbəsi ilə birbaşa əlaqə yaratmaq deməkdir.

İndi isə şeirlərin hafizə vasitəsilə yaddaşa keçməsinə diqqət yetirək. Burada məntiqi-filoloji formalar mühüm rol oynayır. Biz ilk növbədə şeir sözlərinin səsli formalarını yadda saxlayırıq. Məsələn, bir şeir sətrini yadda saxlamağa çalışaq. "Gözəl təbiəti sevirəm mən". "Gözəl", "təbiət", "sevirəm" və "mən" sözləri həm forma, həm də dərk edilmiş məntiqli söz şəklində Psixikaya məlumdur. "Gözəl təbiəti sevirəm mən" sətri dərk edilmiş məntiqli sözlər şəklində (koqnitiv şöbədəki) və yaxud primitiv sözlü formalar şəklində (mexaniki, ekzistensial şöbədəki) hafizə vasitəsilə yaddaşa keçə bilər. Şeirlərlə bağlı bu iki yaddasaxlama üsulu hələ məktəb yaşlarından bizə bəllidir. Yaxşı xatırlayırsınız ki, müəllimlər dəfələrlə bizə məsləhət görərdilər ki, şeiri mexaniki yox, məntiqi mənasını anlamaqla əzbərləyin. Elə burada da söhbət həmin əzbərləmə üsullarından gedir. Mexaniki əzbərləmə primitiv söz formalarını yaddaşa keçirmədir. Məntiqi-filoloji əzbərləmə isə mənasını anlamaqla yaddaşa keçirməni nəzərdə tutur. Məntiqi-filoloji yaddasaxlamada hafizə daha mürəkkəb işlə məşğul olur. Bu halda şeiri oxuyanda kədərlənir, sevinir və gülürük. Bu, ümumi Psixikanın iştirak etdiyi tam subyektiv haldır.

Mexaniki və məntiqi-filoloji yaddasaxlama Psixikada hafizənin mürəkkəb və nəhəng işinin, yaddaş strukturlarının aydınlaşdırılmasında əsas obyektiv amillərdən biridir.

Psixika sosial-mənəvi dəyərlər baxımından zənginləşmək üçün hafizə vasitəsilə mənəvi formaları da mənimsəyir. Mənəvi formaların yaddaşa keçirilməsi yuxarıda qeyd etdiyimiz ümumi üsullarla yerinə yetirilir. Sadəcə olaraq burada Psixikanın hissi-emosional aktivliyi daha çox nəzəri cəlb edir. Hafizənin mənəvi formaları Psixikaya gətirməsi sosial-psixoloji münasibətlərdəki təcrübəni orqanizmin təbii fəaliyyətinə uyğunlaşdırmağa xidmət edir. Məsələn, "məhəbbəti" biz ən emosional və zəngin mənəvi formalar sistemi kimi qəbul edə bilərik.

Əksər hallarda hafizə mənəvi formaları çox asanlıqla, "hiss etmədən" mənimsəyir. Bu, ilk növbədə çox həssas və aktiv hissi proseslərdə baş verir. Yenə də məhəbbətlə bağlı proseslər buna misal ola bilər. Adətən "məhəbbət"in hafizəyə keçməsi ümumi orqanizmin reaksiyası ilə baş verir. Yəni bu proses çox emosional və aktiv olduğundan yaddaşa keçmə o qədər də hiss olunmur. Bu, Psixikanın daxili formalaşma prinsipi kimi də qəbul edilə bilər. Mənəvi formalar sisteminin yaddaşa keçməsi mürəkkəb psixikadaxili proseslərin tərkib hissəsinə daxildir. Hafizənin bu vacib funksiyası Psixikada insan mənəviyyatını və əxlaqını formalaşdıdırır.

Yuxarıdakı təhlillərdən də bəlli olur ki, hafizənin Psixikada yaddaş strukturlarını yaratması çox geniş və mürəkkəb prosesdir. Müasir Neyroelmlər sistemində də hafizənin öyrənilməsi öz mürəkkəbliyi ilə seçilir. Bu sahədə mühüm fundamental nailiyyətlər əldə etmək üçün hafizəni yerləşdiyi orqan olan Psixikada və onun daxili fəaliyyətində öyrənmək lazımdır. Ona görə biz hafizəni yeni metodika ilə yeni mövcudluq məkanında tədqiq edirik. Bu həm də Psixikanı ətraflı və real formada öyrənməyə kömək edir.

Deməli, məlum oldu ki, hafizə Psixikada ikiistiqamətli vacib işlə məşğul olur. Birinci istiqamət qavrayışın köməyi ilə ekzistensial şöbədəki prosesləri əhatə edir. Burada hafizə dünyanı, mövcud əşyaları formal şəkildə ekzistensial şöbəyə-Psixikaya gətirir. İkinci istiqamət isə hafizənin ümumi Psixikadakı işini əhatə edir. Burada hafizə primitiv və məntiqi informasiya formalarını yaddaş strukturlarına keçirməklə yanaşı, psixi proseslərin yaranmasında mühüm rol oynayır. Bu işdə ona QƏZ vasitəsilə yaranan şöbələrarası qarşılıqlı əlaqələr və digər ali psixikadaxili proseslər də kömək edir.

Hafizənin Psixikada həyati əhəmiyyət kəsb edən fəaliyyəti barəsində tez-tez danışmağa dəyər. Əgər mövcud reallıq və əşyalar, onların formaları haqqında anlayış yoxdursa, Psixika, koqnitiv şöbə həmin reallıqlar barədə haradan xəbər tutar və onlardan necə istifadə edə bilər. Göründüyü kimi, hafizənin və ekzistensial şöbənin işi Psixika üçün mühüm əvəzedilməz əhəmiyyətə malikdir. Bu baxımdan biz həmişə deyəcəyik ki, Psixikada dominant şöbə yoxdur. Psixika çox universal, həm də çox incə bir aparatdır. Orada dominant möv-

qedə duran yeganə amil yalnız qarşılıqlı fəaliyyətə əsaslanan **birgə işdir**. Müəyyən proseslərdə şöbələr dominant fəaliyyətləri ilə fərqlənə bilərlər. Lakin bu dominantlıq da yalnız Psixikanın dominant ümumi işinə xidmət edəcəkdir. Belə olan halda Psixika daxilində öz iş əhəmiyyətinə görə biz şüurla hafizəyə də heç bir fərq qoya bilmərik. Çünki onların biri Psixika üçün subyektiv fəaliyyəti və dərketməni (şüur), digəri isə elə bu dərəcədə vacib olan nəhəng yaddaş və informasiya ehtiyatı yaratmaq funksiyasını yerinə yetirir.

Deməli, hafizə fasiləsiz olaraq ekzistensial şöbəyə informasiya yığır. Məlum informasiyalar Psixikanın formal bünövrəsini təşkil edir. Koqnitiv şöbə daim informasiya əldə etmək baxımından ekzistensial şöbəyə möhtacdır. Ekzistensial şöbə isə özünü çox sakit, qapalı və qürurlu aparır. Fəaliyyətini eyni tərzdə davam etdirərək Psixikada baş vermiş proseslərdən sonra orada qalan aktiv və passiv informasiyaları da toplamaqla məşğul olur. Çünki Psixikanın hər bir işinin yaddaş forması qorunub-qorunmamasından asılı olmayaraq ekzistensial şöbəyə keçir. Ekzistensial şöbədəki sonrakı proseslərdə bu yaddaş informasiyalarının müəyyən hissəsi silinir və unudulur.

Məlum oldu ki, ekzistensial şöbə dünyanın və buradakı əşyaların passiv, aktiv, qorunan, qorunmayan informasiyalarının ilkin və həm də son cəmləşmə nöqtəsidir. Bu baxımdan, son dövrlər ekzistensial şöbənin (sağ yarımkürənin) yaradıcı, optimist bir beyin məkanı olması haqda tez-tez danışılması təsadüfi deyil və deyilənləri əsassız elmi-ictimai mülahizələr saymaq bilməz. Doğrudan da ekzistensial şöbə (sağ yarımkürə) yeniliyin və gələcəyə inamın əsaslarını qoyan informasiya ehtiyatlarına, universal yaddaş funksiyalarına malikdir.

Ekzistensial şöbə (sağ yarımkürə) və yaddasaxlama ilə əlaqədar olan maraqlı bir tədqiqatı sizin nəzərinizə çatdırmaq istəyirik. Tədqiqat ABŞ-ın Havay Universitetində aparılmışdır. Tədqiqatın məqsədi beyin yarımkürələrində (Psixika şöbələrində) hafizə və yaddasaxlama proseslərini öyrənmək idi. İştiraka dəvət olunanlar 44-79 yaşlarını əhatə edirdi. Tədqiqatın bilavasitə əsas məqsədi isə qocaldıqca hansı beyin yarımkürəsində hafiz və yaddasaxlama proseslərinin daha tez zəifləməsini müəyyənləşdirmək idi. Tədqiqat

zamanı rəqəmlər əvvəl sol qulağa, sonra isə sağ qulağa səsləndirilir. Sonra xahiş olunurdu ki, rəqəmləri müəyyən müddət üçün yadda saxlasınlar. Xatırladırıq ki, sol qulağa deyilən rəqəmlər ilkin olaraq sağ yarımkürəyə, sağ qulağa deyilən rəqəmlər isə ilkin olaraq sol yarımkürəyə daxil olurlar. Əlbəttə, burada rəqəmlərin informasiya halında tezliklə bütün beyinə (Psixikaya) yayıldığını nəzərə alaraq xüsusi tədqiqat sistemindən istifadə olunub. Nəticə isə belə olub: Yaşa dolduqca iştirakçılarda hafizə və yaddasaxlama zəifliyi hiss olunmağa başlayıb. Bu, hamımıza bəlli bir məlumatdır. Lakin burada digər daha qəribə bir nəticə əldə olunub. Məlum olub ki, yaşa dolduqca sol qulağa (yəni sağ yarımkürəyə, ekzistensial şöbəyə) deyilən sözlərin yaddasaxlanılmasında zəiflik daha tez yaranır. Yəni sağ yarımkürə (ekzistensial şöbə) sol yarımkürəyə (koqnitiv şöbəyə) nisbətən daha tez qocalır (**"Психологические тесты для мужчин"- Киев, 1997. səh. 176).**

Bu qəribə nəticəni Psixika baxımından təhlil edək. Havay Universiteti əməkdaşlarına qəribə görsənən bu nəticə Psixikanın öyrənilməsindəki nəticələr baxımından bizim üçün öz qəribəliyini itirir. Sağ yarımkürə (ekzistensial şöbə) ona görə tez qocalır ki, o, nəhəng bir hafizə ehtiyatlarına malik olur. Hamımıza məlumdur ki, təbii olaraq insanlar qocaldıqca hafizələri zəifləyir. Çünki onların Psixikaları zəifləyir. Bu da ilk növbədə onların hafizəsində, nəhəng yaddaş strukturlarında büruzə verilir. Bu, Psixikanın qocalmasının təbii tarixi prosesidir. Ona görə də ekzistensial şöbənin (sağ yarımkürənin) tez qocalması artıq heç kəsdə şübhə doğurmamalıdır. Bəs niyə sol yarımkürə (koqnitiv şöbə) rəqəmləri yaşa dolduqca sağ yarımkürəyə (ekzistensial şöbəyə) nisbətən daha yaxşı yadda saxlayır? Burada sol yarımkürənin (koqnitiv şöbənin) aktiv əqli və nitq funksiyaları köməyə gəlir. Deyilən rəqəmlər çox asanlıqla aktiv sol yarımkürənin (koqnitiv şöbənin) və nitqin informasiya ehtiyatlarında qorunaraq yenidən şifahi nitqə gətirilir. Sol yarımkürə (koqnitiv şöbə) aktiv zehni və təxəyyül prosesləri ilə məşğul olduğu üçün rəqəmləri tez tanıyır və onsuz da onlardan gündəlik fəaliyyətdə tez-tez istifadə edir. Bu zaman koqnitiv şöbə çox asanlıqla Psixikanın ümumi işindən və ekzistensial şöbədən

bəhrələnərək rəqəmləri daha aktiv və daha uzun müddətə informasiya kimi yadda saxlaya bilir.

Sol yarımkürə (koqnitiv şöbə) ümumiyyətlə gec qocalır. Çünki sol yarımkürə (koqnitiv şöbə) subyektiv insan fəaliyyətinin yaranmasında, şüurlu sosial həyat tərzində onun ölümünə qədər mühüm rol oynayır. İnsanın getdikcə qocalması ilə bağlı olaraq hafizənin zəifləməsi ekzistensial şöbədən başlayır. Getdikcə elə bu proses bütün Psixikaya yayılır və insan Psixikasının zəifliyinin əsasları qoyulur. Psixikanın qocalmasının ekzistensial şöbədən başlaması təbiidir. Çünki Psixikanın ilkin formalaşma prosesləri də məhz ekzistensial şöbədən başlayır.

## 3.1.2 Daxili ekzistensial nitq

Ekzistensial şöbənin ümumi fəaliyyətini formalaşdıran və bu fəaliyyəti Psixika üçün ötürülən real informasiya reaksiyası halına salan proses **daxili ekzistensial nitqdir.** Ekzistensial şöbənin bu proseslər sistemi **"daxili məkan nitqi"** kimi də adlandırıla bilər. Məsələn, ingilis dilinə biz bunu **"Internal spatial speech"**, rus dilinə isə **"Внутренняя пространственная речь"** kimi tərcümə edə bilərik. Əksər hallarda bu proseslər ekzistensial şöbə daxilində baş verdiyi üçün biz bu nitqi "daxili ekzistensial nitq" kimi adlandırmışıq. Keçmiş fəsillərdə sizə daxili ekzistensial nitq haqqında qismən məlumat verilib.

Burada "nitq" sözü öz məntiqi mahiyyətinə görə bizi çaşdıra bilər. Adətən bizim anladığımız nitq prosesi şüurlu, məntiqli ünsiyyət formasıdır. Bu baxımdan ekzistensial nitq ekzistensial şöbə və ümumi Psixika üçün özünəməxsus nitq proseslərini həyata keçirir. Düzdür, məlum proseslər sırf zehni-məntiqi mahiyyət daşımır. Lakin ekzistensial nitq ümumi insan nitqinin əsas tərkib hissələrini formalaşdırır. Psixikada ümumi insan nitqinin formalaşmasında ekzistensial şöbəni layiqincə təmsil edir.

Psixika üçün daxili ekzistensial nitq ümumi insan nitqinin yaranmasında fundamental mövcudluq funksiyalarını yerinə yetirir.

Yəni ümumi insan nitqinə dünyanı, mövcud əşyaları formal şəkildə məhz daxili ekzistensial nitq gətirir. Bundan sonra qavradığımız reallıq ekzistensial şöbədə və Psixikada öz ilkin, primitiv mövcud olma təsdiqini tapır. Məsələn, binanın "bina" kimi mövcudluq formasını ekzistensial şöbədə və Psixikada təsdiq edən proses daxili ekzistensial nitqdir. Qavranılan bina daxili ekzistensial nitqin Psixikadakı "bina" formalı informasiya reaksiyasıdır. Sonralar "bina" formalı reaksiya koqnitiv şöbəyə keçərək ümumi insan nitqinin yaradılmasında iştirak edir. Daxili ekzistensial nitq olmadan ümumi insan nitqi yarana bilməz. İnsan nitqinin fundamental əsasları daxili ekzistensial nitqindədir. Bu amil Psixikanın daxili iş prinsipinə uyğundur. Ekzistensial şöbədəki məkan, mövcudluq nitqi koqnitiv şöbədəki zehni-məntiqli nitqlə birləşərək subyektiv ümumi insan nitqini formalaşdırırlar. Əgər ağac, stol, qələm sözlərinin qavranılmış formaları koqnitiv şöbəyə, Psixikaya gətirilməsə, burada onlar necə səslərə, sözlərə çevrilə və ünsiyyət proseslərinə isə daxil ola bilərlər. Bu baxımdan, Levinin 1976-cı ildə apardığı aşağıdakı tədqiqat müşahidəsi də dediklərimizi təsdiq edir. Levin məlumat verirdi ki, əgər biz iki sözü məsələn, "qaban" və "çanta" sözlərini ağlımızda bir neçə dəfə təkrar etdikdə, bu zaman sol yarımkürə (koqnitiv şöbə) aktivləşir. Ancaq biz "cantanı aparan qaban"ı beynimizdə təsəvvür etdikdə isə sağ yarımkürə (ekzistensial şöbə) aktivləşir **(Bax: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум, поведение", M. 1998. səh. 186).**

Bəli, "cantanı aparan qaban"ı təsəvvür etmək elə daxili ekzistensial nitqinin yaranması və ekzistensial şöbənin aktivləşməsi deməkdir. Zehnimizdə həmin sözləri bir neçə dəfə təkrar etmək isə daxili ekzistensial nitqinin sol yarımkürəyə (koqnitiv şöbəyə) keçib ümumi insan nitqinin yaranması deməkdir. Nitq formal təsəvvür etməni səslərə və sözlərə çevirərək daxili nitqdə təkrarlayır.

Ekzistensial nitqin mövcudluğu haqqında bizdə çox sanballı bir təsdiqedici məlumat vardır. Bu məlumat Çin və yapon dillərinin yazı formaları ilə əlaqədardır. Şübhəsiz, dünyada yaşayan bəzi xalqların tarixi dil xüsusiyyətlərindən bəhrələnərək onlardan nitqi, Psixikanı öyrənmədə real tədqiqat informasiyaları kimi istifadə etmək çox sevindirici haldır.

Çin və yapon dillərində iki cür yazı forması var. **Kana** və **kandzi.** Bu yazı formalarının primitiv təsvirinə **Şəkil - 14-də** baxa bilərsiniz **(Bax: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум, поведение", М. 1998. səh. 183).** Kana yazı forması adi əlifba hərflərinə əsaslanan səsləri nəzərdə tutur. Bütün dünya xalqlarında olduğu kimi. Maraqlısı kandzidir. Kandzi yazı forması səslərə əsaslanan hərflərlə deyil, əşyaların və anlayışların Çin ieroqlifləri ilə təsvir edilməsini nəzərdə tutur. Bu forma elə qədim tarixə malik ieroqlifləridir. Kandzi əsasən piktoqrafik xarakter daşıyır. Yəni kandzidə dediyimiz kimi, əşyaların və anlayışların formaları təsvir edilir, qismən şəkilləri çəkilir.

Deməli, kandzi tipik daxili ekzistensial nitqdir. O, əsasən ekzistensial şöbənin (sağ yarımkürənin) məhsuludur və oradan da idarə olunur. Kana isə artıq formalaşmış ümumi insan nitqinə xidmət edən yazı formasıdır. Kana bütün dünya xalqlarının dillərində istifadə olunan adi yazı formasıdır. Kandzi isə qeyri-adi, Psixikada gizlənən və səslərlə xaricə çıxarılmayan, ümumi insan nitqinin tərkib hissəsində olan yazı formasıdır.Yaxşı ki, Çin və yapon xalqları bu tarixi dil xüsusiyyətlərinə malikdirlər. Hansı ki, bizdə Psixika daxilində ekzistensial nitqi tədqiq etmək üçün onlardan sübutedici məlumatlar kimi istifadə edirik. Göründüyü kimi, dünyada sirli əlçatmaz problemləri araşdırmaq, kəşf etmək üçün elə dünyanın özündə təsdiqedici amillər, dayaq nöqtələri tapmaq mümkündür.

| Kandzi | | Kana |
|---|---|---|
| 木 | Ağac | き |
| 林 | Ağaclar | はやし |
| 森 | Meşə | もり |
| 白 | Ağ | しろ |
| 鳥 | Quş | とり |
| 白鳥 | Durna | はくちょう |
| 電話番号 | Telefon nömrəsi | でんわばんごう |
| 大統領選挙 | Prezident seçkiləri | だいとうりょうせんきょ |

**Şəkil – 14. Kandzi və Kana.**

Deməli, Çin və yapon dillərindəki kana və kandzi yazı formaları Psixikada nitqin yaranma üsullarını əyani surətdə sübuta yetirən elmi-tarixi əsaslara malik mənbədir. Nitqi yaradan mövcudluq və əşyaların formal reaksiyaları daxili ekzistensial nitqdən (kandzi),

məntiqi analitik dil xüsusiyyətləri isə koqnitiv şöbədən (kana) gələrək ümumi insan nitqində cəmləşir. Artıq bu problemin neyrokliniki sübutları da vardır. Yaponların sol yarımkürələri (koqnitiv şöbələri) zədələndikdə onlar kanadan istifadə edə bilmirlər. Lakin kandzidən istifadə edib yazırlar. Bu, o deməkdir ki, sol yarımkürələri (koqnitiv şöbələri) zədələnmiş yaponlar zədələnməmiş sağ yarımkürələrindəki (ekzistensial şöbədəki) kandzidən istifadə edirlər. Bu amil kandzinin daxili ekzistensial nitq olub ekzistensial şöbədə (sağ yarımkürədə) yerləşməsini bir daha sübuta yetirir. Əgər kandzi yaponların zədələnmiş sol yarımkürələrində (koqnitiv şöbələrində) olsaydı, onlar ondan istifadə edə bilməzdilər.

Bundan əlavə, **disleksiyadan** əziyyət çəkən amerikan uşaqları yazıya əsaslanan ingilis dilini Çin ieroqliflərinin, yəni kandzinin köməyi ilə xüsusi metodik sistem tətbiq edərək öyrənirdilər **(Bax: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум, поведение", M. 1998. səh. 182)**. Məlum olur ki, kandzi yazı forması məhz xaricə çıxarılmayan və şifahi nitqə gətirilməyən Psixika daxilindəki ekzistensial nitqdir. **Disleksiya** xəstəliyinin təhlilində bu problem bir daha öz təsdiqini tapır. Disleksiya yazıların oxunmasında olan anormallıqdır. Bu cür xəstələr yazıda sözləri səslərə əsaslanan ümumi söz halında qavraya bilmirlər. Məsələn, onlar hər hansı bir "luq" hərf birləşməsini ona oxşar "qul" sözündən ayıra bilmirlər. Qalan digər nitq xüsusiyyətləri onlarda normal inkişaf edir. Yəni disleksiyaya tutulmuş xəstələr sozlərin formalarını olduğu kimi qavraya bilmirlər. Bu baxımdan, disleksiya xəstəliyi birbaşa ekzistensial şöbə (sağ yarımkürə) ilə əlaqəlidır. İndi biz deyə bilərik ki, disleksiya ekzistensial şöbədəki daxili ekzistensial nitqin iş pozğunluğu deməkdir. Deməli, disleksiya **daxili ekzistensial nitq xəstəliyidir**.

Disleksiya ən çox Avropada və ABŞ-da yayılıb. Orada bu xəstəlik 1-3 % təşkil edir. Yaponiyada isə bu rəqəm on dəfə aşağıdır. Çunki yapon dilində yazıda gündəlik olaraq kandzidən - daxili ekzistensial nitqdən əyani surətdə istifadə olunur. Təsəvvür edin ki, Azərbaycan, Avropa və amerikan uşaqları kandzidən - daxili ekzistensial nitqdən yalnız Psixikaları daxilində bəhrələnərək ondan yazı nitqlərində istifadə edirlər. Amma Çin və yapon uşaqları isə kand-

zini - daxili ekzistensial nitqi Psixika daxilindən xaricə çıxararaq onlardan birbaşa yazı forması kimi istifadə edirlər. Şübhəsiz, elə ona görə də Çin və yapon uşaqlarında disleksiya xəstəliyinə tutulma çox aşağı səviyyədədir. Digər xalqlarda isə uşaqlarda disleksiyanı aradan götürmək üçün kandzidən - daxili ekzistensial nitqdən müalicə metodu kimi istifadə edirlər. Bu müalicə metodu kandzinin - daxili ekzistensial nitqi Psixikadan, ekzistensial şöbədən xaricə çıxarmaqla ondan əyani surətdə istifadə edilməsi deməkdir. Çin və yapon dillərindəki kandzi yazı forması kimi.

Psixikanın insan orqanizmində öyrənilməsi Çin və yaponların yazı dillərindəki kana və kandzinin neyropsixoloji əsaslarını tədqiq etməyə imkan verir. Çünki kana və kandzi Psixikada insan nitqinin yaranma formalarını əyani surətdə sübuta yetirir. Əslində kana və kandzi Psixikada ümumi insan nitqinin yaranma formalarıdır. Bundan əlavə, kana və kandzi xalqların psixikalarında özünəməxsus xüsusiyyətlərin öyrənilməsində də yeniliklərin əsaslarını qoyur. Artıq kana və kandzi ilə əlaqədar olaraq Psixikanın öyrənilməsindəki yuxarıdakı yanaşmamız (kandzinin daxili ekzistensial nitqlə eyni funksiyalılığı) xalqların psixikalarının tədqiqində ilkin özünəməxsus fundamental etno-neyropsixoloji amil kimi qiymətləndirilə bilər.

Məlum oldu ki, daxili ekzistensial nitq Psixikanın eksiztensial şöbəsində yaranan, ilkin nitq xüsusiyyətlərinin formal mövcudluq əsaslarını təşkil edən bir proseslər sistemidir. Daxili ekzistensial nitq Psixikanın xarici aləmə göstərdiyi ilkin reaksiyasıdır. Bu reaksiyanın əsaslarını Psixikada dünyanın fundamental formal sindromlarının yaranması təşkil edir. Bu nitqi biz əsasən xaricə çıxarmırıq, dilə gətirmirik, yalnız psixikadaxili nitq proseslərində ondan istifadə edirik. O, qavranılmış, yaddaşa keçmək üçün hafizədə işlənilmiş primitiv psixi proseslər sisteminə daxildir. Daxili ekzistensial nitqin mahiyyət əsaslarını dünyadakı anlayışların, əşyaların mövcudluq formaları təşkil edir. Deməli, daxili ekzistensial nitq dünyanı formal şəkildə Psixikada və ümumi insan nitqində mövcud edir, yaradır. Bu fundamental formal proseslərdən istifadə edərək ümumi insan nitqi formalaşır və yaranır. Daxili ekzistensial nitq ümumi insan nitqinin əsas tərkib hissəsinə daxildir.

### 3.1.3 Ekzistensial şöbənin fundamental və qeyri-subyektiv ruhi proseslərlə əlaqələri

Ekzistensial şöbənin işində ən ciddi və müəmmalı məsələ bu şöbənin (sağ yarımkürənin) fundamental və qeyri-subyektiv ruhi proseslərlə əlaqələrə malik olmasıdır. Qeyd etdiyimiz kimi, ekzistensial şöbə (sağ yarımkürə) daim öz mistik və müəmmalı mahiyyəti ilə diqqəti cəlb edib. XX əsrin ikinci yarısında bu problem bir az da mürəkkəbləşdi. Tarix boyu ekzistensial şöbə (sağ yarımkürə) ilə birbaşa sinir əlaqəsi olan sol əlin passiv fəaliyyəti də həmişə müəmmalar doğurub. Sol əlin sağ ələ qeyri-adi köməkçi olması və sol əlin xüsusi hafizəyə malik olması barədə çoxlu mülahizələr söylənilirdi. Görünür, insanlar tarix boyu bu yarımkürə haqqında dediklərində yanılmayıblar. Çunki dinlərdə də bu sol ələ (ekzistensial şöbəyə, sağ yarımkürəyə) xüsusi münasibət var. Bəzi dini mərasimlərdə bu amil nəzərə alınır. Dinlər də sol ələ münasibətdə yanıla bilməzlər.

Ekzistensial şöbənin qəribəliyi Psixika daxilində və onun fəaliyyətində də hiss olunur. Bu amil Psixikanın öyrənilməsinin ilk günlərindən nəzərlərimizi cəlb etmiş və artıq bu sahədə bəzi məsələləri aydınlaşdırmağa nail olmuşuq. Məsələn, ekzistensial şöbənin (sağ yarımkürənin) nəhəng informasiya ehtiyatlarına malik olması. Qeyd etdiyimiz kimi, ekzistensial şöbənin (sağ yarımkürənin) nəhəng informası ehtiyatlarına malik olması ilə əlaqədar "çoxbilən olması" onun qapalı və sirli mahiyyətini yaradan əsas amillərdən biridir.

Ümumi fikrə gəlmək mümkündür ki, ekzistensial şöbənin (sağ yarımkürənin) sirli və müəmmalı olmasında heç kəs yanılmayıb. Üstəlik bu sahədə yeni məlumatlar və əsaslandırıcı sübutlar əldə olunmaqdadır. Bu əsaslandırıcı amillərdən biri də və ən mühümü də ekzistensial şöbənin (sağ yarımkürənin) fundamental və qeyri-subyektiv ruhi proseslərlə əlaqələrə malik olmasıdır.

Ekzistensial şöbənin fundamental və qeyri-subyektiv ruhi proseslərlə əlaqələrə malik olması artıq müəyyən real sübutlara malikdir. İlkin sübut amili mövcudluq və inkişaf qanunauyğunluqlarının nəzərə alınmasıdır. Yəni heç cür boş yerə ekzistensial şöbənin (sağ yarımkürənin) sirli, mürəkkəb təbiəti haqqında mülahizələr irəli sü-

rülə bilməzdi. Bütün bu mülahizələrin və şübhələrin subyektiv məntiqi əsasları olmuşdur.

Burada digər əsas sübut amili ekzistensial şöbənin dünya və mövcud məkanla fasiləsiz sıx qarşılıqlı əlaqəsi ola bilər. Bu işlə Psixikada məhz ekzistensial şöbə məşğul olur. Əgər ekzistensial şöbə mövcud məkanla gündəlik, fasiləsiz bu cür geniş əlaqələrə malikdirsə, deməli həmin məkan daxilində olan fundamental, subyektiv və qeyri-subyektiv ruhi informasiyalarla, proseslərlə əlaqə saxlamağa, qarşılıqlı şəkildə işləməyə məcburdur.

Göründüyü kimi, ekzistensial şöbənin dünyada olan fundamental, subyektiv və qeyri-subyektiv ruhi proseslərlə əlaqə saxlaması təbii hala çevrilir. Burada ən ciddi problem isə **ruhla** bağlıdır. Psixika ruhi mahiyyətə və ruhi fəaliyyətə malikdir. Bu amil tarix boyu hamıya məlum olan bir reallıqdır. Məlum olmayan o olmuşdur ki, Psixikanın ruhi proseslərlə ilkin və əsas əlaqəsini yaradan məhz ekzistensial şöbə (sağ yarımkürə) olmuşdur. Biz bu problemə "Psixika və ruh" mövzusunda ətraflı şəkildə toxunacağıq.

Nəhayət, ekzistensial şöbənin dünyada olan fundamental, subyektiv və qeyri-subyektiv ruhi proseslərlə əlaqəsini bizim üçün real edən əsas sübut amillərindən biri də 13 yaşlı amerikalı Cini ilə bağlıdır **(Bax: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум, поведение", М. 1998. səh. 171)**. Cininin atası psixopat olduğundan onu iyirmi aylığından başlayaraq stula bağlanmış halda tam izolyasiyada saxlayıb. Cini 1970-ci ildə Kaliforniya ştatında tapılıb. O, heç bir insanla münasibətdə və ünsiyyətdə olmayıb. 13 yaşına qədər bu cür tam izolyasiya şəraiti davam edib. Cininin üzərində aparılmış tədqiqatlar göstərib ki, onun onsuz da zəif olan nitq, dil və hətta digər subyektiv xüsusiyyətləri sol yarımkürədə (koqnitiv şöbədə) yox, məhz sağ yarımkürədədir (ekzistensial şöbədədir) və oradan idarə olunur. Cini tapılanda isə o, ümumiyyətlə danışa bilmirmiş və digərlərin nitqini də anlamırmış. Sonralar Cininin üzərində aparılmış müalicə və profilaktik tədbirlərdən sonra o, çətinliklə, qismən danışmağa başlamışdır.

Cini hadisəsi onu göstərir ki, insanlarla münasib, hətta primitiv əlaqələr olmayanda nəinki, qeyri-subyektiv proseslər, həm də subyektiv proseslər belə ekzistensial şöbə (sağ yarımkürə) ilə əlaqəyə

girirlər və orada məskunlaşırlar. Məhz subyektiv mühitin, insanların olmaması Cininin sol yarımkürəsinin (koqnitiv şöbənin) olduqca çox zəif inkişafına səbəb olub. Onun çox zəif olan nitq və dil xüsusiyyətləri belə ekzistensial şöbəyə (sağ yarımkürəyə) keçmişdir. Bu o deməkdir ki, Cinidə yalnız daxili ekzistensial nitq inkişaf etmişdir. Yəni daxili ekzistensial nitq Psixikada hegemonluğu ələ alaraq hətta sol yarımkürədəki (koqnitiv şöbədəki) ümumi insan nitq xüsusiyyətlərini belə öz səlahiyyəti altına almışdır.

Deməli, qeyri-subyektiv proseslər çox tezliklə və asanlıqla ekzistensial şöbə ilə qarşılıqlı əlaqələr yaradırlar. Məntiqli, şüurlu həyat tərzini bəşəriyyətə subyektiv şərait (insanlar) və sol yarımkürə (koqnitiv şöbə) bəxş edir. Bu baxımdan, heç cür fundamental, subyektiv və qeyri-subyektiv ruhi proseslər sol yarımkürə (koqnitiv şöbə) ilə əlaqədə ola bilməzlər. Cini hadisəsi bir daha onu sübut edir ki, qeyri-subyektiv məkan, bütün ruhi proseslər yalnız və yalnız ekzistensial şöbə (sağ yarımkürə) ilə qarşılıqlı əlaqələrdə olub və orada məskunlaşa bilirlər.

İnsanların yaradıcılıq fəaliyyətində ekzistensial şöbə mühüm rol oynayır. Bu da məhz ruhi proseslərin ekzistensial şöbədə geniş fəaliyyəti ilə bağlıdır. Xüsusilə də "ilhama gəlmək" hallarında əksər vaxtlarda insanların davranışında anlaşılmaz xüsusiyyətlər yaranır. Bəzən insan tanınmaz hala düşür. Bu ona görə baş verir ki, bu zaman məlum şəxs ekzistensial şöbənin nəhəng informasiya ehtiyatlarından və ruhi proseslərdən maksimum istifadə etməyə çalışır. Bu, ani olaraq istəkdən asılı olmayaraq da baş verə bilər. Yəni yaradıcı şəxs anlaşılmaz halda bu şəraitə düşə bilər. Düzdür, təxəyyül koqnitiv şöbədə yerləşir. Lakin yaradıcılıq proseslərində keçmiş təcrübə, informasiya ehtiyatları, asılı olmayan ruhi proseslər tələb olunduğu üçün ekzistensial şöbə burada aktiv iştirak edir. Qeyd etdiyimiz kimi, rəssamlar yaradıcılıq proseslərində daha çox ekzistensial şöbədən istifadə etdikləri üçün onların psixikalarının ekzistensial şöbələri koqnitiv şöbələrinə nisbətən həmişə aktiv olur. Rəssamlar dünyanı, oradakı əşyaları formal surətdə yaradırlar. Onların bu işi şübhəsiz, ekzistensial şöbə ilə sıx əlaqədə olmağı tələb edir. R.Ornsteyn və D.Qelenin apardıqları tədqiqatda bunu sübut ediblər. Xüsusi tapşırıqda fiqurların yığılması və onların çəkilməsi tələb olunur.

Sonra isə bunlara beyin yarımkürələrində olan reaksiyalar EEQ (elektroençefaloqramma) vasitəsilə yoxlanılır. Məlum olur ki, bu prosesdə həmişə rəssamların sağ yarımkürəsi (ekzistensial şöbəsi) daha aktiv reaksiya verir **(Bax: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум, поведение", М. 1998. səh. 209-210).**

Son vaxtlar hətta cəmiyyətdə də sağ yarımkürəni (ekzistensial şöbəni) optimist və yaradıcı yarımkürə kimi qəbul etməyə başlayıblar. Bu haqda qəzet və jurnallarda yazılır, ictimai mülahizələr irəli sürülür və təhlillər aparılır. Bu da təsadüfi deyil. Yuxarıda qeyd etdiyimiz kimi, təxəyyül sol yarımkürədə yerləşsə də, öz işini oradan başlasa da, yaradıcılıq və yenilik üçün sağ yarımkürədən (ekzistensial şöbədən), onun informasiya ehtiyatlarından geniş formada istifadə edir.

Sağ yarımkürənin (ekzistensial şöbənin) mövcudluq mahiyyətinin aydınlaşdırılmasında bir məsələni qeyd etmək zəruridir. Yadınızdadırsa, R.Ornsteyn sağ yarımkürəni şərqlə müqayisə etmişdi. O, mistik, fantastik görsənən Şərqi müəmmalı, sirli mahiyyətə malik sağ yarımkürə ilə, texniki və sosial inkişafa malik Qərbi isə analitik, qismən aydın funksiyalı sol yarımkürə ilə eyniləşdirir. O, sağ yarımkürəni **"Şərq mistisizmi" ("Восточный мистицизм")**, sol yarımkürəni isə **"Qərb texnisizmi" ("Западный техницизм")** kimi adlandırmışdır. Bu haqda Ornsteyn 1970-ci ildə çapdan çıxmış **"Şüurun (dərketmənin) psixologiyası"** ("Психология сознания") adlı kitabında yazmışdır.

Ornsteynin sağ yarımkürəni (ekzistensial şöbəni) Şərq mistisizmi ilə müqayisə etməsi təsadüfi deyil. Bu yanaşma inkişaf qanunauyğunluqları baxımından bir çox məsələləri təsdiq edir. Doğrudan da ilkin mövcudluğu, ruhi prosesləri qavrayan bir şöbə kimi sağ yarımkürənin (ekzistensial şöbənin) Şərqlə müqayisəsi real sayıla bilər. Məsələn, qədim dünya tarixindən də bəllidir ki, ilkin insan mövcudluğunu, elm və mədəniyyətin yaranmasını məhz Şərqlə əlaqələndirirlər. Nəhəng piramidalar, qəsrlər, qalalar və şəhərlər ilk dəfə olaraq Şərqdə yaranmışdır. Bundan əlavə, bizə bəlli olan ilahi dinlər əsasən Şərqdə yaranmışdır. Ona görə Şərqdə ruhlara, qeyri-subyektiv ilahi qüvvələrə inam həmişə yüksək səviyyədə olmuşdur.

Göründüyü kimi, Şərqin sağ yarımkürə (ekzistensial şöbə) ilə inandırıcı paralel mövcudluq amilləri vardır.

Deməli, Ornsteyn düzgün olaraq Şərqi sağ yarımkürə (ekzistensial şöbə) ilə, Qərbi isə sol yarımkürə (koqnitiv şöbə) ilə müqayisə edir. Şərq həmişə sirli, müəmmalı, ruhi və dini olmuşdur. Sağ yarımkürə (ekzistensial şöbə) də bizim üçün çətin öyrənilən, ziddiyyətli və müəmmalı bir şöbədir. Şərqdə keçmiş adət-ənənələrə, dini etiqadlara, ruhi proseslərə inam və hörmət vardır. Onların həyat tərzləri bu proseslərə uyğun qapalı, qəribə bir səviyyədədir. Ekzistensial şöbə (sağ yarımkürə) də keçmiş təcrübəyə, nəhəng informasiya ehtiyatları toplama ənənələrinə malik qapalı bir şöbədir. Əksinə, Qərb həddən artıq azadlığı, inkişafı, texniki tərəqqisi, aktiv sosial fəaliyyəti və qəribəsizliyi ilə nəzəri cəlb edir. Bu da koqnitiv şöbənin (sol yarımkürənin) analitik, sırf subyektiv və aktiv fəaliyyətinə uyğun gəlir. Ümumiyyətlə, Ornsteynin bu müqayisəsi real proseslərə uyğundur və məlum müqayisə dünyanın, Şərqdə və Qərbdə yaşayan insanların, nəhayət, Psixikanın mövcudluq qanunauyğunluqlarını əks etdirir. Bu müqayisə Psixikanın şöbələrinin öyrənilməsində dəqiqləşdirilmiş hər bir şöbənin özünəməxsus funksiyalarını da bir daha təsdiqləyir.

Ekzistensial şöbə ilə tanışlığı sona çatdırırıq. Məlum oldu ki, ekzistensial şöbə Psixikanın iki fundamental funksiyalarından birinə - dünyanı, məkanı, əşyaları qavrama xüsusiyyətlərinə, subyektiv, qeyri-subyektiv ruhi proseslərlə əlaqə yaratmaq imkanlarına malikdir. Ekzistensial şöbədə nəhəng yaddaş strukturlarını formalaşdıran qavrayış və hafizə vardır. O, daxili ekzistensial nitqə və nəhəng informasiya ehtiyatlarına malikdir.

İndi isə Psixikanın ikinci fundamental funksiyalarını - analitik, dərketmə və subyektiv prosesləri yerinə yetirən şöbəsi ilə yaxından tanış olaq. Bu, koqnitiv şöbədir (sol yarımkürə). Xatırladırıq ki, psixi proseslərin yaranması, Psixikanın formalaşması məhz ekzistensial və koqnitiv şöbələrin qarşılıqlı əlaqə zonası vasitəsilə həyata keçirdikləri qarşılıqlı birgə işindən yaranır (Bax: Şəkil 4).

## 3.2 KOQNİTİV ŞÖBƏ (SOL YARIMKÜRƏ)

Koqnitiv şöbə (sol yarımkürə) elmi cəhətdən diqqəti cəlb etmiş ilk beyin orqanlarından olmuşdur. Sadəcə olaraq bu şöbənin aktiv sağ əllə sinir əlaqəsi artıq onun analitik və subyektiv mahiyyəti haqqında müəyyən real mülahizələr söyləməyə imkan verirdi. Hələ XİX əsrdə bu şöbə (sol yarımkürə) anatomik və fizioloji baxımdan öyrənilməyə başlandı. Onun analitik olması, orqanizmin aktiv zehni fəaliyyətinə xidmət etməsi elə ilk nəticələrdən hiss olunurdu. Nəhayət, Daks, Broka və Vernike kimi familiyalar sol yarımkürənin (koqnitiv şöbənin) beyin qabığında özlərinə yer tapdılar. Nitqin və dil xüsusiyyətlərinin bu şöbə ilə əlaqəsi və oradan idarə olunması təsdiq edildi. **Zona Broka və Vernike** kimi termin elmə gətirildi.

Aktiv fəaliyyətdə olan sağ əlin özünü bu formada aparması onun zehni və subyektiv bir orqanla sıx əlaqədə olmasının real göstəricisidir. Geniş, aktiv fəaliyyət göstərən sağ əl, sağ ayaq və orqanizmin sağ tərəfi kimi onlarla birbaşa sinir əlaqəsi olan sol yarımkürə də (koqnitiv şöbə də) eyni dərəcədə analitik və aktiv fəaliyyətə malikdir. Buna şərait yaradan isə Psixikanın iş strukturu və bu şöbədə yerləşən ali zehni proseslərdir (Şüur, təfəkkür, nitq, təxəyyül).

Niyə biz sol yarımkürəyə koqnitiv şöbə (subyektivləşdirici şöbə) deyirik? Sol yarımkürə Psixikaya zehni fəaliyyət, subyektivlik gətirən, onu insan Psixikası kimi formalaşdıran fundamental analitik funksiyalara malikdir. Psixikada insana məxsus bütün subyektiv və zehni proseslər burada yaranır. Bu yarımkürə psixi proseslərin yaranmasında aktiv həlledici fəaliyyət göstərən ali zehni proseslərə malikdir. Sol yarımkürənin beyin qabığında şüur, təfəkkür, nitq və təxəyyül kimi yalnız insanlara məxsus ali idraki proseslər yerləşir. Bundan əlavə, burada koqnitiv hafizə, digər bizə bəlli və bəlli olmayan koqnitiv və subyektiv proseslər vardır (Bax: Şəkil 4). Subyektivləşmək, insan kimi yaşamaq sindromları sol yarımkürədən başlayaraq Psixikanın ümumi işinə çevrilir. Orada informasiyalar ətraflı şəkildə işlənərək primitiv insan fəaliyyətinə məntiqi subyektivlik gətirir. Əlbəttə, bu proses Psixikanın hər iki şöbəsinin fasiləsiz qarşılıqlı əlaqələri nəticəsində yaranır.

Yuxarıda qeyd etdiklərimizi nəzərə alaraq Psixikanın bu şöbəsini (beynin sol yarımkürəsini) "koqnitiv şöbə" kimi adlandırdıq **(ingilis dilində coqnitive, coqnition – idrak, dərketmə deməkdir).** Psixikanı öyrənməyə başlayanda bu şöbəni "subyektivləşmiş şöbə" kimi adlandırmışdım. Bəzi beynəlxalq konfranslarda və çap məhsullarında bu şöbənin adı elə "subyektivləşmiş şöbə" kimi nəşr edilib. Sonralar bu elmi işin dünyada təbliğində, anlaşılan olmasında problemlər yaranmasın deyə, bu şöbənin adı dəyişdirilib "koqnitiv şöbə" edildi. Çünki bəzi xarici dillərdə, xüsusilə də ingilis dilində "subject" sözü məntiqi-filoloji baxımdan bu şöbənin fəaliyyət mahiyyətini tam əhatə etmir. Ona görə burada daha məntiqli və bu şöbəyə məntiqi mahiyyət baxımdan daha uyğun gələn beynəlxalq səviyyəli elmi sözdən – "koqnitiv" sözündən istifadə edildi. Lakin Azərbaycan dilində, elə ingilis dilində də bu şöbəyə "subyektivləşmiş şöbə", "subyektiv şöbə" də demək mümkündür.

Əslində isə bu texniki-filoloji dəyişiklik Amerikanın Kaliforniya Universitetinin elmi əməkdaşı **Mariya Levintovanın** adı ilə bağlıdır. Elmi işimlə bağlı Maşa ilə apardığım fikir mübadiləsi zamanı o, mənə bu şöbənin "subject" sözü ilə əlaqəsinin ingilis dilinə ətraflı məntiqli-filoloji tərcüməsindən şübhələndiyini bildirdi. Mən onun bu iradına fikir vermədim. Təxminən altı ay sonra ingilis dilinə tərcümədə eyni problemlərlə üzləşdim. Yalnız o vaxt Maşanın mənə bildirdiyi üstüörtülü iradı dərindən anladım. Geniş araşdırmalardan sonra 2005-ci ilin sonunda bu şöbənin adını beynəlxalq səviyyəli və mənalı anlamla – **koqnitiv** sözü ilə əvəz etdim. İndi bu dəyişikliyi **"Maşa dəyişikliyi"** kimi adlandıraraq tez-tez xatırlayıram. Bu haqda Mariya Levintovanın özünü də məlumatlandırmışam.

Deməli, insan doğulan kimi Psixika və onun şöbələri formalaşmağa başlayır. İlk andan Psixikaya daxil olan informasiyalar hər iki şöbəyə eyni səviyyədə çatdırılır. Lakin ekzistensial şöbəyə nisbətən koqnitiv şöbənin ən aktiv formalaşma dövrü, gözəgörünən xarici fəaliyyəti mənlik şüurunun yaranmasından sonra başlayır. Bu da təxminən üç yaşından sonrakı dövrü nəzərdə tutur. Çünki üç yaşından sonra şəxsi və fərdi subyektivləşmənin əsasları qoyulur. İnsan "mən", "mənimdir" sozlərini öz Psixikasında dərk edib subyektivləşdirməyə başlayır.

Koqnitiv şöbənin fəaliyyətinin düyün nöqtəsi şüurda cəmləşir. Təbiidir, şüur insan idrakına, subyektivləşməyə xidmət edən ən ali psixi proseslər sistemidir. Onun fundamental fəaliyyəti nəticəsində Psixikada koqnitiv dərketmə xüsusiyyətləri yaranır. Koqnitiv səviyyə insan Psixikasının subyektiv fəaliyyət əsasıdır. Lakin ilk növbədə bizim təhlil diqqətimizi şüur yox, insan Psixikasının ilkin fəaliyyət reaksiyasını yaradan, insanlara ilkin ünsiyyət münasibətləri bəxş edən nəhəng zehni orqan olan nitq olacaq.

## 3.2.1 Nitq

Nitqin, şifahi və yazılı nitq xüsusiyyətlərinin koqnitiv şöbənin (sol yarımkürənin) beyin qabığında yerləşməsi, oradan idarə olunması artıq neyropsixoloji və bioloji baxımdan təsdiq olunmuşdur. Şübhəsiz, nitqin ümumi fəaliyyəti ətraflı şəkildə öyrənilməyib. Biz isə nitqi və onun funksional xüsusiyyətlərini Psixikada - koqnitiv şöbədə öyrənməyə çalışacağıq.

Nitqdən istifadə edib çox asanlıqla biz fərdi və sosial prosesləri təhlil edib tənzimləyirik. Əlbəttə, səslər və dil işarələri üzərində qurulmuş nitq bu fundamental prosesləri tək yerinə yetirmir. Onun da tərkib hissəsi, fəaliyyət xüsusiyyətləri və artıq qeyd etdiyimiz hafizəli təcrübəsi, informasiya ehtiyatları vardır. Bütün bu nitqi fəaliyyət xüsusiyyətləri Psixikanın ümumi işi zamanı formalaşır. Bu baxımdan, şüur və hafizə nitqin daimi əvəzedilməz tərkib hissələridir.

Nitq orqanizmdə fərdin bir insan kimi fəaliyyət reaksiyasını özündə əks etdirir. İnsan orqanizmində bu formalı işi yerinə yetirən digər bir struktur yoxdur. Yəni nitq Psixikanın xaricə çıxdığı ilkin və yeganə büruzəverilmə məkanıdır. Dar mənada ekzistensial şöbə üçün bu işi daxili ekzistensial nitq yerinə yetirir. Qavrayış, ilkin hafizə, hissi idrak məhz ilk növbədə daxili ekzistensial nitqdə büruzə verilir.

Nitq Psixikaya malik bütün canlılarda vardır. Lal və kar insanlarda da nitq özünəməxsus mövcudluq xüsusiyyətlərinə malik olur. Nitq şifahi, yazılı, emosional, jestli-hərəkətli formalarından asılı ol-

mayaraq o Psixikanın həmin andaki real iş nəticəsi kimi yaranır və Psixikanın həmin andakı fəaliyyətini əks etdirir. Bəli, nitq Psixikanı əks etdirən, onun dinamik fəaliyyətini tənzimləyən əsas strukturdur. Nitq Psixikanın artıq xaricə çıxdığı ilkin fəaliyyət güzgüsüdür.

Nitq sol yarımkürənin (koqnitiv şöbənin) beyin qabığındakı müxtəlif hissələri tərəfindən idarə olunur və tənzimlənir. Burada **Zona Vernike** və **Zona Broka** kimi hissələr ayırd edilir. Şifahi nitq, onun formal xüsusiyyətləri, məntiqi məzmunu Zona Vernike ilə əlaqədardır və oradan idarə olunur. Zona Brokada isə nitqin əmələ gəlmə prosesləri hazırlanır. Sonra bu proseslər beyin qabığının digər fəaliyyət zonalarına ötürülür. Nitqi yerinə yetirən əzələlərin və dodaqların işi də Zona Brokaya aiddir.

Bundan əlavə, afaziya (nitq və dil xüsusiyyətlərinin anormallığı) xəstəliyinin öyrənilməsi də nitqin sol yarımkürədə (koqnitiv şöbədə) yerləşməsini müəyyən mənalarda təsdiq edir. Artıq tam şəkildə dəqiqləşdirilib ki, sol yarımkürənin (koqnitiv şöbənin) zədələnməsi afaziya xəstəliyinin yaranmasına səbəb olur.

Xüsusi **Vada** testinin köməkliyi ilə insanların neçə faizində nitqin, dil xüsusiyyətlərinin sol yarımkürədən (koqnitiv şöbədən) idarə olunması dəqiqləşdirilib. Bu testin əsasında o durur ki, hər hansı bir yarımkürə (Psixika şöbəsi) müvəqqəti olaraq narkozla keyləşdirilir. Bu yolla xüsusilə də xəstələrdə beyin yarımkürələri üzərində kliniki əməliyyat zamanı hansı yarımkürənin nitqi və nitq xüsusiyyətlərini idarə etməsi prosesləri öyrənilir. Vada testi ilə aparılmış tədqiqatlar aşağıdakı nəticələri vermişdir.

Məlum olmuşdur ki, uşaqlıqda beyin zədələri olmayan sağ əllilərin 95 %-nin nitqi və nitq xüsusiyyətləri sol yarımkürədədir (koqnitiv şöbədədir) və oradan idarə olunur. 5 % - də isə əksinə, bu proses sağ yarımkürədədir (ekzistensial şöbədədir) və oradan idarə olunur. Solaxayların da (sol əllilər) əksəriyyətində - 70 %-də nitq və nitq xüsusiyyətləri sol yarımkürədədir (koqnitiv şöbədədir) və oradan idarə olunur. Solaxayların (sol əllilərin) qalan 30%-nin 15%-nin nitqi və nitq xüsusiyyətləri ümumiyyətlə yalnız sağ yarımkürədə (ekzistensial şöbədə) yerləşir. Qalan 15%-ninki isə hər iki yarımkürələr – sol və sağ yarımkürələr (Psixikanın şöbələri) tərə-

fındən ümumi şəkildə idarə olunur (**Bax: C. Спрингер, Г. Дейч. "Левый мозг, правый мозг". M. 1983, səh. 30**).

Vada testinin köməyi ilə öyrənmək mümkün olmuşdur ki, uşaqlıqda sol yarımkürəsi zədələnmiş insanların içərisində solaxayların (sol əllilərin) 70 %-nin, sağ əllilərin isə 19 %-nin nitqi və nitq xüsusiyyətləri sağ yarımkürə (ekzistensial şöbə) tərəfindən ya tam idarə olunur, ya da ki, yalnız nitq oradan tənzimlənir. Buradan aydın olur ki, sol yarımkürənin (koqnitiv şöbənin) zədələnməsi ilə əlaqədar onun nitq və nitq xüsusiyyətləri qismən və sonra tam sağ yarımkürəyə (ekzistensial şöbəyə) keçməyə başlayır. Daha doğrusu, Psixikanın ümumi universal fəaliyyət prinsiplərinə uyğun olaraq sağ yarımkürə (ekzistensial şöbə) bu nitq funksiyalarını məcburən yerinə yetirməlidir. Çünki sol yarımkürə (koqnitiv şöbə) zədələndiyi üçün Psixikanın fasiləsiz ümumi işi pozula bilər. Əlbəttə, bu, bir daha Psixikadakı neyronların universal fəaliyyətini və Psixika şöbələrinin nisbi fəaliyyət prinsiplərini təsdiq edir. Vada testinin köməyi ilə alınmış yuxarıdakı nəticələr Psixikanın və orada nitqin öyrənilməsində əsaslandırıcı, təsdiqedici amillər kimi də müsbət əhəmiyyət daşıyır.

Bundan əlavə, nitqin və nitq xüsusiyyətlərinin sol yarımkürədə (koqnitiv şöbədə) yerləşməsi və oradan idarə olunmasını "Döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar" da sübuta yetirib.

Nitqin və nitq xüsusiyyətlərinin yaranması insan Psixikasının artıq formalaşmasından xəbər verir. Bu baxımdan, nitq və Psixikanın paralel formalaşma dövrü keçmələri daha çox hiss olunur. Nitqin və nitq xüsusiyyətlərinin tam şəkildə sol yarımkürədə (koqnitiv şöbədə) sona çatması məhz burada səslərin, sözlərin, filoloji imkanların yaranması üçün əlverişli analitik şəraitin olması ilə əlaqədardır. Əlbəttə, nitq prosesləri çox mürəkkəb psixikadaxili neyropsixoloji fəaliyyəti əhatə edir. İndi artıq bu prosesləri biz yalnız Psixika daxilində öyrənəcəyik. Nitqin özünəməxsus tərkib hissəsi, onun hafizəli təcrübəsi, informasiya ehtiyatları, Psixika daxilində digər biofizioloji imkanlar ümumi nitqini formalaşdırır.

Nitqin formalaşmasında ilkin formal informasiyalar ekzistensial şöbədən gəlir. Daxili ekzistensial nitq qarşılıqlı əlaqə zonası va-

sitəsilə ekzistensial şöbədən dünyanın, mövcud əşyaların qavranılmış formalarını ümumi insan nitqi üçün koqnitiv şöbəyə göndərir. Koqnitiv şöbədə bu mövcud əşya və anlayışlar formaları subyektivləşir, səslərə, nəhayət, anlaşılan sözlərə çevrilir. Yəni həmin formalara uyğun olaraq sözlər məntiqi-filoloji mahiyyət kəsb etməyə başlayır və nitqin fəaliyyət strukturlarına daxil olurlar. Məsələn, "ağac" öz mövcud reallıq formasını ekzistensial şöbədə tapır. "Ağac" sözü qavranılmış mövcudluq forması kimi QƏZ vasitəsilə koqnitiv şöbəyə gələrək, orada işlənərək həmin formaya uyğun səsli-məntiqli sözə çevrilir. Deməli, nitq qavranılmış formal reaksiyaları səslərə, sözlərə və ünsiyyət vasitələrinə çevirir.

Nitqin informasiya ehtiyatlarına, hafizəli təcrübəyə malik olması ona geniş fəaliyyət imkanları yaradır. Burada ən mühüm amil hafizəli təcrübədir. Hafizəli təcrübənin olması nitqin bu sahədə qismən müstəqil fəaliyyət göstərməsinə şərait yaradır. Yəni nitq ekzistensial şöbədən, daxili ekzistensial nitqdən formal informasiyalar alarkən onları öz hafizəli təcrübəsi hesabına tanıya bilər. Belə olan halda nitq daha normal, daha aktiv fəaliyyət göstərir. Əgər gələn formal informasiya yenidirsə, nitqin hafizəli təcrübəsində yoxdursa, onda koqnitiv şöbədə əqli nitqi proseslər təkrarlanaraq bu informasiyalar nitq üçün işlənilib hazırlanır. Məsələn, "ağac" formasını, sözünü, Psixika dəfələrlə görmüş, qavrayış vasitəsilə hafizəyə keçirərək bütün Psixika şöbələrinə yaymışdır. Təbii ki, bu söz dəfələrlə nitq vasitəsilə söylənilmiş və nəticədə nitqin informasiya ehtiyatlarına daxil olmuşdur. Əksinə, qavranılmayan, Psixikaya gətirilməyən mövcud əşyalar və anlayışlar haqqında nitq yeni fəaliyyət prosesi keçməlidir. Bu onu bir daha sübut edir ki, Psixikanın hər iki şöbəsi, şöbələr daxilindəki ali fəaliyyət prosesləri, elə nitqin özü yalnız və yalnız qarşılıqlı əlaqələrdə formalaşırlar, yaranırlar. Bu proseslərin ayrı-ayrılıqda fəaliyyət göstərmələri qeyri-mümkündür. Psixika yalnız hər iki şöbənin və digər ali proseslərin sağlam, normal assimetriyasının real nəticəsi kimi formalaşır.

Nitqin yaranmasında ekzistensial və koqnitiv şöbələrin birgə işini, nitqin tərkib hissəsini görmək üçün Çin və yapon dillərinin yazılı nitqində istifadə olunan kana və kandzi yazı formaları mühüm əhəmiyyət daşıyır. Biz bu yazı formaları haqqında artıq

sizə məlumat vermişik. Kana yazılı nitqin səsli əlifba hərflərinə əsaslanan adi yazı formasıdır. Kandzi isə mövcud əşyaların, anlayışların təsvirinə, qismən şəkillərinin çəkilməsinə əsaslanan yazı formasıdır. Bir daha qeyd edirik ki, məntiqi nəticə baxımından, bu yazı formaları nitqin insan Psixikasında yaranma formalarıdır. Kana – subyektiv məntiqli-səsli forma (koqnitiv şöbə), kandzi isə daxili ekzistensial nitqə əsaslanan mövcudluq formasıdır (ekzistensial şöbə). Biz keçmiş fəsillərdə kana və kandzi ilə bağlı psixikadaxili prosesləri ətraflı şəkildə təhlil etmişik.

### 3.2.2 Şüur

İlk baxışdan elə görsənir ki, Psixikaya subyektivlik gətirən və fərdə insan statusu verən yeganə bir orqan varsa, o da şüurdur. Əlbəttə, şüur elmi və ictimai mühitdə çox yayılmış hegemon terminlərdəndir. Hətta onu bizim məlum tədqiqat problemimiz olan Psixika və onun fundamental fəaliyyəti ilə də müqayisə etmişlər. Ümumiyyətlə isə şüur elə Psixologiya və elmlər tarixində "Psixika" termininə güclü sarsıdıcı "zərbələr" vurmaqla həmişə dəbdə olub. Xüsusilə də freydizmin yaranması, şüursuzluq hallarının geniş şəkildə öyrənilməsi bu problemi daha qabarıq etdi. XX əsrin ikinci yarısında Psixologiyada və elmlər sistemində şüur öz hegemonluğunu saxlayaraq, onu daha da genişləndirdi. Elə müasir günümüzdə də şüura münasibət öz hegemonluğu ilə seçilir.

Bütün bunlara baxmayaraq, şüur elmlər sistemi daxilində Psixika ilə bağlı olan nəhəng boşluğu tam doldura bilmədi. Bunun da real səbəbləri vardır. Tarix boyu Psixika öz mövcudluq statusunu və "Psixika" terminini öz mövcudluq mahiyyəti üzərində qoruyub saxlaya bilmişdir. Bu baxımdan şüurun Psixikanı əvəz etməsi və yaxud insan orqanizmində əsas dominant psixi orqan kimi fəaliyyət göstərməsi ilə bağlı yaranan mülahizələr özünü doğrulda bilməzdi. Çünki şüur heç vaxt tam şəkildə Psixikanı, onun nəhəng iş strukturunu, mövcudluq xüsusiyyətlərini əvəz edə bilməz. Şüur Psixikada yalnız özünəməxsus hegemon funksiyalarını yerinə yetirir. Bu on-

dan ibarətdir ki, şüur Psixikaya, insana zehni subyektivlik statusu verən psixikadaxili orqanların içərisində ən ali dominant fəaliyyətli rəhbərdir. Şübhəsiz, hegemon fəaliyyəti baxımından şüur nitqi, təfəkkürü, təxəyyülü geridə qoyur. Əslində isə insanlara məxsus bu ali psixikadaxili proseslər bir-birlərinin tərkib hissələri kimi fəaliyyət göstərirlər.

Şüurla müqayisə oluna bilən ali psixikadaxili proses kimi hafizə nəzəri cəlb edir. Real nəticələr baxımından hafizə Psixikadakı fundamental əhəmiyyətli işinə görə heç də şüurdan geridə qalmır. Təkcə onu qeyd etməyə dəyər ki, dünyanı, oradakı əşyaları Psixikaya gətirən və ümumi istifadə üçün onları qoruyub saxlayan məhz hafizədir. Əgər hafizə qavrayış vasitəsilə mövcudluğu Psixikaya gətirməsə, şüur nəyi və necə işləyib ümumiləşdirər, subyektivləşdirər. Hafizə insan ömrünün sonuna qədər yaddaş və informasiya ehtiyatlarını tənzimləyir. Şüur isə bu tənzimləmədə bütün Psixika üçün zehni subyektivləşdirmə funksiyalarını yerinə yetirir. Bu proseslər birgə qarşılıqlı fəaliyyətin nəticəsində formalaşır. Belə olan halda müəyyən fundamental proseslər zamanı hansısa struktur öz dominant və geniş fəaliyyəti ilə seçilə bilər. Lakin onların heç birini Psixika ilə müqayisə etmək qeyri-mümkündür. Çünki Psixika nəhəng universal fəaliyyət strukturu kimi insan orqanizminin dünyada formalaşma və yaşama qanunauyğunluqlarını əks etdirir.

Şüur Psixikada geniş səlahiyyətlərə malik ən ali tərkib hissəli strukturdur. Psixikada şüurdan yüksəkdə duran tənzimləyici məntiqi səviyyə yoxdur. Bu baxımdan, şüur Psixikada elə bil dövlət başçısı – "prezident" kimi fəaliyyət göstərir. Çünki psixi proseslərin real fəaliyyətə çevrilməsində sonuncu söz şüura məxsusdur. Necə deyərlər, şüur "yaranma fərmanını" imzalayır.

Şüurun Psixikada ən ali funksiyası əqli ümumiləşdirmə ilə bağlıdır. Şüur bu ali funksiyası ilə subyektiv insan fəaliyyətinin əsaslarını qoyur. O, koqnitiv şöbədəki bütün prosesləri bu ümumi işə tabe etdirir. Bu zaman o, Psixikadakı informasiya ehtiyatlarından və digər işlənmiş hazır məhsullardan da sərbəst istifadə edə bilir. Çünki o, Psixikanın ümumi işini yekunlaşdıraraq orqanizmin ilkin fəaliyyət reaksiyalarını yaradır. Belə olan halda şüur qismən hazır psixi məhsullarla işləməyə məcburdur. Şüurdan sonra psixi

prosesləri ümumiləşdirən, onları fəaliyyət nəticələrinə çevirən digər proses yoxdur. Şüur məntiqi idrakın maksimal səviyyəsidir.

Koqnitiv şöbədə yerləşən təfəkkür də ümumi funksiyanı yerinə yetirir. Lakin onun ümumi funksiyası şüura nisbətən birtərəflidir. Təfəkkür Psixikada öz xüsusi dərketmə işi ilə məşğul olur. Təfəkkür Psixikada şüur kimi geniş səlahiyyətlərə və fəaliyyət dairəsinə malik deyil. Ümumiyyətlə, Psixikada ən geniş fəaliyyət dairəsi şüur və hafizəyə məxsusdur. Onların biri ekzistensial şöbədə (hafizə), digəri isə koqnitiv şöbədə (şüur) hegemonluq edir.

Təxəyyül də koqnitiv şöbədədir və öz işini oradan başlayır. Lakin onun mövcudluq təbiəti və fəaliyyəti qəribə mahiyyətə malikdir. Məsələn, təxəyyül hər iki şöbə daxilində yerləşən proseslərdən və işlənmiş hazır məhsullardan maksimum istifadə edə bilir. Təxəyyülün fəaliyyəti Psixikanı yaradıcılıq prosesləri üçün tam səfərbər edir. Qeyd etdiyimiz kimi, təxəyyül sağ yarımkürədən (ekzistensial şöbədən), onun hazır informasiya ehtiyatlarından, subyektiv və qeyri-subyektiv ruhi proseslərdən geniş istifadə etdiyi üşün həmin şöbə ilə geniş əlaqələrə malikdir. Bu amil bizi çaşdırmamalıdır. Təxəyyülün yerləşmə və fəaliyyət məkanı məhz koqnitiv şöbədir. Aşağıda təxəyyülün koqnitiv şöbədə yerləşməsini sübuta yetirən real həyati hadisəyə diqqət yetirək.

Bu hadisə 57 yaşlı fransız bəstəkarı Moris Pavelin həyatındandır (**Bax: С. Спрингер, Г. Дейч. "Левый мозг, правый мозг". M. 1983, səh. 185**). Avtomobil qəzasında Moris Pavelin sol yarımkürəsi (koqnitiv şöbəsi) zədələnmişdi. Nəticədə o, Vernike afaziyası ilə xəstələnmişdi. Moris Pavel musiqiyə qulaq asa bilirdi, konsertlərə gedir, hətta musiqi haqqında tənqidi fikirlər də söyləyirdi. Lakin bəstəkarlıqla, yaradıcılıq fəaliyyəti ilə məşğul ola bilmir, ilhama gəlib yaradıcılıq məhsullarını notlara köçürməyi bacarmırdı. Deməli, biz düzgün olaraq qeyd edirik ki, təxəyyül sol yarımkürədə (koqnitiv şöbədə) yerləşir və orada fəaliyyət göstərir. Göründüyü kimi, Moris Pavel birbaşa sol yarımkürə (koqnitiv şöbə) ilə əlaqəli olan Vernike afaziyasından əziyyət çəkdiyi üçün o, təxəyyülün fundamental fəaliyyət xüsusiyyətlərindən istifadə edib yaradıcılıq məhsullarını Psixikadan xaricə çıxara bilmir. Yəni bu yaradıcılıq məhsulları Psixikada son nəticə olaraq yarana bilmir və yaxud ora-

da xaricə çıxa bilməyərək məhv olurlar. Burada digər bir məsələni qeyd etməyə dəyər. Məhz nitq (daxili nitq) Psixikanın xaricə çıxarılması mümkün olan psixi məhsullarının yeganə yoludur. Nitq də sol yarımkürədədir (koqnitiv şöbədədir). Bu da bir daha sübut edir ki, təxəyyül məhz sol yarımkürədə (koqnitiv şöbədə) yerləşir və onun fundamental fəaliyyət xüsusiyyətləri orada yaranır.

Artıq koqnitiv şöbənin (sol yarımkürənin) zehni və analitik düşüncəyə qulluq edən və Psixikaya subyektivlik gətirən bir şöbə olması təsdiqlənə bilər. Orada şüurun, nitqin, təfəkkürün, təxəyyülün və digər zehni subyektiv proseslərin yerləşməsi təbiidir. Bundan sonra biz Psixikada ali idrak proseslərindən danışa bilərik. İdrakı formalaşdıran, yaradan hər iki şöbə öz fundamental funksiyaları ilə tam seçilir. Onlar bu proseslərdə özünəməxsus xüsusiyyətlərini tədricən nümayiş etdirirlər. Təbii bunun üçün müəyyən formalaşma dövrü keçilməli və Psixikanın daxili fəaliyyəti tam formalaşmalıdır. İdrak tamamilə formalaşmış Psixikanın məhsuludur.

İdrak tam koqnitiv şöbədə yaranan mürəkkəb psixi funksiyalar sistemidir. Çünki o, dünyanın, mövcudluğun ilkin subyektiv-məntiqi dərkini yaradır. İdrakı adətən hissi və məntiqi idrak kimi səviyyələrə bölürlər. Biz bu yanaşmanı Psixikaya da aid edə bilərik. Onda qavranılan ilkin primitiv formalı hissi idrakı ekzistensial şöbəyə (sağ yarımkürəyə), məntiqi idrakı isə koqnitiv şöbəyə (sol yarımkürəyə) aid etmək olar. Bu idraki proseslərin birgə işilə insan dünyanın, anlayışların, əşyaların məntiqi-subyektiv dərkini yaradır. Qavranılan ilkin primitiv formalı hissi idrakın ekzistensial şöbədə (sağ yarımkürədə) yaranaraq sonradan ümumi Psixikada subyektiv mahiyyətli məntiqi idraka çevrilməsi psixikadaxili adi qarşılıqlı əlaqələrin nəticəsidir. Yəni koqnitiv şöbədə yaranan əqli və məntiqi idraka lazım olan primitiv hafizəli idrak məhsulları ekzistensial şöbədən alınır. Sonra isə koqnitiv şöbə şüurun başçılığı ilə insan Psixikasının ali idraki funksiyalarını yaradır. Bu proseslərin yaranma üsulları gələcək fəsillərdə də ətraflı şəkildə təhlil ediləcək. Hələlik isə koqnitiv şöbə ilə tanışlığı sona çatdıraraq Psixikanın sonuncu – üçüncü şöbəsi olan qarşılıqlı əlaqə zonasının (QƏZ) fəaliyyətinə diqqət yetirək.

## 3.3 QARŞILIQLI ƏLAQƏ ZONASI (QƏZ)

Qarşılıqlı əlaqə zonası (döyənək cisim) uc beyində yerləşən, beyin yarımkürələrini bir-birinə bağlayan ən böyuk bitişdiricidir. Baş beyni öyrənən tədqiqatçıları bu ali bitişdirici çox maraqlandırmışdır. Bir tərəfdən ona ali kommissur kimi baxmaq, digər tərəfdən isə yalnız primitiv bitişdirici kimi funksiyaları təhlil etməkdəki çətinliklər müəyyən real şübhələr oyadırdı. Çünki insan orqanizmində bu formalı primitiv bitişdirici ola bilməz. Döyənək cisim (qarşılıqlı əlaqə zonası) 200 milyondan çox sinir hüceyrələrinə malikdir. Onun bitişdirmə sahəsi 700 $mm^2$-dir. Döyənək cisim ən böyük kommissurdur. İki yarımkürə arasında digər kiçik kommissurlar sinir bitişdiriciləri də vardır. Məsələn, ön bitişmə (commissura anterior), tağ bitişmə (commissura fornicis ). Lakin bütün kommissurlar eyni əlaqələndirici və informasiya ötürmək funksiyalarını yerinə yetirirlər.

Onu da qeyd edək ki, döyənək cisim (qarşılıqlı əlaqə zonası) çox zəif öyrənilmiş baş beyin orqanlarından biridir. Elə Psixikanın şöbəsi kimi də bu strukturu ətraflı öyrənmək üzun müddət və böyük zəhmət tələb edəcək.

Biz isə artıq Psixikanın öyrənilməsində alınan nəticələrə əsaslanaraq qeyd etmişik ki, döyənək cisim təkcə bitişdirmir, o həm də Psixikanın şöbələri arasında qarşılıqlı əlaqələr yaradan bir orqandır. Elə ona gorə biz bu ali bitişdiricini Psixikanın bir şöbəsi kimi – "Qarşılıqlı əlaqə zonası (QƏZ)" adlandırmışıq. "Döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar" da göstərdi ki, ayrı–ayrılıqda beyin yarımkürələri (Psixikanın şöbələri) birtərəfli, özünəməxsus funksiyalar nümayiş etdirirlər. Məlum oldu ki, döyənək cisimsiz beyin yarımkürələrinin işi tam pozulmasa da, nəticə baxımından ümumilik, məntiqi axar tamamilə pozuldu. Məsələn, sol yarımkürə (koqnitiv şöbə) ilə əlaqəli sağ əl bitişik beyin yarımkürələrində şəkli yaxşı çəkir. Bu, hamımıza yaxşı məlumdur. Lakin döyənək cisim kəsilib götürüldükdən sonra, yəni yarımkürələr arasında əlaqə olmadıqda artıq sağ əl şəkli pis çəkir. Hətta bu işdə sağ yarımkürə ilə əlaqəli olan sol əl sağ

əli ötməyə başlayır. Bu tipli digər tədqiqatlar da yarımkürələrin ayrılıqda işinin qeyri-tamlığını və özünəməxsus olduğunu göstərdi.

Şübhəsiz, yuxarıdakı tədqiqat nəticələri Psixikanın öyrənilməsi baxımdan yüksək aktuallıq kəsb edir. Məsələn, bizim üçün döyənək cisimin kəsilib götürülməsi baş beynin yox, məhz Psixikanın işinin pozulması deməkdir. Çünki bu zaman Psixikanın şöbələri arasında əsas əlaqələndirici münasibətlər yaradan qarşılıqlı əlaqə zonası (döyənək cisim) öz işini yerinə yetirmir. Birgə qarşılıqlı əlaqənin, işin qarşısı alınır. Elə ona görə ekzistensial şöbə (sağ yarımkürə) əşyanı görür, qavrayır, lakin onu nitqə gətirib, sözə çevirib səsləndirə bilmir. Burada məntiqi-analitik yanaşma yoxdur. Əksinə, koqnitiv şöbə (sol yarımkürə) isə əşyaları qavrayıb şəkillərini çəkə bilmir. Məkanı, mövcudluğu qavramaqda çətinlik çəkir. Əlbəttə, bütün bunlar Psixikanın birgə qarşılıqlı işinin pozulması deməkdir.

Deməli, döyənək cisim (qarşılıqlı əlaqə zonası) həm əsas bitişdirici (kommissur), həm də əsas əlaqələndirici orqandır. O, Psixikanın şöbələrini qarşılıqlı şəkildə əlaqələndirir və özü də Psixikanın bir daxili şöbəsidir. Qarşılıqlı əlaqə zonasının fəaliyyəti nəticəsində Psixikada birgə iş alınır və psixi proseslər yaranır. Bu işi görmək üçün qarşılıqlı əlaqə zonası Psixikanın hər iki şöbəsinin bütün hissələrini, nahiyələrini bir-biri ilə əlaqələndirir və onların qarşılıqlı təsirini yaradır. Bu prosesi **şəkil-15–də** açıq-aydın görmək mümkündür. Orada döyənək cisimin (qarşılıqlı əlaqə zonasının) sinir hüceyrələri hər iki yarımkürənin (Psixikanın şöbələrinin) bütün əsas nahiyələrini birləşdirir **(Bax: Д.Хьюбел. "Глаз, мозг, зрение". Москва. 1990, səh. 146)**.




**Şəkil-15. Döyənək cisim vasitəsilə hər iki yarımkürənin bütün nahiyələrinin bitişməsi.**

Burada təbii bir sual meydana çıxır. Görəsən, qarşılıqlı əlaqə zonası bu cür nəhəng əlaqələri necə yaradır? Neyroanatomik baxımdan bu cür əlaqələrin yaradılması üçün qarşılıqlı əlaqə zonası bütün imkanlara malikdir. Onun yerləşdiyi məkan, hüceyrə kütləsi, hüceyrələrin hər iki yarımkürənin (Psixika şöbələrinin) bütün əsas nahiyələrini birləşdirməsi amili bu əlaqə proseslərinə əlverişli şərait yaradır.

Bundan əlavə, məlumdur ki, Psixika şöbələrində (beyin yarımkürələrində) informasiyaların ötürülməsi, qəbulu və işlənməsi üçün neyronlara (sinir hüceyrələrinə) imkan verən ötürücü sinir lifləri də qarşılıqlı əlaqə zonasının köməyinə gəlir. Qarşılıqlı əlaqə zonasından (döyənək cisimdən) keçən bu cür sinir lifləri isə **kommissural liflər** adlanır. Digər liflər **assosiativ** (hər şöbənin öz beyin qabığında müxtəlif nahiyələr arasında əlaqə yaradan liflər) və **proyeksion** (beyin qabığı ilə orqanizmin bütün şöbələrini efferent və afferent yollarla əlaqələndirən liflər) sinir lifləri adlanır **(Bax: şəkil - 8)**

Yuxarıdakı neyroanatomik imkanlardan istifadə edərək qarşılıqlı əlaqə zonası Psixika daxilində öz fundamental funksiyalarını yerinə yetirir. Milyonlarla informasiyalar fasiləsiz olaraq ekzistensial şöbədən koqnitiv şöbəyə və əksinə daxil olurlar. Bu prosesi yazı dilində söyləmək çox asandır. Əslində isə qarşılıqlı əlaqə zonası təsəvvüredilməyən nəhəng bir əlaqələndirici orqandır. Bu yanaşmanı Psixikanın ümumi işinə də aid etmək olar. Sadə görsənən təhlil və mülahizələr Psixikanın dəqiq və nəhəng işinə kölgə sala bilməz. Artıq heç kəsə sirr deyildir ki, Psixikanın, beynin fəaliyyətini, hətta orada olan sinir hüceyrələrinin işi belə dünyada real olan heç bir aparatla, texniki tərəqqi məhsulu ilə (məsələn, kompyuter) müqayisə edilə bilməz. Bu təsəvvüredilməzliyin, müqayisəolunmazlığın nəticəsidir ki, insanlar bu orqanları ətraflı şəkildə öyrənə bilmirlər.

Deməli, qarşılıqlı əlaqə zonası Psixikaya imkan verir ki, öz işini qarşılıqlı şəkildə ümumiləşdirə və formalaşma qanunlarına uyğun qura bilsin. Qarşılıqlı əlaqə zonası mövcudluqla (ekzistensial şöbə) dərketmə, subyektivləşmə (koqnitiv şöbə) xüsusiyyətlərini qarşılıqlı əlaqələndirərək Psixikanın formalaşması üçün real şərait yaradır. Yəni qarşılıqlı əlaqə zonası mövcudluqla bu mövcudluğu dərketməni birləşdirir, əlaqələndirir və onları tərkib hissələrə çevirir. Nəticədə psixi proses yaranır, Psixika və insan davranışı formalaşır.

Beləliklə də biz Psixikanın yerləşdiyi məkan, daxili strukturu, mövcudluq xüsusiyyətləri, onun şöbələri və onların özünəməxsus funksiyaları ilə tanış olduq. Gələn fəsildə isə Psixikanın formalaşmasının daha geniş və mürəkkəb mərhələləri ilə tanışlığımızı davam etdirəcəyik.

# 4. PSİXİ PROSESLƏRİN YARANMASI. PSİXİKANIN FƏALİYYƏTİ

## 4.1 PSİXİKANIN İNFORMASİYA QƏBULU

Bu fəsildə Psixika bizim üçün mürəkkəbləşəcək. Biz Psixikada psixi proseslərin yaranmasını, bu proseslərin yaranmasında informasiyaların qəbul formalarını, bu informasiyaların işlənilməsini, Psixika şöbələrinin birgə işi nəticəsində yaranan ümumi psixi fəaliyyəti aydınlaşdıracağıq.

Psixi proses, psixi fəaliyyət Psixikanın ümumi məhsuludur. Bir daha diqqətinizə çatdırırıq ki, psixi proses, psixi fəaliyyət Psixika şöbələrinin birinin deyil, onların birgə qarşılıqlı işinin nəticəsidir. Bu problem cəmiyyətdə müəyyən anlaşılmazlıqlar yaratdığı üçün biz məlum yanaşmanı tez-tez təkrarlayırıq. Təsadüfi deyildir ki, son vaxtlar elmi və ictimai ədəbiyyatda beyin yarımkürələrinin (Psixika şöbələrinin) ayrı-ayrılıqda işindən və psixi fəaliyyətlərindən tez-tez danışmağa başlayıblar. Onların özünəməxsus fəaliyyəti elə özünəməxsus formalarda ayırd edilir. Hətta sağ və sol yarımkürələrdən necə bəhrələnmələr haqqında məlumatlar, məsləhətlər verilir. Aşağıda onların biri ilə tanış olaq.

Rusiyada nəşr olunan **"Elle"** jurnalının 1998-ci il yanvar nömrəsinin 70-ci səhifəsində "Kim orada solla addımlayır ? Sağla, sağla, sağla!"("Кто там щагает левой? Правой, правой, правой!") yazısının giriş hissəsini sizə təqdim edirik.

**Beyin dəyişkən enerji kimi işləyir. Sol yarımkürə təbiətinə görə məntiqlidir, düşüncəlidir, pessimistdir: sağ yarımkürə isə hissiyyatlıdır, yaradıcıdır, optimistdir. Normal halda biz fasiləsiz olaraq həm sol, həm də sağ yarımkürələrə qoşuluruq və hər şey yaxşı olur. Əgər siz narahatsınızsa, deməli siz sol yarımkürədə "ilişib qalmısız". Optimist olub gənclik əldə etmək üçün siz gərək tez-tez sağ yarımkürəyə qoşulasınız.**

Bu yazı ilə əlaqədar öncə onu qeyd edə bilərik ki, istəklə beyin, Psixika hansısa orqanı və yaxud şöbəni işlədə bilmir. Çünki Psixikanın ümumi işini pozmaq qeyri-mümkündür. Düzdür, müəyyən vaxt və şəraitdə hər hansı bir şöbə öz dominant fəaliyyəti ilə seçilə

bilər. Lakin biz şüurlu olaraq həmin şöbədən müəyyən vaxtı yalnız müəyyən bir tələbat üçün istifadə edə bilmərik. Bu, Psixikanın iş üsulu, orqanizmin qanunauyğun dinamik fəaliyyəti baxımından mümkün deyildir. Ümumiyyətlə, Psixika bir şöbə ilə işləmir və müəyyən anlarda mütəmadi olaraq bu birtərəfli yanaşmanı yerinə yetirə bilməz. Lakin həyat şəraitinin, sosial fəaliyyətin fasiləsiz təsiri ilə Psixikanın müəyyən şöbəsi öz psixikadaxili işində aktivləşə bilər. Elə bunun özü də Psixikanın daxili fəaliyyətinin ümumi nəticəsi kimi meydana çıxır. Məsələn, riyaziyyatçının Psixikasında koqnitiv şöbə daha aktiv və geniş inkişaf fəaliyyətinə malik olur. Ancaq fiziki işlərlə məşğul olan insanlarda isə bu belə deyildir. Qeyd etdiyimiz kimi, rəssamlarda isə ekzistensial şöbə daha aktiv olur. Çünki onlar bu şöbə ilə daha çox işləyirlər.

Yuxarıdakı nəticələr Psixikanın təbii formalaşma və inkişaf xüsusiyyətlərindən doğur. Bu üzunmüddətli, birtərəfli şəxsi və sosial fəaliyyətdə formalaşmışdır. Yenə də xatırladırıq ki, bir günün içərisində hansısa şöbənin aktivliyini istəklə, arzu ilə yaratmaq mümkün deyil. Psixikadaxili şöbələr, orqanlar və proseslər istəyimizdən asılı olmayaraq Psixikanın çox ciddi olan ümumi iş prinsiplərinə tabedirlər.

Psixikanın bu ümumi mürəkkəb işinin yaranması üçün isə reaksiyalar və informasiyalar lazımdır. Psixika daxilində məlum proseslər informasiyalar sisteminin qəbulunu və onların işlənilməsini əhatə edir. Artıq qeyd etdiyimiz kimi, beyin öz funksiyaları ilə buna qadir deyil. O, əsasən orqanizmin biofizioloji varlığının tənzimlənməsi ilə məşğuldur.

Psixikada reaksiyalar və informasiyaların işlənilməsi prosesləri adətən hiss olunmayan zehni və ruhi fəaliyyət statusuna malikdir. Burada daha mürəkkəb psixikadaxili proseslər – şüur, nitq, qavrayış, hafizə, təfəkkür və digər ali proseslər tələb olunur. Bu cür ali fəaliyyət orqanlarına və biopsixi iş şəraitinə yalnız Psixika malikdir. Psixika digər orqanlarda olmayan psixoloji, bioloji və sosial kimi universal fəaliyyət xüsusiyyətlərinə qadirdir.

Psixikanın işə başlayıb informasiyaları qəbuletmə prosesləri adətən impulsiv xarakter daşıyır. Bu proses Psixika daxilindəki neyronların çıxıntıları ilə yerinə yetirilir. Məlumdur ki, orqanizmə

daxil olan bütün informasiyalar beyin qabığına (Psixikanın qabığına) ötürülür və orada işlənilib hazır nəticə məhsulları kimi geriyə qayıdırlar. Bu zaman bütün informasiyalar ağ maddəyə gəlir, yəni Psixikanın şöbələrinə daxil olur. Xatırladırıq ki, Psixika şöbələrinin (yarımkürələrin) daxili ağ maddədən, onların beyin qabıqları isə boz maddədən təşkil olunub. Ağ maddəyə gələn informasiyalar tam işlənib psixi proseslərə çevrilmək üçün boz maddəyə - Psixikanın qabığına (beyin qabığına) ötürülür. Informasiyaların Psixika şöbələrinin daxilinə (ağ maddəyə) gəlməsi mürəkkəb prosesdir. Informasiyaların Psixika şöbələrinin beyin qabığına (boz maddəyə) gəlib orada işlənib hazırlanması prosesləri isə ondan da mürəkkəb və nəhəng bir işdir. Çünki insan Psixikasına eyni vaxtda fasiləsiz olaraq müxtəlif istiqamətlərdən, müxtəlif səviyyələrdə çoxlu informasiyalar daxil olur. Bu mürəkkəb qəbuletmənin fəaliyyət dinamikasını təsəvvür etmək mümkün deyil. Qarşılıqlı əlaqə zonası da (QƏZ) bu işə qoşularaq Psixikada informasiyaların, impulsiv reaksiyaların hər iki şöbə tərəfindən tam işlənməsinə əlverişli şərait yaradır. Psixika şöbələrinin beyin qabıqları isə informasiyaların, impulsiv reaksiyaların tam işlənib hazırlandığı və psixi proseslərin yarandığı məkan olduğu üçün oradakı proseslər yüksək dəqiqlik səviyyəsinə çatır. Elə ona görə informasiyaların, impulsiv reaksiyaların tam işlənib hazırlanması üçün Psixika şöbələrinin beyin qabığında 15 milyarda yaxın neyron (sinir hüceyrələri) vardır.

Psixika ümumiyyətlə, informasiyalar, impulsiv reaksiyalar qəbul edir. Biofizioloji baxımdan orqanizm vasitəsilə Psixikaya informasiyaların, impulsiv reaksiyaların necə gəlməsi hamımıza bəllidir. Göz, qulaq, qoxu və sairə vasitəsilə, gündəlik sosial fəaliyyətimizlə də əlaqədar ən mühüm informasiyalar qəbul olunur. Ümumi hissetmə proseslərini də bura əlavə etmək olar. Psixika digər mürəkkəb növ informasiyalar da qəbul edir ki, hansı ki adətən biz onları "ruhi informasiyalar" kimi adlandırırıq. Onları "psixi informasiyalar" kimi də adlandırmaq mümkündür. Bu cür informasiyalar doğrudan da öz mövcudluq mahiyyətləri baxımından gözəgörünməz müəmmalı "ruhi" xarakter daşıyırlar. Məlum informasiyaların təbiətini, mövcudluq xüsusiyyətlərini təhlil etmək hələlik qeyri-mümkündür.

Lakin bu cür informasiyaların varlığını sübuta yetirən real bəsit misallar gətirmək mümkündür. Məsələn, arxamızda baş verən gözlə görünməyən, qulaqla eşidilməyən, qoxusu duyulmayan hadisəni hiss etməyimiz ruhi, psixi informasiyaların Psixika tərəfindən qəbuluna primitiv bir misaldır. Bu zaman biz sadəcə olaraq hiss edib anlayırıq ki, arxamızda nə isə var və yaxud hansısa proses baş verdi. Bu hissetmə əslində Psixika tərəfindən qəbul olunmuş ruhi informasiyaların işlənilməsindən yaranan psixi proseslərdir.

Məntiqi nəticə baxımından Psixikanın informasiyalar, impulsiv reaksiyalar qəbul etməsi ilə bağlı bütün prosesləri ruhi mahiyyət daşıyır. Psixi fəaliyyət zamanı onsuz da bu prosesləri gözlə görmək, təsəvvür etmək mümkün deyil. Lakin bəzi psixikadaxili fəaliyyətdə qismən bu ruhi fəaliyyət proseslərini real nəticə kimi görmək mümkün olur. Məsələn, yaradıcılıq fəaliyyəti zamanı və ilhama gəlmək kimi hallarda yeniliklərin yaranmasını Psixikanın ruhi mahiyyətli fəaliyyətinə real misal gətirmək olar. Şübhəsiz, insan orqanizmi ruhi varlıqdır. Psixikanın bu ruhi varlığın mərkəzi olması və onu idarə etməsi heç kəsdə şübhə doğura bilməz.

Görəsən, Psixika zehni və məntiqi-subyektiv fəaliyyət zamanı informasiyaları haradan alır?

Zehni və məntiqi-subyektiv fəaliyyət Psixika daxilində baş verən daha mürəkkəb prosesləri əhatə edir. Deməli, Psixika zehni və məntiqi-subyektiv fəaliyyət zamanı lazım olan analitik informasiyalar qəbul etməlidir. Belə olan halda Psixika bu cür informasiyaları harada tapa bilər? Çünki bu cür zehni və məntiqi-subyektiv fəaliyyət prosesləri yalnız Psixikada baş verir və məlum informasiyalar elə Psixikaya məxsusdur. Deməli, Psixika zehni və məntiqi-subyektiv fəaliyyət zamanı özü öz daxilindəki hazır analitik informasiyanı qəbul etməlidir və onlardan yeni psixi proseslərin və psixi fəaliyyətin yaranmasında bəhrələnməlidir. Təbii ki, bu belə də olur. Əslində bu proses Psixika daxilində hazır analitik informasiyalardan primitiv istifadə formasıdır. Məsələn, zehni fəaliyyətdə, təxəyyül proseslərində bir şey haqqında fikirləşəndə qarşılıqlı informasiya əlaqələri daha da aktivləşir. Bu növ informasiyaları Psixikada yaradan elə onun daxili nitqidir. Göründüyü kimi, nitqin geniş imkanları və mürəkkəb fəaliyyəti bizim üçün bir daha açıqlandı. Daxi-

li nitq koqnitiv şöbədə olan hazır məntiqi və qeyri-məntiqi informasiyaları "ayağa qaldırır". Sonra bütün Psixika bu informasiyalı hadisələrə qoşula bilər. Psixika bu fikri əməliyyatlara səfərbər olunacaq. Adətən biz bu cür hallara "ürəyimdə fikirləşirəm" də deyirik.

Mürəkkəb zehni və təxəyyül proseslərində də daxili nitqin informasiya verməsi yuxarıdakı kimi baş verir. Xüsusilə də təfəkkür və təxəyyül aktiv işləməyə başlayırlar. Daxili nitqin məlum funksiyası ümumi insan nitqinin ən ali psixikadaxili funksiyasıdır. Subyektiv Psixikanın yaranıb formalaşmasında da daxili nitqin bu funksiyası mühüm əhəmiyyət daşıyır.

İndi isə Psixikada informasiyaların ümumi qəbuletmə xüsusiyyətlərini nəzərdən keçirək. Bu proses aşağıdakı kimi baş verir.

İnformasiyalar və impulsiv reaksiyalar Psixika şöbələrinin beyin qabıqlarına proyeksion sinir lifləri vasitəsilə daxil olduqdan sonra psixikadaxili fəaliyyət aktivləşir. Sonra həmin informasiyalar və impulsiv reaksiyalar Psixika şöbələrinin daxilinə qayıdaraq ümumi şəkildə işlənməyə başlayırlar. Artıq Psixika bütövlükdə daxil olan informasiyalar və impulsiv reaksiyalardan xəbərdar olur. Qarşılıqlı əlaqə zonası vasitəsilə bu informasiyalar və impulsiv reaksiyalara uyğun olaraq şöbələr arasında qarşılıqlı fəaliyyət həyata keçirilir. Şöbələr daxilində də məlum informasiyaların yayılması prosesi gedir. Şöbələr daxilində bu işi assosiativ yerinə yetirir. Şöbələr arasında isə informasiyalar əlaqəsini kommissural sinir lifləri yaradır **(Bax: Şəkil 8).** İnformasiyalara və impulsiv reaksiyalara uyğun şöbələrin iş nəticələri tam işlənib psixi prosesi yarartmaq üçün yenidən şöbələrin beyin qabıqlarına qayıdır. Orada hazırlanmış informasiyalar psixi proseslərin və ümumi psixi fəaliyyətin yaranmasına sərf olunur. Bu proseslərin ən çox və geniş hissəsi koqnitiv şöbənin beyin qabığında baş verir.

Ümumiyyətlə, insan orqanizmi anatomik cəhətdən elə qurulmuşdur ki, orqanizmdən və xaricdən gələn hər hansı bir informasiya və impulsiv reaksiya tezliklə Psixikaya daxil olur. Ani olaraq bütün Psixika bundan xəbər tutur. Sinir sistemi vasitəsilə orqanizmin sol tərəfinin sağ yarımkürəyə (ekzistensial şöbəyə), sağ tərəfinin isə sol yarımkürəyə (koqnitiv şöbəyə) informasiyalar ötürməsi də informasiyaların tezliklə Psixikaya yayılmasına xidmət edir. Əks

tərəflərdən informasiya qəbulu tərəflərin psixi və fiziki fəaliyyətinə, insan orqanizminin formalaşma, inkişaf prinsiplərinə uyğundur. Bundan əlavə, Psixikanın daxili fəaliyyəti elə qurulub ki, orada ani və fasiləsiz qarşılıqlı əlaqələr vardır. Hər hansı bir anda, hər hansı bir şöbəyə gəlmiş informasiya tezliklə əks şöbəyə və bütün Psixikaya yayılır.

İnformasiyalar və impulsiv reaksiyaların qəbulu Psixikanın fəaliyyətinin bünövrəsini təşkil edir. Psixikanın fəaliyyət aktivliyi, onun fəaliyyət dairəsi informasiya qəbulunun səviyyəsindən və miqdarından asılıdır. İnsanlar bu baxımdan da bir-birlərindən fərqlənirlər. Əlbəttə, daha çox informasiyalar qəbul etməklə Psixikası aktiv və həssas olan insanlar geniş zehni və yaradıcılıq fəaliyyəti göstərirlər. Onların Psixikalarında koqnitiv funksiyalar daha aktiv işləyir. Bundan əlavə, Psixikanın çox informasiyalar və təbii formalı impulsiv reaksiyalar qəbul etməsi bütün orqanizmin iş və enerji fəaliyyətini artırır. Şübhəsiz, tanınmış alim və ziyalılar aktiv, geniş informasiyalar qəbul edən Psixikalara malikdirlər.

## 4.2 PSİXİ PROSESLƏRİN YARANMASI

### İnkişaf sadəliklərdən doğan mürəkkəb proseslər sistemidir

Psixika, onun daxili strukturu, onun şöbələri, fəaliyyət xüsusiyyətləri və Psixikanın informasiya qəbulu formaları ilə ümumi tanışlıqdan sonra psixi proseslərin yaranmasını aydınlaşdırmağa çalışaq. Xatırladırıq ki, psixi proseslərin yaranması Psixikanın ən mürəkkəb fəaliyyətini əhatə edir. Çünki psixi proseslər Psixika fəaliyyətinin bünövrəsini təşkil edir.

Deməli, Psixika informasiyalar və impulsiv reaksiyalar qəbul edərək neyronların köməyi ilə psixi proseslərin yaranması üçün işə başlayır. Artıq bizə məlumdur ki, Psixika şöbələrində psixi proseslərin yaranmasına şərait yaradan bütün hissi, idraki proseslər və neyroanatomik imkanlar var. Beyin qabığı (indi bu qabığa "Psixi-

kanın qabığı" da demək mümkündür) psixi proseslərin hazırlanmasını başlayan və sona çatdıran psixikadaxili məkandır. Mövcudluğu, məkanı, əşyaları qavramaq funksiyalarını yaradan ali psixikadaxili zehni proseslər – qavrayış, hafizə və s. ekzistensial şöbədə (sağ yarımkürədə). Subyektivləşdirici, dərkedici, analitik ali psixikadaxili proseslər isə - şüur, nitq və s. koqnitiv şöbədə ( sol yarımkürə ) yerləşirlər (Bax: Şəkil 4). Beləliklə, Psixikada psixi proseslərin yaranması üçün lazım olan bütün şərait vardır.

Artıq psixi proseslərin yaranmasını və nəhayət, Psixikanın mürəkkəb iş üsulunun dəqiqləşdirilməsinin vaxtı gəlib çatdı. Burada diqqətli olmaq gərəkdir. Psixi proseslərin yaranması mürəkkəb və qeyri-standart prosesləri əhatə etdiyi üçün onların yaranma dinamikasını xüsusi blok və yaxud şəkil sxemlərdə təsvir etmək mümkün deyil. Ona görə bu proseslərin Psixikada yaranma üsullarını sxematik olaraq sizə təqdim edə bilmirik. Sadəcə olaraq aşağıda sizə təqdim olunan psixi proseslərin yaranmasının şifahi təsvirini diqqətlə izləmək lazımdır.

Təsəvvür edin ki, informasiyalar və impulsiv reaksiyalar Psixikaya daxil olur. Bu o deməkdir ki, Psixikanın şöbələrinin beyin qabıqları məlum informasiyaları və impulsiv reaksiyaları ilkin olaraq qəbul etmişlər. Bu informasiyalar və impulsiv reaksiyalar həm daxildən (Psixika daxilindən, daxili nitqdən), həm orqanizm daxilindən, həm də xarici məkandan gələ bilər. Bu, məsələnin qəbuletmə formasını dəyişmir, yəni informasiyalar ilk növbədə Psixika şöbələrinin beyin qabıqlarına daxil olur.

Beləliklə, Psixika gələn informasiyaya uyğun olaraq aktiv reaksiya halına düşür. Səfərbər olunmuş Psixika ani olaraq gəlmiş informasiyanın və impulsiv reaksiyanın mövcudluq mahiyyətindən, səviyyəsindən xəbərdar olur. Psixika bu informasiyanı və impulsiv reaksiyanı tanıya da bilər. Çünki Psixika (şöbələrin beyin qabıqları) informasiya ehtiyatlarına və hafizəli təcrübəyə malikdirlər.

Ümumiyyətlə, Psixikanın fəaliyyəti elə qurulub ki, ora gəlmiş hər hansı bir informasiya və impulsiv reaksiyalara cavab verməyə məcburdur. Psixika və onun şöbələri bu cür fasiləsiz "qul" kimi işləmək üçün formalaşıblar.

Psixikaya gəlmiş informasiya və, impulsiv reaksiyalardan ilk növbədə şöbələrin daxili - ağ maddə xəbərdar olur. Çünki bu informasiya və impulsiv reaksiyalar şöbələrin beyin qabığına – boz maddəyə elə şöbələrin daxilindən - ağ maddədən keçib getmişlər. Özü də qarşılıqlı əlaqə zonası imkan verir ki, informasiya və impulsiv reaksiyalar ani olaraq hər iki ağ maddəyə keçsin. Lakin şöbələrin daxili - ağ maddə bu informasiya və impulsiv reaksiyalardan primitiv şəkildə xəbərdar olurlar. Yəni bu informasiya və impulsiv reaksiyaların şöbələrin beyin qabığına – boz maddəyə getdikləri yol oradan keçdiyi üçün şöbələrin daxili - ağ maddə bu primitiv xəbərdarlığı əldə etmiş olur. Çünki bizə bəllidir ki, bütün informasiya və impulsiv reaksiyalar ilk növbədə şöbələrin beyin qabığına – boz maddəyə daxil olur. Sadəcə olaraq burada şöbələrin daxili - ağ maddələr çox asanlıqla informasiya və impulsiv reaksiyaları öz şöbələrinin beyin qabığına – boz maddəyə ötürürlər. Unutmayaq ki, qarşılıqlı əlaqə zonası (döyənək cisim) baş beyində məhz ağ maddələrin olduğu məkanı bir-birinə bitişdirir və əlaqələndirir.

Beləliklə, hər şöbənin beyin qabığı gəlmiş məlum informasiya və impulsiv reaksiyalara uyğun olaraq öz fundamental funksional işinə başlayır. Onlar informasiya ehtiyatlarından, ali idraki proseslərdən və hafizəli təcrübələrindən istifadə edirlər. Lakin bu işi yerinə yetirməyə yalnız onların öz funksiyaları bəs edir. Gəlmiş informasiya və impulsiv reaksiyaların psixi proses halında tam işlənilməsi üçün hər iki şöbənin funksional nəticələri lazımdır. Bu zaman hər şöbənin özünəməxsus funksiyalarına uyğun hazırlanmış informasiya nəticələri arasında geniş qarşılıqlı əlaqə başlayır. Şöbələrin beyin qabıqlarından bu nəticələr şöbələrin daxilinə - ağ maddəyə qayıdır və qarşılıqlı əlaqə zonası vasitəsilə hər iki şöbənin qarşılıqlı əlaqəsi yaranır. Hər iki şöbə və onların beyin qabıqları bir-birlərinin hazırlanmış fundamental funksional informasiya nəticələrindən bəhrələnirlər.

Burada psixi proseslərin səviyyələri yaranır. Məsələn, ola bilsin psixi proses ekzistensial şöbənin (sağ yarımkürənin) beyin qabığında bitsin. Bu, qavranılmış, primitiv formal psixi prosesdir. Primitiv formal psixi proses primitiv hafizəyə və daxili ekzistensial nitqə əsaslanır. Məsələn, sadəcə olaraq biz stolu "stol" forması kimi görüb qavrayırıq. Onun söz kimi səsləndirilməsini, mahiyyətini

və ondan istifadəni reallaşdırmaq üçün insanı analitik, məntiqi-subyektiv fəaliyyətə təhrik edən mürəkkəb psixi proseslərin yaranması lazımdır. Bu cür proseslərin yaranması üçün isə koqnitiv şöbənin (sol yarımkürənin) köməkliyi gərəkdir. Əgər hər hansı bir şöbədə ümumi olmayan psixi proseslər yaranırsa, onda həmin psixi proseslər primitivdir və tam deyil.

Burada bir vacib məsələyə diqqət yetirək. Şöbələrin beyin qabıqlarının informasiyaya uyğun nəticə məhsulları son anda koqnitiv şöbənin (sol yarımkürənin) beyin qabığında cəmləşərək tam normal psixi prosesləri yaradırlar. Bəli, psixi proseslərin məntiqi-subyektiv baxımından tam hazırlanması koqnitiv şöbənin (sol yarımkürənin) beyin qabığında sona çatır. Yaranmış psixi proseslər daxili nitqə keçir. Sonradan hazırlanmış psixi proseslər insanın ümumi nitqinə və ünsiyyət vasitələrinə keçərək real fəaliyyətə çevrilirlər. Ola bilsin daxili nitq də fəaliyyət proseslərini yaratsın. Məsələn, biz müxtəlif zehni fəaliyyətlərdə, yaradıcılıq proseslərində məhz, daxili nitqdəki hazır psixi proseslərdən daha çox bəhrələnirik. Deməli, daxili nitq Psixika daxilində hazır psixi proseslərin büruzə verildiyi ilkin məkandır. Bundan əlavə, daxili nitq Psixika daxilində yeni psixi prosesləri yaradan məkanda ola bilir. Müxtəlif zehni fəaliyyətlərdə, yaradıcılıq proseslərində yeni ideya və fikirlərin yaranması buna misal ola bilər. Bu zaman biz bu yeni ideya və fikirləri xaricə çıxarmayaraq elə daxili nitqimizdə fikirləşərək yaradırıq. Bunlar daxili nitq vasitəsilə Psixika daxilində yeni psixi proseslərin yaranması deməkdir.

Psixi proseslərin yaranması Psixika daxilində ani olaraq mürəkkəb qarşılıqlı əlaqələrin nəticəsində baş verir. Bu qarşılıqlı iş nəticələri sinir lifləri vasitəsilə sinir hüceyrələrinin (neyronların) universal fəaliyyətindən yaranır. Bir daha qeyd edirik, bu qarşılıqlı iş əlaqələrini Psixika daxilində kommissural və assosiativ sinir lifləri, Psixika şöbələrinin beyin qabıqları ilə orqanizm arasında isə proyeksion sinir lifləri həyata keçirir.

Yuxarıda psixi proseslərin yaranmasının mürəkkəb strukturunu ümumi şəkildə təsvir etməyə cəhd etdik. Göründüyü kimi, psixi proseslərin mürəkkəb yaranma və mövcudluq mahiyyəti vardır. Gələcəkdə bu prosesləri ətraflı və dəqiq öyrənmək üçün üzun vaxt və

böyük zəhmət tələb olunacaq. Hələlik, ümumi şəkildə onu demək mümkündür ki, psixi proseslər ilkin olaraq iki formalı fəaliyyətə təhriki yaradır. Birinci forma sadə psixi proseslər, şərtsiz reflekslər fonunda insanın gündəlik fəaliyyətində primitiv halda meydana çıxır. İkinci forma isə daha mürəkkəb psixi prosesləri – şərti reflekslər fonunda zehni və məntiqi-subyektiv fəaliyyəti əhatə edir. Bu iki formalı psixi proseslər ümumilikdə tam normal insan fəaliyyətini və sosial həyatını gerçəkləşdirir. Hər halda bütün növ psixi proseslərin yaranması nəzərdən keçirdiyimiz ümumi sistem üzrə baş verir.

Gəlin sadə bir psixi prosesin yaranmasını təsvir edək. Məsələn, **"dəftəri görmək"**. Dəftəri bir əşya kimi görmək informasiya formasında göz sinirləri vasitəsilə Psixikaya daxil olur. "Dəftər" informasiyasına uyğun olaraq Psixika işləməyə başlayır. Yuxarıda qeyd etdiyimiz sistem üzrə bütün Psixika "dəftər" informasiyasından xəbər tutur. Şöbələrin qabıqları özünəməxsus funksiyalarını yerinə yetirməyə başlayırlar. Ekzistensial şöbənin beyin qabığında qavrayış və hafizə dəftəri "dəftər" formasında qavrayır. Artıq dəftər "dəftər" formasında qavranılmış primitiv hafizə şəklində hazırdır və o, daxili ekzistensial nitqdədir. Yəni dəftərin "dəftər" formasında mövcudluğu Psixikada artıq təsdiqləndi. İndi isə onu "dəftər" sözü kimi adlandırıb daxili nitqə gətirmək və dərk etmək lazımdır. Yəni "dəftər"ə həm nitqdə, həm də ümumi Psixikada subyektiv məntiqi status verilməlidir. Bunun üçün ani olaraq qavranılmış "dəftər" informasiyası qarşılıqlı əlaqə zonasından koqnitiv şöbənin beyin qabığına keçir. Koqnitiv şöbədə dəftər "dəftər" sözünə çevrilir və dərk edilir. Daxili və şifahi nitqdə istifadə edilməyə başlayır. Əslində, koqnitiv şöbə bu "dəftər" informasiyasını gözləyirdi. Çünki bütün Psixika kimi o da "dəftəri görmək" informasiyasından xəbərdar idi və bu iş üçün səfərbər olunmuşdu.

"Dəftəri görmək" kimi sadə psixi prosesin yaranmasındakı qəribə ardıcıllığı hiss etdinizmi? Gördüyünüz kimi, "dəftəri görmək" psixi prosesinin hazırlanması ekzistensial şöbədə başladı, koqnitiv şöbədə isə sona çatdı. Bu, ilk növbədə onunla əlaqədardır ki, ekzistensial şöbə həqiqətən nəhəng informasiya ehtiyatlarına malikdir. O, mövcudluğu, məkanı qavrayış vasitəsilə qavrayır, hafizə vasitə-

silə onları Psixikanın yaddaş strukturlarına keçirir. Koqnitiv şöbə isə insanın, subyektiv fəaliyyət və davranışını yaradan prosesləri hazırlayıb orqanizmə tətbiq edir.

Sonralar "Dəftəri görmək" psixi prosesi koqnitiv şöbənin, daxili nitqin informasiya ehtiyatlarına daxil olaraq saxlanılır. Artıq insan dəftəri görəndə nitq öz informasiya ehtiyatına əsaslanaraq dəftəri tanıyır və "dəftər" sözünü dilə gətirir. "Dəftər" forması qavranılmış və primitiv hafizə şəklində ekzistensial şöbədə də qorunub saxlanılır.

Daha mürəkkəb psixi proseslərin yaranması da yuxarıdakı formada baş verir. Məsələn, "fikirləşmək" kimi mürəkkəb bir psixi proses məhsulunu nəzərdən keçirək. Artıq qeyd etmişik ki, mürəkkəb məntiqi psixi proseslərin yaranması zamanı lazım olan informasiyalar Psixika daxilində yaranır və oradan götürülür. Məlum informasiyalar daxili nitq vasitəsilə Psixikada saxlanılır. Bu zaman Psixika daxilində qarşılıqlı əlaqələr də geniş və mürəkkəb səviyyədə olur. Burada bir mühüm məsələni də qeyd etmək lazımdır. Psixikada "fikirləşmək" kimi mürəkkəb məntiqi psixi proseslərin yaranması zamanı həmin proseslərin dinamikasını və ümumi Psixikanın fəaliyyətini tənzimləmək, idarə etmək lazımdır. Bu vacib işlə əsasən koqnitiv şöbə və şüur məşğul olur.

Beləliklə, Psixika "fikirləşmək" informasiyasına uyğun işləməyə hazırdır. Daxili nitqin "fikirləşmək" informasiyalarının təsiri altında Psixika daxilində psixi proseslər bir-birinin ardınca yaranır və məhv olur. Əlbəttə, "fikirləşmək" xüsusiyyətlərinə uyğun olaraq yeniləri yaranır. Bu ardıcıllıq üzrə "fikirləşmək" prosesləri davam edir. Məlum proses zamanı "fikirləşmək" informasiyalarının mövcud olma xüsusiyyətlərinə əsasən koqnitiv şöbə ekzistensial şöbədə olan informasiya ehtiyatlarından, qavrayış və hafizə məhsullarından istifadə edir. Amma bu zaman bütün psixi proseslərin yaranması koqnitiv şöbədə, daxili nitqdə başlayır, elə orada da bitir. Çünki "fikirləşmək" kimi mürəkkəb məntiqi psixi proseslərin yaranma informasiyaları yalnız koqnitiv şöbədə və daxili nitqdədir və bu proseslər oradan tənzimlənir. Aşağıda "fikirləşmək" fəaliyyətini əhatə edən bir misal üzərində psixi proseslərin yaranma dinamikasını izləyək.

Məsələn, biz sabah nə ilə məşğul olmağımız haqda fikirləşirik. İlk növbədə bizim **"sabah nə etməliyəm"** fikir istəyimizi koqnitiv şöbədəki daxili nitq Psixikada informasiya şəkilində yaratmalıdır. Sonra isə daxili nitq "sabah nə etməliyəm" informasiyasını bütün Psixikaya yayır. Bundan sonra bütün Psixika işləməyə başlayır. Koqnitiv şöbədə yeni psixi proseslər bir-birinin ardınca yaranmağa başlayır.

Məsələn, "sabah nə etməliyəm" fikir informasiyasına uyğun olaraq fikirləşən şəxsin meşəyə getmək istəyi psixi proses kimi hazırlana bilər. Daxili ntqə gələn "meşə gəzintisinə getmək" istəyinə əsaslanan informasiya Psixikada öz yaranma təsdiqini tapmalıdır. Yəni fərd yenidən ani olaraq elə daxili nitqi vasitəsilə Psixikaya sual verə bilər. Niyə o, meşəyə getmək istəyir? Bu zaman ani olaraq məlum sual informasiyası bütün Psixikaya yayılır. Bu informasiya işlənərək yenidən daxili nitqə hazırlanmış yeni psixi proseslər daxil olur. Burada çoxlu hazır informasiyalar ola bilər. Məsələn, təbiət gəzintiləri məlum fərdin Psixikasında xoş təəssüratlar yaratdığı üçün o, istəyir ki, meşə gəzintisinə getsin. Bu suala verilən cavab reaksiyalarında ekzistensial şöbə aktiv ola bilər. Çünki meşə, təbiət mövcudluq məkanları kimi ilk növbədə ekzistensial şöbə tərəfindən qavranılır və ilkin formal informasiyalar kimi orada qorunub saxlanılır.

Əgər məlum şəxs yenidən fikirləşib sabah meşəyə yox, digər yerə getmək istəyini daxili nitq vasitəsilə Psixikaya bildirirsə, belə olan halda yenidən Psixika həmin istək informasiyalarını işləyərək lazım olan hazır cavabları daxili nitqə göndərəcək. Bioloji və anatomik cəhətdən bütün insanlar təkrarolunmaz olduğu kimi onların Psixikaları və orada qorunan informasiyalar da özünəməxsus, təkrarolunmaz informasiyalardır. Yəni hər kəsin Psixikası onun öz həyat tərzinə və fəaliyyətinə uyğun formalaşır və onların Psixikaları öz streotipik fəaliyyətlərinə uyğun informasiyalarla zəngin olur. Məsələn, hər hansı bir şəxs təbiət və səyahətləri sevəndirsə və bu sahədə çalışırsa onda onun Psixikası təbiətlə, məkanla bağlı informasiyalarla zəngindir. Həssas insanların Psixikaları isə daha aktiv reaksiya vermə xüsusiyyətlərinə malik olur. Onların Psixikalarında informasiyalar çox sayda, aktiv şəkildə qəbul olunur və aktiv formalarda da işlənib hazırlanır. Həssas insanların Psixikaları ani

olaraq eyni vaxtda həddən artıq çox informasiyalar qəbul edirlər. Ona görə bu cür insanlarda əqli yorğunluq tez baş verir və onların psixoloji problemləri də çox olur. Əgər şəxs şox oxuyan, zehni fəaliyyətlə məşğul olan bir insandırsa onda onun Psixikası analitik, məntiqi informasiyalarla zəngin olur. Bu cür insanların Psixikalarında "fikirləşmək" fəaliyyəti ilə bağlı psixi proseslər daha çox yaranır. Şübhəsiz, əqli aktiv insanların həyat tərzi və sosial fəaliyyət xarakteri digər insanlardan fərqlənir. Bu ixtisaslarla və yaşayış tərzi ilə bağlı təhliletmə siyahısını artırmaq da mümkündür. Ancaq məntiqi nəticə odur ki, hər bir şəxsin Psixikası onun həyat tərzi və sosial fəaliyyət xarakterinə uyğun olan informasiyalarla zəngin olur və Psixikası da bu proseslərə uyğun təkrarolunmaz şəkildə formalaşır.

Yaradıcılıq fəaliyyətində də Psixika "fikirləşmək" halında olduğu kimi işləyir. Sadəcə olaraq yaradıcılıq daha aktiv və davamlı psixi proseslərin yaranmasını tələb edir. Bu zaman psixikadaxili proseslər maksimum səviyyədə aktivləşə bilər. İnformasiyaların yaranması, psixi proseslərin hazırlanması, ötürülməsi, psixi proseslərin məhvi, yenilərinin yaranması və digər əqli proseslərin aktivliyi olduqca sürətlənir. Bu da təbiidir. Çünki yaradıcı şəxs öz əqli fəaliyyətində fikirlərini tez-tez dəyişir. Bu zaman qarşılıqlı əlaqə zonası (QƏZ) da aktiv fəaliyyət və əlaqələndirici zonaya çevrilir. Bütün bu psixikadaxili aktivlik bəzən o səviyyəyə çatır ki, yaradıcı şəxs Psixikasında öz hərəkət və davranışını tənzimləyə bilmir. Yaradıcı şəxslərin qəribə və anlaşılmaz həyat tərzinə, davranışa malik olmaları məhz, bununla əlaqədardır. Bu o deməkdir ki, Psixika yaradıcılıq informasiyaları ilə çox aktiv, davamlı və fasiləsiz işlədiyindən orqanizmin, davranışın idarə olunması "yaddan çıxır". Burada qısa müddətli iş pozğunluqları yaranır. Psixikadakı bu cür qeyri-adi hallar yaradıcılıqla çox aktiv və gündəlik şəkildə məşğul olan şəxslərdə baş verir. Bu cür hadisələr Psixikanın asılı olmayan nisbi fəaliyyət xüsusiyyətlərini təşkil edir.

Yaradıcılıq fəaliyyətində də Psixika şöbələri informasiyaların qəbulu və psixi proseslərin yaranma xüsusiyyətlərinə görə aktiv və yaxud passiv ola bilirlər. Məsələn, riyaziyyatçı yaradıcılıqla məşğul olanda onun Psixikasının koqnitiv şöbəsi daha aktiv olur. Çünki Psixika "fikirləşmək" kimi aktiv analitik məntiqi fəaliyyətlə məşğul

olur. Rəssam və yaxud heykəltəraş yaradıcılıq işi ilə məşğul olanda isə əksinə onların Psixikalarının ekzistensial şöbəsi daha aktiv olur. Çünki onlar mövcudluqla, məkanla və oradakı əşyaların yaradılması ilə daha çox işləyirlər. Ekzistensial şöbə isə mövcudluğu, məkanı və oradakı əşyaları ilkin qavrayan obyektiv mahiyyətli şöbədir. Psixika şöbələrinin bu aktiv və passivliuinin təsiri nəticəsində yaradıcı şəxslərin həyat tərzi və davranışında da özünəməxsus dəyişiliklər baş verir. Onların sosial fəaliyyət xarakteri və həyat tərzi məşğul olduqları ixtisasa uyğun formalaşır. Şübhəsiz, hər bir şəxsin Psixikası onun həyat tərzi və sosial fəaliyyət xarakterinə uyğun formalaşdığı kimi yaradıcı şəxslər də ixtisaslarına görə formalaşmış yaradıcı Psixikalara, həyat tərzinə və davranışa malikdirlər.

Bir daha qeyd edirik ki, Psixikada psixi proseslərin yaranması çox mürəkkəb və çox çətin anlaşılan xüsusiyyətlərə malikdir. Elə ona görə psixi proseslərin yaranması təsvirinin və təhlilinin bəzi daha mürəkkəb proseslərini sadəcə olaraq bu elmi işdə yazılmadı və sizin nəzərinizə çatdırılmadı. Çünki onlar həddən artıq mürəkkəb yaranma mahiyyətinə və çox çətin anlaşılan səviyyəyə malikdirlər. Gələcək elmi işlərdə həmin tədqiqat nəticələri ətraflı öyrənilmiş, sadələşdirilmiş və daha anlaşılan şəkildə sizə təqdim olunacaq.

Göründüyü kimi, psixi proseslərin yaranma təbiəti və mövcudluq formaları çox müxtəlifdir. Bu təbiidir. Subyektiv insan fəaliyyətinin, zəngin insan mənəviyyatının, xarakter və davranışının fundamental əsaslarını yaratmaq asan iş deyildir. Psixi proseslər Psixikada formalaşma, inkişaf və yaşamaq xüsusiyyətlərini yaradan real psixi nəticə məhsullarıdır. Ona görə psixi proseslərin öz yaranma təbiəti və mövcudluq mahiyyəti də elə insan mövcudluğu qədər ziddiyyətli və mürəkkəbdir.

Yuxarıda qeyd etdiklərimizi ümumiləşdirərək aşağıda "psixi proses" anlamını qismən sadə tərif formasına salaq.

**Psixi proses Psixikanın qəbul etdiyi informasiyalara, impulsiv reaksiyalara uyğun olaraq Psixika şöbələrinin aktiv qarşılıqlı əlaqəsində sinir hüceyrələri (neyronlar) vasitəsilə işlənib hazırlanan, ilk dəfə əsasən daxili nitqdə mövcud olan, Psixikanın formalaşma, fəaliyyət bünövrəsini təşkil edən, Psixika vasitəsilə beynin (əsəb sistemi sinirlərinin) köməyi ilə orqanizmin**

**daxili və xarici fəaliyyət xüsusiyyətlərini yaradan tərkib hissəli əsas psixi məhsuldur.**

Bundan əlavə, psixi prosesləri yaranma mahiyyətinə və fəaliyyətə təhrik xüsusiyyətlərinə görə təsnifləyə bilərik. Bu təsnifdə bütün psixi prosesləri ümumiləşdirmək mümkündür.

**1. Sadə psixi proseslər.** Bura gündəlik fəaliyyəti, davranışı tənzimləyən, dəyişən şəraitlə bağlı yaranan psixi proseslər daxildir. Məsələn, müəyyən bir yeni obyekti görüb yadda saxlamaq, şəraitə uyğun davranmaq, təhlükəni hiss etmək və s.

**2. Mürəkkəb psixi proseslər.** Bura fikirləşmək, yaradıcılıq və ümumi zehni fəaliyyətlə məşğul olmaqla əlaqədar yaranan psixi proseslər daxildir.

**3. Asılı olmayan avtomatik yaranan davranış psixi prosesləri.** Bura orqanizmin psixoloji və biofizioloji aktivliyini tənzimləyən, gündəlik fəaliyyətdə yaşamaq tələbatlarını ödəməyə xidmət edən psixi proseslər daxildir. Məsələn, qida qəbul etmək istəyi, istirahətə meyil, digər primitiv davranış xüsusiyyətləri və s. buna misal ola bilər. Bu cür psixi proseslərin yaranmasında əsasən orqanizmin daxilindən gələn təbii impulsiv reflektor reaksiyalar mühüm rol oynayır.

Psixikanın fəaliyyətə başlamasında, psixi proseslərin yaranmasında **diqqət** mühüm rol oynayır. Psixika daxilində diqqət ani qüdrətə malikliyin hərəki reaksiyasıdır. Psixikanın fəaliyyətinin başlanğıc obyektiv statusudur. Lakin diqqət ilkin reflektor təhrikedici və əsasən biofizioloji proses olduğundan biz bu problemin təhlilinə ətraflı yanaşmırıq. Diqqətin yaranması əksər hallarda hissetmə və görmə kimi amillərlə əlaqədar olsa da Psixika üçün o əsasən impulsiv fizioloji mahiyyət daşıyır. Onun psixoloji və sosial problemləri gələcəkdə Psixika baxımından yeni formalarda öyrənilə bilər.

Biz psixi prosesin yaranmasında daxili nitqdən çox danışdıq. Yuxarıda psixi proses anlamını əhatə edən tərifdə də daxili nitq qeyd edilir. Əslində bunu anlamaq çətin deyildir. Psixi prosesin ilk dəfə daxili nitqdə mövcud olmasını və oradan işə başlamasını hamımız açıq-aydın görə bilərik. Məsələn, əgər siz stulu pəncərənin qabağına qoymaq istəyirsinizsə, artıq bu sizin daxili nitqinizə gələn psixi proses məhsuludur. Bu zaman siz digər şəxslərlə ünsiyyətdə olmadan da stolu götürüb pəncərənin qabağına qoyursunuz. Elə bu

situasiya sizin Psixikanızda psixi prosesin yaranıb daxili nitqə keçməsi, orada fəaliyyətə başlaması və bitməsi deməkdir. Bütün psixi proseslər bu formada daxili nitqdə yaranır və sonradan o xarici nitqə çıxır. Yuxarıdakı misalımızda daxili nitqə gələn hazır psixi proses xarici nitqə çıxmadı və fəaliyyətə çevrildi. İstəyimizdən asılı olmayaraq biz psixi prosesi bu cür hallarda ya "içimizdə"(daxili nitqdə) boğur, ya da ki, xarici şifahi nitqə - ünsiyyət proseslərinə çıxarırıq. Bu hamımıza bəlli olan anlaşılan prosesdir.

Təxəyyül və yaradıcılıq proseslərində isə ümumiyyətlə, daxili nitq Psixikada hegemonluq edir. Artıq qeyd etdiyimiz kimi, "fikirləşmək" halı bu informasiya ilə bağlı yaranan proseslərin məhz, daxili nitqdə bitməsi və yenilərinin yaranması üçün elə orada yeni informasiyaların, psixi proseslərin yaranması deməkdir.

Artıq demək mümkündür ki, insan Psixikasında yerləşən ümumi insan nitqinin dörd forması var.

1. **Daxili ekzistensial nitq.**
2. **Daxili koqnitiv nitq.**
3. **Yazılı fəaliyyət nitqi.**
4. **Şifahi fəaliyyət nitqi.**

Bundan sonra daxili nitqə "**daxili koqnitiv nitq**" də demək mümkündür. Məntiqi nəticə baxımından, daxili nitq Psixika daxilində ümumi insan nitqinin koqnitiv subyektiv funksiyalarını yerinə yetirir və o koqnitiv şöbədə yerləşir.

Psixi proseslərin yaranmasını təsəvvürə gətirmək, onun mövcudluq təbiətini anlamaq üçün Psixikanın bütün fəaliyyət strukturunu, iş xüsusiyyətlərini ətraflı öyrənmək, dərk etmək lazımdır. Ona görə biz sizə Psixika ilə bağlı ümumi tədqiqat yanaşmamızı mütəmadi və mərhəli formalarda sadədən mürəkkəbə doğru təqdim edirik. Bu işdə tələsmək olmaz. Bəlkə də bir prosesi, bir problemi ətraflı anlamaq üçün dəfələrlə təkrarlamaq, xatırlatmaq lazım gəlir. Bu haqda sizə "**Psixikanı öyrənmənin metodik xüsusiyyətləri**" mövzusunda da xəbərdarlıq etmişik. Sizdə hiss edirsiniz ki, bu elmi iş boyu bəzi vacib məsələlər tez-tez təkrarlanır və xatırladılır. Bu amil ümumi dərk üçün çox zəruridir. Ümumiyyətlə, mütəmadi tək-

rarlı və səbirli yanaşma nəhəng və mürəkkəb problem olan Psixikanı öyrənmək üçün yeganə təbii metodikadır.

Bundan əlavə, Psixikanın öyrənilməsində formalaşma və inkişaf prinsipləri ilə bağlı müəyyən özünəməxsus xüsusiyyətlər var. Formalaşma və inkişaf burada da öz mürəkkəbliyi ilə Psixikanı əhatə edir. Məsələn, Psixikada külli miqdarda sadəliklərdən doğan mürəkkəbliklər mövcuddur. Bu da təbiidir. Çünki Psixika orqanizmdə formalaşmanı və inkişafı tənzimləyən, idarə edən ali orqandır. **Formalaşma və inkişaf isə sadəliklərdən doğan mürəkkəb proseslər sistemidir.**

Psixikanın öyrənilməsində, psixi proseslərin yaranmasında ən vacib məsələlərdən biri şöbələr arasında olan əlaqələrin təbiəti, forması və səviyyəsi ilə bağlıdır. Hələlik bu əlaqələrin yaranma dinamikasını və mahiyyətini təsəvvür etmək çox çətinliklər yaradır. İlk növbədə bu proses ziddiyyətli ani surətə malikdir. Hələlik biz sizə bu qarşılıqlı ani sürətli əlaqələrin ümumi baş vermə sxemini təqdim edə bilmişik. Bu, ani sürətli qarşılıqlı əlaqələrdə yaranan psixi proseslərin yaranma sxeminin primitiv təsəvvürüdür. Bəli, bizim sizə təqdim etdiyimiz "psixi proseslərin yaranma sxemi" ümumi yanaşmadır və Psixikada baş verən nəhəng, fasiləsiz fəaliyyətin ən primitiv hissələrindən biridir. Gələcəkdə, bu psixikadaxili qarşılıqlı əlaqələr öz mürəkkəbliyinə baxmayaraq ətraflı şəkillərdə öyrəniləcək və təhlil olunacaq.

### 4.2.1 Psixi prosesin tərkib hissəsi

Psixikanın öyrənilməsində, psixi proseslərin yaranmasında nəzəri cəlb edən məsələlərdən biri də onun **tərkib hissəsi** ilə bağlıdır. Psixi proses Psixikanın iş məhsulu olduğundan onun tərkib hissəsini görmək çətin deyil. Məsələn, Psixikada qavranılan, görülən ağac təkcə qavrayışın məhsulu deyil. Ən azı ona görə ki, ağacı bizim psixikamızda "ağac" edən ilk növbədə hafizədir. Hafizənin hesabına ağac qavranılmış formada Psixikanın yaddaş ehtiyatına keçir. Bundan əlavə, "ağac" sözünü söyləmək üçün koqnitiv şöbədə

yerləşən nitq lazımdır. Ağacın mahiyyətini anlamaq və ondan istifadə etmək üçün isə şüur və təfəkkür tələb olunur. Deməli, ağacla bağlı psixi proseslər mürəkkəbləşdikcə Psixika daxilindəki bütün ali zehni proseslər (şüur, nitq, təfəkkür, qavrayış, hafizə, təxəyyül) bu işə qoşulur. Psixikanın daxili iş məhsulları psixi prosesin tərkib hissəsinə keçir. Əgər psixi prosesin yaranması üçün lazım olan tərkib hissə öz heyəti ilə tam deyilsə, sağlam, normal psixi fəaliyyət formalaşa bilməz. Biz artıq "Döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar"ın nəticələrində də bunun şahidi olmuşuq. Orada yarımkürələrin (Psixikanın şöbələrinin) ayrılıqda işi qeyri-tam və sağlam olmayan davranış və fəaliyyət yaradırdı.

Psixi prosesin tərkib hissəsinə bütün ali psixikadaxili proseslər daxildir. Psixi prosesdə ilkin büruzə verilən tərkib hissələr qavrayış, hafizə, nitq və şüur olur. Psixi poseslər mürəkkəbləşdikcə təfəkkür və təxəyyül də tərkib hissəyə daxil olurlar. Psixi prosesin tərkib hissəsinin ilkin nəticələri şübhəsiz, daxili nitqdə büruzə verilir.

Göründüyü kimi, daxili nitq nə ki, psixi proseslərin ilkin büruzə verilmə məkanı, "fikirləşmək" kimi mürəkkəb bir psixi proseslərin yarandığı struktur, həm də psixi proseslərin tərkib hissələrinin müəyyənləşdiyi yerdir. Gəlin fikir əməliyyatı fonunda daxili nitqdə bitən psixi prosesin və onun tərkib hissəsini bir daha aydınlaşdırmağa çalışaq. Məsələn, "dəftəri kitab rəfinə qoymaq istəyinin yaranması" kimi məişətlə bağlı olan fikir əməliyyatı timsalında bunu təhlil edək. Siz "dəftəri hara qoymaq" informasiyasını daxili nitqinizdə öz-özünüzə sual verirsiniz. Bu istəyi şifahi nitqə, dilə gətirmək də mümkündür. Öz-özünüzlə fikirləşən zaman daxili nitq ani olaraq bu informasiyaları bütün Psixikaya yayır. Psixika dəftərə şüurlu şəkildə yer axtarmağa başlayır. Psixika şöbələrinin köməyi ilə, "fikirləşmək" kimi mürəkkəb psixi proseslərinin yaranma sxemi üzrə bu işi yerinə yetrirərək nəticələr hazırlayır. Bu nəticələr həmişəki kimi daxili nitqə gəlir. Məsələn, hazır psixi prosesin nəticəsinə uyğun olaraq siz dəftəri qoymaq üçün kitab rəfini seçirsiniz. Bir daha xatırladırıq ki, "dəftər", "kitab rəfi" kimi informasiyalar artıq Psixikada olur. Sadəcə olaraq "fikirləşmək" kimi mürəkkəb

psixi proseslərinin hazırlanmasında həmin nəticə məhsullarında onlardan istifadə olunub.

Siz dəftəri qoymaq üçün kitab rəfini seçdikdən sonra daxili nitqinizdə "dəftəri qoymaq üçün yer tapdım" hissini yaşayırsınız. Beləliklə, daxili nitqdəki bu psixi proses Psixika tərəfindən orqanizmin bioloji imkanlarının köməyi ilə həyata keçirilir – dəftəri kitab rəfinə qoyursunuz. Bu nəticə məhsulunda psixi proseslərin tərkib hissəsi kimi əsasən şüurdan və hafizə məhsullarından istifadə edilirdi.

Əlbəttə, biz Psixika daxilində psixi proseslərin hazırlanmasını, onun tərkib hissəsini bütövlükdə hiss edə bilmərik. Biz əsasən psixi proseslərin yaranma başlanğıcını (informasiyalar, impulsiv reaksiyalar Psixikaya daxil olarkən) və bu proseslərlə bağlı fəaliyyətə təhrikin yaranmasını hiss edə bilərik. Yerdə qalan proseslər Psixikanın ani, hiss olunmayan və dəqiq yerinə yetirilən daxili işidir.

Psixikanın bu cür fəaliyyətə malik olması həm də onun tərkib hissəsi ilə bağlıdır. Elə ilk günlərdən başlayaraq biz psixi proseslərin tərkib hissəsinə xüsusi diqqət yetrimişik. Psixikanın öyrənilməsini psixi proseslərin tərkib hissəsinin tədqiq etməklə başlamışıq. Xatırlayırsınızsa, bu haqda kitabın başlanğıcında (Bax: "Müəllifdən") sizə məlumat da verilib.

Psixi proseslərin tərkib hissəsi Psixikanın mövcudluq mahiyyətini, daxili fəaliyyət təbiətini öyrənmək üçün geniş imkanlar yaradır. Psixi proseslərin tərkib hissəsi də iki növ xüsusiyyətlər sistemindən təşkil olunmuşdur. Birincisi, "mövcud olmaq" xüsusiyyətlər sistemidir. Bu növ xüsusiyyətlər sistemi Psixikanın ekzistensial şöbəsinə aiddir. İkincisi, "dərketməni və subyektivləşməni" nəzərdə tutan xüsusiyyətlər sistemidir. Bu növ xüsusiyyətlər sistemi isə koqnitiv şöbəyə aiddir. Artıq qeyd etdiyimiz kimi, onların qarşılıqlı əlaqəsi psixi prosesləri və Psixikanı formalaşdırır. Psixi proseslərin tərkib hissəsinə də aid olan bu amil insan orqanizminin formalaşma və inkişaf prinsiplərinə uyğundur. Elə ona görə Psixikanın tədqiqinə başladığımız ilk günlərdən bizi psixi prosesin bu növ tərkib hissəsi maraqlandırırdı. Biz "mövcud olmaq" və "subyektivləşmək" kimi proseslər sistemi üçün baş beyində Psixikanı və onun şöbələrini (yarımkürələri) tapdıq. Nəticədə, Psixikanın özü və daxili fəaliyyət strukturu yarandı. Sonrakı bütün araşdırmalar, aparılmış kli-

niki tədqiqatların nəticələri əsaslandırıcı və təsdiqedici amillər kimi bizim xeyrimizə işlədi.

Göründüyü kimi, psixi proseslərin tərkib hissəsi Psixikanın öyrənilməsində bizim üçün ilkin elmi əsas və real obyektiv mənbə olub. Bu baxımdan, psixi proseslərin tərkib hissəsi daim diqqət mərkəzində olmalı və tərkib hissələrin araşdırılması həmişə mühüm əhəmiyyət kəsb etməlidir.

### 4.2.2 Psixikada dominant şöbə varmı?

Deməli, əksər psixi proseslər Psixikanın koqnitiv şöbəsində yaranır, oradan da orqanizmin fiziki və zehni fəaliyyətini formalaşdırmağa başlayır. Tam formalaşmış psixi proseslərin koqnitiv şöbədə yaranmasının fundamental əsasları vardır. Koqnitiv şöbədə şüur, nitq və təfəkkür yerləşir. Hansı ki, bu ali strukturlar psixi prosesin tərkib hissəsində fundamental subyektiv mahiyyətə mailkdirlər.

Tam formalaşmış psixi proseslərin koqnitiv şöbədə yaranması və oradan fəaliyyətə tətbiq olunması insan orqanizminin anatomik formalaşma və inkişaf xüsusiyyətlərinə uyğundur. İnsan orqanizmi mövcud olmaq (ekzistensial şöbə) və subyektivləşmək (koqnitiv şöbə) üçün lazım olan anatomik bədən formalarına malikdir. Orqanizmin sol və sağ tərəflərə malik olması, onların birtərəfli funksional xüsusiyyətləri də məhz, bu problemin fəaliyyət prinsiplərinə xidmət edir. Orqanizmin bioloji fəaliyyət aktivliyi də Psixikaya və onun şöbələrinin funksional xüsusiyyətlərinə uyğun qurulub. Məsələn, aktiv məntiqi-subyektiv fəaliyyət yaradan proseslər koqnitiv şöbədə (sol yarımkürədə) yaranır və orqanizmin sağ tərəfində fəaliyyətə tətbiq edilir. Bu amil insan orqanizmində aktiv fəaliyyətin ağırlıq yükünü tənzimləmək baxımından nəzərə alınmışdır. Bu baxımdan, ürək aktiv fəaliyyət orqanı kimi, sol yarımkürə tərəfdə yerləşir. Ağırlıq, bununla yaranan iş pozğunluğu onsuz da aktiv fəaliyyət göstərən ürəyin üzərinə düşməsin deyə fəaliyyət yükünü öz üzərinə götürən sağ əl, sağ ayaq və ümumiyyətlə, sağ tərəfdir. Elə bil bizim sol tərəfimiz analitikdir o düşünür, idarə edir, tənzimləyir.

Sağ tərəfimiz isə obyektivdir, o aktiv fiziki fəaliyyətdə olur, yerinə yetirir, yaradır.

Doğrudan da, insanın sol əli kimi, sol tərəfi də müəmmalı orqanizm orqanlarını əhatə edir. Ürək də nəhəng müəmmalı bir bioloji orqandır. Bunun əksinə olaraq sağ tərəf aktiv, real olan fiziki gücə malikdir. Fiziki olanını ümumiyyətlə, sağ yarımkürəyə (ekzistensial şöbəyə) və orqanizmin sağ tərəfinə aid etmək olar. Çünki mövcudluq, oradakı əşyalar, fiziki reallıqlar həm sağ yarımkürə (ekzistensial şöbə) vasitəsilə qavranılaraq Psixikaya gətirilir, həm də sağ əl, sağ tərəf vasitəsilə fiziki olaraq dəyişdirilir, yaradılır.

Deməli, dünyanı, mövcudluğu, fiziki olanını qavrayan və həm də fiziki formalarda dəyişdirən ekzistensial şöbə (sağ yarımkürə) və bədənimizin sağ tərəfidir. Dünyanı, mövcudluğu, fiziki olanını anlayan, dərk edən və həm də fəaliyyətdə idarə edib tənzimləyən isə koqnitiv şöbə (sol yarımkürə) və bədənimizin sol tərəfidir. Açıq-aydın görünür ki, insan orqanizminin anatomik bioloji quruluşu da Psixikaya və onun fəaliyyət strukturuna xidmət edir. Bu belə də olmalıdır. Çünki Psixika və orqanizm paralel formalaşma, qarşılıqlı fəaliyyət və inkişaf prinsiplərinə malikdirlər. Bu tipli problemlər kitabın ikinci böyük bölməsi olan "**Psixika, Beyin və İnsan orqanizmi**" hissəsində ətraflı şəkildə araşdırılacaq və müqayisə olunacaq.

Bütün bunlara baxmayaraq Psixikanın öyrənilməsində şöbələrlə bağlı mühüm bir problem diqqətdən kənarda qala bilməz. Məlum problem şöbələr arasındakı hakimiyyət bölgüsü ilə əlaqədardır. Görəsən, Psixikada əmr verən, idarə edən dominant şöbə varmı? Ümumiyyətlə, koqnitiv şöbə psixi prosesin yarandığı məkan olduğu üçün onu idarə edən dominant şöbə kimi qəbul etmək olarmı? Neyroelmlər sistemində mütəxəssisləri hansı beyin yarımkürəsinin (Psixika şöbəsinin) dominant olması sualı çox maraqlandırır. Bizim üçün bu problem Psixikanın ümumi işi ilə bağlı olan bir məsələdir. Biz artıq qeyd etmişik ki, Psixikada hegemon əhəmiyyətli dominant şöbə yoxdur. Çünki bu dominantlıq Psixikanın adi iş prinsipi üçün əhəmiyyət daşımır. Diqqətlə fikir versək görərik ki, koqnitiv şöbə və yaxud şüur ekzistensial şöbəyə və yaxud hafizəyə rəhbərlik edə bilməz. Və yaxud əksinə, ekzistensial şöbə də koqnitiv şöbəyə komanda vermək xüsusiyyətlərinə malik deyil. Lakin onlar bir-bir-

lərindən asılıdırlar və güclü qarşılıqlı əlaqə mövcuddur. Şöbələr ümumi işlə məşğuldurlar. Psixika elə bir işlək aparatdır ki, orada hansı isə bir şöbə digərinin üzərində rəhbərlik edə bilməz. Psixikanın ümumi işi, şöbələrarası asılılıq pozular. Lakin orada ciddi fəaliyyət ierarxiyası mövcuddur. Bütün şöbələr və sinir hüceyrələri (neyronlar) öz işini tam və "vicdanla" görməyə məcburdur.

Psixikanın daxili işi ümumiyyətlə, neytrallaşdırılıb. Məsələn, dünya, mövcudluq Psixikaya ekzistensial şöbədən gəlir. Bu şöbə dünyanı olduğu kimi qavrayır. Dünyanı dərk etmək, dəyişdirmək isə koqnitiv şöbədən başlayır. Biri başlayır o biri isə bitirir. Bu neytral fəaliyyət nöqtəsi normal tam insan Psixikasını və subyektiv fəaliyyətini yaradır.

Psixika şöbələrində yerləşən ali psixi proseslər də neytral formada bir-birləri ilə müqayisə oluna bilərlər. Məsələn, fəaliyyətlərin hegemonluğu baxımından koqnitiv şöbədə yerləşən şüuru, ekzistensial şöbədə yerləşən hafizə ilə müqayisə etmək olar. Biz artıq bu iki ali psixi prosesləri yaxşı tanıyırıq və keçən fəsillərdə onların bir-birindən geri qalmayan hegemon funksiyalarını da müqayisə etmişik. Məntiqi nəticə odur ki, onlar nə qədər hegemon funksiyalı olsalar da yalnız Psixikanın ümumi və qarşılıqlı işi nəticəsində hafizə "hafizə" kimi, şüur isə "şüur" kimi fəaliyyət göstərə bilir. Psixikadaxili ali psixi proseslərin neytral, bir-birlərindən asılı fəaliyyətini anlamaq üçün aşağıda sadə bir müqayisə misalını diqqətinizə çatdırırıq.

Təsəvvür edin ki, insan Psixikası tamamilə şüura malik deyildir. Belə olan halda o, insan kimi məntiqi fəaliyyətini və subyektivliyini itirəcəkdir. Lakin o, canlı kimi mövcud olur. Kobud şəkildə desək heyvan kimi yaşaya bilər. İndi isə təsəvvür edin ki, insan tamamilə hafizəyə malik deyil. Bu zaman isə insan artıq fəaliyyət göstərə bilməyən, yaşaya bilməyən əhəmiyyətsiz bir canlıya çevrilərək tezliklə məhv ola bilər. Çünki həmin insan dünyanı, ətraf aləmi qavramır, yadda saxlaya bilmir. Psixika yadda saxlaya bilmirsə, deməli, həmin prosesləri dərk etmir, anlamır. Belə olan halda insan fəaliyyət göstərib yaşamaq uğrunda mübarizə apara bilməz.

Bəli, hafizə mövcudlaşmağa, şüur isə subyektivləşməyə xidmət edir. Yuxarıdakı misalda da gördüyümüz kimi fundamental funksiyalarının əhəmiyyəti baxımından bir-birlərindən geri qalmırlar. La-

kin yenə də Psixika daxilindəki birgə qarşılıqlı iş nəticəsində öz fundamental funksiyalarını yerinə yetirə bilirlər.

Deməli, Psixikada nəinki, dominant ali psixi proses, hətta hegemon funksiyalı asılı olmayan dominant şöbə tapmaq mümkün deyil. Bu amil Psixikanın elə öz mövcudluq və fəaliyyət prinsiplərindən doğur. Məsələn, Psixikanın daxili işinin qurulması, mövcudluğu qavrama, təcrübə və informasiya ehtiyatları baxımından Psixikada ekzistensial şöbə dominant fəaliyyətə, əhəmiyyətə malikdir. Tənzimləmə, idarəetmə, subyektiv analitik fəaliyyət baxımından isə Psixikada dominant mövqe koqnitiv şöbəyə məxsusdur.

Psixika daxilində **"idarəetmə"** məsələsi daha çox diqqəti cəlb edir. Demək olar ki, Psixikada bu işlə tam koqnitiv şöbə deyil, yalnız onun beyin qabığının **alın payı** məşğul olur. Deməli, koqnitiv şöbənin alın payı nahiyəsi Psixikada idarəetmə ilə məşğul ola bilən bir sahə kimi mövcuddur. Ümumiyyətlə isə Psixikanın şöbələrinin alın payları həmin şöbənin idarə olunmasında əsas rola malikdirlər. Şöbələrin daxili işi də onların alın payları tərəfindən idarə olunur. Ümumiyyətlə, alın payı anlamı elmlər tarixində həmişə diqqət mərkəzində olmuşdur. Xalq təbabətində, xalq psixologiyasında da alın payı ilə bağlı çoxlu mülahizələr mövcuddur. Deməli, Psixikanın ali fəaliyyət funksiyalarının, psixi prosesin tam yarandığı və Psixikanın idarə olunduğu sahə kimi koqnitiv şöbənin alın payının seçilməsi məqsədəuyğundur. Müşahidələr, kliniki eksperimental tədqiqatlar da sol yarımkürənin (koqnitiv şöbənin) alın payının subyektiv, analitik mahiyyəti ilə əlaqədar mühüm nəticələr əldə etmişlər. "Hiss orqanlarının bütün informasiyaları, həmçinin hərəkət proqramları ilə bağlı alınmış informasiyalar alın payında işlənib əlaqələndirilir, hansı ki, bu proses özündə funksional ierarxiyanın ən ali səviyyəsini əks etdirir"( **(Bax: F.Blum, A.Leyzerson, L.Xofstedter. "Mozq, razum, povedenie", M. 1998. səh. 176)**.

Bundan əlavə, şüur, nitq, təfəkkür, təxəyyül kimi ali psixi proseslər məhz, koqnitiv şöbənin alın payı hissəsində yerləşirlər.

Düzdür, Psixikanın idarə olunduğu sahə kimi koqnitiv şöbənin alın payının seçilməsi məqsədəuyğun sayıla bilər. Lakin problemin ciddiliyi və ziddiyyətliliyi bu yanaşmanı tam təsdiqləməyə imkan vermir. Bütün bunlara baxmayaraq, biz bu alın payını Psixikanın

fəaliyyətində nəzəri cəlb edən yeganə idarəetmə məkanı sayırıq. Hələlik yalnız onu demək mümkündür ki, Psixikanın əsas fəaliyyəti şöbələrin (yarımkürələrin) alın paylarında baş verir. Daha dəqiq desək, dünyanı və oradakı əşyaları qavrayıb idarəetməsi ilə ekzistensial şöbənin alın payı, analitik və subyektiv fəaliyyətin idarə olunması ilə isə koqnitiv şöbənin alın payı məşğul olur.

Psixika daxilində şöbələr arasında geniş, aktiv və fasiləsiz qarşılıqlı əlaqələr baş verdiyi üçün şöbələr arasında funksiyaların aşınması və bir-birlərinin işinin qismən mənimsəmə halları baş verir. Neyronların universal fəaliyyəti məhz, elə bu əlaqələrin daimi aktiv işi nəticəsində yaranır. Bu universallıq Psixikanın bütün fəaliyyət xüsusiyyətlərində hiss olunur. Həmin universallığın mahiyyətini anlamaq üçün əllərin birgə işini misal gətirmək olar. Düzgün olaraq əllərin birgə işi Psixika şöbələrinin (yarımkürələrin) birgə işi ilə müqayisə olunur. Əllər ümumi məntiqi nəticə baxımından məhz, Psixika şöbələrinin (yarımkürələrin) funksional və universal fəaliyyətini əks etdirir. Yəni Psixika şöbələri (yarımkürələr) bir-birlərinin işini qismən bacardıqları kimi əllər və ayaqlar da bir-birlərinin işini qismən bacarırlar. Məsələn, bir əlin və yaxud bir ayağın yoxluğu insan fəaliyyətinin tam yoxluğu demək deyildir. Əslində, bir Psixika şöbəsinin (yarımkürənin) yoxluğu da insan Psixikasının və insanın yoxluğu demək deyildir. Bu zaman əllər və ayaqlar da olduğu kimi hər bir insan Psixikası tam olmasa da qismən fəaliyyət göstərməyə başlayır. Lakin hər halda bu cür şəraitlərdə insanın formalaşma və inkişaf xüsusiyyətləri pozulur. Şübhəsiz, heç vaxt sol əl sağ əli, sağ əl sol əli tam əvəz edə bilməz. Psixika şöbələrində də, bu elədir. Çünki onlar qismən universal fəaliyyət imkanları hesabına bir-birlərinin işini qismən bacarsalar da, tam şəkildə isə yalnız artıq onlar üçün formalaşmış özünəməxsus funksiyalarını yerinə yetirə bilərlər.

### 4.2.3 Psixika - dövlət, şüur – prezident

Hiss edirsiniz ki, şüur haqqında az danışırıq. Lakin bu heç də o demək deyildir ki, biz şüurun real imkanlarını və mühüm əqli fəa-

liyyətini nəzərə almırıq. Şüur Psixikada əsas subyektiv funksiyaları yerinə yetirir və biz onu bu ali ümumiləşdirici məntiqi xüsusiyyətlərinə görə koqnitiv şöbənin, Psixikanın "rəhbəri" kimi də qiymətləndirə bilərik. Lakin şüuru Psixika səviyyəsinə qaldırmağı heç vaxt qəbul etmərik. Şüura Psixikada üstünlüklər verən onun ali məntiqləşdirici və subyektivləşdirici funskiyalarıdır. Elə bu amil imkan yaratmışdı ki, şüuru insan orqanizmində ən ali psixi orqan kimi qəbul edərək, hətta onu Psixika ilə müqayisə və əvəz etsinlər.

Psixikanın öyrənilməsi də şüurun ali və geniş subyektiv funksiyalarını təsdiq etdi. Lakin şüurun bu ali və geniş subyektiv funksiyalarına real hədd qoydu və onları çərçivəyə saldı. Necə deyərlər, şüuru "layiq olduğu yerində otuzdurdu". Məsələn, şüurun yaranması üçün insan ilk növbədə mövcud olmalıdır. Məlum mövcudolma funksiyalarını isə Psixikada qavrayış, hafizə və ümumilikdə ekzistensial şöbə yaradır. Dərkolunma və subyektivləşmə funksiyaları öz ilkin formal əsaslarını mövcudolma kimi informasiya ehtiyatlarından götürür. Bu ümumi işi isə təkcə şüur yox, məhz, Psixika yerinə yetirir. Psixikanın öyrənilməsi sübut etdi ki, şüura bu hegemon funksiyaları verən də elə Psixikanın özüdür. Şüurun insan orqanizmində real mövcudluq statusu baxımından artıq bunu qəti surətdə söyləmək mümkündür.

Şüurun insan orqanizmində və Psixikada real mövqeyini və mövcudluq statusunu ətraflı şəkildə anlamaq üçün çox qəribə bir təhlil üsulu tapdıq. Əslində bu təhlilin nəticələrini bütün Psixika və orada yerləşən ali psixi proseslər üçün əhəmiyyətli saymaq olar. Bu təhlil **fəaliyyətdə olan Psixika ilə, fəaliyyətdə olan Prezident üsul idarəli dövlətin müqayisəsini** əhatə edir.

Deməli, Psixikanı prezidentin idarə etdiyi dövlət kimi təsəvvür edə bilərik. Gəlin bu "Psixika" adlı dövlətdə ali rəhbər vəzifələri Psixika şöbələrindəki ali psixi proseslər arasında bölüşdürək. Əlbəttə, şüur prezident postunda oturmalıdır. Təfəkkür isə hökumət başçısı olan baş nazirdir. Təxəyyül parlamentin spikeridir. Qavrayış, hafizə (ekzistensial şöbə) isə parlamentin özü və dövləti idarə edən qanunlar toplusudur (konstitusiya). Yəni ekzistensial şöbədə, hafizədə artıq qəbul olunmuş dövləti idarə edən qanunlar toplusu qorunub saxlanılır.

Təsəvvür edin ki, şüur (prezident), təfəkkür (baş nazir), təxəyyül (spiker) "Psixika" adlı dövlətin koqnitiv şöbəsində otururlar. Parlamentin sədri olan təxəyyül öz ənənəvi olan yaradıcılıq işlərinə, yəni yeni qanunların hazırlanmasına başçılıq edir. Lakin onun başçılıq etdiyi parlament və dövləti idarə edən qanunlar toplusu "Psixika" adlı dövlətin ekzistensial şöbəsində yerləşir. Təxəyyülün (spikerin) idarəetmə fəaliyyəti koqnitiv şöbəyə aiddir. Onun yeni qanunlar yaratmaq üçün istifadə etdiyi subyektiv və obyektiv ehtiyatlar isə ekzistensial şöbədədir. Psixikanın daxili işində olduğu kimi yenə də təxəyyül yaradıcılıq işlərini yaratmaq üçün ekzistensial şöbədən, oradakı informasiyalardan istifadə etməyə məcburdur. "Psixika" adlı dövləti idarəetmə baxımından təxəyyül spiker kimi rəhbər işçilərdən biridir və o, prezidentlə (şüurla), baş nazirlə (təfəkkürlə) bir yerdə oturmalıdır. Ona görə təxəyyül koqnitiv şöbədə idarəedənlərin içərisində oturur.

Gəlin baxaq şüur-prezident "Psixika" adlı dövlətdə hansı işlərlə məşğuldur. İndi bizim üçün şüurun Psixikadakı mövqeyi və statusu bir az da dəqiqləşəcək. Təkcə onu demək kifayətdir ki, prezident dövlət, dövlət isə prezident demək deyildir. Prezident dövlətdə hadisələri, prosesləri məlum ölkəyə uyğun tənzimləyən şəxsdir. Dövlətin idarə olunmasında bu şəxsin fəaliyyəti gündəlik hiss olunur. Lakin dövlət müəyyən vaxtlarda prezidentsiz yaşaya bilir. Məsələn, o, xəstələnir və yaxud səfərə çıxır. Bu o demək deyildir ki, dövlət idarə olunmur və yaxud dövlət yoxdur. Şüur da Psixikada məhz, bu cür statusdadır. Şüursuz da Psixika müəyyən vaxtlarda fəaliyyət göstərə bilər. Lakin bu cür fəaliyyət çox davam edərsə o başsız və yiyəsiz dövləti xatırladacaq. Şübhəsiz, bu formalarda Psixika və dövlət normal fəaliyyət göstərə bilməzlər. Hətta adi şəraitdə belə prezident dövlətə tam nəzarət etmədiyi halda müəyyən problemlər – qiyamlar, dövlət çevrilişləri baş verir. Şüurla problemlər yarananda Psixika daxilində də iş pozğunluğu baş verir. Lakin siz də diqqət yetirdinizsə burada hər hansı formalarda yalnız bir şeydə dəyişiklik baş vermədi. Yəni burada devrilməyən və dəyişilməyən nə oldu? Əlbəttə, ümumi dövlət və Psixika. Dövlət yoxdursa, deməli, həmin ölkə də yoxdur. Psixika yoxdursa, deməli, həmin insan da yoxdur.

Bildiyimiz kimi, prezident səlahiyyətlərini məhdudlaşdıran əsas struktur parlament və konstitusiya qanunlarıdır. Psixikanın işində də şüur-prezidentin səlahiyyətlərini məhdudlaşdıran proseslər var. Məsələn, orada da ekzistensial şöbə, hafizə ("Psixika" dövlətinin parlamenti və qanunlar toplusu) şüurun fəaliyyətini zəifldə və hətta onun fəaliyyətini dayandıra bilər. Yəni ekzistensial şöbə, qavrayış, hafizə dünyanı və oradakı mövcudluğu qavrayıb Psixikaya gətirməsələr onda şüur-prezident "işdən çıxarılma" halına uyğun çox gülünc bir vəziyyətə düşəcək. Çox qəribə də olsa koqnitiv şöbədə yerləşən şüur-prezident ekzistensial şöbədə yerləşən qanunlar toplusuna uyğun seçilir. Adi dövlətlərdə də bu belədir. Məsələn, parlament və konstitusiya qanunları çox böhranlı vəziyyətdə prezidentin səlahiyyətlərini əlindən ala bilər (məsələn, impiçment yolu ilə).

Göründüyü kimi, Psixika (dövlət) daxilində şüur (prezident), hafizə (parlament və qanunlar toplusu), təfəkkür (baş nazir), təxəyyül (spiker) necə də bir-birlərindən asılı şəkildə işləyirlər. Hər halda fəaliyyətin kluminsaiya nöqtəsi və idarəetmə baxımından şüur Psixikanın "fərman" verən subyektiv yiyəsidir. Adi dövlətlərdə də fərman və sərəncamlar verən son subyektiv söz yiyəsi məhz, prezidentdir.

Psixikanın, şüurun fəaliyyətinin prezident üsul-idarəli dövlət ilə müqayisə etmək sadəcə olaraq subyektiv fikir və şəxsi mülahizə deyildir. Bu müqayisə insanların və dünyanın idarəolunma qanunauyğunluqlarını əhatə edir. Deməli, Psixikanın, şüurun fəaliyyətinin prezident üsul-idarəli dövlətin fəaliyyəti ilə üst-üstə düşməsi təbiidir. Çünki Psixika da insanlara məxsusdur. Beləliklə, təbii məntiqi bir nəticə meydana çıxır. **İnsan Psixikası necə idarə olunursa, insanların Psixikaları da elə bu formada idarə olunur.** Bu, Psixikanın formalaşması və insanların bir yerdə mövcud olub yaşamaları üçün lazım olan qanunauyğun prosesdir.

# 5. PSİXİKANIN FORMALAŞMASI

## 5.1 Psixikada dünyanın mövcudluq formaları vasitəsilə qavranılması və mənimsənilməsi

Keçmiş fəsillərdə biz artıq Psixikanın daxili strukturunu, onun şöbələrinin özünəməxsus fəaliyyətini, bu şöbələrin qarşılıqlı işi nəticəsində yaranan psixi proseslərin mövcudluq xüsusiyyətlərini və burada meydana çıxan digər çoxlu problemləri araşdırmağa çalışdıq. Təbii ki, bu proseslərin formalaşması bir günün işi deyildir. İllərin təcrübəsi, dünya və mövcud obyektiv-subyektiv varlıqlarla qarşılıqlı əlaqələr sistemi, yaşamaq uğrunda sosial-psixoloji mübarizə Psixikanı formalaşdırmalı və onu lazım olan funksiyaları yerinə yetirmək üçün hazırlamalıdır. İnsanın doğulduğu ilk günlərdən daimi və fasiləsiz olaraq yaranan psixi proseslər elə Psixikanın özünü də formalaşdırır. Sonrakı paralel qarşılıqlı fəaliyyət xüsusiyyətləri son anda tam, sağlam Psixikanın yaranması ilə nəticələnir. Bəli, indi biz Psixikanın öyrənilməsində daha mürəkkəb və mühüm mərhələlərdən biri olan **Psixikanın formalaşma proseslərini** araşdıracağıq. Aşağıdakı suallara məntiqli və ətraflı cavab axtarmağa çalışaq.

Psixika necə formalaşır? Psixika kimi formalaşmada daxili prosesləri və xarici mövcud aləmi mənimsəmək üçün qarşılıqlı əlaqə formaları necə baş verir?

Artıq ekzistensial şöbənin araşdırılmasında dünyanın, əşyaların formalar şəklində Psixikada işlənilməsi və mənimsənilməsi problemlərinə toxunmuşuq. Orada bu mənimsəmə problemlərinə ekzistensial şöbənin funksiyaları baxımından yanaşılmışdı. İndi isə biz ümumi Psixika baxımından problemə yanaşacağıq. **Burada ümumi olanı odur ki, Psixikada dünya, mövcudluq, əşyalar məhz, formalar şəklində oz mövcudluq əksini tapır.** Yəni dünya, mövcudluq və əşyaların Psixikaya daxil olması, orada qavranılması, mənimsənilməsi yalnız bu formada baş verir. Yalnız bundan sonra dünya Psixikada məzmun, mahiyyət və məntiq tapır. Psixikada bu məntiqi və əqli iş yalnız bu formaların üzərində gedir. Formaların mənimsənilməsi işi Psixikanın ilkin fundamental funksiyalarından biridir. Ümumiyyətlə, Psixika dünya, mövcudluq, əşyalar və dəyi-

şən fiziki, sosial məkan haqqında ilkin məlumatları onların formalarından əldə edir. Formalar Psixikaya daxil olan ilk mənimsəmə prosesləri olsa da bu hal Psixikanın daimi və fasiləsiz fəaliyyətini əhatə edir. Məntiqi baxımdan Psixika həmişə və yalnız bütün əşyaların və anlayışların formalarını mənimsəyərək onu qavrayir və sonra dərk edir. **Yəni dünyanın, mövcudluğun, əşyaların və mövcudluq anlayışlarının Psixikada formalar vasitəsilə qəbulu, qavranılması Psixikanın yeganə mənimsəmə metodudur.**

Ümumi elmlər sistemində və Psixologiyada "forma" termini yeni bir anlam deyildir. Formaların mövcudluq mahiyyəti, onların real təsirləri ilə bağlı problemlərə Fəlsəfə tarixində də tez-tez rast gəlinir. Psixologiyada formalarla əlaqədar problemlər psixi proseslərin və situasiyaların təhlilini əhatə etmişdir. Xüsusilə də, qavrayış problemlərinin öyrənilməsində formaların rolu müxtəlif istiqamətlərdə tədqiq edilir. Bu təbiidir. Formalar məhz, qavrayışın Psixikaya gətirdiyi ilkin psixi məhsullardır.

Forma probleminə dahi filosof, tibb elmlərinin klassik atası **İbn Sina** öz əsərlərində tez-tez toxunmuşdur. İbn Sina yazır: "İnsan zehnində formalarla bağlı nəzəri cəlb edən ilkin amil bu formaların mahiyyəti, onların qavranılan müvəqqəti xüsusiyyətləri, həmçinin bu formaların oxşarlığı və onlar arasındakı fərqlərlə əlaqədardır. Bu qavranılan formalar oxşar xüsusiyyətlərinə görə bir-birlərindən fərqlənmirlər və onlar zehnin mahiyyətində yeganə ideya kimi mövcud olurlar. Amma o da faktdır ki, bu təsəvvür edilən formalar zehnin mahiyyətində bir-birlərindən fərqlənərək çoxlu ideyalar yaradırlar. Əlbəttə, insan zehni yeganə, tək ideyadan çoxluqlar yaratmaq, əksinə çoxluqları isə bir ümumiliyə cəmləşdirmək imkanına malikdir." (**Bax: Ибн Сина (Авиценна) "Избранные философские произведение" М "Наука" 1980. səh. 495-496**).

İbn Sina ümumiyyətlə, hərəkəti forma adlandırırdı. O, ruhi olanını da ("duşa"nı) hərəkətdə olan forma kimi qəbul etmişdi. Əlbəttə, İbn Sina eramızın təxminən X əsrində yaşamışdır. Lakin bu yanaşma müasir günümüzdə də məntiqi nəticə baxımından öz mahiyyətini saxlamışdır.

XX əsrdə yaşayıb yaratmış alimlərin əsərlərində də forma problemlərinə ümumi klassik münasibət dayişməyib. Məsələn,

J.Piaje intellektin yaranmasında formaların rolunu xüsusilə qeyd edir. Ümumi yanaşmanı isə o, **"İntellektin psixologiyası" ("Психология интеллекта")** əsərində aşağıdakı kimi qəbul etmişdir.

"Braşe deyib ki, həyatın özü elə artıq "formalardan" yaranmışdır. Əlbəttə, bu bioloji formalar orqanizmin bütün orqanlarını və onların ətraf mühitlə maddi əlaqələrindən yaranan formalardır. Lakin instinktlərin yaranması ilə əlaqədar olaraq anatomik-fizioloji formalar yeni müxtəlif funksional davranış formaları ilə zənginləşirlər. Doğrudan da, instinkt – orqanların məntiqidir. Elə ona görə də instinktlər bu cür davranış formalarını yarada bilirlər. Hansı ki, bu proseslərin baş verməsi, sözün əsl mənasında intellektin (zehnin) yüksək səviyyəli olmasına şərait yaradır." (**Bax: Ж. Пиаже. "Избранные психологические труды" M. 1969, səh. 222**).

"Həyatın özü elə "formalardan" yaranmışdır". Braşenin bu kəlamı Psixikanın öyrənilməsi və orada mövcudluğun formalar vasitəsilə mənimsənilməsi baxımından bizim üçün də aktuallıq kəsb edir. Məsələn, Psixika baxımından, bu kəlamı "Psixikanın özü elə formalardan yaranmışdır" kimi demək mümkündür. Şübhəsiz, burada "Psixika" anlamı "həyat" anlamını əvəz edə bilər. Artıq təsdiq etmək olar ki, "Psixika həyat, həyat isə Psixika deməkdir". Çünki insan kimi mövcud olmaq və yaşamaq xüsusiyyətləri yalnız Psixikada formalaşır və oradan idarə olunur. Bu yanaşma Psixikaya malik bütün canlılara aiddir.

İndi isə "forma" amilinin Psixikanın yaranmasında fundamental rolunu ətraflı şəkildə aydınlaşdıraq. Öncə sizə Psixikanın yaranmasında formaların rolunu müəyyən edən ümumi yanaşmanı təqdim edirik.

Məlum oldu ki, Psixikanın ilkin yaranma prosesləri real mövcudluq formalarının Psixika tərəfindən mənimsənilməsi ilə başlayır. Şübhəsiz, bütün dünya, oradakı mövcud əşyalar formalara malikdirlər. Yəni ətrafımızda nə varsa formalardan təşkil olunub və onlar bizim görmə orqanlarımız tərəfindən formalar məcmusu şəklində qəbul olunur. Elə ilkin olaraq da ətrafımızdakı, bu mövcudluq formaları Psixikada əks olunaraq mənimsənilir. Məlumdur ki, ilkin görünən bu mövcudluq formalarını Psixikaya ekzistensial şöbə gətirir. Sonralar bu formalar Psixikada ümumi iş üçün informasiyala-

ra çevrilirlər, psixi proseslərin yaranmasında iştirak edirlər, məntiqi mahiyyət kəsb edərək subyektivləşirlər. Göründüyü kimi, bu ilkin mövcudluq formaları psixi fəaliyyət nəticələrinin ilkin obyektiv əsaslarını yaradırlar.

Psixikada mövcudluq formalarının mənimsənilməsi prosesləri insan doğulduğu ilk günlərdən başlayır. Uşaq doğulan kimi anasını və ətrafda gördüklərini mövcudluq formaları kimi mənimsəməyə başlayır. Yeni doğulmuş körpə Psixikasının bu qəbulu əsasən obyektiv-hissi xarakter daşıyır. İlk günlərdən sonra körpə Psixikasında bioloji, psixoloji ehtiyac duyulan ilkin subyektiv "ana" mövcudluq forması yaranmağa başlayır. Burada körpə Psixikası dedikdə Psixikanın ilkin mövcudluq xüsusiyyətləri nəzərdə tutulur. Uşaq böyüdükcə "ana" mövcudluq forması onun Psixikası üçün yeni psixoloji və sosial mahiyyət kəsb etməyə başlayır. Lakin bütün proseslər korpə tərəfindən mənimsənilmiş ilkin "ana" mövcudluq forması üzərində baş verir. Formal baxımdan bu proses psixi proseslərin yaranmasına bənzəyir. Məsələn, stolu Psixika ilk növbədə "stol" mövcudluq forması kimi qavrayır. Sonralar "stol" mövcudluq forması sosial-məntiqi mahiyyət kəsb edir və ondan istifadə etməyə başlayırlar. Daha sonra isə hətta insan yeni stollar da düzəldə bilirlər. Yəni artıq "stol" mövcudluq forması Psixikada daha mürəkkəb əqli mahiyyət kəsb etdiyi üçün ondan istifadə proseslərinə təfəkkür və təxəyyül də qoşulurlar. Mərhəli işlənmə və hazırlanma prosesləri baş verir. Lakin burada da bütün məntiqi və sosial fəaliyyət prosesləri qavranılmış ilkin "stol" mövcudluq forması üzərində baş verir. Bu, Psixikanın mövcudluq formalarını ümumi mərhəli mənimsəmə sistemidir. Psixikanın yaranmasında mövcudluq formalarının mənimsəmə əhəmiyyətindəki bu yanaşma psixi proseslərin yaranma sistemini və Psixikanın bütün fəaliyyətini əhatə edir.

Məkanın, mövcudluğun Psixikanın fəaliyyətinə təsiri yüksəkdir. Psixika ilk növbədə canlının mövcudluğuna xidmət edir. Sonra isə həmin müvcudluq insandırsa subyektivləşməyə, heyvandırsa adi heyvani həyata uyğun gündəlik fəaliyyət qazanmağa başlayır. Bu o vaxt baş verir ki, artıq mövcudluğun təsiri və əks təsiri ilə Psixikanın özü də formalaşmış olur. Məsələn, Psixika mövcud canlı Psixikasından canlı insan Psixikasına çevrilir.

Mövcudluq formalarının Psixikada qavranılması və mənimsənilməsi proseslərinə iki istiqamət üzrə yanaşmaq lazımdır. Birinci istiqamət, mövcudluq formalarının Psixikanın formalaşmasında ilkin rolunu əhatə edir. İkincisi isə mövcudluq formalarının artıq yaranmış Psixikadakı fəaliyyət rolu ilə əlaqədardır. Bu istiqamətlərin hər ikisinin də Psixikada fəaliyyət xüsusiyyətləri yuxarıda qeyd etdiyimiz sistem üzrə baş verir. Sadəcə olaraq burada Psixikanın yaranması baxımından mövcudluq formalarının ilkin rolu daha mürəkkəb proseslərlə əhatələnir. Bura yaş mərhələlərinin formalaşma xüsusiyyətləri də daxildir. Bu istiqamətdə təbii inkişaf prosesləri də nəzərə alınmalıdır.

Mövcudluq formalarının tam formalaşmış, yaranmış Psixikadakı əhəmiyyətli işinə gəldikdə isə bu, Psixikanın və psixi proseslərin yaranmasının adi fəaliyyət xüsusiyyəti kimi hiss olunur. Yəni burada mövcudluq formaları psixi proseslərin yaranma sistemi üzrə daimi və fasiləsiz yaranan fəaliyyətinin tərkib hissəsində primitiv adi rollarını oynayırlar. Bu proseslər də hamımıza yaxşı bəllidir.

Psixikanın formalaşmasında mühüm məsələlərdən biri də məkanın, mövcud əşyaların Psixikaya gətirilmə formaları və xüsusiyyətləri ilə bağlıdır. Biz artıq bilirik ki, bu proseslər Psixikanın ekzistensial şöbəsindən başlayır. Bu qavrama və mənimsəmə proseslərindəki bəzi məsələlərə yenidən diqqət yetirək.

Mövcudluq formaları ilkin qavrayış məhsulları kimi ekzistensial şöbədə yaranır. Qavrayış Psixikada daha çox neyrofizioloji mahiyyət kəsb edən çox mürəkkəb bir prosesdir. Elə ona görə hələlik biz qavrayışa ətraflı təhlillə yanaşa bilmirik. Bunun üçün ilk növbədə Psixika da neyropsixoloji və fizioloji baxımdan ətraflı öyrənilməlidir.

Qavrayışın bu həyati funksiyasından sonra Psixikanı formalaşdıran formal mövcudluq məhsulları ekzistensial şöbədə fəaliyyətə başlayan hafizənin primitiv yaddaş strukturlarına keçir. Sonradan hafizə bu primitiv formal informasiyaları ümumi Psixikaya gətirərək onları psixi proseslərin yaranmasına və hafizəli təcrübənin yaranmasına sərf edir.

Burada əsas məsələ əşyalara, hissi anlayışlara "forma" statusunun verilməsidir. Bu statusvermə proseslərini ekzistensial şöbə baş-

layır, koqnitiv şöbə isə bitirir. "Forma" statusunun verilməsi o deməkdir ki, bu statusu almış hər hansı bir reallıq, əşya, anlayış Psixikaya tanışdır və Psixika daxili proseslərdə, Psixikanın formalaşmasında ondan tam istifadə edilir. "Forma" statusu verilmiş mövcudluq formaları hafizənin yaddaş strukturlarında olmalıdır. Məsələn, qavranılmış yalnız hafizə strukturlarına keçməyən mövcudluq formalarına "forma" statusu vermək olmaz. Çünki o tezliklə Psixikadakı nəhəng proseslər və informasiyalar içində itib-batacaq. Yəni hafizədə, hafizəli təcrübədə olmayan, bunun üçün də Psixikada tanınmayan və yaxud subyektivləşməmiş mövcudluq forması Psixi proseslərin yaranmasında iştirak edə bilməz. Bu informasiyalar Psixikada "ümumi psixi forma" statusu almalıdırlar. Bundan sonra onlar subyektivləşərək koqnitiv informasiya ehtiyatlarına və koqnitiv fəaliyyət göstərmək üçün ümumi insan nitqinə daxil olurlar. Psixikanın tam formalaşmasında mühüm rol oynayırlar.

### 5.1.1 Psixikadaxili mövcudluq formaları və xüsusiyyətləri

Deməli, dünyadan gələn primitiv formal informasiyalar ekzistensial şöbəyə daxil olur, primitiv hafizəyə keçərək qarşılıqlı əlaqə zonası vasitəsilə şöbələrin ümumi işində, psixi nəticə məhsullarının yaranmasında iştirak edirlər. Bu psixi nəticə məhsulları Psixika daxilində elə formal şəkildə iştirak edir, qarşılıqlı əlaqə nəticəsində işlənib hazırlanaraq **subyektiv psixi formalara** çevirilirlər. Sonralar bu subyektiv formalar aşınaraq, psixi proseslərin yaranmasında işlənərək daha mürəkkəb hala düşürlər. Nəticədə müxtəlif mürəkkəb statuslu sosial və mənəvi subyektiv psixi formalar sistemi yaranır. Məsələn, **məhəbbət** mürəkkəb tipli psixi formalardan təşkil olunmuş psixi proseslər sistemidir. Məhəbbət öz psixi proseslər tərkibində müxtəlif mürəkkəb mənəvi psixi formalar xüsusilə də, cinsi psixi formalar saxlayır. Bu problemi kökündən araşdırmaq lazımdır. Məlum ilkin fundamental proseslər insanın dünyaya doğulduğu günlərdən başlayır.

Beləliklə, burada biz uşaq doğulduqdan sonra onun Psixikasına təsir edən, Psixikanı formalaşdıran fundamental xüsusiyyətli mövcudluq formalarını və səviyyələrini ayırd etməliyik. Bu baxımdan, yenicə doğulmuş körpənin Psixikası ilkin olaraq üç cür mövcudluq formalarının təsirinə məruz qalır. Bunlar **subyektiv, obyektiv, sosial** və **cinsi** formalar sistemidir.

Körpənin Psixikasına ilkin təsir edən **subyektiv** formalara ananın özü və yaxın insanlar misal ola bilər. İnsanların özləri də canlı mövcudluq formalarıdır.

Körpənin Psixikasına ilkin təsir edən **obyektiv** formalara misal körpənin ətrafında olan hərəkətsiz əşyalar və obyektivliklər ola bilər.

**Sosial** formalar körpənin dünya və ətrafdakı insanlarla ilkin sosial və məişət münasibətlərini əhatə edir. Körpəni oxşamaq, ona layla çalmaq, onunla cavabsız, ünsiyyətsiz təmasda olmaq Psixika tərəfindən bu növ formaların mənimsənilməsinə xidmət edir.

Körpənin Psixikasına ilkin təsir edən **cinsi** formalar isə körpənin ətrafında olan müxtəlif cinsli insanların – ananın, atanın və digər kişilərin, qadınların canlı mövcudluq formalarını, onların sosial cinsi münasibətlər sistemini nəzərdə tutur. Körpənin ilk qida qəbulu üçün istifadə etdiyi döşəmmə prosesi də cinsi forma kimi Psixikaya təsir edə bilər. Çünki döş cinsi subyekt olan qadının cinsi həzz orqanı sayılır. Ona görə tam olmasa da müəyyən mənalarda bu problemə yanaşmada Freydlə razılaşmaq mümkündür. Döşəmmə prosesi qida qəbuluna sırf bioloji tələbat olsa da, orada cinsi həzzin və cinsi tərbiyənin mövcudluq sindromlarını görmək mümkündür. Lakin biz bu məsələyə Psixikanın öyrənilməsi və formalaşması baxımından yanaşırıq. Döşəmmə prosesi bizim üçün cinsi mövcudluq forması kimi Psixika tərəfindən mənimsənilməyi və bu tipli formaların Psixikanın formalaşmasında rolunu əhatə edir.

Döşəmmə prosesini cinsi forma kimi qəbul etmək təbiidir. Körpə doğulduğu gündən cinsi mahiyyət kəsb edir və cinsi varlıq kimi formalaşmağa başlayır. Nəzərə alsaq ki, hər bir körpə (ümumiyyətlə, insan) cinsi əlaqənin real bioloji nəticəsidir və o, qadının cinsi orqanından doğulur, onda bu təbiiləşmə daha da adiləşir, bəsitləşir. Belə olan halda, cinsi insanlaşma, subyektivləşmə prosesi və cinsi tərbiyənin əsaslari elə fərdin doğulduğu gündən başlayır. Əlbəttə,

burada ilkin olaraq ana, ata cinsi subyektlər kimi əsas rol oynayırlar. Ananın isə cinsi subyekt kimi bütün bədəni bu prosesə maddi və mənəvi cəhətdən xidmət edir. Körpəni yaşatmaq onu cinsi subyekt kimi formalaşdırmaq valideynlərin insan yaranandan bəri təbiiləşmiş vəzifələridir. Çünki körpəni böyütmək və yaşatmaq üçün sosial, hüquqi məsuliyyətlə bərabər valideynlər həm də cinsi məsuliyyət daşıyırlar. Bu, insanlar üçün həm sosial-psixoloji, həm də təbii-genetik baxımdan sağlam formalaşma prosesidir.

Məlum oldu ki, körpə Psixikası ilk günlərdən qəbul etdiyi **subyektiv, obyektiv, sosial** və **cinsi** formalar sisteminin təsirləri nəticəsində formalaşmağa başlayır. Getdikcə isə bu formaların təsiri ilə psixikadaxili proseslər mürəkkəbləşərək, aşınaraq həmin mövcudluq formaları yeni mahiyyət kəsb etməyə başlayırlar. Hətta onların Psixikaya formalar kimi təsiri də öz mənasını və mahiyyətini dəyişir. Burada bir mühüm amilə fikir vermək gərəkdir. Məlumdur ki, insanın özü psixoloji və bioloji baxımdan təkrarolunmaz subyektiv mövcudluq formasıdır. Bu zaman insanın fərd kimi qavranılması və formalaşması onun ilkin subyektiv mövcudluq formasından başlayır. Məhz, bu orijinal, özünəməxsus subyektiv mövcudluq forması digər insanların Psixkalarında həmin şəxs haqqında ilkin təsəvvürləri formalaşdırır. Təsəvvür edin ki, qavranılmamış ilkin subyektiv mövcudluq forması haqqında bizim məlumatlarımız necə olur? Və yaxud biz telefonda kimlə isə tanış oluruq. Onun kimliyini, mövcudluğunu təsdiqləmək üçün əlbəttə, biz onu görməli, tanımalı və onun subyektiv mövcudluq formasını yadda saxlamalıyıq. Göründüyü kimi, bir daha təsdiq olunur ki, Psixikadakı mövcudluq formaları sistemi ilkin və real təsəvvür yaradan real psixi informasiyalardır.

Psixikanın formalaşmasında mühüm amillərdən biri qeyri-canlı əşyaların, anlayışlar sisteminin Psixika tərəfindən mənimsənilməsidir. Burada obyektivliklərin dərk edilməsi, subyektivləşməsi prosesləri baş verir. Ümumilikdə məlum prosesləri **subyektiv obyektivləşmə** də adlandıra bilərik. Subyektiv obyektivləşmə fərdi sosial fəaliyyətin obyektiv əsaslarını yaradır. Yəni fərd qavramağa başlayır ki, fəaliyyət və münasibətlər üçün lazım olan obyektlər sistemi hansılardır. Fərd üçün ilkin subyektiv obyektivləşmə prosesləri mənlik şüurunun yaranmasından sonra başlayır. Əşyaların bu yaş

dövründə fərd üçün mühüm əhəmiyyət kəsb etməsi Psixikanın sosiallaşması tələbatından doğur. Məsələn, uşaqlar üçün yaranan "oyuncaq" problemi də elə bu subyektiv obyektivləşmə proseslərini əhatə edir. Onlar oyuncaq və əşyaları inadkarcasına özəlləşdirmək istəyirlər. Təxminən iki yaşından sonra onlar nə görürlərsə deyirlər "mənimdir". Sonralar oyuncaq və əşyalar cinsi mahiyyət daşımağa başlayırlar. Qızlar kukla və digər incə oyuncaqlara, oğlanlar isə əksinə maşın, silah və digər kobud oyuncaqlara üstünlük verirlər. Bu baxımdan, Psixikadakı subyektiv obyektivləşmə proseslərini aşağıdakı ümumi üç yaş mərhələlərinə bölə bilərik.

**1. 1–3 yaşlar. Sadə təsir: uşaq Psixikasına təsir edən ilkin primitiv subyektiv obyektivləşmə.**

**2. 3 yaşından sonra. Mürəkkəb təsir: mənlik şüurunun yaranmasından sonra reallaşan subyektiv obyektivləşmə.**

**3. Mürəkkəb sosial-psixoloji təsir: əşyaların, obyektiv anlayışların sırf cinsi mahiyyət daşıması ilə bağlı yaranan subyektiv obyektivləşmə. Bu da fərdin qız və oğlan kimi formalaşmasından sonra baş verir.**

Mövcudluğun qavranılmasında, dərk edilməsində subyektiv obyektivləşmə proseslərinin mühüm əhəmiyyəti var. Bu proseslər Psixikanın sosiallaşmasının və orada sosial fəaliyyətin fundamental əsaslarını qoyurlar.

Psixikanın formalaşması dünyanı qavramanın və mənimsəmənin tamlığı ilə seçilir. Yəni Psixika elə ilk andan bütün mövcudluğu öz tamlığı ilə mənimsəyir və o, bütün mövcudluğun, oradakı əşyaların tamlığının təsirinə məruz qalır. Məhz, bu amili nəzərə alaraq "forma" sözündən istifadə etdik. "Forma" sözü dünyanın, oradakı mövcud əşyaların tamlığını, ümumi görüntüsünü əhatə edən filoloji məntiqə malikdir. Dünyanın, oradakı mövcud əşyaların tamlığının, ümumi görüntüsünün olduğu kimi mənimsənilməsi, qavranılması Psixikanın ən bəşəri fundamental funksiyalarından biridir. Yarımçıq, tam olmayan mövcudluq formaları Psixika üçün mənimsəmə, qavrama mahiyyəti daşımır.

## 5.1.2 Mövcudluq formalarının düzgün mənimsənilməməsi

Mövcudluq formalarının Psixikada mənimsənilməsi və Psixikanın formalaşması proseslərinin ətraflı təhlili üçün bir əsas fəaliyyət xüsusiyyətinə toxunmaq istərdik. Bu xüsusiyyət Psixikanın fəaliyyət pozğunluğunu əhatə edir. Biz Psixikanın bəzi qeyri-normal fəaliyyət xüsusiyyətlərinin yaranma səbəblərini orada mövcudluq formalarının mənimsənilməsi ilə əlaqələndirmək istərdik. Yəni Psixikanın bəzi qeyri-normal, pozulmuş fəaliyyət xüsusiyyətlərinin əsas yaranma səbəbləri birbaşa orada **mövcudluq formalarının düzgün mənimsənilməməsi** ilə bağlı ola bilər.

Mövcudluq formalarının düzgün mənimsənilməməsinin müxtəlif bioloji, psixoloji və sosial səbəbləri ola bilər. Məsələn, biofizioloji səbəb Psixikanın orqanizmdə ciddi bioloji funksiyalarının pozulması ilə yarana bilər. Ümumilikdə isə mövcudluq formalarının düzgün mənimsənilməməsi o deməkdir ki, Psixika dünyanı, əşyaları formal şəkildə qavrayıb onlardan normal istifadə edə bilmir. Bu da Psixikanın sosiallaşması ilə birbaşa əlaqəli olduğu üçün insanın fəaliyyət və sosial davranışında mənfi anormal dəyişiliklər yaranır. Məsələn, mövcudluq formalarının düzgün mənimsənilməməsi yazılı nitqdə müəyyən anormal problemlər yaradır. **Disleksiya** xəstəliyi buna parlaq misaldır. Disleksiya yazıların oxunmasında olan anormallıqdır. Bu cür xəstələr yazıda sözlərin formalarını səslərə əsaslanan ümumi söz halında qavraya bilmirlər. Məsələn, onlar hər hansı bir "luq" hərf birləşməsini ona oxşar "qul" sözündən ayıra bilmirlər. Bu hal Psixika daxilində koqnitiv, məntiqi fəaliyyətlə bağlı mövcudluq formalarının düzgün mənimsənilməməsi ilə əlaqədardır.

Mövcudluq formalarının Psixikada sosial fəaliyyət və şərait baxımından düzgün mənimsənilməməsi ilə bağlı yaranan hallar da çox maraqlıdır. Artıq qeyd etmişik ki, insan Psixikası ilkin formalaşmanı dörd cür – subyektiv, obyektiv, sosial və cinsi mövcudluq formalarının paralel olaraq daimi və fasiləsiz mənimsənilməsi ilə başlayır. Müəyyən sosial fəaliyyət və şərait baxımından bu mövcudluq formalarının paralel olaraq daimi və fasiləsiz mənimsənil-

məməsi həmin şəxsin subyektiv fəaliyyət və davranışında ciddi köklü problemlər yaradır. Bu baxımdan, yenə də 13 yaşlı **Cini hadisəsini** təhlil etmək daha məqsədəuyğundur. Xatırladırıq ki, Cininin atası psixopat olduğundan onu iyirmi aylığından başlayaraq stula bağlanmış halda tam izolyasiyada saxlayıb. Cini 1970-ci ildə Koliforniya ştatında tapılıb. O, heç bir insanla münasibətdə və ünsiyyətdə olmayıb. 13 yaşına qədər bu cür tam izolyasiya şəraiti davam edib. Cininin üzərində aparılmış tədqiqatlar göstərib ki, onun onsuz da zəif olan nitq, dil və hətta digər subyektiv xüsusiyyətləri sol yarımkürədə (koqnitiv şöbədə) yox, məhz sağ yarımkürədədir (ekzistensial şöbədədir) və oradan idarə olunur. Cini tapılanda isə o, ümumiyyətlə, danışa bilmirmiş və digərlərin nitqini də anlamırmış. Sonralar Cininin üzərində aparılmış müalicə və profilaktik tədbirlərdən sonra o, çətinliklə qismən danışmağa başlamışdır.

**Bax, elə Cininin bu hala düşməsinə əsas səbəb onun Psixikası tərəfindən ilkin subyektiv, obyektiv, sosial və cinsi mövcudluq formalarının paralel olaraq daimi və fasiləsiz mənimsənilməməsi ilə birbaşa bağlıdır.** Nəticədə, Cininin Psixikası sağlam şəkildə formalaşmamış və o, insan kimi yaşamaq xüsusiyyətlərini itirmişdir. Çünki Psixikanın formalaşmasına, inkişafına lazım olan əsas mövcudluq formaları ya Psixika tərəfindən qavranılıb mənimsənilməmiş, ya da ki, qeyri-normal şəkildə mənimsənilmişdir. Bu anormal hallar Cininin insan kimi yaşamasına şərait yaratmayıb. Güründuyü kimi, onun Psixika şöbələrinin fundamental funksiyaları da pozulmuşdur.

Cini hadisəsi bir daha sübut etdi ki, Psixikanın formalaşması, sonrakı inkişafı mövcudluq formalarının qavranılması və mənimsənilməsi ilə əlaqədar olur və bu proseslər Psixika üçün həyati fundamental əhəmiyyət daşıyır.

Mövcudluq formalarinin düzgün qavranılmaması və mənimsənilməməsi sonradan tam formalaşmış, yaranmış Psixikanın fəaliyyəti zamanı da baş verir. Mövcudluq formalarının qavranılması və mənimsənilməsi insan ömrünün sonuna kimi daimi, fasiləsiz davam edən proseslər olduğu üçün gündəlik həyatda müəyyən səbəblərdən bu formaların düzgün mənimsənilməməsi sağlam insanların fəaliyyətində və davranışında problemlər, hətta psixi xəstəliklər yarada

bilir. Burada çox qəribə və qeyri-adi hadisələr də baş verə bilər. Problemin ətraflı təhlili üçün məlum qeyri-adi real hadisələrin sosial-psixoloji tədqiqindən istifadə edəcəyik. Məsələn, insanların cinsi fəaliyyət münasibətlərində yaranan qeyri-sağlam və müasir cəmiyyətimiz üçün qəbulolunmaz hallara diqqət yetirək. **Bu baxımdan, müasir cəmiyyətimizdə çox nadir hallarda təsadüf edilən oğul-ana, ata-qız ilə, qardaş-bacı və sairə kimi yaxın sosial və bioloji qan qohumluğunda olan insanlar arasındakı cinsi əlaqələri misal gətirmək olar.**

Məlumdur ki, Freyd bu problemlərə toxunmuş və onları təhlil etməyə çalışmışdır. Biz isə bu problemə tamam başqa cür yanaşaraq bu halların yaranma səbəblərini məhz, Psixikanın öyrənilməsi və Psixikada mövcudluq formalarının düzgün qavranılmaması və mənimsənilməməsi ilə əlaqələndirəcəyik.

Görəsən, bu cür qeyri-adi anormal hallar Psixikada necə yaranır? Primitiv sürü halında yaşayan insanlar arasında məlum cinsi davranış hərəkətləri adi hal ola bilər. Çünki orada müasir Psixikaya əsaslanan müasir cəmiyyət və müasir həyat tərzini əks etdirən psixikadaxili sosiallaşma mövcud deyil. Müasir insan Psixikası, müasir cəmiyyət və insanlıq üçün oğulun ana ilə və yaxud atanın qızı ilə cinsi əlaqəsi qəbuledilməzdir. Artıq bu qəbuledilməzliyin bu qeyri-mümkünlüyün psixoloji, sosial və genetik əsasları vardır. Müasir cəmiyyətimizdə bu cür qeyri-ənənəvi hallar zəif, xəstə və sağlam Psixikaya malik olmayan ailələrdə, oradakı ailə üzvləri arasında baş verə bilər. Hər hansı formada məlum halların reallaşması sosial statuslu və genetik əsaslı psixoloji münasibətlərin, mövcudluq formalarının Psixikada düzgün qavranılmaması və mənimsənilməməsi ilə bağlıdır. Nəticədə, ana, oğul, ata, qız, bacı və qardaş arasında olan münasibətlərdə bəşəri qaydalar, sosial və genetik əsaslı əlaqələrin mövcudluq statusları öz əhəmiyyətini itirir. Ailədaxili fundamental sosial davranış normalarının həyata keçirilməsinə son qoyulur. Bundan əlavə, Psixikada illər boyu mənimsənilərək möhürlənmiş sosial-psixoloji məsuliyyət xüsusiyyətləri son həddə qədər zəifləyir. Aşağıda bu cür halları ana-oğul arasında olan cinsi münsibətlər misalında daha da ətraflı şəkildə araşdıraq.

Oğul üçün ana psixoloji, sosial və fiziki mövcudluq formasıdır. Onlar arasında biofizioloji və genetik bağlılıq vardır. Çünki oğlu ana doğmuşdur. Lakin ən əsası odur ki, ana oğul üçün müasir sivilizasiyanın fundamental mövcudluq xüsusiyyətlərini özündə əks etdirir. "Ana" mövcudluq forması oğul Psixikasında hələ döğulduğu gündən dərin izlər buraxmış və formalaşmışdır. Artıq qeyd etmişik ki, mövcudluq formaları Psixikaya daxil olduqdan sonra aşınır, işlənir və subyektivləşirlər, koqnitiv mahiyyət kəsb etməyə başlayırlar. Mürəkkəb psixi funksiyaların yaranmasında iştirak edərək Psixikada sosiallaşmanın tərkibinə daxil olurlar. Çəkdiyimiz misaldakı oğulun Psixikasında da ümumi "ana" mövcudluq forması bu cür aşınmaya, işlənməyə və mürəkkəbləşməyə məruz qalmışdır. Lakin sonrakı sosial-psixoloji münasibətlər sistemi, ictimai məişət şəraiti həmin fundamental xüsusiyyətləri heçə endirməyə başlamışdır. Yuxarıda qeyd etdiyimiz digər səbəblər də burada mövcud olmuş və bu prosesin yaranmasını sürətləndirmişdir. Bütün bunların nəticəsində ümumi "ana" mövcudluq forması öz mahiyyətini və mənasını itirərək oğul üçün cinsi fəaliyyət obyektinə çevrilir.

Göründüyü kimi, bu cür neqativ halların baş verməsinə şərait yaradan məhz, insan Psixikası və psixologiyasıdır. Məlum hallarla bağlı suallara da yalnız Psixika cavab verə bilər və verir. Deməli, Psixikada subyektiv, obyektiv, sosial və cinsi mövcudluq formalarının getdikcə dəyişməsi, pozulması, nəticədə bu formaların düzgün qavranılmaması, mənimsənilməməsi hətta bir-birlərinə yaxın genetik qan qohumları arasında belə anormal qeyri-adi hallar yarada bilir. Bu da birbaşa ailədaxili şərait və bunun yaratdığı neqativ pozğun davranışların davamsız adi hallara çevrilməsindən daha çox asılıdır. Ailədaxili şərait o dərəcədə iflasa uğrayır ki, hətta onun təsiri Psixikada ənənəvi davranış və fəaliyyət xüsusiyyətlərini zəiflədib sıradan çıxara bilir.

Burada digər bir səbəb oğulun psixi cəhətdən sarsıdıcı xəstəlik keçirməsi ola bilər. Hansı ki, bu xəstəlik oğul Psixikasında mövcudluq formalarının düzgün qavranılmasını, mənimsənilməsini pozur, onların mövcudluq mahiyyətini dəyişdirir. Sosial və şəxsi məsuliyyət öz varlığını itirir. Bütün bu səbəblərə baxmayaraq, müasir insan Psixikası üçün hər hansı bir formada məlum neqativ halların baş verməsi psixi xəstəliklərin real nəticələri kimi qəbul edilə bilər.

Təəssüf ki, bu cür hallar müasir günümüzdə də baş verir. Onları müasir insan Psixikası üçün adi hal saymaq qeyri-mümkündür və bu hallar işi pozulmuş Psixikanın anormal fəaliyyət xüsusiyyətidir. Deyəsən, dünyadakı nisbilik qanunauyğunluqlarını pozmaq da qeyri-mümkündür. Yəni məlum neqativ cinsi hallar ailə münasibətlərindəki mənəvi səddə, əxlaq xüsusiyyətlərinə, sağlam sosial normalara vurulan sarsıdıcı zərbə və nisbilik möhürüdür. Yaxşı ki, bu möhür Psixikanın anormal və xəstə işinə əsaslanır.

Yəqin hiss edirsiniz ki, biz **"sürət"**, **"inikas"** **və** **"əksolunma"** sözlərindən istifadə etmirik və bundan sonra da istifadə etməyəcəyik. Çünki biz dünyanın, mövcudluğun Psixikada sürətinin inikası və əksolunma anlamlarını rədd edirik. Psixika üçün "sürət", "inikas" və "əksolunma" anlamları primitiv filoloji məntiqə malik məfhumlardır və onlar primitiv əksolunmanı nəzərdə tuturlar. Düzdür, dünya və mövcudluq Psixikada nəticə etibarı ilə əks olunur. Lakin bu primitiv əksolunma deyil və Psixika sürətçıxarma (kserokopiya) aparatı deyildir. Heç o, güzgü funksiyalarını da yerinə yetirmir. Psixikada dünya, mövcudluq inikas və əks olunmurlar. Onlar orada mürəkkəb nəhəng proseslər daxilində işlənib hazırlanır, formalaşır və yaranırlar. Sonralar onlar daim dəyişir, aşınır və yeniləşirlər. Nəticə isə mürəkkəb psixi proseslər, ali koqnitiv funksiyalar və davranış xüsusiyyətləri olur. "Sürət", "inikas" və "əksolunma" xüsusiyyətlərini isə Psixikanın ümumi işinə uyğunlaşdırmaq qeyri-mümkündür. Psixikadaxili proseslər çox mürəkkəb və təsəvvüredilməz formalarda baş verir. Psixikanın daxili işinin görünən və görünməyən tərəfləri vardır. Məsələn, bunun müqabilində heç cür demək olmaz ki, təbiət Psixikada əks olundu. Təbiəti görürük, Psixikada qavrayırıq, oradakı mövcudluq formalarını mənimsəyirik, deməli, təbiət Psixikamızda işlənib hazırlanır. O, Psixikada əks olunmuş halda yox, qavranılmış və dəyişkən formalar sistemi halında mövcud olur. Dəyişir, zənginləşir, müxtəlif koqnitiv səviyyələrə düşür və subyektivləşir. Deməli, bu prosesi biz "təbiət Psixikamızda qavranıldı, mənimsənildi" kimi adlandırsaq daha mürəkkəb və aktiv fəaliyyət sisteminin baş verdiyini göstərə bilərik. "Qavramaq", "mənimsəmək" sözləri "sürət", "inikas" və "əksolunma" sözlərindən fərqli olaraq Psixikaya məntiqi və filoloji baxımdan da-

ha real şəkildə uyğun gəlirlər. Psixika dünyanı və mövcudluğu işləyib hazırlayır və idraki proseslərlə mənimsəyir.

Narahatedici hal odur ki, müasir Psixologiyada Psixikanın nəticə işini göstərmək üçün **"sürət"**, **"inikas"** və **"əksolunma"** sözlərindən istifadə olunur. Müəyyən mənalarda bu sözlərdən bəhrələnmək mümkündür. Lakin onlardan "dünya Psixikada inikas və əks olunur" kimi cümlələrdə istifadə etmək məqsədəuyğun və düzgün deyildir. Yuxarıda biz bu qeyri-mümkünlüyün səbəblərini ətraflı şəkildə izah etdik. Ona görə **"sürət"**, **"inikas"** və **"əksolunma"** sözləri Psixologiyanın tez-tez işlənən sözlər sırasından çıxarılmalıdır. Məsləhət görərdik ki, tədqiqatçılar bu amilə ciddi yanaşsınlar.

Bütün heyvanlarda da Psixikanın mövcudluğu, formalaşması, fəaliyyəti və orada psixi proseslərin yaranma formaları insanlarda olduğu kimidir. Onlarda da Psixika məlum şöbələrdən təşkil olunub. Sol yarımkürə özünəməxsus heyvani yaşam tərzinə uyğun şöbə kimi, sağ yarımkürə isə dünyanı, mövcudluğu heyvani formalarda qavramağa xidmət edən şöbə kimi formalaşıblar. Şöbələr birgə iş üçün onların da beyin yarımkürələrini birləşdirən döyənək cisimdən (qarşılıqlı əlaqə zonasından) istifadə olunur. Şübhəsiz, onların Psixikalarında yaşamaq məfhumu ali psixi proseslər heyvani mahiyyət daşıyır və canlı heyvan səviyyəsini əhatə edir.

## 5.1.3 Psixika və kompyuter

Psixikanın mövcudluğu, psixi proseslərin yaranması və Psixikanın formalaşması məsələləri bizə **"insan və kompyuter"** probleminə münasibət bildirmək üçün əlverişli şərait yaradır. Məlumdur ki, insanı və onun əqli imkanlarını əvəz edəcək kompyuter (robot) yaratmaq qeyri-mümkündür. Niyə? Bu suala çoxlu məlum cavablar var. Həmin məlum cavabları qoyaq bir tərəfə. Çünki biz məsələyə yalnız Psixika baxımından yanaşacağıq.

Bu problemlə bağlı birmənalı və qəti yanaşma mövcuddur. **Psixikasız insan beyni və insan orqanizmi mövcud olmadığı kimi özünəməxsus "Psixikası" və onu əvəz edən strukturu olmayan**

**kompyuter (robot) də heç vaxt insan kimi fəaliyyət göstərə bilməz.** Deməli, bu problemdə əsas məsələ Psixika ilə bağlıdır. Kompyuterlər, robotlar adətən adi yaddaş və mürəkkəb hesablama funksiyalarına uyğun hazırlanmış proqramları həyata keşirirlər. Kompyuterlər, robotlar Psixikaya və onun iş strukturuna malik olmaqla yalnız insan kimi fəaliyyət göstərə bilərlər. İnsan-kompyuter yalnız bu yolla yaradıla bilər. Orada Psixikanın formalaşma xüsusiyyətləri və psixi proseslərin yaranma formaları heç olmasa qismən öz əksini tapmalıdır. Həmin kompyuter, robot həm bioloji, həm də psixi (ruhi) mövcudluq mahiyyətinə malik olmalıdır. Həmin kompyuteri, robotu təşkil edən iş mexanizmləri heç olmasa bir sinir hüceyrəsinin (neyronun) işini tamamilə bacarmalıdır. Bundan əlavə, o psixoloji, bioloji və sosial problemləri ümumiləşdirib nəticə çıxarmaq imkanlarına malik olmalıdır və sairə. Psixikanın yalnız onun özünə məxsus fundamental fəaliyyət xüsusiyyətlərini sadalamaqla bu problem həll olunası deyil. Müasir dünyamızda isə təkcə yuxarıda sadaladıqlarımızı nəzərə alıb bir kompyuter, robot düzəltmək belə qeyri-mümkündür. Genetik baxımından bu problemi həll etmək isə ümumiyyətlə, mümkün deyil. Lakin formal olaraq Psixikanın mövcudluq strukturlarını, orqanizmdəki fəaliyyət xüsusiyyətlərini, ümumi işini nəzərə almaqla daha geniş fəaliyyətli, daha "ağıllı" kompyuterlər, robotlar hazırlamaq mümkün ola bilər.

Beləliklə, Psixikanın formalaşması problemlərini araşdırdıq. Psixikanın yaranmasında "forma" amilinin, mövcudluq formalarının rolunu, əhəmiyyətini və xüsusiyyətlərini təhlil etdik. Psixikaya ümumi yanaşmamızı davam etdirərək "Psixika və beyin" problemlərini araşdırmağa çalışaq.

## 5.2 PSİXİKA VƏ BEYİN

Psixika ilə yaxından tanış olduqdan sonra onun orqanizmdə tutduğu mövqeyini, beyinlə birgə fəaliyyətini və onların mövcudluq statusları dəqiqləşdirmək lazımdır. Psixika və beynin insan orqaniz-

mindəki fəaliyyət və mövcudluq statuslarının müəyyənləşdirilməsi çox vacibdir. Əslində isə "Psixika və beyin" problemi elmlər sistemində müasir problem deyildir. O çoxdandır ki, tədqiqatçıları narahat edir. Burada nəzəri cəlb edən əsas və mühüm sual əsrlər boyu mütəxəssisləri narahat edir. Görəsən, Psixika beyni, yoxsa beyin Psixikanı idarə edir? Psixikanı öyrənməklə əsrlər boyu mövcud olan bu suala aydınlıq gətirmək və buradakı mühüm problemləri aydınlaşdırmaq mümkün olacaq. Yalnız Psixikanın insan orqanizmində müəyyənləşdirilib öyrənilməsi bu cür fundamental problemləri aydınlaşdırmağa imkan verir. Onsuz da Psixikanın tədqiqində gec-tez "Psixika və beyin" problemi ilə üzləşməliydik.

Ümumiyyətlə, bu orqanlar arasında aparılan müqayisələrdə müəyyən mülahizələr mövcud olub. Məsələn, Psixika ruhi amil, beyin isə bioloji mövcudluq kimi təyin edilib. Bu məsələyə materialist və idealistlər də müxtəlif cür yanaşmışlar.

Beyin Psixikaya nisbətən daha çox öyrənilən, kliniki tədqiqatlarda və elmi tədqiqat institutlarında tədqiq olunan bir orqandır. XX əsrdə beyni (xüsusilə, baş beyni) tədqiq etmək üçün geniş Neyroelmlər sistemi də formalaşıb. Bu sahədə çox çətinliklərlə əldə olunmuş fundamental elmi nailiyyətlər hamımıza yaxşı məlumdur.

Beyin psixi proseslərin və ali psixi funksiyaların öyrənilməsi baxımından da həmişə diqqəti cəlb edib. Lakin insanın zehni fəaliyyətinin, onun şüurlu həyatının və ali psixi funksiyaların tədqiqi baxımından beyin strukturlarında əsaslı fundamental nəticələr tapmaq mümkün olmamışdır. Əlbəttə, bu psixikadaxili koqnitiv proseslərin, ali psixi funksiyaların fəaliyyəti beyin daxilində yerləşən sinir sistemləri, xüsusilə də mərkəzi sinir sistemi ilə əlaqədardır. Adətən insanın zehni həyatını və şüurlu fəaliyyətini də birbaşa beyin strukturları ilə əlaqələndirirlər. Bu yanaşmaların real nəticələri olaraq Psixikaya beynin bir orqanı kimi baxılır və psixi fəaliyyətin yaranması məhz, beyində axtarılırdı.

XX əsrin ikinci yarısında artıq öz zəruri vacibliyi ilə seçilən bir sual meydana çıxdı. Görəsən, beyin insanın psixi funksiyalarını, koqnitiv fəaliyyətini şüurlu həyatını necə tənzimləyir? Əslində bu sual beyni öyrənən mütəxəssisləri həmişə narahat etmiş, onların elmi nəticələrininin obyektivliyinə, ümumiliyinə əngəl törətmişdi.

XX əsrin ikinci yarısında bu problemin hiss olunan qabarıq şəkildə qloballaşması təbii idi. Çünki artıq baş beyni öyrənən Neyroelmlər sistemində müəyyən ciddi elmi nailiyyətlər qazanılmışdı. Xüsusilə də "Döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar"ın nəticələri bu prosesləri daha da zənginləşdirdi. Lakin bütün bu tədqiqat nəticələri də beyində psixi və koqnitiv fəaliyyətin harada, necə yaranması və haradan, necə idarə olunması kimi fundamental suallara cavab tapmağa kömək edə bilmədi.

Öncədən sizin nəzərinizə çatdırırıq ki, Neyroelmlər sistemində fəaliyyət göstərən tədqiqatçılar "beynin ali funksiyaları" dedikdə, adətən "insanın psixi funksiyalarını, koqnitiv fəaliyyətini, şüurlu həyatını" nəzərdə tuturlar. Biz Psixikanı insan orqanizmində müəyyənləşdirib öyrənərək bu proseslərin yalnız Psixikaya məxsus olduğunu irəli sürmüşük. Ona görə bu cür yanaşma sizi çaşdırmasın.

Neyroelmlər sistemində fəaliyyət göstərən tədqiqatçılar bu gündə beynin psixi və koqnitiv funksiyalarının öyrənilməsi ilə məşğuldurlar. Onlar ali psixi proseslərin və əsas psixi funksiyaların baş beynin hansı hissəsində yaranması və bu proseslərin haradan idarə olunması amilinə xüsusi diqqət yetirirlər. Şüurun, hafizənin və təfəkkürün beyin qabığının hansı hissəsində yerləşmələri ilə ciddi maraqlanırlar. Bu sahədə nəzəri axtarışlar da davam edir. Problem mürəkkəb və geniş olduğu üçün ona çəkilən zəhmət də yorucu və böyükdür. Hələlik isə bu sahədə vəziyyət dəyişməyərək keçən əsrin 70-ci illərin sonunda F.Şmittin C.Edelmanın və V.Mauntkaslın **"Ağıllı beyin" ("Разумный мозг")** kitabına yazdığı müqəddiməsində yazdığı kimidir: "Beynin ali funksiyaları haqqında çoxlu nəzəriyyələr irəli sürülüb. Amma adətən onlarda aydınlıq, ciddi əsaslandırıcı anatomik və fizioloji faktlar çatışmır. Nəticədə bu nəzəriyyələr inandırıcı biofiziki və bioloji əsaslara malik olmur"( **Bax: Дж. Еделман, В. Маунткасл - "Разумный мозг"- M. 1981, səh. 7** ).

Bu cür pessimis ruh beyni öyrənən digər tədqiqatçıların elmi əsərlərində də hiss olunur. Bizə elə gəlir ki, beynin ali funksiyalarının öyrənilməsi baxımından nəzəri-metodoloji yanaşma düzgün qurulmadığı üçün bu sahədə ciddi nailiyyətlər əldə etmək mümkün

olmur. Çünki beynin özünü, onun həqiqi ali xüsusiyyətlərini, insanın psixi funksiyalarını, koqnitiv fəaliyyətini, şüurlu həyatını öyrənmək üçün ilk növbədə insan orqanizmində Psixika tədqiq edilməlidir. Neyroelmlər sistemində fəaliyyət göstərən tədqiqatçıların dedikləri "beynin ali funksiyaları", zehni fəaliyyət, şüurlu subyektiv həyat ancaq Psixikada yaranır və oradan idarə olunur. Bu cür koqnitiv və subyektiv funksiyalar yalnız Psixikaya məxsus ola bilər. Doğrudan da beyin məntiqi nəticə baxımından sırf sinir fəaliyyətini həyata bioloji mahiyyətlidir. Beyin insanın ali psixi funksiyalari və zehni fəaliyyəti ilə bağlı fundamental subyektiv xüsusiyyətlər yarada və idarə edə bilməz. Təbii, bu cür işləri beyin daxilində yerləşən, lakin onun özünü, nəhəng sinir sistemlərinin fəaliyyətini tənzimləmək və idarə etmək imkanlarına malik, bioloji və ruhi mahiyyətli bir orqan olan Psixika yerinə yetirə bilir.

Burada ənənəvi sual hələ də tam cavablandırılmayıb. Görəsən, Psixika beyni, yoxsa beyin Psixikanı idarə edir? Bu suala qismən cavab vermişik. İndi artıq bu suala bir sual da əlavə edə bilərik. Görəsən, Psixika beyni necə idarə edir? Gəlin tələsməyək, problemi ətraflı araşdırmağa çalışaq.

Biz artıq deyirik ki, Psixika orqanizmi və beyni idarə edir. Onu da qeyd etdik ki, beyin ali psixi funksiyalarla, koqnitiv proseslərlə bağlı fundamental suallara cavab verə bilmir. Bu işlə yalnız Psixika məşğuldur. Çünki ali psixi funksiyalar məhz orada reallaşır, orqanizmə daxil olan informasiyalar son anda oraya gəlir, orada işlənərək hazırlanır, psixi proseslər orada yaranır, bütün xarici və daxili impulsiv orqanizm reaksiyaları yalnız Psixikada hiss olunur. Nəhayət, bütün bu nəhəng proseslərin nəticəsi olaraq insanın şüurlu subyektiv həyatı Psixikada yaranaraq oradan da idarə olunur.

Bundan əlavə, Psixika xaricdən gələn fundamental ruhi informasiyaları və digər qeyri-subyektiv informasiyaları qəbul edib onları işləmək imkanlarına malikdir. Bu proseslər elə beyində yerləşən Psixikada, yəni Psixikanın şöbələri olan beyin yarımkürələrində, dyönək cisimdə və beyin qabığında baş verir. Baxmayaraq ki, beyin ali psixi funksiyaları, zehni fəaliyyəti yaratmaq və idarə etmək imkanlarına malik deyil, lakin bu həyati funksiyaların reallaşmasında Psixikaya hava və su kimi lazımdır. Elə ona görə də Psixi-

ka bu nəhəng sinir strukturunun daxilində özünə daimi "yaşamaq" və fəaliyyət məskəni tapmışdır. Bu baxımdan, Psixika beyinlə birgə işləməyə məhkumdur. Onun nəhəng və universal fəaliyyətli sinir strukturlarından bəhrələnmək Psixika üçün çox vacibdir. Lakin beyin Psixikanın rəhbərliyi altında işləməyə məcburdur. Problemi bir azda aydınlaşdırmağa çalışaq.

Beyin ümumi işə malik ümumi sinir strukturudur. Orada yerləşən sinir strukturları da ümumi işlə məşğul olurlar. Heç bir neyron sərbəst fəaliyyətlə məşğul deyildir. Psixikada da bu proses eyni mahiyyətlidir. Artıq qeyd etdiyimiz kimi, heç bir neyron ayrı-ayrılıqda şüur və yaxud hafizə üçün işləmir. Deməli, bu neyronlar ümumi işin yerinə yetirilməsi üçün haradansa komanda almalıdırlar. Ən azı elə bu baxımdan beynin fəaliyyətini tənzimləyən komandirin və ümumi komanda mərkəzinin olması zəruridir. Əks halda beynin bu nəhəng sinir strukturları səpələnmiş və qeyri-standart fəaliyyət göstərərdilər. Məsələn, təsəvvür edin ki, ordu komandirsiz döyüşür. Nəticədə ordu əsgərlərinin döyüşdə anlaşılmaz və parçalanmış hərəkətlərini təsəvvür edin. Onların hər biri müxtəlif istiqamətlərdə döyüşərək və qaçaraq nə etdiklərini anlamayacaqlar. Şübhəsiz, vahid hərəkət, döyüş komandası almayan yiyəsiz və komandirsiz əsgər başqa cür davrana da bilməz. Çünki döyüşün məqsədi, istiqaməti və taktikası əskərlərə bəlli deyil.

**Deməli, beyində də ümumi işi, məqsədi, fəaliyyət taktikasını neyronlara çatdıran, onların işini tənzimləyən, idarə edən komandirə və daxili tərkibi olan komanda mərkəzinə ehtiyac vardır. Bu komanda mərkəzi və komandir məhz, insan orqanizmində mövcud olan Psixikadır. "Psixika" adlı komanda mərkəzinin daxili tərkib hissəsinə Psixikanın daxilində yerləşən ali psixi proseslər – şüur, hafizə, nitq, qavrayış, təfəkkür, təxəyyül və digər ekzistensial, koqnitiv orqanlar daxildir.**

Psixikanın rəhbərliyi və beyinlə birgə işi nəticəsində orqanizmə daxil olan müxtəlif informasiyalar işlənilir, psixi proseslər yaranır, subyektiv insan fəaliyyəti gerçəyə çevrilir. Bizim Psixika haqqında irəli sürdüyümüz məlum tədqiqat yanaşmamız məhz, Psixikanın orqanizmdə, beyində təbii rəhbərliyini və real mövcudluq statusunu müəyyənləşdirməyə, təsdiq etməyə xidmət edir. Psixikanın və bey-

nin orqanizmdə real fəaliyyət və mövcudluq statuslarını dəqiqləşdirmək mühüm əhəmiyyət kəsb edir. Bu dəqiqləşdirmə Psixikanın iş statusunu daha ətraflı şəkildə müəyyən etməyə imkan yaradır.

Burada bir daha Psixikanın insan orqanizmi üçün hegemon və fundamental mahiyyəti meydana çıxır. Psixikanın mövcudluğu (ekzistensial şöbə) və koqnitiv mahiyyəti (koqnitiv şöbə) əsaslandıran şöbələrə bölünməsi insanın və beynin formalaşmasına uyğundur və sonrakı inkişaf qanunauyğunluqlarına xidmət edir. Bütün insanlar həm maddi, həm də mənəvi baxımdan bu ikiliyin (mövcudlaşma, subyektivləşmə) məcmusudurlar. Çünki mövcud olmaq hələ yaşamaq demək deyildir. Psixika məhz, bu iki cür münasibətlər sisteminin insanlara xidmət edən birgə paralel fəaliyyətini yaratmaqla məşğuldur. Məlum həyati və qlobal işdə orqanizmin, beynin Psixikanın rəhbərliyi altına keçməsi zəruridir. Çünki Psixika insan kimi yaşamaq və fəaliyyət göstərmək xüsusiyyətlərini yaratmaq üçün lazım olan bütün universal imkanlara malikdir.

Psixikanın insan üçün həyati mahiyyət kəsb etməsi hələ qədim tarixdə də öz təbii əksini tapmışdır. Qədim zamanlarda yunan dilində "psyche" sözü "həyat", "canlı varlıq" demək idi. Sonralar bir şox filosoflar xüsusilə də, Pifaqor öz əsərlərində onun mənasını dəyişdirib onu "duşa" (ruh, psixika) kimi anlatmağa başladılar.

Burada başqa bir söz də nəzəri cəlb edir. "Soma" sözü qədim yunanlarda "meyit" və yaxud "cansız varlıq" mənasında işlədilirdi. Sonralar onun da mənasını dəyişdirib "dədən" ("telo") sözü ilə əvəz etdilər. Bu haqda C.Ceyns yazıb **(Вах: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум, поведение", М. 1998. səh. 193)**.

Deyəsən, qədim yunanlar sözlərin mənalarını düzgün işlədirlərmiş. Onlar "psyche"a "həyat", "canlı varlıq", "soma"ya isə "meyit", "cansız varlıq" deyirlərmiş. Həyat və canlı varlıq elə "psyche" (duşa, psixika) deməkdir. Bunlar Psixikaya aiddir və Psixikanın daxili fəaliyyətini əks etdirir. Əgər Psixika ("psyche", duşa, psixika ) yoxdursa insan "soma"ya - meyitə, cansız varlığa çevrilir. İndi qədim yunan dilinə aid olan tarixi həqiqət bərpa olunub. Artıq müasir elmi-terminoloji dildə "psyche"-dən istifadə olunur. Məsələn, ingilis dilində "psyche" elə bizim anladığımız və öyrəndiyimiz Psixika deməkdir.

"Soma" sözü qədim yunan dili mənasında daha realdır. Bu problem öz fundamental reallığı ilə ona görə seçilir ki, dil və nitq xüsusiyyətləri birbaşa Psixikanın məhsullarıdır. Qədim yunanların Psixikaları bu sözləri məlum mənalarında nitqə düzgün şəkildə gətirmələri çox heyrətəamiz haldır. Çünki onlar bizim Psixikaya ümumi yanaşmamızı və Psixikanın həyati əhəmiyyət kəsb etməsini əyani surətdə öz nitqlərində və ünsiyyət vasitələrində təsdiqləyirlər.

Deməli, Psixika, beyin bioloji və neyroloji cəhətdən bir-birləri ilə tərkib hissəli olsalar da onların fəaliyyətləri və orqanizmdə tutduqları mövcudluq statusları köklü surətdə fərqlənir. Psixika orqanizmdə insanın koqnitiv subyektiv fəaliyyətini tənzimləmək və idarə etmək üçün geniş səlahiyyətlərə və imkanlara malikdir. Beynin indiyə qədər anladığımız ali zehni funksiyaları məhz, Psixikaya və onun fundamental xüsusiyyətlərinə aiddir. Nəticədə, Psixika bütün insan orqanizmi ilə qarşılıqlı bioloji və sinir əlaqələrinə malikdir.

Bu baxımdan, düzgün olaraq Pavlovun şərti və şərtsiz reflekslərini beyin yarımkürələrinin fundamental funksiyaları ilə əlaqələndirirlər. Şərtsiz reflekslərı sağ yarımkürəyə (ekzistensial şöbəyə), şərti reflekslərı isə sol yarımkürəyə (koqnitiv şöbəyə) aid etmək mümkündür. Bu da Psixikada psixofizioloji proseslərin birgə işinin nəicələrinə primitiv bir misal ola bilər.

Burada bir məsələyə də toxunmaq istərdik. Aparılmış bir çox tədqiqatlarda Psixikaya daxil olan bəzi ali proseslər beynin müəyyən orqanları ilə əlaqələndirilir. Məsələn, hafizənin işi **hippokamp, mindalina** və digər beyin orqanları ilə əlaqələndirilir **(Bax: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум, поведение", М. 1998. səh. 156-157)**.

Hissi emosional fəaliyyətin tənzimlənməsi və idarə olunması da müəyyən beyin orqanlarının işini əhatə edir. Hissi emosional fəaliyyətin yaranmasını əhatə edən bir çox nəzəriyyələr də irəli sürülüb. Məsələn, **"Ceyms – Lanqe nəzəriyyəsi", "Kennon – Barda nəzəriyyəsi", "Papes dairəsi" (Limpik sistem).** Limpik sistemə emosiyaların yaranmasını əhatə edən beyin orqanları aid edilir. Orada **talamus, hipotalamus, mindalina, hippokamp, bel qırışığı (поясная извилина, Truncus corporus callos), arakəsmə (перегародка)** və **retikulyar formasiya** yerləşir ( **Bax:**

**Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум, поведение", М. 1998. səh. 124 – 148).**

Göründüyü kimi, hafizə və emosiyaların yaranması ilə əlaqələndirilən beyin orqanlarının heç biri Psixikanın tərkib hissəsinə daxil deyildir. Əlbəttə, demək olmaz ki, hafizə qeyd olunan orqanlarda və yaxud hisslər və emosiyalar limpik sistemdə yaranır. Biz hafizənin Psixika daxilində yaranma problemlərini artıq araşdırmışıq. Psixika bütün orqanizm və beyinlə işlədiyi üçün psixi proseslər yarandıqdan sonra orqanizmin fəaliyyətinə tətbiq edilir. Şübhəsiz, bu proses beynin aktiv fəaliyyəti və sinir sistemlərinin nəhəng fasiləsiz işi ilə yerinə yetirilir. Psixika bu işdə qəbuledici, hazırlayıcı, ötürücü və nəhayət, rəhbərlik funksiyalarını yerinə yetirir. İcra etmək, real fiziki fəaliyyətə tətbiq etmək funksiyalarını isə beyin və onun məlum orqanları görür. Nəticədə, Psixika və beyin orqanları bir-birləri ilə sıx, daimi və fasiləsiz əlaqədə olurlar. Bu baxımdan, beynin müəyyən orqanları və orqanlar sistemi Psixikanın müəyyən orqanları (məsələn, hafizə ilə) ilə geniş qarşılıqlı fəaliyyət göstərə və funksional cəhətdən bir-birləri ilə əlaqəli ola bilərlər. Ümumiyyətlə, psixi proseslərin yaranması, psixikadaxili iş o qədər aktiv və fasiləsiz baş verir ki, beyin orqanları Psixikanın bu aktiv və fasiləsiz fəaliyyətinin real icraçı təcəssümlərinə çevrilirlər. Burada isə Psixikadan sonra orqanizm daxili aktiv neyrofizioloji proseslər baş verir.

Deməli, hafizə ilə əlaqələndirilən orqanlar, hiss və emosiyaları yaranması ilə bağlı sayılan limpik sistem insan orqanizminin hafizə və hisslərlə bağlı Psixikadan sonrakı sırf neyrofizioloji proseslərini həyata keçirən mühüm orqanlardır. Hafizənin və emosiyaların yaranması isə yalnız və yalnız Psixikaya aiddir və onun daxili fəaliyyətinin real nəticə məhsullarıdır. Yaratmaq, hazırlamaq, tənzimləmək və rəhbərlik etməklə Psixika məşğul olur. Proseslərin icrası, fəaliyyətə çevrilməsi, orqanizmə tətbiqi isə beyin orqanları ilə və onlarla birgə qarşılıqlı fəaliyyət vasitəsilə həyata keçirilir.

Burada bir məsələni də diqqətə catdırmaq istərdik. Gələcəkdə Psixikanın ətraflı öyrənilməsi ilə əlaqədar ola bilsin Psixikaya daha yaxın beyin orqanlarının hansınınsa həqiqətdə onun daxilində ol-

ması amili müəyyənləşdirilib təsdiq edilsin. Xatırladırıq ki, bu olduqca təsadüfi hal ola bilər.

Deməli, Psixikanın daxili strukturlarına beyin yarımkürələri, beyin qabığı və döyənək cisim daxildir. Beynin qalan bütün orqanları Psixikaya informasiya ötürür, qəbul edir, Psixikanın fəaliyyətini həyata keçirirlər. Burada Psixikaya ən yaxın olan, onunla daha sıx funksional əlaqələrə malik orqanlar kimi **talamusu** və **beyinciyi** qeyd etmək olar. Talamus Psixikanın daxili fəaliyyət orqanları ilə xüsusilə də, beyin qabığı ilə geniş qarşılıqlı əlaqələrə malikdir. Beyincik isə insan orqanizminin hərəkət və fiziki fəaliyyətinin aktiv tənzimləyicisi kimi nəzəri cəlb edir. Əlbəttə, digər beyin orqanlarının da Psixikaya yaxın əlaqələrini sadalamaq mümkündür. Lakin fəaliyyətin və iş dinamikasının sonu Psixikada bitir. Bu proses orqanizmin formalaşma və inkişaf prinsiplərinə uyğun şəkildə yalnız Psixika tərəfindən həyata keçirilə bilər.

Beləkliklə də, məlum oldu ki, Psixika orqanizminin, beyin strukturlarının fəaliyyətini tənzimləyir və idarə edir. Bu baxımdan Psixika insan orqanizmində bütün imkanlara və əlverişli "coğrafi məkana" malikdir. O, orqanizmin baş hissəsində yerləşir və orqanizmə rəhbərlik üçün mühüm neyroanatomik üstünlüklər əldə edir. Psixika koqnitiv subyektiv fəaliyyət xüsusiyyətlərini yaradaraq insan psixologiyasını, mənəviyyatını və xarakterini formalaşdırır. Orqanizmdə bu cür fundamental işləri bacaran digər bir orqan yoxdur. Bu danılmaz faktdır.

Bundan əlavə, beyinə nisbətdə Psixika həm bioloji, həm də ruhi mahiyyət daşıyır. O, ruhi və digər qeyri-subyektiv proseslərlə əlaqə saxlamaq, onları işləmək və onlara cavab vermək imkanlarına malikdir. Psixika misli görünməmiş universal fəaliyyət xüsusiyyətlərinə malikdir. Onun psixoloji, bioloji (neyroloji) və sosial mahiyyət kəsb etməsi də buna əsaslanır. Bu cür hegemon və vacib üstünlüklərə malik olmaq beyinlə müqayisədə Psixikaya tənzimləyici və idarəedici bir orqan kimi fundamental imkanlar yaradır.

Biz "Psixika və beyin" problemlərini, onların daxili fəaliyyət orqanlarının qarşılıqlı əlaqələrini və Psixika və beynin real mövcudluq statuslarını növbəti II-hissədə ("Psixika, Beyin və İnsan orqanizmi") bir daha ətraflı şəkildə təhlil edəcəyik.

## 5.3 PSİXİKANIN NEYROANATOMİK QURULUŞU

İnsan anatomiyasının öyrənilməsində sinir sistemlərinin tədqiqi mühüm yer tutur. Məlumdur ki, insan orqnizmi bütövlükdə sinirlərlə əhatə olunmuşdur. Burada əsas funksional fəaliyyət mərkəzi baş beyindir. İndi artıq bu cür problemlərin öyrənilməsində Psixika qıraqda qala bilməz. Psixika insanın anatomik və neyroloji quruluşu ilə sıx əlaqədə olan, artıq onların fəaliyyət xüsusiyyətlərini tənzimləyən bir orqandır. Şübhəsiz, orqanizmin bioloji cəhətdən formalaşması və inkişafı Psixika ilə paralel istiqamətlərdə yaranır.

Burada ilk növbədə nəzəri cəlb edən amil Psixikanın insanın genetik balansına təsiri problemləridir. Orqanizmin anatomik quruluşunun, fizioqnomik formasının insanın xarakter və temperamentinə uyğunlaşdırılması məsələləri bunu bir daha sübuta yetirir. Psixika ümumi orqanizmlə birgə formalaşma yolu keçdiyi üçün insanın antropoloji strukturu Psixikada yaranan xarakter və mənəviyyata uyğun gəlir. Bədən quruluşunun antropoloji cəhətdən insan psixologiyasına, xarakterinə və mənəviyyatına uyğun formalaşması Psixikanın həm də genetik mahiyyyətli olmasına real işarədir. İnsan orqanizmi irsi-genetik varlıqdır. İnsan Psixikası da irsi-genetik mahiyyət daşıyır.

Deməli, Psixikanın həm də genetik strukturlar üzərində formalaşması təsdiqlənir. Yeni doğulmuş körpənin Psixikasında anadangəlmə irsi-genetik informasiyalar, xüsusiyyətlər olur. Psixikanın ilkin formalaşma mərhələlərində onlar aktiv iştirak edirlər. Uşaq böyüdükcə Psixikanın tam formalaşmasında genetik ehtiyatlar da öz fəaliyyət və təsir dairəsini genişləndirir. Xatırladırq ki, irsi-genetik informasiyalar və xüsusiyyətlər sistemi sinir hüceyrələrinin (neyronlarının) daxili tərkibində qorunub saxlanılır. Körpə ana bətnində yaranıb formalaşarkən bu irsi-genetik informasiyalar və xüsusiyyətlər sistemi onların sinir hüceyrələrinin (neyronlarının) daxili tərkibinə keçir. Bu amil də insanın genetik mövcudluğunun bir başa Psixika ilə əlaqədə olmasını sübuta yetirir.

Burada bir cəhəti də qeyd edək. Uşağın ana və yaxud ataya oxşaması adi hal sayılır. Lakin bunun əksi də ola bilir. Yəni uşaq öz valideynlərinə oxşamır. Amma məlumdur ki, bu oxşarlıq xüsusiy-

yətləri itib-batmır, oğul-qızda, nəvə və nəticələrdə büruzə verilir. Bax bu yanaşmanı yeni formada təhlil edə bilərik. Bu o hallarda baş verir ki, həmin irsi-genetik informasiyalar və xüsusiyyətlər sistemi orqanizmin və xüsusilə də, Psixikanın formalaşmasında aktiv fəaliyyət göstərə bilmirlər. Lakin həmin irsi-genetik informasiyalar və xüsusiyyətlər sistemi fərdin orqanizm hüceyrələrində və sinir hüceyrələrində (neyronlarında) qorunub saxlanılırlar. Ona görə də sonralar kölgədə qalmış bu informasiyalar fərdin öz oğul-qızına, nəvə və nəticələrinə keçə bilir.

İnsanın genetik baxımdan formalaşmasında və irsi-genetik informasiyalar və xüsusiyyətlər sisteminin Psixikada mühüm əhəmiyyəti ilə seçilir. Psixika fundamental və sonradan qazanılan genetik ehtiyatların və informasiyaların subyektiv daşıyıcısı sayıla bilər. Çünki məhz Psixikada yerləşən sinir hüceyrələri subyektiv insan həyatının və fəaliyyətinin fundamental əsaslarını yaradırlar. Bu da birbaşa insanın bioloji formalaşması ilə paralel baş verir. Psixikanın daxili fəaliyyəti və funksiyalarına əsaslanaraq demək olar ki, yalnız Psixika genetik xüsusiyyətləri qoruyub saxlaya bilər. Yuxarıda da qeyd olunduğu kimi, Psixika genetik biolojiləşməyə, subyektivləşməyə və sosiallaşmağa xidmət edən ən real orqandır.

Bildiyimiz kimi, Psixikanın orqanizmdə yerləşdiyi məkan neyroanatomik cəhətdən çox mürəkkəbdir. Psixikanın neyroloji quruluşu daxilində adi sinir hüceyrələri olan ağ və boz maddələrdən təşkil olunmuşdur. Bildiyimiz kimi, ağ maddə Psixika şöbələrinin daxilinə, boz maddə isə onların beyin qabıqlarına aiddir. Maddələrin müxtəlif rənglərdə olması birbaşa ona dəlalət edir ki, orada yerləşən neyronlar (sinir hüceyrələri) elə müxtəlif işlərlə məşğul olurlar. Qarşılıqlı əlaqə zonasının (QƏZ) daxili tərkibi də ağ maddədən təşkil olunub. Bu da o deməkdir ki, ağ maddələrdə olan neyronlar (sinir hüceyrələri) nə işlə məşğul olurlarsa qarşılıqlı əlaqə zonasında yerləşən neyronlar da həmin işlə məşğul olurlar. Bu doğrudan da elədir. Ağ maddədə yerləşən neyronlar (sinir hüceyrələri) əsasən əlaqələndirici və ötürücü funksiyaları yerinə yetirirlər.

Neyroanatomik baxımdan ən müəmmalı və mürəkkəb quruluşa malik beyin qabığıdır (Psixika şöbələrinin qabığı). Beyin qabığının çox mürəkkəb və qeyri-adi fəaliyyətlə məşğul olması orada yerlə-

şən neyronların (sinir hüceyrələrinin) nisbətən böyük sayından da görsənir. Orada 14-15 milyarda yaxın neyron fəaliyyət göstərir. Bunu həm də təbii qarşılamaq lazımdır. Çünki beyin qabığında yerləşən neyronlar Psixikanın əsas fəaliyyət funksiyalarını yerinə yetirirlər. Bu funksional xüsusiyyətlər beyin qabığı paylarında (alın, gicgah, ənsə və təpə) yerləşən neyronlar arasında qismən bölüşdürülüb. Burada xüsusilə də, seçilən alın payıdır. Alın payında yerləşən neyronlar Psixikanın ən ali tənzimləyici subyektiv funksiyalarını həyata keçirirlər. Gələcəkdə alın payını psixoloji və neyroloji baxımdan daha ətraflı araşdırmaq lazım gələcək.

Psixikadaxili neyronlar hər biri öz nəhəng və universal fəaliyyətləri ilə seçilən sinir hüceyrələridir. Şübhəsiz, neyronlar da Psixikada formalaşma və inkişaf dövrü keçirirlər. Əslində Psixikanın formalaşması onun daxilində fəaliyyət göstərən neyronların və onların universal fəaliyyətlərinin formalaşması deməkdir. Bu formalaşma dövrlərində Psixika şöbələrində yerləşən neyronlar həmin şöbənin özünəməxsus funksional iş xüsusiyyətlərini mənimsəyirlər. Bu proseslər daimi və fasiləsiz qarşılıqlı əlaqələrin real təsirləri fonunda daha da aktivləşir.

Psixikadakı neyronlar çox həssas və dəyişkən fəaliyyət xüsusiyyətlərinə malikdirlər. Məsələn, insanın gündəlik fəaliyyəti və dəyişilmiş həyat şəraiti ilə bağlı olaraq Psixikadakı neyronların fəaliyyətində də ani olaraq həmin istiqamətdə dəyişikliklər baş verir. Düzdür, bu sadə görünsə də, əslində cox aktiv psixikadaxili proseslərin nəticəsində baş verir. Buraya Psixikanın və orqanizmin biofizioloji reaksiyaları da əlavə edilməlidir. Ən əsası odur ki, Psixikada dəyişikliklərə qarşı real və aktiv cavab vermə reaksiyaları və hazırlıq işləri formalaşmışdır. Bunu isə ilk növbədə məhz, neyronların aktiv universal fəaliyyəti yaradır. Məsələn, ciddi zehni fəaliyyət və həyat tərzi tələb edən tədris proseslərinə qoşulma Psixikada köklü fəaliyyət dəyişiklikləri yaradır. Ümumiyyətlə isə, Psixika neyronları yaranmış istənilən emosional və fiziki şəraitə uyğun və alternativ cavab reaksiyaları hazırlayırlar. Digər bir misal, zavodda yeni ixtisasla işə başlayan şəxsin Psixikasında neyronlar yeni ixtisas fəaliyyətinə uyğun təsirlərə məruz qalaraq öz funksional xüsusiyyətlərini həmin işə uyğun qururlar. Bu təbiidir. İlkin orqanizm reaksiyaları və bu reaksiyalara

cavab yalnız Psixikada hazırlandığı üçün yeni şəraitə uyğunlaşma, fəaliyyət dəyişkənliyi də məhz, orada yaranmalıdır.

Burada neyronların ümumi Psixika üçün işləməsi ilə əlaqədar olan mühüm amili bir daha sizin nəzərinizə catdırmaq istərdik. Neyronların universal fəaliyyəti, Psixikanın daxili fəaliyyət xüsusiyyətlərinin öyrənilməsi, aparılmış fundamental kliniki tədqiqat nəticələri, xüsusilə də "döyənək cisimləri kəsilib çıxarılmaqla iki yerə ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar"ın nəticələri bizi bir daha ümumi həqiqi fikrə gəlməyə məcbur edir.

**Psixika ümumi işlə məşğul olduğu üçün oradakı neyronlar Psixikanın və onun şöbələrinin ümumi və xüsusi funksiyalarını yerinə yetirirlər. Bu baxımdan, ayrı-ayrılıqda şüur və yaxud hafizə üçün fəaliyyət göstərən neyron və neyronlar qrupu ola bilməz. Psixika daxilində olan neyronlar (sinir hüceyrələri) Psixikanın ümumi fəaliyyət prinsiplərinə tabedirlər və həmin qaydalara uyğun işləyirlər. Burada şöbələrarası geniş və fasiləsiz qarşılıqlı əlaqələr vardır. Ona görə oradakı bütün neyronlar həm də ümumi Psixika üçün işləməyə məcburdurlar.**

Neyronların (sinir hüceyrələrinin) universal fəaliyyəti (пластичность мозга) barədə çox danışılır. Tədqiqatlar da sübut etmişdir ki, müəyyən baş beyin nahiyəsinin zədələnməsi əksər hallarda onun ümumi fəaliyyətinin pozulması demək deyildir. Həmin nahiyənin işi bir müddət keçdikdən sonra digər nahiyələrə keçə bilər. Bu da birbaşa orada olan neyronların universal fəaliyyətinin nəticəsidir.

Psixikada yerləşən neyronların fəaliyyəti isə daha aktivliyi ilə seçilir. Orada hətta şöbələrin özünəməxsus ümumi funksiyalarını müəyyən hallarda digər şöbə neyronları qismən yerinə yetirə bilirlər. Şöbələrarası qarşılıqlı əlaqələr neyronlarda universal fəaliyyətin formalaşmasında mühüm rol oynayır. Ona görə yaranmış şərait də şöbələrdəki neyronların funksional fəaliyyətini poza və yaxud dəyişdirə bilir. Məsələn, artıq sizə tanış olan 13 yaşlı Cininin beyin yarımkürələrində (Psixika şöbələrində) aparılmış kliniki testlər də bunu sübuta yetirir. Onun nitqi və ümumi dil xüsusiyyətləri yaranmış üzunmüddətli izolyasiyadan, tək qalmaqdan sonra sol yarımkürədən (koqnitiv şöbədən) sağ yarımkürəyə (ekzistensial şöbəyə) keçmişdi.

Digər bir misal M.Qazzaniqanın və C.Ledunun birgə apardıqları tədqiqat nəticələri ola bilər (**Bax: C. Спрингер, Г. Дейч. "Левый мозг, правый мозг". M. 1983, səh. 50-52**). P.S adlı xəstənin sol yarımkürəsi (koqnitiv şöbəsi) uşaqlıqdan zədələnmişdi. Beyin yarımkürələrində (Psixika şöbələrində) aparılmış əməliyyatdan üç il sonra P.S-nin şifahi nitqi artıq sol yarımkürədən (koqnitiv şöbədən) yox, sağ yarımkürədən (ekzistensial şöbədən) idarə olunurdu.

Ümumiyyətlə, Psixikada və beyində neyronların (sinir hüceyrələrinin) universal fəaliyyəti nəhəng və mürəkkəb işləri görmək üçün lazım olan ən mühüm təbii üstünlük sayıla bilər.

Biz baş beyində şüurun, hafizənin və digər ali koqnitiv proseslərin harada yerləşməsi ilə bağlı aparılan tədqiqatlara birtərəfli yanaşırıq. Bu birtərəfli yanaşmanı həmin tədqiqatlarda fundamental elmi nəticələrin olmaması bir daha real edir. Çünki məlum tədqiqatlarda nəzəri və təcrübi metodik yanaşma düzgün qurulmur və onlar Psixikanın mövcudluğuna və öyrənilmə prinsiplərinə ziddiyyət təşkil edirlər. Yəni baş beyində, beyin qabığında Psixikanı nəzərə almadan şüuru, hafizəni və digər ali koqnitiv prosesləri axtarmaq məntiqsizdir. Çünki bu ali psixi, koqnitiv proseslər Psixikada yerləşir və deməli, onlar ilk növbədə elə orada da axtarılıb tədqiq edilməlidirlər. Bu baxımdan, V. Mauntkaslın beyin qabığında şüuru neyron və neyron qrupları daxilində axtarması ilə əlaqədar nəzəri və kliniki baxışları da bizim Psixikaya ümumi yanaşmamıza və insan orqanizmində Psixikanın mövcudluğunun müəyyənləşdirilməsinə ziddiyyət təşkil edir (**Bax: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум, поведение", M. 1998. səh. 193-194**).

Ola bilər biz də ali idraki prosesləri beyin qabığında axtaraq. Lakin bu tədqiqat prosesləri Psixika daxilində, onun şöbələrində baş verə bilər. Məsələn, şüuru və yaxud təfəkkürü Psixikanın koqnitiv şöbəsində (sol yarımkürədə) axtara bilərik. Qavrayışı, hafizəni isə əksinə ekzistensial şöbədə (sağ yarımkürədə) axtarmaq lazım gələcək.

Problemə bu cür yanaşma da mürəkkəblik yaradır. Çünki bu ali koqnitiv proseslər elə Psixikanın ümumi işinin tərkibində "itib - batırlar". Məntiqi nəticə baxımından onlar Psixikanın ümumi iş prosesləridir. Digər problem isə onların Psixika şöbələrinin hansı

hissəsində və hansı aktiv nahiyələrində yerləşməsi ilə əlaqədardır. Lakin burada ümumi bir fikir mövcuddur. Biz artıq qeyd etmişik ki, şöbələrin ümumi fəaliyyət mərkəzi həmin şöbələrin beyin qabıqlarının alın payı hissəsində yerləşir. Deməli, söyləmək mümkündür ki, bu ali koqnitiv prosesləri yerləşdikləri şöbələrin alın paylarında axtarmaq lazımdır. Ali psixi və koqnitiv proseslər alın paylarında cəmləşərək bütün Psixika üçün işləyirlər. Bu problemləri hələ ətraflı şəkildə tədqiq edib dəqiqləşdirmək lazımdır. Ona görə biz dəfələrlə qeyd etmişik ki, şüuru, təfəkkürü, hafizəni, digər ali psixi prosesləri ümumiyyətlə, zehni subyektiv fəaliyyəti öyrənmək üçün ilk növbədə Psixika insan orqanizmində müəyyənləşdirilməli və öyrənilməlidir.

Şübhəsiz, Psixikanın ətrafli neyroloji tədqiqi son anda kliniki laborator ekspremenlərin aparılmasını tələb edəcək. Bu proseslərə nəzəri cəhətdən ətraflı şəkildə hazırlaşmaq lazımdır. Çünki baş beyində, xüsusilə də beyin qabığı hissəsində aparılan laborator tədqiqatlar çox zəhmət və maliyyə sərfi tələb etsə də əksər hallarda nəticəsiz qalır. Psixikanın neyroloji tədqiqi isə daha mürəkkəb və incə xüsusiyyətlərə malikdir. Onun üçün də Psixikanın neyroloji tədqiqi zamanı aparılan kliniki ekspremenlərdə bioloji, psixoloji, sosial amillər, formalaşma və inkişaf xüsusiyyətləri nəzərə alınmalıdır. Bundan əlavə, Psixikanın fizioloji və neyroanatomik quruluşu ətraflı şəkildə öyrənilməlidir.

Burada digər problem beyin qabığında (Psixika qabığında) kliniki ekspremenlərin aparılması çətinliyi və qeyri-mümkünlüyü ilə bağlıdır. İnanırıq ki, bu sahədə real çıxış yolları tapmaq mümkün olacaq. Bizcə, Psixikaya ümumi tədqiqat yanaşmamız həm də buna xidmət edəcək.

Psixikanın neyroanatomik quruluşunu II hissədə ("Psixika, Beyin və İnsan orqanizmi") bir daha ətraflı şəkildə tədqiq etməyə çalışacağıq.

# 6. PSİXİKADAXİLİ FƏALİYYƏT XÜSUSİYYƏTLƏRİ

## 6.1 ŞÜURSUZLUQ HALLARININ YENİ FORMADA ÖYRƏNİLMƏSİ. ASILI OLMAYAN PSİXİKADAXİLİ PROSESLƏR

Şüursuzluq halları müəyyən ziddiyyətli tarixə malik psixi və davranış prosesləri kimi nəzəri cəlb edir. Şüursuzluq halları Kant, Leybniç və digər filosof alimləri də narahat etmişdir. Hər bir tədqiqatçı bu cür hallara öz şəxsi münsibətini bildirmişdir. O zamanlarda, elə indinin özündə də heç kəsə sirr deyildir ki, şüursuzluq kimi anlaşılan bütün davranış xüsusiyyətləri dərk edilməyən qeyri-adi psixi proseslərdir. O da heç kəsə sirr deyil ki, bu qeyri-adi davranış xüsusiyyətlərini bizim üçün anlaşılan edən və adiləşdirən, hətta müalicəvi səviyyəyə gətirən Ziqmund Freyd olmuşdur. O, şüursuzluq hallarına real elmi-psixoloji status verdi. Freyd bu cür halları öyrənib onları insan Psixikasına uyğunlaşdırmağa çalışmışdır. Ən əsası odur ki, Freyd şüursuzluq hallarından psixoloji müalicədə istifadə etməyə başladı. Beləliklə, kölgədə qalmış Psixologiya elmi real təcrübi elmə çevrilmək üçün əvəzedilməz qiymətli şans əldə etdi. Bütün dünya mürəkkəb və sirli insan psixologiyasının real təcrübi sindromlarını görməyə başladı.

Freyd şüursuzluq hallarını psixi həyatın əsas hissəsi kimi qəbul etdi. Psixi həyatın özünü isə insan orqanizminin və varlığının "tacı" adlandırırdı. Freydin psixoanalizi sözün əsl mənasında yeni psixi aləmin əsaslarını qoydu və bu elmlər sistemində, hətta mədəniyyət və incəsənətdə də hiss olundu.

Freydin ən böyük səhvi insan psixologiyasında şüursuzluq hallarına və orada cinsi xüsusiyyətlərə həddən artıq inanması və yer verməsi olub. Təbii olaraq o, bu sahəyə çox vaxt və zəhmət sərf etdiyindən onun elmi baxışlarında şüursuzluq halları və oradakı cinsi xüsusiyyətlər hegemon əvəzolunmaz səviyyəyə çatmışdı. Ona görə Freyd son anda elə bir nəticəyə gəldi ki, şüursuzluq halları və oradakı cinsi xüsusiyyətlər insan psixikasını və insan həyatını idarə edir.

Artıq bilirik ki, Freyd hətta şüursuzluq hallarının yaranma prosesini xüsusi psixi aparatın iş strukturuna tətbiq etmişdi. O, bu psixi aparat barədə əsas elmi əsəri olan "Yuxuların yozulması" ("Толкование сновидение") kitabında yazıb **(Вах: З. Фрейд. "Толкование сновидение" -M. 1989. səh. 283-284)**. Bildiyimizə görə, Freyd ömrünün sonuna qədər bir daha bu psixi aparat haqqında yazmayıb və məlum problemə qayıtmayıb. Şübhəsiz, bu yanaşma Freydin yaşadığı dövrdə olmasa da indi kobud elmi səhv sayıla bilər. Lakin Freydin psixoanalizi, onun psixanalitik müalicə metodları bu gündə öz real təsirini və əhəmiyyətini qoruyub saxlayır. Biz Freydin anlaşılan və anlaşılmayan bütün fikirlərini dərindən anlamağa çalışırıq və bu elmi işdə həmin fikirlərin bəzilərinə yeni formalarda yanaşaraq onları araşdırmağa çalışacağıq.

Biz psixologiyada və elmlər sistemində öz qeyri-adi populyarlığı ilə seçilən şüursuzluq hallarına kökündən yeni formada yanaşacağıq. Ümumiyyətlə, şüursuzluq hallarının mövcudolma və yaranma proseslərinin yeni həqiqi formalarda ətraflı şəkildə öyrənilməsinin vaxtı gəlib çatmışdır. Bu proseslərə ilk növbədə insan orqanizmində Psixikanın öyrənilməsi əlverişli şərait yaradır. Psixikanın tədqiqi ilə öncə bizə o bəlli oldu ki, şüuru Psixika ilə müqayisə edərək Psixikaya aid olanları və asılı olmayan psixi prosesləri belə şüursuzluq halları kimi qəbul etmişik. Yəni bu səhv addımın real tarixi elmi səbəbləri olmuşdur. Əlbəttə, əsas səbəb Psixikanın müəyyənləşdirilib öyrənilməməsidir. Şüursuzluq hallarının məhz, bu ad altında mövcud olması da Psixikanın öyrənilməməsi ilə əlaqədar olaraq şüurun hegemonluq etməsi ilə bağlıdır.

Bundan əlavə, psixoloji elmlər sistemində şüursuzluq halları ilə bağlı olan böhran həmişə mövcud olub. Bu da birbaşa şüursuzluq hallarının mahiyyət etibarilə müəmmalı və qeyri-adi olmaları ilə əlaqədardır. Biz bu müəmmalara son qoymaq istəyirik. Ona gorə də, bundan sonra şüursuzluq halları kimi yaranan prosesləri yeni yaranma və mövcudolma məkanında öyrənərək onları qəti olaraq **"asılı olmayan psixikadaxili proseslər"** kimi adlandıracağıq.

Düzdür, elmi ədəbiyyatda **"asılı olmayan psixi proseslər"** anlamından istifadə olunur. Lakin biz bu prosesləri "asılı olmayan **psixikadaxili** proseslər" kimi adlandıraraq, onları Psixikanın tədqi-

qi və onun daxili fəaliyyətinin real nəticə məhsulları baxımından əsaslandırılmış şəkildə öyrənəcəyik. **"Asılı olmayan psixikadaxili proseslər"** kimi adlandırma daha dəqiqdir və bu proseslərin Psixikada mövcudluğu baxımından fundamental əsaslara malikdir.

Deməli, bütün asılı olmayan psixikadaxili proseslər yalnız Psixikada yaranır və onlar hər baxımdan Psixikaya aiddirlər. Təbii, bu proseslər Psixikanın yeni iş fəaliyyətini əks etdirmir. Sadəcə olaraq "şüursuzluq" kimi anladığımız bütün proseslər və davranış xüsusiyyətləri elə yarandığı anlardan Psixikanın adi nəticə məhsulları kimi ona məxsus olmuşdur. Bu günə kimi onları "şüursuzluq" kimi anladığımız isə adi tədqiqat səhvidir. Problemi bir az da aydınlaşdıraq, bəzi suallara cavab verməyə çalışaq.

İlk növbədə diqqət yetirək ki, şüursuzluq halları deyəndə nə başa düşülürdü. Niyə bu cür proseslər şüursuzluq halları kimi adlandırılıb? Ən sadə tərif belə olmuşdur. "Şüursuzluq halları dərk edilməyən, şüur vasitəsilə nəzarət olunmayan psixi proseslərə deyilir". Bu zaman insanın həyata keçirə bilmədiyi "daxilində" gizli, qeyri-gizli qaldığı xüsusiyyətlər sistemi də nəzərdə tutulurdu. Sosial normalara uyğun olaraq bəzi istəklər, arzular şüur sahəsinə buraxılmır. Ola bilsin sayıqlamalarda, dil yanılmalarında "daxildə" qalan bu istəklər, arzular təzahür edərək xaricə çıxsın. Ümumiyyətlə isə, Freyd bu və ya digər halda yaranan şüursuzluq hallarını təsnifləmişdir. Məlum təsnif hamımıza yaxşı məlumdur.

Burada əsl həqiqət və real olanı odur ki, bütün növ şüursuzluq halları birbaşa şüurdan və digər ali idraki proseslərdən asılı deyildir və təkcə onların fəaliyyət nəticələri ola bilməz. Bu cür hallar bizim Psixikamızda ani olaraq dərk edilməyən, asılı olmayan şəraitdə reallaşır. Bu asılı olmayan psixikadaxili proseslər bizim psixoloji fəaliyyətimizin və psixi həyatımızın bir hissəsini təşkil edir. Lakin Psixikanın öyrənilməməsi bu cür proseslərin ali orqan kimi tək qalan şüura aid edilməsi məcburi çıxış yolu olub. Müasir dövrümüzə qədər şüur bu sahədə öz hegemonluğunu qoruyub saxlamışdır. Şüur subyektivliyin, məntiqi anlamın simvoludur. Şübhəsiz, qeyri-adi dərk edilməyən xüsusiyyətlər yalnız şüurun əks anlamı ilə, yəni "şüursuzluq" kimi adlandırıla bilərdi.

Lakin Freyddən sonra şüursuzluq halları ətraflı şəkildə öyrənilmədi. Hamımıza məlumdur ki, şüursuzluq halları bizim üçün əsasən elə Freydin bizə anlatmağa çalışdığı səviyyədə qalmışdır. Məhz, bu şüursuzluq halları ilə əlaqədar böhranı aradan qaldırmağa, bu cür halların real mövcudluq statuslarını aydınlaşdırmağa imkan verməmişdir.

İndi biz "şüursuzluq" anlamı altında qəbul olunan psixikadaxili prosesləri şüurdan ayırmağa məcburuq. Çünki bu şüurun mövcudluğuna və fəaliyyətinə uyğun gəlmir. Psixikanın iş prinsiplərinə tamamilə ziddir. Ən azı ona görə ki, şüursuzluq halları Psixikanın fəaliyyət nəticəsidir və o təkcə şüurun əks təsirli mahiyyətini nümayiş etdirmir. Onların yaranmasında şüur sadəcə olaraq öz psixikadaxili fundamental funksiyalarını yerinə yetirir. Bu yanaşma sizə gözlənilməz və qəribə görsənə bilər.

Yuxarıdakı təəccübü yox etmək üçün növbəti sadə bir suala cavab axtaraq. Niyə şüursuzluq hallarını (asılı olmayan psixikadaxili prosesləri) təkcə şüura aid etmək olmaz?

İlk növbədə ona görə ki, şüursuzluq halları (asılı olmayan psixikadaxili proseslər) Psixikanın adi iş məhsuludur. Psixika daxilində şüura aid edilən onun öz nəticə məhsulu belə təkcə tam şüura aid edilə bilməz. Məsələn, orada hafizə məhsulları olur və digər ali psixikadaxili proseslərin nəticə məhsulları da şüura kömək edə bilər.

Bundan əlavə, şüursuzluq halları (asılı olmayan psixikadaxili proseslər) Psixikada fəaliyyət tərkibi kimi insanın davranışını asılı olmayan formalarda tənzimləyir. Asılı olmayan psixikadaxili proseslər Psixika daxilində adi "psixi proseslər" statusuna malikdirlər. Bu statuslu proseslər isə təkcə şüurun nəticə məhsulları deyil və yaxud onlara təkcə şüur nəzarət etmir. Psixi proseslər Psixikanın ümumi fəaliyyət məhsuludur.

Aşağıda konkret suallara və misallara keçək. Şüursuzluq hallarını nəzərdə tutan bu misallar Freydin bu proseslərə uyğun apardığı təsnifə əsaslanacaq.

Görəsən, yuxugörməyə və hipnoza hansı əsaslarla şüursuzluq halları deyilir? Artıq hamımız açıq şəkildə görür və anlayırıq ki, yuxugörmə və hipnoz Psixikanın ümumi nəticə məhsullarıdır. Yuxugörmədə hələlik bizə bəlli olmayan psixikadaxili proseslər baş

verir. Hipnozda isə ümumi Psixikanın xariclə əlaqədar fəaliyyəti qismən zəiflədilir, adi təlqinlə pozulur və yaxud ani olaraq dayandırılır. Bütün bu proseslər ümumi Psixikaya və orada yerləşən şüura və digər ali zehni proseslərə də aiddir. Belə olan halda yuxugörmə və hipnoz necə təkcə şüursuzluq halları kimi yarana bilər?

Kobud unutqanlıqla bağlı bir misala fikir verək. Hansısa əşyanı bir yerə qoyduğun halda ani olaraq onun yerini unudursan. Ümumiyyətlə, kobud unutqanlıqla bağlı şüursuzluq hallarının şüur və şüursuzluqla heç bir əlaqəsi yoxdur. Əlbəttə, əşyanın harasa qoyulması şüurlu şəkildə baş verə bilər. Sonra isə o ani olaraq unudulur. Yəni hafizə bu prosesi yaddaşa gətirə bilmir. Burada şüurun nə günahı var ki, hafizə ona və ümumi Psixikaya kömək etmir. Təbii, bu hal kobud şəkildə yaranan hafizəsizlik deyilmi? Bu prosesə şüursuzluq yox, kobud hafizəsizliyin deyilməsi daha məqsədəuyğundur.

Unutqanlıqla bağlı digər bir misal. Kiminsə adı dilinin ucunda olsa da xatırlaya bilmirsən. Bu da birbaşa hafizə ilə bağlı olan şüursuzluq halıdır (asılı olmayan psixikadaxili prosesdir). Hafizə həmin şəxsin adını Psixikaya – daxili nitqə buraxmır. Bu prosesin şüura və şüursuzluğa nə dəxli ola bilər?

Göründüyü kimi, şüursuzluq halları kimi anladığımız və adlandırdığımız psixi proseslərin, davranış xüsusiyyətlərinin əksəriyyəti hafizə ilə bağlıdır. Bu da təsadüfi deyildir. Çünki şüursuzluq halları (asılı olmayan psixikadaxili proseslər) Psixikanın ekzistensial şöbəsi ilə sıx əlaqədədirlər. Biz bu məsələyə ətraflı şəkildə toxunacağıq. İndi isə yenidən misallara qayıdaq.

Başqa bir misal yaradıcılıqla bağlıdır. Adətən, güclü yaradıcılıq proseslərini şüursuzluq halları ilə əlaqələndirirlər və yaxud onları elə şüursuzluq halları kimi qəbul edirlər. Burada primitiv bir sual meydana çıxır. Şüurun və təxəyyülün iştirakı olmadan hansı yaradıcılıq proseslərindən danışmaq olar? Necə olur ki, bu zaman şüursuzluq halları yaranır? Şüursuz yaradıcılıq məhsulu yarana bilərmi? Sadəcə olaraq problemə diqqətlə yanaşmaq lazımdır. Yaradıcılıq proseslərində, xüsusilə də "ilhama gələndə" ümumi Psixika, onun daxilində olan şüurun, təxəyyülün, təfəkkürün, hafizənin geniş və aktiv fəaliyyət təsiri altında olur. Yəni Psixika bu zaman bütövlükdə, tam heyətlə yaradıcılıq proseslərinə xidmət edir. Bu, Psixikanın

yaradıcılıq prosesləri ilə bağlı adi iş prinsipidir. Qaldı ki, yaradıcılıq proseslərində, xüsusilə də "ilhama gələndə" ətrafdakılara biganə yanaşma, qeyri-adi davranış birbaşa şüurla əlaqəli şüursuzluq halı ola bilməz. Sadəcə olaraq Psixika, onun daxili strukturları çox aktiv şəkildə fəaliyyətdə olduqları üçün yaradıcı şəxsi heç nə maraqlandırmır və onun davranışında bu hal müxtəlif formalarda büruzə verilir. Psixika tərəfindən ətraf aləmə ümumi diqqət pozulur. Yəni asılı olmayan psixikadaxili proseslər Psixikanın adi iş prinsiplərində müvəqqəti problemlər yaradırlar. Elə ona görə biz deyirik ki, asılı olmayan psixikadaxili proseslər Psixikanın adi fəaliyyət məhsullarından biridir. Bu, adi primitiv psixikadaxili iş prosesidir. Yəni elə fəaliyyət növləri var ki, (məsələn, yaradıcılıq prosesləri) həmin anda Psixika məhz, bu formada işləməyə məcbur olur.

Məlum oldu ki, geniş və aktiv yaradıcılıq proseslərini şüursuzluq halları ilə əlaqələndirmək olmaz. Bu proseslərdə şüur çox aktiv iştirak edir. Çünki şüur koqnitiv subyektiv fəaliyyətin ən ali yaradıcısıdır. Davranışdakı qeyri-ixtiyari, anlaşılmayan halları isə şüura heç bir aidiyyəti yoxdur. Bu, geniş yaradıcılıq proseslərində Psixikanın və onun daxili strukturlarının həddən artıq aktiv və qeyri-dinamik fəaliyyəti ilə əlaqədardır. Bu yaranmış real şəraitdə Psixikanın adi fəaliyyət reaksiyasıdır.

Anlaşılmaz, dərk edilməyən icra tərzləri də daha sadə tipli asılı olmayan psixikadaxili proseslərdir. Onlar da Psixikanın gündəlik fəaliyyətinin bəsit iş nəticələridir. Ümumiyyətlə isə, yuxarıdakı misalları, onların müqayisəli təhlilini uzatmaq olar. Lakin siz də indiyə qədər "şüursuzluq halları" kimi anladığımız prosesləri bizim kimi yuxarıdakı sadə formada müqayisə etsəniz görərsiniz ki, bu cür halların şüursuzluğa heç bir aidiyyəti yoxdur və onlar yalnız Psixikaya məxsus ola bilər. Biz düzgün olaraq məlum proseləri Psixikaya aid edib onları ümumi anlam termini ilə "asılı olmayan psixikadaxili proseslər" kimi adlandırdıq. Deməli, indiyə qədər anladığımız bütün şüursuzluq halları məhz, Psixikada yaranan və yalnız Psixikaya aid olan asılı olmayan psixikadaxili proseslərdir.

Əksər asılı olmayan psixikadaxili proseslərin yaranması Psixikada işin pozulması və orada ani fəaliyyət böhranı ilə burbaşa əlaqədardır. Bu baxımdan, Psixikada şüurun fəaliyyət pozğunluğu da

asılı olmayan psixikadaxili proseslərin yaranmasına tez-tez səbəb ola bilər. Çünki şüur Psixikada aktiv koqnitiv fəaliyyət göstərən geniş səlahiyyətlərə malik bir orqandır. Hər hansı formada ümumi nəticə odur ki, asılı olmayan psixikadaxili proseslər Psixikanın fəaliyyət xüsusiyyətidir və adi iş məhsuludur. Burada şüur yalnız adi psixikadaxili proses və həmin proseslərin yaranmasında səbəbkar kimi iştirak edə bilər. Təbii, şüur da Psixikada yerləşir.

Bundan sonra bu elmi işdə "şüursuzluq halları" anlamlı termin sözləri əvəzinə "asılı olmayan psixikadaxili proseslər" sözləri işlədiləcək. Gəlin, asılı olmayan psixikadaxili proseslərlə daha da ətraflı tanış olaq, onların Psixikada mövcudluğunu, qeyri-adi xüsusiyyətlərini aydınlaşdıraq. Onların Psixikanın məhsulu və orada yarandığını bir daha sübuta yetirməyə çalışaq.

### 6.1.1 Asılı olmayan psixikadaxili proseslərin növləri

Asılı olmayan psixikadaxili proseslər Psixikada arzuolunmadan, gözlənilmədən yaranan, insanın fəaliyyətini müxtəlif istiqamətlərə yönəldən, yeniləşdirən mövcudluq təbiətinə malikdirlər. Bu tipli proseslər Psixikanın funskional iş xüsusiyyətləri kimi yaransalar da müəyyən mənalarda azad və asılı olmayan fəaliyyət statuslarına malikdirlər. Onların yaranma səbəbləri də müxtəlifdir. Məsələn, artıq bildiyimiz kimi, Psixikanın daxili fəaliyyətinin pozulması asılı olmayan psixikadaxili proseslərin aktivləşməsinə səbəb olur. Onlar yaranmış fürsətdən istifadə edib ani olaraq Psixikanın daxili iş prinsiplərinə tabe olmurlar. Məsələn, bu zaman Psixika adi halda müəyyən bir adı və yaxud əşyanın hara qoyulmasını xatırlaya bilmir.

Asılı olmayan psixikadaxili proseslərin yaranmasına digər real bir səbəb Psixikanın geniş və aktiv fəaliyyəti ilə bağlıdır. Psixikanın "başı qarışıq" olduğu üçün asılı olmayan psixikadaxili proseslər öz işlərinə başlayırlar. Məsələn, aktiv yaradıcılıq proseslərində, müxtəlif ani hadisələr zamanı, aktiv daxili və xarici təsirlərlə bağlı

və sairə hallarda asılı olmayan psixikadaxili proseslər yaranmağa başlayırlar.

Asılı olmayan psixikadaxili proseslər bizim fəaliyyətimizi həm aktivləşdirə, həm də passivləşdirə bilər. Hər iki halda bu prosesləri istədiyimiz formalarda tənzimləyə bilmirik. Bu aktivləşdirmə və passivləşdirmə yaranmış şəraitə uyğun olaraq asılı olmayan psixikadaxili proseslərin bizim fəaliyyətimizə real təsirlərindən asılı olur. Ona görə yaranmış şəraitdə asılı olmayan psixikadaxili proseslər öz işini və təsirlərini mənfi və müsbət istiqamətlərə yönəldə bilir. Bu, yaranmış şəraitdə bizdən asılı olmayan, tənzimlənməyən psixikadaxili incə xüsusiyyətləri əhatə edir.

Ola bilsin bəzi asılı olmayan psixikadaxili proseslər bizim üçün azad və müstəqil mövcudluq mahiyyəti kəsb etsin. Psixikanın daxili fəaliyyəti üçün isə bu adi iş xüsusiyyətidir. Məsələn, aktiv yaradıcılıq prosesləri, xüsusilə də "ilhama gəlmək" Psixikanın adi fəaliyyətidir. Bizə isə bu hallar çox qəribə görsənir və onları qeyri-adi psixi fəaliyyət növü kimi qəbul edirik. Bax elə bu cür incə məsələləri ayırd etmək üçün gərək asılı olmayan psixikadaxili prosesləri yeni formada Psixikanın daxili fəaliyyətinə uyğun təsnif edək. Məlum təsnifetmə zəruridir. Çünki burada çoxlu anlaşılmazlıqlar vardır. Freyddən sonra "şüursuzluq böhranı" kimi mövcud olan bu problem həmişə diqqəti cəlb etmişdir. İndi də bu ziddiyyətli yanaşma asılı olmayan psixikadaxili proseslərin öyrənilməsini də əhatə edəcək. Ona görə asılı olmayan psixikadaxili proseslərin ətraflı və real tədqiqi üçün onların psixikadaxili proseslər kimi təsniflənməsi vacibdir.

Bundan əlavə, asılı olmayan psixikadaxili proseslərin mövcudluq təbiətləri arasında köklü fərqlər vardır. Təsəvvür edin ki, "hipnoz" tipli asılı olmayan psixikadaxili proseslər "səhv hərəkətlər" tipli asılı olmayan psixikadaxili proseslərdən necə də fərqlənirlər. Bu fərqləri görmək çətin deyildir. Məlum iki tipli asılı olmayan psixikadaxili proseslər Psixikada müxtəlif cür yaranır və orqanizmin fəaliyyətinə müxtəlif cür təsir edirlər.

Deməli, bu müxtəlifliyi və fərqləri nəzərə alaraq asılı olmayan psixikadaxili prosesləri yenidən qruplaşdırmaq, təsnif etmək lazımdır. Bu təsnif Psixikada onların yaranmasını, mövcudluq mahiyyə-

tini və insan fəaliyyətinə təsir müxtəlifliklərini əhatə edəcək. Asılı olmayan psixikadaxili prosesləri üç ümumi növə bölə bilərik. Aşağıda həmin növləri və onların tərkib hissələrini sizə təqdim edirik.

**Birinci növ: bura Psixikanın böhranlı və artıq pozulmuş fəaliyyəti ilə əlaqədar yaranan asılı olmayan psixikadaxili proseslər daxildir.**

Bu proseslər çox sadə və gündəlik fəaliyyətimizdə tez-tez baş verən primitiv proseslərdir. Psixikanın aktiv iş nəticəsində yorulması, güclü depresiya və streslər zamanı, adi anlaşılmaz diqqətsizlik hallarında və sairə kimi situasiyalarda yaranan asılı olmayan psixikadaxili prosesləri bu növə aid etmək olar. Bu qrupa "səhv hərəkətlər", unutmalar, kobud nitq səhvlərini də əlavə etmək olar. Psixikanın böhranlı və artıq pozulmuş fəaliyyəti ilə əlaqədar yaranan asılı olmayan psixikadaxili proseslərin Psixikada necə baş verməsini təhlil etmək mümkündür. Məsələn, ən primitiv təhliletmə imkanını bizə hafizə verir. Psixikanın böhranlı vəziyyəti zamanı hafizə problemi tezliklə üzə çıxır. Hafizənin yaddaş strukturlarındakı kobud iş pozğunluğu Psixikada anlaşılmazlıqlar və ani fəaliyyətsizlik yaradır. Bunun nəticəsi olaraq qısamüddətli və sadə formalı asılı olmayan psixikadaxili proseslər yaranmağa başlayır. Ümumiyyətlə isə, bu növə daxil olan asılı olmayan psixikadaxili proseslər əsasən hafizə və onun qeyri-normal fəaliyyəti ilə bağlı olur.

Birinci növə daxil olan prosesləri **sadə, qısamüddətli və tez-tez baş verən asılı olmayan psixikadaxili proseslər** adlandıracağıq.

**İkinci növ: bura Psixikanın aktiv, geniş və məhsuldar fəaliyyəti ilə əlaqədar yaranan asılı olmayan psixikadaxili proseslər daxildir.**

Bu tipli proseslər əsasən Psixikanın məhsuldar müddətli zehni və fiziki fəaliyyəti zamanı yaranır. Bu zaman istəyimizdən asılı olmayaraq tənzimlənməyən, nəzarət edilməyən davranış və emosional hərəkətlər meydana çıxır. Çünki bir ümumi, aktiv iş üçün Psixika tam şəkildə səfərbər edildiyinə görə getdikcə digər psixikadaxili prosesləri tənzimləməyə imkanı olmur. Biz özümüz də bu prosesləri hiss edir və görürük.

Bu qrupa aktiv yaradıcılıq prosesləri (ilhama gəlmək halları), cinsi fəaliyyət (bütün növləri), məhsuldar zehni və fiziki iş zamanı

yaranan anlaşılmaz davranış hərəkətləri, psixoloji xüsusiyyətlər və sairə tipli asılı olmayan psixikadaxili proseslər daxildir.

Bu növə daxil olan prosesləri də Psixikada təhlil etmək mümkündür. Bu proseslərin əsasında da Psixikanın daxili fəaliyyətinin tənzimlənməsində yaranan davranış və emosional pozğunluqlar durur. Gündəlik həyatımızda məlum halları tez-tez hiss edirik. Xüsusilə də, cinsi fəaliyyət baxımından bunu təhlil etməyə ehtiyac duyulmur. Məhz, cinsi fəaliyyət zamanı yaranan asılı olmayan psixikadaxili proseslər bu növ proseslərin ən real və primitiv xüsusiyyətləri kimi qiymətləndirilə bilər. Çünki bu zaman Psixikanın emosional və fiziki fəaliyyətinin paralel aktivliyi daha çox hiss olunur. Belə olan halda yaranmış asılı olmayan psixikadaxili prosesləri görmək və tədqiq etmək asan olur. Bu tipli asılı olmayan psixikadaxili proseslər də əksər hallarda qısamüddətli olur.

İkinci növə daxil olan prosesləri **aktiv, müəmmalı və daha çox subyektiv mahiyyət daşıyan asılı olmayan psixikadaxili proseslər adlandıracağıq.**

**Üçüncü növ: bura Psixika fəaliyyətinin qismən dayanması və onun iş proseslərinin köklü şəkildə pozulması nəticəsində yaranan asılı olmayan psixikadaxili proseslər daxildir.**

Bu zaman Psixika qismən işləmir, o, sadəcə olaraq orqanizmin bioloji aktivliyinə uyğun cüzi fəaliyyət göstərə bilir. Əlbəttə, məntiqi nəticə baxımından, bu artıq Psixikanın anormal fəaliyyəti deməkdir. Psixikada subyektiv fiziki fəaliyyət sıfra enir. Şübhəsiz, bu cür halların yaranması çox sanballı səbəblərlə bağlı olmalıdır. Bu elədir ki, var. Bu qrupa hipnoz, yuxugörmə, sayıqlamalar, "lunatiklərin" davranış hərəkətləri, çox aktiv təlqinlə insanın qeyri-normal vəziyyətlərə salınması və sairə bu tipli hallarda yaranan asılı olmayan psixikadaxili proseslər daxildir.

Burada ən maraqlı hallar aktiv təlqinlə (hipnoz halları da bura daxil ola bilər) Psixikanın fəaliyyətinin qismən dayanması, hətta onun istirahətinə əsaslanan asılı olmayan psixikadaxili proseslərin yaranması ilə əlaqədardır. Belə vəziyyətlərə şəxsi istəklə də düşmək mümkündür. Yəni kimsə öz şəxsi istəyi ilə hipnoz halına salınır. Göründüyü kimi, yaranmış asılı olmayan psixikadaxili proseslər bəzən qeyri-adi formalarda, anlaşılmaz şəkildə qarşılanmaya da bilər.

Bu qrupa daxil olan asılı olmayan psixikadaxili prosesləri Psixikada təhlil etməyə xüsusi ehtiyac yoxdur. Çünki aydın şəkildə görsənir ki, onlar Psixikanın kobud şəkildə daxili iş pozğunluğunda və qeyri-normal fəaliyyətində yaranır. Bu da Psixikanın təbii iş prinsiplərindən biridir. Üçüncü növə daxil olan asılı olmayan psixikadaxili proseslər kobud davranış və psixoloji xüsusiyyətlər yaradan qismən üzunmüddətli proseslərdir. Bu zaman hətta Psixika öz fundamental funksiyalarını yerinə yetirməkdə problemlərlə üzləşə bilər.

Üçüncü növə daxil olan prosesləri **Psixikada geniş və aktiv nəticələrə malik qismən üzunmüddətli mürəkkəb asılı olmayan psixikadaxili proseslər adlandıracağıq.**

Yuxarıdakı ümumi təsnif bizə bir daha onu göstərdi ki, asılı olmayan psixikadaxili proseslər şüurla yox, məhz Psixika ilə tənzimlənən və birbaşa Psixikanın daxili fəaliyyəti ilə bağlı olan psixi nəticə məhsullarıdır. Asılı olmayan psixikadaxili proseslər Psixikanın funksional fəaliyyətinin qeyri-adi, anlaşılmaz xüsusiyyətlərindən biridir.

## 6.1.2 Asılı olmayan psixikadaxili proseslərin mövcudluq xüsusiyyətləri

İndi asılı olmayan psixikadaxili proseslərin Psixikada yaranmasını, təbiətini və mövcudluq xüsusiyyətlərini bir daha dəqiqləşdirib təhlil edəcəyik.

Asılı olmayan psixikadaxili proseslərə adətən dərk edilməyən, müstəqil və müəmmalı formalarda yanaşılır. Lakin onların təbiəti, Psixikada yaranması, fəaliyyətə çevrilməsi onları adi psixi proseslər səviyyəsinə salır. Problemə bir az da ətraflı şəkildə yanaşsaq görərik ki, onlara xüsusi qeyri-adi don geydirməyə heç ehtiyac da yoxdur. Çünki Psixikanın özü belə bizim üçün qeyri-adiliyi və anlaşılmaz nəhəngliyi ilə seçilir. Əslində, Psixikanın daxili işi, psixi proseslərin yaranması da bizim üçün çox çətin dərk edilən, qavranılan bir reallıqdır. Yəni bu qeyri-adiliyi və dərkedilməzliyi müxtəlif mənalarda bütün Psixikaya və bütün psixi hadisələrə aid etmək

olar. Deməli, asılı olmayan psixikadaxili proseslər Psixikanın mürəkkəb və müəmmalı mövcudluğunun müəyyən bir hissəsidir. Bütün növ psixi proselər və psixi hadisələr Psixikanın ümumi fəaliyyətini əhatə edir. Psixikanın ümumi fəaliyyəti isə bizim üçün heç cür tam şəkildə anlaşılan və dərk edilən ola bilməz.

Sadəcə olaraq burada qeyri-adilik və anlaşılmazlıq asılı olmayan psixikadaxili proseslərin özünəməxsus mövcudluq xüsusiyyəti kimi daha çox nəzərləri cəlb edir. Qeyri-adilik və anlaşılmazlıq asılı olmayan psixikadaxili proseslərin ən əsas özünəməxsus xüsusiyyəti sayıla bilər.

Asılı olmayan psixikadaxili proseslərin tədqiqi Psixikanın daxili anormal fəaliyyət xüsusiyyətlərinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Nəticə baxımından, asılı olmayan psixikadaxili proseslər Psixikanın qeyri-normal xəstə işinin də elə qeyri-adi formalarda tənzimlənməsinə, nizamlanmasına kömək edir. Əlbəttə, burada nəzəri cəlb edən ilkin amil Freydin psixoanalitik müalicə metodu ola bilər. Freyd məhz, bu müalicə metodlarından başlayaraq psixoanalizin əsaslarını yaratdı. Burada müxtəlif müalicə metodlarından istifadə edilir. Freydin klassik "Anna" hadisəsində istifadə etdiyi metodu baxımından problemə yanaşsaq görərik ki, asılı olmayan psixikadaxili proseslər Psixikanın "təmizlənməsi" və "yeniləşməsi" kimi müalicə işlərini görə bilirlər. Bu zaman müəyyən psixoterapevtik metodlardan (hipnozdan) istifadə edilməli və məlum şəxsin fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

İnsanın "daxilində", Psixikasında qalan, ona artıq təsir edən və əzab verən keçmiş hadisələrin, informasiyaların olması təbiidir. İnsan öz keçmişini unuda bilmirsə və artıq baş vermiş müəyyən hadisələrin nəticələri ilə razılaşmırsa bu hökmən öz izlərini onun psixologiyasında, gündəlik fəaliyyətində büruzə verməlidir. Keçmiş hadisələr faciəli və həddən artıq təəssüfləndirici olursa mənfi nəticələr daha geniş izlər buraxır. Nəticədə, insan psixologiyasında, davranışında və orqanizmin bioloji aktivliyində anormal xüsusiyyətlər, xəstəliklər yaranır. Freyd ilk dəfə olaraq məhz, "Anna" hadisəsində Psixikanın keçmiş əzabverici informasiyalarını "təmizləməklə" aparılan müalicəyə üstünlük vermişdi. Bu da xüsusi psixoterapevtik üsullar xüsusilə də, güclü hipnoz tələb edir. Məlum psixi

müalicənin müsbət əhəmiyyətini qəbul etmək, dərk etmək mümkündür. Aşağıda bu cür müalicə proseslərinin yaranma dinamaksını Psixika daxilində ətraflı şəkildə təhlil edək.

Hipnoz hallarında Psixikaya yüksək səviyyədə təsir etmək mümkün olur. Psixika güclü təlqinlə ani olaraq fəaliyyətsizlik halına salına bilər. Məlum hallarda həmin şəxs anlaşılmaz vəziyyətdə sayıqlaya da bilər. Yaranmış bu qeyri-normal şəraitdən istifadə edərək Psixikada müəyyən işləri görmək mümkündür. Məsələn, xəstəyə əzab verən keçmiş izlər, informasiyalar Psixikada müəyyənləşdirilib, öyrənilib və oradan çıxarıla bilər. Bu ona görə baş verir ki, məlum halda həmin şəxsin Psixikası digər şəxs tərəfindən (psixoterapevt tərəfindən) qismən idarə olunmağa başlayır. Bu proses əsasən passiv daxili nitq tərəfindən yerinə yetirilir və passiv, qismən anlaşılmaz şifahi nitqlə xaricə çıxarılır. Çünki bu zaman yalnız Psixikada qorunan "əhəmiyyətsiz" passiv informasiyalar xaric edilir. Məlum şəraitdə Psixika daxili nitqə olunan əmrlərdən başqa heç bir informasiya qəbul etmir. Nəticədə, Psixika indiki halda insana əzab verən keçmiş informasiyalardan, "izlərdən" təmizlənir. Yəni Psixikanın artıq ona əzab verən və ona lazım olmayan informasiyalardan "təmizlənməsi" prosesi baş verir.

Bu "təmizlənmə" prosesi zamanı Psixikanın daxili nitqə olunan əmrlərdən başqa heç bir informasiya qəbul etməməsini isə aşağıdakı kimi izah etmək olar.

Bu zaman hipnoz və sayıqlamaların köməyi ilə Psixikanın "təmizlənmə" prosesi bir növ xarab olmuş elektrik paylayıcısının (transformatorun) təmirini xatırladır. Elektrik paylayıcısını təmir etmək üçün ilk növbədə ora gələn elektrik enerjisi kəsilir, sonra o təmir edilir və artıq fəaliyyət üçün yenidən ora elektrik enerjisi verilir. Məlum tədbirlər müsbət təmir üçün lazım olan şəraiti və təhlükəsizliyi təmin edir.

Psixikada da "təmizlənmə" prosesi zamanı onun daxili nitqə olunan əmrlərdən başqa heç bir informasiya qəbul etməməsi məhz, elektrik paylayıcısını təmir etmək üçün ilk növbədə ora gələn elektrik enerjisinin kəsilməsi kimi baş verir. Təlqin, hipnoz, anlaşılmaz sayıqlamalar Psixikaya gələn digər informasiyaların qarşısını alır.

Nəticədə, Psixikada "təmir", müalicə üçün lazım olan əlverişli şərait yaradılır.

Deməli, bu cür müalicə metodları bizim üçün həm də insan orqanizmində Psixikanın mövcudluğunu, real fəaliyyətini əyani surətdə görməyə, dərk etməyə kömək edən mühüm amillərdir. Bundan əlavə, məlum psixoanalitik müalicə metodlarının Psixika daxilində təhlili bir daha sübut etdi ki, asılı olmayan psixikadaxili proseslər Psixikaya aiddir, orada yaranaraq elə oradan da idarə olunurlar.

Artıq elmi ədəbiyyatdan da məlumdur ki, şüursuzluq hallarını (asılı olmayan psixikadaxili prosesləri) ekzistensial şöbə (sağ yarımkürə) ilə əlaqələndirirlər. Biz də sizə bu haqda xatırlatmışdıq. Asılı olmayan psixikadaxili proseslərin (şüursuzluq hallarının) ekzistensial şöbə (sağ yarımkürə) ilə əlaqəsi bizdə təəccüb doğura bilməz. Bu, ilk növbədə Psixikanın öyrənilməsində əldə olunmuş nəticələrə uyğundur və Psixika şöbələrinin özünəməxsus iş prinsiplərini əks etdirir. Bu baxımdan, artıq asılı olmayan psixikadaxili proseslər kimi nəzərdən keçirdiyimiz bir çox prosesləri (məsələn, aktiv yaradıcılıq proseslərini) ekzistensial şöbə (sağ yarımkürə) və orada yerləşən hafizə ilə əlaqəli şəkildə araşdırmışıq. Aşağıda bu məsələləri bir qədər də dəqiqləşdirək.

Biz qeyd etdik ki, bir çox asılı olmayan psixikadaxili proseslərin ekzistensial şöbə ilə əlaqələndirilməsi Psixikanın ümumi işinə uyğundur. Bu yanaşmanı daha ətraflı şəkildə necə anlamaq mümkündür?

Məlumdur ki, aktiv yaradıcılıq proseslərində ümumi Psixika geniş fəaliyyət göstərir. Bu halda daha aktiv fəaliyyət göstərən həm də ekzistensial şöbə olur. Çünki əsas informasiya ehtiyatları məhz, oradadır. Aktiv yaradıcılıq proseslərində asılı olmayan psixikadaxili proseslər yaranında ekzistensial şöbənin informasiya ehtiyatlarından geniş şəkildə istifadə olunur. Təxəyyül və yaradıcılıq proseslərinin əsas fəaliyyəti məhz, bu informasiyalardan və koqnitiv funksiyalardan bəhrələnərək yeni psixi proseslər yaratmaqdır. Ümumiyyətlə, əsas obyektiv və ruhi informasiya yükü ekzistensial şöbədə olduğu üçün məsələn, məlum psixoanalitik müalicə metodlarında keçmiş informasiyalar əsasən ekzistensial şöbədən çağırılır.

Bəli, ekzistensial şöbədə qeyri-adi, müəmmalı, bizə əzab verən, bizi sevindirən, gizli və aşkar informasiyalar qorunub saxlanılır.

Göründüyü kimi, ekzistensial şöbənin sirli və müəmmalı olmasını onun elə müəmmalı, anlaşılmaz asılı olmayan psixikadaxili proseslərlə sıx əlaqəsi də sübuta yetirilir. Bu baxımdan, Freydin "sıxışdırma" (вытеснение) kimi adlandırdığı asılı olmayan psixikadaxili proseslər də birbaşa ekzistensial şöbə ilə əlaqələndirilə və ona aid edilə bilər.

"Sıxışdırma" hallarında hazır psixi informasiyalar şüura, nitqə daxil ola bilmir və Psixika daxilində qalırlar. Əlbəttə, buradan məlum olur ki, sıxışdırılmış informasiyalar məhz, ekzistensial şöbədə qorunub saxlanılır. Psixoanalitik müalicə metodları zamanı, aktiv yaradıcılıq proseslərində asılı olmayan psixikadaxili proseslərin köməyi ilə həmin sıxışdırılmış informasiyalar ekzistensial şöbədən çıxarılır. Nəticə baxımdan, bu Psixikanın adi fəaliyyət prinsiplərindən biridir. Məlumdur ki, Psixika şöbələri daimi və fasiləsiz qarşılıqlı əlaqələrdə olurlar. Ona görə də bu zaman ola bilsin yaranmış psixikadaxili şəraitdə məlum proseslərə gərəkli və yaxud gərəksiz informasiyalar ekzistensial şöbədə asılı olmayan vəziyyətlərdə baş qaldırsın. Ekzistensial şöbədə asılı olmayan vəziyyətlərdə baş qaldıran bu lazım olmayan gərəkli və yaxud gərəksiz informasiyalar əsasən asılı olmayan psixikadaxili proseslərin yaranması zamanı aktivləşirlər. Həm də bu zaman asılı olmayan psixikadaxili proseslərin yaranması üçün daha əlverişli şərait olur. Bu proses çox incə və ziddiyyətli məqamları əhatə edir.

Göründüyü kimi, Psixikanın daxili fəaliyyəti mürəkkəb və qeyri-adi iş xüsusiyyətləri ilə zəngindir. Bəzən insan özü də hiss etmədən nəyi isə duyur və yaxud ona nə haqdasa elə bil məlumat verilir. Danışıq nitqimisdə işlədilən "intuisiyam məni aldatmaz" kəlamı elə bu cür hadisələr zamanı formalaşıb. Bu cür hallar da ekzistensial şöbədə gizli və anlamadığımız informasiyaların aktivləşməsi ilə bağlı ola bilər. Bundan əlavə, Psixika məlum vəziyyətlərdə ruhi formalı informasiyaların təsirinə də məruz qala bilər. Bu da bizim dərk etmədiyimiz, gözləmədiyimiz informasiyaların və asılı olmayan psixikadaxili proseslərin yaranmasına imkan verir.

Məlum oldu ki, Psixikada yaranan böhran və pozulmuş iş şəraiti imkan verir ki, lazım olmayan, müstəqil, gizli informasiyalar fürsətdən istifadə edib meydana çıxsınlar. Təbii olaraq bu zaman insanın fəaliyyət və davranışında qeyri-adi tənzimlənməyən hərəkətlər yaradır. Hansı ki, biz onları Psixikada yaranan asılı olmayan psixikadaxili proseslər adlandırırıq.

Burada bir cəhəti qeyd etmək istəyirik. Asılı olmayan psixikadaxili proseslərin yaranması Psixika şöbələri arasında rəqabətin də nəticəsi ola bilər. Şübhəsiz, Psixika şöbələri arasında olan daimi və geniş əlaqələr müəyyən mənalarda problemlər də yaratmalıdır. Məhz, bu cür problemli anlarda asılı olmayan psixikadaxili proseslər aktivləşirlər. Psixika şöbələri arasında olan rəqabət, böhranlı qarşılıqlı əlaqələr müxtəlif səbəblərdən yarana bilər. Məsələn, ola bilsin yaranmış böhranlı şəraitdə şöbələr öz aralarında aktivləşmiş keçmiş informasiyalarla bağlı məsələləri aydınlaşdıra bilməsinlər. Nəticədə, Psixika şöbələri arasında olan daimi və geniş əlaqələrdə müəyyən qəribə, qeyri-adi asılı olmayan psixikadaxili proseslər yaranmağa başlayır. Bu da Psixikanın ümumi işində və insan davranışında hiss olunur. Bu cür hallar çox təsadüfi hallarda baş versə də insan psixologiyasında və davranışında məlum asılı olmayan psixikadaxili prosesləri görmək mümkündür.

Psixika şöbələri arasında olan rəqabət, böhranlı qarşılıqlı əlaqələr nəticəsində yaranan asılı olmayan psixikadaxili prosesləri görmək və təhlil etmək üçün biz Şeksprin məşhur "Hamlet" faciəsini bir daha xatırlatmalı olacağıq. Biz Hamletin düşdüyü faciəvi psixoloji vəziyyətə Freydin verdiyi təhlil istiqamətinə uyğun, amma Psixika şöbələri daxilində tamam fərqli formada qeyri-adi təhlillə yanaşacağıq. Elmi nəticə baxımından, Freyd təhlilinin nə qədər dəqiq olması bizi maraqlandırmır. Ancaq əlverişli psixoloji təhlil istiqaməti baxımından, biz öz araşdırmamız üçün ondan istifadə edə bilərik.

Bizə elə gəlir ki, Hamletin düşdüyü böhranlı psixoloji vəziyyət əslində onun Psixika şöbələri arasında keçmiş informasiyalarla bağlı yaranan rəqabətin, problemli vəziyyətin və orada reallaşan asılı olmayan psixikadaxili proseslərin nəticəsidir. Hamlet bilir və dərk edir ki, onun atasını əmisi öldürərək anasına sahib çıxıb. Bu, Hamletin Psixikasının koqnitiv şöbəsinə aid olan informasiyalardır.

Lakin qisas ala bilmir. Çünki çoxdandır ki, onun özünün anasına gizli intim meyili var idi və atası buna mane olurdu. Bu gizli qeyri-adi informasiya isə Hamlet Psixikasının ekzistensial şöbəsinə aiddir və orada qorunub saxlanılır. Göründüyü kimi, Hamlet Psixikasının şöbələrində informasiyaların müxtəlifliyi və aktivliyi baxımından rəqabət mövcuddur. Yəni Hamlet Psixikasının koqnitiv şöbəsi bilir və dərk edir ki, onun atasını əmisi öldürüb və o da əmisini öldürmək istəyir. Onun Psixikasının ekzistensial şöbəsi isə buna mane olur, çünki orada "Hamletin özünün anasına gizli intim meyili və atasının buna mane olması" informasiyası var. Yaranmış real şəraitdə Hamlet Psixikasının şöbələri və bu iki informasiya aktivdir və Hamletin davranışına güclü təsir edən asılı olmayan psixikadaxili proseslər yaradırlar.

Hamlet bəlkə də özü günlərin birində atasını öldürmək istəyəcəkdi. Artıq bunu əmisi etdi. Lakin indi əmisi onun üçün keçmiş atası statusundadır. Bütün bunlara baxmayaraq, Hamlet atasını öldürdüyü üçün əmisindən qisas almalıdır. Amma onun ekzistensial şöbəsindəki hələ atasının dövründən dərin izlər buraxmış informasiyalar ("Hamletin özünün anasına gizli intim meyili və atasının buna mane olması" informasiyaları) daimi asılı olmayan psixikadaxili proseslər yaradaraq buna imkan vermir. Yəni Hamlet özü də nə vaxtsa öz atasının ölümünü arzulamışdı. İndi əmisi bu istəyi yerinə yetirdiyi üçün Hamletin ona daxili münasibəti istər-istəməz humanistləşir və o, ondan qisas ala bilmir. Digər tərəfdən isə bu hərəkəti etməklə əmisi Hamleti daha da gülünc vəziyyətə salıb. İndi Hamlet anasına olan münasibəti uğrunda anlaşılmaz və qeyri-adi mübarizədə artıq arzuolunmaz ikinci şəxslə üz-üzədir.

Göründüyü kimi, yuxarıdakı bir-birinə əks informasiyalar Hamlet Psixikasının şöbələrində və ümumi Psixikasında mütəmadi anlaşılmaz, dərk edilməyən asılı olmayan psixikadaxili proseslər yaradaraq Hamleti çıxılmaz vəziyyətə salıb. Nəticədə, Hamlet bu prosesləri dərindən anlamır. Onun Psixikası artıq mütəmadi hal almış anlaşılmaz sarsıdıcı gərginliklər keçirir.

Burada da Hamletin Psixikasında bu böhranı yaradan əsas günahkar onun Psixikasının ekzistensial şöbəsini saymaq mümkündür. Çünki keçmiş, lazım olan və lazım olmayan informasiyaların

aktivləşməsi, meydana çıxması və bununla əlaqədar müxtəlif asılı olmayan psixikadaxili proseslərin yaranması məhz, ekzistensial şöbədən öz əsaslarını götürür.

Ekzistensial şöbənin asılı olmayan psixikadaxili proseslərin yaranması ilə əlaqələndirən ən mühüm amillərdən biri hafizənin öz fəaliyyətini oradan başlamasıdır. Biz artıq qeyd etmişik ki, əksər asılı olmayan psixikadaxili proseslərin xüsusilə də, birinci növə daxil olan proseslərin yaranması əsasən hafizə və onun qeyri-normal pozulmuş işi ilə bağlı olur. Hafizə çox mürəkkəb və incə psixikadaxili proseslər sistemidir. O, nəhəng olduğu qədər də problemli, tez pozulan iş prinsiplərinə malikdir. Ona görə Psixikadakı problemlər ilk növbədə hafizədə və yaxud əksinə, hafizədə yaranan problemlər isə ilk növbədə Psixikada böhran yaradaraq qeyri-adi anlaşılmaz asılı olmayan psixikadaxili proseslərin akivləşməsinə səbəb olurlar.

Deməli, asılı olmayan psixikadaxili proseslər Psixikada yaranır və onun iş prinsiplərindən, xüsusiyyətlərindən biridir. Asılı olmayan psixikadaxili proseslər müxtəlif formalarda və səviyyələrdə yaranaraq müxtəlif təsir dairələrinə malik olurlar. Ona görə biz onların yaranma, mövcudluq və təsir imkanlarını nəzərə alaraq təsniflədik və üç ümumi növə ayırdıq. Asılı olmayan psixikadaxili proseslər insan fəaliyyətində və davranışında dəyişikliklər, yeniliklər etmək xüsusiyyətlərinə malikdirlər.

Məlum oldu ki, asılı olmayan psixikadaxili proseslər Psixika fəaliyyətinin tərkib hissələrindən biridir. Onlar adi psixi fəaliyyət məhsullarıdır. Lakin onlar Psixikanın və insan orqanizminin fəaliyyətində müəyyən iş pozğunluqları və digər qeyri-adi problemlər yarada bilirlər. Bu baxımdan, asılı olmayan psixikadaxili proseslər Psixikanın tam və sağlam fəaliyyətində nisbilik xüsusiyyətlərinin əsaslarını qoyurlar. Yəni Psixikanın fasiləsiz nəhəng və dəqiq fəaliyyəti də bəzən nisbi mahiyyət daşıyaraq ümumi fəaliyyət qanunauyğunluqlarına tabe etdirilir. Şübhəsiz, nisbilik amilinin özü Psixikanın mövcudolma və fəaliyyət prinsiplərindən biridir.

## 6.2 PSİXİKA VƏ RUH. PSİXİ ENERJİ

Artıq insan orqanizmində yerləşən Psixika ilə tanışıq. Lakin "Psixika" anlamının məntiqi-filoloji əsasını təşkil edən, əsrlər boyu onunla birgə addımlayan bir fundamental varlıq haqqında isə indi ətraflı şəkildə danışmağa başlayırıq. **Ruh.** Bəli, istəyimizdən asılı olmayaraq "ruh" probleminə bu elmi işin əvvəlində toxuna bilməzdik. Çünki bu məsələ Psixikanı necə və harada öyrənməyimizdən asılı olmayaraq məlum elmi işin əvvəlində və sonunda da real problem olaraq qalacaqdı. Lakin gec-tez biz ruh probleminə öz həqiqi münasibətimizi bildirməliyik. Bunu isə öncədən planlaşdırdığımız vaxtda, yalnız Psixikanı insan orqanizmində müəyyənləşdirib qismən öyrəndikdən sonra edirik.

Hamımıza yaxşı məlumdur ki, ruh mövcudluq mənşəyi, mahiyyəti, forması və tərkibi bəlli olmayan bir varlıqdır. Əsrlər boyu ruhun öyrənilməsi ilə bağlı bütün yanaşmalar və elmi-metodik istiqamətlər heç bir real nəticə verməyərək iflasa uğramışdır. Deməli, ruh bizim üçün sırf fundamental bəşəri problem kimi hələ də öz hegemon dominantlığını davam etdirir.

Müasir dövrdə də ruh haqqında irəli sürülən bütün mülahizələr Hegelin XIX əsrdə dedikləri ilə və ümumiyyətlə, elmlər sistemi tarixində deyilənlərlə üst-üstə düşür **(Bax: В. Гегель. "Энциклопедия философских наук". М. 1977, Том – 3 səh. 16-34)**. Yəni müasir dövrdə də ruh haqqında yeni və sanballı heç bir elmi nailiyyət yoxdur.

Düzdür, ruh problemi ilə bağlı fizioloji inqilablar etmək istəyənlər olmuşdur. Məsələn, elektrofizioloq Ekklz belə bir suala cavab axtarmağa çalışmışdır: "Görəsən ruh əsəb sisiteminin hansı hissəsindən beynə daxil olur?". Ekklz özü də bu suala cavab verib: "Ruh yalnız sinaptik əlaqə ilə beynə daxil ola bilər". O, sinaptik əlaqəni ruhi qüvvələrin detektoru adlandırıb **(Bax: А.Р. Лурия. "Мозг человека и психические процессы" М. 1963, səh. 16-17)**.

Bütün bunlara baxmayaraq, Psixologiyanı öyrənən bəzi tədqiqatçılar, hətta bəzi ölkələr kimi biz ruh amilini rədd edə bilmərik. Onun varlığını qəbul edərək onun təyin olunmuş səviyyədə qismən

öyrənilməsi üçün belə maksimum fəaliyyət göstərmək lazımdır. Baxmayaraq ki, bu problem hələlik yalnız nəzəri mülahizələr üzərində tədqiq edilə bilər.

Ruhun mövcudluğu müasir dünyamızda və elmlər sistemində artıq qəbul olunmuş reallıqdır. Əgər ruh, ruhi proseslər olmasaydı "psixika" anlamı, Psixologiya elmi gəlib bu günümüzə qədər çıxmazdı ("psyche" sözü ruh və ruhi aləm deməkdir ). Psixikanın ruhi mahiyyətə və fəaliyyətə malik olması onun mövcudluq xüsusiyyətlərindən doğan məsələdir. Şübhəsiz, xarici aləmlə əlaqə, qavrama, hissetmə kimi ruhi mahiyyətli proseslər Psixikanın əsas fəaliyyət xüsusiyyətlərini təşkil edir. Bu cür proseslər bizim üçün gözləgörünməz və dərkedilməz halda baş verir və biz yalnız onun Psixikada real fəaliyyət nəticələrini hiss edirik. Dünyanın özü də elə bu cür prosesli mövcudluq xüsusiyyətləri ilə zəngindir. Müxtəlif aparatları işlədən müxtəlif təbiətli dalğalar, informasiyalar qəbul edən və ötürən süni kosmik peyklər və sairə kimi bu tipli texniki nailiyyətlərsiz müasir dövrdə yaşamaq çox çətindir. Psixika da məhz, bu cür gözləgörünməz və dərkedilməz mövcudluq vasitələrinin cəmləşdiyi ən nəhəng fəaliyyət imkanlarına malikdir. Psixika insan orqanizmində bu formalı yeganə orqandır. Dünyada yaranan müxtəlif təbiətli dalğa və informasiya ötürücüləri, rabitə aparatları məhz, insan Psixikasının işini əsaslandıran, onun nəhəng ruhi mahiyyətli fəaliyyətini əks etdirməyə kömək edən ilkin texniki nailiyyətlərdir.

Deməli, biz heç də Psixikanın öyrənilməsində onun ruhi mahiyyətindən qorxaraq geri çəkilməməli və yaxud bunun üçün ilk növbədə ruhun mövcud olub-olmaması probleminə həddən çox diqqət yetirməməliyik. Çünki ruhu görüb tam tədqiq etməsək də dünyada, insan orqanizmində onun mövcudluğunun, real fəaliyyət xüsusiyyətlərinin açıq şəkildə şahidi oluruq. Elə ona görə də, ruhun, ruhi fəaliyyətin insan orqanizmində mövcud olduğu yeganə subyektiv məkan olan Psixikanı öyrənməyə məcburuq.

Ruhun insan orqanizminə haradan daxil olmasından asılı olmayaraq onun daşıyıcısı, təmsilçisi, daimi əlaqə saxladığı tək və real orqan məhz, Psixikadır. Deməli, ruhun tədqiqində biz düzgün istiqamət seçmişik. Psixikanı müəyyənləşdirib tədqiq etmədən ruhun insan orqanizmində mövcudluğu və fəaliyyət xüsusiyyətləri haq-

qında danışmağa dəyməz. Yəni **ruh yalnız Psixikada və Psixika vasitəsilə öyrənilə və anlaşıla bilər.**

Ruh dinlər sistemində başqa mahiyyət daşıyır. Dinlər sistemində ruh tədqiqə və təsdiqə ehtiyacı olmayan real mövcudluq səviyyəsindədir. Ruh dinlərin fundamental mövcudluq tərkibində olan ən ali reallıq sayılır. Hansı ki, bu reallıq hələlik elmlər sistemində də öz real fundamental təsir dairəsini bir problem kimi qoruyub saxlayır.

Məlumdur ki, Psixikanın formalaşmasında ən vacib amillərdən biri də xarici informasiyalar qəbul etməsi və onlarla qarşılıqlı iş əlaqələridir. Bu proses əsasən ruhi mahiyyət daşıyır. Ümumilikdə mövcudluq formalarının qavranılması və mənimsənilməsi də bu cür baş verir. Məlum proseslərdə bizə göz, qulaq və digər orqanlar kömək etsə də, "ruhi forma" amili öz əsas hegemon xüsusiyyətlərini qoruyb saxlayır. Çünki subyektiv və obyektiv reallıqların insan Psixikasına çatdırıb onları psixi proseslərə və fəaliyyətə çevirmək üçün ruhi mahiyyətli proseslər real imkanlara malikdir. Təsəvvür edin ki, əgər ruhi formalı, mahiyyətli təsir və əlaqə vasitələri olmasaydı, Psixika necə yaranardı, necə formalaşardı?

Digər bir yanaşma. Məsələn, məlumdur ki, kar, kor və danışa bilməyən lal şəxslər müəyyən təbii problemlərlə üzləşsələr də, sağlam insanlar kimi yaşaya bilirlər. Burada bəsit bir sual yaranır. Görəsən onlar kar, kor və lal olduqları üçün xaricdən gələn informasiyaları, təsirləri necə hiss edir və onları haradan alırlar? Cavab da çox sadədir. Bu, yalnız Psixikanın ruhi formalı və mahiyətli fəaliyyəti, fasiləsiz qarşılıqlı əlaqələri ilə mümkün ola bilər. Nəticədə həmin insanlar sağlam və hətta, aktiv yaşam tərzi əldə edirlər. Məsələn, elə kar, kor və lal insanlar var ki, onlar tanınmış incəsənət xadimləri olur və dövlət vəzifələrində də çalışa bilirlər.

Burada bir mühüm məsələni də qeyd etmək istərdik. Bu da insanların bir-birlərinə olan ruhi ehtiyacları ilə bağlıdır. Insan ruhi varlıqdır. Bu baxımdan, insanların bir-birlərinə təbii ruhi ehtiyac duymaları həmişə hiss olunan zəruri proses sayıla bilər. Çünki bu formalı, mahiyyətli ruhi ehtiyacı əvəz edəcək digər real xüsusiyyətlər sistemi yoxdur. İnsanların bir-birlərinə ruhi ehtiyac hiss etmələri sırf subyektiv mahiyyət daçıyır.

İnsanların qarşılıqlı ruhi ehtiyaclara malik olmasını sübuta yetirməyə ehtiyac yoxdur. Aparılmış primitiv tədqiqatlar da təsdiq edib ki, 24 saat tənha qalmaq, artıq sağlam insanın Psixikasında müəyyən pozğunluqlar yaratmağa başlayır. Bu tənha qalma vaxtı uzanırsa, əlbəttə, Psixikada problemlərin səviyyəsi də dərinləşməyə başlayır.

İnsanların bir-birlərinə ruhi ehtiyacları əslində, onların Psixikalarının bir-birlərinə olan ehtiyacları deməkdir. Bizcə, bu, insanların insanlara yox, Psixikaların Psixikalara və ruhların ruhlara olan ehtiyacıdır. Çünki ruhi proseslərdə qarşılıqlı təsirə, enerji mübadiləsinə və yeniləşməyə ehtiyac duyurlar. Insan orqanizmi üçün bu, çox sirrli bəşəri funksiyadır. Məhz bu mürəkkəb ruhi funksiyalardan bəhrələnərək kar, kor və lal insanlar Psixikalarında informasiya qəbulu və hissetmə ilə bağlı problemlərini həll edə bilirlər. Onlar insanların bir-birlərinə ruhi ehtiyaclarından və subyektiv qarşılıqlı əlaqələrindən maksimum istifadə edirlər.

Artıq məlumdur ki, biz ruhu və ruhi prosesləri əsasən Psixikanın ekzistensial şöbəsi (sağ yarımkürə) ilə əlaqələndirmişik. Ekzistensial şöbə (sağ yarımkürə) ruhun və ruhi proseslərin ilkin olaraq əlaqə saxladığı və yerləşdiyi Psixika şöbəsidir. **Bizcə, ruh və ruhi proseslər Psixikaya məhz ekzistensial şöbə vasitəsilə daxil olurlar.** Çünki dünya oradakı mövcudluq əşyaları ilk növbədə qavranılmaq, mənimsənilmək ekzistensial şöbəyə gələrək, oradan ümumi Psixikaya keçirlər. Ruhi proseslər asılı olmayan, müstəqil qeyri-subyektiv statusa da malikdirlər. Deməli, ruhi proseslər məkanla, qeri-subyektiv obyektivliklərlə birlikdə də ekzistensial şöbəyə daxil ola bilirlər.

Artıq ruhi proseslərin ekzistensial şöbə ilə bağlılığı heç bir şübhə doğura bilməz. Bu, Psixikanın mövcudluq və ümumi fəaliyyət prinsiplərinə də uyğundur. Çüunki mövcudluq formalarının daxilində olan ruhi formaların qavranılması və mənimsənilməsi məhz ekzistensial şöbədən başlayır. Ruhun təsiri və xariclə əlaqələrinin mövcudluğu burada daha tez büruzə verilir.

Psixikanın və orqanizmin ruhi fəaliyyətini əsaslandıran, onu reallığa çevirən müəyyən hərəkətverici qüvvənin olması zəruridir. Şübhəsiz, ruhi (psixi) proseslər hərəkətverici gücü əldə etmək üçün

elə orqanizmin öz daxilində fəaliyyətə təhrik edən real daçıyıcı gücə malik olmalıdırlar. Bunu da məhz real enerji mənbələri yerinə yetirə bilərlər.

Bu baxımdan elmi və ictimai ədəbiyyatda enerji amilinə xüsusilə də "psixi enerji" termininə tez-tez rast gəlinir. **Psixi enerji ruhun real daşıyıcısı kimi mövcud ola bilər.** Tarixi elmi ədəbiyyatda və nəzəriyyələrdə psixi enerji gözəgörünməz, fövqəladətəbii ruhi qüvvə kimi qeyd edilir. Bu anlam insanın real şəraitdə fiziki və psixi gücünü göstərməyə, insan orqanizmində psixi enerjinin varlığını sübut etməyə yönəlmişdir. Onu da bir başa ruhi mahiyyət daşıyan "psixi" sözü ilə əlaqələndirmişlər. Psixika kimi, "psixi enerji" anlamı da qədim tarixə malikdir.

İlk dəfə olaraq, psixi enerji haqqında "Canlı Etika" təlimində (учение Живой Етики) yazılmışdır. Orada bu amilə müxtəlif istiqamətlərdən toxunulmuş, onun öyrənilməsi üçün səmərəli ictimai metodlar irəli sürülmüşdür. Qədim şərq fəlsəfi təlimlərində, xüsusilə də hind fəlsəfəsində psixi enerji probleminə geniş şəkildə toxunulub. "AUM", "İerarxiya", "İcma", "Yanan dünya", hindu filosofu Svami Vivekonandanın "Bxakti Yoqa" kitablarında və sairə ədəbiyyatlarda psixi enerji problemləri haqqında yazılmışdır. Müasir dövrdə də psixi enerji problemləri araşdırılır. Latviyadakı "Rerixa" cəmiyyətini buna misal göstərmək olar. Freyd də öz əsərlərində psixi enerji amilini (xüsusilə də, cinsi enerji "libido" amilini) təhlil etməyə çalışmışdır. Psixi enerji ilə bağlı bütün informasiyalar sırf fəlsəfi və təcrubi laborator əsasları olmayan nəzəri mülahizələri əhatə etmişdir.

Bis də Psixikanı tədqiq etdiyimiz üçün psixi enerji amilinə öz münasibətimizi bildirməliyik. **Bizə elə gəlir ki, psixi enerji Psixikanın daxili və xarici fəaliyyətini yaradan enerji mənbəyidir.** Psixi enerji bütün insan orqanizmində vardır. Bunu insanın bioloji inkişafında, gündəlik fəaliyyət və davranışında bəsit şəkildə müşahidə etmək mümkündür. Bu haqda **"Psixi enerji"** kitabında yazmışıq **(Bax: Ş. Dədəyev. "Psixi enerji"- Bakı, "Azərbaycan" nəşriyyatı, 1994. ).**

Deməli, psixi enerji Psixikanın enerji mənbəyidir və onun bütün fəaliyyətini əhatə edir. **Psixi enerji Psixikanın əsas hərəkətve-**

**rici qüvvəsidir.** Psixi enerji Psixikanın iş prinsiplərinə tabedir. Psixi enerji bütün orqanizmdə fəaliyyəti tənzimləmək üçün Psixika tərəfindən paylanır və idarə olunur.

Biz Psixikaya psixi enerji ümumiyyətlə, enerji mənbəyi kimi baxmaqa məcburuq. Çünki Psixikanın insanın mövcudluğu və fəaliyyəti üçün real enerji mənbəyinin olması məcburidir. İnsan orqanizminin özü də enerji mənbəyidir. Bizim orqanizmimizin normal enerjisi 36-37 dərəcədir. Əgər biz orqanizmimizin enerji dərəcəsini ölçə biliriksə, deməli, onun real enerji mənbəyi və enerji daçıyıcısı olmasını da qəbul etməliyik. Enerjinin yoxluğu Psixikanın və insanın yoxluğu deməkdir. Insan orqanizmi ölmüş halda məhz enerjisiz, psixikasız və ruhsuz bir əşyadır.

Deməli, insan orqanizmi enerji mənbəyidir. Həmin enerjinin ilkin yaranma, paylanma və tənzimlənmə mərkəzi Psixikadır. Ona görə də təbii olaraq, tarixdə bu anlam "psixi enerji" adını almışdır. Bəli, insan orqanizmindəki enerji məhz, Psixikada olan, oradan tənzimlənən və real fəaliyyətin yaradıcısı olan psixi enerjidir. Orqanizm daxilindəki enerji prosesləri Psixikanın onlarla olàn qarşılıqlı bioloji və psixi ( sinirlərlə ) əlaqələrindən yaranır. **Insan orqanizmində olan bütün hüceyrələrin ( sinir hüceyrələrinin də ) daxili tərkibində bir başa Psixikadan gələn və yaxud onunla əlaqəsi olan psixi enerji vardır. Insan orqanizmini mövcud edən, onu hərəkətə gətirən məhz hüceyrələr və onun daxilində olan məlum enerjidir.**

Psixikanın enerji daşıyıcısı və enerji mənbəyi olması amili hələ qədim tarixdən nəzərləri cəlb edib. Aristotel, Sokrat, Platon və sairə kimi, qədim filosoflar "duşanı" (Psixikanı) enerjiverici və hərəkətverici bir orqan kimi qəbul ediblər. Məsələn, Aristotel "duşa"nı (Psixikanı) bioloji, mənəvi mövcudluğun, yaşayışın əsası və forması adlandırıb. Onu hərəkəverici qüvvə kimi insan orqanizminin ayrılmaz hissəsi adlandırıb ( **Вах: Аристотел. "Книга о душе". 1975, "Мысль", Москва, Том 1, səh. 396 ).**

Müasir dövrdə tez-tez insan hüceyrələrinin genetik kodunun ümumiyyətlə, hüceyrələrin mövcudluq təbiətinin öyrənilməsi ilə bağlı senssasion açıqlamalar eşidirik. Təbii ki onların əksəriyyəti elmi reklamlara əsaslanan cəfəngiyyatdır. Çünki insan orqanizmi

daxilində olan hüceyrələri hərəkətə gətirən və işlədən əsas amil enerjidir. Hüceyrələrə bu enerjini isə bioloji mahiyyətli qidalar və Psixika verir. Ona görə də ikinci əsas daxili enerji mənbəyi olan Psixika və oradakı psixi enerji amilini nəzərə almadan, onları öyrənmədən insan orqanizmini yaşadan, hərəkətə gətirən hüceyrələri tədqiq etmək qeyri-mümkündür.

Ümumiyyətlə, insan orqanizmi iki cür enerji almaq imkanlarına malikdir. Birincisi **bioloji enerjidir**. Biz bu enerjini qida məhsullarından, təbiətdən, atmosferdən alırıq. Göründüyü kimi, bioloji enerji yalnız orqanizm xaricindən alınır. İkinci növ enerji **psixi (ruhi) enerjidir.** Biz bu enerjini Psixikadan və xarici anlamadığımız fundamental ruhi proseslərdən əldə edirik. Psixi (ruhi) enerjini həm orqanizm daxilindən, həm də xaricdən qəbul edirik.

Bu enerji növlərinin hər ikisi insan orqanizmi üçün həyati əhəmiyyət daşıyır. Məsələn, Psixika və ruh orqanizmi tərk edəndə o, məhv olur. Qida məhsulları qəbul etməyəndə də orqanizmi məhvolma gözləyir.

Burada təbii bir sual meydana çıxır. Görəsən, orqanizmi mövcud edən ilkin enerji mənbəyi hansıdır? Bu suala birbaşa cavab vermək mümkündür. Şübhəsiz, bu enerji mənbəyi təbii fundamental enerji olan psixi (ruhi) enerjidir. İnsan dünyaya doğulduqdan sonra ilkin Psixikada mövcud olan və oraya sonradan daxil olan psixi (ruhi) enerji ilkin orqanizmə mövcud olma şansı verir. Sonra isə bu enerji bioloji enerji ilə birləşərək orqanizmi hərəkətə gətirməyə və yaşatmağa başlayır. Məsələn, ilk günlərdən insan orqanizmini yaşadan hüceyrələr Psixikadan enerji almasalar canlı statusu əldə edə bilməz və geniş fəaliyyət xüsusiyyətlərinə malik ola bilməzlər. Artıq Psixikadan ilkin enerjini almış hüceyrə canlanır və sonrakı bioloji enerjidən əlavə güc alaraq fəaliyyətini formalaşdırmağa, genişləndirməyə başlayır.

Psixikanın enerjiverici və hərəkətverici xüsusiyyətləri onun ən ali fundamental funksiyalarından biridir.

Psixikanın enerjiverici və hərəkətverici xüsusiyyətləri psixobioloji və psixofiziki problemləri əhatə edir. Bu proseslər insan orqanizminin fəaliyyətini yaradır və tənzimləyir. Psixikanın enerjiverici və hərəkətverici funksiyaları baxımından nəzəri daha çox cəlb

edən psixofiziki problemlərdir. Psixikanın öyrənilməsi daxilində gələcəkdə psixofiziki problemləri ətraflı şəkildə araşdıracağıq.

Burada nəzəri cəlb edən bir ziddiyyətli problem də mövcuddur. Məlum problemin əsasını "ruh" və "enerji" anlamlarının məntiqi-filoloji baxımdan sinonimlər kimi qəbul edilməsidir. Təbii ki, burada ziddiyyətlər var. Məsələn, biz bilirik ki, əksər hallarda enerjini ruhun daşıyıcısı kimi qəbul edirlər. Sadəcə olaraq bura onu əlavə edə bilərik ki, psixi (ruhi) enerji bütün orqanizm və beyin orqanları üçün həm enerjinin özü, həm də elə enerji daşıyıcısıdır.

Ruh və psixi enerji məsələləri Psixikanın ətraflı şəkildə öyrənilməsi baxımından bizim üçün həmişə ciddi və əhəmiyyətli tədqiqat problemləri olacaqlar.

## 6.3 PSİXİKADA FƏALİYYƏT POZĞUNLUĞU. PSİXİKADAXİLİ NEYRON XƏSTƏLİKLƏRİ

Psixikanın daxili fəaliyyətinin pozulması ilə yaranan anormal davranış xüsusiyyətləri və cismani bioloji xəstəliklər qədim tarixə malikdir. İnsanlar bu cür qeyri-adi halları və xəstəlikləri diqqətlə, ciddi şəkildə izləmişlər. Sırf psixi pozğunluqlarda bu izləmə daha çox nəzərləri cəlb edib. Çünki onlar çox qəribə və qeyri-adi formalarda baş verirdi. İllər, əsrlər ötsə də, dünya öz "sifətini" dəyişsə də bu cür xəstəliklər keçmişdə də, müasir dövrdə də bir ümumi adla – ruhi xəstəliklər kimi adlandırılır. Keçmişdə də, müasir dövrdə də ruhi (psixi) xəstəliklərin müalicəsi həmişə problem olub, onların bəzilərini isə ümumiyyətlə, müalicə etmək qeyri-mümkün olub. Bu, bir daha ruhun və Psixikanın mövcudluğunu real tarixi əsaslar baxımından da təsdiqləyir.

Ruhi xəstəliklər və bununla bağlı yaranan anormal davranış xüsusiyyətləri haqqında elmi-ictimai ədəbiyyatda həddən artıq məlumatlar, tədqiqat nəticələri vardır. Ruhi xəstəliklər və bununla bağlı yaranan anormal davranış xüsusiyyətləri mövcudluq səviyyələrinə görə təsniflənmiş, ayırd edilmiş və qismən öyrənilmişdir. Cəmiyyətdə, ictimaiyyət arasında bu cür xəstəliklərə və davranışlara mü-

nasibət həmişə birmənalı şəkildə müəmmalı olmuşdur. Bu tipli xəstəliklərin əsas görünən problemi ondadır ki, onlar birbaşa insanın normal sosial davranışını pozurlar. Bu proses davam edərək getdikcə məlum fərdi şəxsiyyət kimi sıradan çıxarmağa başlayır. Nəticədə, insan mütəmadi olaraq öz sosial və psixoloji mənliyini itirməyə başlayır.

Göründüyü kimi, ayaqları və yaxud əlləri itirmək yaşamaq deməkdir. Sağlam psixoloji mənliyi itirmək isə artıq insan kimi yaşamaq deyildir. Bunun yeganə səbəbi Psixikadır. Sağlam Psixika, subyektiv mövcudluq və insan kimi sağlam yaşamaq deməkdir. Elə ruhi xəstəliklərin öyrənilməsində, müalicəsində mühüm fundamental səhvlər və nəticəsiz tədqiqatlar da Psixika amilinə diqqətsizliklə bağlıdır. İndiyə qədər deyirdik ki, ruhi xəstəliklər və bununla bağlı yaranan anormal davranış xüsusiyyətləri beynin pozğun fəaliyyəti ilə əlaqədardır. Ancaq bundan sonra deyəcəyik ki, bu cür xəstəliklər sırf psixoneyroloji xəstəliklərdir və onlar yalnız Psixika ilə, oradakı ciddi problemlərlə bağlıdır. Psixikanın daxili proseslərinin, bütöv şöbələrinin anormal pozulmuş fəaliyyəti ruhi xəstəlikləri və bununla bağlı yaranan anormal davranış xüsusiyyətləri reallaşdıran yeganə əsas səbəblərdir. Bütün psixi xəstəliklər və bununla bağlı yaranan anormal davranış xüsusiyyətləri – şizofreniya, epilepsiya, nevroz, psixoz, afaziya, aqnoziya, amneziya və sairə kimi yüngül, ağır xəstəliklərin hamısı yalnız Psixikada yaranır və oradakı fəaliyyət pozgunluğunun real nəticələri olurlar.

Deməli, biz psixi xəstəliklərə, onların mövcudluq xüsusiyyətlərinə, yaranmasına, müalicə metodlarına yeni formalarda yanaşmalıyıq. Məlum yeni formalı yanaşma Psixika və onun fəaliyyət prinsiplərinə əsaslanmalıdır. Əslində burada qeyri-adi heç bir şey yoxdur. İnsan həyatında, davranışında anormal xüsusiyyətləri, mənəvi düşkünlük və şəxsiyyətin iflası kimi halları Psixikanın fəaliyyəti daxilində təhlil etmək çətin deyil. Necə deyərlər, bu xəstəlikləri yaradanlar Psixikadadırsa deməli, onların qarşısını almaq üçün lazım olan müalicə işi yalnız Psixikanın daxilində aparılmalıdır.

Bu sahədə artıq müəyyən kliniki məlumatlar vardır. Bu tədqiqat məlumatları onu göstərir ki, beyindəki zədələnmələr nəticəsində yaranan anormal xüsusiyyətlər əslində Psixikanın fəaliyyət funksi-

yalarını əhatə edir. Məsələn, Psixika daxilində olan hafizə ilə bağlı fəaliyyət pozğunluğunu (amneziya) misal gətirmək olar. Daha ağır psixi xəstəliklər də (məsələn, şizofreniya) Psixikada kobud şəkildə yaranan cismani neyroloji pozuntularla əlaqədardır. Əksər ağır psixi xəstəliklərdə Psixikada (beyin qabığında) məlum nahiyələrdə problemlərin olmasını kliniki yolla görmək mümkündür.

Psixi xəstəliklər və bununla bağlı yaranan anormal davranış xüsusiyyətlərini müvafiq olaraq Psixikanın daxili işinə paralel formalarda müqayisə etmək mümkündür. Yəni hansı nahiyələrdəki, hansı şöbələrdəki pozğunluqların hansı növ psixi xəstəliklər və anormal davranış xüsusiyyətləri yaratmasını görüb müqayisə etmək olur. Məsələn, artıq məlumdur ki, koqnitiv şöbənin (sol yarımkürənin) zədələnməsi zehni funksiyaların pozulmasına, subyektiv sosial fəaliyyətin zəifləməsinə imkan yaradır. Koqnitiv şöbənin (sol yarımkürənin) nitq nahiyələrindəki zədələnmələr nitqin və dil xüsusiyyətlərinin birbaşa pozulmasına səbəb olur.

Bundan əlavə, disleksiya (yazı nitqində anormallıq) ekzistensial şöbədə (sağ yarımkürədə) yaranan problemlərlə bağlı olur. Məsələn, qavrama və yaddasaxlama ilə bağlı müəyyən kobud problemlər ekzistensial şöbədəki (sağ yarımkürədəki) zədələnmələrlə əlaqədardır. Bu cür misalları artırmaq mümkündür.

İnanırıq ki, bundan sonra psixi xəstəliklərin müalicəsində, tədqiqində Psixikanın mövcudluğunu, onun fəaliyyət strukturunu nəzərə almaq müsbət nailiyyətlərin qazanılmasına şərait yaradacaq. Çünki artıq bu xəstəliklərin yaranma şəraitini və yerini birbaşa görmək mümkündür. Bu baxımdan, bir çox psixi xəstəliklərin yaranma səbəblərinin qarşısını əvvəlcədən almaq mümkün ola bilər. Gəlin, psixi xəstəliklərin Psixika ilə sıx əlaqəsini və onların orada yaranma proseslərini bir az da aydınlaşdıraq.

Təcrübə göstərir ki, Psixikanın hansı nahiyəsində iş pozğunluğunun baş verməsindən asılı olmayaraq bu tezliklə insanın fəaliyyət və davranışında hiss olunmağa başlayır. Bu ilk növbədə Psixikanın ümumi işlə məşğul olması amili ilə bağlıdır. Yəni hər bir kiçik problem ümumi universal işə mane olaraq onun fəaliyyət nəticələrinə mənfi təsir göstərir. Ona görə də bu xəstəliklərin bununla bağlı yaranan anormal davranış xüsusiyyətlərini müalicəsində anlaşıl-

mazlıqlar yaranır. Lakin Psixika bu anlaşılmazlıqlara aydınlıq gətirə bilər. Bunun üçün hər bir xəstəlik, pozuntu yarandığı öz psixikadaxili məkanında dəqiq öyrənilməlidir.

Məsələn, koqnitiv şöbənin (sol yarımkürənin) zədələnməsi və oradakı təbii problemlərlə bağlı olaraq onun özünəməxsus funksiyalarının pozulmasını təsdiq edən tədqiqat nəticələri çoxdur. Oliqofreniya buna bəsit misaldır. Bu xəstəlik əksər hallarda anadangəlmə olur. Oliqofren uşaqlar üzərində aparılmış müşahidələr göstərir ki, onlar ekzistensial şöbələri ilə bağlı heç bir problemlə üzləşmirlər. Yəni onlar çətinlik çəkmədən dünyanı, oradakı əşyaları qavrayır və primitiv hafizəyə malik olurlar. Lakin bu primitiv hafizə və qavrayış məhsulları məntiqi mahiyyət kəsb edərək subyektivləşmirlər və yaxud onlarda zehni koqnitiv funksiyalar olduqca zəif olur. Deməli, oliqofreniya koqnitiv şöbənin ( sol yarımkürənin ) zəif və anormal inkişafı ilə bağlı olan xəstəlikdir. Onların həyat və fəaliyyətləri də zəif insan yaşayışını xatırladır. Bu, Psixikanın işini pozan təbii haldır.

Ekzistensial şöbədəki (sağ yarımkürədəki) zədələnmələr və oradakı təbii problemlər isə əksinə koqnitiv funksiyalara deyil, məkanı qavrama və hafizə proseslərinə mənfi təsir göstərir. Məsələn, ekzistensial şöbəsində pozuntuları və problemləri olan şəxslər rəsmləri, şəkilləri pis çəkirlər və yaxud tanış əşyaları belə tanıya bilmirlər.

Göründüyü kimi, hər hansı şöbənin anormal problemli işi Psixikanın ümumi fəaliyyətində özünü büruzə verir. Bu mənfi xüsusiyyətlər tezliklə bütün Psixikaya yayılaraq normal insan fəaliyyətinin, davranışının əsaslarını qoyurlar. Bu da bir daha onu sübuta yetirir ki, Psixika daxilində geniş qarşılıqlı əlaqə vardır və Psixika yalnız ümumi işlə məşğul olur.

Psixikada iş pozğunluğu amneziya, afaziya və aqnoziya kimi xəstəliklərdə daha aydın şəkildə hiss olunur. Bu xəstəliklər bizlərə yaxşı tanışdır. Aqnoziya görmə və tanımadakı pozuntulara, afaziya nitq və dil xüsusiyyətləri ilə bağlı anomallıqlara, amneziya isə hafizə ilə əlaqədar xəstəliklərin yaranmasına səbəb olur. Bu xəstəliklərin təhlili əyani surətdə Psixika şöbələrinin fəaliyyət funksiyalarını və onların pozuntulu problemli işlərini görməyə şərait yaradır. Bu xəstəliklər də nitqin koqnitiv şöbədə (sol yarımkürədə), hafizənin

ekzistensial şöbədə (sağ yarımkürədə) yerləşmələrini və orada fəaliyyət göstərmələrini təsdiq edir. Artıq bu tipli problemlərin ətraflı təhlilinə ehtiyac yoxdur.

Gələcəkdə, psixi (ruhi) xəstəliklərin və bununla bağlı yaranan anormal davranış xüsusiyyətlərin öyrənilməsi xüsusilə də, onların təsnifi ilə bağlı müəyyən vacib problemləri həll etmək lazım gələcək. Çünki bu tipli xəstəliklərin yaranma və mövcudolma məkanları Psixikada ətraflı şəkildə dəqiqləşdirilməlidir. Həm də psixi (ruhi) xəstəliklər və bununla bağlı yaranan anormal davranış xüsusiyyətləri yeni statusda və yeni formada təsnif edilməlidir. Təbii olaraq belə olan halda psixoterapevtik müalicə metodları fundamental müsbət dəyişikliklərə və yeniləşməyə məruz qalacaq. Psixika bu cür müalicə problemlərini həll etmək üçün lazım olan bütün təbii imkanlara malikdir.

Burada bir mühüm cəhəti qeyd etmək lazımdır. Bu da psixikadaxili neyronlarla (sinir hüceyrələri) ilə bağlıdır. Şübhəsiz, Psixikada iş pozğunluğu birbaşa orada fəaliyyət göstərən neyronların (sinir hüceyrələrinin) fəaliyyətinin pozulması deməkdir.

Deməli, psixi (ruhi) xəstəliklərin və bununla bağlı yaranan anormal davranış xüsusiyyətlərin yaranması ilk növbədə psixikadaxili neyronların iş nəticələridir. Biz yuxarıda psixi (ruhi) xəstəliklərin və bununla bağlı yaranan anormal davranış xüsusiyyətlərinin yalnız Psixikaya aid olduğunu və orada yarandığını geniş, əsaslandırılmış şəkildə təhlil etməyə çalışdıq. Bu baxımdan, psixi (ruhi) xəstəliklərə **psixikadaxili neyron (sinir hüceyrələri) xəstəlikləri** də demək mümkündür.

Yuxarıdakı yanaşma ilk anda qəribə görsənə bilər. Lakin hamımız bunu təsdiq edə bilərik ki, psixi (ruhi) xəstəliklərin və bununla bağlı yaranan anormal davranış xüsusiyyətlərin yaranma səbəbləri və mövcudluq mənbələri Psixikada fasiləsiz və daimi işləyən neyronlara (sinir hüceyrələrinə) gedib çıxır. Psixi (ruhi) xəstəliklər sırf, əsaslı formalı psixikadaxili neyron xəstəlikləridir.

Əlbəttə, psixi xəstəliklərlə cismani bioloji xəstəliklər arasında köklü fərqlər var. Onların müalicələri də müxtəlif profilaktik və təcrübi tibbi metodları əhatə edir. Cismani bioloji xəstəliklərdən fərqli olaraq psixi (ruhi)xəstəliklərlə əksər hallarda müalicə birbaşa

beyin qabığındakı (Psixika şöbələrinin qabığı) neyronlara təsir etməklə aparılır. Özü də ümumi nəticə baxımından buna sanballı və effektiv müalicə demək qeyri-mümkündür. Çünki hələlik psxikadaxili sinir hüceyrələrini (neyronları) ətraflı birbaşa müalicə etmək mümkün deyil. Ona görə də, bu zaman yalnız sinir hüceyrələrini (neyronları) sakitləşdirən, onların fəaliyyətini qismən dayandıran (yuxu ilə) dərman preparatlarından istifadə edilir. Bu amilin özü Psixikanın tam öyrənilməyə imkan verməyən qapalı, çox mürəkkəb və ziddiyyətli bir orqan olduğunu sübuta yetirir. Psixi (ruhi) xəstəliklərin müalicəsində digər əlverişli metodlar isə psixoterapevtik (psixoanalitik) seanslar və başqa fərdi müalicə vasitələridir. Gələcəkdə, Psixikanın öyrənilməsi baxımından bu metodlara yeniləri və sırf müalicəni nəzərdə tutan daha geniş vasitələr əlavə oluna bilər.

Psixi (ruhi) xəstəlikəri "**psixikadaxili neyron xəstəliklər**" kimi adlandırmaq, qəbul etmək müsbət əhəmiyyət kəsb edir. Çünki bu cür xəstəliklərin müalicə metodlarında bu xəstəlikləri yaradan "neyron" amili daim diqqət mərkəzində olacaq. Əslində bu reallığı görüb təsdiq etmək çox asandır. Sadəcə olaraq indiyə qədər sinir hüceyrələrinin (neyronların) daxili mahiyyətini, fəaliyyətini ətraflı öyrənmək mümkün olmadığı üçün onların real müalicə əhəmiyyətinə ciddi diqqət yetirilməyib. Gələcəkdə bu amilə bütün istiqamətlərdə geniş şəkildə diqqət ayırmaq lazım gələcək.

Düşünürük ki, Psixikanın ətraflı və daimi öyrənilməsi psixikadaxili neyron xəstəliklərinin də tədqiqinə və orada neyronlar üçün əsasən müalicə əhəmiyyəti daşıyan yeni metodların və dərman preparatlarının yaranmasına kömək edəcək.

## 6.4 PSİXİKANIN NİSBİ FƏALİYYƏT QANUNAUYĞUNLUĞU

Psixika ilə ətraflı tanışlıq göstərdi ki, o öz nəhəng fundamental işində müəyyən məhdudiyyətlərə məruz qalır. Bunu Psixika şöbələrinin və onların daxilində yerləşən ali idraki proseslərin fəaliyyətində də hiss etmək mümkündür. Bəsit formada Psixikanın fəaliyyətini

mütəmadi olaraq məhdudlaşdıran hallara asılı olmayan psixikadaxili prosesləri misal gətirmək olar. Hafizə üçün bu məhdudlaşdırma amilini adi unutma reallaşdırır. Psixika daxilində şüurun fəaliyyətinə məhdudiyyətlər qoyan isə əksinə hafizə olur. Ümumiyyətlə isə nə ki, şüurun, həm də Psixikanın ümumi işinə ən çox mane olan orqan məhz, hafizə olur. Şüur da öz növbəsində bütün psixikadaxili proseslərin fəaliyyətini məhdudlaşdıra bilir. Bundan əlavə, ümumi Psixika orqanizmin biofizioloji təsiri ilə bağlı müxtəlif neqativ münasibətlərə məruz qalır. Yaranmış əlverişsiz şəraitlər və informasiya qəbulu pozğunluqları da Psixikanın fəaliyyətini məhdudlaşdırır.

Göründüyü kimi, həm orqanizm daxilində Psixika, həm də Psixika daxilindəki ali idraki proseslər fəaliyyət məhdudluğuna və maneçiliyinə məruz qalırlar. Əlbəttə, bu təbii məhdudlaşdırma prosesidir. Yəni Psixika da dünyanın nisbi mövcudluq və nisbi fəaliyyət prinsiplərinə tabe olmalıdır. Bunu biz **Psixikanın nisbi fəaliyyət qanunauyğunluğu** kimi adlandıracağıq.

Psixikanın nisbi fəaliyyət qanunauyğunluğunun ən ali funksiyası Psixikanın həddən artıq geniş və aktiv fəaliyyətini nisbətən tənzimləməkdir. Tədqiqat yanaşması baxımından da bu qanunauyğunluq müsbət əhəmiyyət kəsb edir. Məsələn, nisbilik funksiyasının öyrənilməsi Psixikanın tədqiqində müəmmalı və anlaşılmaz problemlərin dəqiqləşdirilməsinə şərait yaradacaq. Yaranmış şəraitin təsirləri də məhdudlaşdırma nəzərə alınmaqla düzgün təhlil oluna bilər. Nisbi fəaliyyət amilini daim diqqətdə saxlamaq zəruridir. Bəzən dalana dirənmiş tədqiqat probleminə Psixikanın nisbi fəaliyyət qanunauyğunluğu ilə yanaşma real müsbət nəticələr verə bilər. Çünki hər bir proses və fəaliyyət amilində nisbilik mahiyyəti vardır. Əslində, problemlərin tədqiqində nisbilik qanunauyğunluğu təbii metodik vasitə olmalıdır. Psixikanın bundan sonrakı ətraflı tədqiqində məlum amil daim nəzərə alınacaq.

Psixikanın ümumi işi baxımından, nisbi fəaliyyət qanunauyğunluğu iki funksiyanı yerinə yetirir. **Birinci funksiya** Psixikanın orqanizmdə fəaliyyətini, inkişaf dinamikasını və aktivlik səviyyəsini tənzimləyir. **İkinci funksiya** isə Psixika daxilində fəaliyyət genişliyini və universallığını qoruyub saxlayır.

Birinci funksiya Psixikanın fasiləsiz yorğun fəaliyyətinin qarşısını alır. Onu dünyanın nisbi fəaliyyət amilləri ilə paralelləşdirir, qarşılıqlı əlaqə yaradır. Şübhəsiz, formalaşma və inkişaf dinamikası pozulmasın deyə, Psixika da özünün nisbi fəaliyyət qanunauyğunluğu ilə bu proseslərə cavab verməlidir. Məsələn, əgər təlqinlə hipnoz olmasaydı müəyyən psixi müalicəvi nəticələr də əldə etmək mümkün olmazdı. Digər bir misal, Psixikanın daimi, aktiv və fasiləsiz fəaliyyəti nəticəsində insanlar heç yatmaq da istəməzdilər.

İkinci funksiya Psixika daxilində universal və nisbi fəaliyyətin əsaslarını yaradır. Məsələn, əgər koqnitiv şöbə qəti olaraq nitqin tənzimlənməsini, idarə etməsini özündə saxlasaydı, onda Psixikasının koqnitiv şöbəsindəki nitq nahiyələri zədələnmiş şəxs heç vaxt nitqdən və dil xüsusiyyətlərindən istifadə edə bilməzdilər. Lakin artıq təsdiqlənmişdir ki, Psixikadakı neyronların nisbi və universal fəaliyyətləri nəticəsində koqnitiv şöbədəki zədələnmiş nitq nahiyələrinin funksiyaları müəyyən vaxt keçdikdən sonra ekzistensial şöbəyə keçə bilirlər. Bundan əlavə, biz artıq qeyd etmişik ki, müəyyən vaxt və şərait tələb olunmaqla şöbələr də bir-birlərinin ali funksiyalarını belə qismən bacarırlar.

Psixikanın neyroanatomik quruluşu da nisbilik prinsiplərinə uyğun qurulub. Aparılmış tədqiqatlar göstərib ki, beyin qabığının (Psixika şöbələrinin qabıqlarının) müəyyən hissələrini qıcıqlayanda onun təsir funksiyaları digər nahiyələrdə də hiss olunur.

Nisbilik amili Psixikanın bütün fəaliyyət xüsusiyyətlərində hiss olunur. Məsələn, nitq funksiyaları sağəllilərin Psixikalarında koqnitiv şöbədədir və oradan idarə olunur. Tədqiqatlar göstərib ki, sağəllilərin 95 %-i doğrudan da koqnitiv şöbədən (sol yarımkürədən) istifadə edərək nitqə qadir olurlar. Qalan 5%-də isə əksinə nitq funksiyaları eksiztensial şöbədə (sağ yarımkürədə) yerləşir və oradan idarə olunur (**Bax: С. Спрингер, Г. Дейч. "Левый мозг, правый мозг". М. 1983, səh. 30**). Əlbəttə, bu 5% nitqin koqnitiv şöbədəki tam funksional fəaliyyətinin nisbilik amilidir.

Bu cür istisna hallar dünyada həmişə mövcud olub. Bir əli və yaxud bir ayağı olmayan insanlar dünyada yaşayırlar. Hətta iki əli və iki ayağı olmayan insanlar da vardır. Deməli, ola bilsin ki, tibbi

inkişaf gələcəkdə bir şöbəsi olmayan Psixikaya malik insanlara da yaşamaq şansı verəcək.

Şübhəsiz, yuxarıda qeyd edilənlər insan orqanizmi üçün hərtərəfli hiss olunan çatışmazlıqlardır. Biz hər hansı predmeti, varlığı tədqiq edərkən çatışmazlıqları deyil, tamlığı nəzərdə tuturuq. Tamlığı tədqiq etdikdən sonra istisnaları, çatışmazlıqları dəqiqləşdirməyə başlayırıq. Ümumiyyətlə, həqiqi olanı odur ki, insan müəyyən bədən orqanını itirməsi ilə razılaşmayaraq özünü öldürə bilmir. Çünki onun orqanizmi və Psixikası universal və nisbi fəaliyyət xüsusiyyətlərinə malikdir. Yəni tam fəaliyyəti əsaslandıran nisbi fəaliyyət vardırsa, deməli, müəyyən bədən üzvlərini itirməklə yaranan nisbi fəaliyyəti də əsaslandıran universal tam fəaliyyətə nail olmaq mümkündür. Elə ona görə də insan, hətta kobud bədən çatışmazlıqlarına baxmayaraq insan kimi fəaliyyət göstərməyə və yaşamağa davam edir.

Burada nəzərlərimizi digər bir məsələ cəlb etdi. Bu da Psixikanın və beynin mövcudluğu baxımından bütün canlıların nisbilik nöqtəsində cəmləşməsi amilidir. İlk anda bizə elə gəlir ki, dünyada insan ən güclü Psixikaya və beynə malik canlıdır. Bu, insanların ilk günlərdən dərk etdikləri və tez-tez işlətdikləri mülahizələrdə də qeyd olunur. Son məntiqi nəticə baxımından, əslində bu belə deyildir. Bütün canlılar bir dünyada yaşayırlar, canlıların formalaşma və inkişafı baxımından eyni, yalnız özünəməxsus yaşayış şəraitinə malikdirlər. Fərq yalnız ondadır ki, insanların bacardıqlarını digər canlılar, digər canlıların bacardıqlarını isə insanlar bacara bilmirlər.

Yəqin ki, yuxarıdakı mülahizə sizə çox qəribə görsənir. Sadəcə olaraq burada ümumi məntiqi dərk cəhətdən çox diqqətli olmaq gərəkdir. Biz bu problemə hər bir canlının özünəməxsus mövcudluq və yaşayış səviyyəsini yaradan Psixikaya və beynə malik olması ideyasına tam əsaslanaraq yanaşırıq.

Biz deyirik: **bütün canlıların Psixikası və beyni eyni gücə, eyni işlək səviyyəyə malikdir. Bu onların mövcud olmaq və yaşamaq səviyyələrinə uyğundur, bu onların formalaşma, inkişaf proseslərini tam təmin edir.**

Bütün canlıların Psixika və beyin orqanları mənsub olduqları özünəməxsus və orijinal mövcudluğa xidmət edirlər. Onların bütün

fəaliyyət xüsusiyyətləri mənsub olduqları canlının həyat şəraitinin formalaşmasına və inkişafına xidmət edir. Məsələn, insan quş kimi uçmağı, pələng kimi tullanmağı bacarmır. Lakin bunun əvəzində insan kimi yaşamağı yaradan əqli subyektiv üstünlüklərə malikdir.

Digər bir misal, fəaliyyətin aktiv dinamikası və məhsuldarlığına görə qarışqa insandan qat-qat güclüdür. Ancaq şox təəssüf ki, bu orijinal fəaliyyət yalnız qarışqa həyat tərzini yaratmağa bəs edir. İnsan da çox geniş məntiqli subyektiv fəaliyyətə və davranışa malikdir. Təəssüf ki, elə bu orijinal zehni fəaliyyət də yalnız insan kimi yaşamağı yaratmağa bəs edir.

Düzdür, insanlar dünyanı qismən dəyişdirə və inkişaf etdirə bilirlər. Lakin elə bu da onların insan kimi mövcud olmaq və yaşamaq tələbatlarından doğur. Qarışqa da elə bu tələbatlara malikdir. Onlar da olduqları yerdə öz normal yaşamaqları üçün həyat səviyyələrinə uyğun lazım olan hər şeyi və hər hansı bir şəraiti yaradırlar. Qarışqalar olan yerlərdə yaranmış iş və yaşayış şəraitini hamımız dəfələrlə şahidi olmuşuq. Bu da onların dəyişdirdiyi və inkişaf etdirdiyi "qarışqa dünyasıdır". Lakin nə qarışqa insan kimi, nə də ki insan qarışqa kimi fəaliyyət göstərib yaşaya bilmirlər.

Digər bir yanaşma. İnsan heç qartal kimi uçmağı da bacarmır. Amma o, qartal kimi qismən uçmağı bacaran təyyarə yaradıb. Tamamilə qartal kimi uçan təyyarə isə hələ dünyada yoxdur. Heç ola da bilməz. Çünki qartal kimi uçmaq, pələng kimi tullanmaq, qarışqa kimi məhsuldar aktiv fəaliyyət göstərmək üçün ilk növbədə qartal, pələng, qarışqa Psixikalarına və beyinlərinə malik olmaq gərəkdir.

Yuxarıda dediklərimizdən yenə də eyni bir məntiqi anlam meydana çıxır: **bütün canlılar təkraredilməz, eyni gücə malik Psixika və beyinə malikdirlər. Bu amil bütün canlıların mövcudluq və yaşamaq səviyyələrinə uyğundur. Bu, canlıların dünyada nisbi mövcudluq qanunauyğunluğudur.**

Problemə bir az da aydınlıq gətirək. Tutaq ki, biz deyirik: insanın Psixikası, beyni aslanın və canavarın Psixika və beynindən güclüdür. Yaxşı, belə olan halda bəs niyə insan aslanın və canavarın qarşısında qorxusundan tir-tir əsir? Bu cür hallardan qorunmaq üçün, hətta insanlar vasitələr tapıb, silahlar da istehsal edib. Yəni insanlar qorunmaq üçün yaşayış səviyyələrinə uyğun olaraq müxtə-

lif tədbirlər görüblər. Təbii, aslan və canavarlar da qorxduqları zaman öz yaşayış səviyyələrinə uyğun tədbirlər görürlər. Bu halda onlardan fərqli olaraq dovşanlar qaçıb gizlənərdilər.

Görəsən, yuxarıda sadaladığımız situasiyalar baxımından, insan aslan, canavar və dovşandan nə ilə fərqləndi? Əlbəttə, son olan real məntiqi və fiziki cəhətdən heç bir şeylə. Onların hamısı yaşamaq uğrunda mübarizələrinə uyğun fəaliyyət göstərib müdafiə olunurlar. İnsan tüfənglə vurub aslanı və canavarı öldürə bilər. Əksinə, aslan və canavar da parçalamaqla insanı məhv edə bilirlər. Elə bu əməllərdə də sanballı məntiqi fərqlər yoxdur. Çünki bu cür yaşayış və mövcudluq səviyyəsini insana, aslana, canavara və dovşana onların eyni gücə malik Psixikaları və beyinləri bəxş edib.

Daha dəqiq anlam üçün başqa bir misal. Göyərçinlərin əksəriyyəti köçəri həyat tərzi keçirir. Məsələn, göyərçin artıq soyumuş Avropadan isti şərq ölkələrinə uçub gəlirlər. Təbii olaraq insan istədiyi halda belə bu uçuşlu gəlişi həyata keçirə bilməz. Lakin o, bu uçuşu həyata keçirmək üçün icad etdiyi təyyarədən istifadə edir. Göyərçinlərə isə onlara fəaliyyət baxımından primitiv görsənən bu təyyarə köməyi lazım deyil. Çünki onlar bu məsafəni ürəkləri istədikləri formada və lazım olan yerdə lazımi enişlərlə qət edirlər. Onlar bu işləri daha sanballı və daha azad bacarırlar. Yəni onlara bu işdə eniş, uçuş üçün xüsusi aeroportlar, xüsusi eniş zolaqları və çoxlu maliyyə sərfi tələb edən təhlükəsizlik sitemi lazım deyil.

İndi isə göyərçinlə insan Psixikası və beyni arasında olan sanballı fərqi tapaq. Bu situasiyada insanla göyərçin arasında fərq yalnız məqsədə çatmaq vasitələrində oldu. **Yəni Psixika və beyin öz canlı sahibinə qulluq baxımından müxtəlif formalarda fəaliyyət göstərsələr də, onların həyat tərzinə uyğun, ayrı-ayrılıqda heç birinin bacarmadığı eyni gücü və səviyyəni nümayiş etdirdilər.** Bu yanaşmanı tək Psixikaya da aid etmək mümkündür. Çünki insan orqanizmini və beynini son anda idarə edən və tənzimləyən məhz Psixikadır. Deməli, biz bu formada da deyə bilərik: **bütün canlıların Psixikaları son məntiqi nəticə baxımından eyni gücə və səviyyəyə malikdirlər.**

Yuxarıda nəzərdən keçirdiyimiz bütün misallardan və təhlillərdən görünür ki, məlum proseslər, reallıqlar dünyada canlıların möv-

cudluq xüsusiyyətlərində, yaşam tərzlərində nisbilik amilini yaradır. Bunun da əsasını insan orqanizmini və beynini idarə edən, tənzimləyən Psixikanın nisbi fəaliyyət qanunauyğunluğu təşkil edir.

Psixikanın nisbi fəaliyyət qanunauyğunluğu dünyada bütün canlıların normal və problemsiz yaşamalarını təmin edir. Əgər belə olmasaydı canlılar bir-birlərini məhv edərdilər. Yaxşı ki, insan qartal kimi uça bilmir və yaxud aslan insan kimi məntiqli subyektiv Psixikaya malik deyil. Təsəvvür edin dünyada nələr baş verərdi. Yaxşı ki, hər bir canlı Psixikası elə onun öz mövcudluğuna və yaşam tərzinə qulluq edir. Bu halda Psixika nisbi fəaliyyət qanunauyğunluqlarına tabe olaraq çərçivədən qırağa çıxa bilmir. Çünki o, bu çərçivədən qırağa çıxsa, digər canlıların yaşamaq hüquqlarını pozaraq onlara kobud şəkildə mane ola bilər. Bu, yalnız hər bir canlının mövcudluğunu və fəaliyyətini məhdudlaşdıran nisbilik möhürüdür, nisbilik qanunauyğunluğudur.

# 7. PSİXİKADA YAŞAMAQ XÜSUSİYYƏTLƏRİNİN HAZIRLANMASI. PSİXİKANIN TƏRİFİ

## 7.1 PSİXİKA VƏ YAŞAMAQ

Psixikanın insan orqanizmində yerini, daxili strukturunu, orada psixi proseslərin yaranmasını və ümumi fəaliyyət dairəsini təhlil edib dəqiqləşdirdikdən sonra Psixikanın insan həyatında, sosial yaşam tərzində tutduğu hegemon, geniş mövqeyi araşdırılmalıdır. Əlbəttə, bu tipli proseslər insan kimi yaşamaq məfhumunda cəmləşir. Demək olar ki, Psixikanın ən fundamental bəşəri funksiyası insan kimi yaşamaq xüsusiyyətlərini hazırlamaq, tam yaratmaq funksiyasıdır. Elə ona görə də, artıq Psixikada bu tipli problemləri araşdırmağın vaxtı gəlib çatdı. Bu fəsildə Psixikada yaşamaq məfhumunun məntiqi formada hazırlanmasını, insan kimi yaşamaq xüsusiyyətlərinin yaranmasını, bu cür halların formalaşmasının yaş dövrləri ilə əlaqəli olan mərhəli proseslərini və digər vacib problemləri təhlil edəcəyik.

Burada əsas məqsəd Psixikanın insan həyatında, sosial fəaliyyətində rolunu, fundamental xüsusiyyətlərini, əhəmiyyətini müəyyənləşdirib təhlil etməkdir. Əslində, bu tipli problemlər metodik yanaşma formasında Psixikanın ətraflı və sanballı öyrənilməsini əhatə edir. Xatırlayırsınızsa biz Psixikanı ətraflı şəkildə tədqiq etmək üçün beş əsas metodik xüsusiyyətlər sistemini ayırd etmişdik (Bax: bu elmi iş daxilində. **"Psixikanı öyrənmənin metodik xüsusiyyətləri"**). Onlardan biri də məhz, Psixikada yaşamaq məfhumu, insan kimi yaşamaq və cinsi mövcudluq xüsusiyyətlərini əhatə edən problemlər sisteminin öyrənilməsi istiqaməti idi.

Yaşamaq və bununla bağlı problemlər sisteminin öyrənilməsi Psixikanın ətraflı öyrənilməsində də mühüm əhəmiyyət kəsb edir. İnsan orqanizmində Psixikasının mövcudluğu və onun real fəaliyyəti yaşamaq məfhumu baxımından da öz təsdiqini tapmalıdır. Yəni Psixikanın insan Psixikasına çevrilməsi üçün orada subyektiv yaşamaq xüsusiyyətlərinin yaranması prosesləri ətraflı tədqiq edilməlidir. Ona görə də Psixikada yaşamaq məfhumunun öyrənilməsi və orada yaşamaq xüsusiyyətlərinin hazırlanması prosesləri

əslində elə birbaşa Psixikanın insan həyatında tutduğu hegemon mövqeyinə və təsdiqinə yönəldilib. Burada digər problemlərə də toxunula bilər. Psixikanın insan orqanizmində müəyyənləşdirilməsində və öyrənilməsində qaranlıq qalmış bir çox mühüm subyektiv və sosial problemlər burada öz həllini tapacaqdır.

Məlumdur ki, Psixika mövcud olmağa və yaşamağa xidmət edir. Tam formalaşmış Psixika tam formalaşmış yaşamağı yaradır. Bu zaman Psixikada yaşamaq xüsusiyyətlərinin formalaşması paralel olaraq təbii prosesləri və əlverişli şərait tələb edir. Bu baxımdan, Psixikanın və "yaşamaq" amilinin formalaşması, yaranması paralel və eyni tərkib hissəli proseslər sisteminin daxilindədir. Bütün bunları nəzərə alaraq aşağıdakı ümumi suallara ətraflı cavab axtarmağa çalışaq.

**Psixikada yaşamaq xüsusiyyətləri necə hazırlanır? İnsan kimi mövcud olmağın, yaşamağın yaranması üçün hansı əsas psixikadaxili proseslər baş verir? Yaşamaq xüsusiyyətlərinin yaranması Psixika şöbələrinin qarşılqlı təsir və əlaqələri fonunda necə tənzimlənir? Bu proseslərdə məlum şöbələr hansı fundamental funksiyaları yerinə yetirirlər? Psixikanın sosiallaşması və yaşamaq uğrunda mübarizənin sosial-psixoloji əsasları necə yaranır? Psixikada ümumi şəkildə yaşamaq məfhumunun tam hazırlanması, insan kimi yaşamaq xüsusiyyətlərinin tam formalaşması hansı yaş mərhələlərini əhatə edir?**

Öncə onu qeyd edək ki, istər tarixi, istərsə də müasir tarixi elmlər sistemində yaşamaq və onu əhatə edən problemlər sistemi əsasən fəlsəfi mahiyyətli məsələlər kimi mövcud olub. Təbii olaraq biz heç vaxt "fəlsəfə" tərəfinə getməyəcəyik. Belə olan halda sırf ziddiyyətli fəlsəfi mənəviyyatda və sonsuz mülahizələr sistemində itib-batarıq. Psixikanın öyrənilməsi baxımından isə yaşamaq amili bizim üçün daha real təcrübi mahiyyət daşıyır. Biz bu problemə həqiqi yaranma və formalaşma əsasları olan psixikadaxili proseslər sistemi kimi baxırıq. Biz istəmirik fundamental fəlsəfədə olduğu kimi, bizim də dərk edilə bilən və dərk edilə bilməyən, qəbul olunan və qəbul olunmayan ziddiyyətli metodik istinad nöqtələrimiz olsun. Çünki bizim artıq real, yeganə tədqiqat və istinad nöqtəmiz vardır. Bu Psixikadır.

Deməli, bütün sırf fəlsəfi, yorucu və nəzəri mülahizələri rədd edərək yaşamaq məfhumunun təhlilini və yaşamaq xüsusiyyətləri-

nin hazırlanması proseslərinin tədqiqini yalnız Psixika daxilində aparacağıq. Bütün yaşamaq xüsusiyyətləri və əsas proseslər sistemi Psixikaya məxsusdur, orada yaranırlar. Şübhəsiz, Psixika insanın yaşamaq xüsusiyyətlərini, onun yaranma əsaslarını təhlil etmək üçün real şəraitə və imkanlara malikdir. Biz yalnız Psixikada yaşamağın yaranma və inkişaf xüsusiyyətlərinin araşdırılması üçün ümumi bioloji, psixoloji və sosial imkanlar əldə edə bilərik. Mövcud olmağın və yaşamağın fundamental formalaşma və inkişaf qanunauyğunluqları da Psixikada cəmləşir.

Bu baxımdan, Psixika elmlər sistemi və fəlsəfə üçün ziddiyyətli məsələlərdən biri olan "yaşamaq" problemini qismən aydınlaşdıraraq təhlil edə, təbii elmi yanaşma ilə adiləşdirə bilər. Ümumiyyətlə, yaşamaq problemləri ilə bağlı olan qeyri-adekvat və utopik fəlsəfi nəzəriyyələrin, onların mənfi elmi təsirlərinin qarşısını yalnız Psixika ala bilər.

Məlum oldu ki, yaşamaq və onu əhatə edən bütün proseslər yalnız Psixikada öyrənilməlidir. Bu çox müsbət haldır ki, yaşamaq və onunla bağlı problemləri tədqiq etmək üçün real mənbəyə, istinad nöqtələrinə və əlverişli imkanları olan metodik şəraitə malikik. İndi biz, bu mənbə və imkanlardan maksimum istifadə edərək yaşamaq xüsusiyyətlərinin hazırlanması, insan həyatının yaranması, Psixikanın sosiallaşması və bununla bağlı digər problemləri ətraflı şəkildə araşdırmağa çalışmalıyıq. Bunun üçün öncə sizə, "yaşamağın" Psixikada hazırlanması ilə əlaqədar olan qısa nəticəli ümumi yanaşmanı problemə giriş kimi təqdim edirik. Ümumi yanaşmadan sonra problemləri ayrı-ayrılıqda təhlil edərək Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının mərhəli proseslərini tədqiq edəcəyik.

**Ümumi yanaşma:** İnsan yaşamaq üçün ilk növbədə özünü və ətrafdakı mövcud dünyanı anlamalıdır. İnsan mövcudluğu qavramalı, onu dərk etməli, öz məntiqli subyektiv fəaliyyətini yaratmalıdır. Yaşamağın ilkin vacib şərtləri məhz, qeyd etdiyimiz amillərdir. Yəni o, həm mövcud olmalı, həm də ağıl əldə edərək subyektivləşməlidir. Bu tipli fəaliyyət proseslərini və ondan doğan nəticə məhsullarını yalnız Psixika gerçəkləşdirə bilər. Psixikanın daxilində yerləşən şöbələrdən biri – ekzistensial şöbə (sağ yarımkürə) insan üçün dünyanı, oradakı əşyaları Psixikaya gətirir, orada əks etdirir və onları primitiv hafizə formasına salır. Psixikanın digər şöbəsi –

koqnitiv şöbə (sol yarımkürə) isə insan üçün dünyanı, mövcudluğu anlayıb dərk edərək onları məntiqli subyektiv fəaliyyət üçün reallaşdırır. Yaşamağı yaradan fundamental proseslərin tam hazırlanması üçün bu şöbələr arasında nəhəng qarşılıqlı əlaqələr baş verməlidir. Bu işi isə Psixikanın üçuncu şöbəsi olan qarşılıqlı əlaqə zonası (QƏZ) həyata keçirir. QƏZ-in daimi aktiv qarşılıqlı əlaqələndirici fəaliyyəti ilə yaşamaq xüsusiyyətləri formalaşmağa başlayır.

Bütün bu proseslərin nəticəsində insan yaşamaq üçün dünyanı həm qavrayır, yadda saxlayır (ekzistensial şöbə sağ yarımkürə), həm də anlayıb dərk edir (koqnitiv şöbə sol yarımkürə). Qarşılıqlı fasiləsiz əlaqələr (QƏZ vasitəsilə) nəticəsində insan getdikcə subyektiv yaşamaq statusu əldə edir.

Bu qısa nəticəli ümumi yanaşmanı Psixikaya və onun daxili strukturuna uyğun olaraq xüsusi şəkil-sxemdə təsvir edə bilərik **(Bax: şəkil - 16)**. İndi isə məlum ümumi yanaşmanı Psixika və onun fəaliyyətinə uyğun daha ətraflı formalarda araşdırmağa başlayaq.

**Psixika**




**Şəkil – 16. Psixika – yaşamaq (ümumi forma)**

## 7.2 İLKİN İNSTİNKTLƏR

İstər Psixikanın formalaşması, istərsə də orada yaşamaq xüsusiyyətlərinin yaranması ilkin təhrikedici amillərin mövcudluğunu tələb edir. Şübhəsiz, müəyyən bir prosesin yaranması üçün stimullaşdırıcı mənbə, ixtiyari və qeyri-ixtiyari təhrikedici amillərin olması məcburidir.

Elmlər sistemində yaşamaq, ona meyilin haradan və necə yaranması haqqında çoxlu ictimai, fəlsəfi nəzəriyyələr vardır. Sonralar bu sahədə sosial-psixoloji mülahizələrin də sayı artmağa başladı. Tarixi-elmi təcrübə göstrərir ki, yaşamağa olan meyili, onun yaranma xüsusiyyətlərini daha çox qeyri-ixtiyari təhrikedici amillərin varlığı ilə əlaqələndirirlər. Məsələn, məlumdur ki, Freyd bu haqda çox orijinal mülahizələrlə çıxış edib. O, insanın yaşamağa meyilini "eros" (yaşamaq instinkti) instinkti ilə əlaqələndirib. Həmişəki kimi Freyd bu instinkti birbaşa insanın cinsi həyatına bağlayırdı. Onun irəli sürdüyü "tanatos" (ölüm instinkti) instinkti də çox maraqlıdır. Yaşamaq və onu əhatə edən proseslər çox mürəkkəb, müəmmalı problemləri əhatə etdiyindən Freyd yaşamağa olan təhrikedici amilləri əsasən şüursuzluq halları kimi qəbul edirdi.

Şübhəsiz, yaşamaq amili asılı olmayan, dərk edilməyən proseslərlə zəngindir. Bu proseslərin niyə bu cür mürəkkəb və ziddiyyətli olması isə hamımıza yaxşı bəllidir.

Təhrikedici proseslər dedikdə instinkt, meyil və tələbat kimi amillər nəzərdə tutulur. Biz də, Psixikada yaşamaq xüsusiyyətlərinin öyrənilməsində instinkt, meyil və tələbat kimi anlamlardan, fəaliyyət, davranış və sosiallaşma kimi elmi terminlərdən istifadə edəcəyik. Lakin onları yeni formalarda Psixikaya və onun daxili fəaliyyətinə uyğun təhlil edəcəyik.

Yaşamaq xüsusiyyətlərinin Psixikada hazırlanması və yaranması baxımından da nəzəri cəlb edən ilkin proseslər instinktlər və meyillərlə əlaqədardır.

Məlumdur ki, instinktlər ilk və ən fundamental təhrikedici xüsusiyyətlərə malikdir. İlk növbədə bizi maraqlandıran da Psixika daxilində "instinkt" funksiyalarını yerinə yetirən fundamental təhrikedici amillərdir. Biz instinktlərə adi psixikadaxili proseslər kimi

baxacağıq. Onların hansı mövcudluq statuslarında durmalarından asılı olmayaraq instinktlər yaşamaq xüsusiyyətlərini formalaşdıran, yaradan ilkin sindromlar kimi öyrəniləcək.

Psixikada instinktlərin və onların təhrikedici funksiyalarının yaranması üçün əlverişli şərait tələb olunur. Məsələn, insanın doğulduqdan sonra lazım olan subyektiv məkanda, insanlar arasında olması zəruridir. Belə olduqda ilkin psixikadaxili instinktlərin fəaliyyəti də həmin subyektiv sahəyə yönəlir. Burada hər hansı təbii şəraitə uyğun olaraq qeyri-ixtiyari formalarda instinktlər yaranmağa başlayır.

Deməli, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması və bununla bağlı olan proseslərin yaranması üçün təhrikedici amillər kimi mövcud olan iki cür ümumi instinktlər vardır. Bu instinktlər müvafiq olaraq Psixikanın şöbələrinə və ümumi psixikadaxili iş funksiyalarına xidmət edirlər.

**Birinci növ instinktlər dünyanı, oradakı mövcud əşyaları qavramağa, yadda saxlamağa xidmət edən ilkin instinktlərdir.** Bu tipli instinktlər şübhəsiz, Psixikanın ekzistensial şöbəsində yerləşirlər. Məlum instinktlər Psixikada dünyanı, mövcudluğu yaratdıqları üçün onları **ekzistensial (mövcudluq) instinktlər** adlandıracağıq.

**İkinci növ instinktlər dünyanı, oradakı mövcud əşyaları anlayıb dərk etməyə xidmət edən ilkin instinktlərdir.** Bu tipli instinktlər isə şübhəsiz, Psixikanın koqnitiv şöbəsində yerləşirlər. Məlum instinktlər Psixikada dünyanı, mövcudluğu dərk edib subyektivləşdirmə işləri ilə məşğul olduqları üçün onları **koqnitiv (subyektiv) instinktlər** adalandıracağıq.

Bu iki tipli instinktlər Psixikada daxili iş funksiyalarına uyğun olaraq qarşılıqlı əlaqələrin köməyi ilə yaşamaq xüsusiyyətlərini yaratmaq üçün real təhrikedici prosesləri həyata keçirirlər. Əslində bu tipli təhrik prosesləri də adi psixi proseslərin yaranma sxemi üzrə baş verir. Ona görə demək mümkündür ki, instinktlər təhrikedici proseslər kimi məhz, adi psixi proseslərin daxilinə keçirlər. Elə bunun üçün də instinktlər əsasən hiss olunmayan, qeyri-ixtiyari mövcudluq mahiyyətinə malik olurlar. İnstinktlərin adi psixi proseslərin daxilinə

keçmələri təbiidir və bu, Psixikanın yaşamağa meyillə bağlı primitiv iş prinsiplərinə xidmət edən qanunauyğun hal ola bilər.

Psixikanın və onun şöbələrinin formalaşması ilə yaranan ekzistensial (mövcudluq) və koqnitiv (subyektiv) instinktlərin təhrikedici fəaliyyətləri nəticəsində Psixikada yaşamağa olan ilkin **meyillər** yaranmağa başlayır. Biz "yaşamaq instinkti" yox, məhz **"yaşamağa olan meyil"** kəlamını işlədəcəyik. "Yaşamaq" artıq primitiv instinkt demək deyildir. Yaşamağın yaranma bünövrəsini əsaslandıran, ona meyili yaradan instinktlər ola bilər. Ona görə "yaşamaq instinkti" daha məntiqsiz və qəbuledilməz anlayışdır. Həm də bu tipli proseslər ilkin hiss olunmayan qapalı proseslər kimi mövcud olurlar. Biz yalnız yaşamağa olan real meyilləri hiss edə bilirik. Bu da çox mürəkkəb mərhəli psixikadaxili proseslərdən sonra yaranır.

Psixika daxilində instinktlərin yaranması da mürəkkəb fasiləsiz prosesləri əhatə edir. Burada biofizioloji və genetik proseslər də mövcuddur. Bundan əlavə, yaşamaq amili xarici aləm və sosial münasibətlər sistemi ilə sıx əlaqəli olduğundan onun yaranma dinamikasındakı mürəkkəbliyi təsəvvür etmək çətin deyil.

Ekzistensial (mövcudluq) və koqnitiv (subyektiv) instinktlər ilkin bəşəri instinktlərdir. İnsan Psixikasının və insan kimi yaşamağın bünövrəsi bu təhrikedici proseslərin üzərində qurulub. İnsan dünyaya göz açan kimi onun psixikadaxili orqanları məhz, ekzistensial (mövcudluq) və koqnitiv (subyektiv) instinktləri yaratmağa başlayırlar. Burada genetik əsaslar da instinktlərin yaranmasında hər bir canlıya uyğun real xüsusiyyətlərə malik olurlar. Məlum fərd elə yaşamaq xüsusiyyətlərində də genetik əsaslarını, oxşarlıqlarını qoruyub saxlaya bilir və yaxud onların bəziləri dəyişikliyə və yeniləşməyə uğrayır. Sonrakı proseslər formalaşma, inkişaf prinsiplərinə uyğun olaraq mövcudlaşmanı, subyektivləşməni yaşamağa olan meyillərin və real xüsusiyyətlərin daxilinə salır. Nəticədə, insan yaşamağa və hətta yaşamaq uğrunda mübarizə metodlarına yiyələnir.

## 7.3 PSİXİKADA YAŞAMAQ XÜSUSİYYƏTLƏRİNİN HAZIRLANMASI MƏRHƏLƏLƏRİ

Beləliklə, insan doğulduqdan sonra onun Psixikası öz şöbələrinə uyğun olaraq ekzistensial (mövcudluq) və koqnitiv (subyektiv) instinktlərin köməyi ilə yaşamaq xüsusiyyətlərinə olan meyilləri formalaşdırmağa başlayırlar. İlkin yaşamağa olan meyillərin və subyektiv sindromların əsasları qoyulur. Bir daha qeyd edirik ki, bu proseslər də Psixikanın daxili iş prinsiplərinə və psixi proseslərin yaranma formalarına uyğun baş verir.

Mövcud olmaq xüsusiyyətləri öz instinktiv əsaslarını ekzistensial şöbədən (sağ yarımkürədən), dərketmə və subyektivləşmə xüsusiyyətləri isə öz instinktiv əsaslarını koqnitiv şöbədən (sol yarımkürədən) götürürlər. Psixikanın şöbələri arasında olan bu ilkin instinktli qarşılıqlı əlaqələr və təsirlər nəticəsində ilkin yaşamaq sindromları olan – yaşamağa ilkin psixikadaxili meyil yaranır. İlk dövrlərdə yaşamağa olan bu ilkin psixikadaxili meyil elə Psixikada qalaraq xarici fəaliyyətdə o qədər də hiss olunmur. Çünki bu iş nəticələrinin xaricə çıxması və sosial fəaliyyətdə büruzə verilməsi üçün digər mürəkkəb proseslərin baş verməsi lazımdır. Məlum tipli proseslərdə isə artıq Psixikanın sosiallaşmasının əsasları qoyulur. Daha mürəkkəb sosial tələbatlar və münasibətlər sistemi formalaşır. Yaşamaq uğrunda mənəvi və sosial mübarizə metodları yaranır, getdikcə bu proseslər mürəkkəb, geniş sosial şəraitə uyğun aşınır, zənginləşir.

Bütün bunlar, Psixikada insan kimi yaşamaq və formalaşmaq prinsiplərindən doğan zəruri qanunauyğunluqlardır. Ona görə insan kimi yaşamaq və formalşamaq prinsiplərini, qanunauyğunluqlarını ətraflı şəkildə öyrənmək üçün Psixikada yaşamaq xüsusiyyətlərinin yaranma proseslərini mərhəli formada, yaş dövrlərinə uyğun tədqiq edəcəyik. Bu mərhəli öyrənmə metodu çox mühüm əhəmiyyət kəsb edir. Məlum mərhəli metodik yanaşmanın köməyi ilə insanın ilkin formalaşma, inkişaf xüsusiyyətləri, yaşamaq amilinin psixoloji, bioloji və sosial mahiyyəti ətraflı öyrənilə bilər. Yəni orada yaşamaq amili ilə bağlı bütün psixikadaxili xüsusiyyətlər, prinsiplər və qanunauyğunluqlar sistemi nəzərə alınır.

Heyvanların Psixikaları da iki növ ilkin instinktlərə malikdir. Birinci növ instinktlər ekzistensial (mövcudluq) instinktləridir. İkinci növ instinktlər isə heyvan həyatını, yaşayış tərzini tənzimləyən, idarə edən daha aktiv instinktlərdir. İnsan və heyvan Psixikalarının daxili psixoloji və bioloji strukturu eyni formadadır. Onların fəaliyyəti də son nəticə baxımından üst-üstə düşür. Deməli, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması baxımından da insan və heyvan Psixikaları eyni instinktlərə, meyillərə və fəaliyyət dinamikasına malikdirlər. Burada yalnız psixikadaxili proseslər baxımından və mahiyyətcə köklü fərqlər var. Heyvanlar da Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələlərini keçirlər.

Biz sizə yaşamaq xüsusiyyətlərinin yaranma proseslərini mərhəli formada, yaş dövrlərinə uyğun tədqiqini və orada yaşamağın tam formalaşmasını təsvir edən mərhəli blok sxemi təqdim edirik **(Bax: şəkil 17).** Xatırlayırsınızsa, şəkil 16-da sizə bu prosesləri təsvir edən ümumi primitiv şəkil-sxem təqdim olunmuşdu.

## Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələləri




**Şəkil – 17. Pxixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələlərinin sxematik təsviri.**

Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələlərini əhatə edən yaş dövrləri müəyyən fərdlər üçün və ümumilikdə müəyyən təxmini problemlər yarada bilər. Ona görə bu yaş dövrləri dəfələrlə nəzərdən keşirilərək, təcrübə və müşahidələrə əsaslanaraq maksimum şəkildə dəqiqləşdirilib. Hər halda burada müəyyən təbii problemlər var ki, onsuz da onların nisbiliyi və istisnalıqları mövcud ola bilər. Məsələn, məlumdur ki, ümumi inkişaf, cinsi yetkinlik qız və oğlanlarda müxtəlif formalarda baş verir. Adətən, qızlar oğlanlara nisbətən daha tez inkişafa, cinsi yetkinliyə çatırlar. Bu problem də bu yaş dövrlərinin müəyyən edilməsində nəzərə alınıb.

Bundan əlavə, elə fərdlər var ki, onların Psixikalarında nəzərdən keçirdiyimiz mərhələlər müəyyən vaxtda gecikə və yaxud tezləşə bilir. Bu cür problemlər anadangəlmə qüsurlarla da əlaqəli ola bilər. Bütün bunlar istisna hallardır və onlar tamlığa, ümumi yanaşmaya yüksək mənfi təsir göstərə bilməzlər. Nisbilik və istisnalıq yaradan məlum tipli bütün incə problemlər yaş mərhələləri müəyyənləşdirilərkən nəzərə alınıb.

İndi isə aşağıda məlum sxem üzrə Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələlərini ayrı-ayrılıqda təhlil edək.

### 7.3.1 Birinci mərhələ: yaşamağa olan ilkin psixikadaxili meyillərin yaranması (0-3 yaşlar)

Artıq bu mərhələ ilə qismən tanışıq. Məlum yaş mərhələsində baş verən proseslər də bizlərə yaxşı bəllidir. Bu mərhələni Psixikada yaşamaq xüsusiyyətlərinin yaranmasının bünövrə mərhələsi də adlandırmaq mümkündür. Bu bünövrə əsasında insan kimi yaşamaq xüsusiyyətləri formalaşmağa başlayır. Məlum bünövrənin üzərində ilkin ekzistensial (mövcudluq) və koqnitiv (subyektiv) instinktlərin köməyi ilə "yaşamaq" adlı bir "bina" tikiləcək. Bu "bina"nın tərkib hissəsini formalaşdıran proseslər mərhəli sxemdə təsvir olunanlar təşkil edir (Bax: şəkil 17).

Birinci mərhələdə yaşamağa olan ilkin psixikadaxili meyil yaranır və bu proses təxminən üç yaşına qədər olan dövrü əhatə edir.

Məlumdur ki, uşaq bu dövr daxilində öz "mən"ini tapır, məlum tipli prosesləri anlamağa başlayır. Üç yaşı əhatə edən böhran da bununla əlaqədar olur. Əslində bu böhran yüksək və dinamik inkişafın real mənfi nəticəsi kimi meydana çıxır. Hər halda bu vaxt yaranan "mən" insan üçün ilkin fundamental mahiyyət daşıyır. Bu yaşamağa olan ilkin və həm də artıq xaricdə də hiss olunan real psixikadaxili meyildir.

Üç yaş böhranını yaşamağa olan instinktlərlə və meyillərlə bağlı psixikadaxili böhran da adlandırmaq mümkündür. Məlum böhran Psixikada yaşmaq xüsusiyyətlərinin bünövrəsinin qoyulması ilə birbaşa əlaqəli olan təbii böhrandır.

Əgər körpə doğulduğu gündən normal ekzistensial və subyektiv mühitə düşürsə o, sağlam şəkildə formalaşan Psixikaya malik olmağa başlayır. Özü də bu proseslər paralel olaraq ekzistensial və subyektiv şəraitin qarşılqlı təbii əlaqələri fonunda baş verməlidir. Bu proseslərin paralelliyinin pozulması tezliklə Psixikada da yaşamaq xüsusiyyətlərində mənfi nəticələr yaratmağa başlayır.

Bünövrə mərhələsi olan birinci mərhələdə ilkin təhrikedici instinktlər arasında müəyyən dominantlıq mövqeyi nəzəri cəlb edir. Bu dominantlıq ilkin ekzistensial (mövcudluq) instinktlərinə məxsusdur. İlkin formalaşma dövrü üçün dünyanı və mövcudluğu qavrama, onları Psixikaya gətirmə daha aktiv geniş fəaliyyət tələb edir. Ümumiyyətlə, yeni doğulmuş körpə Psixikası əsasən ətraf aləmi, mövcud əşyaları qavrama və onlara reaksiyavermə prosesləri ilə məşğul olur. Deməli, istəyimizdən asılı olmayaraq ekzistensial (mövcudluq) instinktləri daha aktiv və geniş formalarda fəaliyyətə başlayırlar. Burada ümumi ekzistensial şöbənin işi önə keçir. Üstəlik fundamental və qeyri-subyektiv ruhi proseslərlə əlaqələrin olması bu ekzistensial fəaliyyəti daha da intensivləşdirir. Nəticədə, canlı kimi mövcud olmaq funksiyaları ekzistensial şöbədən başladığı üçün onun yaşamaq xüsusiyyətlərinin formalaşmasında da ilkin hegemon və dominant rol ekzistensial (mövcudluq) instinktlərinə məxsus olur. Sonralar bu dominantlıq Psixikanın ümumi geniş fəaliyyətində neytrallaşır.

Biz birinci mərhələyə "bünövrə mərhələsi", orada aktiv fəaliyyət göstərən ilkin ekzistensial (mövcudluq) və koqnitiv (subyektiv)

instinktlərə isə bünövrə instinktləri deyə bilərik. Bu mərhələ Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması proseslərini fundamental əsaslarını qoyur.

Birinci mərhələdə baş verən proseslər bizə bəlli olan primitiv xüsusiyyətləri əhatə etdiyindən onların əksəriyyətinə bir daha ətraflı toxunmadıq.

### 7.3.2 İkinci mərhələ: yaşamaq uğrunda mübarizə xüsusiyyətlərinin yaranması (4-9 yaşlar)

Bu mərhələ 3-10 yaşlarını, tam cinsi yetkinliyin yaranmasına qədər olan dövrü əhatə edir. Yəni burada uşaqların özünü psixoloji və bioloji baxımdan "qız" və "oğlan" kimi hiss etməsinə qədər olan dövr nəzərdə tutulur. Bu yaş mərhələsinin fərdin formalaşmasındakı əhəmiyyəti hamımıza yaxşı məlumdur. Məlum yaş mərhələsində insanlara, əşyalara, ətrafdakı digər anlayışlara münasibət yeni mahiyyət kəsb edir. Bu proseslər özünü ilk növbədə sosial münasibətlərdə büruzə verir. Yaşamaq xüsusiyyətlərinin genişlənməsi ilə əlaqədar olaraq tələbatlar genişlənir, sosiallaşma aktivləşir. Bu baxımdan, Psixikada yaşamaq amilini əhatə edən yeni xüsusiyyətlər və münasibətlər sistemi meydana çıxır. Nəticədə, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının ikinci mərhələsində yaşamaq uğrunda real ekzistensial və subyektiv mübarizənin əsasları qoyulur. Ona görə yaşamaq xüsusiyyətləri qismən Psixikanın daxilindən çıxaraq xarici sosiallıq və subyektivlik kəsb etməyə başlayırlar.

Bu mərhələ Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması baxımından ən uzun və mürəkkəb mərhələ sayıla bilər. Bu mərhələ aktiv inkişaf və formalaşma prosesləri ilə əlaqədar olaraq fərd üçün çox böhranlı və ziddiyyətli xüsusiyyətlər yaradır. Ona görə bu mərhələyə və onu əhatə edən problemlərə daha geniş aspektlərdən toxunacağıq.

Şəkil-sxemdən də göründüyü kimi, (Bax: şəkil 17) bu mərhələni yaradan əsas amillər – "mövcud olmağa meyil" və "sosial subyektivləşməyə meyil" kimi prosesləri əhatə edir. Yaşamağa ilkin

psixikadaxili meyildən öz əsaslarını götürən bu meyil amilləri Psixikanın da fəaliyyətinin genişlənməsinə şərait yaradır. Psixika daxilində daha mürəkkəb proseslər reallaşmağa başlayır. Əsasən sosiallıq kəsb edən xüsusiyyətlər aktivləşir, genişlənir.

Şübhəsiz, bu mərhələ yaşamağa olan meyillər sisteminin formalaşması və geniş fəaliyyəti ilə diqqəti cəlb edir. Ona görə də bu mərhələdə meyillər haqqında çox danışacağıq.

Burada "meyil" anlamı əsasən psixikadaxili proseslərə aiddir. Daha doğrusu, meyillər burada birbaşa Psixika daxilində yaşamaq amilinin yaranmasında funksional proseslər kimi mövcud olur. Bizim anladığımız ümumi meyillər formasında bu proseslərə yanaşma müəyyən anlaşılmazlıqlar yarada bilər.

Psixikada isə daha mürəkkəb və fundamental tərkibli meyillər sistemindən söhbət gedir. Yəni biz yeməyə, gəzməyə, cinsi fəaliyyətə və sairə kimi davranış xüsusiyyətlərinə meyil edə bilərik. Bunlar artıq formalaşmış və Psixika daxilindən artıq çıxmış proseslərdir. Lakin bizim Psixika daxilində nəzərdən keçirdiyimiz meyillər fərqli mövcudluq və fəaliyyət xüsusiyyətlərinə malikdirlər. Həmin meyillər ilk növbədə Psixikada yaşamaq xüsusiyyətlərinin formalaşması amilinə və bununla bağlı olaraq psixoloji və biofizioloji inkişaf dinamikasına xidmət edirlər.

Yalnız insan Psixikası, yaşamaq xüsusiyyətləri tam yaranıb formalaşdıqdan sonra meyillər də adiləşməyə, gündəlik fəaliyyətimizi tənzimləyən primitiv mahiyyət kəsb etməyə başlayırlar. Deməli, Psixikada formalaşma dövründəki yaşamağa olan meyillər, tam formalaşmış Psixikadakı meyillərdən mövcudluq və mahiyyət etibarilə fərqlənirlər. Bu da təbiidir. Əlbəttə, formalaşma meyilləri formalaşmış meyillərdən fərqlənməlidir.

Psixikada yaşamaq xüsusiyyətlərinin yaranmasını əhatə edən mərhələlərdə ölüm instinkti və yaxud ölümə meyil kimi proseslərdən danışmayacağıq. Ümumiyyətlə, Freydin də toxunduğu bu prosesi (tanatos) Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması baxımından əsaslandırmaq qeyri-mümkündür. Ola bilsin bu tam formalaşmış Psixikaya və insan davranışına aiddir. Bir daha xatırladırıq ki, bu tipli problemlər elmlər sistemi daxilində həmişə sırf fəlsəfi mahiyyət daşıyıb. Yəni məlum problemlərin insan orqanizmində

əsaslandırıcı, təsdiqedici psixoloji və bioloji istinad nöqtələri olmayıb. Ona görə də bu və ya digər bu tipli problemləri Psixikanın öyrənilməsində və Psixikanın əsaslandırılması proseslərində həmişə rədd etmişik. Lakin bu tipli problemlərin real istinadlı tədqiqinin Psixika daxilində aparılmasına üstünlük verərək orada ciddi nəticələr əldə olunmasına çalışırıq.

Məntiqi nəticə baxımından, ölümə təbii meyil də yaşamağa xidmət edir və yaşamaq uğrunda mübarizənin nisbi fəaliyyətini tənzimləyir. Lakin ölümə meyilin özü də Psixika daxilində formalaşma proseslərini keçməlidir. Bu proses elə Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələləri daxilində baş verir. Bəs Psixikada anladığımız ölümə meyil halları necə yaranır?

Məlum olur ki, ölümə meyil Psixikada yaşamağın formalaşma dövründə "təhlükəyə və məhvə" meyil kimi hallar daxilində yaranır. Təhlükəyə və məhvə olan meyillər də asılı olmayan psixikadaxili proseslər formasında yaranır. Artıq formalaşmış Psixikada insan kimi yaşamaq xüsusiyyətləri ətraflı şəkildə yarandıqdan sonra təhlükəyə və məhvə olan meyil ölümə olan təbii meyillərə çevrilməyə başlayır.

Təhlükəyə və məhvə olan meyillər Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında mühüm əhəmiyyət kəsb edir. Bu asılı olmayan psixikadaxili proseslər kiçik yaşlarından yaranmağa başlayaraq insanın bütün gündəlik fəaliyyətini əhatə edir. Təhlükəyə və məhvə olan psixikadaxili meyili biz hamımız hiss edirik. Məsələn, kiçikyaşlı uşaq üçün həyatda, ətraf aləmdə çox şeylər anlaşılmazdır. Təbii olaraq o, demək olar ki, hər gün bu cür təhlükələrə meyil edir. Əlbəttə, kiçik yaşlı uşaq ölümün mahiyyətini, ölümün özünü anlamır, belə olan halda o, necə ölümə meyil edə bilər? Deməli, bu halda o, yalnız anlaşılmaz formalarda təhlükəyə və məhvə meyil edə bilər.

Yeniyetməlik dövründə isə təhlükəyə və məhvə olan meyillər daha geniş olur. Artıq məlum yaş dövründə həmin proseslər daha mürəkkəb xarakter alır. Insanın bioloji inkişaf xüsusiyyətləri də buna əlverişli şərait yaradır. Yeniyetməlik dövrü də böhranlıdır və bu böhran amili yüksək bioloji və psixoloji inkişafla birbaşa əlaqəlidir.

Ümumiyyətlə, böhranlı yaş mərhələlərində təhlükəyə və məhvə meyil çox güclü olur. Burada "təhlükə" və "məhv" sözləri sizi çaşdırmasın. Kiçik yaş dövrlərində və böhranlı yaş mərhələlərində bu

sözlər fərqli mahiyyət kəsb edirlər. Xüsusilə də "məhv" sözü. "Məhv" sözü ilə "ölüm" sözü arasında müəyyən fərqlər var. Əlbəttə, "məhv" məntiqi anlam baxımından "ölüm" sözündən geridə qalır. "Ölüm" sözü daha konkret məlumat verən və məntiqi mahiyyət kəsb edən bir anlamdır. Ona görə də Psixikası və orada yaşamaq kimi fundamental xüsusiyyətləri tam formalaşmamış fərd heç cür ölümə meyil edə bilməz. Kiçik yaş dövrlərində uşaqlar yalnız primitiv anlaşılmayan təhlükəyə və məntiqsiz məhvə meyil edə bilərlər. Çünki formalaşma dövründə insan Psixikası elə məlum fərdin yaş dövrünə, yaş səviyyəsinə uyğun reaksiya verir.

Təhlükəyə və məhvə asılı olmayan psixikadaxili meyil kişik yaş dövrlərində insanın mövcudluğa və sosial mühitə alışmasında mühüm əhəmiyyətə malikdir. Məsələn, isti suya və yaxud isti çaydana əlini toxunduran kiçikyaşlı uşaq real təhlükəni hiss edir. Ola bilsin bu ona dərs olduğu üçün bir daha bu hərəkəti təkrarlamır. Bundan əlavə, məlum hadisə uşaq Psixikasında təhlükəli və təhlükəsiz proseslərə aydınlıq gətirir. Təbii olaraq təhlükəyə və məhvə olan meyillər Psixikada yaşamaq xüsusiyyətlərini mürəkkəbləşdirir və sosiallaşmanı real şəraitlərə uyğun daha da zənginləşdirir.

Deməli, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının ikinci mərhələsini formalaşdıran təhrikedici amillər ilkin ekzistensial (mövcudluq) və koqnitiv (subyektiv) instinktlərin köməyi ilə yaranan mövcud olmağa və sosial-koqnitiv subyektivləşməyə olan meyillər sistemidir (Bax: şəkil - 17). Psixikadaxili proseslər mürəkkəbləşdikcə təhrikedici meyillər də genişlənir, aktivləşir. Artıq fərd mövcud olmaq və real sosial status əldə etmək uğrunda mübarizə aparmağa başlayır. Nəticədə, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının ikinci mərhələsində insan kimi mövcudluğun və primitiv subyektiv varlığın yaranma əsasları qoyulur. Fərd psixoloji, bioloji və sosial baxımdan mürəkkəbləşməyə başlayır.

**Mövcud olmağa meyil.** Mövcud olmağa olan ekzistensial meyillər bu mərhələdə də öz geniş fəaliyyəti ilə seçilirlər. Məlum proseslər dünyanı, mövcudluğu qavramağa kömək edir. Psixikada dünya, oradakı əşyalar qavranılaraq məntiqi subyektiv meyillər ilə birlikdə yaşamaq uğrunda mübarizənin mənəvi və sosial ehtiyatlarını

yaradırlar. Mövcud olmağa meyil ekzistensial şöbənin və oradakı mövcudluq instinktlərinin fundamental funksiyalarını yerinə yetirir.

Kiçik uşaq Psixikası mövcud olmağa təhrikedici meyillərin köməyi ilə ətraf aləmi qavrayaraq onları mənimsəmək uğrunda mübarizəyə çoxlu vaxt və geniş fəaliyyət sərf edir. Çünki bu tipli meyillər olmasa, real yaşamaq xüsusiyyətlərinin ekzistensial-psixoloji əsaslarını yaradaraq dünyanı, mövcud əşyaları anlamaq və subyektivləşdirmək qeyri-mümkün olar. Əlbəttə, mövcud olmaq hələ subyektiv varlıq və insan kimi yaşamaq demək deyil. Əksinə, mövcud olmadan subyektiv varlığa çevrilmək də qeyri-mümkün olur.

Yuxarıda qeyd etdiklərimizdən də məlum olur ki, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında ilkin ekzistensial (mövcudluq) instinktlərin, mövcud olmağa meyillərin və ümumiyyətlə, ekzistensial proseslərin hegemonluğu, dominantlığı əsasən birinci (0-3 yaşlar) və ikinci (4-9 yaşlar) mərhələləri əhatə edir. Çünki məlum mərhələlərdə fərd Psixikası daha çox mövcudluq kimi yaranmağa, formalaşmağa meyilli olur. Yəni mövcudluğa, ekzistensial proseslərə olan psixoloji və bioloji meyildəki aktivlik istər-istəməz ümumi insan orqanizmində və Psixikasında açıq şəkildə büruzə verilir. Burada sosial psixi dəyişikliklər, cinsi yetkinliyə doğru aktiv bioloji inkişaf xüsusiyyətləri yaranmağa başlayır.

Psixikada mövcud olmaq uğrunda mübarizə, ekzistensial meyillər mahiyyət, bəzən isə nəticə etibarilə belə hiss olunmayan, dərk edilməyən, asılı olmayan proseslər şəklində meydana çıxırlar. Ona görə də burada əksər hallarda ancaq bioloji inkişafı görmək mümkün olur. Bu bioloji aktivlik getdikcə sosial münasibətlərdə, sosial subyektivləşmədə real nəticələri intensivləşdirərək, geniş subyektiv fəaliyyətə təhrikin əsaslarını qoyan sosial-psixoloji tələbatları və ilkin sosiallaşmanı yaradırlar.

**Koqnitiv sosiallaşmağa (sosial subyektivləşməyə) meyil.** Artıq Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının ikinci mərhələsində fərdin dünyaya olan real münasibətləri istər psixoloji, istərsə də sosial baxımdan subyektivləşməyə, koqnitivləşməyə başlayır. Əgər kiçikyaşlı uşaq ətraf aləmə, oradakı münasibətlərə yalnız mövcudluq məkanı kimi obyektiv şəkildə birmənalı formada

yanaşırdısa, təxminən üç yaşlarından sonra bu birtərəflilik pozulur, aradan götürülür. Bu yaşlardan sonra onların Psixikalarında öz "mən"lərinə əsaslanan fərdi subyektiv münasibətlər formalaşır. Şübhəsiz, bu proseslər geniş olmasa da, məlum uşağın ailəsi daxilində sırf sosiallıq kəsb edir. Məsələn, məlumdur ki, artıq üç yaşlarından sonra uşaq oyuncaqlara öz şəxsi nitqi vasitəsilə "mənimdir" deyir. Burada əsas hegemon amil məntiqli olan, sosial mahiyyət kəsb edən fərdi subyektiv nitqin yaranmasıdır.

Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının ikinci mərhələsində yaranan yuxarıdakı müsbət proseslər geniş sosial subyektivləşmə prosesləri nəticəsində reallaşır. Bu tipli proseslər insanın ilkin sosial varlığının əsaslarını qoyur. Məsələn, ailənin sosial statuslu üzvləri uşaq tərəfindən öz adları ilə çağırılmağa başlayır. Uşaq Psixikasında ana, ata, bacı, qardaş, xala, dayı və sairə kimi yaxın insanların adları yaranır. Əşyalara, obyektiv anlayışlara da münasibət məntiqi mahiyyət kəsb etməyə başlayır. Uşağın yaşadığı ev, onu əhatə edən insanlar doğmalıq, yaxınlıq subyektləri kimi onların Psixikalarında ilkin emosional izlər buraxırlar. Bütün bu proseslər Psixikanın subyektivləşməsi ilə paralel baş verir və mövcud olmağa meyillərlə birgə iş nəticəsində meydana çıxır. Unutmamalıyıq ki, hər mərhələ daxilindəki təhrikedici amillər geniş qarşılıqlı əlaqələr nəticəsində Psixikaya lazım olan mühüm yaşamaq xüsusiyyətlərini formalaşdırırlar. Bu proseslər şəkil-sxemdə oxlar vasitəsilə aydın formada göstərilir (Bax: şəkil - 17).

Bir daha qeyd edirik ki, meyillər bütün insan ömrü boyu yaranır. Lakin Psixikada yaşamağın hazırlanması proseslərində meyillər əsasən formalaşdırıcı mahiyyət daşıyırlar. Bu meyillər ilkin fundamental meyillərdir. Onlar Psixikada insan kimi yaşamaq xüsusiyyətlərini yaradan ilkin təbii əsaslı təhrikedici amillərdir.

**Tələbatlar. Geniş fəaliyyət. Sosiallaşma.** Nəticədə ikinci mərhələdən başlayaraq fərdin xarici aləmlə və insanlarla münasibətləri mürəkkəbləşir, genişlənir. Şübhəsiz, insan Psixikasında qismən müstəqil fəaliyyət, davranış kimi məfhumların yaranması daha mürəkkəb prosesləri əhatə və tələb edir. Biz artıq bu fəaliyyəti, davranışı yaradan bünövrə instinktləri və ilkin meyillərlə tanışıq.

**Deməli, bünövrə instinktləri - ekzistensial (mövcudluq) və koqnitiv (subyektiv) instinktlər Psixikada yaşamağa olan ilkin psixikadaxili meyilləri, ilkin psixikadaxili meyillər - mövcud olmağa və koqnitiv sosiallaşmağa (sosial subyektivləşməyə) olan meyillər isə yaşamaq uğrunda mübarizəni və onların sosial-mənəvi metodlarını yaradırlar (Bax: şəkil - 17).**

Yaşamaq üğrunda mübarizə insan kimi sağlam və aktiv fəaliyyətin, davranışın yaranmasının əsas hərəkətverici amilidir. Bu yaş mərhələsində Psixikada yaşamaq uğrunda mübarizənin ilkin fundamental motiv və tələbatları yaranır. Yaşamaq uğrunda real mübarizə xüsusiyyətləri **geniş fəaliyyət** və **sosiallaşma** proseslərinin əsaslarını qoyur.

Psixika daxilində yaşamaq uğrunda mübarizə təhriklərinin yaranması fərdin xarici mühitlə sosial və mənəvi mübarizə metodları üzərində qurulur. Xarici aləmlə fasiləsiz qarşılıqlı əlaqə çox güclü mənimsəmə və formalaşma xüsusiyyətlərini tələb edir. Psixika daxilində bu mənimsəmə və formalaşma reaksiyaları yaşamaq uğrunda mübarizə xüsusiyyətlərinin tərkibində məhz **tələbatlar** şəklində meydana çıxır.

Tələbatlar Psixikada yaşamaq uğrunda mübarizəni əsaslandıran ən mühüm sosial və psixoloji mahiyyətli amillərdir. Fərdin tələbatlarının məntiqi subyektiv mahiyyət kəsb etməsi ikinci mərhələdən başlayır. Əlbəttə, insan doğulduğu gündən primitiv tələbatlara malik olur. Məsələn, körpənin döşəmmə prosesi ilkin bəşəri, lakin primitiv bir tələbatdir. Bu primitiv tələbat ümumi canlılara məxsusdur. Real insan tələbatlarının insan Psixikasına və insan kimi yaşamaq xüsusiyyətlərinə xidmət etməsi getdikcə primitivlikdən çıxaraq ikinci mərhələdə geniş fəaliyyəti, ilkin koqnitiv sosiallaşmanı və davranışı yaratmağa başlayır.

Yadda saxlamaq lazımdır ki, bütün növ tələbatlar həm sosial, həm də psixoloji mahiyyət daşıyırlar. Yəni tələbatlar və onların yerinə yetirilməsi insan üçün mühüm olan sosial-psixoloji və mənəvi ehtiyacları ödəyirlər.

Psixikada yaşamaq məfhumunun və insan kimi yaşamaq xüsusiyyətlərinin hazırlanmasının ikinci mərhələsində yaşamaq uğrunda ilkin mübarizə və onu əsaslandıran, mövcud edən əsas amillər – tə-

ləbatlar, koqnitiv və subyektiv sosiallaşma prosesləri yaranmağa başlayır. Psixikanın xarici aləmlə ümumi qarşılıqlı əlaqələri aktivləşir və uşaq Psixikası ilk dəfə olaraq sosial-koqnitiv proseslərin mahiyyətini anlayaraq həmin proseslərdən yaşamaq xüsusiyyətlərinin hazırlanmasında istifadə edir.

Burada ilkin sosiallaşma prosesləri tələbatlardan sonra ikinci mühüm amil sayıla bilər. İlkin sosiallaşma daxilində motivlər və tələbatlar sistemi həddən artıq mürəkkəbləşir. Sosial fəaliyyət və davranış xüsusiyyətləri genişlənir. Uşaq getdikcə sosial münasibətlər sistemindən yaşamaq üçün müxtəlif formalarda istifadə etməyə başlayır.

Tələbatlar, sosiallaşma artıq uşağın həyat və fəaliyyətinin əsas istiqamətlərini dəyişdirir. Məsələn, uşağın oyuncaqları müxtəlifləşir, mürəkkəbləşir. Ailə şəraiti uşaq üçün fərqli statusda görünməyə başlayır. Psixikanın fəaliyyətində də sosial nəzarət prinsipləri formalaşır. Psixikada "sosial mən" yaranır. Bu primitiv "sosial mən"-dir. "Sosial mən"i yaradan əsas amillər kimi artıq uşağın xarakterik özünəməxsus davranış tərzinin formalaşmasını göstərmək olar. Bu zaman uşaq bir çox məsələlərdə şəxsi prinsipiallıq göstərir. Özünə dostlar, yaxın adamlar seçir, öz oyuncaqlarına xüsusi qayğı göstərməyə başlayırlar. Nəticədə, onlarda xarakterin ilkin sindromları və mənəvi streotopik xüsusiyyətləri yaranır.

Bütün bunlara geniş sosial münasibətlərə giriş kimi baxıla bilər. Bu primitiv sosial tələbatlar və münasibətlər cinsi mahiyyət daşımır. Lakin "cinsi mən"in formalaşmasına gedən yoldur. "Cinsi mən" "sosial mən"in üzərində qurulan, həm də bioloji inkişaf mahiyyəti kəsb edən xüsusiyyətlər sistemidir. "Cinsi mən" "sosial mən"in tərkib hissəsinə daxildir.

Tələbatların, fəaliyyətin genişlənməsi, ilkin koqnitiv sosiallaşmanın yaranması baxımından Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının ikinci mərhələsi insan kimi yaşamağı formalaşdıran ana xətdir. Bu mərhələdə insan sosial subyektə çevrilir. Tələbatlar, ilkin sosiallaşma psixoloji və bioloji inkişafla paralel şəkildə formalaşır. Yaşamaq uğrunda mübarizə və onu əsaslandıran metodlar yaranır, genişlənir. Fərdin sosial və mənəvi davranışı formalaşmağa başlayır.

### 7.3.3 Üçüncü mərhələ: yaşamaq uğrunda mübarizəni əsaslandıran ekzistensial və koqnitiv amillərin yaranması (10-15 yaşlar)

Üçüncü mərhələdə artıq yaşamaq xüsusiyyətləri, yaşamaq uğrunda mübarizə metodları yeni mahiyyət və inkişaf dinamikası əldə edir. Yaşamaq uğrunda mübarizə metodları və onları əsaslandıran mühüm amillər müxtəlif formalarda yaranırlar. Yaşamaq uğrunda mübarizə metodları və onları əsaslandıran mühüm amilləri ümumi şəkildə ekzistensial və koqnitiv sosial mübarizə xüsusiyyətləri formalaşdırır (Bax: şəkil - 17).

Bu mərhələdə Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması həm psixoloji, həm də boloji baxımdan köklü dəyişikliklərə məruz qalır. Çünki fərd cinsi mövcudluğa və cinsi subyektə çevrilir. "Qız" və "oğlan" kimi cinsi sosial-psixoloji statuslara malik fərdlər yaranır. Psixika insan orqanizminin cinsi mövcudluq kimi xüsusiyyətlərinin yaranmasına aktiv şəkildə xidmət etməyə başlayır. Bu zaman bioloji inkişaf da ən yüksək səviyyəyə çatır. Psixikada məlum prosesləri əhatə edən mürəkkəb psixi proseslər yaranır. Artıq Psixikanın ekzistensial və koqnitiv şöbələri yeni fəaliyyət səviyyəsinə daxil olurlar. Ümumi Psixikanın formalaşması da bu cür proseslərin təbii axarına düşür.

**Yaşamaq uğrunda ekzistensial mübarizə.** Əlbəttə, yaşamaq uğrunda ekzistensial mübarizə öz əsaslarını mövcudluq instinktlərindən, mövcud olmağa meyillərdən, ümumilikdə ekzistensial şöbədən götürür. Artıq bu mərhələdə ekzistensial proseslər aktiv psixikadaxili fəaliyyətə keçərək bioloji və sosial mahiyyət kəsb edirlər. Həmin proseslərin nəticəsində fərdin psixoloji və bioloji mövcudluğu dəyişilir. Cinsi-bioloji və cinsi-psixoloji mövcudluğa çevrilir. Bu, məlum ümumi proseslər sisOteminin birinci tərəfidir. Məsələnin digər tərəfi fərdin dünyaya, mövcud əşyalara, mövcudluq anlayışlarına bir subyektiv mövcudluq kimi münasibətini əhatə edir. Bu mövcudluqlar sisteminə fərd Psixikasında yeni münsaibətli yanaşma baş verir. Subyektiv mövcudluqlara da münasibət dəyişir. Məsələn, fərd Psixika-

sında qadın, kişi, qız, oğlan kimi cinsi subyektiv mövcudluq formaları yaranır. Ailə daxilində uşaq üçün ana-qadın, ata-kişi, bacı-qız, qardaş-oğlan kimi cinsi mövcudluq simvollarına çevrilirlər. Biz subyektiv mövcudluq formaları və cinsi mövcudluq formaları haqqında "Psixikanın formalaşması" fəslində ətraflı yazmışıq.

Psixika daxilində baş vermiş bu dəyişikliklər ekzistensial şöbənin mövcudluğu qavrama və primitiv yaddasaxlama funksiyalarının fəaliyyət dinamikasını aktivləşdirir. Psixika daxilində, koqnitiv şöbə ilə qarşılıqlı əlaqələrdə mövcudluğu qavrama və mənimsəmə ilə bağlı yeni iş tələbatları yaranır. Fərdin yaşamaq xüsusiyyətləri, yaşamaq uğrunda mübarizə prosesləri zənginləşdikcə orada ekzistensial şöbə tərəfindən qavranılan, primitiv yaddaşa keçməsi məcburi sayılan mövcudluqların, obyektiv anlayışların həcmi və sayı da artır.

Bu mərhələnin daxilində fərd Psixikasında asılı olan və asılı olmayan özünüqoruma xüsusiyyətləri formalaşmağa başlayır. Yəni fərd öz mövcudluğunu təbii qoruma və müdafiə xüsusiyyətlərinə yiyələnir. Bu cür hallara elmi və psixoloji ədəbiyyatda **özünüqoruma instinkti** də deyirlər.

Məlum olur ki, özünüqoruma müdafiə sistemi öz yaranma əsaslarını məhz, üçüncü mərhələdən, onun daxilindəki yaşamaq uğrunda ekzistensial mübarizədən götürür. Özünüqoruma xüsusiyyətləri Psixika daxilində təbii reaksiyalar sistemi halında yaranır. Əlbəttə, öz orqanizmini qoruma sistemi bütün canlılara məxsusdur. Şübhəsiz, bu sistemin əsasları dünyanı, mövcud əşyaları ilk dəfə Psixikaya gətirən ekzistensial şöbədə qoyulur.

Psixikada yaşamaq uğrunda mübarizə xüsusiyyətlərinin yaranması baxımından, biz özünüqoruma müdafiə sistemini **özünüqoruma instinkti** kimi yox, **ekzistensial psixi (psixikadaxili) fəaliyyət** kimi adalandıracağıq. Çünki bu özünüqoruma müdafiə sistemi Psixikada yaranaraq onun adi iş xüsusiyyətlərindən biri kimi meydana çıxır. Özünüqoruma instinkti əksər hallarda asılı olmayan psixikadaxili proseslər kimi yaransa da orada qeyri-adi heç bir şey yoxdur. İnsan yaşayırsa o, müdafiə də olunmalıdır.

Ekzistensial psixi (psixikadaxili) fəaliyyət Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində - tam yaşamaq məfhumunun formalaşmasında mühüm rol oynayır. Bu

problemi ayrılıqda ətraflı şəkildə araşdıracağıq. Ekzistensial psixi fəaliyyət öz yaranma əsaslarını üçüncü mərhələdən götürdüyünə görə bu problemə indi də qismən toxunmalı olduq.

Yaşamaq uğrunda ekzistensial mübarizə yaşamaq uğrunda sosial mübarizə ilə qarşılıqlı əlaqədə olaraq Psixikada insan kimi yaşamaq xüsusiyyətlərini daha da zənginləşdirirlər. Ekzistensiallıq və sosiallıq insanlıq kimi fundamental xüsusiyyətlər sistemini yaratmağa başlayırlar.

**Yaşamaq uğrunda koqnitiv-sosial mübarizə.** Psixikada insan kimi yaşamaq xüsusiyyətlərinin hazırlanmasının üçüncü mərhələsində də sosial münasibətlər həm mahiyyət, həm də nəticə etibarilə köklü dəyişikliklərə uğrayırlar. Təkcə onu demək kifayətdir ki, fərd bu mərhələdə yeni cinsi sosial mövcudluq statusu əldə edir. Psixikanın sosiallaşma ilə bağlı elzistensial və koqnitiv xüsusiyyətləri insan orqanizminin bioloji inkişaf xüsusiyyətləri ilə son dərəcə yaxınlaşır. Bunun da əsasında cinsi amillər və cinsi mövcudluq xüsusiyyətləri durur. Bu baxımdan, üçüncü mərhələ biolojiləşmə və psixolojiləşmənin paralel fəaliyyətinin qovuşub qloballaşdığı mərhələdir. Elə bu mərhələdən başlayaraq insan orqanizminin bioloji və psixoloji inkişafı təxminən iyirmi yaşlarına qədər aktiv qarşılıqlı paralel fəaliyyətdə olurlar. Bu da insanın tam formalaşması və inkişafı dövrü ilə birbaşa bağlıdır.

Yaşamaq uğrunda koqnitiv sosial mübarizə öz əsaslarını koqnitiv şöbədən, onun funksional xüsusiyyətlərindən götürür. Yaş dövrünün artması, Psixikanın ümumi fəaliyyətinin genişlənməsi, aktiv sosial münasibətlərə alışma, cinsi yetkinlik, bu dinamik proseslərin təsiri nəticəsində yaranan ümumi yaş böhranı bir daha fərdin yaşamaq uğrunda sosial mübarizəsi üçün əlverişli imkanlar gerçəkləşdirir. Sosiallaşma koqnitiv subyektiv mərhələyə daxil olur. Xüsusilə də, fərd sosial statuslu subyektlər arasında ciddi seçim etməyə başlayır. Yəni digər insanlar fərd üçün sosial statuslu və cinsi mahiyyətli şəxslər kimi tanınırlar. Fərdin Psixikasında sosial məsuliyyəti yaranır. O, artıq sosial-mənəvi məsuliyyəti hiss edən şəxsə çevrilir. Məsələn, qız uşağı öz "qızlıq" xüsusiyyətlərini nəzərə alaraq oğlanlarla münasibətdə ümumiyyətlə, ictimaiyyətlə qarşılıqlı

əlaqələrdə məsuliyyət və sədd proseslərini dərk etməyə başlayır. Oğlanlar da Psixikalarındakı dəyişikliklərlə bağlı olaraq sosial münasibətlərinə əlavələr etməli olurlar.

Psixikada yaranan koqnitiv sosial mübarizə artıq müəyyən yaş dövrü əldə etmiş məntiqli, düşünülmüş mübarizədir. Əqli imkanlar və zehni fəaliyyət təbii formada aktivləşdiyi üçün insanı idarə edən mürəkkəb psixi funksiyalar və mənəvi proseslər də geniş fəaliyyət dövrünə keçirlər. Artıq cinsi yetkinliyin yaranması fərdin xarakter və mənəviyyatını daha ciddi şəkildə bütövləşdirməyə başlayır. Koqnitiv sosial mübarizə metodlarının və mənəvi-sosial dəyərlərin əsasları qoyulur. Psixika daxilində mənəvi-sosial dəyərlər kimi yaşamaq uğrunda mübarizəni əsaslandıran geniş fəaliyyət amilləri yaranmağa başlayır.

Yaşamaq uğrunda sosial mübarizənin yaranma əsasları koqnitiv şöbə ilə sıx əlaqədar olduğundan (Bax: şəkil - 17) məhz, bu mərhələdən başlayaraq bu şöbə daha aktiv fəaliyyət göstərir. Sosial mübarizə Psixikanın subyektivləşməsinin əsas mərhələsidir. Artıq bilirik ki, koqnitiv fəaliyyət və davranış əsasən koqnitiv şöbə ilə tənzimlənir. Təbii olaraq sosiallaşmanın güclənməsi, subyektiv münasibətlərin zənginləşməsi, cinsi proseslərin aktivləşməsi koqnitiv şöbənin də fəaliyyətini, əhəmiyyətini artırır.

Şübhəsiz, bu mərhələdə ən mühüm amil fərdin cinsi subyektə çevrilməsidir. Cinsi-psixoloji və biofizioloji proseslər nəhayət ki, fərdi bu mərhələdə qıza və yaxud oğlana çevirir.

Yaşamaq uğrunda sosial mübarizə dünyanı və onun daxili proseslərini anlayıb dərk etmək kimi xüsusiyyətlərin yaranmasına səbəb olur. Bu tipli proseslər mübarizə və mənimsəmə metodlarının düzgün qurulmasına kömək edir. Hər hansı şəraitə uyğun mübarizə metodlarının hazırlanması, sosial münasibətlərin qurulması yaşamaq uğrunda idraki subyektiv mübarizənin ana xəttidir.

Deməli, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının üçüncü mərhələsində yaşamaq uğrunda sosial və ekzistensial mübarizə prosesləri qarşılıqlı əlaqə nəticəsində paralel formalaşaraq yaşamaq üğrunda ümumi mübarizənin əsaslarını qoyurlar. Sonradan yaşamaq uğrunda mübarizə sistemli proseslər halında Psixikada daxili fəaliyyət tərkibinə çevrilir. Hamımız yaxşı anlayırıq ki,

yaşamaq üçün müxtəlif formada mübarizə aparmağı heç birimizə başa salmaq və yaxud xatırlatmaq lazım gəlmir. İnsan təbii olaraq bu cür mübarizəyə meyil edərək lazım olan prosesləri tənzimləyir. Əlbəttə, yaranmış ehtiyac, sosial şərait, insan kimi yaşamaq amili fərdi bu mübarizəyə məcbur edir. Çünki bu mübarizə Psixikada yaranan adi iş nəticələrindən və fəaliyyət prinsiplərindən biridir. Bu proseslər Psixikada yaşamaq xüsusiyyətlərinin tam yaranmasına xidmət edir. Formalaşma və inkişaf prinsiplərinə əsaslanan yaşamaq qanunauyğunluqlarının pozulması isə qeyri-mümkündür.

Yaşamaq uğrunda mübarizə metodlarının yaranması Psixikada yaşamaq üçün lazım olan təbii və qeyri-təbii formalaşma xüsusiyyətlərinin yaranmasını sona çatdırır. Beləliklə də, Psixikada yaşamaq məfhumunun hazırlanması və insan kimi yaşamaq xüsusiyyətlərinin tam formalaşması üçün əsas psixoloji, bioloji və sosial proseslər sistemi yaranmış olur. Artıq dördüncü mərhələyə daxil olan fərd Psixikası daha geniş yaşam tərzini əldə etmək üçün daha ətraflı və aktiv sosial-psixoloji xüsusiyyətlər sistemini mənimsəməyə başlayacaq. Bu da Psixikada insan kimi yaşamaq xüsusiyyətlərinin tam, ətraflı şəkildə hazırlanmasına şərait yaradacaq.

### 7.3.4 Dördünücü mərhələ: Psixikada tam formalaşmış yaşamaq xüsusiyyətlərinin yaranması (16-20 yaşlar)

Dördüncü mərhələdə Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması tam formalaşır. Lakin bu o demək deyildir ki, yaşamaq xüsusiyyətlərinin yaranmasından sonra Psixika bu sahə ilə bağlı işləməyəcək və onun yaşamaq xüsusiyyətlərinin mənimsənilməsi prosesləri dondurulur. Sadəcə olaraq bu mərhələdə Psixikada yaşamaq məfhumu, insan kimi yaşamaq xüsusiyyətləri və sosial-psixoloji mübarizə metodlarının bünövrə əsasları tam formalaşır. Yaşamaq və ona təhrik halları isə insan ömrünün sonuna qədər yaşamaqla bağlı proseslər baxımından Psixikanı daim mənimsəməyə və mübarizə aparmağa məcbur edir. Bu, bizim hamımıza yaxşı məlumdur. Sadəcə olaraq təxminən iyirmi yaşlarına qədər yaşamağın

bünövrə əsaslarını yaradan sosial-psixoloji amillər, biofizioloji xüsusiyyətlər, digər funksiyalar sistemi formalaşmalıdır. Nəzərdən keçirdiyimiz mərhəli sxem də **(Bax; şəkil - 17)** məhz bu formalaşma dövrlərini əyani surətdə əks etdirir.

Burada bir sual yarana bilər. Niyə biz bu formalaşma dövrünü 0-20 yaşlar həddi arasında qəbul etmişik.

Elmlər sistemi tarixində aparılımış müşahidələr, təcrübələr, kliniki tədqiqat nəticələri ümumi şəkildə göstərib ki, bir insan kimi psixoloji və bioloji formalaşma məhz, 0-20 yaşları əhatə edir. Yəni bu formalaşma dövrü təxminən iyirmi yaşa qədər davam edir. Pifaqor da insanın formalaşma dövrünü 0-20 yaşlar həddində göstərib. Təbii ki, insan iyirmi yaşa qədər insan zehni, psixoloji, bioloji və sosial baxımdan tam formalaşa bilməz. Ümumiyyətlə isə, tam formalaşma, təkmilləşmə insan ömrünün sonuna qədər davam edən proseslər sistemini əhatə edir. Sadəcə olaraq 0-20 yaşlar həddi fərdin bir insan kimi zehni, psixoloji, bioloji və sosial baxımdan formalaşmasını, yaranmasını nəzərdə tutur. Necə deyərlər, iyirmi yaşına qədər fərdi yaşamaq, mübarizə aparmaq, təkmilləşmək və inkişaf etmək üçün hazır olan bir insan kimi artıq mövcud olur. Yəni məhz, bu dövrdə insan kmi yaşamaq xüsusiyyətlərinin bünövrə ehtiyatı yaranmış olur. Bu bünövrə üstündə insan ömrünün sonuna qədər yaşayır, zənginləşir, təkmilləşir. Paralel olaraq "Psixika və yaşamaq" psixoloji, bioloji və sosial cəhətdən tam formalaşırlar. "Psixika və yaşamaq" məfhumlarının yaranmasında insana lazım olan bütün formalaşma və inkişaf qanunauyğunluqları öz əksini tapır.

Məlum oldu ki, dördüncü mərhələdə insan mənəviyyatı, onun xarakteri, əxlaqı və digər subyektiv davranış xüsusiyyətləri tam formalaşmağa başlayır. Fərdin cinsi fəaliyyət xüsusiyyətlərinə yiyələnməsi yaşamaq uğrunda sosial-psixoloji mübarizə metodlarında açıq şəkildə hiss olunur. İnsan Psixikası o dərəcədə aktivləşir ki, o, ilk dəfə olaraq gələcək yaşamaq perspektivləri haqqında düşünməyə qərar verir. Fərd Psixikasında arzular, xəyallar, xülyalar kimi mənəvi əsaslı mübarizə metodları daha geniş formalarda yaranmağa başlayır. Düzdür, bəzi fərdlərdə bu tipli mənəvi əsaslı proseslər hələ üçüncü mərhələdən yaranır. Ümumiyyətlə isə, demək mümkündür ki, arzular, xəyallar, xülyalar kimi mənəvi əsaslı mübarizə

metodlarının ilkin yaranma xüsusiyyətləri məhz, üçüncü mərhələdə formalaşır.

Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsi həm də yaş və inkişafla bağlı böhranları əhatə edir. Fərdin üçüncü mərhələdən başlayaraq keçirdiyi cinsi və psixoloji böhranlar sistemi bu mərhələdə də geniş formada davam edir.

Dördüncü mərhələni yaradan əsas amillər sistemi mənəvi-sosial dəyərlər və ekzistensial psixi fəaliyyətin birgə qarşılıqlı əlaqəsindən yaranır (Bax: şəkil-20). Biz sizə xatırlatmışdıq ki, Psixikada yaşamaq məfhumunun ümumi şəkildə hazırlanmasındakı qarşılıqlı əlaqələr öz əsaslarını koqnitiv və ekzistensial şöbələrdən götürürlər. Artıq bildiyimiz fasiləsiz qarşılıqlı əlaqələri isə qarşılıqlı əlaqə zonası yerinə yetirir. Psixikanın yaşamaq amili ilə bağlı bu mərhəli fəaliyyət istiqamətləri blok-sxemdə oxlarla göstərilmişdir (Bax: şəkil-17).

Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində Psixika şöbələri öz fundamental funksiyalarını yaşamaq amilinin formalaşması proselərinə geniş şəkildə tətbiq etməyə başlayırlar. Ekzistensial psixi fəaliyyəti yaradan ekzistensial şöbə daha çox Psixikanın ümumi daxili fəaliyyət tərkibinə meyil etməyə başlayır. Müəmmalı ekzistensial şöbə leqal, açıq formalarda fəaliyyətə üstünlük verir. Mənəvi-sosial dəyərləri yaradan koqnitiv şöbə isə sırf analitik və koqnitiv fəaliyyət mövqeyinə keçir. Nəticədə, fərdin öz mövcudluğuna olan münasibəti koqnitiv subyektiv mahiyyət daşımağa başlayır.

Deməli, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsi iki əsas istiqamət üzrə nəzəri cəlb edir. Bunlar ümumi koqnitiv sosiallaşmanın yüksək səviyyədə genişlənməsini və mənəviyyatın tam subyektivləşməsini əhatə edir. Bu proseslərin aktivləşməsi sosiallaşmanın, mənəviyyatın, xarakterin tamlığı üçün lazım olan xüsusiyyətləri Psixikada bir yerə toplayır. Fərdin xarakteri, mənəviyyatı tam formalaşmağa və müstəqilləşməyə başlayır. Psixikada əqli qabiliyyətlərin, koqnitiv funksiyaların aktivliyi fərdin gündəlik fəaliyyətində, tədris proseslərində açıq şəkildə hiss olunur. Fərd sağlam şəxsiyyətə çevrilmək üçün sosial-psixoloji status əldə etməyə çalışan bir vətəndaş formasında diqqət mərkəzində olur.

Bu mərhələdə insanın tam subyektivləşməsi yaşamaq uğrunda mübarizənin mədəni-mənəvi əsaslarını qoyur. Mənəvi-sosial dəyərlər məhz, bu cür proseslərin tərkibində yaranır.

Nəzərinizə çatdırırıq ki, **ekzistensial psixi fəaliyyət** və **mənəvi-sosial dəyərlər** nəinki, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsi, ümumiyyətlə, Psixikada yaşamaq amilinin tam yaranması və sonrakı inkişafı baxımından da mühüm və daha geniş prosesləri əhatə etdikləri üçün aşağıda məlum problemləri ayrı-ayrılıqda da araşdıracağıq.

## 7.4 EKZİSTENSİAL PSİXİ FƏALİYYƏT

Ekzistensial psixi fəaliyyətin Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasında, yaşamaq uğrunda mübarizə metodlarının yaranmasında mühüm əhəmiyyətindən xəbərimiz olsa da, lakin bu tipli proseslərin mövcudluq xüsuiyyətləri və mahiyyətləri ilə ətraflı tanış deyilik. İndi isə artıq ekzistensial psixi fəaliyyəti əhatə edən problemlərə ətraflı yanaşmağın vaxtı gəlib çatdı. Gəlin baxaq daha geniş həqiqi anlamda ekzistensial psixi fəaliyyət nə deməkdir? **Ekzistensial psixi fəaliyyət Psixikada yaşamaq məfhumunun mənimsənilməsində onun mövcudluğu qavrama xüsusiyyətləri ilə bağlı fəaliyyət funksiyasıdır. Ekzistensial psixi fəaliyyət fərd üçün dünyanı, oradakı mövcud əşyaları şəraitə uyğun qavrayır, mövcudluq uğrunda mübarizəni yaşamaq uğrunda mübarizənin daxilində reallaşdırır. İnsan kimi yaşamaq xüsusiyyətlərində ekzistensial psixi prosesləri tənzimləyir. Bundan əlavə, ekzistensial psixi fəaliyyət fərdin mövcudluğunu qoruyan, onu təhlükədən və məhvdən çəkindirən psixikadaxili prosesləri yerinə yetirir.**

Xatırlayırsınızsa, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində ekzistensial psixi fəaliyyəti **özünüqoruma instinkti** ilə müqayisə etmişdik. İndi də bir daha qeyd edirik ki, bütün özünüqoruma xüsusiyyətləri ekzistensial psixi fəaliyyətin tərkib proseslərinə daxildir. Yəni biz insanın bütün özü-

nüqoruma xüsusiyyətlərini ekzistensial psixi fəaliyyətin tərkibində axtaracağıq və araşdıracağıq. Çünki **özünüqoruma instinkti** kimi anlaşılan bütün xüsusiyyətlər ekzistensial psixi fəaliyyəti əhatə edən, orada yaranan mövcud ekzistensial fəaliyyət prosesləridir. Bundan sonra, **özünüqoruma instinkti** anlamından istifadə edilməyərək ekzistensial psixi fəaliyyət daxilində olan özünüqoruma xüsusiyyətlərindən danışılacaq.

Keçmiş mərhələlərdən fərqli olaraq Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində ekzistensial psixi fəaliyyət tipli proseslər daha çox subyektiv və aydın mahiyyət daşıyırlar. Əksər hallarda bu tipli proseslərin hiss edilməyən, asılı olmayan psixi proseslər fonunda yaranması isə təbiidir. Çünki ümumi mövcudluqla və mövcudluğumuzu qorumaqla bağlı yaranan proseslər fasiləsiz, gündəlik baş verdiyi üçün onlar Psixikanın adi funksional fəaliyyəti daxilində itib-batırlar. Digər baxımdan həmin təbii proseslər gündəlik fəaliyyətimizdə o qədər primitivləşir ki, onlara o qədər də diqqət yetirməli olmuruq. Amma anlayırıq ki, əgər biz yaşayırıqsa və yaxud yaşamaq istəyiriksə mövcudluğumuzu dərk etməli, onu müdafiə etməliyik. Dünyanı, mövcudluğu öz mövcudluğumuzla müqayisə etməli, yaranmış şəraitə uyğun fəaliyyət göstərməliyik. Bu, yaşamaq xüsusiyyətləri daxilində ekzistensial psixi fəaliyyətin reallaşdırdığı real mühüm amildir.

Ekzistensial psixi fəaliyyət məlum fərdin mövcudluğunu qoruyaraq onun ekzistensial mübarizəsini tənzimləyir. Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması və tam formalaşmasından sonra da bu tipli proseslər insanı onun ömrünün sonuna qədər izləyir. Çünki hər bir yaş dövründə sosial münasibətlərin mürəkkəbləşməsi, həyat şəraitinin dəyişməsi mövcudluqla bağlı proseslərin tənzimlənməsini tələb edir. Bu baxımdan, ekzistensial psixi fəaliyyət Psixikada bütün fəaliyyət proseslərini əhatə edir. Gündəlik fəaliyyətimizdə isə biz ekzistensial psixi fəaliyyətlə əlaqədar ilkin tələbatları yerinə yetiririk. Ümumi halda ekzistensial psixi fəaliyyət Psixikanın funksional ekzistensial sistemidir və ekzistensial subyektiv reaksiyalar məcmusudur.

Deməli, ekzistensial psixi fəaliyyət Psixikada yaşamaq xüsusiyyətlərinin, yaşamaq uğrunda mübarizənin tam formalaşması

üçün iki ümumi funksiyanı yerinə yetirir. **Birincisi, yaşamaq xüsusiyyətlərində mövcudluğu, öz mövcudluğunu qavrayaraq onu mənimsəmək, subyektivləşdirməyə hazırlamaq və bu prosesləri tənzimləməkdir. İkinci ümumi funksiya isə, öz mövcudluğunu qoruma və ümumi ekzistensial müdafiə, qoruma xüsusiyyətləridir.** Bu funksiyaların ikisi də Psixikada yaşamaq xüsusiyyətlərinin tam formalaşmasında paralel qarşılıqlı şəkildə fəaliyyət göstərirlər.

Birinci funksiyanın fəaliyyətində fərd dünyanı, öz mövcudluğunu qavrayaraq gündəlik fəaliyyətdə, sosial mübarizə metodlarında onlardan istifadə edir. Məsələn, cinsi mövcudluq subyektləri (kişi və qadın) və onların sosial-məişət münasibətləri yaranır. Əlbəttə, cinsi mövcudluqlar və cinsi psixi fəaliyyət xüsusiyyətləri qavranılıb dərk edilmədən onlardan sağlam sosial münasibətlərdə və cinsi fəaliyyətdə istifadə etmək qeyri-mümkündür.

Ekzistensial psixi fəaliyyətin ikinci ümumi funksiyası özünüqoruma funksiyasıdır. Artıq qeyd etdiyimiz kimi, bu cür funksional xüsusiyyətlər adətən **özünüqoruma instinkti** kimi öyrənilirdi. Keçmişdə də, elə indinin özündə də bu cür xüsusiyyətlər müəmmalı, dərk edilməyən mahiyyətləri ilə nəzərləri cəlb edib. Bir daha qeyd edirik ki, əslində burada müəmmalı heç bir şey yoxdur. Fərd mövcuddursa, yaşayırsa o özünü qorumalı və müdafiə etməlidir. Bunu dünyada yaşamaq və inkişaf etmək qanunauyğunluqları tələb edir. Sadəcə olaraq bu cür hallar gündəlik fəaliyyətimizdə tez-tez tələb olunan və baş verən psixikadaxili proseslər olduğundan onları hiss etmək çox çətin olur. Ona görə ekzistensial psixi fəaliyyətin ikinci ümumi funksiyası olan özünüqoruma xüsusiyyətləri əsasən asılı olmayan, dərk edilməyən formalarda yaranırlar. Yəni biz ekzistensial müdafiə vasitəsilə gündəlik həyatımızda dərk edilməsindən və dərk edilməməsindən asılı olmayaraq öz mövcudluğumuzu qoruyuruq, təhlükə və məhvə doğru aparan bütün proseslərə qarşı aktiv reaksiya veririk.

Ekzistensial psixi fəaliyyəti əsaslandıran, onun fəaliyyətini aktivləşdirən iki mühüm amili də qeyd etmək lazımdır. Bunlar **ekzistensial qorxu** və **ekzistensial sağlamlıq** amilləridir.

### 7.4.1 Ekzistensial qorxu

Qorxu ilk növbədə Psixikada insan mövcudluğunun müdafiə sisteminə əsaslanan psixi prosesdir. Qorxunun psixoloji fəaliyyət xüsusiyyətləri və təsir vasitələri genişdir. Şübhəsiz, qorxu prosesləri Psixikanın aktiv reaksiyalarının yaranmasına səbəb olur. Bu zaman, çox tezliklə səfərbər olan Psixika "qorxmaq" amili üçün müxtəlif prosesləri yerinə yetirir.

Sosial baxımdan Psixikada yaranan qorxu halları əsasən ictimai münasibətlərin və oradakı müdafiə proseslərinin daha sanballı formalarda tənzimlənməsinə xidmət edir.

Təbii ki, burada diqqəti daha çox cəlb edən qorxunun özünüqoruma ilə bağlı fəaliyyətidir. Özünüqoruma fonunda qorxu ən vacib funksiyalarından birini yerinə yetirir. Qorxmaq və bununla əlaqədar özünüqorumaq xüsusiyyətləri Psixikaya malik bütün canlılara məxsusdur. Qorxmaq və özünüqoruma tərkib hissəli qarşılıqlı əlaqəli proseslərdir. Məsələn, kimi isə qorxutmaq onu birbaşa özünüqorumağa təhrik etmək deməkdir.

Qorxu əsasən ekzistensial mahiyyət daşıyır. Çünki qorxmaq ilk növbədə mövcudluğunu qorumaq üçün impulsiv reaksiya almaq deməkdir. Ona görə bu halı indi biz **ekzistensial qorxu** kimi adlandırdıq.

Ekzistensial qorxu əsasən iki formada meydana çıxır. **Birincisi, sosial münasibətli xarici (obyektiv və subyektiv) qorxu. İkincisi isə, psixi əsaslara malik mənəvi sarsıntılar şəklində yaranan qorxu.** Bu cür qorxu halları hamımıza yaxşı məlumdur. Həmin qorxu formalarının ikisi də insan mövcudluğu üçün yaranan təhlükəni aradan qaldırmağı nəzərdə tutur. Deməli, qorxu həm də ekzistensial müdafiənin ən ali səviyyəsidir.

Burada digər məsələlər də diqqəti cəlb edir. Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında ekzistensial qorxu ekzistensial psixi fəaliyyət daxilində iki mühüm xüsusiyyətlər də büruzə verilir. Bunlar **ölüm qorxusu** və **yaşamaq qorxusudur.**

**Ölüm qorxusu** məhz, fərdi mövcudluğun itirilməsi ilə bağlı yaranan xüsusiyyətləri əhatə edir. Şübhəsiz, insan üçün mövcudlu-

ğunu itirmə qorxusu ölümdə cəmləşir. Ölüm qorxusu ekzistensial müdafiəni qurmaqda mühüm əhəmiyyətə malikdir.

Ölüm qorxusuna əks olaraq çox qəribə psixikadaxili proses olan **yaşamaq qorxusu** meydana çıxır. Əslində insan Psixikası daim yaşamaq qorxusu ilə bağlı xüsusiyyətləri yaradır və həm də onun əks təsirinə məruz qalır. Bunu necə anlamaq olar? Yaşamaq qorxusu baxımından, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında ekzistensial psixi fəaliyyət iki funksional fəaliyyət cəhətdən də nəzərləri cəlb edir.

**Birincisi, yaşamaq məsuliyyətindən doğan funksiyadır.** Yəni insan boş yerdən yaşamaq uğrunda mübarizə aparmır. O, ilk günlərdən yaşamaq məsuliyyətindən doğan məcburi proseslərdən çəkinir, qorxur. Əgər belə olmasaydı fərd sosial mübarizədə zəifləyərək lazım olan vacib prosesləri yerinə yetirə bilməzdi. Məlum təbii məsuliyyətli qorxu fərdə qarşısıalınmaz mübarizə məsuliyyəti hiss etdirir və onu məcbur edir ki, yaşamaq uğrunda daha ciddi, nəticəli mübarizə aparsın. Deməli, qorxu həm də məsuliyyət hiss etdirən psixikadaxili prosesdir və yaşamaq uğrunda mübarizəni əsaslandıran, yaradan ilkin amillərdəndir.

Yaşamaq qorxusu baxımından, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında ekzistensial psixi fəaliyyətin **ikinci formasında isə nəticə etibarilə fərd yaşamaqla bağlı mənfi, əks mahiyyət kəsb edir.** Bu halda fərd qorxu ilə əlaqədar ekzistensial-psixoloji böhran keçirir. Məsələn, bu zaman fərd yaranmış mənfi həyati hadisələr, şəxsi faciə, anlaşılmaz stress və deprsiyalarla bağlı olaraq dərin psixoloji böhran, kobud mənəvi sarsıntılar hiss edə bilər. Bu zaman psixoloji sarsıntılar, böhran o dərəcəyə çata bilər ki, məlum fərd yaşamaq uğrunda mübarizə xüsusiyyətlərini itirməyə başlayır. Nəticədə, hətta o, yaşamaqdan belə qorxmağa başlayır. Məlum fərdin Psixikasında fundamental iş pozğunluğu və psixi xəstəlik maksimum səviyyəyə çatır. Bu zaman, özünə qəsd və intihar reallığa çevrilir. Çünki yaşamaqdan qorxmaq kimi anlaşılmaz anormal hallar ölümə meyili gücləndirir.

Yeniyetməlik və ilk gənclik illərində, yəni məhz dördüncü mərhələdə (15-20 yaşlarında) yaşamaq qorxusunun yaranması fərdin sağlam insan kimi formalaşmasına müəyyən mənada mənfi təsir etsə də, təc-

rübə göstərir ki, yaşamaq qorxusunun bu cür hallarına qarşı aparılan mübarizə yaşamaq xüsusiyyətlərinin aktivləşməsinə, onun ekzistensial mahiyyətinin sağlamlaşmasına da əlverişli şərait yaradır.

Məlum oldu ki, ekzistensial qorxu insanın bir mövcudluq kimi yaşamaq uğrunda mübarizəsinin tənzimlənməsinə xidmət edir. Mövcudluğunu qorumaq, təhlükəni duymaq, bunun nəticəsində yaranan "qorxmaq" amili yaşamağı tənzimləyən mühüm psixikadaxili prosesdir. Qorxu fundamental subyektiv hisslər sisteminə daxildir. O, elə bil orqanizmin daxilində, ruhunda mövcud olur. Uşaqlıq dövründəki sayıqlamalar, böyüyəndə qorxu ilə əlaqədar yaranmış psixi pozğunluqlar, cismani xəstəliklər (məsələn, qaraciyər iltihabına əsaslanan, xalq arasında adlandırılan "sarılıq" xəstəliyi) bir daha onu göstərir ki, qorxu insan Psixikasında, onun bioloji orqanizmində yüksək real təsirlərə malikdir. Məlum olur ki, qorxu həm də orqanizmdə bioloji təsirlərə və mahiyyətə malikdir. Bu baxımdan, qorxu insan mövcudluğunu qoruyan, onun müdafiəsini təşkil edən ən aktiv psixikadaxili təhrik, həm də bioloji əsaslara malik reaksiyadır.

### 7.4.2 Ekzistensial sağlamlıq

Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində ekzistensial psixi fəaliyyətin tərkibində mühüm əhəmiyyətə malik proseslərdən biri də **ekzistensial sağlamlıqdır.** Ekzistensial sağlamlıq nə deməkdir?

Ekzistensial sağlamlıq fərdin dünyanı, öz mövcudluğunu qavramadakı, mənimsəmədəki normal, sağlam proseslər sistemini nəzərdə tutur. Yəni bu cür sağlamlıq xüsusiyyətlərinin nəticəsində fərd məkanla, öz mövcudluğu ilə bağlı bütün psixoloji, bioloji və sosial prosesləri normal şəkildə qavrayır, mənimsəyir. Təsəvvür edin ki, fərd Psixikası dünyanı, öz mövcudluğunu düzgün sağlam formalarda qavrayıb mənimsəyə bilmir. Bu, birbaşa Psixikanın ümumi fəaliyyətinin pozulması deməkdir.

Ekzistensial sağlamlıqla əlaqədar yaranan proseslər iki formada meydana çıxır.

**Birinci halda fərdin Psixikasında ekzistensial pozğunluqlar dünya, oradakı mövcud əşyalar və obyektiv anlayışlarla bağlı olur.** Bu pozğunluqlar nəticəsində fərd mövcudluğu düzgün qavrayıb dərk edə bilmir və yaxud qavramanın, mənimsəmənin yaranmasında digər neqativ hallar meydana çıxır. Burada ekzistensial-psixoloji böhranlar da baş verir. Dünyanın mövcudluğu fərdi anormal formalarda tez-tez düşündürür.

**İkinci halda isə ekzistensial pozğunluqlar fərdin öz subyektiv mövcudluğu ilə bağlı olur.** Bu halda fərd sadəcə olaraq ekzistensial-psixoloji böhranlar keçirir. Öz subyektiv mövcudluğunun bioloji və fəlsəfi təhlili haqqında üzun müddət fikirləşir. Bu da təbii proseslərə qarşı çıxıldığı üçün Psixikada anlaşılmaz psixi narahatlıqlar yaradır. Belə Psixikalara malik insanlar psixi xəstələrə də çevrilə bilirlər. Bu cür xəstələr "niyə dünyada mövcudam" sualına cavab tapmaq uğrunda məntiqsiz, nəticəsiz halda üzun müddət fikirləşib streslər və depresiyalar keçirirlər.

Yuxarıda nəzərdən keşirdiyimiz poblemlərin və digər buna oxşar problemlər sisteminin qarşısının alınmasında ekzistensial sağlamlıq mühüm əhəmiyyət daşıyır. Çünki fərd fikir verməyi bu cür problemlərin mənfi təsirləri ilə hər zaman qarşılaşa bilər. Məhz, ekzistensial sağlamlıq istəyimizdən asılı olmayaraq Psixikada mövcudluğun sağlam və normal şəkildə qavranılmasına, mənimsənilməsinə şərait yaradır.

Məlum oldu ki, ekzistensial sağlamlıq Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasında ümumi sağlamlığın tərkib hissələrindən biridir. Həmin tərkib hissədə ekzistensial sağlamlıq dünyanı, mövcudluğu qavrama və mənimsəmə ilə bağlı proseslərində sağlamlıq funksiyalarını yerinə yetirir. Bu ekzistensial proseslər insan ömrünün sonuna qədər davam edir.

Deməli, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində tam formalaşmağa xidmət edən iki cür amillər sisteminin biri ilə - ekzistensial psixi fəaliyyətlə yaxından tanış olduq. Məlum oldu ki, ekzistensial psixi fəaliyyət insan kimi yaşamaq xüsusiyyətlərinin hazırlanmasında mövcud dünya, oradakı əşyalar və obyektiv anlayışların sağlam şəkildə qavranılması ilə bağlı olan ən əsas prosesləri yaradır, tənzimləyir. Ekzistensial psixi fəa-

liyyət "mövcud olmaq" amilini Psixikada tam əhatə edir və dördüncü mərhələdə bu tipli proseslərin tam subyektivləşməsini, dərk edilməsini sona çatdırır. Fərd subyektiv varlıq kimi mövcud olaraq dünyanı və öz mövcudluğunu Psixikada mənimsəyir. Bunlar Psixikada olan nəhəng və mürəkkəb proseslərin daxilində baş verir. Ekzistensial psixi fəaliyyət bu nəhəng proseslərdə Psixikada yaşamağa lazım olan dünyanı, oradakı əşyalar və obyektiv anlayışları formalaşdırır və yaradır. Həmin prosesləri insan kimi yaşamaq xüsusiyyətlərinə və yaşamaq uğrunda mübarizə metodlarına tətbiq edir.

Psixikanın ekzistensial şöbəsindən başlayan bu proseslər, koqnitiv şöbədən başlayan mənəvi-sosial dəyərlərlə qarşılıqlı əlaqəyə girərək son anda insan kimi yaşamaq xüsusiyyətlərini, yaşamaq uğrunda mübarizə metodlarını, yaşamaq əxlaqını və mənəviyyatını formalaşdırırlar. İndi isə Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində tam formalaşmağa xidmət edən ikinci növ proseslər sistemi olan – mənəvi-sosial dəyərlərlə ətraflı şəkildə tanış olaq.

## 7.5 MƏNƏVİ-SOSİAL DƏYƏRLƏR

Subyektivləşmə, insanlaşma ilk növbədə insan psixologiyasının, mənəviyyatının və xarakterinin yaranmasını tələb edir. Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində tam formalaşmada mənəvi-sosial mübarizə metodları və əsaslandırıcı mənəvi amillər daha qlobal şəkildə meydana çıxır. Məlumdur ki, yaşamaq üçün mənəvi əsaslar, təhrikedici xüsusiyyətlər mühüm əhəmiyyətə malikdir. Çünki yaşamaq üçün fərdə lazım olan fundamental subyektivləşmə prinsipləri, yaşamağı əsaslandıran xüsusiyyətlər məhz, insan psixologiyası daxilində olan mənəviyyatda cəmləşir. Mənəviyyat haqqında çox danışmaq olar. Bizi isə əsasən, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində əsaslandırıcı, təhrikedici mənəvi-sosial proseslərin yaranması, mahiyyəti və fəaliyyət prinsipləri maraqlandırır.

Psixikada yaşamaq xüsusiyyətlərinin yaranması, sosial münasibətlərin genişlənməsi fərdin yaşamaq uğrunda mübarizəsini əsaslandıran amilləri də mürəkkəbləşdirir. Ona görə Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində daha mühüm subyektiv xüsusiyyətlər sisteminin yaranması tələb olunur. İnsan mənəviyyatı, əsaslandırıcı və təhrikedici mənəvi-sosial mübarizə metodları da bu tələbatlardan doğur.

Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində ekzistensial psixi fəaliyyət xüsusiyyətlərinin subyektiv mənəvi əsaslarla birgə fəaliyyəti yaşamaqla bağlı əsas təhrikedici amillərdən biri olan **yaşamaq həzzini** yaradır. Yaşamaq həzzi fərdin fəaliyyət göstərib yaşaması üçün mənəvi şərait yaradan, mühüm təhrikedici amildir.

Yaşamaq həzzi də öz tam subyektiv formalaşma əsaslarını Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsindən götürür. Yaşamaq həzzi yaşamağa olan meyillərin əsasında yaranaraq bu prosesləri daha da aktivləşdirir. Yaranması və fəaliyyəti baxımından yaşamaq həzzi asılı olmayan psixikadaxili proseslər kimi mövcud olur. Hamımızı "niyə yaşamaq şirindir" kimi primitiv sual həmişə düşündürür. Yaşamağa olan bu qəribə fundamental meyil, həzz haradan gəlir? Cavab da həmişə eynidir. Yaşamaq həzzi, ona olan meyillər təbii, asılı olmayan təhrikedici proseslərdir. İstəyimizdən asılı olmayaraq, bu tipli meyillər, həzlər Psixika daxilində yaşamağa olan aktiv impulsiv informasiyalar kimi yaranır.

İndi isə daha mürəkkəb və əhəmiyyətli prosesləri nəzərdən keçirək. Hansı ki, onlar Psixikada birbaşa yaşamaq üçün lazım olan ümümi mənəvi və sosial təhriklərin əsaslarını qoyurlar. Bu proseslər sistemini **mənəvi-sosial dəyərlər** kimi adlandıracağıq.

Yaşamaq uğrunda mübarizəni əsaslandıran, insan mənəviyyatını tamlaşdıran əsas xüsusiyyətlər sistemi mənəvi-sosial dəyərlərin köməyi ilə yaranır. Mənəvi-sosial dəyərlər subyektivləşməyə, insanlaşmağa ictimai münasibətlərdə real şərait yaradır və orada insan kimi yaşamağı təmin edir.

Mənəvi-sosial dəyərlər Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində tam yaranıb formalaşaraq insan ömrünün sonuna qədər onun həyat və fəaliyyətinin tənzim-

lənməsində mühüm rol oynayır. Fərd bu cür proseslərin mənfi və müsbət təsirləri altında yaşayaraq öz mənəviyyatını, ömrünü yaradır. İnsanın özünəməxsus, təkrarolunmaz psixologiyası, həyatı mənəvi-sosial dəyərlərin fəaliyyət səviyyəsindən asılı olur. Mənəvi-sosial dəyərlər Psixikada emosiyalar və hisslər sisteminin yaranmasında da mühüm əhəmiyyətə malik olurlar.

Mənəvi-sosial dəyərlərin ən ali funksiyası yaşamaq uğrunda mübarizəni və yaşamaq meyillərini, həzzini əsaslandırmaqdır. Bu əsaslandırma funksiyası Psixikada mənəvi və sosial mahiyyət daşıyan bütün prosesləri əhatə edir. Bundan əlavə, mənəvi-sosial dəyərlər insan Psixikasında şəxsiyyətin formalaşmasının subyektiv əsaslarını qoyurlar. Yəni onlar fərd üçün yaşamaq amilini mürəkkəbləşdirir və zənginləşdirirlər. Bu da yaşamaq uğrunda mübarizənin mahiyyətini, nəticələrini gücləndirir.

Psixikada yaşamaq məfhumunu, yaşamaq uğrunda mübarizəni əsaslandıran mənəvi-sosial dəyərlər çoxdur. Belə dəyərlər də olur ki, insan ömrünün müəyyən yaş dövrlərində yaranır. Lakin bizi maraqlandıran Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında dördüncü mərhələdən başlayaraq birbaşa iştirak edən fundamental mənəvi-sosial dəyərlərdir. Məhz, onlar ilkin olaraq Psixikaya, insan mövcudluğuna koqnitivlik və subyektiv mübarizlik bəxş edirlər.

İndi isə məlum mənəvi-sosial dəyərlərlə tanış olaq. Bu dəyərlər hamımıza yaxşı məlumdur. Psixikanın, insanın, dünyanın, yaşamağın formalaşma və inkişaf qanunauyğunluqlarını nəzərə alaraq insan kimi yaşamağı, onun uğrunda mübarizəni əsaslandıran ən mühüm mənəvi-sosial dəyərləri aşağıdakı kimi seçib müəyyənləşdirə bilərik.

1. **Nəfs və tamah**
2. **Arzular, xəyallar, xülyalar**
3. **Vicdan**
4. **Məhəbbət**
5. **Xoşbəxtlik**
6. **İnam**
7. **Ümid**
8. **İradə**

9. **Şübhə**
10. **Azadlıq**

Bir daha xatırladırıq ki, bu siyahını artırmaq və genişləndirmək mümkündür. Lakin biz, insanın aktiv sosial-psixoloji və fiziki həyatını formalaşdıran, zənginləşdirən və tənzimləyən ən mühüm mənəvi-sosial dəyərləri maksimum səviyyədə ümumiləşdirib seçmişik.

### 7.5.1 Nəfs və tamah

Demək mümkündür ki, nəfs və tamah yaşamaq uğrunda mübarizə metodlarını yaradan və akivləşdirən ən hegemon amildir. Əgər digər mənəvi-sosial amillər öz psixoloji, subyektiv qapalılığı ilə seçilirlərsə, insan nəfsi və tamahı sosial münasibətlərdə, məişətdə hiss olunan, görünən maddi-mənəvi əsaslı mübarizə metodudur. Bu baxımdan, tamah və nəfs yaşamağa olan mübarizənin geniş müstəqilliyini yaradır. Yəni fərd istəyindən asılı olamayaraq nəfsinin, tamahının təkidi ilə fəaliyyətini, sosial mübarizə metodlarını təbii olaraq genişləndirir və aktivləşdirir.

Düzdür, nəfs və tamah öz mənfi, müsbət xüsusiyyətləri ilə daha çox nəzəri cəlb edir. Lakin bizim üçün Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanması baxımından nəfs, tamah daha müsbət nəticələr yaradan proseslər kimi pozitiv mövqedə dururlar. Çünki nəfs, və tamah Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasında mühüm təhrikedici prosesdir. Onların təbii təhrikedici təsirləri nəticəsində fərd öz mübarizə, fəaliyyət metodlarını tamahına uyğun dəyişdirir, yeniləşdirir.

Deməli, yuxarıda dedilklərimizi nəzərə alsaq, nəfsi və tamahı yaşamaq uğrunda mübarizənin formalaşmasında orqanizmdəki psixoloji, bioloji və sosial gücləndirici (katalizator) saymaq olar. Əgər insan nəfsi, tamahı olmasaydı Psixikada yaşamaq uğrunda mübarizə metodları yalnız mövcud olmağa xidmət edən çox primitiv və biristiqamətli olardı.

Məlumdur ki, Psixikada insan nəfsi, tamahı "mənimdir" və "fərdi özəlləşdirmə" xüsusiyyətlərini əks etdirən məntiqi-filoloji anlamları əhatə edir. Bu baxımdan, nəfsin və tamahın ilkin yaranma mənbəsi "mən"in insan Psixikasında yaranmasına (üç yaşlarına) təsadüf edir. "Mən"in yaranması insan nəfsinin, tamahının ilkin sindromudur. Uşaqlıq dövründə nəfs, tamah kortəbii primitiv mahiyyət daşıyır. Məhz Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində nəfs, tamah koqnitiv-sosial xarakter mahiyyəti alır. Kortəbii "mənimdir" amili daha məntiqli, geniş "fərdi özəlləşdirmə" xüsusiyyətlərinə çevrilir. Bu prinsiplər yaşamaq uğrunda mübarizəni ciddiləşdirir, zənginləşdirir. Nəticədə, Psixikada fərdin nəfsi, tamahı özəlləşdirmək, xüsusiləşdirmək kimi xüsusiyyətləri daha da aktivləşdirir.

İnsan nəfsi, tamahı həm maddi-bioloji, həm də mənəvi-psixoloji mahiyyətlidir. Yəni nəfsimizin təhriki ilə qida qəbulunu digər bioloji təbii tələbatları, mənəvi tələbatlarımızla bağlı isə digər lazım olan prosesləri yerinə yetirməli oluruq. Nəfs, tamah ümumi psixoloji, bioloji və sosial mahiyyətli psixikadaxili təhrikdir.

Nəfs, tamah problemlərinə ictimai və elmi ədəbiyyatda, xalq psixologiyasında geniş formalarda toxunulub. Belə ki, əksər hallarda madii-məişət proseslərində, sosial münasibətlərdə nəfsin, tamahın qarşısını almaq qeyri-mümkün olur. Bu proses bütün sosial, siyasi, zehni münasibətləri əhatə edir. Sırf sosial-məişət münasibətlərində isə nəfs, tamah ən güclü psixikadaxili təhrik sayıla bilər. Bəzən insan nəfsi, tamahı anormal səviyyəyə qədər yüksələ bilir. Bu cür insanlar (həddən çox xəsis olanlar) hətta, bu baxımdan, psixi xəstəlik səviyyəsinə də çata bilirlər. Məsələn, pula, var-dövlətə hədsiz anormal meyil, bu sahədə anormal səviyyəli xəsislik "pullizm xəstəliyi" kimi psixikadaxili pozğunluqlar yarada bilər. "Pullizm xəstəliyi"nə tutulmuş şəxslər bəzən pula, var-dövlətə görə öz sağlamlıqlarını, həyatlarını da qurban verirlər. Təbii olaraq bu pula, var-dövlətə hədsiz anormal meyillə bağlı olan real psixi xəstəlikdir.

Nəfs, tamah mənəvi-sosial dəyərlər kimi Psikikada yaşamaq xüsusiyyətlərinin hazırlanması prosesləri ilə paralel yaranırlar, formalaşırlar. Psixika təbii olaraq yaşamaq xüsusiyyətlərinin hazırlanmasında nəfs, tamah kimi aktiv təhrikedici proseslərə ehtiyac du-

yur. Nəfsin, tamahın sərhədsizliyi, fasiləsizliyi, aktivliyi insanın yaşamaq uğrunda mübarizəsinin də sərhədsizliyinə, fasiləsizliyinə, aktivliyinə xidmət edir. Şübhəsiz, Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasının dördüncü mərhələsində bu cür bioloji, psixoloji və sosial mahiyyətli təhrikedici fasiləsiz proseslərin olması zəruridir. Bu amil Psixikada insanın yaşamaq və inkişaf prinsiplərini nəzərə alan fundamental qanunauyğunluqdur.

### 7.5.2 Arzular, xəyallar, xülyalar

Hamımıza yaxşı məlumdur ki, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsini əhatə edən yaş dövrlərində hər bir yeniyetmə, gənc arzular, xəyallar və xülyalar aləmində uçmağa başlayır. Psixikada yaşamaq məfhumunun hazırlanmasında, yaşamaq uğrunda daha geniş, müxtəlif mübarizə metodlarının yaranmasında arzular, xəyallar və xülyalar çox mühüm məntiqi-subyektiv təhrikedici əhəmiyyətə malikdirlər. Məlum təhrikedici amillər şəxsiyyətin formalaşmasında mənəvi-sosial mübarizə funksiyalarını yerinə yetirirlər.

Bütün insanların arzuları olur, bütün insanlar xəyallara dalırlar və bütün insanlar bir az da qabağa gedib xülyalara qərq olurlar. Onların hər biri elə Psixikada yeni mənəvi reaksiyalar, yeni fəaliyyət xüsusiyyətləri və yaşamaq uğrunda yeni sosial-maddi mübarizə metodları yaradırlar.

Arzular, xəyallar və xülyaların məhz, bu yaş mərhələsində daha aktiv və sanballı formalarda meydana çıxmaları da təbiidir. Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanması və bu proseslərə lazım olan aktiv mübarizə metodlarını yaratmaq üçün əlavə təhrikedici qüvvələrin olması zəruridir. Bu real təhrikedici təsirlərə malik "qüvvələri" məhz, müxtəlif formalarda reallaşan arzular, xəyallar və xülyalar yaradır. Onlar yaşamaq uğrunda mübarizəni əsaslandıran, onu formalaşma və inkişaf prinsiplərinə uyğunlaşdıran subyektiv mahiyyətli mənəvi-sosial dəyərlərdir.

Arzular, xəyallar, xülyalar Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanması proseslərini aktivləşdirən, zənginləşdirən ən

yüksək səviyyəli koqnitiv, subyektiv mahiyyətə malik təhrikedici funksiyalar və xüsusiyyətlər sistemidir.

Əlbəttə, burada mənəvi-psixoloji tənzimləmə daha çox diqqəti cəlb edir. Yəni arzular, xəyallar və xülyalar Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasında, oradakı mübarizə metodlarında "mənəvi-hüquq konsepsiyası" kimi formalaşırlar. Elə ona görə onlar uğrunda mübarizə daha aktiv və nizam-intizamlı prinsiplər, xüsusiyyətlər çərçivəsində aparılır. Bu təhrikedici xüsusiyyətlər qarşısında mənəvi və sosial məsuliyyət hiss edilir. Deməli, məlum mənəvi-sosial dəyərlər Psixika daxilində "qanuni", məsuliyyətli mübarizə və əsaslandırıcı təhrikedici metodlar kimi yaranırlar. İstəyimizdən asılı olmayaraq arzular, xəyallar və xülyalar yaşamaq uğrunda mübarizəmizin, gündəlik həyatımızın təbii təhrikedici amillərinə – mayaklarına çevrilirlər.

### 7.5.3 Vicdan

Vicdan mənəvi-sosial dəyər kimi Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasında əsas təhrikedici amil formasında nəzəri cəlb etməsə də, o yaşamaq məfhumunun mahiyyətini, onun uğrunda olan mübarizə metodlarını əsaslandıran ən güclü mənəviyyat və əxlaq normasıdır. Vicdan yaşamaq uğrunda mübarizə metodlarını məsuliyyətli formada tənzimləyir və onun sosial-psixoloji hədd səviyyəsini yaradır. Yəni hər bir fərd adətən, istəyindən asılı olmayaraq vicdani hədd xüsusiyyətlərinə uyğun fəaliyyət göstərib yaşamağa məcbur olur.

**Deməli, yaşamaq və yaşamaq uğrunda mübarizəmizdə məsuliyyətimizin mərkəzi sayıla bilən vicdan, yaşamaq xüsusiyyətlərimizi həm əsaslandırır, həm də əxlaq normalarına riayət etməklə tənzimləyir.**

Vicdan nəinki, fərdi-psixoloji və sosial münasibətlərdə, hətta dövlətin siyasi idarəetmə prinsiplərində və hüquqi azadlıqlar çərçivəsində nəzərə alınır. Məsələn, "vicdan azadlığı" dövlətlərin milli konstitusiyalarında öz əksini tapır. Məlum olur ki, vicdan və vicda-

ni xüsusiyyətlər sistemi həm də dünyada dövlətlərin siyasi-hüquqi idarəetmə hakimiyyətlərində rəsmiləşdirilmiş psixikadaxili prosesdir.

İnsan əxlaqının ən dərin və ən güclü istinad nöqtəsində yerləşən vicdan yaşamağın ən ülvi və təmiz mövcudluq mahiyyətinə xidmət edir. Bu ali məsuliyyət amili çox güclü sosial-psixoloji təsir xüsusiyyətlərinə malikdir. İnsan psixologiyasında, mənəviyyatında vicdan məsuliyyət tənzimləyicisi ilə bərabər həm də geniş, uzunmüddətli təsir izləri buraxan sarsıdıcı psixoloji mövqeyə məxsus olur. Elə ona görə, hər hansı bir şəxsin ömrünün sonuna qədər vicdan əzabi ilə yaşaması mülahizəsi boş yerdən yaranmayıb.

Vicdan və vicdani xüsusiyyətlərin də məhz Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasının dördüncü mərhələsində ətraflı şəkildə yaranmağa başlaması təsadüfi sayıla bilməz. Məlumdur ki, bu mərhələdə Psixikada yaşamaq proseslərinin tam hazırlanması ilə əlaqədar olaraq sosial-psixoloji fəaliyyət xüsusiyyətləri aktivləşir, mürəkkəbləşir. Şübhəsiz, bu zəngin, aktiv sosial-psixoloji psixikadaxili prosesləri tənzimləmək üçün Psixikada məsuliyyəti yaradan, idarə edən güclü təhrikedici əxlaqi xüsusiyyətlər sisteminə ehtiyac duyulur. Bu da məhz, vicdan və vicdani xüsusiyyətlər formasında meydana çıxır. Yalnız bundan sonra yaşamaq uğrunda sağlam, aktiv və ümumi mübarizə xüsusiyyətlərinin əsasları qoyulur.

Vicdan və vicdani əxlaq normaları Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasının dördüncü mərhələsindən ətraflı şəkildə yaranmağa başlayaraq insan ömrünün sonuna qədər ona yaşamaq uğrunda mübarizədə sağlam aktiv mənəvi şərait, əlverişli sosial münasibətlər mühiti bəxş edir. Vicdan Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında və bu proseslərin tənzimlənməsində ən yüksək səviyyədə duran məsuliyyət amili, forması və səviyyəsidir.

### 7.5.4 Məhəbbət

Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanması baxımından məhəbbət amili ilk növbədə ümumi anlam kimi qəbul edilməlidir. Yəni ümumiyyətlə, məhəbbət nəyə və kimə isə yönəlmə-

sindən asılı olmayaraq yaşamaq xüsusiyyətlərini formalaşdıran, yaşamaq uğrunda mübarizəni əsaslandıran mənəvi-psixoloji xüsusiyyətlər sistemidir. Məsələn, oyuncaqlara olan ilkin primitiv məhəbbət, anaya olan valideyn məhəbbəti, vətənə olan milli məhəbbət, xoşlanılan şəxsə olan mənəvi-cinsi məhəbbət və sairə kimi hallar yaşamaq amilinin hazırlanması proseslərinə, yaşamaq uğrunda mübarizəyə təhrik edən mühüm amillər formasında meydana çıxır. Lakin məhəbbət və məhəbbət xüsusiyyətlərinin ən fundamental tərəfi onların cinsi-psixoloji mahiyyət kəsb etmələridir.

Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının üçüncü mərhələsində cinsi yetkinləşmə dövrü keçmiş fərd artıq dördüncü mərhələdə aktiv şəkildə sosial və cinsi mənəviyyata, fəaliyyətə yiyələnməyə başlayır. Psixikada bu tipli prosesləri tənzimləməklə məşğul olan əsas sosial-emosional proseslər sistemindən biri də məhəbbətdir. Məhəbbət insan kimi yaşamaq xüsusiyyətləri tam formalaşdıran, yaşamaq uğrunda mübarizəni əsaslandıran sosial və cinsi-psixoloji mahiyyət daşıyan mənəvi-sosial dəyərdir. Onun fəaliyyət xüsusiyyətlərinin yaranması ilə Psixikada yaşamaq proseslərinin hazırlanmasında yeni keyfiyyətlər, yeni mübarizə metodları meydana çıxır. Cinsi mənəviyyatın və mədəniyyətin fundamental əsasları qoyulur. Cinsi meyilə təcrubi meyil formalaşır. Orqanizmin bioloji və fizioloji inkişafı da bu proseslərə xidmət edir.

Məlumdur ki, məhəbbət və məhəbbətlə bağlı yaranan xüsusiyyətlər qeyri-adi, müəmmalı emosional hisslər sisteminə daxildir. Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsi də orqanizmin inkişafı və aktivləşməsi ilə əlaqədar olaraq böhranlı yaş dövrüdür. Təbii olaraq fərd öz böhranlı yaş dövründə yeni yaranmış qeyri-adi aktiv hisslərə soyuqqanlıqla cavab verə bilməz. Nəticədə, fərdin sosial və psixoloji həyatı daha da böhranlı mübarizə və formalaşma dövrünə qədəm qoyur. Sadəcə olaraq bu hal müsbət nəticələr verən təbii böhrandır. Məsələn, bu böhranlı şərait Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının və mübarizə metodlarının yaranmasının daha da aktivləşməsinə xidmət edir.

Məhəbbət xüsusiyyətlərinin Psixikada yaranması ilə yaşamaq uğrunda cinsi-sosial mübarizə metodları genişlənərək mənəviyyat və yaşamağın mahiyyətini zənginləşdirir. Bu cür xüsusiyyətlər sistemi

Psixikada digər ümumi emosional proseslərin yaranmasında da mühüm əhəmiyyət kəsb edir. Əslində isə bu proseslər sistemi tam subyektivləşməyə və insanlaşmağa əsaslanır. Məsələn, insan Psixikasına məxsus məhəbbət amili ümumi canlı aspektində subyektiv cinsi həyatı digər canlılaradan fərqləndirir. İnsanlar üçün məhəbbət kütləvi və kortəbii cinsi proseslərdən çəkindirən bəşəri xüsusiyyətdir. Ona görə subyektiv cinslərin sosial-məişət münasibətləri və bir-birlərinə yaxınlaşması məntiqli mədəni mahiyyət kəsb edir.

Məhəbbət də Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında sosial-psixoloji və bioloji mahiyyət daşıyır. Bu cür hisslər sistemi insan orqanizminin biofizioloji strukturuna da təsiretmə əhəmiyyətinə malikdir. İnsanın psixoloji, bioloji və sosial mövcudluğu üçün məhəbbət xüsusiyyətləri tələbatları ödəmə baxımından mühüm əhəmiyyət kəsb edirlər. Məsələn, cinsi əlaqə və yaxud mənəvi tələbatların ödənilməsində məhəbbət xüsusiyyətlərinin müsbət üstünlüklərini görmək mümkündür. Deməli, məhəbbət insan orqanizminin ruhunda, bioloji mövcudluğundadır və onlara real təsiretmə imkanlarına mailkdir.

Məhəbbət Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında, yaşamaq uğrunda mübarizə metodlarının yaranmasında yaşamaq meyillərini və yaşamaq həzzini ən çox aktivləşdirən, zənginləşdirən mənəvi-sosial dəyərdir.

Məhəbbət, ümumiyyətlə, bütün mənəvi-sosial dəyərlər haqqında çox danışmaq olar. Lakin biz məlum mənəvi-sosial dəyərlərin yalnız Psixika və orada yaşamaq xüsusiyyətlərinin hazırlanması baxımından nəzəri cəlb edən ən mühüm problemlərini qısa və ümumi şəkildə araşdırırıq.

### 7.5.5 Xoşbəxtlik

Cəmiyyətdə əksər insanların həddən çox xoşladığı, gecə-gündüz arzuladıqları, onun uğrunda aktiv mübarizə apardıqları və daim qovuşmaq istədikləri mənəvi və sosial-psixoloji mövcudluq amili məhz, xoşbəxtlik kimi anlaşılır.

Xoşbəxtlik haqqında ictimai və fəlsəfi fikir tarixində çox yazılıb, bu problemə müxtəlif istiqamətlərdən yanaşılıb, onun barəsində müxtəlif mülahizələr irəli sürülüb. İnsanlar arasında xoşbəxtlik haqqında çox qeyri-adi fəlsəfi mülahizələr də mövcuddur. Məsələn, onların bəziləri xoşbəxtlik amilini cəfəngiyat adlandıraraq ona meyili primitiv addım sayırlar. Digərləri isə, öz mövcudluqlarını, yaşamaqlarını dünyada elə ən böyük xoşbəxtlik sayırlar və bu sözü (xoşbəxtlik sözünü) heç xoşlamayaraq dünyada yaxşı, maraqlı yaşamaq uğrunda mübarizə aparırlar. Bu misalları artırmaq mümkündür. lakin bunlar cəmiyyətdə tamlığı əhatə etməyən istisna hallardır.

Bizim üçün xoşbəxtlik amili Psixikada yaşamaq uğrunda mübarizəni əsaslandıran, ona təhrik edən, mübarizə metodalarını genişləndirən mənəvi-sosial amildir. Xoşbəxtlik və bununla bağlı xüsusiyyətlər sistemi əsasən Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində yaranmağa başlayır. Bu yaş mərhələsində xoşbəxtlik haqqında düşüncələr, ona nail olmaq uğrunda mübarizə aktiv hiss olunur.

Təcrübə göstərir ki, insanlar üçün xoşbəxtlik amili əsasən onların öz mühüm arzularına və məqsədlərinə çatdıqdan sonra yaratdıqları rahat və sanballı həyat şəraitini əhatə edir. Ona görə də fərd bu rahat və sanballı həyatı əldə etmək üçün akativ fəaliyyət göstərməyə başlayır. Təbii, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində bu cür təhrikedici mənəvi proseslərin əhəmiyyəti yüksəkdir. Bu, yaşamaq xüsusiyyətlərinin tam formalaşmasına güclü təkan verir. Nəticədə, Psixikada yaşamaq uğrunda mübraizəyə əlverişli mənəvi şərait yaranır.

Yuxarıda da qeyd etdiyimiz kimi, bəzi insanlar (bəzi filosoflar üçün də) xoşbəxtlik abstrakt, qəbul olunan və qəbul olunmayan bir mənəvi amil ola bilər. Amma onların hamısı və bütün insanlar üçün Psixikada yaşamaq proseslərinin hazırlanmasında xoşbəxtlik amili öz ilkin mövcudluq xüsusiyyətləri ilə hegemonluq edir. Sadəcə olaraq bəzi insanlar (bəzi filosoflar da) bu cür prosesləri məhz, iyirmi yaşlarına qədər elə xoşbəxtlik kimi qəbul edib və etməmələrindən asılı olmayaraq onlardan istifadə edirlər. Və yaxud onlar xoşbəxtlik anlamı altında digər təhrikedici mənəvi xüsusiyyətlərdən yaşamaq uğrunda mübarizədə bəhrələnirlər. Məntiqi nəticə baxı-

mından isə elə bu həmin yaş dövrlərində bütün insanların meyil etdikləri, istifadə etdikləri təhrikedici mənəvi xoşbəxtlik xüsusiyyətləridir.

Xoşbəxtlik Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında, yaşamaq uğrunda mübarizə metodlarının yaranmasında yaşamaq meyillərini və yaşamaq həzzini aktivləşdirən, zənginləşdirən daha çox sosial-psixoloji mahiyyət kəsb edən mənəvi-sosial dəyərlərdən biridir.

Deməli, xoşbəxtlik və bununla bağlı yaranan xüsusiyyətlər sistemi azad və qayğısız yaşamaq uğrunda mübarizəni yaradan, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanma proseslərini aktivləşdirən təhrikedici funksiyalar sistemidir. Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində xoşbəxtlik, qayğısız həyat uğrunda mübarizə Psixikada yaşamaq xüsusiyyətlərinin daha real fundamental əsaslarını yaradır. Xoşbəxtliyə, qayğısız həyata meyil kimi mənəvi təhrikedici gücləndiricilərə Psixika və insan psixologiyası həmişə ehtiyac duyur.

### 7.5.6 İnam

İnam yaşamaq uğrunda mübarizəni aktivləşdirən, insan kimi yaşamaq xüsusiyyətlərinin hazırlanmasında iştirak edən qismən mürəkkəb olan mənəvi-sosial dəyərlərdəndir. Müasir dövrdə də inam, onun mövcudluq xüsusiyyətləri ictimai elmlər sistemində aktual problem kimi nəzəri cəlb edir. İnam fərdi yaşamağa təhrik edən geniş, mürəkkəb xarakterli mənəvi-sosial amildir. İnamla bağlı proseslər asılı olmayan psixikadaxili xüsusiyyətlər formasında da yarana bilir.

Psixikada inamın ilkin xüsusiyyətləri məhz, insanın öz subyektiv mövcudluğuna olan fərdi inamından yaranır. Bu yanaşma qeyri-adi səslənsə də insanın öz varlığına olan subyektiv inamı formalaşdırmaq üçün Psixikada müəyyən vacib proseslər baş verir. Bu zaman inam insan üçün fərdi mahiyyət daşıyır. Fərdin öz varlığına inamı Psixika və yaşamaq amili ilə birgə paralel formalaşır. Məlum

proseslərdən sonra artıq fərd Psixikası insan kimi mövcud olduğunu dərk edib özü üçün təsdiqləyir.

İnam sosial-psixoloji münasibətlərin qurulmasında mühüm rol oynayır. Burada inam əsasən münasibətlərin, qarşılıqlı əlaqələrin qiymətləndirilməsi və tənzimlənməsi funksiyalarını da yerinə yetririr.

İnam və inamla bağlı proseslər özlərinin ən mürəkkəb formalarına məhz Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanma proseslərində və yaşamaq uğrunda mübraizə metodlarının yaranmasında çatırlar. Şübhəsiz, inamsız yaşamaq, mübarizə aparmaq qeyri-mümkündür. Elə inamın bu ali xüsusiyyəti Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında, yaşamaq uğrunda mübarizənin yaranmasında fundamental təhrikedici əhəmiyyətə malikdir. Məhz Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasının dördüncü mərhələsində inam proseslərinin daha geniş formalarda yaranması amili Psixikada ehtiyac duyulan ən vacib xüsusiyyətlərdən biridir.

Dördüncü mərhələdə tam, koqnitiv səviyyədə yaranan inam sonralar müxtəlif səviyyələrdə mövcud olur və Fərdin bütün fəaliyyətini və emosional həyatını əhatə edir. Ümumiyyətlə isə, mənəvi və sosial münasibətlərdə formalaşmış inamın aşağıdakı səviyyələrini ayırd etmək olar.

1. **İnamın fəlsəfi səviyyəsi.**
2. **İnamın dini səviyyəsi.**
3. **İnamın psixoloji səviyyəsi.**
4. **İnamın sosial fəaliyyət səviyyəsi.**

Bu səviyyələrdə inamın fərdin sosial-psixoloji həyatında vacib rolunu bir daha təsdiqləyir. İnam burada yaşamaq uğrunda mübarizə metodlarında özünəməxsus xüsusiyyətlərə malik olur. Hər bir şəxs yaşamaq uğrunda mübarizə metodlarında həmin özünəməxsusluqdan öz xarakterinə və həyat şəraitinə uyğun istifadə edir.

### 7.5.7 Ümid

Ümid sırf tənzimləyici və təhrikedici xüsusiyyətlərə malik mənəvi-sosial dəyərdir. Ümid insan psixologiyasındakı bütün reallıqlara olan koqnitiv və ekzistensial inamı əsaslandırır. İlk dövrlərdə ümid Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında, yaşamaq uğrunda mübarizədə hiss olunmayan qapalı səviyyələrdə yaranır. Ümid də mürəkkəb mahiyyətli və fəaliyyətli psixikadaxili proseslər sistemindən biridir. O, daha ciddi mənəvi amil kimi mövcuddur. Ümidin Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasının dördüncü mərhələsində yaranması da fərd üçün primitiv mahiyyət daşımır. Bu yaş dövrlərindən başlayaraq ümiddən bir mənəvi-sosial amil kimi artıq istifadə edilməyə başlansa da, onun mövcudluq mahiyyətini anlamaq fərd üçün müəyyən çətinliklər yaradır. Yaşa dolduqca ümid və onun mövcudluq xüsusiyyətləri fərd Psixikasında adiləşməyə, anlaşılmağa başlayır.

Ümid yaşamaq xüsusiyyətlərinin hazırlanmasında və yaşamaq uğrunda mübarizədə həm də aktiv psixoloji müdafiəni yaradır. Bu müdafiə proseslərində ümid inamla sıx qarşılqlı əlaqələrdə olur.

Burada bir ziddiyyətli problem var. Onun da əsasını ümidsizliklə inamsızlıq arasında olan müqayisəli dərk təşkil edir. Məsələn, "inanmıram, amma ümdimi qıra bilmirəm" və yaxud "çox ümidsizəm, amma inanıram". Bax bu cür ünsiyyət proseslərində ümidlə inamın əks mövqeli məntiqi-filoloji mahiyyətlərini görmək mümkündür. Məlum şəraitdə fərd müəyyən psixoloji müdafiə üçün bu cür fikirləri söyləməli olur. Ümumi halda isə məntiqi və mahiyyət baxımından, ümid inamla qarşılqlı koqnitiv səviyyəyə malikdirlər. Ona görə də bəzən onları məntiqi nəticənin alınması cəhətdən səhv də salırlar. Lakin onların hər ikisinin mövqeyini və qarşılıqlı mahiyyətini təsdiqləyən məntiqi-filoloji ünsiyyət kəlamları da insanlar arasında tez-tez işlədilir. Məsələn, "ümidim var çünki inanıram".

Ümid daha mürəkkəb mənəvi, psixoloji və sosial mahiyyətli psixikadaxili proses olduğundan onun öyrənilməsi çox geniş araşdırmaları və fəlsəfi yanaşmanı əhatə edir. Ümid mürəkkəb təhrikedici və əsaslandırıcı proseslər sistemi kimi Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasının dördüncü mərhələsindən başla-

yaraq fərdin həyatında və yaşamaq uğrunda mübarizə metodlarında daha geniş formalarda aktivliyə və fəaliyyət zənginliyinə səbəb olur. O, yaşamaq uğrunda mübarizədə daha mürəkkəb mənəvi və sosial təhrik xüsusiyyətlərini yaradır.

### 7.5.8 İradə

Psixikada yaşamaq uğrunda mübarizəni əsaslandıran, insan kimi yaşamaq xüsusiyyətlərinin yaranmasına təhrik edən növbəti mürəkkəb mənəvi-sosial dəyər məhz, iradə sayıla bilər. Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasında, yaşamaq uğrunda mübarizədə iradə mübarizlik, əzmkarlıq sindromu kimi meydana çıxır. İnsan psixologiyasında yaranan iradi keyfiyyətlər yaşamağa olan meyili, mübarizəni əhatə edən bütün prosesləri fərdin fiziki və mənəvi fəaliyyəti üçün tənzimləyir. Əslində yaşamaqla bağlı müəyyən bir reallığa və şəraitə nail olmaq üçün göstərilən əzmkar mübarizə xüsusiyyəti iradənin adi mövcudluq və fəaliyyət səviyyəsidir.

Psixikada iradi keyfiyyətlərin yaranması iki cür formalaşır. **Birincisi, fərdin öz mənəvi aləminə olan şəxsi iradi mübarizəsi formasında. İkincisi, fərdin xarici mövcudluğa qarşı mübarizəsində iradi keyfiyyətlərdən istifadəsi formasında.**

Bu funksional iradi keyfiyyətlərin formalaşması insanın yaşamağa olan mübarizəsində möhkəmliyi, mübarizə əzmini əsaslandıran təhrikedici xüsusiyyətləri yaradır. Nəticədə, insanlar iradi keyfiyyətlərinə görə səviyyələrə bölünürlər.

Beləliklə, iradə möhkəmliyi yaşamaq uğrunda mübarizənin sağlamlığını və aktivlik dərəcəsini müəyyənləşdirən amilə çevrilir. Yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasının dördüncü mərhələsində iradə daha mühüm rol oynayır. Sosial-psixoloji münasibətlərin aktivləşdiyi və genişləndiyi bu dövrdə hər bir fərdə ilk dəfə qarşılaşdığı fəaliyyət çətinliklərində dözüm, iradi keyfiyyətlər çox lazımdır. İradi keyfiyyətlərin fasiləsiz mövcud olması fərdin yaşamağa olan meyillərinin sayını və təsirlərini artırır. Fərdin sonrakı həyat fəaliyyətində iradə sağlam təhrikedici mübarizlik sindromu

kimi həmişə hiss olunur və yaşamaqla bağlı yaranan ciddi problemlərə qarşı mübarizədə müsbət tənzimləyici rolunu davam etdirir.

### 7.5.9 Şübhə

Sırf psixoloji mahiyyət kəsb edən şübhə yaşamaq uğrunda mübarizəni əsaslandırmaqla yanaşı, onu mürəkkəbləşdirən, ona bünövrə əsası yaradan mənəvi-sosial dəyərdir. Biz nəyi isə anlamaq, kimi isə dərk etmək istəyiriksə çox vaxt yaranmış şübhələrə üstünlük veririk və yaxud burada yaranmış şübhə informasiyalarına əsaslanırıq. Yaşamaq uğrunda mübarizə xüsusiyyətlərinə yiyələnmədə şübhə həm də aydınlaşdırma, dəqiqləşdirmə funksiyalarını yerinə yetirir. Şübhələnmək real fəaliyyətə və mübarizəyə təhrik xüsusiyyətlərinin əsasını qoyur.

Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasının dördüncü mərhələsində - tam formalaşma dövründə şübhə amili fərd üçün tam elə dərk edilməyən formalarda olur. Sadəcə olaraq şübhə amili yaranır və o böhranlı formalaşma dövründə aktiv, lakin hiss olunmayan şəkildə fəaliyyət göstərir.

Məlum oldu ki, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında şübhə əsas emosional mahiyyətə malikdir. Bu çox qeyri-adi, mürəkkəb psixoloji proseslər sistemidir. Şübhə həm də Psixika daxilində ekzistensial mahiyyət daşıyır. Yəni insan özü-özündən şübhələnməsə özünü, öz mövcudluğunu qavrayıb dərk edə bilməz. Bu təbii psixikadaxili prosesdir. Bütün subyektiv və obyektiv münasibətlər sistemini əhatə edir. Psixikadaxili bu fərdi münasibətlər sistemi Psixikanın yaşamaqla bağlı bütün xüsusiyyətlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Şübhə və onunla bağlı yaranan xüsusiyyətlər yaşamaq uğrunda mübarizənin mənəvi və sosial əsaslarını real fəaliyyətə təhriklə əlaqələndirir. Şübhələnmək yaşamaq üçün ekzistensial və koqnitiv məntiqi fəaliyyəti yaradan qaçılmaz səbəbə çevrilir.

## 7.5.10 Azadlıq

Bütün insanlar, xalqlar müstəqil və azad olmaq uğrunda mübarizə aparırlar. Çünki onlar əvəzedilməz, təkrarolunmaz və elə azad canlılardır. Psixikada yaranan yaşamaq məfhumu azadlıq və müstəqillik uğrunda mübarizə ilə paralel formalaşır. Mübarizə məhz, ilkin müstəqilliyə, azdlığa meyiletmə xüsusiyyətlərindən başlayır.

Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasının dördüncü mərhələsini əhatə edən yaş dövründə fərdin azad və müstəqil fəaliyyətə çox meyilli olması hamımıza yaxşı məlumdur. Bu azad, müstəqil fəaliyyətə və mənəviyyata olan meyillər insanın fərdi formalarda mövcud olmasının və yaşamasının əsaslarını qoyur. Azadlığa meyil insanın mənəvi, sosial inkişaf səviyyəsini yaradır, fərdin yaşaması üçün onun daxili və xarici mübarizə səylərini müstəqil münasibətlər sistemində tənzimləyir.

Deməli, azad olmaq ilk növbədə fərdin öz azad mövcudluğunu yaratmasına xidmət edir. Psixikada azadlığa olan meyilin formalaşması ilk növbədə buna əsaslanır. Düzdür, bu qapalı, hiss olunmaz formada baş verir. Bəzən fərd anlamır ki, o, niyə öz mövcudluğunu, fəaliyyətini müstəqilləşdirmək istəyir. Bu baxımdan, azadlıq uğrunda mübarizə insanı Psixikasında yaşamağı əsaslandıran, yaradan xüsusiyyətli tələbat kimi formalaşır. Bu mənəvi-sosial əsaslı subyektiv formalaşma və inkişaf qanunauyğunluğudur.

Azadlığa meyil sosial münasibətlərin tənzimlənməsində ən ali fərdi xüsusiyyət sayıla bilər. Bu zaman azadlığa meyil halları müxtəlif formalarda meydana çıxır. İnsan psixologiyası üçün azadlıq – **emosional azadlıq, mülkiyyət azadlığı, imkan azadlığı, yaradıcılıq azadlığı, ekzistensial azadlıq, qeyri-adi ekzistensial azdlıq** və sairə kimi formalarda yarana bilər **(Bax: Ş.Dədəyev. "Azadlıq sosial-psixoloji problem kimi". "Qanun" jurnalı, 1998-ci ilin 8, 9 (10), 11 (12) və 13 (14)-cü nömrələri.)**

Azadlığa və asılı olmayan müstəqil fəaliyyətə meyillərin yaşamaq uğrunda mübarizədə təhrikedici amil kimi mühüm rolu heç kəsdə şübhə doğura bilməz. İnsanın sosial-psixoloji həyat səviyyəsi onun azadlığa olan meyil səviyyəsi ilə ölçülür. Bu da təbiidir. Psixikada müstəqil fəaliyyətin və buna uyğun olan həyat səviyyəsinin

yaranması bütün yaşamaq xüsusiyyətlərində hiss olunur. Çünki "azadlıq fərdiləşmə və mədəni yüksəliş proseslərinin zəruri nəticəsidir" **(Bax: E. Фромм. "Бегство от свободы"- M, 1989. səh. 200).** Bu baxımdan, azadlıq insan psixologiyasında sırf sosial və ekzistensial mahiyyət daşıyan psixikadaxili prosesdir.

Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasının dördüncü mərhələsində sosial-psixoloji fəaliyyətin genişlənməsi ilə bağlı olaraq fərdin azad, müstəqil mənəviyyata və fəaliyyətə meyil etməsi mühüm əhəmiyyət kəsb edir. Bu amil hər bir fərdin çətin, mürəkkəb davranış proseslərində və sosial-psixoloji münasibətlərində tək müstəqil fəaliyyət göstərməsinin əsaslarını qoyur. Azadlıq həm də yaşamağa olan meyillərin yaranmasında əsaslandırıcı, təhrikedici amil kimi real təsirlərə malikdir.

**Qeyd: İnsan psixologiyasında, onun gündəlik fəaliyyətində azadlıq və azadlıqla bağlı sosial-psixoloji problemlərin araşdırılmasını əhatə edən problemlərlə ətraflı şəkildə tanış olmaq istəyirsinizsə mənim "Qanun" jurnalında dərc edilmiş "Azadlıq sosial-psixoloji problem kimi" böyük məqaləmi oxuya bilərsiniz (Bax: "Qanun" jurnalı, 1998-ci ilin 8, 9 (10), 11 (12) və 13 (14)-cü nömrələri).**

Deməlı, biz yaşamaq instinktlərini, yaşamağa ölan meyilləri, Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanması mərhələlərini, yaşamaq uğrunda mübarizə metodlarının yaranması proseslərini, digər problemləri və onların qarşılıqlı fəaliyyət xüsusiyyətlərini nəzərdən keçirib təhlil etdik. Psixikada yaşamaq xüsusiyyətlərinin tam hazırlanmasının dördüncü mərhələsində problemləri daha ətraflı şəkildə araşdırdıq. Xüsusilə də, "ekzistensial psixi fəaliyyət" və "mənəvi-sosial dəyərlər" problemləri diqqətimizi daha çox cəlb etdi. Təbii olaraq bu proseslər son mərhələdə daha həlledici mahiyyət və əhəmiyyət daşıyırlar. Lakin bu ekzistensial və mənəvi – sosial amillərdən başqa yaşamaq məfhumunun yaranmasında digər çoxlu mürəkkəb psixikadaxili və orqanizm-daxili proseslər baş verir. Yuxarıda yalnız mühüm ilkin ekzistensial və subyektiv mahiyyət kəsb edən proseslərə və yaşamaq uğrunda mübarizəni əsaslandıran mənəvi-sosial dəyərlərə toxunduq.

Qeyd etdiyimiz kimi, mərhəli formalaşma prosesləri son anda Psixikada yaşamağa olan fundamental fiziki, mənəvi meyilləri və yaşamaq həzzini yaradırlar. Yaşamaq həzzi yaşamağa meyilin və istəyin kökündə durur. Bu cür hallar bizim anlamadığımız, fikir vermədiyimiz asılı olmayan psixikadaxili proseslər sistemi kimi mövcud olur. Yaşamaq istəkləri, meyilləri və həzzi sonrakı yaşamaq uğrunda mübarizədə mürəkkəbləşir, zənginləşirlər. Bu proseslər yaşamaq uğrunda mübarizədə şəraitə uyğun müxtəlif səmtlərə istiqamətlənirlər. Əlbəttə, yaşamaq həzzi bütün insan ömrünü həlledici təhrikedici xüsusiyyətlər sistemi kimi əhatə edir. **Hər yaş dövründə yaşamaq həzzi yeni mahiyyət, yeni mövcudluq xüsusiyyətləri və yeni əhəmiyyət kəsb edir. Əgər belə olmasaydı biz hər yaş dövrünü eyni əhəmiyyətlə yaşayıb onun vacibliyini, şirinliyini qəbul və dərk etməzdik. Deməli, yaşamaq həzzi Psixikada həm də yaşamaq mahiyyətini və yaşamaq uğrunda mübarizəni yaş mərhələlərinə uyğunlaşdırır, yaşamaq xüsusiyyətlərini tənzimləyir.**

Burada real bir sual meydana çıxır. Görəsən, yaşamaq məfhumu, yaşamaq xüsusiyyətləri, insan mənəviyyatı Psixikanın hansı şöbəsindən birbaşa idarə olunur?

Şübhəsiz, bu proseslərdə idarəetmə və tənzimləmə üstünlükləri koqnitiv şöbəyə məxsus ola bilər. Lakin bu proseslər sistemi bütövlükdə Psixikanın koqnitiv şöbəsinin daxili orqanlarını əhatə edə bilməz. Yaşamaq xüsusiyyətlərinin, yaşamaq məfhumunun idarə edilməsi koqnitiv şöbənin (sol yarımkürənin) beyin qabığının alın payı hissəsinə aiddir. Məlum olur ki, yaşamaq xüsusiyyətləri nəhəng, mürəkkəb psixikadaxili proseslərdən sonra hazırlanmış şəkildə alın payında cəmləşir. Çoxlu həyati müşahidələr və elmi tədqiqat nəticələri də bu mülahizəni irəli sürməyə imkan verir. Məsələn, **Qeyc hadisəsi** buna misal ola bilər. Fineas Qeycin başına gələn hadisə 1848-ci ildə 13 sentyabrda baş verib. Facİə nəticəsində dəmir parça Qeycin beyin qabığının alın payı hissəsini ciddi şəkildə zədələmişdi. Çox qəribə də olsa bu ciddi cismani zədə Qeycin ölümünə səbəb olmamış və o, adi yaşayış tərzinə qayıtmışdı. Lakin onun sol yarımkürəsinin alın payı hissəsinin zədələnməsi birbaşa Qeycin mənəviyyat, xarakter və ümumiyyətlə, yaşamaq xüsusiyyətlərində mənfi də-

yişikliklər yaratmışdı (**Вах: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум и поведение". М, 1988. Səh. 130).**

Bundan əlavə, alın payı barədə həmişə tarixi, dini və ictimai mülahizələr mövcud olmuşdur. "Alın yazısı" kəlamı da məhz, bu mülahizələrin məntiqi ümumi nəticəsi kimi yaranıb.

Psixikanın ekzistensial şöbəsinin (sağ yarımkürənin) alın payı da birbaşa məntiqi koqnitiv idarəçiliklə məşğul olmasa da, yaşamaq üçün lazım olan fundamental ekzistensial prosesləri yaradır və tənzimləyir. Yaşamağın tam "mövcud olmaq" hissəsi məhz, orada yaranır.

Alın payı yaşamaq xüsusiyyətlərini, mənəviyyatı tənzimləmək üçün biofizioloji məkana və iş strukturuna malikdir. Artıq qeyd etdiyimiz kimi, alın payı beyin qabığının bütün sahələri ilə funksional idarəedici və tənzimləyici əlaqələr saxlayır. Ona görə də Psixika daxilində bu mühüm sahənin ətraflı şəkildə öyrənilməsi zəruridir. Çünki yaşamaq xüsusiyyətlərinin, insan mənəviyyatının, xarakterinin alın payında yerləşməsi və oradan idarə olunması artıq dəqiq reallığa çevrilib.

## 7. 6 PSİXİKANIN TƏRİFİ

Psixikanın insan orqanizmində yerini, daxili strukturunu, orada psixi proselərin yaranmasını, onun formalaşma proseslərini, ümumi fəaliyyət dairəsini, Psixikada yaşamaq xüsusiyyətlərinin yaranması, hazırlanması mərhələlərini təhlil edib dəqiqləşdirdikdən sonra Psixika haqqında ümumi məfhumlar, biliklər sistemini ümumiləşdirmək mümkündür. Hansı ki, bu anlayışlar, məfhumlar və biliklər sistemi Psixikanın tərifində öz əksini tapacaqdır. Yəni indi artıq Psixika ilə ətraflı tanış olub onun əsas mövcudluq və fəaliyyət xüsusiyyətlərini, funksiyalarını müəyyənləşdirdikdən, tədqiq etdikdən sonra ona tərif vermək olar.

Psixika çox mürəkkəb və nəhəng problemdir. Bu baxımdan, məlum mürəkkəbliyi, hədsiz genişliyi bir yerdə cəmləyərək tərif formasında ümumiləşdirmək çox çətindir. Amma nə etməli, hər bir

elmi anlayışın, məfhumun tərifi olmalıdır. Bu amilləri nəzərə alaraq biz də Psixikaya layiq ümumi, universal bir tərif hazırladıq. Bu tərifdə Psixikanın ən ali mövcudluq xüsusiyyətləri, nəhəng funksiyaları, fəaliyyət prosesləri məntiqi-maksimal şəkildə tərif formasında ümumiləşdirilmişdir. Aşağıda **Psixikanın tərifi sizə təqdim olunur.**

**Psixika - orqanizmin baş beyin hissəsində yerləşən, əsasən böyük beyin yarımkürələrindən və döyənək cisimdən ibarət olan, insan zehnini, onun fəaliyyət, davranış və yaşamaq xüsusiyyətlərini yaradan, ümumi və universal iş xüsusiyyətlərinə, psixi, bioloji, sosial mahiyyətə malik olan, insan orqanizmini idarə edən, tənzimləyən ən aktiv fəaliyyətli sinir orqanı və dünyada analoqu olmayan nəhəng idarəetmə mərkəzidir.**

# 8. PSİXİKADAXİLİ ALİ XARAKTER VƏ ŞƏXSİYYƏT TİPLƏRİ

## 8.1 ALİ XARAKTER VƏ ŞƏXSİYYƏT TİPLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Psixikada yaşamaq xüsusiyyətlərinin, yaşamaq uğrunda mübarizə metodlarının hazırlanmasından sonra insan yaşayış proseslərinə tam qoşularaq öz şəxsi həyatını və ömrünü yaradır. Məlumdur ki, bütün insanlar əvəzedilməz, təkrar olunmaz özünəməxsus fərdi bioloji mövcudluğa və xarakterik xüsusiyyətlərə malikdirlər. İnsanların yaşamaq səviyyəsi məhz, bu özünəməxsus mənəviyyatda, xarakterdə və temperamentdə cəmləşir. Hər bir insan öz xarakterinin, temperamentinin psixoloji, sosial, hətta bioloji təcəssümüdür, subyektiv məhsuludur. Deməli, fərdin gündəlik fəaliyyətində Psixika ilk növbədə onun xarakterində, davranışında büruzə verilir. Xarakter də öz növbəsində insanın sosial-psixoloji həyat tərzini, subyektiv münasibətlər səviyyəsini formalaşdırır. Hər hansı formada bütün bu proseslər Psixikada yaranır və oradan idarə olunub tənzimlənir.

İndi isə çalışacağıq ki, Psixikanın özünü, onun funksional xüsusiyyətlərini insan xarakterində təhlil edək. Bu bizim Psixikanı öyrənmək üçün irəli sürdüyümüz ümumi metodik yanaşma xüsusiyyətlərini əhatə edir. Bu həm də Psixikada formalaşan, hazırlanan insan kimi yaşamaq xüsusiyyətlərinin bir daha müqayisəli təhlilinə kömək edəcək.

**Psixikanın daxili strukturunu, fəaliyyət xüsusiyyətlərini, orada yaşamaq xüsusiyyətlərinin hazırlanması proseslərini, indiyə qədər əldə edilmiş sosial-psixoloji nəticələri nəzərə alaraq insanları üç ümumi psixikadaxili ali xarakter və şəxsiyyət tiplərinə ayıracağıq.** Şəxsiyyət məfhumu da məhz, bu üç tipə uyğun davranış və xarakter xüsusiyyətlərindən formalaşır. Psixika daxilində yaranan həmin ali xarakter və şəxsiyyət tipləri Psixikanın yaşamaq xüsusiyyətlərinin funksional prinsiplərini təcəssüm etdirir. Bu tiplərin daxilində Psixikanın görünən və görünməyən yaşamaq xüsusiyyətləri də öz əksini tapır. Hansı ki, biz onları təhlil və tədqiq etməyə çalışacağıq.

Bizim araşdırmalarımız keçmiş psixoloji xarakter tiplərinin tədqiqindən (məsələn, K.Yunqun "ekstroversiya" və "introversiya") onunla fərqlənir ki, biz bu xarakter tiplərini birbaşa onların formalaşma, yaranma mənbəsi olan Psixikada öyrənirik. Onların spesifik xüsusiyyətlərini insan Psixikasındakı proseslərlə, yaşamaq amili ilə müqayisəli şəkildə dəqiqləşdirməyə çalışırıq. Deməli, biz bu sahədə dəqiq nəticələr almaq üçün daha real və fundamental metodik yanaşmaya malikik.

Ali xarakter və şəxsiyyət tipləri insan orqanizminin əsas xüsusiyyətlərinin tərkib hissəsini təşkil edir. Hər bir tip ümumi xarakter sistemi şəklində psixolojiləşir, biolojiləşir. Çünki xarakter insan mövcudluğunu tənzimləyən mühüm psixikadaxili prosesdir.

İndi isə aşağıda sizə ali xarakter və şəxsiyyət tiplərini təqdim edərək onları ayrı-ayrılıqda araşdırmağa çalışacağıq. Dünyanın bütün insanları bu üç xarakter tipləri üzrə mövcud olur, yaşayır, öz şəxsi həyat və ömürlərini yaradırlar.

1. **Ekzistensial tip: dünyanın qapalı və narahat insanları.**
2. **Daxili qarışıq tip: dünyanı və insanları narahat edən qapalı insanlar.**
3. **Subyektiv normal tip: dünyanı və insanları idarə edən, buradakı prosesləri tənzimləyən sakit tip.**

Bir daha nəzərininzə çatdırırıq ki, bu tiplər insan Psixikası, insan orqanizmi, orada yaşamaq xüsusiyyətləri, psixoloji, bioloji və sosial amillər nəzərə alınaraq ümumi şəkildə təsniflənib.

### 8.1.1 Ekzistensial tip

Ekzistensial tipə qapalı xarakterə, emosional həssaslığa, qeyri-adi davranış xüsusiyyətlərinə malik şəxslər aid edilir. Onlar uşaqlıq illərindən başlayaraq çox qeyri-adi qapalı həyat yaşayırlar. Uşaq oyunlarına az meyil edir və dostlarla təsadüfi hallarda yaxın münasibətlər saxlayırlar. Necə deyərlər, onların öz fərdi qapalı yaşayış

tərzləri olur. Onların əksəriyyəti uşaqlıqda psixoloji mənəvi böhranlar, narahatlıqlar və xəstəliklər keçirirlər. Ona görə də onların əksəriyyəti uşaqlıq illərini xatırlamağı xoşlamırlar.

Sonralar ilk gənclik illərinə çatan kimi dünya, mövcudluq, insanlıq kimi qlobal problemlərin təhlili ilə maraqlanmağa başlayırlar. İnkişaf və formalaşma proseslərinin fərdi araşdırılması onları narahat edir. Yeniyetməlik və ilk gənclik yaşlarından başlayaraq mövcudluq və inkişaf qanunauyğunluqlarının təhlilinə mütəmadi fasiləsiz cəhdlər etmək təbii olaraq həmin şəxslərdə psixi problemlər, əsəbilik yaradır. Onlar daim fikirləşir, nə etmək istədiklərini anlamırlar, dünya və insan mövcudluğunu təhlil etməyə çalışırlar. Nəticədə bu hallar onları qapalılaşdırır, tənhalaşdırır.

Ekzistensial tipli xarakterə malik şəxslər ən çox gənclik illərində psixoloji-mənəvi əzablar çəkirlər. Ətrafdakı gənclərin həyat maraqları, qayğısız yaşamaları onlara çox qəribə görsənir. Onlar da bu cür qayğısız, psixoloji cəhətdən daha sağlam yaşamaq istəsələr də bunu bacarmırlar. Ümumiyyətlə, ekzistensial tipli xarakterə malik əksər şəxslərin gəncliyi narahat, mütəmadi gündəlik streslərlə zəngin, psixopat davranış xüsusiyyətləri ilə keçir. Çünki onların əksəriyyəti "dünya nədir", "mən niyə mövcudam", "niyə insanlar yaşayır" və sairə bu tipli təbii, fəlsəfi müəmmalı suallara cavablar axtarmaqla öz Psixikalarında fəaliyyət böhranı yaradırlar.

Bu tipli sarsıdıcı psixoloji böhranlardan canını qurtara bilməyib özlərinə intihar edən şəxslər də olur. Ümumiyyətlə, intihar edən şəxslərin əksəriyyəti ekzistensial tipli xarakterə malik insanlardır. Həm də bu tipli şəxslərin intiharı çox qəribə formalarda baş verir. Məsələn, onlar intiharda iz qoymağı xoşlamırlar. Daha doğrusu onlar intiharlarını planlaşdırmırlar. Elə ona görə "kağız yazıb qoymaq" haqqında düşünmürlər. Onların intiharı şəraitdən asılı olaraq hər bir zaman və ani baş verə bilər.

Gənclik illəri ötdükdən sonra ekzistensial tipli xarakterə malik əksər şəxslər psixoloji böhrandan, mənəvi problemlərdən qismən qurtulmağa başlayırlar. Onlar ağırlaşır, səbirli olur və daha sağlam formada fəaliyyət göstərməyə başlayırlar. Lakin qəribə həyat tərzi, qapalılıq bütün ömür boyu onları izləyir, hətta onlara əzab da verir. Əksər hallarda onların təbii qocalıq ölümləri də qəribə formalarda

baş verir. Məsələn, onlar təsadüfi hallarda şüurlu intihara meyil edirlər, ya oturduqları yerdə keçinirlər ya da ki, ağır əlacsız formada xəstələndikdə çox əzab çəkməyə yol verməyərək vəfat etməyə bilərəkdən cəhd edirlər (məsələn, "infarkt" olduqlarını bilib onları birbaşa ölümə aparan aktiv həyat tərzlərini dəyişdirmirlər).

Ekzistensial tipli xarakterə malik şəxslərin çoxlu sosial və məişət problemləri olur. Onlar ailə-məişət məsələlərində zəif olurlar. Bəzən ailə münaqişələrini tənzimləyə bilmirlər. Burada öz fərdi stereotipik xarakter və yaşayış xüsusiyyətlərinə üstünlük verirlər. Onları nəslin artırılması, adət-ənənələr, məişət davranışları çox az maraqlandırır. Siyasətə, idarəetməyə və hakimiyyətə çox meyilli deyillər.

Ekzistensial tipli xarakter, onu yaradan xüsusiyyətlər sistemi mövcudluq mahiyyətinə və yaranma mənbələrinə görə Psixikanın ekzistensial şöbəsinə uyğun gəlir. Burada dünya və mövcudluqla bağlı müəmmalı, qəribə problemlər məhz, öz əsaslarını ekzistensial şöbənin mövcudluq təbiətindən götürür. Ona görə demək mümkündür ki, bu tipli şəxslərdə Psixikanın ekzistensial şöbəsi daha aktiv işləyir. Tez-tez Psixikanın ekzistensial şöbəsinin nəhəng informasiya ehtiyatlarından istfadə edilir. Bu heç də Psixikanın ümumi işinin pozulması demək deyildir. Çünki ekzistensial tipli xarakterə malik şəxslərin əksəriyyəti cəmiyyətin səviyyəli və bilikli insanları olurlar. Onlar harada yaşamalarından asılı olmayaraq öz məntiqli, səviyyəli həyat tərzləri, bilik və bacarıqları ilə seçilirlər. Onlar çevik təfəkkürə və yaradıcı təxəyyülə malik olurlar. Lakin Psixikaları həddən artıq yükləndiyi üçün hafizələri tez-tez zəifləyir.

Artıq qeyd etdiyimiz kimi, ekzistensial tipli xarakterə malik şəxslər dünyanın narahat, qapalı, ziddiyyətli və qeyri-adi insanlarıdır. Məsələn, onlar ictimai münasibətlərdə qeyri-ciddi insanlar kimi tanına bilirlər. Hansı ki, əksər hallarda bu, həmin şəxslərin xarakteri və davranışı ilə birbaşa bağlı olur. Deməli, bu haqda formalaşan fikir yanlış olur və yaxud bu tipli insanlar üçün çox vaxt ictimai fikir sanballı əhəmiyyət daşımır. Bəzən isə ətrafdakı insanlar elə bilirlər ki, bu şəxs onlar üçün təhlükə yaradan, düşmən mövqeyində duran arzuolunmaz insandır. Ona görə də onlar sosial münasibətlərdə müəyyən problemlərlə, əlaqələr qurmaqda çətinliklərlə

və başa düşülməmək kimi proseslərlə üzləşməli olurlar. Cəmiyyətdən qaçmaq, insanlarla münsibətlərdən çəkinmək, tənhalıq kimi hallarda onları tez-tez narahat edən davranış xüsusiyyətləri içərisindədir. Onlar yaxşı anlayırlar ki, bu problemlər birbaşa onların xarakterləri və artıq öz xarakterlərinə uyğun özləri üçün yaratdıqları, alışdıqları həyat tərzləri ilə bağlıdır. Əksər hallarda onlar bu cür neqativ hallara qarşı mübarizə aparmaqda aciz olurlar və yaxud özləri heç bunu istəmirlər.

Digər bir yanaşma, xoşbəxtlik amili ilə əlaqədardır. Onlar xoşbəxt olmaq üçün yaşamırlar. Onlar xoşbəxtlik bəxş etmək, kömək etmək və sadəcə olaraq təbii yaşamaq uğrunda mübarizə aparırlar. Xoşbəxtlik sözündən isə onların xoşu gəlmir. Ümumi götürsək xoşbəxtlik onlar üçün elə dünyada mövcud olmaları və yaşamalarıdır. Necə deyərlər, bu onlara bəs edir. Onların özlərini psixoloji və mənəvi cəhətdən rahat hiss etdikləri xüsusi həyat tərzi vardır.

Ekzistensial tipli xarakterə malik şəxslər dünyanı dəyişdirməyə və mürəkkəbləşdirməyə can atırlar. Şübhəsiz, bu təbiiliyi, qapalı mürəkkəbliyi onlara ekzistensial şöbənin özünəməxsus fundamental xüsusiyyətləri bəxş edib.

Ekzistensial tipli xarakterə malik şəxslərin əsas problemləri onların psixologiyası və mənaviyyatındakı neqativ xüsusiyyətlərlə bağlı olur. Belə ki, psixoloji əhval-ruhiyyə onlar üçün əsas həlledici amildir. Onların Psixikaları çox həssas və problemlərə tez qovuşan xüsusiyyətlərlə zəngindir. Ona görə onlar ailədə və ictimai münasibətlərdə daimi öz psixoloji problemlərini nəzərə alırlar.

Ekzistensial tipli xarakterə və şəxsiyyət xüsusiyyətlərinə malik şəxslərin əsəb sistemləri həssas və zəif olur. Çünki onlar əksər hallarda təbii proseslərə qarşı mübarizə aparırlar. Bəzən bu proseslərə qarşı mübarizə o həddə çatır ki, onlar sadəcə olaraq öz təbii sağlamlıqlarını belə nəzərə almırlar. Bu da birbaşa onların Psixikalarında, əsəb sistemlərində və gündəlik davranışlarında müəyyən neqativ problemlər yaradır. Əksər hallarda bu problemlər psixoloji mahiyyət daşıyır. Nəticədə, onsuz da həssas olan əsəb sistemləri yeni təbii mənfi təsirlərə məruz qalırlar. Ekzistensial tipli xarakterə və şəxsiyyət xüsusiyyətlərinə malik əksər insanlar mənəvi cəhətdən

mübariz olduqları və çox bildikləri üçün bəzən öz yaşlarından böyük görsənirlər.

Ekzistensial tipli xarakterə malik şəxslər dünya əhalisinin müəyyən az hissəsini təşkil edirlər. Bu cəhətdən bəxtimiz gətirib. Əks halda dünyanı və sivilizasiyanı pessimizm və qeyri-adi yaşam tərzi bürüyərdi.

Görəsən, siz ekzistensial tipli xarakterə malik şəxsləri tanıyırsınızmı? Əlbəttə, yuxarıdakı xarakterik təsvirlərə bəlkə də sizin xarakteriniz də uyğun gələ bilər, bəlkə də dostunuzun və yaxud qonşunuzun xarakteri. Bu təbii haldır. Lakin biz sizə dünyanın və sizlərin də yaxşı tanıdıqları ekzistensial tipli xarakterə malik tanınmış şəxslərin adlarını təqdim edəcəyik. Yuxarıdakı bütün xarakter və davranış xüsusiyyətlərini onların həyat fəaliyyətlərində görə bilərsiniz. Tanıdığınız məşhur alimlərin və filosofların əksəriyyətinin Psixikaları ekzistensial tipli xarakterə malik olmuşdur.

Çəlləkdə yaşamış **Diogen,** tənha **Şopenhauer,** məşhur fizik **Eynşteyn,** həddən artıq həssas və dəlisov **Alber Kamyu, Yesenin, Mayakovskiy** və sairə kimi tanınmışları ekzistensial tipli xarakterə malik şəxslərin sıralarına aid etmək mümkündür. Sizlər də məlum tanınmışların həyat və davranış xüsusiyyətlərinin təsvir etdiyimiz ekzistensial xarakter və şəxsiyyət xüsusiyyətlərinə uyğun gəldiyini yoxlaya bilərsiniz.

Burada nəzəri cəlb edən daha tipik ekzistensial xarakterli şəxslər - **Kamyu, Yesenin, Mayakovski** ola bilər. Çünki onların həyatları, davranışları, streotipik xarakter xüsusiyyətləri və şəxsiyyətləri ekzistensial tipli xarakterlər üçün fundamental güzgüdür. Onların üçü də həddən artıq həssas, qeyri-adi, qapalı həyat tərzinə və psixoloji problemlərə malik şəxslər olub. Onların üçü də müəmmalı intiharlarla dünyasını dəyişib. Qeyd etdiyimiz formada – iz qoymayaraq öz intiharlarını həyata keçiriblər.

**Alber Kamyunun "Üsyankar insan" ("Бунтуюший человек") kitabı, ekzistensial xarakter tipli Psixikaya malik şəxsin (yəni Kamyunun), ekzistensial xarakter tipli Psixikalara malik şəxslər üçün yazdığı ekzistensial-elmi fəlsəfi əsərdir (Bax: Альбер Камю. "Бунтуюший человек". Москва, 1990).**

Adi sıravi şəxslər arasında da ekzistensial tipli xarakterə və şəxsiyyətə malik olanlar az deyil. Onlar da dünya, onun mövcudluğunu əhatə edən narahat və qəribə söhbətlər edir, ətrafdakıların təəccübünə, heyrətinə səbəb olurlar. Lakin onlar tanınmış adamlardan fərqli olaraq adi həyat tərzi keçirdikləri üçün bu qeyri-adilik və qapalı davranış xüsusiyyətləri onların aktiv sosial və məişət münasibətlərində itib-batır. Bütün bunlara baxmayaraq, həmin şəxslər həmişə seçilir, ekzistensial tipli xarakterə və şəxsiyyət xüsusiyyətlərinə malik olduqlarını bütün yaranmış şəraitlərdə, sosial münasibətlərdə büruzə verirlər.

Ekzistensial tipli xarakterə, şəxsiyyət xüsusiyyətlərinə malik şəxslər dünya və insanlar üçün təhlükəli deyillər. Onların əksəriyyəti ümumiyyətlə, heç kəsə pislik etmək istəmirlər. Başları öz şəxsi həyatlarına, özləri üçün yaratdıqları sosial-məişət problemlərinə və psixoloji müdafiəyə qarışır. Onlar mürəkkəb, qapalı xarakterə, həyat tərzinə malik olsalar da daha təbii və sadə insanlardır.

## 8.1.2 Daxili qarışıq tip

Daxili qarışıq xarakter və şəxsiyyət tipi Psixika daxilində qarışıq subyektiv hisslərlə, əsasən asılı olmayan, dərk edilməyən ekzistensial psixi proseslərlə tənzimlənən tipdir. Çox ziddiyyətli və mürəkkəb yaşayış xüsusiyyətləri bu cür şəxslərin xarakter tipindən doğur. Həmin şəxslərin həyat tərzi, ictimai münasibətləri qəribə və rəngarəng olur. Çox vaxt bu cür həyatın yaranması onlardan asılı olmur. Yaşayış səviyyəsi, anadangəlmə irsi xüsusiyyətlər, sonradan yaranmış həyat hadisələri Psixikada aparıcı yaşamaq proseslərini bu səmtə yönəldərək həmin şəxsin xarakterində, davranışında daha çox asılı olmayan psixikadaxili proseslərin hegemonluğunu reallığa çevirir. Məlum fərdin sosial və məişət münasibətlərində ziddiyyətli xaraker xüsusiyyətləri və aktiv aqressivlik yaranır.

Daxili qarışıq xarakter, şəxsiyyət tipinə malik şəxslər ekzistensial tipli xarakterə malik insanlardan fərqli olaraq uşaqlıq və gənclik illərini daha normal və sağlam keçirirlər. Onlar bu yaş dövrlə-

rində digər xarakter tipli uşaqlardan, gənclərdən köklü şəkildə fərqlənmirlər. Onların ən əsas fərqi qətiyyətli və qorxmaz olmaları ilə diqqəti cəlb edə bilər. Daxili qarışıq xarakter tipinə malik uşaqlar, gənclər öz yoldaşlarından fərqli olaraq daha qətiyyətli lider xüsusiyyətlərinə malik olurlar. Onlar yaranmış şəraitdə heç nədən çəkinməyərək ictimai münasibətlərə təsir etmək və bu prosesləri tənzimləmək kimi davranış xüsusiyyətləri nümayiş etdirirlər.

Bu tipə malik şəxslərin əksəriyyətinin uşaqlıq və gənclik illərində nadir hallarda psixoloji, mənəvi problemləri olur. Onlar qismən möhkəm əsəb sisteminə malik olurlar. Yalnız yaşa dolduqca daxili qarışıq xarakter, şəxsiyyət tipinə malik şəxslərdə müəyyən psixoloji aqressiv davranış və qeyri-adi streotipik xarakter xüsusiyyətləri yaranmağa başlayır.

Bu zaman onların xarakterində, ictimai münasibətlərində diqqəti cəlb edən əsasən asılı omayan, dərk edilməyən davranış xüsusiyyətləri olur.

Ümumiyyətlə, bizim davranış və fəaliyyətimizdə asılı olmayan psixikadaxili proseslər mühüm rol oynayır. Gündəlik davranış xüsusiyyətlərimizdə də bu özünü göstərir. Məsələn, bizdən asılı olmayaraq bəzən özümüzü müxtəlif cür aparır, şəraitə uyğunlaşa bilmir, ünsiyyət qurmaqda çətinliklərlə üzləşirik və. s. Belə olan hallarda gileylənirik ki, "bu mənim xarakterimdir, nə edə bilərəm". Daxili qarışıq xarakter və şəxsiyyət tipinə malik şəxslərin davranış xüsusiyyətlərində isə asılı olmayan psixikadaxili proseslər həlledici hegemon təsirlərə malik olurlar. Nəticədə, bu təsirlər məlum şəxsin psixologiyasında dərin və üzunmüddətli izlər buraxır. Bu zaman fərdin özü hiss etmədən onun sosial və məişət münasibətlərində dəyişikliklər baş verir.

Daxili qarışıq xarakter və şəxsiyyət tipinə malik insanlar cəmiyyətdə özünəməxsus yer tuturlar. Onların dünyaya, insanlara öz xüsusi baxışları olur. Xüsusilə də, mübarizə aparmaqda, qalib gəlməkdə fərqlənirlər. Elə ona görə cəmiyyət daxilində, insanlar arasında mövcud olan incə və gizli proseslərdən xəbərdar olurlar. Necə deyərlər, cəmiyyətin görünən və görünməyən tərəflərindən yaxşı baş çıxarırlar.

Daxili qarışıq tipli xarakterə malik insanlar siyasətə, idarəetməyə və hakimiyyətə meyillidirlər. Lider, rəhbər olmaq üçün lazımi xarakterik xüsusiyyətlərə malikdirlər. Onlar bu cür fəaliyyətlə məşğul olmağı xoşlayırlar. Hakimiyyətə gəldikdə və yaxud müəyyən bir müəssisəyə rəhbərlik etdikdə bütün həyati fəaliyyətlərini məlum rəhbərlik işləri üçün səfərbər edirlər. Hakimiyyəti əldən verməyi, işdən uzaqlaşdırılmağı xoşlamırlar.

Daxili qarışıq tipli xarakterə malik şəxslərdə hakimiyyət, rəhbərliklə bağlı bir mühüm cəhət diqqəti cəlb edir. Bu da onların hakimiyyət və rəhbərliklə bağlı qeyri-adi mənfi davranış xüsusiyyətlərini əhatə edir. Məsələn, onlar hakimiyyətə gələn kimi öz daxili xarakterik psixoloji davranış xüsusiyyətlərinə üstünlük verirlər. Asılı olmayan, tənzimlənməyən psixikadaxili proseslərin təhriki ilə onlar çox qəribə, mənfi və ziddiyyətli qərarlar verməyə başlayırlar. Bu zaman onları insanların həyatı, fəaliyyəti və təbii olaraq vətəndaş kimi hüquqları çox az maraqlandırır. İdarəetmədə, rəhbərlikdə öz daxili psixoloji tələbatlarına daha çox üstünlük verirlər. Ona görə də onların hakimiyyət və müəyyən bir rəhbər vəzifəyə keçməsi orada köklü əsaslı dəyişikliklərə səbəb olur. Ümumiyyətlə isə; bu tipə malik insanlar liderlik və rəhbərlik etməyi bacarırlar. Onlar rəhbərlik işlərinə çox zəhmət və vaxt sərf edirlər. Qanunlara, nizam-intizama riayət etməyi və riayət etdirməyi xoşlayırlar. Diktaturaya, avtoritarizmə, siyasi və sosial aqressivliyə meyillidirlər. Onlar bu sahədə sadist xüsusiyyətlərə və davranışa malik ola bilirlər.

Daxili qarışıq tipli xarakterə malik insanlar ailədaxili məsələlərdə, məişət münasibətlərində də özlərini çox ciddi aparırlar. Onlar hakimiyyətdə və rəhbər işlərdə olduğu kimi ailə-məişət münasibətlərində də eyni möhkəm xarakter və xüsusi həyat tərzi nümayiş etdirirlər. Onlar ailəvi-irsi adət-ənənələrə və məişət qaydalarına ciddi riayət etməyi xoşlayırlar. İstəyirlər ki, ailədə hamısı onların dediklərini yerinə yetirsin və onlara hörmət etsin. Öz xarakterlərinə uyğun insanlarla ailə qurmağı xoşlayırlar. Bu tipli əksər insanlar sona qədər həmin ailə qurduğu şəxslərə sadiq qalırlar.

Ümumiyyətlə, daxili qarışıq tiplər ağıllı, savadlı, sadiq və inanılan insanlardır. Düzdür, onlar elmə çox da meyilli olmurlar. Lakin öz sosial, siyasi və mənəvi səviyyələri ilə heç kəsdən geri qalmırlar.

Xoşbəxtlik amili ekzistensial tiplərdən fərqli olaraq daxili qarışıq tiplər üçün mövcuddur və müəyyən əhəmiyyətə malikdir. Onlar xoşbəxtlik haqqında çox danışmasalar da arzu və xəyallarının gerçəkləşməsini, onların istədikləri həyat tərzinin yaranmasını məhz, xoşbəxtlik kimi qəbul edə bilirlər. Bundan əlavə, onlar öz daxili, ziddiyyətli asılı olmayan hisslərinin, psixoloji tələbatlarının həyata keçməsini də xoşbəxtlik kimi qiymətləndirərək özlərini rahat hiss edirlər.

Bu baxımdan, əksər hallarda daxili qarışıq tiplər boyük arzuları, üzunmüddətli həyati planları əhatə edən xəyallarla, xülyalarla yaşamağa meyil edirlər. Lakin digər insanlardan fərqli olaraq daxili qarışıq tiplər xəyallara, xülyalara daha çox həyata keçirəcəkləri praktik və real planlar kimi yanaşırlar. Yəni onlar bu xəyallar, xülyalar haqqında gecə-gündüz fikirləşməyi yox, məhz, onları tez və sanballı şəkildə həyata keçirməyi xoşlayırlar. Bu sahədə göstərilən mübarizlik baxımından onlara çatan olmaz. Bəzən bu cür xülyəvi arzu və planlar uğrunda mübarizə xüsusiyyətləri onların ziddiyyətli aqressiv xarakteri ilə sosial və siyasi fəaliyyətdə birləşərək böyük faciələrə səbəb ola bilir. Məsələn, sırf daxili qarışıq xarakter və şəxsiyyət tipinə malik olan **Hitleri** və İkinci Dünya müharibəsindəki hadisələri məhz, bu cür halların yaranmasına misal göstərmək olar. Ümumiyyətlə, dünyada qlobal faciələrin və müharibələrin yaranmasında daxili qarışıq xarakter və şəxsiyyət tipinə malik olan siyasi liderlər mühüm rol oynayırlar. Onlar öz anormal və xülyəvi arzularını yerinə yetirmək üçün bəzən ən ağlasığmaz addımlara əl atır və çoxlu insanlara mənfi təsir edən, onların məhvinə gətirib çıxaran qərarlar qəbul edirlər.

Daxili qarışıq xarakter və şəxsiyyət tipinə malik olan insanların əsas psixoloji problemləri öz istək, arzuları uğrunda həddən artıq mübarizə və inadkarlıq göstərmələri ilə əlaqədardır. Onlar bu cür mənfi xüsusiyyətli problemləri özlərinə uyğun ailə-məişət həyatını yaratmaqda da nümayiş etdirirlər. Onlar istəyirlər ki, hər şey onların daxili istəklərinə və həyat maraqlarına uyğun qurulsun. Əks halda onlar müəyyən mənəvi psixoloji narahatlıqlar və streslər keçirirlər. Ümumiyyətlə isə, daxili qarışıq xarakter və şəxsiyyət tipinə malik olan insanların əsəb sistemləri və bioloji orqanizmləri çox möhkəm olur. Onlar öz sağlamlıqlarına çox ciddi yanaşırlar.

Daxili qarışıq xarakter və şəxsiyyət tipi adından da bəlli olduğu kimi qarışıq tipdir. Bu xarakter tipi yaranma və mövcudluq mahiyyətinə görə Psixikanın **qarşılıqlı əlaqə zonasının (QƏZ-in, döyənək cismin)** fəaliyyətinə uyğun gəlir. Psixika daxilində onlar həm koqnitiv şöbəyə, həm də ekzistensial şöbəyə meyil etməklə fərqlənirlər. Nəticədə, onların Psixikalarında məhz, qarşılıqlı əlaqə zonası (QƏZ) çox aktiv işləyir. Elə ona görə də onların xarakteri, davranışı qarışıq ziddiyyətli xüsusiyyətlərlə zəngin olur. Bu qarışıqlıqda daxili qarışıq tiplərin aqressivliyi, qapalılığı cəmləşir. Onların aqressiv tənzimlənməyən psixoloji davranışlarla bağlı çoxlu problemləri olur.

Bu baxımdan, əksər daxili qarışıq tipləri tənzimlənməyən aqressiv insanlar adlandırmaq mümkündür. Yaşa dolduqca, qocaldıqca onlarda bu aqressivlik, kobud xarakterik xüsusiyyətlər daha da artır. Bu hal çox vaxt Psixika daxilində qarışıq tipi yaradan tənzimlənməyən asılı olmayan psixoloji xüsusiyyətlərin böhranı kimi yarana bilir. Nəticədə, Psixikadakı bu iş pozğunluğu aqressivlik və qeyri-insani mübarizə metodlarını həmin şəxslər üçün adiləşdirməyə başlayır. Bəzən onlar özləri də bu mənfi nəticələr yaradan proseslərin qarşısını ala bilmirlər. Bəzən, aqressivlik və tənzimlənməyən psixoloji proseslər Psixikada o həddə çatır ki, məlum şəxs özünə intihar etmək fikrinə düşür. Özünə qəsd etmiş daxili qarışıq xarakter tipli insanların əksəriyyəti məhz, bu cür hallarda özlərinə intihar edə bilirlər.

Hakimiyyətdə, rəhbər vəzifədə olan bu cür daxili qarışıq tiplər isə aqressiv və qeyri-insani mübarizə metodlarından geniş şəkildə öz şəxsi məqsədləri üçün istifadə etməyə başlayırlar. Çox vaxt onlar öz mənfi əməllərinə asanlıqla haqq qazandırmaq üçün müxtəlif cür planlar və təbliğat metodları hazırlayırlar. Əslində artıq yaranmış şəraitdə onların digər yolları olmur. Çünki bu cür xarakterik davranış xüsusiyyətləri onların Psixikalarının anormal fəaliyyətinin real nəticələrinə çevrilir. Onların əksəriyyəti məlum hallarda tam psixoloji böhran içərisində olurlar. Artıq bu halda onları psixi xəstələr saymaq mümkündür. Məsələn, bizim tanıdığımız aqressiv cinayətkar **manyaklarda** olduğu kimi. Yəni onlarda aqressivlik, qeyri-insani davranış psixoloji tələbata çevrilir. Aqressiv cinayətkar **manyaklar** əsasən daxili qarışıq xarakter və şəxsiyyət tipinə malik olurlar.

Aqressiv və sadist manyaklarda, hakimiyyət başçılarında, liderlərdə getdikcə bu cür qeyri-insani davranış xüsusiyyətləri Psixikada yaşamaq məfhumunun, yaşamaq uğrunda mübarizənin tərkib hissəsini təşkil edir. Elə bil bu yol onlar üçün istəklərinə nail olmaq üçün ən real və inandırıcı vasitə sayılır. Onlar qəti şəkildə əmin olurlar ki, qələbə qazanmaq, nəyə isə nail olmaq üçün digər yol yoxdur. Ona görə onlar məlum əməllərinə görə daim özlərinə haqq qazandırmağa çalışırlar. Əksər hallarda onlar buna nail olurlar. Psixika da bu aqressivliyi və qeyri-insani mənfi xüsusiyyətlərə uyğunlaşaraq həmin xüsusiyyətləri ümumi yaşamaq meyillərinə, prinsiplərinə tətbiq edir.

Daxili qarışıq xarakter və şəxsiyyət tipinə malik olan şəxslər dünyandakı sosial-siyasi şəraiti dəyişdirməyə, dünyanı və oradakı insanları narahat etməyə qadirdirlər. Onlar bu cür işləri digər xarakter tiplərinə nisbətən ən çox bacaran şəxslərdir. Məhz onlar dünyada müharibələr və faciələr törətməkdə mahir ustalar kimi tarixə düşürlər. Onlar dünyanın təbii inkişaf qanunlarına, prinsiplərinə qarşı mübarizə aparır və onları pozmağa çalışırlar. Ümumiyyətlə, bu tiplərin əksəriyyətini də ekzistensial tiplərdə olduğu kimi öz maraqları, istəkləri uğrunda mübarizədə təbii proseslər az maraqlandırır.

Daxili qarışıq xarakter və şəxsiyyət tipinə malik olan şəxslər dünya əhalisinin çox az hissəsini təşkil edirlər. Bu baxımdan, onlar digər tiplərə nisbətən sonuncu yerdədirlər. Necə deyərlər, dünyanın və orada yaşayan əhalinin bəxti gətirib.

Siz daxili qarışıq xarakter və şəxsiyyət tipinə malik olan tanınmış insanları yaxşı tanıyırsınız. Əgər sizin xarakterinizdə daxili qarışıq tipə uyğun gəlirsə deməli, özünüzü keçmiş tanınmış tarixi şəxsiyyətlərlə müqayisə edə bilərsiniz. Tarixi ədəbiyyat qəhrəmanlarından **Çar Edip, Hamlet, Karamazov qardaşlarını** sırf daxili qarışıq xarakter və şəxsiyyət tipinə aid etmək olar. Bütün **manyaklar, sadistlər, aqrsessiv qeyri-adi cinayətkarlar, adi siyasi və iqtisadi mafiya, qruplaşma başçıları** bu xarakter tipinə daxildirlər. Tarixi siyasi liderlər arasında **Napaleonu, Stalini, Hitleri** və digər keçmiş, müasir diktatorları, sırf aftoritar dövlət başçılarını daxili qarışıq xarakter tipinə aid etmək olar.

Daxili qarışıq tipli sıravi insanlar da az deyil. Onlar da fərqlənən qeyri-adi ciddi həyat tərzi keçirirlər. Daxili tipli qarışıq xarakterə malik sıravi şəxslər də ailədə, sosial münasibətlərdə çox ciddiliyə və aqressivliyə meyil edən valideynlər, vətəndaşlar kimi daim diqqəti cəlb edirlər. Uşaqlarını kobud fiziki metodlarla cəzalandırmaqdan çəkinmirlər. İctimai münasibətlərdə, cəmiyyətdə öz xüsusi mənafeləri və fərdi yaşayış tərzləri ilə seçilirlər. Məişət və ictimai problemlərə çox ciddi yanaşırlar. Həssas və sadəlövh insanlardan uzaq gəzirlər. Lakin onlar üzərində hegemonluq, rəhbərlik etməyi xoşlayırlar.

## 8.4 Subyektiv-normal tip

Subyektiv-normal ali xarakter və şəxsiyyət tipinə malik şəxslər yaranmış real şəraitə uyğun sağlam, standart həyat tərzi keçirən insanlardır. Düzdür, onlar da maraqlı, qeyri-adi insanlar ola bilirlər. Lakin onların xarakterində ekzistensial və daxili qarışıq tiplərə malik stereotipik qeyri-adi, anormal xüsusiyyətlər olmur. Subyektiv-normal tipə malik olanlar elə ilk günlərdən dünyanın və insanların formalaşma, inkişaf qanunlarına, təbii yaşamaq prinsiplərinə tabe olurlar. Ekzistensial və daxili qarışıq tiplərdən fərqli olaraq onlar təbiiliklərə qarşı mübarizə aparmır və həyatın təbii axarına düşürlər. Cəmiyyət qaydalarına, adət-ənənələrə, yaş dövrlərinin tələbatlarına ciddi şəkildə riayət edirlər. Onların Psixikaları da yaşamaq amili baxımından təbii subyektiv yaşamaq xüsusiyyətlərinə və prinsiplərinə uyğun formalaşır. Subyektiv-normal tiplər ekzistensial və daxili qarışıq tiplərə nisbətən psixoloji və mənəvi cəhətdən daha sağlam, daha gümrah olurlar. Elə ona görə də biz bu tipi "subyektiv-normal tip" kimi adlandırmışıq.

Subyektiv-normal xarakter tipinə malik insanların uşaqlıq və gənclik illəri çox normal, seçilməyən adi yaş dövrlərini xatırladır. Onlar primitiv, standart uşaqlıq və gənclik illəri keçirirlər. Bu yaş dövrlərinin tələbatlarına uyğun davranır və çox nadir hallarda məlum yaşam prinsiplərindən qırağa çıxırlar. Yaşa dolduqca tez bir

zamanda zamanın axarına düşərək geniş ictimai münasibətlərə qoşularaq ciddiləşirlər.

Subyektiv-normal ali xarakter və şəxsiyyət tipinə malik şəxslər dünya əhalisinin çox hissəsini təşkil edir. Yəni bu tipə malik olanlar ekzistensial və daxili qarışıq tiplərdən fərqli olaraq dünyada olduqca çox say tərkibinə malikdirlər. Əgər biz bu tiplərin dünyada mənsub olduğu əhali tərkibini faizlərdə dəqiqləşdirməyə çalışsaq, onda təxmini rəqəm almaq mümkün olar.

**Ekzistensial tip – təxmini 20%**
**Daxili qarışıq tip – təxmini 15%**
**Subyektiv-normal tip – təxmini 65%**

Bir daha nəzərinizə çatdırırıq ki, bu rəqəmləri dəqiqləşdırmək qeyri-mümkün olduğundan onların yalnız ümumiləşdirilmiş təxmini sayı sizə təqdim edilir.

Şübhəsiz, subyektiv-normal ali xarakter və şəxsiyyət tipinə malik şəxslər say etibarilə cəmiyyətdə çox olduqlarından inkişafda, tərəqqidə mühüm rol oynayırlar. Lakin onların əksəriyyəti fikir vermirlər ki, ekzistensial və daxili qarışıq tiplərə malik olanlar daima subyektiv-normal tiplərə təsir etməyə və onları idarə etməyə can atırlar. Xüsusilə də, daxili-qarışıq tiplər. Əksər hallarda daxili-qarışıq tiplər bu baxımdan öz istəklərinə nail olurlar. Onlar öz qeyri-adi idarəetmə və hegemonluq üsulları ilə subyektiv-normal tiplərin başına min cür oyunlar açırlar. Bu cür halları nəzərə alaraq subyektiv-normal xarakter tipinə malik olanların əksəriyyəti çalışırlar ki, özlərini cəmiyyətdəki ekzistensial və daxili qarışıq tiplərdən qorusunlar. Məlum qarşılıqlı prosesləri, ictimai rəqabəti cəmiyyətdə, sosial münasibətlərdə açıq şəkildə hiss etmək mümkündür.

Tarixi təcrübə göstərir ki, subyektiv-normal tiplər olduqca çox olmaqlarına baxmayaraq dünyada yaranan müharibələrdə, böhranlı sosial, siyasi şəraitlərdə ən çox əziyyət çəkənlərdir. Bu da onların inkişaf və yaşamaq prinsiplərinə uyğun həyat tərzləri ilə birbaşa əlaqədardır. Çünki subyektiv-normal tiplər təbii, adi yaşam tərzinə alışımış insanlardır. Bu təbii inkişaf qanunları, yaşam tərzi pozulan kimi onların həyat tərzi və yaşamaq uğrunda mübarizə metodları

kəskin şəkildə dəyişərək böhranlı vəziyyətə düşür. Bu cür hallarda ekzistensial tiplərə malik olanların da əksəriyyəti subyektiv-normal tiplərin vəziyyətinə düşürlər. Lakin onlar subyektiv-normal tiplərə nisbətən qeyri-adi, qeyri-təbii həyat tərzlərinə alışdırdıqları üçün özlərini tezliklə bu yaşam tərzinə uyğunlaşdıra bilirlər. Nəticədə, müharibələrdə, sosial-siyasi böhranlarda ən aktiv davrananlar, bu vəziyyətdən ən çox istifadə edənlər daxili-qarışıq tiplər, ən çox əziyyət çəkənlər isə subyektiv-normal tiplər olur.

Subyektiv-normal ali xarakter və şəxsiyyət tipi yaranma xüsusiyyətlərinə və mövcudluq mahiyyətinə görə Psixikanın **koqnitiv şöbəsinin (subyektivləşdirici şöbənin, sol yarımkürənin)** fəaliyyətinə uyğun gəlir. İnsanlığın, subyektivliyin bütün sağlam, normal xüsusiyyətləri, xeyirxah yaşamaq prinsipləri bu tipdə cəmləşib. Ekzistensial şöbənin müəmmalı və ziddiyyətli fəaliyyət xüsusiyyətləri özünü burada göstərmir. Şübhəsiz, qarşılıqlı əlaqə zonasının yaratdığı daxili qarışıq xarakter xüsusiyyətləri də burada büruzə verilmir. Əvəzində burada subyektiv-normal tiplərə malik təbii və prinsipial xarakter xüsusiyyətləri üstünlük təşkil edir. Çünki subyektiv-normal tiplərin Psixikalarının qarşılıqlı əlaqələr sistemində koqnitiv şöbə (subyektivləşdirici şöbə) daha aktiv işləyir. Bu da xarakterin, davranışın mövcudluq və fəaliyyət dairəsində koqnitiv şöbənin funksional xüsusiyyətlərinin yaranmasına səbəb olur.

Subyektiv-normal ali xarakter və şəxsiyyət tipinə malik insanlar ailədə mədəni və ağıllı davranırlar. Ailəyə, onun adət ənənələrinə hörmət edirlər. Onlarla bir yerdə yaşamaq o qədər də çətin deyil. Sağlam ailə həyatı keçirmək onların hər birinin arzusudur. Lakin subyektiv-normal tipli şəxslər təmtəraqlı və şən həyat keçirməyə həddən artıq meyillidirlər. Ona gör də hərdən onlar ailədaxili münasibətlərdə yalnız müasir təmtəraqlı yaşamaq prinsiplərinə riayət etməyə üstünlük verirlər. Təbii ailə-məişət münasibətlərində, ailə adət-ənənələrinə hörmət məsələlərində subyektiv-normal tiplər ekzistensial və daxili qarışıq tiplərdən geri qalırlar. Ekzistensial və daxili qarışıq tiplər ailə-məişət münasibətlərində daha fundamental və ciddi münsibətlərə malik olurlar.

Xoşbəxtlik amilini subyektiv-normal ali xarakter və şəxsiyyət tipinə malik insanlar qeyri-şərtsiz tam qəbul edirlər. Xəyallara,

arzulara qovuşub xoşbəxt olmaq üçün əllərindən gələni edirlər. Sevdiyi insanla ailə qurmaq, yaxşı işlə təmin olunmaq onlar üçün xoşbəxtlik amilini əhatə edən əsas xüsusiyyətlərdəndir. Subyektiv-normal tiplər bu yolda onlara mane olan qeyri-adi və riskli proseslərdən, neqativ həyati hadisələrdən çəkinirlər və yaxud xoşbəxtlik uğrunda mübarizədə qeyri-adi üsullardan istifadə etmirlər. Standart, sınanmış təbii mübarizə metodlarına üstünlük verirlər. Xoşbəxtlik amilinə münasibətdə subyektiv-normal xarakterli tiplər ekzistensial və daxili qarışıq tiplərə nisbətən daha müsbət və daha geniş münasibətləri ilə seçilirlər. Yəni onlar xoşbəxt olmaq uğrunda mübarizədə daha aktiv mübarizə aparırlar. Onların Psixikalarında yaşamaq xüsusiyyətlərinin hazırlanmasında və yaşamaq uğrunda mübarizə metodlarının yaranmasında xoşbəxtlik amili əsas təhrikedici və həvəsləndirici proseslər sistemi kimi qiymətləndirilə bilər.

Subyektiv-normal tiplər də elmə və təhsilə meyillidirlər. Lakin onların bu sahədəki nailiyyətləri digər tiplərlə, xüsusilə də ekzistensial tiplə müqayisə edilə bilməz. Ekzistensial tipləri ən savadlı və elmi fəaliyyətdə perspektivli imkanlara malik insanlar saymaq mümkündür. Digər tiplərlə müqayisədə ən zəif elmi nailiyyətli tip subyektiv-normal tiplərdir.

Subyektiv-normal ali xarakter və şəxsiyyət tipinə malik olan insanların əsas problemləri mülayim psixoloji xüsusiyyətləri əhatə edir. Yəni onların əksəriyyətinin əsəb sistemləri möhkəm, orqanizmləri isə sağlam olur. Onlar psixoloji cəhətdən sağlam həyat eşqinə malik optimist insanlardır. Demək olar ki, onların əksəriyyəti pessimizmdən çox uzaq insanlar olur. Lakin onları da tez-tez narahat edən bir çox problemlər mövcuddur. Məsələn, onların əksəriyyətində sadəlövhlük, tez aldanmaq, tez inanmaq kimi xüsusiyyətlər daha qabarıq şəkildə hiss olunur. Subyektiv-normal tiplərdə intihar hadisəsi çox nadir hallarda baş verir. Bu da birbaşa baş vermiş faciəvi hadisələrlə və yaranmış ictimai proseslərlə bağlı olur. Yəni onlar tərəfindən həyata keçirilən intiharların əksəriyyətinin sırf daxili psixoloji əsasları olmur.

Subyektiv-normal tiplər dünyanın, oradakı insanların rifahı və sağlamlığı üçün fəaliyyət göstərən insanlardır. Yəni onlar dünyanın inkişafını təbii qanunauyğunluqlara əsaslanaraq inkişaf etdirə və

dəyişdirə bilirlər. Tarixi təcrübə göstərir ki, bəşəriyyət bu işdə onlara minətdar olmalıdır. Çünki müharibələr, siyasi və sosial-iqtisadi böhranlar zamanı ən çox əziyyət çəkən subyektiv-normal tiplər olsalar da, son anda müharibələri, böhranları sakitləşdirib aradan qaldıran, qlobal faciələrin qarşısını alan məhz, onlar olur. Onlar öz səbirli, sağlam və uzaqgörən xarakterləri ilə hər şeyi öz yerlərinə qoyurlar. Nəticədə, dünya və svilizasiya qlobal faciələrin, müharibələrin üzunmüddətli, dəhşətli olmasından qurtulmuş olur.

Ümumiyyətlə, subyektiv-normal tiplərin əksəriyyəti sakitləşdirici, tənzimləyici insanlar olurlar. Bu tipli insanlardan cinayətkarlar çıxsa da, onlar aqressiv, anormal manyaklar və qatı cinayətkar səviyyəsinə gəlib çatmırlar. Çünki onların Psixikalarında aqressivliyə, qèyri-subyektiv proseslərə meyiletmə xüsusiyyətləri çox zəifdir. Xarakterdə, davranışda asılı olmayan psixikadaxili və qeyri-adi xüsusiyyətlərin müəyyən dərəcəli pozucu fəaliyyəti əksər hallarda yox dərəcəsində olur. Şübhəsiz, sonrakı psixi pozğunluqlar çox asanlıqla bu tipli insanlarda da pozğun, anormal davranış xüsusiyyətləri yarada bilir. Burada bir cəhəti nəzərə çatdırmağa dəyər. Təcrübə göstərir ki, subyektiv-normal tiplər sağlam olsalar da onların psixoloji dözümü zəif olur. Elə ona görə də onlar mənəvi və psixoloji əzablardan çəkinərək təbii yaşam tərzinə üstünlük verirlər. Ümumiyyətlə, bu sahədə digər iki xarakter tipi subyektiv-normal tipi üstələyirlər. Onlardan psixoloji cəhətdən ən dözümlüləri isə ekzistensial tiplər olur. Bu da onların mənəvi, psixoloji əzablı həyat tərzi ilə birbaşa əlaqədardır.

Bu elmi işi oxuyan şəxslərin əksər hissəsi yəqin ki, subyektiv-normal tipə malikdirlər. Bütün normal Prezidentlər, ağıllı və səbirli siyasətçilər, sağlam fəaliyyət və həyat tərzi keçirən ədəbi qəhrəmanlar subyektiv-normal tipə aid oluna bilər. Əgər hər hansı bir insan nəzərdən keçirdiyimiz ekzistensial və daxili qarışıq tiplərin xarakterik xüsusiyyətlərinə, həmin tiplərə malik tarixi, ədəbi və siyasi şəxslərin xarakterinə uyğun gəlmirsə deməli, məlum şəxs yalnız boş qalmış üçüncü ali xarakter tipinə - subyektiv-normal tipə aid edilməlidir. Çünki insanların Psixikalarında yalnız üç ali xarakter və şəxsiyyət tipi vardır. Hansı ki, bu ümumi tiplər bütün dünya əhalisini əhatə edir. Yəni dünyada müxtəlif yaşamaq və davranış

xüsusiyyətlərinin mövcudluğundan asılı olmayaraq ümumi streotipik xarakterik xüsusiyyətlər sistemi məhz, bu üç tipdə cəmləşib. Çünki insan Psixikasında xarakter və davranış yalnız bu üç tipi əhatə edən xüsusiyyətlər sistemi üzrə formalaşır.

Burada bəşəri inkişaf qanunauyğunluqları, əsrlər boyu formalaşmış yaşamaq, mövcud olmaq prinsipləri cəmləşmişdir. Bunu tarixi şərait, tarixi siyasi, ədəbi qəhrəmanların xarakterlərinin araşdırılması, əldə olunmuş nəticələr və müasir gerçəklik də sübut edir. Psixikanın özü də üç şöbənin, üç münasibətlər sisteminin və üç ali xarakter tipinin fasiləsiz qarşılıqlı əlaqəsindən doğan subyektiv mövcudluğa xidmət edir. Xatırladırıq ki, bu üç xarakter tipi məhz, Psixikanın üç şöbəsinin mövcudluq mahiyyətinə, fəaliyyət xüsusiyyətlərinə uyğun gəlir və onların aktiv işi ilə tənzimlənir. Cəmiyyətdə mənəvi və ictimai münasibətlər sisteminin tərkib hissəsi də bu üç ali xarakterik xüsusiyyətlərdən təşkil olunub.

Deməli, insanlar müxtəlif xarakter və davranış xüsusiyyətlərinə malik olurlar. Lakin onların hər biri nəzərdən keçirdiyimiz ali xarakter və şəxsiyyət tiplərinə uyğun gəlməlidir. Hər bir şəxs özünü, öz xarakterini bu ali tiplərdən birində görə bilər. Ona görə biz bu tipləri məhz, "ali psixikadaxili xarakter və şəxsiyyət tipləri" adlandırırıq. Bu tiplər insanlar tərəfindən ilkin olaraq büruzə verilən ən yüksək səviyyədə duran xarakter və davranış xüsusiyyətləridir.

Artiq qeyd etdiyimiz kimi, hər bir insanın xarakter və davranış xüsusiyyətləri bir ali tipdə cəmləşib. Ola bilsin şəxsin hansı ali xarakter tipinə aid olunmasını müəyyənləşdirməkdə çətinlik yaransın. Bu zaman həmin şəxsin həyatı, davranışı, psixi xüsusiyyətləri, mənəvi-sosial dəyərləri müxtəlif şəraitlərdə nəzərə alınmalı, müqayisə edilməli və təhlil aparılmalıdır. Nəticədə, həmin şəxsi qismən hansısa tipə aid etmək mümkün olacaqdır.

Burada digər anlaşılmazlıqlar da ola bilər. Məsələn, həyat şəraiti, yaranmış davamlı dəyişkən mühit fərdin xarakterində müxtəlif tiplərin xarakterik streotipik davranış xüsusiyyətlərini yarada bilər. Bu cür şəraitlərdə məlum şəxs məcbur olur ki, digər tiplərə malik xüsusiyyətləri davranışında, gündəlik fəaliyyətində büruzə versin. Çünki yeni real təsirli şərait, yeni münasibətlər sistemi fərdin Psixikasında müəyyən xarakterik dəyişikliklərə səbəb olur. Lakin bu də-

yişikliklər və onların nəticəsində yaranmış xüsusiyyətlər tam şəkildə nəzərdən keçirdiyimiz üç ali xarakter, şəxsiyyət tipindən birində gec-tez cəmləşmiş olacaq və bu xüsusiyyətlər sistemi məlum üç ali xarakter tipindən qırağa çıxa bilməz. Çünki formalaşmış insan Psixikasında bütün xarakterik və davranış xüsusiyyətləri bu üç ali tipin tərkibində tam möhürlənmiş şəkildə yaranmış olur. Artıq formalaşmış və yaranmış Psixika daxilində fundamental dəyişikliklər etmək qeyri-mümkündür. Elə ona görə insan əvəzolunmaz subyektiv bioloji mövcudluğa, yeganə təkrarolunmaz Psixikaya, özünəməxsus xarakterə və davranışa malikdir.

# 9. PSİXİKANIN CİNSİ MÖVCUDLUQ XÜSUSİYYƏTLƏRİ

## 9.1 PSİXİKA VƏ CİNSİ XÜSUSİYYƏTLƏR

İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi ilə bağlı irəli sürdüyümüz ümumi metodik yanaşmaya uyğun olaraq problemlərin araşdırılmasını davam etdirərək Psixikada, insan orqanizmində cinsi mövcudluq xüsusiyyətlərini tədqiq etməyə başlayırıq. İnsanın cinsi mövcudluq xüsusiyyətləri Psixikanın, orqanizmin psixoloji, bioloji, sosial mahiyyətli əsas formalaşma və inkişaf proseslərindən biridir. Ona görə də insanın cinsi mövcudluq kimi öyrənilməsi Psixikanın və insan orqanizminin ətraflı tədqiqində də mühüm əhəmiyyətə malikdir.

Məlumdur ki, insan orqanizmi həm də cinsi mövcudluqdur. Bunu istər biofizioloji, istərsə də psixoloji baxımdan açıq şəkildə görmək mümkündür. Cinsi mövcudluq xüsusiyyətləri Psixikada yaşamaq məfhumunun hazırlanması və yaşamaq uğrunda mübarizə metodlarının yaranması proseslərinin əsas tərkib hissəsini təşkil edir. Şübhəsiz, Psixikada cinsi mövcudluq xüsusiyyətləri özünəməxsus fundamental proseslərə və funksiyalara malikdir. Bu proseslərin, funksiyaların Psixikada və orqanizmdə genetik, psixofizioloji əsasları olur.

Psixikada cinsi mövcudluq prosesləri Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələlərində hiss olunan əhəmiyyətli səviyyədə mühüm rol oynayır. Bu mərhələlərdə Psixikanın özü də cinsi mövcudluq xüsusiyyətlərinin daşıyıcısı kimi formalaşmış olur. Nəticədə, cinslər olan – kişi, qadın və kişi Psixikası, qadın Psixikası kimi subyektiv cinsi mövcudluqlar formalşıb yaranmış olur.

Məlum olub ki, kişi və qadın orqanizmləri kimi, onların Psixikaları da forma, daxili mahiyyət və fəaliyyət baxımından bir-birlərindən fərqlənirlər. Sonrakı tədqiqatlar göstərdi ki, cinslər arasındakı hiss olunan fərqlər, hətta onların beyin yarımkürələri arasındakı (Psixika şöbələri arasındakı) assimetriyada da vardır. Deməli, Psixika şöbələri arasındakı qarşılıqlı əlaqələr qadın və kişilərdə bir-birlərindən fərqlənirlər. Bunu **Q.Lansdellin (1962)** apardığı tədqi-

qatlar sübut etmişdir. O, müəyyənləşdirdi ki, kişilərdə assimetriya funksiya baxımından daha güclü şəkildə baş verir. Yəni qadınlarla müqayisədə kişilərdə assimetriyanın səviyyəsi çox yüksəkdir. Sonralar bunu **J.Makqlounun (1978)** da təsdiq etdi. Onun tədqiqatlarından məlum oldu ki, kişilərdə sol yarımkürənin (koqnitiv şöbənin) zədələnməsi qadınlara nisbətən üç dəfə çox afaziyaya səbəb olur. Yəni eyni səviyyədə zədələnmiş kişi və qadın sol yarımkürələrində (koqnitiv şöbələrində) nəticə etibarilə nitq pozğunluqları kişilərdə üç dəfə güclü olur **(Bax: Ф.Блум, А.Лейзерсон, Л.Хофстедтер. "Мозг, разум и поведение". M, 1988. səh. 190).**

Əslində, kişi və qadın Psixikalarındakı bu fərqlər insanın, dünyanın formalaşma, inkişaf prinsiplərinə uyğundur. Kişi orqanizmi daha aktiv bioloji və psixoloji statusa malik olduğu üçün onların Psixikalarındakı həssaslığı anlamaq mümkündür. Hələlik biz patriarxal dövründə yaşayırıq və bu aktivlik fərqlərini hər yerdə hiss etmək mümkündür. Məişətdə, ailədə və digər ictimai münasibətlərdə bu fərqlərin fundamental xüsusiyyətlərini görmək çətin deyil. Elmi və bədii ədəbiyyatda da qadın və kişilər arasındakı fərqlər xüsusi diqqət yetirilib. Psixika baxımından da bu yanaşma öz psixoloji və neyropsixoloji əsaslarına gəlib çatmışdır. Belə ki, müasir psixoloji elmlər sistemində kişi və qadın psixologiyalarının tədqiqinə dair çoxlu məlumatlar vardır. Psixikada cinslərin fərd-psixoloji xüsusiyyətlərinin ətraflı öyrənilməsində həmin nəticə məlumatları mühüm əhəmiyyət daşıyır.

Psixikanın və orada yaşamaq xüsusiyyətlərinin mütəmadi formalaşması orada cinsi mövcudluğu, cinsi subyekti, cinsi fəaliyyəti də mərhəli formada yaradır. Insan orqanizmində, Psixikada cinsi xüsusiyyətlərin dəyişkənliyi qədər hiss olunan digər formalaşma prosesləri yoxdur. Cinsi mövcudluğun formalaşmasında genetik və bioloji xüsusiyyətlərin də böyük təsirləri olur. Əlbəttə, bu ali proseslər məhz, iki əkscinsin fəaliyyətindən doğan nəslin və insanların sayının artırılmasına xidmət edir.

İnsanların əkscinslərə meyili təbii prosesləri əhatə etsə də burada müəyyən problemlərə münasibət bildirmək istəyirik. Şübhəsiz, əks cinsə meyil insanın fəaliyyət aktivliyini, biofizioloji tələbatları əhatə edən ən mühüm proseslərdən biridir. Bizcə, bu ali tələbat

prosesi birbaşa Psixikanın, orqanizmin genetik mövcudluğundan və tələbatlı fəaliyyət əsaslarından doğur. Məlumdur ki, yeni körpənin ana bətnindəki ilkin mövcudluq bünövrəsi hər iki cinsin orqanizmindən gələn maddiyyətin üzərində qoyulur. Yeni orqanizm və formalaşan yeni Psixika iki əks cinsin psixoloji və genetik məhsuludur. Deməli, biz doğulanda hər iki cinsə məxsus oluruq. Lakin böyüdükcə biz birtərəfləşməyə başlayırıq. Yəni fərd hiss edəndə ki, o, oğlandır və yaxud qızdır artıq onda ikili cinsdən heç bir paralel mövcudluq xüsusiyyəti qalmır. Burada söhbət həm genetik bioloji və həm də neyropsixoloji mövcudluq xüsusiyyətlərindən gedir. Nəticədə, artıq birtipli cins yaranmış olur. İnsan orqanizmi və onun Psixikası da bir cinsə məxsus şəkildə formalaşır. Fərd bir cinsli mövcudluğa çevrilir.

**Artıq bu dövrdən başlayaraq hər bir cins itirdiyi ikinci cinsi mövcudluğa cinsi, bioloji və psixoloji tələbat hiss etməyə başlayır. Bu tələbatları həyata keçirən psixikadaxili və orqanizm xüsusiyyətləri formalaşmış olur. Nəticədə, məlum tələbatları yerinə yetirib ödəmə metodu olan cinsi fəaliyyət yaranır. İnsan iki cinsdən yarandığı üçün onun bioloji, psixoloji varlığı bir cinsə xidmət edə bilməz. Çünki insan orqanizmində onun ikicinsli fundamental mövcudluq xüsusiyyətləri pozular. Elə ona görə Psixika insan orqanizmi vasitəsilə bu pozğunluğu aradan qaldırmaq üçün əks cinsə meyil, bununla bağlı olan cinsi fəaliyyət və davranş xüsusiyyətlərini tam hazırlayır. Bu amil insanların ən ali cinsi mövcudluq və inkişaf funksiyalarından biridir. Dünyada insanların artması və daimi yaşamasını təmin edən təbii qanunauyğunluqdur.**

Məlumdur ki, cinsi prosesləri, cinsi fəaliyyət xüsusiyyətlərini əsasən asılı olmayan psixikadaxili proseslərlə (şüursuzluq halları ilə) əlaqələndirirlər. Xüsusilə də, Freydizm bu məsələdə ən yüksək səviyyədə durur. Xatırladırıq ki, biz "şüursuzluq halları" terminini rədd edərək, bu tipli halları təyin etmək və adlandırmaq üçün "asılı olmayan psixikadaxili proseslər" kimi anlamdan istifadə edirik.

Əslində isə cinsi fəaliyyətdə qeyri-adi asılı olmayan psixikadaxili proseslik heç nə yoxdur. Psixikanın insan orqanizmində müəyyənləşdirilib öyrənilməsi bu problemin mövcudluq mahiyyətini də

aydınlaşdırmağa, dəqiqləşdirməyə imkan verir. Məsələn, cinsi fəaliyyət zamanı qeyri-adi davranış, münasibətlər və ünsiyyət prosesləri sadəcə olaraq Psixikanın həddən artıq aktiv fəaliyyəti ilə bağlıdır. Daha doğrusu yaranmış aktiv biopsixoloji proseslər Psixikanın və ümumən orqanizmin qısamüddətli böhranlı işini yaradır. Belə olan halda Psixika qısa müddətdə qismən insanın davranış və ünsiyyət proseslərini tənzimləyə bilmir. Əslində, bu hal Psixikanın cinsi mövcudluğa, cinsi fəaliyyətə verdiyi təbii qaçılmaz neyropsixoloji reaksiyasıdır.

Bundan əlavə, cinsi fəaliyyət canlılar üçün ali həzzi yaratdığı üçün Psixikanın aktivliyinə, məntiqi fəaliyyətinə ehtiyac qalmır. Çünki Psixikanın adi narahatlı nəhəng işi ilə ali həzz prosesləri paralel mövcud ola bilməz. Biri olanda o birisi olmur. Bu həm də psixofizioloji fəaliyyət və mövcudluq prinsipidir. Tam ali cinsi həzzin qazanılması üçün Psixikanın işinin zəifləməsi və hətta qismən qısamüddətə dayanması zəruridir. Cinsi həzz və digər psixi proseslər sistemi eyni vaxtda, eyni məkanda məhz, Psixikada yaranır. Onlardan birinin aktivliyi şübhəsiz, digərini gözlətməyə vadar edir. Cinsi fəaliyyətdəki bu aktiv və ali həzz bizim anladığımız qeyri-adi davranış, münasibətlər və ünsiyyət proseslərinin əsaslarını qoyur.

Göründüyü kimi, ilk baxışdan bu cür hallara asılı olmayan psixikadaxili proseslər kimi yanaşılsa da, məntiqi mövcudluq baxımından onları adi psixikadaxili xüsusiyyətlər kimi qəbul etmək və adlandırmaq da mümkündür.

## 9.2 CİNSİ FORMA. CİNSİ FORMALARIN DÜZGÜN MƏNİMSƏNİLMƏMƏSİ

Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanmasında, yaşamaq uğrunda mübarizə metodlarının yaranmasında, xüsusilə də insanın cinsi mövcudluq kimi formalaşmasında "cinsi forma" amili mühüm rol oynayır. Biz artıq bilirik ki, Psixikanın yaranmasında mövcudluq formalarının mənimsənilməsi hansı fundamental funk-

siyaları yerinə yetirir. Xatırlayırsınızsa, cinsi formaların Psixikada qavranılması və mənimsənilməsi proseslərinə biz **"Psixikanın formalaşması"** fəslinin **"Psixikada dünyanın mövcudluq formaları vasitəsilə qavranılması və mənimsənilməsi"** mövzusunda qismən toxunmuşuq.

Deməli, insan doğulduqdan sonra onun Psixikası dünyanı, mövcudluğu qavramağa və mənimsəməyə başlayır. Psixikada baş verən bu ilkin proseslərdə qavranılan mövcudluq formalarının içərisində cinsi formalar da olur. Elə ilk günlərdən başlayaraq körpə ana orqanizmindən cinsi mövcudluq obyekti kimi istifadə etməyə başlayır. Əlbəttə, biz döşəmmə prosesini nəzərdə tuturuq. Körpənin doğulduğu ilk günlərdən cinsi tərbiyəni mənimsəməsi adi təbii haldır. Lakin bu proses Freydin qeyd etdiyi "cinsi əməliyyatın ilkin sindromları"ndan əlavə daha mühüm və mürəkkəb həyati əhəmiyyətə malikdir. Burada bəlkə də döşəmmə prosesinin cinsi mahiyyəti və əhəmiyyəti sonuncu amil sayıla bilər. Çünki ana ilkin ümumi forma kimi körpənin Psixikasında bütün orqanizmi ilə qavranılır və mənimsənilir. Bu zaman cinsi mövcudluq formasının cinsi obyekti kimi meydana çıxan "döş" və onun funksiyaları körpə üçün həm də subyektiv və sosial yaşamaq xüsusiyyətlərini əhatə edir. Bu baxımdan, döşəmmə prosesi körpə üçün ilkin qida qəbulu, ilkin yaşamaq həzzi, ilkin qavrama və fəaliyyət funksiyasıdır. Deməli, döşəmmə prosesinə ilk növbədə ilkin yaşamağın və fəaliyyətin qavranılması, mənimsənilməsi amili kimi baxmaq lazımdır.

Göründüyü kimi, cinsi forma körpənin inkişafı və onun Psixikasının formalaşması üçün fundamental prosesləri yerinə yetirir. Cinsi formalar həm cinsi, həm də fəaliyyət, davranış xüsusiyyətlərini yaradan ümumi yaşamaq mahiyyəti daşıyır. Cinsi formalar Psixikada cinsi özünüdərk və bununla bağlı yaranan sağlam cinsi fəaliyyət xüsusiyyətlərinin tənzimlənmə proseslərində iştirak edir. Təbii olaraq cinsi formaların mənimsənilməsi cinsi meyillərin reaksiya fonunu gerçəkləşdirir, zənginləşdirir. Cinsi tərbiyə ilə bağlı bütün fəaliyyət xüsusiyyətlərinin əsaslarını qoyur. Məsələn, körpə Psixikasında ilkin cinsi formalar kimi yaranan "ata" və "ana" mövcudluq formaları sonralar sosial-məişət statuslu fəaliyyət subyektlərinə

çevrilirlər. Psixika zənginləşir, cinsi mədəniyyət, cinsi tərbiyə valideynlərin köməyi ilə fasiləsiz olaraq mənimsənilir.

Fərd böyüdükcə cinsi mövcudluq formalarını və onların funksional xüsusiyyətlərini tam mənimsəyərək məntiqi cinsi-subyektiv münasibətlərə, cinsi fəaliyyətə yiyələnir.

Psixikanın fəaliyyətində qeyri-adi anormal proseslərin yaranması mövcudluq formalarının düzgün mənimsənilməməsi ilə bağlı ola bilər. Cinsi fəaliyyət baxımından, cinsi formaların düzgün mənimsənilməməsi daha neqativ və qabarıq şəkildə cəmiyyətdə hiss olunmaqdadır. Gəlin bu problemə keçmiş fəsildə (**"Psixikanın formalaşması"** fəslinin **"Psixikada dünyanın mövcudluq formaları vasitəsilə qavranılması və mənimsənilməsi"** mövzusunda) toxunduğumuza baxmayaraq bir daha ətraflı şəkildə onları nəzərdən keçirərək aydınlaşdırmağa çalışaq.

Artıq məlum oldu ki, dünya, oradakı mövcudluq mövcudluq formaları şəklində Psixikada mənimsənilir və yaranır. Nəticədə, sağlam Psixika formalaşır və yaranır. Lakin Psixikanın böhranlı halında və yaxud yaranmış neqativ şəraitlərdə mövcudluq formalarının düzgün mənimsənilməməsi və artıq qavranılıb dərk edilmiş formaların düzgün istifadə edilməməsi ilə əlaqədar Psixikada müəyyən fəaliyyət, davranış problemləri meydana çıxır. Biz artıq bu tipli prosesləri "Psixikada mövcudluq formalarının düzgün mənimsənilməməsi" kimi adlandırmışıq. Bu cür neqativ hallar Psixikada cinsi mövcudluq formalarının mənimsənilməsində də baş verə bilir.

İctimai təcrübə göstərir ki, Psixikada cinsi formaların düzgün qavranılmaması və mənimsənilməməsi ilk növbədə cinsi fəaliyyətdə, əks cinsə meyillərdə müəyyən neqativ anormal hallar yaradır. Cinsi formaların düzgün qavranılmaması və mənimsənilməməsi ilə bağlı meydan çıxan qeyri-adi neqativ hallardan ən mənfisi genetik cəhətdən doğma, yaxın insanlar arasında olan cinsi əlaqələrin yaranmasıdır. Elmi-ictimai ədəbiyyatda, müasir cəmiyyətdə çox təsadüfi hallarda ananın oğulla, atanın qızı ilə, qardaşın bacısı ilə və sairə kimi qan qohumlarının cinsi əlaqədə olmasını sübuta yetirən real məlumatlar vardır. Bu proseslərin bir qismi təsadüfi, faciəli həyat hadisələrində yaranmış, digər bir qismi isə məhz, doğma şəxslərin birinin və yaxud hər ikisinin istəyi ilə baş vermişdir.

Biz genetik bağlılıqlı doğma şəxslərin birinin və yaxud hər ikisinin istəyi ilə baş vermiş cinsi əlaqələri birbaş həmin insanların Psixikalarında cinsi mövcudluq formalarının düzgün qavranılmaması və mənimsənilməməsi ilə yaranmış fəaliyyət pozğunluğu ilə əlaqələndirib izah edə bilərik. Bu proseslərin yaranma və formalaşma xüsusiyyətlərini sübut etmək mümkündür.

Şübhəsiz, məsələn, oğulun anadan cinsi fəaliyyət subyekti və obyekti kimi istifadə etməsi yalnız Psixikanın funksional ənənəvi fəaliyyətinin dəyişilməsi, pozulması ilə baş verə bilər. Düzdür, valideynlərlə övladlar arasında cinsi bağlılıq vardır. Lakin bu, cinsi fəaliyyət və ondan yaranan həzz prinsiplərini əhatə etmir. Çünki Psixikanın ənənəvi subyektivləşmə, biolojiləşmə və sosiallaşma xüsusiyyətləri, cəmiyyətin sağlam əxlaqi normalar sistemi elə Psixikanın formalaşmış fəaliyyətində, davranış proseslərində bunu rədd edir. "Qan qohumluğu" amili də genetik və ümumi bioloji baxımdan buna qarşı çıxır.

Bu baxımdan, Freydin komplekslər sistemini yadımıza salaq. Oğulun anaya cinsi fəaliyyət meyili – **Edip kompleksi**, ananın oğula meyili – **Fedri kompleksi**, qızın ataya cinsi münasibəti, ananın uşaqlara düşmən münasibəti – **Medey kompleksi**, oğlanların ataya mənfi, anaya müsbət, qızların anaya mənfi, ataya müsbət münasibəti – **neqativ Edip kompleksi**.

İndi isə gəlin məlum problemlərin konkret izahına keçək. Məsələn, oğulun anaya olan cinsi fəaliyyət meyilinin yaranması proseslərini təhlil edək. Oğul Psixikasında təbii olaraq "ana" mövcudluq forması vardır və onun sosial-cinsi xüsusiyyətləri mövcuddur. Bu, sadəcə olaraq cəmiyyətdə reallaşmış bəşəri və genetik-cinsi mədəniyyətdir. Daimi olaraq Psixikanın sonradan aldığı informasiyalar məlum bəşəri-cinsi əxlaqı, mədəniyyəti gücləndirir və tam formalaşdırır. Lakin yaranmış sosial şərait, bu sahədəki daimi neqativ təsirlər və bununla əlaqədar yaranan psixikadaxili pozğunluqlar sonrakı cinsi formaların mənimsənilməsi proseslərinin sağlam mahiyyətini dəyişdirə bilər. Nəticədə, oğul Psixikasında "ana" mövcudluq forması ilə bağlı yaranan bəşəri-cinsi mədəniyyətin, əxlaqın genetik və psixoloji fundamental əsasları zəifləməyə başlayır. Bu proses daimi, mütəmadi baş verirsə asılı olmayan psixikadaxili proseslər (şüursuzluq halları) aktivləşərək cinsi mövcudluq formaları-

nın düzgün qavranılmaması və mənimsənilməməsi ilə bağlı yaranan fəaliyyət böhranını daha da dərinləşdirirlər.

Getdikcə oğul Psixikasında bu neqativ halların nəticəsi olaraq "ana" mövcudluq formasını əhatə edən bioloji və psixoloji əsaslı xüsusiyyətlər, ailə-əxlaq normaları öz həqiqi mahiyyətini itirməyə başlayır. Oğulun Psixikasında baş verən bu tipli proseslər ananı onun üçün adiləşdirərək onu sadə və yad cinsi mövcudluq formasına, subyektinə çevirir. Oğul Psixikasında baş verən məlum böhranlı vəziyyət doğma insana cinsi meyil edən ata, ana, bacı, qardaş, qız və digər yaxın qan qohumlarının Psixikalarında da elə bu formalarda yarana bilər.

Onu da qeyd edək ki, bəzi ruhi xəstələrdə, ağır psixopatlarda da doğma insanla cinsi əlaqələrə meyil halları baş verə bilər. Bundan əlavə, bəzən bu cür hallara meyil edən şəxslər etdikləri hərəkətə təhrikin səbəblərini anlaya bilmirlər. Yəni bu proseslər sırf asılı olmayan psixidaxili proseslər (şüursuzluq halları) şəklində də yarana bilir. Hər halda həmin şəxslər pozğun, qeyri-ciddi ailə mədəniyyətinə, sadəlövh həyat tərzinə malik olurlar. Cəmiyyətdə məlum hadisələr baxımından maraqlı, qeyri-adi hadisələr mövcuddur. Baş verdiyi ölkəni xatırlaya bilməsəm də uşaqlığımda oğulun anaya cinsi təcavüzü ilə bağlı eşitdiyim bir həyati hadisə heç vaxt yadımdan çıxmır. Fürsətdən istifadə edib hadisəni aşağıda sizə də danışmaq istəyirəm.

"Ana və oğul bir yerdə yaşayırlar. Oğul öz anasına olan cinsi meyili hiss etməyə başlayır. Bu işi həyata keçirmək üçün müxtəlif yollar axtarır. O istəyir ki, anasının onun bu iyrənc əməlindən xəbəri olmasın. Nəhayət ki, o, anası ilə cinsi əlaqəyə girmək üçün vasitə tapır. Güclü yuxu dərmanı taparaq bəzi günlərdə günorta yeməyindən sonra anasının içdiyi suya və yaxud çaya tökür. Dərin yuxuya getmiş anası ilə cinsi fəaliyyəti həyata keçirir. Ana isə günortalar yatmağa adət etdiyi üçün bəzən baş verən bu prosesi hiss etmirmiş. Lakin getdikcə bu proses təbii olaraq onda müəyyən narahatlıqlar yaradır. Məsələdən xəbər tutan sarsılmış ana oğlunu məhkəməyə verərək onun həbsinə nail olur. Qanunu formada onu oğulluqdan çıxarır".

Yuxarıda diqqətinizə çatdırdığımız hadisə də cinsi mövcudluq formalarının düzgün qavranılmaması, mənimsənilməməsi prosesləriní və Psixikadakı pozğun, anormal fəaliyyətin məişət səviyyəsini əhatə edir. Hər hansı halda oğulun gördüyü iş qeyri-sağlam, artıq xəstə Psixikanın real nəticələridir. Yəni oğulun Psixikasında psixi problemlərlə, asılı olmayan psixikadaxili proseslərlə bağlı olaraq "ana" cinsi və sosial-əxlaqi mövcudluq forması öz real əhəmiyyətini, təsir dairəsini itirməyə başlayır.

Çar Edipin və Hamletin Psixikalarında da bu cür psixi formaların qavranılmaması, mənimsənilməməsi problemləri baş verir. Bu da birbaşa cinsi formaların və cinsi fəaliyyət subyektlərinin mahiyyət və obyektiv baxımdan dəyişilməsinə səbəb olur. Bu cür proseslərin, hadisələrin baş verməsi yalnız bizim Psixikada izah etdiyimiz formada sübuta yetirilib əsaslandırıla bilər.

## 9.3 CİNSİ MƏSULİYYƏT SUBYEKTLƏRİ

Psixikada cinsi mövcudluq xüsusiyyətlərinin yaranması cəmiyyətdə və ailədə cinsi davranış normaları ilə tənzimlənir. Bu cür proseslərin yaranmasında, tənzimlənməsində valideynlərin tutduqları mühüm mövqelər və rollar hamımıza yaxşı məlumdur. Şübhəsiz, uşaq valideynlərinin cinsi biopsixoloji məhsuludur. Lakin unutmaq olmaz ki, uşaq təkcə əkscinslərin primitiv cinsi fəaliyyət nəticəsi deyil, o, həm də əkscinslərin yaradıb formalaşdırdıqları cinsi-məntiqli mövcudluq subyektidir. Yəni valideynlər öz uşaqlarının cinsi subyekt kimi formalaşmaları üçün də lazım olan vacib sosial-psixoloji prosesləri həyata keçirirlər. Ona görə də valideynlər həm də övladları üçün cinsi davranış, mədəniyyət və cinsi fəaliyyəti formalaşdırma məsuliyyəti daşıyırlar. Bu, nəsli artırma və bəşəri cinsi mədəniyyətin ötürülməsinin mühüm bir tərkib hissəsidir.

Ümumiyyətlə, valideynlər övladlarına cinsi cəhətdən emosional bağlılıq hiss edirlər. Övladın həyatındakı kiçik bir mənfi cinsi dəyişiklik, psixocinsi problemlər valideynlər tərəfindən tezliklə hiss olunur. Gündəlik həyatımızda da biz valideyn məhəbbətinin

bütün sosial, mənəvi və cinsi xüsusiyyətlərini görə bilərik. Bu baxımdan, cinsi bağlılıq daha çox anada hiss olunur. Ana daha çox öz övladının cinsi tərbiyəsi ilə maraqlanır. Bu bəlkə də övladın ana tərəfindən dünyaya gətirilməsi ilə birbaşa əlaqəlidir. Elmi və ictimai ədəbiyyatda ananın övlada, övladın anaya olan cinsi bağlılığını sübuta yetirən, əsaslandıran məlumatlar var. Məsələn, **Freyd S.Çveyqin "24 saat qadın həyatı"** adlı novellasını psixoanalitik cəhətdən təhlil edərkən yazır: "Oğul bu haqda fərəhlə fikirləşməliydi; əgər anam bilsəydi ki, anonizm hansı mənfi nəticələr yaradır, əlbəttə ki, məni bu işdən ayırmaq və mənim tələbatlarımı ödəmək üçün oz şəxsi bədənini belə əsirgəməzdi" **(Bax: З.Фрейд. "Я и оно". Книга II. Тбилиси "Мерани" 1991. Səh. 426).**

Freyd bunu oğulun öz əməli haqqında düşünərkən onun xəyali fantaziyası kimi göstərir. Yəni oğul xəyallarda bu situasiyadan çıxış yollarını axtarır və yaxud bundan xəbər tutarkən anasının hansı formada məlum hala qarşı mübarizə aparacağını təsəvvürünə gətirir. Deyəsən, Freyd oğulun fantaziyasında və ananın bu hala qarşı mübarizəsindəki orijinal reaksiyasında yanılmayıblar. Buna oxşar bir hadisə bir ABŞ filmində cərəyan edir (filmin adı yadımda deyil).

**Oğlunun cinsi fəaliyyətsizliyindən, xəstəliyindən xəbər tutan ana bunun doğru olmasına inana bilmir. Günlər keçdikcə ana oğlunun cinsi xəstəliyə tutulma xəbərindən güclü şəkildə sarsılmağa başlayır. Tezliklə və dəqiq bu informasiyanın düzgünlüyünü ətraflı formada öyrənmək istəyir. O, doğma övladının xəstəliyə tutulmasına tam əmin olmaq üçün çox qəribə bir vasitə tapır. Soyunaraq oğulun yatağına girir. Əlbəttə, bu hadisədən heyrətlənmiş, mat qalmış oğulun əllərini öz çılpaq bədəninə sürtür. Anasının bu hərəkətindən sarsılan oğul həqiqətən xəstə olduğunu anasına söyləyir. Bütün bu iztirablara dözə bilməyən ana evinin pəncərəsindən özünü ataraq intihar edir.**

Görünüdüyü kimi, ananın övlada cinsi bağlılığı, onun övlad qarşısındakı cinsi məsuliyyəti hətta intihara gətirib çıxara bilir. Bu təbii halı yaradan Psixikada insanların təbii cinsi mövcudluq subyektləri kimi formalaşmaları və bir-birləri qarşısında cinsi məsuliyyət daşımalarını əhatə edən fundamental qanunauyğunluqlar sistemidir.

Valideynlərin övladlarına təbii cinsi bağlılığı və onların cinsi məsuliyyəti bütün valideyn ömrünü əhatə edir. Məsələn, övladların toyları valideynlərin cinsi məsuliyyətlərinin kulminasiya nöqtəsidir. Çünki toy gecəsi və əks cinslə ailə qurmaq övladın sağlam cinsi subyekt olduğunu sübuta yetirən əyani reallıqdır.

Biz valideynlərin cinsi məsuliyyət və ictimai statuslu cinsi subyektlər kimi övladları qarşısında yerinə yetirdikləri vəzifələri yaş dövrlərini əhatə edən mərhələlərə bölə bilərik. Ümumilikdə bu, üç mərhəli yaş dövrlərini əhatə edir. Bu mərhələlər də Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması ilə paralel baş verən funksional proseslər sistemini əhatə edir.

**Birinci mərhələ,** körpənin doğulduğu gündən başlayaraq cinsi yetkinliyə qədər olan yaş dövrünü əhatə edir. Daha doğrusu, bu proses döşəmmədən başlayaraq cinsi yetkinliyin yaranmasına, yəni fərdlərin qız və oğlana çevrilmələrinə qədər davam edir. Məlum mərhələdə valideynlərin övladlara münasibəti həmin yaşa uyğun cinsi xüsusiyyətləri, cinsi tərbiyəni və cinsi məsuliyyəti əhatə edir.

**İkinci mərhələ,** cinsi yetkinlik və ilkin gənclik illərini əhatə edir. Daha doğrusu, ailə həyatı qurana qədər. Bu dövr valideynlər üçün çox məsuliyyətli əsas mərhələ sayıla bilər. Ona görə bu mərhələdə valideynlər daha aktiv surətdə övladlarının cinsi tərbiyəsi ilə məşğul olurlar. Həm də bu mərhələ də mürəkkəb psixikadaxili və bioloji orqanizm prosesləri, yaranma və formalaşma funksiyaları həyata keçirilir. Nəticədə, valideynlər övladlarının daha geniş cinsi-sosial münasibətlərə qoşulmasında mühüm vəzifələrini və məsuliyyət hisslərini aktivləşdirirlər. Yeni, cinsi-sosial subyektləri formalaşdırırlar.

**Üçüncü mərhələ,** övladların toy və ondan sonrakı ailə həyatını əhatə edir. Bu mərhələ valideynlərin ömürlərinin sonuna qədər davam edir. Düzdür, övladının böyüməsi ananı, atanı narahat etməyə də bilər. Lakin bu mərhələdə valideyni narahat edən, ona məsuliyyət hiss etdirən övladının sonrakı sağlam cinsi həyatı olur. Hətta onlar bir yerdə yaşamasalar belə, övladının sağlam cinsi həyatı valideyni həmişə və ömrünün sonuna qədər maraqlandırır, narahat edir. Bu təbii bəşəri narahatlıqdır və dünyada insanların sağlam cinsi həyatına, sağlam nəsilartırma mədəniyyətinə, tərbiyəsinə xidmət edir.

Burada incə bir məsələni qeyd etmək zəruridir. Bu da övladların valideynlərə daxili cinsi-psixoloji mahiyyət daşıyan həzz bəxş etməsi ilə birbaşa bağlıdır. Bu tipli həzlərin əsasları hələ ana bətnində uşağın ilkin formalaşması və bunun nəticəsində ananın qarın nahiyəsinin böyüməsi dövrlərində qoyulur. Məlum hal valideyn Psixikasında real cinsi qələbə kimi xoş xüsusiyyətlərin yaranmasına səbəb olur. Çünki uşaq cinsi subyektin cinsi fəaliyyətdən qazandığı ən qiymətli, ən real yeganə varlıqdır. Ona görə bu cinsi qələbə istər-istəməz valideyn psixologiyasında özünəməxsus daxili həzzi yaradır. Nəvə, nəticə və hətta kötücələrin döğulması da eyni mahiyyətli həzzə və xoş xüsusiyyətlərə səbəb olur. Bu, psixikadaxili həzz prinsiplərindən yaranan təbii cinsi həzdir.

Valideynlər və övladlar dünyanın ən təmiz cinsi tərkibli varlıqlarıdır. Onların bir yerdə yaşaması, sosial-psixoloji cinsi məsuliyyət daşıması bəşəri mahiyyət daşıyan əlçatmaz hisslərlə təhlil oluna bilər. Hər halda bu bəşəri mədəniyyət insan Psixikasında fundamental köklərə malikdir. Bu tipli proseslərin əsasları da Psixikada formalaşır və yaranır.

## 9.4 Cinsi qorxu

Qorxu insan Psixikasına və bütün orqanizmə tanış olan, onlara müxtəlif şəraitlərdə təsir etmək imkanlarına malik bir emosional xüsusiyyətlər sistemidir. Biz ümumi qorxu prosesləri haqqında artıq danışmışıq (Bax: Fəsil 7: "**Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması**", mövzu: "**Ekzistensial psixi fəaliyyət**"). Lakin cinsi qorxu haqqında ilk dəfə danışırıq. Qorxu, onun real təsirləri bütün insan orqanizmini əhatə etdiyi üçün davranışda, fəaliyyət xüsusiyyətlərində onun daimi mövcudluğu heç kəsdə şübhə doğurmur. Bu baxımdan, cinsi qorxu bir çox qeyri-adi və incə xüsusiyyətlərə malikdir.

Əslində cinsi qorxu hamımıza tanış bir emosional hissdir. Öncə onu qeyd edək ki, cinsi qorxu hallarının əksəriyyəti asılı olmayan psixikadaxili proseslər formasında meydana çıxır. Cinsi qorxu hal-

ləri asılı olmayan psixikadaxili proseslər formasında cinsi fəaliyyətin, cinsi münasibətlərin tərkib hissəsinə daxildir.

Cinsi qorxu ilk növbədə əks cinsdən çəkinmə hallarında yaranır. Əlbəttə, əkscinslər bir-birlərinə meyil edirlər, lakin cinsi proseslərdəki həyəcan, aktiv emosional hisslər təbii cinsi qorxu xüsusiyyətlərini yaradırlar. Cinsi münasibətlər təcrübəsində həyəcan və emosional çəkinmələrə görə baş tutmamış cinsi fəaliyyətə tez-tez rast gəlinir. Hətta çox sevdiyi insanla cinsi əlaqəyə girə bilməyən şəxslər də vardır. Burada çox qeyri-adi, anormal cinsi-psixoloji problem yaranır. Sevdiyi insana olan güclü ülvi duyğular həmin şəxsə sevgilisi ilə cinsi fəaliyyət obyekti kimi davranmağa imkan vermir. Məlum şəxs bu proseslərin mahiyyətini anlamır, onun Psixikasında asılı olmayan psixikadaxili proseslər hokmranlıq etməyə başlayır. Əslində, bu cür halların yaranmasında cinsi qorxu halları mühüm rol oynayır. Çünki cinsi-psixoloji problem nəticəsində yaranan tənzimlənməyən həyəcan getdikcə ağır formalı cinsi qorxuya çevrilir. Şübhəsiz, bu cür hadisələr cinsi münasibətlərdə əsas fəaliyyət subyekti olan kişilərin başına gəlir. Qadınlar cinsi fəaliyyətdə passiv mövqedə olduqları üçün təsadüfən onlarda bu cür hallar baş versə də o qədər də hiss olunmur.

Biofizioloji baxımdan da, cinsi qorxu təbii halda baş verir. Bu zaman cinsi qorxu insan orqanizminin ümumi qorxu ilə bağlı bütün təbii proseslərini əhatə edir. Psixika da bu halda ümumi qorxu amilinin təsir xüsusiyyətlərinə tabe olur.

Cinsi qorxu cinsi fəaliyyətin tənzimlənməsi baxımından müəyyən əhəmiyyətə malikdir. Məsələn, cinsi qorxu sağlam və aktiv cinsi fəaliyyət üçün xəbərdarlıq siqnalıdır. Əgər bütün orqanizm cinsi fəaliyyət prosesinin "biofizioloji və psixoloji qurbanına" çevrilirsə onda cinsi qorxunun yaranması da təbii reaksiya sayıla bilər. Burada cinsi qorxu xəbərdarlıq həyəcanı yaratmaqla bərabər cinsi fəaliyyət münasibətlərinin tənzimlənməsi üçün vacib məsuliyyət şəraiti yaradır. Məlum şəxs anlayır ki, o, ciddi, lakin incə emosional və fiziki xüsusiyyətlərə malik işlə məşğul olacaq. Nəticədə, cinsi məsuliyyətin əsasları qoyulur. Cinsi məsuliyyət sağlam cinsi fəaliyyəti təmin edir.

Müasir dövrdə də, cinsi fəaliyyət "təhlükəli oyun" statusuna malik formada qalmaqdadır. Bu "təhlükəli oyun"un əsasını elə cin-

si qorxunun düzgün tənzimlənməsi təşkil edir. Əsasən kişilər üçün cinsi qorxu amili daha qabarıq şəkildə hiss olunur. Həyəcanı, cinsi qorxunu dəf edib ondan düzgün bəhrələnən kişilər daha aktiv və sanballı cinsi münasibətlər qura bilirlər.

Cəmiyyətdə cinsi qorxu halları və ona orqanizm reaksiyası müxtəlif formalarda büruzə verilir. İki əkscinslər üçün onu öz spesifik xüsusiyyətləri vardır. Burada cinslərin xarakteri, mənəviyyatı onların cinsi qorxu ilə bağlı cavab xüsusiyyətlərini formalaşdırır. Məsələn, cinsi qorxunun təsiri baxımından, qadınlar kişilərdən fərqlənirlər. Kişilərdə cinsi qorxu ilə əlaqədar problemlər cinsi fəaliyyətə qədər və cinsi fəaliyyət zamanı güclü olur. Qadınlarda isə cinsi qorxu cinsi fəaliyyətdən sonra yaranmış şəraitlərdə özünü daha çox göstərir. Onlar qeyri-adi və qəribə hallarla üzləşə bilirlər. Məsələn, əgər qadın istəmədən cinsi əlaqədə olursa, onda getdikcə həmin şəxslə təkrar cinsi əlaqə zamanı həyəcan və qorxu halları yaranmağa başlayacaq. Digər bir misal cinsi fəaliyyət zamanı cismani təsirlərlə bağlıdır. Əgər cinsi əlaqə zamanı qadına fiziki baxımdan təsirlər olursa və yaxud cinsi fəaliyyət kobud şəkildə baş verirsə, onda bu cür hallardan sonra da qadınlarda ümumiyyətlə, cinsi əlaqə ilə bağlı həyəcan və qorxu halları yaranmış olur.

İctimai təcrübədə cinsi qorxu ilə bağlı digər qəribə hallara da rast gəlinir. Məsələn, düşünülməmiş və anlaşılmaz xəyanətlərdən sonra cinsi qorxu formasında meydana çıxan mənəvi problemlər, hətta qəribə psixi sarsıntılara və pozğunluqlara səbəb ola bilir. Bu tipli hadisələrdən biri **S.Çveyqin "Qorxu"** hekayəsində təsvir olunub (**Вах: С. Цвейг. "Собрание сочинений в семи томах" Т-1. M, 1963. Səh. 194-236**).

**Hekayənin qəhrəmanı Frau İrena özü də dərindən dərk etmədən, anlaşılmaz formada öz mədəni ailəsinə və ərinə xəyanət edir. Bir müsiqiçi-pianoçu ilə görüşür. Bir dəfə həmin müsiqiçi kişinin qonşusu olan yaşlı qadın İrenanın bura gəlişinin məqsədindən xəbəri olduğunu ona bildirmiş, İrenanı əxlaqsız adlandıraraq onun üzərinə çığırmışdı. Məlum hadisə gizli görüşə gəlmiş həyəcanlı İrenaya sarsıdıcı təsir edir. Evə qayıtdıqdan sonra bu hadisə daxilində baş verənlər onu psixoloji cəhətdən narahat etməyə başlayır. Ərinin bu işdən xəbərtutma qorxusu,**

**qadının çığırtısı İrenanı evdə, ailədə dinc buraxmır. Nəticədə, artıq İrena kobud psixi pozuntular keçirməyə başlayır. Hansı ki, ailə üzvləri də İrenanın onlara səbəbi bəlli olmayan bu narahatlıqlarından xəbər tuturlar.**

Göründüyü kimi, İrenanın başına gələn hadisə, yaranmış böhranlı psixoloji vəziyyət cinsi qorxunun yeni, geniş sosial formalı təsirlərinin nəticəsidir. İrenanın Psixikasında cinsi qorxu əsasən asılı olmayan psixikadaxili proseslərlə (şüursuzluq halları ilə) büruzə verilir. O özü də anlamadan bu hadisənin sarsıdıcı psixi zərbələrinin təsirləri altına düşür.

Məlum oldu ki, cinsi qorxu əksər hallarda mürəkkəb prosesləri yaradan amil kimi meydana çıxsa da, sadə müsbət formada o cinsi fəaliyyətin düzgün tənzimlənməsinə xidmət edir. Bu halda cinsi qorxu cinsi fəaliyyət zamanı yaranan həyəcan və xəbərdarlığın emosional aktivliyindən doğur. Psixika və orqanizm bu vaxt qorxunun bütün mövcudluq xüsusiyyətlərini hiss edərək reaksiya cavabları verirlər. Bu, həm də cinsi fəaliyyət aktivliyinin nisbiliyini qoruyub saxlayır. Əgər cinsi qorxu, cinsi çəkinmə olmasaydı, cinsi fəaliyyət, ümumi cinsi münasibətlər üçün lazım olan həlledici proseslər tez işə başlayar və anlaşılmaz, nəticəsiz qeyri-standart aktivlik yaradardılar. Bu da təbii olaraq cinsi fəaliyyətin həzz keyfiyyətlərini zəiflədər və mənasız edərdi.

Cinsi qorxu həm də orqanizmdə psixofizioloji tənzimləmə xüsusiyyətlərinə malikdir. Çünki cinsi qorxu psixi və fiziki enerjinin mütəmadi, dinamik, keyfiyyətli sərfini Psixikada və bütün orqanizmdə tənzimləyir.

1999-2001-ci illər, Bakı

# II HİSSƏ.

# PSİXİKA, BEYİN VƏ İNSAN ORQANİZMİ

# 1. PSİXİKANI TƏDQİQ ETMƏDƏN İNSANI ÖYRƏNMƏK QEYRİ-MÜMKÜNDÜR

I hissədə Psixikanın insan orqanizmində müəyyənləşdirilməsi və öyrənilməsini əhatə edən ümumi metodik yanaşmamıza uyğun olaraq orqanizm lə Psixikanın yerləşdiyi məkanla, onun daxili strukturu ilə, fəalıyyət funksiyaları ilə, orada yaşamaq xüsusiyyətlərinin mərhəli hazırlanma prosesləri ilə, digər çoxlu problemlərlə və onların araşdırma nəticələri ilə tanış olduq. Bu hissədə isə Psixikanın beyin orqanları ilə və bütün insan orqanizmi ilə qarşılıqlı fəaliyyət xüsusiyyətləri daha ətraflı şəkildə araşdırılacaq. Burada elmlər sistemi üçün fundamental tədqiqat mahiyyəti daşıyan problemlərdən də söhbət açılacaq. Məsələn, beynin ümumi funksiyalarında, psixi informasiyalara, orqanizmdə mövcud olan psixi immunosistemə və sairə orijinal tipli müasir elmi problemlərə toxunularaq onların araşdırılmasına cəhdlər ediləcək.

Bundan əlavə, insan orqanizminin mövcudluq və fəaliyyət xüsusiyyətləri, qanunauyğunluqları Psixika ilə qarşılıqlı əlaqələr fonunda tədqiq olunacaq. Ən əsası odur ki, bu bölmədə Psixika, beyin və bütün insan orqanizmi arasında həyati əhəmiyyət daşıyan fundamental qarşılıqlı əlaqələrin, təsirlərin öyrənilməsinə üstünlük veriləcək. Düşünürük ki, bu metodik yanaşma Psixilkanın insan orqanizmində əsaslandırıcı, təsdiqedici şəkildə ətraflı öyrənilməsi üçün real və əlverişli tədqiqat şəraiti yaradacaq. Bu metodik yanaşma həm də beynin ümumi fundamental funksiyalarının və ümumilikdə insan orqanizminin ətraflı effektiv öyrənilməsi üçün də geniş imkanlar açacaq.

II hissə həm də böyük I hissədə əldə olunmuş nəticələrin ümumiləşdirilməsi, onlara yenidən baxılması, yeni nəticələrin keçmiş nəticələrlə müqayisə olunması, qarşılıqlı təhlil edilməsi və əsaslandırılması hissəsidir. Yəni bu hissədə biz bir çox problemlərə beyin orqanları və ümumi insan orqanizmi nəzərə alınmaqla yenidən baxacaq, orada əldə edilmiş nəticələri daha da təkmilləşdirəcəyik.

Sual oluna bilər, biz bu cür mürəkkəb problemlərin tədqiqini niyə məhz, indi araşdırmağa başladıq? Bu tipli problemlərin tədqiqi hansı fundamental problemlərin yaranmasına səbəb olacaq? Burada

daha hansı fundamental problemlərin öyrənilməsinə qismən də belə olsa şərait yaranacaq? Görəsən, bu sahədə mühüm tədqiqat metodları və elmi nəticələr əldə etmək üçün hansı real imkanlara malikik?

Şübhəsiz, I hissədən sonra məlum suallara lazımi cavabların artıq gerçəkliyə çevrilməsi və bununla əlaqədar olaraq onların daha ətraflı araşdırılması uğrunda ciddi daxili istəyin, həvəsin olması bizi bu cür qəti, cürətli addımlar atmağa vadar etmişdir. Təbii ki, bu da birbaşa Psixikanın insan orqanizmində müəyyənləşdirilməsi və öyrənilməsində əldə olunmuş real nəticələrlə bağlıdır. Psixikanın öyrənilməsi bizim üçün insan orqanizmində olan digər fundamental problemlərin tədqiqində geniş imkanlar yaradır.

Bundan əlavə, burada iki ümumi istiqamətdə meydana çıxan tədqiqat tələbatları öz aktuallığı ilə nəzərləri cəlb edir.

**Birinci istiqamət,** Psixikanın ətraflı və effektiv öyrənilməsi ilə bağlı yaranan tədqiqat tələbatlarıdır. Yəni Psixikanı ətraflı şəkildə öyrənmək üçün onun beyin orqanları və ümumi insan orqanizmi ilə olan əsas qarşılıqlı fəaliyyət xüsusiyyətlərini aydınlaşdırmalıyıq. Bu da ilk növbədə Psixikanın beyni və insanı idarə edən, tənzimləyən bir mərkəz kimi mühüm universal problemlərin tədqiqini əhatə edir.

**İkinci istiqamət,** Psixikanın öyrənilməsi ilə əlaqədar olaraq Psixikanın fəaliyyəti zamanı beyin orqanlarının və bütün insan orqanizminin necə fəaliyyət göstərmələrinin aydınlaşdırılmasından yaranan tədqiqat tələbatlarıdır. Yəni Psixikanın öyrənilməsi beyin orqanlarının və bütün insan orqanizminin qarşılıqlı subyektiv fəaliyyət xüsusiyyətlərinin tədqiqi üçün də əlverişli şərait yaradır. Bu da təbiidir, insanı idarə edən, tənzimləyən ən ali orqan olan Psixikanı öyrənmədən insan orqanizminin fəaliyyət xüsusiyyətlərini və qanunauyğunluqlarını tədqiq etmək mümkün olmayacaq.

İkinci istiqaməti əhatə edən tədqiqat tələbatları daha geniş sahələri əhatə edir. Məsələn, Neyroelmlər sistemində, hətta Psixofizika kimi elmi tədqiqat sahələrində Psixikanın insan orqanizmində öyrənilməsindən sonra daha ciddi elmi nailiyyətlər əldə oluna bilər. Orada yeni fundamental universal problemlərin tədqiq olunmasına real tələbatlar yaranacaq. Çünki insan orqanizmində nəhəng, universal sinir strukturlarını, insanın subyektiv mövcudluq və fəaliyyət xüsusiyyətlərini idarə edən, tənzimləyən məhz, Psixikadır. Psixolo-

ji, bioloji, sosial tipli bütün fəaliyyət xüsusiyyətləri insan üçün məhz onun Psixikasında cəmləşir. Elə ona görə Psixikanın bizə bəxş etdiyi bu tədqiqat fürsətindən istifadə edib ondan maksimum bəhrələnməyə dəyər. Yəni biz Psixikanın beynin və ümumi insan orqanizminin ətraflı öyrənilməsi üçün çoxlu problemlər və geniş tədqiqatlar sistemi əldə etmiş oluruq. Lakin bu geniş problemlər və tədqiqatlar sistemi daxilində uzun illər daimi zəhmət çəkib irəliləmək lazım gələcək. Həm də bu cür geniş və cürətli tədqiqatların aparılması üçün müəyyən elmi nailliyyətlər, informasiyalar artıq toplanmışdır. Əsaslanmaq və ciddi tədqiqatlar aparmaq üçün müəyyən təcrübədə mövcuddur.

Deməli, II hissədə də Psixikanın ətraflı tədqiqini davam etdirmək üçün qorxmadan irəliyə qəti addımlar atmaq mümkündür. Bu hissədə də sadədən mürəkkəbə doğru olan ümumi tədqiqat istiqamətini qoruyub saxlamağa çalışacağıq.

Bir daha nəzərinizə çatdırırıq ki, Psixikanın beyin orqanları, insan orqanizmi ilə qarşılıqlı əlaqələrinin tədqiqi ilk növbədə insanın ətraflı öyrənilməsinə xidmət edir və bu sahədə fundamental tədqiqat şəraitinin yaranması üçün geniş imkanlar açır. Psixika insanı idarə edən, ona subyektivlik, insanlıq bəxş edən ən ali orqandır. Hər bir insan üçün dünya, mövcudluq, yaşamaq və həyat kimi ali məfhumlar sistemi məhz, onun Psixikasında yaranır, orada cəmləşir. Belə olan halda, Psixikanı tədqiq etmədən insanı öyrənmək təbii ki, qeyri-mümkün olacaq. Bu yanaşma insanın öyrənilməsində universal-psixoloji, bioloji və sosial mahiyyət daşıyan mühüm tədqiqat istiqamətidir.

**Psixika insanı idarə etməyə qadir orqandır. Çünki insan yalnız Psixika vasitəsilə özünü dərk edir, özünü bir insan kimi təsdiqləyir. Məhz, Psixika vasitəsilə insan öz bioloji və subyektiv psixoloji mövcudluğunu görür, hiss edir və dərk edir. Deməli, həqiqətən də insan yalnız dərk və təsdiq edildiyi bir ali orqan, mərkəz tərəfindən idarə oluna bilər. Bu təbiidir, rasionallıqdır, formalaşma və inkişaf qanunauyğunluğudur. Alternativi olmayan ali gerçəklikdir.**

# 2. PSİXİKADA NEYRONLARIN FƏALİYYƏT XÜSUSİYYƏTLƏRİ

## 2.1 PSİXİKADAXİLİ NEYRONLAR

Psixikanın öyrənilməsində ən mürəkkəb problem Psixika daxilindəki neyronların (sinir hüceyrələrinin) fəaliyyət xüsusiyyətləri ilə bağlıdır. Məlumdur ki, Psixikanın şöbələrində xüsusilə də, onların qabığında (beyin qabığında) neyronlar nəhəng işlər görür, orqanizmin psixo-bioloji fəaliyyətini tənzimləyirlər. Psixikanın (baş beynin) bu hissəsi Neyroelmlər sistemində də ən mürəkkəb və ziddiyyətli tədqiqat sahəsidir. Əlbəttə, psixikadaxili neyronların fəaliyyət xüsusiyyətlərini öyrənmək üçün kliniki neyro-cərrahiyyə formalı tədqiqatların aparılması mühüm əhəmiyyət daşıyır. Bu çox ciddi problemdir. Çünki kliniki laborator ekspermentlərin aparılmasına və bunun üçün lazım olan ümumi nəzəri metodikanın hazırlanmasına xüsusi diqqət yetirmək lazımdır. Artıq qeyd etmişik ki, bu cür tədqiqatların aparılması üçün ilk növbədə Psixika neyroanatomik cəhətdən ətraflı şəkildə öyrənilməlidir. Real fundamental nəzəri yanaşmalar hazırlanmalı və dəfələrlə sınaqdan keçirilməlidir. Bütün bunları nəzərə alaraq, indi biz psixikadaxili neyronların mövcudluq və fəaliyyət xüsusiyyətlərini aydınlaşdırmağa calışacağıq.

Psixikadakı neyronları tədqiq etmək üçün ilk növbədə onların yerləşdiyi məkanın ümumi mövcudluq və fəaliyyət prinsiplərinə diqqət yetirilməlidir. Ümumi mövcudluq və fəaliyyət prinsipi Psixika, beyin kimi mürəkkəb fundamental problemlərin öyrənilməsində nəzərə alınan əsas tədqiqat amilidir. Psixika ilk növbədə ümumi işlə məşğul olur. Bu ümumi işi də neyronlar yerinə yetirirlər. Psixikanın şöbələrində də neyronlar ümumi işlərlə məşğul olurlar. Əslində, Psixikada neyronları öyrənmək üçün digər sanballı metodik yol yoxdur. Yalnız neyronların ümumi iş prinsipləri dəqiqləşdirildikdən sonra onların digər xüsusi fəaliyyət xüsusiyyətlərini öyrənmək mümkün olacaq. Bu yanaşmanı aşağıda bir az da aydınlaşdırmağa çalışaq.

I hissədə dəfələrlə qeyd etmişik ki, Psixika şöbələri, orada yerləşən neyronlar yalnız və yalnız Psixikanın ümumi iş nəticəsi üçün

fəaliyyət göstərirlər. Beyin və bütün orqanizmdə Psixikanın ümumi fəaliyyəti üçün lazım olan əsas iş prinsiplərini yerinə yetirirlər. Bunun üçün Psixika ilə bütün beyin və insan orqanizmi arasında çox əhəmiyyətli qarşılqlı əlaqələr mövcuddur. Bu qarşılıqlı əlaqələr orqanizmdə ümumi asılılıq yaradır. Psixika daxilində məlum qarşılıqlı asılılıq son nəticədə Psixikanın ümumi işinə - psixi proseslərin yaranmasına, fəaliyyət və davranışın formalaşaraq orqanizmin idarə edilməsinə xidmət edir. Bu ümumi iş prinsipi Psixika üçün onun şöbələrindən başlayır. Yəni hər hansı bir neyron öz şöbəsinin ümumi fəaliyyət funksiyaları üçün işləyir. Nəticə etibarilə, şöbələrin ümumi fəaliyyət funksiyalarını yaradan neyronlar psixi proseslərin tərkib hissələrini işləyib hazırlayırlar. Bu proseslərin mövcudluq xüsusiyyətləri, yaranma dinamikası və onların inkişaf prinsipləri haqqında sizə I hissədə ətraflı şəkildə məlumat verilib.

Psixikanın ümumi strukturunu, yuxarıda deyilənləri nəzərə alaraq mövcudluq, fəaliyyət xüsusiyyətləri və ümumi iş prinsipləri baxımından Psixika şöbələri daxilindəki neyronları (sinir hüceyrələrini) qruplaşdırmaq mümkündür. Bu qruplaşma neyronların yerləşdiyi məkanla və şöbələrin daxili kimyəvi tərkibi ilə birbaşa əlaqəlidir. Yəni onların mövcudluq əsaslarındakı müxtəlifliyi şöbələrdəki ağ və boz maddələr təşkil edir. Rənglər müxtəlif olduğu kimi oradakı neyronların gördükləri işlərdə müxtəlif olur.

Məlumdur ki, şöbələrin ağ maddələrində yerləşən neyronlar əsasən Psixika daxilində əlaqə yaratmaq informasiyalarını ötürməklə məşğul olurlar. Burada nəhəng saylı mürəkkəb informasiyaların ötürülməsindən söhbət gedir.

Şöbələrin boz maddəsində (şöbələrin beyin qabıqlarında) yerləşən neyronlar isə Psixikanın ən ali funksiyalarını, psixi proses məhsullarını hazırlamaqla məşğul olurlar. Boz maddə neyronları Psixikanın ali ümumi iş nəticəsini – psixi proseslərin yaranmasını sona çatdırırlar. Bu baxımdan, biz şöbələrin daxilindəki neyronları gördükləri işlərə görə iki ümumi qrupa bölə bilərik.

1. **Əlaqə yaradan neyronlar (ağ maddə, şöbələrin daxili)**
2. **Hazırlayıcı funksional iş neyronları (böz maddə, şöbələrin qabığı)**

Xatırladırıq ki, neyronların (sinir hüceyrələrinin) bu cür qruplaşmalarına baxmayaraq onlar Psixikanın ümumi nəticə işinə bağlıdırlar. Bu bağlılıq Psixika daxilindəki funksional ierarxiyaya əsaslanır. Yəni onlar müstəqil deyil, məhz ciddi tabeolma prinsiplərinə uyğun fəaliyyət göstərirlər. Ardıcıllığın pozulması Psixikanın nəhəng və dəqiq işinin pozulması deməkdir. Psixika daxilində ümumi iş uğrunda ciddi ierarxik fəaliyyət məcburidir və vacibdir. Çünki Psixika kimi mürəkkəb hazırlayıcı, idarəedici və tənzimləyici orqan digər formada işləyə bilməz.

Şöbələr daxilindəki neyronlar da eyni ierarxik ciddi fəaliyyət sisteminə malikdirlər. Məsələn, koqnitiv şöbədə yerləşən hər hansı neyron, neyronlar qrupu yalnız bu şöbədəki şüur və yaxud təxəyyül üçün işləməyi bacara bilməz. Əks halda onlar məlum şöbənin və ümumi Psixikanın iş sistemini pozmuş olurlar. Ən azı ona görə ki, Psixika daxilində hər hansı koqnitiv və yaxud təxəyyül prosesi tərkib hissəli ümumi iş nəticəsidir. Yəni bu tərkib hissədə digər ali idraki proseslərin də iş nəicələri vardır. Deməli, burada söhbət yalnız neyronların (sinir hüceyrələrinin) universal ümumi işindən gedə bilər.

Neyronların bu cür universal ümumi iş prinsipi ekzistensial şöbədə də eyni formadadır. Orada da neyron, neyronlar qrupu təkcə hafizəyə və yaxud qavrayışa işləmir. Onlar da məlum şöbənin və Psixikanın ümumi funksiyalarına uyğun fəaliyyət göstərirlər.

Məlumdur ki, Psixikada yerləşən bütün neyronları hafizəli təcrübəyə malikdirlər və onlar ümumi universal fəaliyyət göstərməyi bacarırlar. Şübhəsiz, hafizəli təcrübə, ümumi universal fəaliyyət göstərmək prinsipi Psixikanın nəhəng mürəkkəb işinin yaranması üçün real imkanlar açır.

Psixikada neyronların ətraflı, obyektiv öyrənilməsinə mane olan əsas səbəblərdən biri də burada real elmi nailiyyətlərin olmamasıdır. Məsələn, kim şüuru, hafizəni görüb və yaxud dəqiq bilir ki, bu proseslər sistemi beyində, beyin qabığında (Psixikada) harada yerləşir? Əlbəttə, heç kəs. Tarix boyu insanlar bu tipli əqli proseslərə özləri müəyyən adlar veriblər. Yəni biz bu sahədəki problemi primitiv "adlandırma" ilə həll etmişik. Məsələn, ən ali idraki proseslərə "şüur" demişik, yaradıcılığı yaradan proseslər sisteminə "təxəyyül" demişik, yaddaş strukturlarını və funksiyalarını "hafizə"

adlandırmışıq və sairə. Göründüyü kimi, biz onların insan orqanizmində yerini, özünü müəyyənləşdirib öyrəndikdən sonra adlandırmamışıq. Bu tipli məlumatlar tarixi-elmi inkişaf proseslərinin real şifahi nəticələridir.

Psixikanın insan orqanizmində tədqiqindən sonra yuxarıdakı problemə də yeni metodik formalarda real məntiqlə yanaşmaq mümkün olacaq. Məsələn, artıq deyə bilərik ki, şüur, təfəkkür, nitq, təxəyyül koqnitiv şöbədə (sol yarımkürədə) yerləşirlər. Onlar artıq Psixika üçün işləyirlər. Şüur, təfəkkür, nitq, təxəyyül, hafizə, qavrayış, daxili ekzistensial nitq Psixikada bir yerdə olan tərkib hissəli proseslərdir. Yəni Psixikada ayrı-ayrılıqda təkcə şüur, hafizə və yaxud nitq mövcud deyil.

Bu baxımdan, şüuru və digər idraki prosesləri ayrılıqda beyin qabığında hansı isə neyronlar qrupunda axtaranlar kobud metodik səhvlərə yol verirlər. Məsələn, şüur Psixikadadır, psixi proseslərin və psixi fəaliyyətin tərkib hissəsindədir. Şübhəsiz, o özü də tərkib hissəli prosesdir. Nitqsiz, hafizəsiz, təfəkkürsüz, təxəyyülsüz şüuri fəaliyyət yoxdur və ola da bilməz. Bütün digər ali koqnitiv proseslər də şüur kimi tərkib hissəlidirlər. Eyni zamanda şüursüz, nitqsiz, hafizəsiz təfəkkür prosesləri də ola bilməz və sairə. Bu cür fəaliyyət xüsusiyyətləri psxikadaxili neyronlarda da mövcuddur. Bütün bu proseslər Psixikanın tərkib hissəli ümumi işini yaratmağa xidmət edən əsas prinsiplər sistemidir.

Deməli, beynin ali funksiyalarını öyrənən Neyroelmlər sisteminin mütəxəssisləri anlamalıdırlar ki, Psixikanı tədqiq etmədən, onun daxili fəaliyyət xüsusiyyətlərindən xəbər tutmadan məlum sahədə ciddi real elmi nailiyyətlər qazanmaq qeyri-mümkün olacaq. **Əks halda onların tədqiqatları "ev yiyəsini" (yəni, Psixikanı) tanımadan qonaq getməyə bənzəyəcək.**

## 2.2 ALIN PAYI NEYRONLARI

Digər bir problem beyin qabığı paylarında yerləşən neyronlarla (sinir hüceyrələri ilə) və onların funksional fəaliyyəti ilə bağlıdır

(**Bax: şəkil-7-yə** ). Bu paylar artıq Psixikaya məxsusdur və biz onları "Psixikanın payları" adlandırmışıq. Deməli, Psixikanın şöbələri eyni sayda – dörd paya malikdirlər. Müasir dövrə qədər məlum payların ümumi funksiyalarını qismən öyrənmək mümkün olub.

İndi isə bu payları Psixika daxilində daha ətraflı şəkildə yeni real formalarda tədqiq etmək üçün əlverişli şərait yaranacaq. Məsələn, artıq qəbul etmək olar ki, Psixika üçün bu payların fəaliyyət xüsusiyyətləri fərqli cəhətlərə malikdir. Çünki Psixikanın şöbələri üçün bu fərqlər artıq realdır. Ekzistensial şöbə üçün onun payları şöbənin özünəməxsus fəaliyyət funksiyalarını yaradırlar. Koqnitiv şöbədə də həmçinin paylar ali əqli funksiyaları həyat keçirməklə fərqlənirlər. Psixika paylarının öyrənilməsi də mürəkkəb prosesləri əhatə edəcək. Onsuz da onların yerləşdiyi məkan (şöbələrin qabığı) çox çətin tədqiqat mürəkkəbliyi ilə seçilir. Lakin Psixikanın payları və oradakı neyronların fəaliyyəti ilə bağlı müəyyən mülahizələr söyləmək mümkündür.

I hissədə qeyd etmişdik ki, Psixikanın ən aktiv işi, ali funksiyaları məhz, **alın payında** yaranır və orqanizmin subyektiv fəaliyyəti reallığa çevrilir. Psixika şöbələrinin alın paylarındakı funksional hazırlayıcı neyronlar ən mürəkkəb psixikadaxili prosesləri həyata keçirirlər.

Koqnitiv şöbənin alın payı psixi prosesin yaranmasını sona çatdıran məkandır. Orqanizmin məntiqli davranışı bu şöbənin alın payının neyronları tərəfindən idarə olunur. Tarixi elmi və ictimai ədəbiyyatlardan da bizə məlumdur ki, koqnitiv şöbəni alın payı nahiyələrində baş verən zədələnmələr insan xarakteri və mənəviyyatında kobud dəyişikliklərə, pozğunluqlara səbəb olur. Hərəkət və davranışlarda da müəyyən dəyişikliklər baş verir.

Ekzistensial şöbənin alın payı nahiyələrinin zədələnmələrində isə mövcudluğu, məkanı və oradakı əşyalar sisteminin qavranılması ilə əlaqədar mənfi pozğunluqlar yaranır.

Məlumdur ki, psixikadaxili neyronlar ruhi mövcudluq mahiyyətinə və fəaliyyət xüsusiyyətlərinə də malikdirlər. Psixika daxilindəki neyronlar ruhi, qeyri-subyektiv informasiyaları qəbul edir, onları işləyib hazırlayır və digər nahiyələrə ötürürlər. Cəmiyyət daxilində bu yanaşmanın təsdiqinə yönəlmiş bir ictimai hadisə diqqəti-

mizi cəlb etdi. Bu hadisə Psixikanın ilkin formalaşma dövrlərini əhatə edir.

Biz bilirik ki, yenicə doğulmuş körpədə Psixika aktiv surətdə formalaşmağa başlayır. Bu dövrdə körpənin beyin qabığı hissəsində (Psixikasında) şırımlar, qırışlar yaranır. Təxminən qırx günə (doğulandan sonra) bu şırımlar qismən formalaşır. İndi anlamaq mümkündür ki, niyə dini və məişət adət-ənənələrində yenicə doğulmuş körpə üçün qırx gün çox ağır dövr sayılır və adətən bu dövrdə onlar üçün qapalı yaşam şəraiti yaradılır. Deyilənə görə bu dövrdə körpə tezliklə bioloji və psixoloji mənfi təsirlərə məruz qala bilər.

Əslində yuxarıdakı yanaşmanın real elmi əsasları vardır. Çünki məhz, bu dövrdə Psixikanın ilkin yaranması və formalaşması prosesləri baş verir. Bu ilkin aktiv dövr təxminən qırx günü əhatə edərək yenicə doğulmuş körpənin xarici ruhi və qeyri-subyektiv aləmlə ilkin qarşılıqlı əlaqəsinə əsaslanır. Psixikanın qabığında (beyin qabığında) şırımlar yaranır, Psixikanın fundamental əsasları qoyulur. Bu mərhələdə körpə çox aktiv şəkildə ruhi proseslərin, digər insanlardan gələn mənfi informasiyaların və mənfi enerjinin təsirlərinə məruz qala bilir. Çünki ruhi və qeyri-subyektiv informasiyalarla işləyən, onlara təsir etmək iqtidarında olan Psixika qabığı neyronları ilkin, zəif yaranma və formalaşma dövründə olurlar. Şübhəsiz, Psixika getdikcə həm də mənfi proseslərdən, təsirlərdən qorunmaq, mühafizə olunmaq funksiyalarını mənimsəyir. Biz bu haqda "Orqanizmin psixi immunosistemi" mövzusunda ətraflı şəkildə danışacağıq.

Körpələrdə Psixikanın tam bioloji formalaşma dövrü təxminən bir ili əhatə edir. Bu dövrdə körpələrin Psixika şöbələrini (beyin yarımkürələrini) birləşdirən orta nahiyədəki boşluqlar dolur və baş nahiyəsindəki digər nahiyələrdə bioloji bərkimə baş verir. Psixika neyronları (sinir hüceyrələri) oradakı nəhəng iş proseslərini yaratmaq üçün formalaşmış olurlar.

# 3. PSİXİKA VƏ BEYİN. BEYİN NECƏ İŞLƏYİR?

## 3.1 PSİXİKA VƏ BEYİN ORQANLARI

Psixikanın öyrənilməsində mühüm istiqamətlərdən biri də onun beyin orqanları ilə qarşılıqlı əlaqələrinin və təsirlərinin tədqiq edilməsidir. Bu zəruri tədqiqat istiqaməti istər-istəməz insan orqanizminin də öyrənilməsinə xidmət edir. Bundan əlavə, burada beyin orqanlarının Psixikaya necə xidmət etmələri ilə bağlı müəyyən, yeni problemlər meydana çıxacaq. Hər halda indi bir mühüm amili təsdiq etmək mümkündür. Psixika bütün beyin və beyin orqanları ilə sıx neyroloji və psixofizioloji əlaqələrə malikdir.

Məlumdur ki, Psixika və beyin kimi orqanların öyrənilməsi üçün kompleks nəzəri yanaşma tələb olunur. Bu amil müasir elmlər sistemində zəruri metodoloji problemə çevrilib. Məsələn, əksər hallarda beynin ali funksiyalarını öyrənən tədqiqatçılar son anda məhz, dərk edilməyən ruhi, psixi problemlərlə üzləşdikdə çıxılmaz vəziyyətdə qalaraq geriyə çəkiliblər və yaxud əksinə psixoloqlar, neyropsixoloqlar sırf neyrofizioloji və anatomik problemlərlə qarşılaşaraq eyni aqibətlə üzləşirlər.

Bütün bunları nəzərə alaraq artıq Neyroelmlər sistemində bu cür problemlərin tədqiqində ümumi kompleks yanaşmaya xüsusi diqqət yetirilir. Məsələn, lazım olan əlverişli şəraitdə psixoloji, neyroloji və fizioloji xüsusiyyətlər sistemi kompleks şəkildə öyrənilir və müqayisə edilir. Bu tədqiqat işlərini tənzimləmək üçün xüsusi beynəlxalq elmi təşkilatlar və layihələrdə də yaradılır. Məsələn, **"İnsan beyninin layihəsi"("Human Brain Project")** kimi elmi birlik buna misal ola bilər. Bu elmi təşkilatlarda ixtisasından asılı olmayaraq hər bir mütəxəssis beynin öyrənilməsində öz ümumi universal metodik yanaşması ilə iştirak edə bilər. Yəni beyin kompleks ümumi problemlərin məcmusu olduğundan artıq burada xüsusi birtərəfli ixtisaslaşmağa ehtiyac duyulmur. Bu da beynin ətraflı öyrənilməsi və orada daha orijinal fundamental elmi nailiyyətlərin qazanılmasına əlverişli şərait yaradır.

"Psixika və beyin" problemini əhatə edən məsələlərin öyrənilməsində də yuxarıdakı ümumi kompleks yanaşma aktuallıq kəsb edir. Burada qarşılıqlı metodik tədqiqat xüsusiyyətləri tələb olunur. Deməli, Psixikanı öyrənmək üçün beyni, beyni öyrənmək üçün isə Psixikanı öyrənmək lazımdır. Məlum zəruri tədqiqat yanaşması çoxdandır ki, alimləri narahat edir. **"Bütün Psixologiya – son anda beynin öyrənilməsi deməkdir. Bu yanaşma psixofiziologiyaya münasibətdə isə daha realdır".** Bu söslər Amerika psixofizioloqu **C.Hessetə** məxsusdur. **"Bəs insan? Məgər onun ali fəaliyyəti böyük yarımkürələrin normal daxili strukturundan və fəaliyyətindən asılı deyilmi".** Bu sözləri isə fiziologiya elminin atalarından biri kimi qiymətləndirməyə layiq olan rus fizioloqu **İ.Pavlov** deyib.

Sual oluna bilər beyin orqanları Psixika üçün necə işləyir? Əslində, bu suala standart təbii cavab vardır. Yəni biz yenidən "Amerika" kəşf edə bilmərik. Müasir günümüzə qədər beyin orqanlarının fəaliyyəti barəsində nə biliriksə həmin biliklərimizi beyin orqanlarının Psixika üçün necə işləməsi problemlərinin öyrənilməsinə də tətbiq edə bilərik. Beyin orqanlarının məlum funksiyaları elə birbaşa Psixikanın fəaliyyətinə yönəlib. Xaricdən, orqanizmdən gələn informasiyaları Psixikaya (beyin qabığına) ötürmək və orada hazırlanmış informasiyaları fəaliyyətə, subyektiv davranışa tətbiq etmə proseslərində beyin orqanları öz ənənəvi funksiyaları ilə iştirak edirlər. Bu prosesə həm də bütün orqanizm qoşulur.

Əlbəttə, bu həyati əhmiyyətli proseslərdə beynin, bütün orqanizmin iştirak etməsi zəruridir. Çünki insan özünü məhz, Psixikası vasitəsilə dərk edir, təsdiqləyir. Bu ali qanunauyğun prosesə beyin, bütün insan orqanizmi tabedir. Bu baxımdan, beynin, insan orqanizminin Psixikaya işləməsi zəruri prinsipdir. Pasixikadaxili mürəkkəb işdə beyin orqanları isə Psixikaya ən çox kömək edən əsas strukturlardır. Onlar Psixikanın ən yaxın köməkçiləridir.

Psixikanın insan orqanizmində öyrənilməsindən sonra beyin orqanları Psixikaya işləmək baxımından müəyyən dəyişikliklərə məruz qalacaqlar. Müsbət cəhət odur ki, beyin orqanlarının anlaşılmaz yeni funksional xüsusiyyətlərini aydınlaşdırmaq üçün geniş imkanlar açılacaq. Bundan əlavə, beyin orqanları arasındakı qarşılıqlı əlaqələrin həqiqi mahiyyəti dəqiqləşəcək.

Artıq Psixikanın tədqiqi ilə bağlı beyin orqanlarındakı funksional fəaliyyət dəyişikliklərini görmək mümkündür. Məsələn, baş beyindəki əlaqələndirici liflər (proyeksion, komissural, assosiativ) öz iş funksiyalarına görə daha ətraflı tədqiqə məruz qalacaqlar. Sinir lifləri haqqında artıq onu demək mümkündür ki, bu sinir yolları Psixikanın daxili işində aktiv fəaliyyət göstərən əlaqələndirici yollardır. Bu liflər həm Psixika ilə orqanizm arasında (afferent və efferent proyeksion liflər) həm də Psixika daxilində (kommisural və assosiativ liflər) əlaqələr yaradırlar.

Məlum liflər sistemi Psixika daxilində həm də anatomik və fizioloji mahiyyət daşıyan əlaqələndiricilərdir. Psixikanın fəaliyyətində bu liflərin həyati əhəmiyyət daşımasını anlamaq çətin deyil. Gələcəkdə sinir yolları ilə bağlı psixikadaxili tədqiqatlar real fundamental nəticələr verəcək.

**Hipotalamus** və **talamus** kimi beyin orqanlarını da Psixikaya daha yaxın strukturlar saymaq olar **(Bax: şəkil-18).** Hipotalamus və talamusun emosional hormonal funksiyaları onların Psixika ilə geniş əlaqələrdə olmasından xəbər verir. Anatomik və fizioloji baxımdan da bu orqanlar Psixika ilə geniş qarşılıqlı əlaqələrə malikdirlər.




**Şəkil-18. Hipotalamus və talamus**

Bundan əlavə, Psixikanın orqanizmdən informasiyalar qəbul etməsi və orqanizmin fəaliyyətini idarə etməsi baxımından **onurğa beyni, beyin kötüyü** kimi orqanlar mühüm əhəmiyyətli işləri həyata keçirirlər.

## 3.2 PSİXİKA VƏ BEYİNCİK

"Psixika və beyin" problemlərinin öyrənilməsində diqqəti çəkən ən mühüm orqan **beyincik** sayıla bilər. Biz beyinciyi Psixikaya ən yaxın beyin orqanı kimi qəbul edirik. Gəlin beyinciklə ətraflı şəkildə tanış olaq.

Beyincik (Cerebellum) beyincik yarımkürələrindən (hemispheria cerebelli) və kiçik orta hissə olan soxulcandan (Vermis) ibarətdir. Filogenez cəhətdən soxulcan beyinciyin qədim şöbəsi, yarımkürələr isə onun yeni şöbəsini təşkil edir **(Bax: şəkil - 19 ).** Beyincik yarımkürələri beyincik çəpkəni ilə paralel inkişaf edib.

Beyincik də ağ və boz maddələrdən təşkil olunub. Ağ maddə beyinciyin daxilini, onun cismini, boz maddə isə beyincik yarımkürələrini təşkil edir.

Beyincik mühüm funksiyalara malikdir. İlkin olaraq beyincik orqanizm hərəkətlərini, bədənin müvazinətini tənzimləyir. O, bədənin yerdəyişməsi ilə əlaqədar olaraq mürəkkəb hərəkətlər zamanı əzələlərin işini tənzimləyir və əzələ tonusunu nizama salır. Bu baxımdan, beyincik simpatik sinir sisteminin mərkəzlərindən biri hesab olunur. Bu da təsadüfi deyil. Beyincik orqanizmlə Psixika arasında geniş sinir və müxtəlif əlaqələndirici yollara malikdir.




**Şəkil-19. Beyincik (Cerebellum).**

Göründüyü kimi, beyincik daha mürəkkəb daxili struktura və subyektiv mahiyyətli hərəkət, davranış funksiyalarına malikdir. Bu mürəkkəblik onun həm anatomik, həm də fəaliyyət xüsusiyyətlərində hiss olunur. Məlum mürəkkəblik həm də onun yerinə yetirdiyi mühüm orqanizmdaxili funksiyaları ilə birbaşa əlaqəlidir.

Beyinciyin ümumi funksiyalarına diqqətlə nəzər saldıqda görərik ki, o, daha ciddi işlərlə məşğul olur. Deməli, biz beyinciyin beyində, orqanizmdə yeni mahiyyətli funksiyaları və fəaliyyət xüsusiyyətləri ilə üzləşə bilərik. Məsələn, qeyd etmək mümkündür ki, beyinciyin ilkin funksiyaları sırf subyektiv mahiyyət daşıyan davranış və

hərəkətləri tənzimləyir. Bu yanaşmanı beyincikdə baş verən kobud kliniki pozğunluqlar da sübuta yetirir. "Beyincik sindromu", "Beyinciyin soxulcan sindromu" kimi kobud pozğunluqlar buna misal ola bilər. Qeyd etdiyimiz, hər iki pozuntu hallarında insan orqanizminin subyektiv davranış və hərəkətlərində ciddi nöqsanlar baş verir. Məsələn, bədənin müvazinəti itir, yeriş pozulur, nitq və yazı xətti pozğunluqları baş verir, əl barmaqları, ətraflar əsir və sairə.

Yuxarıda dediklərimizi nəzərə alaraq biz çox ciddi və həm də real bir fikir irəli sürmək istəyirik. Bizə elə gəlir ki, **beyincik orqanizmin kiçik biopsixoloji psixikasıdır.** Tədqiqatlar da göstərir ki, avtomatik olaraq baş verən hərəkət və davranışlarımız beyinciklə daha çox əlaqəlidir. Orqanizmin hərəkət dinamikası, subyektiv fəaliyyət xüsusiyyətləri məhz, beyinciklə tənzimlənir. Bütün bu mülahizələr bizə imkan verir ki, beyinciyi insan orqanizminin idarə edilməsində, tənzimlənməsində mühüm rolu olan, seçilən əhəmiyyətli orqan kimi qəbul edək.

Problemə ətraflı yanaşmaq üçün bir neçə suallara cavab axtarmağa çalışaq. Orqanizmin **kiçik biopsixoloji psixikası** nə deməkdir? Necə olur ki, beyincik şərtsiz refleksli hərəkətləri, orqanizmin davranış və fəaliyyət xüsusiyyətlərini, dinamikasını tənzimləyir?

Beyinciyin insan orqanizmi üçün olan mühüm fəaliyyət əhəmiyyətini nəzərə alaraq, bu fəaliyyət funksiyalarını ətraflı şəkildə anlamaq üçün biz məcazi mənada ona **orqanizmin kiçik biopsixoloji psixikası** deyirik. Bu adlandırma ciddi elmi termin kimi də qəbul edilə bilməz. Sadəcə olaraq beyinciyin real fəaliyyət statusunu dəqiqləşdirmək üçün bu, zəruri və əhəmiyyətli yanaşma metodudur.

Məlum oldu ki, beyincik orqanizmin hərəkət və davranışını subyektivləşdirir. Bu prosesdə orqanizmin ümumi bioloji fəaliyyət xüsusiyyətləri iştirak edir. Burada onurğa beyni də əsas fəaliyyət xüsusiyyətlərini yerinə yetirir. Pavlovun şərtsiz refleksləri də məhz, beyincik tərəfindən orqanizm üçün tənzimlənir. Psixika insanın primitiv, avtomatik hərəkət və davranışları ilə bağlı informasiyaları alaraq onları fəaliyyətə çevirmək üçün beyinciyə ötürür. Beyincik bu davranış və hərəkət xüsusiyyətlərinin yerinə yetirilməsi ilə məşğul olur və bilavasitə onlara rəhbərlik edir. Beyincik orqanizmə daxil olan ruhi və qeyri-subyektiv informasiyaların Psixikaya ötü-

rülməsində və onlara qarşı reaksiyaların hazırlanmasında Psixikaya kömək edən ən aktiv real orqandır.

Bu baxımdan, beyinciyin ən ali funksiyası insanın hərəkət və davranışlarına subyektivlik, məntiqlik bəxş etməsidir. Nəticədə, fərd məhz, canlı insan kimi davranır, hərəkətlər edir. Əgər Psixika bütün insan orqanizminə subyektiv koqnitiv fəaliyyət bəxş edirsə, beyincik isə insanın primitiv hərəkət və davranışlarına, impulsiv fəaliyyət xüsusiyyətlərinə subyektivlik, məntiqi forma bəxş edir. Məsələn, primitiv bir hərəkət prosesinə diqqət yetirək. "Kitabı stolun üstündən götürüb kitab rəfinə qoymaq" hərəkəti. Bu hərəkət Psixikadan gələn informasiyaya əsasən beyincik tərəfindən rəhbərlik və tənzim edilən subyektiv mahiyyətli, məntiqli davranış prosesidir. Əks halda biz kitabı anormal davranış formalarında götürüb yerini dəyişərik. Beyincik bu hərəkətimizə məntiqli ardıcıllıq bəxş edərək məlum davranışı problemsiz dinamik həll etməyə imkan yaradır.

Beyincik məntiqli davranış və fəaliyyət xüsusiyyətlərini yerinə yetirmək, tənzimləmək üçün ilk növbədə və hökmən yaddaş ehtiyatlarına malik olmalıdır. Bundan əlavə, beyincik qismən orqanizmin fəaliyyəti ilə bağlı informasiyaları işləmək və dəqiqləşdirmək funksiyalarını bacarmalıdır. Tarixi və elmi yanaşma sübut edir ki, daxili struktur və neyroanatomik baxımdan beyincik bu işlə məşğul ola bilər. İndi anlamaq mümkündür ki, niyə beyincik yarımkürələrə malikdir və niyə bu yarımkürələr Psixikanın qabığı (beyin qabığı) ilə paralel formalaşma və inkişaf dövrü keçirlər.

**Deməli, beyincik həm də informasiya ehtiyatlarına malikdir. İndi məlum olur ki, niyə hafizə bir çox tədqiqatlarda məhz, beyinciklə əlaqələndirilirdi. Lakin burada bir çaşdırıcı amil mövcuddur. Hafizə beyincikdə digər formada fəaliyyət göstərir. Beyincik bioloji fəaliyyət hafizəsinə malikdir. Bu primitiv hərəkət informasiyaları hafizəsidir. Yerinə yetiriləcək fəaliyyət və davranış xüsusiyyətlərinin hafizəsidir.**

Təbii ki, burada bir suala cavab vermək lazım gəlir. Beyincik daxilində onun yarımkürələri nə ilə məşğul olurlar?

Şübhəsiz, beyincik boş yerə yarımkürələrə malik ola bilməz. Artıq demək mümkündür ki, beyincik yarımkürələri orqanizmin primitiv bioloji subyektiv fəaliyyətini tənzimləməyə xidmət edən infor-

masiyaları qoruyub saxlamağa və onları qismən işləməyə qadirdirlər. Beyinciyin ağ və boz maddələrində yerləşən neyronlar məhz, bu cür funksional proseslərin həyata keçirilməsi ilə məşğuldurlar.

Deməli, insanın davranış və fəaliyyət dinamikasını tənzimləmək üçün beyincik yarımkürələrə və onlar arasında olan **qarşılıqlı əlaqə hissəsinə (soxulcana)** malikdir. Bu orqanlar sırf formal-anatomik mahiyyət daşıya bilməz. Ümumiyyətlə, insan orqanizmində heç bir orqan boş yerə yaradılmayıb. Ona görə də beyincik, onun yarımkürələri və qarşılıqlı əlaqə hissəsi olan soxulcan kimi orqanlar ciddi mühüm işlərlə məşğul olmağa məhkumdurlar.

Bir daha diqqətinizə çatdırırıq ki, beyincik Psixikadan xəbərsiz informasiyaları işləyib hazırlaya bilməz. Burada söhbət ondan gedir ki, beyincik orqanizmin subyektiv hərəkət və davranışı üçün Psixikanın fəaliyyət xüsusiyyətlərini bütün orqanizmdə həyata keçirir. Təbii ki, subyektiv məntiqli fəaliyyət xüsusiyyətlərini orqanizmin fəaliyyətinə tətbiq etmək üçün ilk növbədə bu formalı informasiyaları mənimsəmək, onları bir-birlərindən ayırmaq, işləmək lazımdır. Məsələn, "əlimizi qaldırıb başımızı sığallamaq istəyimiz" informasiya halında Psixikadan beyinciyə ötürülür. Əlbəttə, bu proses çox aktiv baş verir. Psixika bu primitiv hərəki davranışa vaxt sərf edə bilməz. Məhz, beyincik bu cür ani, dinamik davranışı həyata keçirir və biz əlimizlə başımızı sığallamağa müyəssər oluruq. Sonradan bu hərəki informasiyalar beyinciyin yaddaş ehtiyatlarında qorunub saxlanılır.

Bu baxımdan, davranış və hərəkətləri həyata keçirmək, qarşılıqlı əlaqələr yaratmaq üçün beyincik yarımkürələri də ekzistensial və koqnitiv-subyektiv mahiyyət daşıyırlar. Çünki insan orqanizminin bütün davranış və hərəkətləri subyektiv-məntiqi mahiyyətə əsaslanır. Yəni bizim hər bir hərəkətimiz ekzistensial və koqnitiv-subyektiv informasiyaların qarşılıqlı əlaqəsindən yaranmalıdır. Əgər biz saçımızı sığallamaq istəyiriksə ilk növbədə öz mövcudluğumuzu hiss etməliyik (beyinciyin ekzistensial şöbəsinin - sağ yarımkürəsinin köməyi ilə) və bu prosesi insana məxsus məntiqli subyektiv fəaliyyət və davranış xüsusiyyəti kimi (beyinciyin koqnitiv-subyektiv şöbəsinin – sol yarımkürəsinin köməyi ilə) yerinə yetirməliyik. Yəni Psixikadan gələn informasiya bir daha beyincikdə ekzistensial və koqnitiv-subyektiv mahiyyətli işlənməyə, hazırlan-

mağa məruz qalaraq fəaliyyətə tətbiq edilir. Nəticədə, məntiqli subyektiv fəaliyyət və davranış xüsusiyyətləri yaranmış olur. Beyinciyin şöbələri beyinciyin daxili işinə uyğun ekzistensial və koqnitiv-subyektiv fəaliyyət funksiyalarına malikdirlər.

Deməli, beyinciyin ümumi işi ondan ibarətdir ki, o, insanın davranış və hərəkətlərini insan Psixikası üşün məntiqli sosial fəaliyyət formalarına salır, tənzimləyir. Psixikada ali psixi proseslər, funksiyalar yaranırsa, beyincikdə isə sırf biopsixoloji fəaliyyətə əsaslanan hərəki davranış xüsusiyyətləri yaranaraq həyata keçirilir.

Beyincik hərəkəti, davranışı həyata keçirən orqan olduğundan o, orqanizmin bioloji strukturları ilə geniş əlaqələrə malikdir. Xüsusilə də, beyinciyin simpatik sinir sistemi ilə sıx bağlılığı və geniş əlaqələri ola bilər. Ümumiyyətlə, beyincik həm bioloji, həm də psixoloji xüsusiyyətli orqan olduğundan o, lazım olan zəruri vaxtlarda bütün orqanizm ilə əlaqələr yaratmaq imkanlarına malikdir.

## 3.3 BEYİN NECƏ İŞLƏYİR?

Deməli, beyin orqanları Psixika ilə eyni strukturda yerləşərək orqanizmin fəaliyyəti üçün birgə işləyirlər. Orqanizmin idarə olunmasında, tənzimlənməsində Psixika beyin orqanları ilə olan ciddi, geniş əlaqələrindən maksimum səviyyədə istifadə edir. Psixika beyin strukturları vasitəsilə orqanizmdən, xaricdən gələn bütün lazımi informasiyaları əldə edir. Bütün sadə, mürəkkəb, ixtiyari və qeyri-ixtiyari informasiyalar Psixikada hazırlanıb fəaliyyət xüsusiyyətlərinə çevrilir. Əslində, Psixika üçün sadə və mürəkkəb informasiya anlayışı yoxdur. Hər bir informasiyaya eyni ciddilik və sistemli işləmə üsulu ilə yanaşılır. Onların hamısı Psixikada eyni səviyyədə işlənib hazırlanır.

Əgər informasiyalar tez-tez təkrarlanaraq gün ərzində Psixikaya daxil olursa onda həmin informasiyalar işlənərək adi fəaliyyət xüsusiyyətlərinə (şərtsiz refleksli davranış hallarına) çevrilirlər. Şərtsiz refleksli hərəkət və davranışların Psixikanın məhsulu olmasını təsdiq etmək üçün xüsusi təsdiqedici tədqiqat aparmağa ehtiyac

yoxdur. Pavlovun it üzərində apardığı məşhur klassik təcrübə nəticələri bunu tamamilə sübuta yetirir. Lazım olan vaxtda itin mədəsinə qida daxil olmasa da onun mədəsi şirə (maye) buraxır. Mədənin şirə ifraz etməsi prosesi itin Psixikasında adi qida qəbuletmə tələbatı ilə əlaqəli olan adi orqanizmdaxili fəaliyyət xüsusiyyətidir. Bu proses Psixikanın beyin orqanları və sinir sistemi ilə qarşılıqlı işindən yaranır. Bu təcrübə sübut edir ki, bütün mürəkkəb, sadə fəaliyyət növləri məhz, Psixikada hazırlanır və oradan idarə olunub tənzimlənir. Orqanizmin fəaliyyət xüsusiyyətlərinin yaranmasında mərkəzi və periferik sinir sistemləri bir-birlərinin işini tamamlayırlar.

Burada bir mühüm problem də nəzəri cəlb edir. Bu amil ümumiyyətlə, beynin necə fəaliyyət göstərməsi ilə əlaqədardır. Şübhəsiz, bu çox ciddi və mürəkkəb elmi əsasları olan problemdir. Çünki beyin qədim tarixə malik ziddiyyətli və mürəkkəb problemlərdən biridir. Onun öyrənilməsi təxminən eramızdan əvvəl 500-cü illərdən başlayır. Təbii ki, bu vaxt ərzində beyinlə bağlı müəyyən ciddi elmi nailiyyətlər əldə olunub. Beynin tədqiqi üçün geniş elmi-texniki ehtiyatlar və təcrübə sistemi yaradılıb. Lakin həmişə tədqiqatçılar beynin yeganə iş strukturunun və ali funksiyalarının araşdırılmasında çətinliklərlə üzləşmişlər. Müasir dövrdə də bu elədir. Amma müəyyən metodik dəyişiliklər görmək mümkündür. Məsələn, indi "beyin necə işləyir" sualına əsaslanan tədqiqatlar məhz, ümumi universal metodikalar nəzərə alınmaqla aparılır. Yəni beynin ali fəaliyyət funksiyalarını, onun necə işləməsini tədqiq etmək üçün xüsusi ixtisas növü tələb olunmur. İnsanı, beyni öyrənən hər bir mütəxəssis öz ümumi metodikası ilə işləyə bilər. Burada bioloji, psixoloji, neyroloji amillər nəzərə alınmaqla universal metodik yanaşmalardan istifadə olunur. Məsələn, dünyada bu metodik yanaşmalardan istifadə edərək beynin xəritəsini, onun iş layihəsini hazırlayırlar. Məlumdur ki, artıq beynin (xüsusilə də, baş beynin) ali funksiyalarını öyrənən sahələr **Neyroelmlər sistemində** cəmləşmişlər.

Biz də Psixikanın öyrənilməsi ilə əlaqədar əldə etdiyimiz nəticələrə əsaslanaraq "Beyin necə işləyir" sualına cavab axtarmağa çalışacağıq. Şübhəsiz, burada da Psixikanın tədqiqindən bəhrələnəcəyik. Bu ümumən beynin öyrənilməsində yeni fundamental metodik yanaşmadır.

Beynin yeganə iş strukturunu və ali funksiyalarını öyrənmək üçün ilk növbədə onu idarə edən məkanı, mərkəzi tapmaq gərəkdir. Təbii ki, beyni aşağıdan yuxarı yox, yuxarıdan aşağıya öyrənmək lazımdır. Beyin heç vaxt komandasız və idarəetmə mərkəzi olmadan işləyə bilməz. Hər hansı bir hərəkət, davranış və fəaliyyət xüsusiyyəti idarə olunmalı, tənzimlənməlidir.

Bu baxımdan, artıq demək mümkündür ki, beynin idarəetmə mərkəzi məhz, Psixikadır. Psixika biopsixoloji orqandır. Elmlər sistemində həmişə beyni anatomik və fizioloji cəhətdən öyrənməyə meyil etmişik. Beynin psixi mahiyyətinə və onun psixoloji xüsusiyyətlərinə laqeydlilik beyni idarə edən ali mərkəzin müəyyənləşdirilməsinə mane olmuşdur. Burada bir mühüm amili həmişə diqqətdə saxlamaq lazımdır. Beyin təkcə bioloji amillə işləmir. Əgər bu belə olsaydı insanlar çox asanlıqla insan-kompyuter yaradardılar. İnsanın hərəkətlərini, davranışlarını, onun zehni fəaliyyətini mürəkkəbləşdirən və əvəzedilməz edən məhz, insan beyninin həm də ruhi mahiyyət daşımasıdır. Yəni insan bioloji və həm də ruhi varlıqdır. İnsanı, onun beynini biopsixoloji varlıq kimi idarə etməyə qadir olan yeganə orqan varsa o da Psixikadır. Bütün beyin Psixikanın ikili biopsixoloji idarəetmə funksiyalarına tabe olaraq işləyir. Psixika beyni həm bioloji, həm də psixoloji baxımdan idarə etmək imkanlarına malikdir. Əlbəttə, bu işləri iki mərkəz yerinə yetirə bilməz. Bir insanın bir beyni vardır. Yəni bir insan və bir beyin vardır. Onları idarə edən mərkəz də bir olmalıdır.

Əslində, insan orqanizmində beynin Psixika tərəfindən idarə olunması anatomik, bioloji və neyropsixoloji baxımdan təsdiqlənib. Necə deyərlər, burada digər alternativ yol yoxdur. Məsələn, anatomik cəhətdən bu idarəetməni görmək çətin deyil. Psixika beynin ən yuxarı hissəsində yerləşir. Anatomik cəhətdən beyin və bütün orqanizm Psixikanın yerləşdiyi əlverişli məkana idarəetmə üçün geniş imkanlar verirlər.

Bioloji baxımdan da bu prosesi görmək mümkündür. Beyin orqanlarının bütün bioloji strukturlarla qarşılıqlı işi məhz, Psixika tərəfindən tənzimlənir.

Neyropsixoloji baxımdan isə bu idarəetmə asılılığı açıq-aydın hiss olunur. Çünki artıq hamımıza yaxşı məlumdur ki, beyin və bütün sinir sistemi informasiyaları məhz Psixikaya (beyin qabığına) ötürür və oradan da hazırlanmış işlək məhsulları qəbul edirlər.

Bundan əlavə, beynin idarə olunmasını sübuta yetirən digər bir amil də onun ciddi sistemli işi ilə bağlıdır. Şübhəsiz, beyin kimi mürəkkəb fəaliyyət orqanı sistemsiz, ciddi ierarxiyasız işləyə bilməz. Sistemli ierarxiyalı idarəetməni məhz, Psixika yerinə yetirir.

Deməli, beynin böyük mürəkkəb işi ilə bağlı irəli sürülən bu mülahizə düzgün yanaşmanı əhatə edir: "Hərdən bu mürəkkəbliyi səhv olaraq oradakı sistemsizliyin olmaması ilə əlaqələndirirlər. Bu belə deyildir: beynin xüsusi ciddi sistemli plan üzrə qurulmasını və sadə tərkibə malik olmasını görmək çətin deyil. Sadəcə olaraq beyin öz funksiayalarını yerinə yetirmək üçün o, bir neçə siqnal növlərindən və hərəkətin streotipik təkrarlanan formalarından istifadə edir". **(Bax: С. Куфлер, Дж. Николс. "От нейрона к мозгу". Москва, 1979. Səh. 11).**

Təsdiq etmək olar ki, beyin sadə anatomik struktura, ciddi sistemli daxili idarəetməyə və geniş iş nəticələrinə malikdir. Beyin Psixika tərəfindən idarə olunan, bütün orqanizmdə fəaliyyət göstərən nəhəng sinir strukturudur. Beynin fəaliyyəti üçün ilk növbədə Psixika tələb olunur. Beynin bütün orqanları və sinir sistemləri Psixika üçün özünəməxsus funksiyalar yerinə yetirirlər.

**Bu idarəetmə ierarxiyası artıq elmlər sisteminə tanışdır. Sadəcə olaraq, biz Psixikanı insan orqanizmində müəyyənləşdirib öyrəndikdən sonra beynin iş funksiyalarına yeni formada yanaşmaq lazım gəldi. Yəni beyin qabığı (indi Psixika) və oradan aşağıda baş verən bütün funksional proseslər beynin necə işləməsini ümumi şəkildə təsvir edirdi. İndi Psixika bu proseslərə rəhbərlik edərək öz ali və mühüm əhəmiyyətli fəaliyyətini orqanizm daxilində həyata keçirir.**

Deməli, Psixikanın tədqiqi beynin necə işləməsini təsvir etmək üçün əlverişli imkanlar açdı. Beynin nəhəng işini idarə edən və orqanizm daxilində tənzimləyən mərkəz (Psixika) müəyyənləşdi. Şübhəsiz, beyni idarə edən mərkəzi müəyyənləşdirmədən onun fəaliyyətini, ali funksiyalarını ətraflı şəkildə öyrənmək qeyri-mümkün olacaqdı. Bütün bunlara baxmayaraq beyni və Psixikanı öyrənmək gələcəkdə də həmişə çox çətin və mürəkkəb tədqiqat proseslərini əhatə edəcək.

# 4. PSİXİKA VƏ İNSAN ORQANİZMİ

## 4.1 PSİXİKA VƏ BƏDƏN ORQANLARI

Məlum oldu ki, Psixika beyni və əsəb sistemi vasitəsilə bütün orqanizmi idarə edir. Orqanizmdaxili fəaliyyəti tənzimləmək üçün Psixika bütün beyin və insan bədəni daxilindəki orqanlarla qarşılıqlı əlaqə şəklində işləyir. Ona görə orqanizmin hər hansı bir hissəsində baş vermiş hadisə çox tezliklə Psixikaya informasiya şəklində çatdırılır. Orqanizmdəki ən sərt ağrılar, ən zəif reaksiyalar ilkin olaraq Psixikada hiss olunur. Ümumiyyətlə, orqanizm və onun fəaliyyəti, mövcudluğu haqqında bizim anladığımız nə varsa məhz, Psixikamızda olur.

Psixika orqanizmin mövcudluq xüsusiyyətlərinə və subyektiv fəaliyyətinə rəhbəlik edir. Biz, orqanizmimizin mövcudluğunu Psixikamızda hiss edib anlayırıq və Psixikanın təbii qarşılıqlı fəaliyyət xüsusiyyətlərinə tabe oluruq. Hər bir kəs bu təbii qarşılıqlı əlaqələri öz orqanizmində hiss edir. Məsələn, xəstələnməklə bağlı yaranan orqanizmdaxili prosesləri buna misal göstərmək olar. Bu tipli proseslər Psixika ilə orqanizm arasında olan qarşılıqlı əlaqəni görmək üçün ən real misallar sayıla bilər. Hamımız yaxşı bilirik ki, bütün növ xəstəliklər psixi narahatçılıqlar və əsəb sistemi gərginliyi yaradır. Biz xəstəliyimizi və bununla bağlı yaranan mənfi prosesləri ilk növbədə Psixikamız vasitəsilə hiss edərək dərindən anlayırıq. Ağrılar, hansı orqanlarda problemlərin baş verməsi Psixikamızda təsdiqlənir. Çünki insan bədənində yerləşən bütün orqanlar əsəb sistemindəki sinirlər vasitəsilə Psixika ilə qarşılıqlı əlaqədədirlər. Ona görə Psixika insan üçün xəstəlikləri yaradan bir orqandır.

Bundan əlavə, bütün bədən orqanları bir bədən orqanı kimi Psixikada təsdiqlənirlər. Yəni insan həmin orqanı ilk növbədə öz Psixikasında hiss edir, dərk edir, tanıyır. Həmin orqanın fəaliyyəti və sağlamlığı haqqında da Psixika daimi məlumatlar alır. Bu baxımdan, xəstəliklər Psixika ilə bədən orqanları arasında olan əlaqələrin mahiyyətini də aydınlaşdırmağa kömək edir. Məsələn, **hiporteniya (qan təzyiqi), diabet (şəkər), mədə, qaraciyər** xəstəlikləri və di-

gərləri buna misal ola bilər. Bu tipli xəstəliklər əsəb sisteminə ən çox mənfi təsir edən qeyri-psixi xəstəlikərdir.

Hiporteniya (qan təzyiqi) xəstəliyi müasir cəmiyyətdə çox yayılmış xəstəliklərdən biridir. Bu xəstəliyin getdikcə cəmiyyətdə daha çox yayılmasının əsas səbəblərindən biri də insanların yaşamaq və fəaliyyət formalarının həddən artıq aktivləşməsi, mürəkkəbləşməsi ilə əlaqədardır. Bu da ilk növbədə əsəb və qan-damar sistemlərinin gərgin, qeyri-sağlam işinin yaranmasına təkan verir. İndi demək olar ki, hiporteniya sırf qan-damar və Psixika xəstəliyidir. Xəstəliyin başvermə məkanı və kliniki xronikası da bunu təsdiqləyir. Hiporteniya bu baxımdan, çox həssas xəstəlikdir. Kliniki müşahidələr və məişət təcrübəsi göstərir ki, bu cür xəstələrin Psixikasında müəyyən dəyişiliklər baş verir. Məlum xəstələr əksər hallarda özlərini narahat hiss edir, əhvalları tez-tez dəyişir və onlarda ümidsizlik halları yaranır.

Əslində, bütün növ xroniki davamlı xəstəliklər insan Psixikasında müəyyən mənfi dəyişikliklər yaradır. Diabetə tutulmuş xəstələrin yaşayış və fəaliyyət xüsusiyyətlərində yaranan psixi, mənəvi problemlər də buna parlaq misal ola bilər.

Psixikanın insan orqanizmi ilə qarşılıqlı fəaliyyətini öyrənərkən ən mühüm amil **“Psixika və ürək”** problemi sayıla bilər. Şübhəsiz, insanın bioloji orqanları içərisində Psixikaya ən yaxın olanı məhz, ürəkdir. Psixika ürəklə sıx bioloji-anatomik əlaqələrə malikdir.

Psixikanın ürəklə yaxınlığı haqqında cəmiyyətdə də müəyyən mülahizələr, fikirlər mövcud olub. Ona görə də qədim dövrlərdən başlayaraq insanlar ürəyi Psixikanın, beynin mövcudluğu və fəaliyyəti ilə eyniləşdiriblər. İnsanlar ürəyi mənəvi və psixoloji proseslər mənbəyi kimi qəbul ediblər. Öz əzablarını, sevinclərini ürəklə, onun fəaliyyəti ilə əlaqələndiriblər. Beyində, Psixikada baş verən prosesləri ürəyə aid ediblər. Bu cür müqayisə və uyğunlaşdırma təsadüfən yaranmayıb. Beyində, Psixikada baş verən kiçik bir dəyişiklik ani olaraq ürəkdə və insanın qan-damar sistemində cavab reaksiyasına səbəb olur. Nəticədə, ürəkdə baş verən proseslər ya aktivləşir, ya da ki, zəifləyir.

Orqanizmin daxili fəaliyyətində Psixika ilə ürək qarşılıqlı reaksiyalar sistemində işləyirlər. Məlumdur ki, ürəkdən çıxan bütün növ

qan damarları baş beyindən - Psixikadan keçir. Bu baxımdan, həm Psixika, həm də ürək orqanizm üçün mühüm əhəmiyyətli tənzimləyici işlək mərkəzlərdir. Ürək orqanizm üçün həyati əhəmiyyət daşıyan qan-damar sisteminin bütün orqanizmdə fəaliyyətini yaradır və tənzimləyir. Ona görə Psixikada yaranan aktivlik və yaxud pozğunluq tezliklə bütün orqanizmdə hiss olunur. Məlumdur ki, əhval pozğunluqları, streslər, digər ümumi psixoloji problemlər ürəyin işinin pozulmasına, onun zəifləməsinə səbəb olur. Çox ağır ürək xəstəliyi olan **"infarkt"**da **(infarkt miokard)** bu cür səbəblərdən yarana bilir. Şübhəsiz, "infarkt"ın yaranmasında bir nömrəli səbəbkar ürəyin özü yox məhz, Psixikadır. Çünki yaranmış neqativ şəraitlərdə gələn informasiyaları, mənfi təsirləri ilk növbədə Psixika qəbul edir. Psixikada yaranan kəskin cavab reaksiyaları ürəyin kobud şəkildə fəaliyyətinin pozulmasına hətta, cismani zədə almasına səbəb olur. Bu belə də olmalıdır. Çünki anlayan, dərk edən orqan məhz, Psixikadır. Biz dərk etmədən əhval pozğunluqları, sarsıdıcı streslər keçirə bilmərik. Ürək orqanizmin qan-damar sisteminin fəaliyyətini tənzimlədiyi üçün Psixikadakı kəskin reaksiya ürəyi "infarkt" halına salır.

Ümumiyyətlə, Psixika və ürək insan orqanizminin idarə olunmasında, orada subyektiv fəaliyyətin tənzimlənməsində mühüm əhəmiyyətli ən ali orqanlardır. Onların qarşılıqlı birgə işi orqanizmin psixoloji və bioloji fəaliyyətini fundamental əsaslarını yaradır.

Psixikanın insan orqanizmində nəzəri cəlb edən proseslərindən biri də **mədə** və **qaraciyərlə** olan qarşılıqlı əlaqələridir. Şübhəsiz, mədə birbaşa qida ilə əlaqədar orqan olduğundan onun bütün fəaliyyəti Psixikada hiss olunur. Qida qəbulunun bizim əhvalımızda və gündəlik fəaliyyətimizdə əhəmiyyətini, təsirini hamımız görürük. Təbii ki, mədə də çox həssas bir orqan olmalıdır. Elə ona görə əsəb sistemi gərginlikləri, streslər mədənin işinin pozulmasına tezliklə şərait yaradır. Məsələn, **mədə xorası** xəstəliyi buna parlaq misaldır. Ümumiyyətlə, mədədə baş verən hər hansı iş pozğunluğu Psixikaya və bütün orqanizmə öz mənfi təsirini göstərir.

Qaraciyər də insanın tənəffüs proseslərini tənzimlədiyi və idarə etdiyi üçün onun Psixika ilə əlaqələri daha həssas görünür. Məsələn, güclü qorxu hissinin keçirilməsi paralel olaraq həm Psixikaya,

həm də qaraciyərin funksional fəaliyyətinə sarsıdıcı mənfi təsir göstərir. Nəticədə, psixi problemlər fonunda həm insan davranışında, həm də cismani bioloji zədələr fonunda qaraciyərin fəaliyyətində pozgunluqlar, xəstəliklər yaranır.

Psixikanın bədən orqanları ilə qarşılıqlı bioloji və psixoloji əlaqələrini, qarşılıqlı fəaliyyət xüsusiyyətlərini əyani surətdə sübuta yetirən amillərdən biri də psixi xəstliklərin bədən orqanlarına real təsirləri ilə bağlıdır. Əksər hallarda bir çox psixi xəstəliklər bədən orqanlarının işinin pozulmasına, həmin orqanlarda yersiz anlaşılmaz ağrılar yaradırlar. Bu zaman, həmin orqanların bioloji cəhətdən sağlam olmalarına baxmayaraq onlarda kəskin anlaşılmaz ağrılar hiss edilir. Bu da əksər hallarda məlum xəstəliyin müalicəsi zamanı düzgün diaqnoz qoymaqda müəyyən çətinliklər və problemlər yaradır. Məsələn, bu cür hallarda bədən orqanlarının ən çox mənfi təsir edən, daha çox onların işini pozan psixi xəstəlik kimi **nevrozu** qeyd etmək olar. Bu baxımdan, hətta nevroz xəstəlikləri müəyyən rəsmi və qeyri-rəsmi təsnifə də məruz qalmışdır. Məsələn, **kardio-nevroz (ürəklə bağlı), mədə nevrozu, bağırsaq nevrozu** və sairə.

Beləliklə də, məlum olur ki, bütün insan orqanizmi, oradakı bədən orqanları rəsmi (anatomik, biofizioloji, sinir sistemləri vasitəsilə) və qeyri-rəsmi (psixi, ruhi baxımdan) surətdə Psixika ilə qarşılıqlı əlaqədədirlər. İnsan orqanizmini idarə etmək və onun fəaliyyətini tənzimləmək üçün bu vacib şərtdir. Psixika bütün orqanizmdən daimi və aktiv surətdə xəbər tutmalıdır.

## 4.2 PSİXİKA İNSANI NECƏ İDARƏ EDİR?

Psixika insanı necə idarə edir? Bu ümumi sual bizə imkan verir ki, fikirlərimizi, mülahizələrimizi və nəticələrimizi "Psixika və insan orqanizmi" problemləri ətrafında bir daha ümumiləşdirək. Biz dəfələrlə bu problemə müxtəlif istiqamətlərdən yanaşmışıq. İndi artıq bu yanaşmanı ümumi məntiqi sonluğa çatdırmağın vaxtı yetişdi.

Artıq qeyd etmişik ki, Psixika insanı idarə etmək üçün beyin orqanlarından istifadə edir. Beyin orqanları və sinir sistemləri elə

qurulub ki, insanı idarəetmə prosesləri öz təbii axarı ilə yerinə yetirilir.

**Birincisi,** bu orqanlar sinir sistemləri vasitəsilə sıx əlaqəli şəkildə işləyərək bütün informasiyaları Psixikadan alır və Psixikaya ötürürlər.

**İkincisi,** bu orqanların hər biri müəyyən funksiyaları yerinə yetirir. Hansı ki, bu funksiyalar Psixikanın tam, normal işini yaradırlar. Yəni hər bir orqan öz işinin nəticə məhsullarını ümumi fəaliyyəti yaratmaq üçün Psixikaya ötürməyə və Psixikadan gələn komanda informasiyalarını isə yerinə yetirməyə məcburdur.

**Üçüncüsü,** bütün beyin orqanları Psixikanın idarəçiliyi altındadır. Subyektiv fəaliyyəti, məntiqli davranışı yaratmaq üçün beyin orqanları Psixika tərəfindən istismar edilir və idarə olunur. Digər tərəfdən nəzəri cəlb edən cəhət beyin orqanlarının neyro-fizioloji və bioloji mahiyyət kəsb etməsidir. Bu da təbiidir. Psixika orqanizmin fəaliyyətini, məntiqli insan davranışını yaratmaq üçün orqanizmin bioloji aktivliyinə və daxili orqanlarına da nəzarət etməlidir. Bu zaman, Psixika sinir sistemlərindən istifadə edir. **Mərkəzi sinir sistemi** və **periferik sinir sistemi** Psixikaya kömək edən əsas sinir strukturlarıdır.

**Mərkəzi sinir sistemi (MSS)** vasitəsilə Psixika bütün beyin orqanları ilə işləyərək onların fəaliyyətini tənzimləyir, orqanizmin hərəkət xüsusiyyələrini və davranışı yaradır. MSS-in fəaliyyəti bizə yaxşı məlumdur. Onun funksional fəaliyyət xüsusiyyətləri beyni öyrənən elmlər sistemində müxtəlif istiqamətlərdə tədqiq edilib.

Periferik sinir sistemi isə insan bədəninin digər orqanları ilə əlaqələr yaratmaq və onlara rəhbərlik etmək üçün Psixikaya kömək edir. Məlumdur ki, periferik sinir sistemi iki yerə bölünür. **Vegetativ** və **somatik** sinir sistemlərinə.

Vegetativ sinir sistemi ürəyin və əzələlərin fəaliyyətini tənzimləyir. Bu proseslər orqanizm daxilində hiss olunmayan təbii halda baş verir. Vegetativ sinir sistemi də iki yerə bölünür. **Simpatik** və **parasimpatik**. Bu sinir sistemləri bir-birlərinə əks olan funksiyaları yerinə yetirirlər. Məsələn, simpatik sinir sistemi ürəyin ritmini gücləndirir, parasimpatik isə əksinə gücləndirir. Təbii, bu proseslər

kortəbii şəkildə baş vermir. Ürəyin nəhəng işinin tənzimlənməsinə xidmət edir.

**Somatik sinir sisteminin** əsas funksiyası isə fövqəladə böhranlı vəziyyətlərdə bütün orqanizmi bu böhranı aradan qaldırmaq üçün səfərbər etməkdir. Bu, böyrəklərdəki dəyişikliklərdən tutmuş ürək, qan-damar sistemi dəyişikliklərinə qədər olan bütün orqanizmdaxili prosesləri əhatə edir.

Göründüyü kimi, beyin orqanları, sinir sistemləri Psixikanın tənzimləyici fəaliyyəti üçün orqanizm daxilində geniş fəaliyyət imkanlarına malikdirlər. Məlum orqanların köməyi ilə Psixika insanı idarə edərək insan fəaliyyətini, davranışını şəraitə uyğun yaradaraq tənzimləyir.

Psixika tərəfindən insanın idarə olunmasında bütün orqanizm öz funksional struktur xüsusiyyətlərindən istifadə edir. Təbii olaraq burada "struktur" və "funksiya" amilləri orqanizmin təbii fəaliyyət və formalaşma xüsusiyyətlərini əks etdirir. Yəni hər bir orqan öz funksiyalarına və fəaliyyətinə uyğun struktura malik olur. Bu baxımdan, Hesset də bu paralelli reallığı təsdiqləyib. "Həqiqətən də, bu, bir modelin iki tərəfidir. Orqanizmin **strukturu** yalnız müəyyən vacib **funksiyaları** sanballı şəkildə yerinə yetirmək üçün formalaşıblar."**(Bax: Дж. Хессет. "Введение в психофизиологию". M, 1981. Səh. 22).**

Psixikanın idarəçilik və tənzimləyici işi baxımından, istər Psixika daxilində, istərsə də orqanizm daxilində "struktur" və "funksiya" amilləri mühüm əhəmiyyət kəsb edir. Bu amillər daha çox Psixikanın təbii fəaliyyət tələbatı kimi diqqəti cəlb edir. Bu fəaliyyət tələbatı Psixika daxilində işin keyfiyyətinə yüksək dərəcədə təsir edir. Məsələn, Psixikada şöbələrin (beyin yarımkürələrinin) anatomik və sinir strukturlu daxili tərkibi buna misal ola bilər. Psixikanın şöbələrinə gələn sinir strukturları elə qurulub ki, hər bir şöbə orqanizmin əks tərəfindən informasiya alır. Yəni ekzistensial şöbə (sağ yarımkürə) orqanizmin sol tərəfindən, koqnitiv şöbə (sol yarımkürə) isə orqanizmin sağ tərəfindən informasiyalar alır. Sinir yollarının bu cür quruluşu elmə çoxdan bəllidir. Şübhəsiz, bu cür quruluş **strukturu** təsadüfi mahiyyət daşımır. Bu, ilk növbədə beynin, Psixikanın **funksional** fəaliyyət aktivliyinə xidmət edir. Orqa-

nizmdən və xaricdən gələn inforamasiyaların dəqiq və ətraflı şəkildə Psixikaya ötürülməsi üçün əks tərəflərdən informasiya qəbulu müsbət üstünlüklər yaradır. Əks tərəflərdən informasiya qəbulu orqanizmdə baş vermiş hadisələrdən Psixikanın hərtərəfli və tez xəbər tutmasına əlverişli şərait yaradır. Burada da **struktur** və **funksiya** paralelliyi açıq-aydın hiss olunur.

Bioloji və anatomik baxımdan da bu cür strukturlu sinir quruluşu müsbət funksional əhəmiyyətə malikdir. Təsəvvür edin ki, Psixikanın şöbələri yalnız öz orqanizm tərəfindən informasiya alırlar. Bu, Psixikada qarşılqlı əlaqələrin pozulmasına, birtərəfli informasiya qəbuluna şərait yaradardı. Çünki hər hansı şöbəyə gəlmiş informasiya tezliklə qarşılıqlı əlaqə zonası vasitəsilə (QƏZ) o biri şöbəyə, yəni bütün Psixikaya yayılır. Beləliklə, hər iki şöbə hər iki əks tərəfdən xəbər tutur. Sinir yollarının bu formalı strukturu şöbələrin qarşılıqlı əlaqə funksiyalarının mövcudluğuna və aktivliyinə real sübutdur. Ona görə də demək mümkündür ki, orqanizmdə təsadüfi və yaxud qeyri-normal struktur quruluşu yoxdur. Bütün orqanların strukturu onların sağlam və aktiv fəaliyyət funksiyalarının yerinə yetirilməsinə xidmət edir. Bu baxımdan, Psixikanın struktur quruluşu və funksiyaları yüksək səviyyədə durur. Çünki Psixika həm mürəkkəb, ziddiyyətli neyroanatomik **struktura**, həm də mürəkkəb nəhəng fəaliyyət **funksiyalarına** malikdir.

## 4.3 PSİXİKANIN ALİ İDARƏETMƏ FUNKSİYALARI VƏ XÜSUSİYYƏTLƏRİ

Beləliklə, məlum olur ki, psixika insan orqanizmini idarə etmək, insanın subyektiv fəaliyyətini, davranışını, yaşayış tərzini yaratmaq üçün yerləşdiyi əlverişli məkana, geniş qarşılıqlı əlaqələrə və işlək neyroanatomik struktura malikdir. Bu işdə ona ən yaxın köməkçi beyin orqanları və sinir sistemləridir. Lakin bütün bunlara baxmayaraq Psixika insanı idarə etmək üçün özünəməxsus ali xüsusiyyətlərə və iş funksiyalarına malik olmalıdır. Həqiqət də Psixika bu cür idarəetmə xüsusiyyətlərinə və üstünlüklərə malikdir. Bu

cür funksiyalar və idarəetmə xüsusiyyətləri digər orqanlarda yoxdur. Həmin xüsusiyyətlər və özünəməxsus funksiyalar imkan verir ki, Psixika insanı idarə etsin və onun subyektiv fəaliyyətini, davranışını tənzimləsin. Gəlin, aşağıda insanı idarə etmək üçün Psixikanın malik olduğu özünəməxsus ali funksiyaları və idarəetmə xüsusiyyətlərini təsnifləyək.

**1. Psxikanın universal fəaliyyət və ümumi mövcudluq funksiyası.** Psixika orqanizmdə yeganə orqandır ki, o bioloji, psixoloji və sosial mahiyyət daşıyır. Burada bioloji daha ümumi anlamda qeyd edilir. Yəni fizioloji, kimyəvi, anatomik, neyroloji olan bütün xüsusiyyətlər sistemi biolojinin daxilindədir. Deməli, Psixika nəhəng bir ümumi və universal orqandır. Bütün bioloji, psixoloji, sosial xüsusiyyətlərin son fəaliyyət nəticələri Psixikada cəmləşir və oradan insanın idarə olunmasına, fəaliyyətinə tətbiq edilir. Bu baxımdan, Psixika ümumi və nəhəng bir fəaliyyət aparatıdır.

**2. Psixikanın hegemon və hərtərəfli əlaqə yaratmaq xüsusiyyəti.** Psixika yeganə orqandır ki, bütün insan orqanizmi onunla geniş əlaqələrə malikdir. Bu əlaqələr sinir və digər anatomik tipli əlaqələrdir. İnsan orqanizmindən və xaricdən gələn bütün informasiyalar Psixikaya daxil olur, orada işlənir, real fəaliyyət xüsusiyyətlərinə çevrilir. Bütün insan orqanizmi Psixika ilə bioloji və psixoloji qarşılıqlı əlaqələrə malikdir.

**3. Psixikanın koqnitiv-subyektiv dərketmə funksiyası.** Psixika yeganə orqandır ki, insan özünü, mövcudluğunu bu orqan vasitəsilə anlayır, dərk edir. İnsan Psixikası vasitəsilə öz mövcudluğunu təsdiqləyir, subyektivləşir, insanlaşır. Nəticədə hər bir fərd insan kimi fəaliyyət göstərir və davranış xüsusiyyətlərinə yiyələnir. Burada təbii bir qanunauyğunluq təsdiqlənir. İnsan yalnız və yalnız dərk edildiyi, insan kimi təsdiq olunduğu bir orqan tərəfindən idarə edilə bilər.

**4. Psixikanın ruhi fəaliyyət və mövcudluq xüsusiyyəti.** Psixika orqanizmdə yeganə orqandır ki, həm ruhi mövcudluq, həm də ruhi fəaliyyət mahiyyəti daşıyır. Psixika orqanizmin ruhi fəaliyyət

mərkəzidir. Psixika bizə, elmlər sisteminə məlum olmayan ruhi və qeyri-obyektiv informasiyaları qəbul edir, onları işləməyi bacarır. Psixika xaricdən elmə məlum olan və olmayan milyonlarla informasiyalar alır. Sadə formada bu informasiyaların köməyi ilə biz hissetmə xüsusiyyətlərinə yiyələnirik. Məsələn, əşyaların səslərini, arxamızda dayanan insanı hiss edə bilrik. Psixika elmə məlum olmayan müxtəlif ruhi və kosmik informasiyalar qəbul edir. Lakin Psixika yalnız bu informasiyaların müəyyən bir hissəsini tam işləyib fəaliyyətə tətbiq edə bilir. Yerdə qalan informasiyalar isə sadəcə olaraq Psixika tərəfindən işlənilir, onların bəziləri isə mənfi təsirli olduqları üçün Psixikada məhv edilir.

**5. Psixikanın orqanizmi və xarici aləmi hissetmə xüsusiyyəti.** Psixika yeganə orqandır ki, biz onun vasitəsilə orqanizmimizi və xarici aləmi hiss edirik. Hissetmə ilk növbədə orqanizm daxilindəki, sinir sistemləri vasitəsilə Psixikaya ötürülmüş informasiyaların hesabına yaranır. Bundan əlavə, Psixika xarici aləmdən informasiyalar qəbul etməklə də prosesləri, gerçəkliyi hiss edir. Hissetmə insanın mövcud olması və yaşaması üçün Psixikaya lazım olan ilkin zəruri funksiyadır.

**6. Psixikanın qavrama və mənimsəmə funksiyası.** Psixikaya orqanizmdə yeganə orqandır ki, ətraf aləm, bütün dünya orada əks olunur və qavranılır. Psixikada həm də hissi-təsvir mövcudluğu qorunub saxlanılır. Bu prosesi hafizə yerinə yetirir. Nəticədə dünya olduğu kimi Psixikaya keçir və orada gerçəkliyə çevrilir. Psixikada hər bir şey öz tam formasında qavranılır. Bu, dünyanın formalar sistemi şəklində Psixika tərəfindən qavranılması prinsipini təsdiqləyir. Yəni hər bir şey öz forması çərçivəsində realdır, gerçəkdir. Psixika məhz, bu formaları qavrayır, dərk edir və adlandıraraq nitqi yaradır. Psixikanın öz təşəkkülündə və inkişafında da «formalar» amili mühüm rol oynayır.

**7. Psixikanın qanunauyğun formalaşma və inkişaf funksiyası.** Psixika yeganə orqandır ki, orada insanın formalaşma və inkişaf qanunauyğunluqları cəmləşir. Bunlar insan kimi mövcud olmaq

və subyektivləşmək xüsusiyyətləridir. İnsanın formalaşması və inkişafı üçün ilk növbədə mövcudluğu dərk etmək və subyektivləşmək gərəkdir. Bu insanın yaranma, formalaşma və inkişaf qanunauyğunluğudur. Psixikada məhz, bu qanunauyğun prinsiplər yaranır. Bura Psixikanın sosiallaşma və yaşamaq xüsusiyyətləri də daxildir. Şübhəsiz, Psixikanın əsas fəaliyyət prinsipləri insanın sosial varlığa çevrilməsinə xidmət edir. Nəticədə, insanda təbii qanunauyğun yaşamaq xüsusiyyətləri və vaxtla (yaşla) əlaqədar yaşamaq mərhələləri yaranır **(Bax: I Hissə: "Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələləri")**. İnsan mənəviyyatını, temperamentini və xarakterini əhatə edən proseslər sistemi də Psixikanın bu funksiyasına daxildir.

Göründüyü kimi, insanın ən əsas mövcudluq və yaşamaq prinsipləri Psixikanın özünəməxsus ali funksiyalarında, idarəetmə xüsusiyyətlərində əks olunur. C.Xesset özünün **"Psixofiziologiyaya giriş"** kitabında yazır: "Beyin əsas aparıcı orqandır, hər bir insan öz beyni deməkdir". İndi isə bu kəlamı biz başqa cür deyə bilərik: "Psixika əsas aparıcı orqandır, hər bir insan öz Psixikası deməkdir" **(Bax: Дж. Хессет. "Введение в психофизиологию". M,.1981. Səh. 131).**

Bütün canlılar (insanlar və heyvanlar) Psixikaya malikdirlər. Ümumiyyətlə, bütün canlıları ilk növbədə "canlı" kimi eyniləşdirən ən ali xüsusiyyət amili onlara mövcud olmaq, yaşamaq və öz cinsinə uyğun həyat tərzi xüsusiyyətləri bəxş edən Psixikalara malik olmalarıdır.

Bütün canlıların Psixikaları biopsixoloji və sosial mahiyyət daşıyır. Bu Psixikalar onların orqanizmlərini, fəaliyyətlərini onların həyat şəraitlərinə və cinslərinə, növünə uyğun idarə edirlər. Burada qanunauyğun məntiqi bir nəticə meydana çıxır. Dünya və təbiətin mövcud olmaq, inkişaf qanunauyğunluqları nəzərə alınmaqla bu eyni strukturlu və mahiyyətli Psixikalı canlılar elə eyni bir möhtəşəm qüvvə tərəfindən yaradılıb. Fərq yalnız bu canlıların növündə və yaşayış tərzindədir. Bu da canlıların dünyada mövcud olmaq və yaşamaq qanunauyğunluqlarına əsaslanır. Heç cür ola bilməz ki, dünyanın və insanların mövcud olması, yaşaması təsadüfən, sistemsiz idarə olunmaz bir halda olsun. Psixika insanı necə idarə edirsə, insanlar da, dünya da, ulduzlar da, planetlər də elə bu cür idarə olunur.

# 5. PSİXİ İNFORMASİYALAR

## 5.1 PSİXİKA VƏ PSİXİ İNFORMASİYALAR

Psixikanın insan orqanizmində mövcudluğunu, fəaliyyətini ətraflı şəkildə öyrənmək üçün müəyyən mürəkkəb və müəmmalı problemləri araşdırmaq lazım gəlir. Yəni bu problemlər təbii olaraq tədqiqat zərurətinə çevrilir. Bu baxımdan, **psixi informasiyaların** mövcudluğu və fəaliyyət xüsusiyyətlərinin tədqiqi buna real misal ola bilər. Psixi informasiyaların öyrənilməsi Psixikanın ətraflı tədqiqində mühüm rol oynayır.

Öncə onu qeyd edək ki, psixi informasiyalar fiziki təsir etməyə malik olan və gözlə görünməyən informasiyalardır. Psixikanın dinamik işi və fəaliyyətə təhriki üçün psixi informasiyalar həyati əhəmiyyət daşıyır. Psixika məhz, bu cür informasiyaları qəbul edir, işləyir və ötürür. Psixi informasiyalar elmə məlum olmayan müəmmalı informasiyalar olsalar da onların varlığına şübhə ilə yanaşmaq qeyri-mümkündür. Biz bu cür informasiyaların mövcudluğunu təsdiq etməyə məcburuq. Çünki psixi informasiyalar insan orqanizmini fəaliyyətə gətirən tənzimləyən bir orqanın (Psixikanın) əlaqəli-dinamik informasiya daşıyıcılarıdır. Yəni bu informasiyalar Psixikanın şəraitə uyğun fəaliyyəti üçün tənzimləyici təhrikedici amildir, bazadır.

Biz bilirik ki, Psixika orqanizmdən və xarici aləmdən daim informasiyalar alır. İnsan orqanizminin dabanından tutmuş baş saçlarına qədər bütün orqanlar Psixikaya informasiya ötürməklə məşğuldurlar. Xaricdən gələn informasiyalar qulaqla, gözlə və bütün insan bədəni vasitəsilə Psixikaya ötürülür. Psixika bizə məlum olmayan yollarla da inforasiyalar alır.

Deməli, Psixika bizə, elmə məlum olan və olmayan yollarla milyonlarla informasiyalar alır. Məhz, bu informasiyalar psixi informasiyalardır. Sadə formada psixi informasiyaları hər bir insan çox asanlıqla hiss edir. Məsələn, arxadan gələn şəxsi hiss etmək və yaxud sənə zillənən baxışları duymaq ən primitiv psixi informasiyalardır. Şübhəsiz, bu zaman fiziki təsirlər etmədən belə hər şeyi hiss edirik. Bu, məhz, insanların Psixikaları tərəfindən buraxılan, ötürülən psixi informasiyaların təsirləridir. Bu prosesin bizim tərə-

fimizdən hiss edilməsi isə Psixikamızın həmin informasiyaları qəbul etməsi deməkdir.

Psixi informasiyaların ən geniş və müəmmalı hissəsi xaricdən gələn və xaricdə fəaliyyət göstərən informasiyalardır. Təbii ki, bizim Psixikamız dünyada bərabəri olmayan nəhəng qəbuledici və ötürücü aparatdır. Məhz, bu aparata gələn və ötürülən daxili informasiyalar vasitəsilə biz insanları və dünyanı hiss etdirik. Psixi informasiyalar, Psixikada psixi prosesləri yaradan təhrikedici informasiyalardır.

Bu baxımdan, xaricdən gələn, xaricdə fəaliyyət göstərən psixi informasiyalar həmişə nəzərləri cəlb edib. Xarici aləmdə fəaliyyət göstərən psixi informasiyalar elmə məlum olmasa da onlar haqqında müəyyən fikirlər söyləmək mümkündür.

Psixi informasiyalar dünyada, təbiətdə olan ən orijinal subyektiv mahiyyətli informasiyalardır. Gəlin aşağıda psixi informasiyaların mahiyyəti və mövcudluq xüsusiyyətləri ilə tanış olaq.

## 5.2 PSİXİ İNFORMASİYALARIN MÖVCUDLUQ XÜSUSİYYƏTLƏRİ

**Psixi informasiyalar** məkanda mövcud olan həm də yeganə subyektiv tərkibli informasiyalardır. Psixika yalnız psixi informasiyalarla işləyə bilir. Digər informasiyalar Psixika tərəfindən qəbul edilsə də həmin informasiyaların yalnız müəyyən hissəsi işlənilir, qalan hissəsi isə rədd edilir, ya da ki, məhv edilir. Psixi informasiyalar məkanda insan Psixikasının fəaliyyət prinsiplərinə uyğun işlədilir və Psixikanın iş proseslərinə tabedirlər. Psixi informasiyalar məkanda olan ən ağıllı, ən zəngin və ən güclü informasiyalardır. Çünki onlar Psixika ilə işləyən yeganə subyektiv informasiyalardır.

**Psixi informasiyalar** enerjili, canlı informasiyalardır. Çünki onlar insan orqanizmində enerji mənbəyi olan Psixikaya bağlı informasiyalardır. Psixi informasiyalar xaricdən Psixikaya gələn enerji daşıyıcılarıdır. 1929-cu ildə Avstriya psixiatrı B. Hans beyin qabığının üstündən çıxan "beyin dalğaları" ("мозговые волны")

haqqında məlumat verdi. Şübhəsiz, bu informasiya bizim üçün qismən qənaətbəxş elmi məlumat sayıla bilər. "Beyin dalğaları" ("мозговые волны") Psixika tərəfindən psixi informasiyaların ötürülməsi və qəbulunun real nəticəsi ola bilər. və yaxud onlar informasiya daşıyıcıları sayıla bilər. Ümumiyyətlə, insan orqanizminin beyin qabığı hissəsi (çəpkən) tez-tez enerji dalğalarının ötürülməsi ilə əlaqələndirilən bir məkandır.

**Psixi informasiyaların** sürəti və yayılması problemi çox müəmmalı bir məsələdir. Biz bilirik ki, məkanda çoxlu dalğalar vardır. Elektromaqnit dalğaları, TV, radio dalğaları süni kosmik peyklərin buraxdığı dalğalar və sairə. Psixi informasiyalar da məhz, bu dalğalar kimi yayılır. Lakin psixi informasiyalar müəyyən müstəsna fərqlərə malikdirlər. İlk növbədə psixi informasiyaların yayılma sürəti nəzəri cəlb edir.

Bildiyimiz kimi, işıq sürəti ən güclü sürət sayılır. Lakin psixi informasiyaların surətinin işıq sürətindən çox olması ehtimalı çox böyükdür. Psixi informasiyaların təbiəti və onların məkan daxilində iş prinsipləri bu informasiyaların ən yüksək sürətə malik olması ideyasını irəli sürməyə imkan verir. Psixi informasiyalar ani olaraq məkanda yayılırlar. Onların sürəti sistemli deyildir və xüsusi çərçivə daxilində yayılmırlar. Demək mümkündür ki, psixi informasiyalar məkanda ani olaraq min kilometrlərlə yayıla bilirlər. Deməli, bizim Psixikamız min kilometrlərlə uzaqlara informasiyalar ötürə bilir və yaxud həmin uzaqlardan informasiyalar qəbul edə bilir. (Biz bu problemə "Psixikada yuxugörmənin yaranması" mövzusunda bir daha ətraflı şəkildə toxunacağıq).

Psixi informasiyaların sürətinin işıq sürətindən yüksək olmasını sübuta yetirən orijinal bir mülahizə diqqəti cəlb edir. İşıq sürəti şəffaf olmayan bərk cisimləri, əşyaları keçə bilmir. Amma psixi informasiyalar bərk cisimləri keçə bilir. Burada **Eynşteynin** çox güclü və müəmmalı sürət haqqında söylədikləri köməyə gəlir. Yəni psixi informasiyalara bərk cisimləri keçmək üstünlüyünü, məhz, onların ani güclü surəti bəxş edib. Deməli, psixi informasiyalar elə bir sürətə malikdirlər ki, onlar divarı, bərk əşyaları maneəsiz keçə bilirlər. Eynşteyn vaxtilə cisimlərə bu cür sürətin verilməsi haqqında mülahizə irəli sürmüşdü. Hər halda psixi informasiyaların sürəti

problemi çox müəmmalı və mürəkkəb problem olaraq qalacaq. Bu, həm də psixofiziki problemdir. Psixi informasiyaların süratinin yüksək olması onların fiziki və kimyəvi tərkibi ilə də əlaqədar ola bilər.

**Psixi informasiyaların** tərkibi də çox müəmmalı bir məsələdir. Yalnız onu demək mümkündür ki, bu informasiyalar bizim planetimizin fiziki və kimyəvi hava tərkibinə uyğun, tərkibə malikdirlər. Ən azı ona görə ki, insan digər hava tərkibində yaşaya bilmir, məhv olur. Deməli, biz yer planetinin insanlarıyıq. Orqanizmimizdə, Psixikamızda yer planetinin mövcudluğun xüsusiyyətlərinə uyğundur. Bizim Psixikamız yer planetinin mövcudluq qanunauyğunluqlarına tabe olur və bizi idarə edir.

Bu baxımdan, psixi informasiyaların tərkib hissəsi yer planetinin, orada yaşayan insanların fiziki və kimyəvi tərkibinə uyğun ola da bilər, olmaya da. Çünki bu tipli informasiyalar xarici aləmdə, məkanda mövcud olmaq və işləmək kimi xüsusiyyətlərə daha çox malikdirlər. Ona görə də bu informasiyaların tərkibinin mürəkkəbliyi, orijinallığı realdır və bu heç kəs də şübhə doğura bilməz.

**Psixi informasiyalar** bizim psixologiyamızın, mənəviyyatımızın və emosional həyatımızın formalaşmasında mühüm rol oynayır. Onlar məkanda mövcud olan yeganə sosial-mənəvi mahiyyətli informasiyalardır. Sadə formada buna misal olaraq bizim mürəkkəb və sadə tipli sosial münasibətlərdə məruz qaldığımız emosional təsirləri göstərmək olar. Məsələn, məhəbbət, sevinc, kədər və sairə. Bu cür proseslər insan doğulan gündən onun Psixikasında formalaşmağa başalyır. Psixi informasiyaların bu formalı təsirlərinə bədnəzəri (gözdəyməni) də misal gətirmək olar.

Deməli, məlum olur ki, psixi informasiyalar Psixikanın, orada yaşamaq xüsusiyyətlərinin hazırlanması proseslərində mühüm rol oynayan aparıcı, real psixikadaxili amillərdir və onlar təbii formalaşma, inkişaf xüsusiyyətlərini yaradan, tənzimləyən təbii proseslərdir.

**Psixi informasiyalar** bizim məkanda fiziki fəaliyyətimizin və hərəkətlərimizin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Yəni psixi informasiyalar Psixikanın məkan daxilində orqanizmi hərəkətə gətirmək üçün istifadə etdiyi enerji daşıyıcılarından ən mühümüdür. Bu sırf psixofiziki problemdir. Ümumiyyətlə isə psixi informasiyaları ətraflı şəkildə öyrənmək üçün daha çox fizikadan bəh-

rələnmək lazım gələcək. Gələcəkdə Psixikanın hərəkət qanunlarına, yeni psixofiziki problemləri araşdırarkən psixi informasiyaları bir daha ətraflı şəkildə toxunulacaq.

Beləliklə də, demək mümkündür ki, psixi informasiyalar psixoloji, bioloji, fiziki mahiyyət və fəaliyyət xüsusiyyətlərinə malik çox mürəkkəb, həm də müəmmalı informasiyalardır.

# 6. ORQANİZMİN PSİXİ İMMUNOSİSTEMİ

Məlum oldu ki, Psixika gün ərzində milyonlarla informasiyalar, dalğalar, impulsiv reaksiyalar qəbul edir. Bu müxtəlif informasiyaları qəbul etmək Psixikanın fasiləsiz və nəhəng fəaliyyətinin ən mühüm bir hissəsidir. Bundan əlavə, insan orqanizmi və Psixika gün ərzində müxtəlif dalğaların, informasiyaların mənfi təsirlərinə də məruz qalırlar. Şübhəsiz, insan orqanizmi və Psixika bu informasiyaların zərərli təsirlərindən qorunur, bəzilərini rədd edir, bəzilərini isə məhv edirlər. Bu təbii prosesdir. Hər hansı bir işlək orqan, hətta canlı orqanizm müəyyən müdafiə sisteminə malik olur. Psixika da bu cür nəhəng informasiya, dalğalar axınından, zərərli təsirlərdən müdafiə olunmaq üçün müdafiə sisteminə malikdir. Bu müdafiə sisteminə də insan orqanizmində məhz, Psixika başçılıq edir. Biz Psixikanın malik olduğu bu cür özünü qoruma xüsusiyyətlər sistemini **orqanizmin psixi immunosistemi** və yaxud **psixoimmunosistem** kimi adlandıra bilərik.

Düzdür, dünyada **Psixoneyroimmunologiya (Psixoneuroimmunology, PNİ)** adlı kiçik bir elm sahəsi də formalaşıb. Bu elm sahəsi insanın ümumi immunosistemində psixoloji müsbət təsirlərin və amillərin mövcudluğunu, əhəmiyyətini öyrənir. Lakin biz bu tipli proseslər sistemini birbaşa Psixika ilə əlaqələndirərək onun daha geniş əhəmiyyətli real mövcudluğunu öyrənməyə çalışırıq. Digər mühüm bir fərq ondan ibarətdir ki, biz bu sistemi real ruhi və bioloji mövcudluq kimi qəbul edir (insan orqanizminin bioloji və sinir strukturlarında da olduğu üçün) və onun fəaliyyət xüsusiyyətlərini həm də xaricdən gələn ruhi, qeyri-subyektiv informasiyalardan müdafiə ilə də əlaqələndiririk.

Digər bir mühüm fərqli yanaşma bizim **psixoimmunosistemin** daha konkret mövcudluq məkanı və idarəolunma mərkəzinin (Psixikanın) olmasıdır.

Orqanizmin psixi immunosistemi **(psixoimmunosistem)** bir növ orqanizm və Psixika üçün **müdafiə ələki** rolunu oynayır. Məlum müdafiə sistemi orqanizmə Psixikaya mənfi təsir edən dalğaları, informasiyaları ya rədd edir, ya da ki, məhv edir. Orqanizmə, Psixikaya lazım olan informasiyalar Psixikaya ötürülür. Şübhəsiz,

Psixikanın və orqanizmdə sinir sisteminin normal, sağlam fəaliyyəti üçün psixi immunosistem mühüm rol oynayır. Lakin orqanizmin psixi immunosistemi də nisbi qoruma sisteminə malikdir. Yəni o da qismən orqanizmə zərərli dalğalar, informasiyalar buraxa bilir. Hansı ki, belə olan hallarda orqanizmimiz, Psixikamız buna mənfi reaksiya verir. Məsələn, havada radiasiya fonunun təsirləri artdıqda və yaxud günəşdə partlayışlar baş verəndə orqanizmdəki, əhval-ruhiyyədəki dəyişiklikləri bu cür halların yaranmasına primitiv misallar kimi göstərə bilərik. Elə ona görə də, müəyyən tipli xəstələr (ürək xəstələri, hiporteniya xəstələri, psixi xəstələr, həddən artıq həssas insanlar və sairə) bu cür hallarda özlərini pis hiss edir və əvvəlcədən profilaktik tibbi tədbirlər görməyə məcbur olurlar.

Orqanizmin psixi immunosistemi öz fəaliyyətini iki sahədə yerinə yetirir. **Birincisi,** orqanizm daxilində sinir sistemləri vasitəsilə, yəni insan orqanizmindəki sinir strukturları orqanizmi və Psixikanı xaricdən gələn zərərli dalğa və informasiyalardan qoruyurlar. Təbii ki, zərərli informasiyalar qismən rədd və yaxud məhv edilir.

Orqanizmin psixi immunosisteminin **ikinci fəaliyyət sahəsi** xaricdən gələn və birbaşa Psixikaya daxil olan (beyin çənkəni, göz, qulaq və sairə orqanlar vasitəsilə) dalğalar və informasiyalarla əlaqədardır. Burada əsasən Psixikanın öz qoruyucu sistemi mühüm rol oynayır. Bu da baş beyin və beyin qabığı ilə bağlı olur.

Burada bir sual meydana çıxır. **Görəsən, orqanizmdə, sinir sistemlərində psixi immunosistemin qoruyucu bioloji və kimyəvi maddələri varmı?**

Şübhəsiz, orqanizmin sinir sistemlərinin, Psixikanın bioloji və kimyəvi, tərkibində zərərli radiasiyalı dalğaları və informasiyaları rədd, məhv edən maddələr mövcud olmalıdır. Biz artıq bilirik ki, orqanizmin sinir sistemi, xüsusilə də mərkəzi sinir sistemi çox güclü bioloji immunitetə malikdir. Bu hal psixi immunitetin fəaliyyət xüsusiyyətlərinə də aid edilə bilər. Təbii ki, burada sinir sistemlərinin və Psixikanın biokimyəvi tərkibləri daxilindəki xüsusi maddələr də iştirak etməlidir. Çünki psixi immunosistem insan orqanizminin ümumi immunitetinin mühüm bir hissəsidir.

Orqanizmin psixi immunisistemi mahiyyət və funksiya baxımından orqanizmin ümumi bioloji immunitetinə uyğun gəlir. Çün-

ki, bu immunitet sistemləri eyni müdafiə fəaliyyəti ilə məşğul olurlar. Bu müdafiə sistemləri arasında sıx qarşılıqı təsirlər və əlaqələr mövcuddur. Bu təbiidir. İnsan psixoloji və bioloji varlıqdır. Onun bioloji varlığını orqanizmin bioloji immuniteti, orqanizmin psixoloji varlığını isə orqanizmin psixi immuniteti qoruyub müdafiə edir.

Deməli, demək mümkündür ki, insan orqanizmi iki tip immunosistemə malikdir. Bu sistemlər ümumidir və ümumi orqanizmi əhatə edir. **1. Orqanizmin bioloji immuniteti. 2. Orqanizmin psixi immuniteti.**

Orqanizmin psixi immunisistemi Psixikanın, bütün beyin və sinir strukturlarının qoruyucu müdafiəsini əhatə edir. Yerdə qalan insanın digər bədən orqanlarının və orqanizmin qoruyucu müdafiəsi ilə bioloji immunosistem yerinə yetirir.

Orqanizmin bioloji və psixi immunitetləri orqanizmə fəaliyyət göstərən qarşılıqlı asılılıqlı və tərkib hissəli sistemlərdir. Bu qarşılıqlı asılılığı təhlil etmək üçün biz **QİÇS (AİDS)** xəstəliyini misal kimi gətirə bilərik. Bildiyimiz kimi, QİÇS virusuna qarşı hələlik heç bir dərman preparatı hazırlanmıyıb. Bu xəstəlik müalicə olunmur. Bu fakt hamıya məlum olduğu üçün, nəticədə QİÇS-ə tutulanlar tezliklə həm də psixi xəstələrə, əsəb sistemi pozğunluqları keçirən şəxslərə çevrilirlər. Bu da təbiidir. Yəni bioloji varlıqda məhvolma təhlükəsi psixoloji varlıqda da təhlükə və xəstəliklər yaratmağa başlayır.

Deməli, bioloji immunosistemin zəifləməsi insan orqanizminin daxili psixi immunosisteminin zəifləməsinə də səbəb olur. Ona görə də, indi QİÇS-ə qarşı mübarizədə psixoloji müdafiə yeganə müalicə metodu olaraq qalır. Xəstələrə psixoloji məsləhətər verməklə onların əhvallarını sağlamlaşdırmaq və ömürlərini uzatmaq mümkün olur. Buna görə də QİÇS xəstəliklərinə psixososial məsləhətlərin verilməsi ilə əlaqədar olaraq **Ümumdünya Səhiyyə Təşkilatı (World Health Organization. WHO)** qlobal layihələr həyata keçirir. Demək olar ki, AİDS-ə tutulanlara psixososial məsləhətlərin verilməsi ilə bağlı olaraq elə bil kiçik bir elm sahəsi formalaşıb.

Göründüyü kimi, psixoloji varlıqdakı inkişaf, müsbət keyfiyyətlər ağır xəstələnmiş bioloji varlığa müsbət təsir edə bilir. Bu bir

daha bioloji və psixi immunosistemlər arasındakı sıx qarşılıqlı əlaqəni və asılılığı sübuta yetirir.

Xatırladaq ki, AİDS virusu hətta mərkəzi sinir sisteminə də daxil olaraq onun işini köklü şəkildə məhv edə bilir. Buna **neyroqiçs (neuroaids)** deyilir. Deməli, AİDS virusu orqanizmin psixi immunosistemini də məhv etməyə qadir virusdur. AİDS-ə tutulanların təxminən 30%-i neyroqiçslə xəstələnirlər.

Orqanizmin psixi immunosisteminin zəif olması əsəb sistemində, Psixikada iş pozğunluqları yarada bilər. Ağır və yüngül psixi xəstələrin əksəriyyətinin yaranma səbəbləri məhz, psixi immunitetin zəifləməsi ilə əlaqədardır. Bura baş beyində zədə almadan psixi xəstələrə çevrilən insanlar da aid edilə bilər. Yəni getdikcə, psixi immunitetin zəifləməsi psixi xəstəliklərin yaranmasına səbəb olur.

Əksinə, əsəb sistemində, Psixikadakı iş pozğunluqları da getdikcə psixi immunitetin zəifləməsinə səbəb olur. Psixi immunosistemi zəif olan şəxslər çox əsəbi və həssas olurlar.

Gündəlik həyatımızda biz psixi immunitetimizlə (**psixoimmunosistemimizlə**) bağlı bir çox problemlərlə üzləşirik. Bunlarda müxtəlif narahatçılıqlar və əhval pozğunluqları yaradır. Lakin burada ən sadə və parlaq sübut kimi yenə də **gözdəymə, bədnəzər** hallarını göstərmək olar. Bədnəzər məhz, birbaşa insanın psixi immunitetinə mənfi təsir edən həm bioloji mahiyyətli, həm də psixi təsirli bir şüadır (psixi informasiyadır). Düzdür, elmlər sistemi bədnəzərin mövcudluq mahiyyətini, real görünən təsirlərini təcrübi baxımdan təsdiqləyə bilmir. Lakin onların mövcud olmasına şübhə ilə yanaşmaq da qeyri-mümkündür.

Gələcəkdə Psixikanın ətraflı şəkildə tədqiqi ilə əlaqədar orqanizmin psixi immunosistemini də tam öyrənmək lazım gələcək. Psixi immunosistemin öyrənilməsi insan orqanizminin sağlamlığında, bir çox psixi, sosial və bioloji xəstəliklərin müalicəsində müsbət əhəmiyyət kəsb edə bilər. İnsanın bir orqanizm və bir psixoloji varlıq kimi öyrənilməsində də psixi immunosistem problemi mühüm tədqiqat sahələrindən olacaq.

# 7. PSİXİKADA YUXUGÖRMƏNİN YARANMASI

## 7.1 PROBLEMƏ GİRİŞ

Yuxugörmə problemi və onun araşdırılması çox qədim tarixə malikdir. Bu problem eramızdan əvvəl və eramızda yaşayıb yaradan bütün məşhur alimləri, filosofları maraqlandırmışdır. Onların hamısı öz əsərlərində yuxugörmə probleminə müxtəlif istiqamətlərdən yanaşmışlar. Hamısı da bu problemin mürəkkəb və müəmmalı problem olduğunu qeyd etmişdir.

Erix Fromm özünün "Unudulmuş dil" əsərində yuxugörmə probleminin XX əsrdə araşdırma tarixinə toxunur. O qeyd edir ki, yuxugörmə probleminin tədqiqi 3 min ili əhatə edir. E. Fromm XX əsrdə yuxugörmə ilə əlaqədar aparılmış tədqiqatları üç əsas yanaşmada ümumiləşdirmişdir. **Birinci yanaşma Freydə** məxsusdur. Freydə görə yuxugörmə dərk edilməyən və cəmiyyətdə ziddiyyət təşkil edən bir posesdir. İkinci yanaşma **K. Yunqa** məxsusdur. Yunqa görə yuxugörmə şüursuzluqdur və o fərdin xarici imkanlarını ötüb keçir. **Üçüncü yanaşma** isə aşağıdakıları nəzərdə tutur: yuxugörmə beyninin bütün xüsusiyyətlərini özündə əks etdirir. Yəni yuxugörmə həm dərk edilməyənləri, həm də intellektual mənəvi əsasların müsbət və mənfi xüsusiyyətlərini özündə göstərir **(Bax: E.Фромм. "Душа человека". M, 1992. Səh. 228).**

Məlumdur ki, yuxugörmə probleminə ətraflı və ən geniş şəkildə yanaşan Ziqmund Freyd olub. O, məşhur **"Yuxuların yozulması" (Толкование сновидение)** kitabının müəllifidir. Freyd yuxugörmənin yaranmasını da öz psixoanalizi ilə təhlil edir. Freyd iddia edir ki, yuxugörmə şüursuzluğun öyrənilməsində ən ali (царская дорога) yoldur **(Bax: З. Фрейд. "Толкование сновидение»". M, 1989. Səh. 317).** Freyd yuxuların məntiqi mahiyyətli olduğunu iddia edirdi. O, yuxugörməni şüurlu fantaziya ilə müqayisə edirdi. **(Bax: З. Фрейд. "Толкование сновидение»". M, 1989. Səh. 281-284).**

Freyd yuxugörmə probleminə müxtəlif istiqamətlərdən yanaşıb. Onun yaranma və formalaşma köklərini axtarmağa çalışıb. Bu-

na baxmayaraq, Freydin bu sahədəki bütün səyləri yalnız şüursuzluq hallarına və psixoanalizə əsaslanıb. Təbii ki, Freyd məlum tarixi dövrdə yuxugörmə problemini beyinlə və beyindaxili orqanlarla əlaqələndirə bilməzdi.

Xüsusi müasir kompyuterlər yuxugörmə zamanı beyində (Psixikada) baş verən dəyişiklikləri müşahidə etməyə imkan verir. Bu zaman EEQ (Elektroençefaloqramma) vasitəsilə beyindəki (Psixikadakı) reaksiyaları görmək olar. Yuxugörmə zamanı gözlərin hərəkəti də sürətlənib və zəifləyə bilir. İnsanların rəngli yuxular görməsi də təsdiqlənib. Bu cür yuxular görən insanların gözləri digər insanların gözlərindən fərqlənir.

Yuxugörmənin yaranması və mahiyyəti haqqında qədim tarixdən başlayaraq çoxlu müxtəlif fikirlər, mülahizələr mövcuddur. Deyilənə görə XX əsrdə yuxugörmə ilə bağlı üç minə yaxın təcrübi və kliniki tədqiqatlar aparılmışdır. Lakin onun yaranma səbəbləri, onu doğuran amillərin fəaliyyət mexanizmi haqqında real tədqiqat nəticələri əldə edilməyib. İnsan niyə və necə yuxu görür sualına qismən belə dəqiq cavablar yoxdur. Yuxugörmə mürəkkəb və müəmmalı problem olaraq qalır.

## 7.2 YUXUGÖRMƏ VƏ PSİXİ İNFORMASİYALAR

İndi biz də yuxugörmə problemini təhlil etməyə, araşdırmağa çalışacağıq. İlk növbədə bizim diqqətimizi yuxugörmənin yaranma xüsusiyyətləri cəlb edəcək. Təbii ki, biz bu problemə daha orijinal yanaşmaq üçün müəyyən üstünlüklərə malikik. Yəni Psixikanın insan orqanizmində müəyyənləşdirilib öyrənilməsi yuxugörmənin tədqiqində bizə mühüm üstünlüklər bəxş edir. İlk növbədə biz artıq yuxugörmənin yaranma məkanı haqqında – Psixika haqqında real məlumatlara malikik. Bu amil çox qiymətli tədqiqat üstünlüyü sayıla bilər. Çünki yuxu məhz Psixikada yaranır. Nəticədə, biz yuxugörmənin öyrənilməsində ilkin fundamental məlumatı əldə etmiş oluruq. Bu da yuxugörmənin yaranma məkanının müəyyən edilməsi ilə əlaqədar olur.

**Artıq deyə bilərik ki, yuxugörmə yalnız və yalnız Psixikada yarana bilər. Deməli, yuxugörmə Psixikada yaranaraq elə orada da yaddaş strukturlarına keçir. Səhər biz Psixikamız vasitəsilə yuxunu yada salır və nitqimizə gətiririk. Lakin yuxu görüləndən sonra və yaxud səhərə qədər unudula da bilər.**

Yuxugörmə nə şüursuzluq, nə də ki, asılı olmayan psixikadaxili proses deyildir. Yuxugörmə insanın yatdığı zaman Psixika daxilində baş verən proseslərin reallaşan, hafizəyə keçən nəticəsidir. Yuxugörmə Psixikanın adi iş məhsuludur. Gəlin baxaq bu adi iş məhsulu necə yaranır.

Yuxugörmənin yaranmasında Psixikada və Psixikaya daxil olan xarici ruhi-psixi informasiyalar iştirak edirlər. Psixika elə bir orqandır ki, o, daima çoxlu sayda psixi informasiyalar qəbul edir. Yəni insan yatan vaxtı da Psixika məkanda hərəkət edən külli miqdarda informasiyaların təsirlərinə məruz qalır və yaxud onları qəbul edir. Bu informasiyalar sistemi imkan verir ki, insan müxtəlif yerlərdə, uzaq məsafələrdə baş vermiş hadisələrlə bağlı olan yuxular görsün.

Deməli, fikirlərimizi ümumiləşdirərək deyə bilərik ki, Psixikada yuxugörmənin yaranmasında **daxili informasiyalar** və **xaricdən gələn informasiyalar** iştirak edir.

**Daxili informasiyalar** Psixika daxilində, xüsusilə də ekzistensial şöbədə qorunan nəhəng informasiyaları nəzərdə tutur. Bu zaman psixikadaxili şəraitdən asılı olaraq informasiyaların müəyyən hissəsi yuxugörmənin yaranma prosesinə qoşulur. Məsələn, biz artıq həyatda olmayan ölmüş və yaxud artıq çox illərdən bəri görmədiyimiz insanları da yuxularda görürük. Əslində, burada qeyri-adi heç nə yoxdur. Psixikanın hafizəsində, yaddaş strukturlarında həmin insanlar haqqında çoxlu informasiyalar, onların mövcudluq formaları vardır. Yuxugörmə zamanı həmin informasiyalardan və mövcudluq formalarından istifadə olunur. Məlum olur ki, yuxugörmələrin yaranmasında ekzistensial şöbə aktiv iştirak edir. Çünki nəhəng informasiyalar, obyektiv anlayışlar, mövcudluq formaları məhz, ekzistensial şöbədədir.

**Xaricdən gələn informasiyalarla** bağlı görünən yuxular isə çox mürəkkəb və müəmmalı təbiətə malikdirlər. Şübhəsiz, burada

məkan daxilində olan informasiyalar iştirak edir. Bu informasiyalar insanların Psixikalarından xaricə - məkana çıxır və insan Psixikaları tərəfindən qəbul olunur. Müəyyən bir hadisə ilə bağlı xaricdən gələn informasiya hadisə baş verməmişdən əvvəl, baş verən zaman və baş verməmişdən sonra Psixikaya daxil ola bilər. Psixi informasiyaların çox yüksək sürətlə məkanda yayılması yuxarıdakı fikirləri söyləməyə imkan verir. Məsələn, əksər yuxular min kilometrlərlə uzaqlarda baş vermiş hadisələrlə bağlı olur və yaxud həmin hadisə haqqında məlumatlar verir. Təbii ki, bu, psixi informasiyaların məkanda yayılması və Psixika tərəfindən qəbulu ilə əlaqədardır. Əgər biz uzaqda yaşayan şəxs haqqında yuxu görmüşüksə bu təbii qarşılanmalıdır. Həmin şəxs haqqında və həmin şəxsin Psixikasından çıxan informasiyalar bizim Psixikamıza tanışdır və Psixikamız bu informasiyaları qəbul edır. Bundan əlavə, Psixikamızda artıq həmin şəxs haqqında təsviri, formal və analitik informasiyalar olur.

Əlbəttə, xaricdən gələn psixi informasiyaların qəbulu ilə bağlı yuxuların görülməsi çox müəmmalı sirli görsənə bilər. Lakin burada digər alternativ yol tapmaq çox çətindir. Çünki biz min kilometrlərlə uzaqlarda baş verən hadisələrdən xəbər tutmaq üçün yalnız psixi informasiyalar vasitəsilə Psixikamızdan istifadə edə bilərik. Hansı ki, bu proses yuxugörmədə öz əksini tapır, reallığa çevrilir. Bu informasiyaları məkandan yalnız və yalnız Psixika qəbul edə bilər. İnsan bədənində digər belə bir qəbuledici orqan yoxdur.

Məlumdur ki, yuxugörmə psixikadaxili iş prosesinin real nəticəsidir. Bu prosesdə həm daxili informasiyalar, həm də xaricdən gələn informasiyalar Psixika daxilində qarşılıqlı və paralel formada iştirak edirlər. Yuxugörmədə Psixikanın şöbələri də özünəməxsus funksiyalarını yerinə yetirirlər. Yuxugörmənin yaranmasında iştirak edən psixi proseslər Psixikada (baş beyində) və gözlərdə müəyyən dəyişikliklərə səbəb olurlar. Ona görə də yuxu görən zaman bizim Psixikamızda, sinir sitemlərində və gözlərimizdə aktivlik, hərəkət hiss olunur. Biz yatan zaman yuxugörmə baş verəndən sonra bu psixi proseslər hafizəyə, yaddaş strukturlarına keçir. Ola bilsin yuxu yadda qalmasın və yaxud qismən unudulsun. Bu hal Psixikadakı iş şəraitindən və yaranmış böhranlı vəziyyətdən asılı ola bilər. Psixikadakı iş pozğunluğu da yuxuların yadda qalmasına mane ola

bilər. Ola bilsin bəzi şəxslərdə yuxuların yadda qalmaması həmin şəxsin Psixikasının özünəməxsus xüsusiyyəti olsun.

## 7.3 YUXUGÖRMƏDƏ HADİSƏLƏR VƏ VAXT AMİLİ

Biz bilirik ki, bütün yuxular olmuş, ola biləcək və qeyri-adi hadisələrlə bağlıdır. Bu qanunauyğun prosesdir. Çünki bizim Psixikamız baş vermiş, baş verəcək, planlaşdırılan və qeyri-adi hadisələri əhatə edən informasiyalarla zəngindir. Ümumiyyətlə, yaşadığımız cəmiyyətdə, təbiətdə hətta, torpaq altında baş verən (məsələn, zəlzələ) bütün hadisələr haqqında Psixikaya informasiyalar daxil olur. Yəni bizim hiss və dərk etməyimizdən asılı olmayaraq Psixikamıza daxil olan milyonlarla informasiyalara verilən cavab reaksiyalarını həmin vaxtda birbaşa hiss edə bilmərik. Lakin bu cavab reaksiyalarının müəyyən bir hissəsi Psixikada müxtəlif formalarda büruzə verilə bilir. Məsələn, onlar yuxugörmənin yaranmasında iştirak edə bilər və yaxud orada müxtəlif cür proseslərin, təsvirlərin, qeyri-adi hadisələrin reallaşmasına şərait yaradırlar. Məhz, buna görə biz yuxular vasitəsilə baş vermiş, baş verəcək hadisələrdən adi və qeyri-adi formalarda xəbər tutur və yaxud bu hadisələr haqqında yuxularda müəmmalı məlumatlar ala bilirik.

Bu baxımdan, Psixikada yuxugörmənin yaranmasında müəyyən xüsusiyyətlər sistemi formalaşıb. İndi bu xüsusiyyətlər sisteminin ən nəzəri cəlb edənləri ilə ətraflı şəkildə tanış olaq. Məsələn, məlum olur ki, Psixikada **baş vermiş** və **baş verəcək** hadisələrlə bağlı görülmüş yuxular arasında müəyyən ciddi fərqlər var.

**Artıq baş vermiş** hadisələrlə bağlı yuxular gördükdə nisbətən dəqiq informasiyalar əldə etmək mümkün olur. Yəni yuxunun müəmmalığı, sirli mahiyyəti zəif olur və orada nisbətən dəqiq təsvirli hadisələr cərəyan edir. Məsələn, bu yanaşmanı təsdiq etmək üçün gördüyüm bir yuxunu sizin nəzərinizə çatdırmaq istəyirəm. Yuxunu 1995-ci il, 7 iyunda səhərə yaxın gördüm. Məlum tarix indi (2001-ci ildə) ona görə yadımda qalıb ki, mən həmin məlumatı unudulma-

sın deyə 7 iyunun səhəri öz gündəliyimdə (Universitet illərini və elmi işlərimlə bağlı ən vacib hadisələri bu gündəlikdə qeyd edirdim) qeyd etmişdim. Yuxu mənim tanıdığım bir qadın haqqında idi. Həmin qadınla hələ ərə getməmişdən əvvəl tanış olmuşdum. Tanışlıq rəsmi idi və biz bir ali məktəbdə təhsil alırdıq. O, dördüncü kursda oxuyarkən ərə getdi. Yuxunu görəndə isə biz artıq beşinci kursu – ali məktəbi bitirirdik. O, ərə gedəndən sonra mən onu çox nadir hallarda görürdüm. Yuxu görməmişdən üç-dörd ay əvvəl onun hamilə olduğunu öz gözlərimlə görmüşdüm. Lakin sonralar onu görmür və onun haqqında heç fikirləşmirdim. Qəflətən məlum gecə səhərə yaxın aşağıdakı yuxunu gördüm.

**Mən səhralıqdayam. Küləkli bir gündür. Qarşımda iki-üç mağara vardır. Birdən bu mağaraların birindən həmin tanıdığım hamilə qadın çıxır. Mən ona baxıb təəccüblənirəm. O, arıqlamış və kiçilmişdi. Mən ona deyirəm: sən niyə belə arıqlamısan, bədənin olduqca balacalaşıb. O isə mənə baxaraq gülümsünür və başını aşağı salır.**

Əlbəttə, mən oyanan kimi yəqin etdim ki, həmin hamilə qadının yuxuda arıqlaması, kiçilməsi onun uşaq dünyaya gətirməsinə dəlalət edir. Yalnız bu hadisədən bir neçə ay sonra mən həmin qadının məhz, həmin gecə dünyaya uşaq gətirdiyini dəqiqləşdirə bildim.

Bu yuxu artıq baş vermiş hadisə ilə bağlı görülmüşdür. Ona görə də qismən dəqiq təsvirlərə və məlumatlara malikdir. Bu onunla əlaqəlidir ki, mənim Psixikam artıq baş vermiş hadisə haqqında real psixi informasiyalar qəbul etmişdir. Axşam "qadının dünyaya uşaq gətirmə" informasiyası sürətlə məkana yayılmışdı. Mənim Psixikam məhz, məkana yayılmış məlum psixi informasiyanı qəbul etmişdi. Deməli, Psixikam mən yatan zaman qəbul etdiyi bu informasiyadan yuxugörmədə istifadə edib. Bu təhlil baş vermiş hadisələrlə bağlı yuxuların görülməsi ilə əlaqədar irəli sürülən ən real yanaşma sayıla bilər.

**Baş verəcək** hadisələrlə bağlı Psixikada yuxuların görülməsi isə qeyri-adi, anlaşılmaz və müəmmalı şəkildə yaranır. Bu tipli yuxularda daha çox təlatüm, xəbərdarlıq və anlaşılmaz narahatçılıqlar olur. Məlum yuxuların əksəriyyətində hadisələrin obyektiv və subyektiv səbəbləri qapalı qalır. Yəni yuxu görən şəxs müəyyənləşdirə bilmir ki, sabah hansı hadisələr və necə baş verə bilər.

Şübhəsiz, baş verəcək hadisələrlə bağlı Psixikada yuxuların bu formada yaranmasının real səbəbləri vardır. Bu ilk növbədə onunla əlaqədardır ki, bizim Psixikamız baş verəcək hadisələrlə bağlı anlaşılmaz, ziddiyyətli informasiyalar qəbul edir. Yəni hər hansı bir tanış şəxslər sabahkı gün görəcəkləri işlər barədə düşünürlərsə, bu düşünmə materialları psixi informasiyalar şəklində məkana yayılır. Bizim Psixikamız məhz, bu cür informasiyaların təsirlərinə məruz qalır və onları qəbul edib yuxugörmənin yaranmasında onlardan istifadə edir. Təbii ki, bu formalarda məkana yayılan informasiyalar tam dəqiq ola bilməz. Bundan əlavə, hər birimiz əksər hallarda sabahkı işlər və baş verəcək hadisələr barədə düşünürük. Adətən, bu cür düşüncələr yatağa girməmişdən əvvəl və yaxud yatağa girdikdən sonra daha da aktivləşir. Həmin gecə görülmüş yuxuların əksəriyyəti məhz, gün ərzində və yatandan əvvəl fikirləşdiyimiz hadisə və problemlərlə bağlı olur. Bu da təbii olaraq Psixikamızda həmin hadisə və problemlərlə əlaqədar informasiyaların çox olması ilə bağlı olur.

Heç cür ola bilməz ki, görülmüş hər hansı bir yuxu sabahkı gün müəyyən bir hadisənin baş verməsini tam şəkildə əsasalandırsın. Yuxu görüb-görməməyimizdən asılı olmayaraq gündəlik həyatımızda müxtəlif hadisələrlə üzləşirik. Bu zaman görülmüş yuxu baş vermiş hadisələrə təsadüfən uyğun gələ bilər. Bu hal bütün real hadisələrin və proseslərin fəaliyyətini, başvermə şəraitini əsaslandıran nisbi amildir.

Qeyd etmişdik ki, Psixika baş verəcək bütün obyektiv və subyektiv hadisələrlə bağlı psixi informasiyalar qəbul edir. Təbiət hadisələrini də bura aid etmək mümkündür. Təbiətdə baş verən hadisələrin bizim Psixikalarımıza təsir etməsi adi hal sayıla bilər. Bundan əlavə, təbiətdə, torpaq altında baş verən proseslər bizdən asılı olmayaraq Psixikalarımıza təsir edə bilirlər. Yəni Psixika məkanda baş verən, lakin görünməyən, heç hiss də olunmayan hadisələrlə bağlı informasiyalar qəbul edir. Əlbəttə, Psixika dünyada misli olmayan nəhəng qəbuledici və ötürücü orqandır. Hansı ki, Psixika tərəfindən qəbul olunan bu qapalı informasiyalar məhz, yuxularda öz müəmmalı və ziddiyyətli əksini tapırlar. Elə ona görə bəzən müəyyənləşdirə bilmirik ki, niyə təlatümlü, qorxulu yuxular görürük. Məkanda, təbiətdə baş verən hadisələrlə bağlı Psixikamızın qapalı,

gizli informasiyalar qəbul etməsini tədqiq etmək üçün biz **zəlzələ** probleminə toxunacağıq.

Məlum olur ki, zəlzələlər baş verməmişdən qabaq, təxminən bir gün ərzində insanlar təlatümlü və ziddiyyətli yuxular görürlər. Əlbəttə, əksər insanların zəlzələ baş verməmişdən qabaq qorxulu, həyəcanlı yuxular görməsi təsadüfi sayıla bilməz. Bu ilk növbədə Psixikaya olunan təsirlər və onun informasiyalar qəbul etməsi ilə əlaqədardır. Çünki zəlzələlərdən əvvəl torpaq altında nəhəng suxurlar daxilində müəyyən dəyişiliklər baş verir. Bizim Psixikamız məhz, bu dəyişiklikləri hiss edir. Məlum dəyişikliklərin Psixikaya real və anlaşılmaz təsirləri Psixikada yuxugörmələrin yaranmasında müxtəlif formalarda büruzə verilir.

Burada müəyyən qanunauyğunluq mövcuddur. Məlum olur ki, Psixikaya güclü təsirlər edildikdə, naməlum informasiyaların mahiyyəti qapalı qaldıqda Psixikadakı yuxular təlatümlü, həyəcanlı olur və orada çoxlu narahat insanlar təsvir edilir. Bu cür hallar əsasən təbii fəlakətlər zamanı daha qabarıq şəkildə hiss olunur.

Zəlzələlərin baş verməsi ilə bağlı yuxuların görülməsi daha obyektiv real mülahizələr irəli sürməyə imkan verir. Çünki burada zəlzələdən əvvəl torpaq altında baş verən dəyişikliklərin informasiyalar şəkilində Psixikaya təsiri daha realdır. Məlumdur ki, zəlzələlərin baş verməsini əvvəlcədən heyvanların Psixikaları da aktiv formada hiss edir. Məsələn, bu halı itlər, balıqlar, ilanlar daha həssas formalarda hiss edə bilirlər. İtlər aktiv anlaşılmaz hərəkətlər edərək hürür, səs-küy salırlar, balıqlar narahat hərəkətlər edərək yanları üstə çevrilirlər, ilanlar isə arxaları üstə çevrilib narahatçılıqlarını sürünməklə bildirirlər. Təbii, bütün bu hallar həmin heyvanların Psixikalarının zəlzələdən əvvəl torpaq altında baş verən dəyişiklikləri hiss etmələri ilə əlaqədardır. Yəni onların Psixikaları bu tipli informasiyaları qəbul edərək onların real təsirlərinə məruz qalırlar.

Deməli, Psixika əvvəlcədən zəlzələ ilə bağlı informasiyalar qəbul edir və bu halın nəticə təsirləri yuxularda əks olunur. İndi mən sizi zəlzələ ilə bağlı şəxsi həyatımda əldə etdiyim real məlumatlarla tanış edəcəyəm.

**25 noyabr, 2000-ci il, saat 22.09,** Bakı şəhərində təxmini 6,3 ballı zəlzələ baş verdi. 31 nəfər həlak oldu, 700 nəfər müxtəlif də-

rəcəli bədən xəsarətləri aldı, 1500-ə yaxın bina zərər çəkdi. Minlərlə insanlar stress və depressiyalara düçar oldu. Şübhəsiz, məni bir psixoloq kimi yaşadığım cəmiyyətin zəlzələ ilə bağlı mənəvi problemləri və psixoloji həyatı daha çox maraqlandırırdı. Lakin harada oldumsa əksər insanların zəlzələdən əvvəl gördükləri yuxular haqqında danışdıqlarının şahidi oldum. Onlar yuxularını əsasən gecə və 25 noyabr günorta vaxtlarında görmüşdülər. Mən özümdə həmin gün öz yuxumu görmüşdüm.

Zəlzələ qabağı görülmüş yuxular müxtəlif olsa da onların hamısında çoxlu narahat insanların təsviri, təlatüm və həyəcan olmuşdur. Yuxu görənlərin çoxu öz yuxularındakı insanlar toplusunu daha çox həyəcanlı xalq üsyanlarına və xalq yürüşlərinə bənzətmişlər. İndi isə görülmüş yuxuların bir neçəsi ilə tanış olaq.

Şübhəsiz, gördüyüm öz yuxumdan başlayacağam. 25 noyabr gündüz təxminən 16.00 radələrində kitabxanadan evə gəldim. Yorğun idim, qarşımızdakı elmi işin II hissəsini yazırdım. Yemək yeyib çarpayıya uzandım. Yuxu məni haxladı. Çox nadir hallarda gündüzlər yatıram və çox nadir hallarda bu vaxtlar yuxular görürəm. Zəlzələnin baş verməsinə təxminən 3-4 saat qalmış aşağıdakı yuxunu gördüm.

**“Mən müxalifət liderləri ilə mitinqdə iştirak edirəm. Orada çoxlu insanlar var. Mən müxalifət liderləri ilə birlikdə tribunada dayanmışam. Birdən liderlərin arasından kimsə yerə yıxılır. Onun başından qan axmağa başlayır. Sonra onu kimsə aşağı insanların içərisinə itələyib atır. Sonra aşağıda onu kimsə yenidən vurmağa başlayır. Onun yaralı başını dəfələrələ yerə vururlar. O ölür və insanlar çığırmağa başlayırlar. Mən həyəcanlı şəkildə oyanıram”.**

**Elnarə Əhmədova (27 yaş, elmi işçi).** O öz yuxusunu 25 noyabr səhərə yaxın görüb. Aşağıda onun yuxusunu özü söylədiyi kimi sizə təqdim edirik.

**“Mən öz ailə üzvlərimlə qatarda gedirəm. Qatar çox qeyri-adi qatardır və o çox sürətlə irəliləyir. Birdən qabaqda qatar relslərinin üstündə dayanmış çoxlu insanlar görsənir. Onlar həyəcanlı şəkildə çığırırlar. Biz də həyəcanlanmağa və çığırmağa başlayırıq. Qorxuruq ki, qatar insanları vurar.**

**Lakin qatar insanlara heç bir xətər yetirmir. Çoxlu insanlar qatarın ətrafına səpələnirlər və qaçırlar. Mən narahat şəkildə oyanıram".**

**Elşad Həsənov (33 yaş, radio müxbiri).** O da öz yuxusunu 25 noyabr səhərə yaxın görüb. Aşağıda onun yuxusunu da özü söylədiyi kimi sizə təqdim edirik.

**"Çoxlu insanlar bir-biriləri ilə dalaşırlar. Ətrafdakı insanlar bu səhnəni həyəcanla izləyirlər. Birdən mən öz qardaşımı dalaşan insanların içərisində görürəm. Mən həyəcanlanıram və qardaşımı dalaşan insanlar arasından çıxarmaq istəyirəm. Hamı çığırır. Mənə elə gəlir ki, artıq mənim qardaşım onların arasında yoxdur. Narahat şəkildə oyanıram".**

Şəxsi müşahidələrimin nəticəsində məlum oldu ki, zəlzələdən əvvəl əhalinin təxminən 50-60%-i çoxlu insanların iştirak etdiyi həyəcanlı qorxulu yuxular görüb. Bu da bir daha sübut edir ki, bizim Psixikamız zəlzələdən əvvəl torpaq altında baş verən süxurlararası enerji dəyişikliklərini qismən informasiyalar almaqla hiss edir. Bu tipli "həyəcanlı informasiyalar" Psixikada elə həyəcanlı, təlatümlü yuxuların yaranmasına səbəb olur.

Əlbəttə, bu informasiyalar özünəməxsus informasiyalar sistemidir. İnsan Psixikası, ümumiyyətlə, canlı Psixikaları yarandığı gündən bu tipli informasiyaları zəlzələdən əvvəl qəbul edib. Nəticədə, bu "informasiyalar" Psixika üçün "zəlzələ informasiyaları" kimi formalaşıb. Yəni insan Psixikası artıq tarixi formalaşma ilə bağlı olaraq bu informasiyalara özünəməxsus formalarda cavab və reaksiya verir. Bu psixikadaxili cavab reaksiyalarından biri də yuxuların görülməsidir.

Günəşdə baş verən partlayışlar, təbiətin digər fiziki hadisələri də bizim Psixikamıza özünəməxsus informasiyalarla təsir edirlər. Bu təsir nəticələri də yuxuların görülməsində xüsusi formalarda büruzə verilir. Bu hal Psixikaya təsir edən və Psixikaya informasiyalar ötürən bütün real təbii hadisələrə, proseslərə şamil edilə bilər.

Cəmiyyətdə, xalq psixologiyasında olan yuxuyozmalarda da bu yanaşma nəzərə alınıb. Məsələn, yuxuda üzümün görülməsi göz yaşları kimi qəbul edilir, pişiyin görülməsi problemlərin olacağından xəbər verir, kiminsə ölməsi onun daha çox yaşayacağı kimi yo-

zulur və sairə. Əslində, bütün bunlar Psixikaya təsir edən hadisələrlə, proseslərlə və oradan gələn informasiyalarla bağlı özünəməxsus yuxuların görülməsi deməkdir. Yəni hər hansı təbii hadisə və proseslər sistemi oradan gələn informasiyalara uyğun yuxular yarada bilir. Bu hal Psixikanın yuxugörmə ilə əlaqədar adi iş prinsiplərindən biri kimi də qəbul edilə bilər. Yuxugörmələrin yaranması ilə əlaqədar isə Psixikanın çoxlu sayda iş prinsipləri və qanunauyğunluqları ola bilər. İndi biz sadəcə olaraq bu problemlərin dəqiq araşdırılması iqtidarında deyilik.

## 7.4 YUXUGÖRMƏ VƏ YARADICILIQ

Ümumiyyətlə, yuxugörmə probleminin tədqiqində yaradıcılıq problemlərinə xüsusi yanaşma mövcuddur. Cəmiyyətdə, elmi-ictimai fikir tarixində yuxugörmə və yaradıcılıq məfhumlarını əhatə edən bir çox real həyati məlumatlar vardır. Məsələn, deyilənə görə Mendeleyev öz kimyəvi elementlər cədvəlini yuxuda görüb. Əlbəttə, bu hadisənin həqiqi olub-olmaması bizi az maraqlandırır. Lakin bu cür yuxugörmə hadisələri elmi və bədii yaradıcılıqla məşğul olan bir çox tanınmış şəxslərin başına gəlib. Onlar illərdən bəri məşğul olduqları problemlərlə və onların həlli ilə bağlı yuxular görüblər. Adi insanlar da gündüz və axşam yatanda fikirləşdikləri problem və hadisələrlə bağlı yuxular görə bilirlər.

**Əslində burada qeyri-adi heç bir şey yoxdur. Hər hansı bir alim-tədqiqatçı, yaradıcı şəxsiyyət və adi bir insan müəyyən bir problem haqqında çox fikirləşəndə onun Psixikasında həmin problemlə bağlı çoxlu psixi informasiyalar yaranır. Təbii ki, biz yatan zaman həmin informasiyalar Psixikanın daxilində yaranmış şəraitlə əlaqədar olaraq yuxugörmələrdə iştirak edirlər. Müəyyən kəşflərin və digər yaradıcılıq məhsullarının yuxularda yaranması Psixikada yuxugörmə zamanı koqnitiv şöbənin (sol yarımkürənin) aktivliyi ilə bağlıdır. Həmin problemlə aktiv məşğul olan yaradıcı insan yatan zaman onun Psixikasında yaradıcılıqla bağlı olan məlum aktivlik qorunub saxlanılır. Bu aktivlik xüsusilə də,**

**koqnitiv şöbədə daha çox hiss olunur. Biz bilirik ki, koqnitiv şöbədə şüur, təfəkkür, nitq, təxəyyül və digər koqnitiv-subyektivləşdirici proseslər yerləşir. Yaradıcı şəxs yatan zaman onun aktiv Psixikasinda yaradıcılıq prosesləri qismən davam edə bilər. Bu zaman Psixikada yaradıcılıq informasiyalarının qarşılıqlı əlaqəsindən yaranan müəyyən nəticələr yuxugörmədəki təsvirlərə, hadisələrə çevrilə bilər. Əlbəttə, bu çox müəmmalı və mürəkkəb problemdir. Lakin bu, nəticə məhsullarını qeyri-adi şəkildə təsdiq edən adi psixikadaxili proses ola bilər. Çünki gündüz həmin yaradıcı şəxsiyyət məlum problemi müxtəlif istiqamətlərdə araşdırmış və bu problemlə bağlı onun Psixikası çoxlu informasiyalar qəbul etmişdir. Bu araşdırma informasiyaları da Psixikanın yaddaş strukturlarında qalır. Hansı ki, onlar Psixikada yuxugörmə zamanı şöbələr arasında aktiv qarşılıqlı əlaqələr yarada bilirlər. Nəticədə, yeni psixi proseslər, yeni psixikadaxili iş məhsulları (kəşflər, digər yaradıcılıq məhsulları) yarana bilər.**

Bundan əlavə, xarici məkandan gələn psixi informasiyalar da burada iştirak edə bilirlər. Hər halda Psixikada yuxugörmə zamanı kəşflərin, yeni elmi nəticələrin və digər yaradıcılıq məhsullarının yaranması Psixika daxilində aktiv psixi informasiyaların qarşılıqlı əlaqəsinin nəticəsi olur. Bu zaman koqnitiv şöbənin aktivliyi də yüksək səviyyədə olur.

Əlbəttə, biz yuxugörmənin Psixikada yaranma proseslərini dəqiq təsvir edə bilmərik. Çünki yuxugörmə də Psixikanın adi iş məhsuludur. Yəni yuxugörmə Psixikanın ümumi iş strukturunun və şöbələrarası qarşılıqlı əlaqələrin real nəticəsidir. İnsan yatan zaman onun Psixikasında yuxu yaranır və Psixikanın hafizə strukturlarına keçir. Səhər həmin yadda qalan hafizə məhsulları haqqında məlumat verə bilirik.

Yuxugörmə tam formalaşmış psixi məhsuldur. Lakin yuxugörmə məntiqi baxımdan ümumiləşdirilmiş real nəticə deyildir. Yuxugörmə müəmmalı, ziddiyyətli və mürəkkəb mahiyyətli psixi nəticə məhsullarıdır. Daha döğrusu, Psixikanın keçmiş və gələcək haqqında verdiyi təsvirli informasiya nəticələridir. Psixi və sırf ruhi proseslərin psixikadaxili məhsullarıdır.

Yuxugörmə Psixikanın daxili işinin təhlili baxımından, mühüm əhəmiyyətə malikdir. Məsələn, yuxugörmə zamanı Psixikada informasiya boşalması hadisəsi baş verir. Bundan əlavə, yuxugörmə zamanı Psixikanın xarici məkan informasiyaları ilə qarşılıqlı əlaqəsi aktivləşir. Deməк olar ki, yatan zaman Psixikanın məkanda olan psixi informasiyalarla qarşılıqlı əlaqəsi gündüz vaxtından da geniş və aktiv olur. Çünki Psixika və onun daşıyıcı amili olan ruh biz yatandan sonra daha çox xarici məkanla iş birliyinə girir.

Görəsən, heyvanlar yuxu görürmü? Bu suala qısa olaraq "bəli" cavabı verilə bilər. Çünki heyvanlar da Psixikalara malikdirlər və onların Psixikalarında da yuxuların görülməsi adi psixikadaxili iş məhsulu kimi yaranır. Bu baxımdan, "Ac toyuq yuxuda darı görər" atalar məsəli yerində deyilmiş məntiqi reallıqdır. Deməli, bu atalar məsəli bizim üçün artıq iki məna daşıyır. Birincisi odur ki, doğrudan da bizi (heyvanları da) narahat edən, tələbat duyduğumuz əlçatmaz arzuları, qiymətli, qiymərsiz əşyaları yuxuda görə bilərik. İkincisi odur ki, doğrudan da ac toyuq Psixikaya malik bir canlı, bir quş kimi yuxu görə bilər, bütün heyvanlar da həmçinin.

Gələcəkdə, Psixikanın geniş tədqiqi ilə əlaqədar olaraq yuxugörmə problemləri də ətraflı şəkildə öyrəniləcək. Bu təbiidir. Çünki Psixikanın öyrənilməsi ümumiyyətlə, yuxugörmə kimi problemlərin tədqiqinə də zəruri şəkildə əlverişli şərait yaradacaq. Bunu Psixikanın özünün də ətraflı şəkildə öyrənilməsi tələb edəcək.

Burada bir mühüm amili də qeyd etmək lazımdır. Biz yuxugörmə problemlərini, onların yaranma proseslərini müxtəlif formalarda təhlil və tədqiq etsək də bir əsas amili unutmamalıyıq. Yuxugörmənin yaranması sırf ruhi mahiyyət daşıyır. Bu baxımdan, yuxugörmə ancaq **Böyük Allaha** məxsus olan ruhda və bu ruhun orqanizmdə real daşıyıcısı olan Psixikada yaranan, mövcud olan çox mürəkkəb, sirli proseslər sistemidir. Yuxugörmənin öyrənilməsində bu mühüm amil həmişə diqqət mərkəzində olmalıdır.

# 8. PSİXİKA İNSAN ORQANİZMİNİN KONSTİTUSİYASI KİMİ

İnsanların yaşamaq və inkişaf qanunauyğunluqlarına tez-tez müraciət edib, onları təhlil amilinə çevirməyimiz təsadüfi deyildir. Əgər Psixika tədqiq edilirsə orada hökmən mövcudluq, yaşamaq və inkişaf prinsipləri, qanunauyğunluqları ön plana çıxır. Psixika insana lazım olan ən ali prinsiplər və qanunauyğunluqlar sistemini özündə cəmləşdirir. İnsanın formalaşması, yaşaması və inkişafını əsaslandıran, yaradan psixoloji, bioloji və sosial prinsiplər, qanunauyğunluqlar sistemi Psixikadadır. Çünki Psixika insanı idarə edən çox ciddi və yeganə mərkəzdir. Təbii ki, Psixika insan kimi nəhəng, mürəkkəb orqanizmi idarə etmək üçün özünəməxsus prinsiplər və qanunauyğunluqlar sistemindən istifadə etməlidir.

**Bu baxımdan, biz Psixikanı orqanizmin işlək "konstitusiyası" adlandıra bilərik.** Bu cür müqayisə təhlil üçün çox bəsit və anlaşılandır. Psixikanın insan orqanizminin subyektiv məntiqli fəaliyyəti üçün konstitusiya rolunda çıxış etməsi insanın formalaşma və yaşama prinsiplərinə uyğundur.

Psixikada yaranan psixoloji, bioloji və sosial funksiyalar toplusu orqanizmin mövcudluğu və yaşaması üçün bütün imkanlara malikdir. Biz bir daha qeyd etməyə məcburuq ki, beyin, bütün orqanizm idarəetmə mərkəzi olmadan fəaliyyət göstərə bilməz. Şübhəsiz, insan orqanizmi, beyni çox nəhəng və mürəkkəb strukturlardır. Deməli, bu mürəkkəb orqanlar müəyyən ciddi ierarxik prinsiplər və qanunauyğunluqlar sistemi çərçivəsində idarə olunmalıdır. Bütün bu prinsiplər və qanunauyğunluqlar sistemi də məhz, Psixikada cəmləşir. Bizim Psixikanı dövlətin əsas aparıcı qanunlar toplusu olan **konstitusiya** ilə müqayisə etməyimiz yuxarıda deyilənləri ətraflı şəkildə anlamağa xidmət edir.

Doğrudan da, Psixika ilə konstitusiya arasında çox böyük oxşarlıq vardır. Psixika da orqanizmin bütün aparıcı sahələrini əhatə edən idarəetmə və tənzimləmə qanunauyğunluqlarına, xüsusiyyətlərinə malikdir.

**Deməli, konstitusiyanın yaşamaq hüquqları Psixikanın yaşamaq xüsusiyyətlərinə bənzəyir, konstitusiyanın fəaliyyət hüquqları Psixikanın fəaliyyət funksiyalarını xatırladır, konstitusiyanın idarəetmə qanunları Psixikanın idarəetmə, tənzimlə-**

**mə xüsusiyyətləri ilə üst-üstə düşür, konstitusiyanın mənavi hüquqları Psixikanın mənəviyyatı, xarakteri və şəxsiyyəti formalaşdirma, yaşatma prinsiplərinə uyğun gəlir və sairə.**

Konstitusiyada olduğu kimi, Psixikada da bu funksiyalar, xüsusiyyətlər toplusu çox ciddi fəaliyyət iersrxiyasına və prinsiplərinə malikdir. Məsələn, insan orqanizmi qida tələbatlarını hiss etməli, hökmən yerinə yetirməlidir və yaxud istirahət tələbatları da buna misal ola bilər və sairə. Təbii ki, bu həyati əhəmiyyət daşıyan tələbatlar çox ciddi iersrxiya ilə məhz, Psixika tərəfindən reallığa çevrilir. Əgər orqanizmin yaşamaq və fəaliyyət tələbatları ödənilməsə insan yaşaya bilməz. Ümumiyyətlə, yaşamaq və fəaliyyət tələbatlarının ödənilməməsi və yaxud zəif ödənilməsi Psixikada iş pozğunluğu ilə əlaqədar ola bilər. Yəni Psixikanın iş prinsipləri və fəaliyyət xüsusiyyətləri pozulmuş olur. Bu da orqanizmin sağlam normal fəaliyyət göstərməsinə və yaşamaq xüsusiyyətlərinə mənfi təsir göstərir. Nəticədə, Psixikanın və orqanizmin mövcudluq, yaşamaq qanunauyğunluqları, prinsipləri pozulur. Dövləti idarə edən konstitusiya da elədir. Əgər dövlət daxilində konstitusiyanın qanunları kobud şəkildə pozulursa, onun hüquqi bazası iflasa uğrayırsa və bu mütəmadi hal alırsa nəticədə, dövlət zəifləyir, vətəndaşlar pis yaşayır, qanunlara, insanlara hörmətsizlik yüksək səviyyəyə çatır. Çünki dövlət və orada yaşayan insanlar konstitusiyadan, onun hüquqlarından normal formada istifadə edə bilmirlər.

**Deməli, Psixika insanın idarə olunma konstitusiyasıdır. Konstitusiya olmadan ölkəni, dövləti, insanları idarə etmək mümkün olmadığı kimi, Psixikası olmayan orqanizm də mövcud ola və idarə edilə bilməz. Dövləti öyrənmək üçün ilk növbədə onun konstitusiyasını bilmək gərəkdir. İnsanı da tədqiq etmək üçün ilk növbədə onu idarə edən, tənzimləyən orqanı – Psixikanı öyrənmək lazımdır.**

Biz I hissədə Psixikanın daxili işinin prezident idarə üsuluna malik olan dövlətin iş strukturu ilə müqayisə etmişdik. Nəticədə, o qərara gəlmişdik ki, **"insanın Psixikası necə idarə olunursa insanların Psixikaları da elə o cür idarə olunur"**.

İndi isə bu cür yanaşmanı **"Psixika və konstitusiya"** probleminə də tətbiq edə bilərik. Bu baxımdan, aşağıdakı yanaşmanı irəli sürmək mümkündür: **"Konstitusiya dövləti necə idarə edirsə, Psixika da insan orqanizmini elə o formada idarə edir".**

2002-2006-cı illər, Bakı

# III HİSSƏ.

# YENİ FUNDAMENTAL PSİXOLOGİYANIN ƏSASLARI

# 1. YENİ PSİXOLOGİYAYA GİRİŞ

## 1.1 QISA TARİXİ MƏLUMAT

Yeni fundamental Psixologiya yaratmaq ideyası təxminən 2000-ci ildə meydana çıxıb. Buna qədər, ilkin tələbəlik illərindən başlayaraq Psixologiya elmi ilə ətraflı tanışlıqdan sonra bu elm daxilində olan bir çox mühüm problemlər məni həmişə narahat edirdi. Psixologiyanın ümumi strukturunda, əsas tədqiqat istiqmətlərində nizamsızlıq, böhranlı vəziyyət və məntiqsiz sırf fəlsəfi yanaşma görürdüm. Sonradan mənə bəlli oldu ki, bütün dünyada Psixologiyaya elə bu cür qeyri-standart və böhranlı yanaşma mövcuddur. Elə ona görə insanlar Psixologiya elmi haqqında danışarkən əksər hallarda anlaşılmaz, qəribə və mürəkkəb mülahizələr irəli sürürlər. Əslində isə Psixologiya çox ciddi, geniş və fundamental bir elmdir. Mən deyərdim ki, Psixologiya insanı öyrənən elmlərin ən fundamentalı və ən böyüyüdür. Çünki bu ciddiliyin, fundamentallığın əsasında insanın birbaşa ruhi, biopsixoloji və psixofiziki varlıq olması durur. Bundan əlavə, insan öz Psixikasının, psixolgiyasının subyektiv məhsuludur. Göründüyü kimi, problemə kiçik bir yanaşma ilə insan üçün Psixolgiya elminin nə dərəcədə böyük fundamental mahiyyət və əhəmiyyət daşıdığının şahidi olduq.

Bu cür narahat və əzablı şəxsi mülahizələrin təsiri altında psixi proseslərin tərkib hissəsini öyrənməklə Psixikanın tədqiqinə başladım. Yalnız Psixikanın tədqiqindən sonra tam şəkildə əmin oldum ki, Psixologiyanın daxilindəki nizamsızlığın, qeyri-ciddiliyin, böhranın əsas fundamental səbəbi məhz, Psixikanın öyrənilməməsi olub. Getdikcə, məni narahat edən mülahzilər, əzablar səngiməyə başladı və hər şey öz axarına düşməyə başladı. Hətta yəqin etdim ki, bu böhranlı şəraitə birdəfəlik son qoymaq üçün Psixologiyanın predmetini (Psixikanı), fundamentini öyrənməklə həqiqi əsl Psixologiya elmi yarada bilərəm. Təbii ki, bu cür qətiyyətli addımlar atmaq üçün **Böyük Allahdan** səbir və cürət diləmək lazımdır. Şübhəsiz, bu cür ciddi və qətiyyətli məsələlər haqqında kimə və kimlərə isə məlumat vermək də çox çətindir. Ona görə qərara aldım ki, **yeni fundamental psixologiyanın** yaradılması haqqında məlumatların

verilməsini 2008-ci ildə Almaniyada keçirilən Psixologiya üzrə Beynəlxalq Konqresə saxlayım. Lakin Psixikanın insan orqanizmində öyrənilməsinə beynəlxalq dramatik maraq elə bu sahədəki proseslərin özünü də dramatik aktiv məcraya saldı. Nəticədə, prosesləri dörd il qabaqlayaraq (Psixologiya üzrə Beynəlxalq Konqres dörd ildən bir keçirilir), yeni fundamental psixologiyanın yaradılması ilə bağlı iki elmi layihəni, 2004-cü ilin yayında Çində keçirilən Psixologiya üzrə Beynəlxalq Konqresə göndərməli oldum (Bax: internet ünvanları).

http://www.icp2004.org/symposia-1.htm
http://www2.u-netsurf.ne.jp/~wisdom/ICPO4abstract.pdf (səh. 154)
http://www2.u-netsurf.ne.jp/~wisdom/ICPO4abstract.pdf (səh. 432)

Bu dramatikliyin əsas səbəkarları isə amerikan psixoloqları oldu. Ümumiyyətlə, mən bilmirdim ki, Avropada, Amerikada Psixikaya və onun tədqiqinə bu dərəcədə mənfi münasibət var. Demək olar ki, onlar XX əsrin ikinci yarısından Psixikadan bir elmi termin və orqan kimi ümumilikdə imtina etmişlər. Nəticədə onlar Psixikasız Psixologiya elmini öyrənirlərmiş. Təbii ki, bu çox gülünc və anormal haldır.

Məlumdur ki, Psixologiya elminin daxilində bu cür neqativ halların yaranmasında "soyuq müharibə"də mühüm rol oynayıb. Nəticədə, müxtəlif psixoloji cərəyanlar da yaranıb (məsələn, biheviorizm, koqnitiv psixologiya və sairə).

Belə olan halda onlar Psixika ilə bağlı tədqiqat nəticələrimə tezliklə neqativ reaksiya verməyə başladılar. Hətta buna siyasi-ideoloji don geydirənlər də oldu. Düzdür, həmin şəxs **(Antonio Puente, tanınmış neyrobioloq, nobel mükafatı almış Sperrinin tələbəsi)** indi mənim elmi işlərimlə maraqlanır və onlara rəğbət bəsləməyə başlayıb. Lakin məhz onun aşağıdakı kəlamları məni özümdən çıxararaq yeni fundamental Psixologiyanın yaranma proseslərini aktivləşdirdi. O mənə yazmışdı: **"Psixikanı öyrənməklə (bu cür tədqiqatlarla) qərb psixoloqlarına təsir edə bilməzsən, çətin onlar sənə inansınlar".**

Əslində, bu kəlamlar birbaşa siyasi-ideoloji mahiyyət daşıyırdı. Deməmişkən, onlar mənə keçmiş sovet psixologiyasının meydana

çıxmış yeni formalı varisi kimi baxırmışlar. Hansı ki, bu mənim heç ağlıma belə gəlmirdi.

## 1.2 TƏHLİLEDİCİ MƏKTUBLAR

Amerika psixoloqları ilə bu cür fikir əlaqələri elə bil məni yuxudan oyatdı və problemlərə daha ətraflı, məntiqli yanaşmağa kömək etdi. Anladım ki, elmi işimin səviyyəsi, əsas mahiyyəti, siyasi-ideoloji mövqesizliyi haqqında xarici həmkarlarıma ətraflı təhliledici məlumatlar verməli və elmi işimin ətraflı təhlilinin, oradakı elmi incəliklərin qeyri-rəsmi təbliğini də aparmalıyam. Nəticədə, dünyanın böyük psixoloji təşkilatlarına, psixoloq həmkarlarıma, beynin öyrənilməsində nobel mükafatları almış neyrofizioloqlara, neyroloqlara internet vasitəsilə müxtəlif **təhliledici məktublar** göndərməyə başladım. Bu fərdi təhliledici və təbliğat işini bu gün də davam etdirirəm. Çünki bu təhliledici məktublar müsbət nəticələr verdi.

Bu məktublarda ilkin olaraq bildirdim ki, onların narahatlıq keçirməsi əslində təbii haldır. Çünki keçmiş sovet psixologiyası kimi müasir qərb psixologiyası da artıq böhran içərisindədir. Xüsusilə də, ABŞ-da dəbdə olan Koqnitiv psixologiya isə öz məntiqsiz və qeyri-tam olan tədqiqat sistemi ilə birlikdə artıq iflasa uğramaqdadır. Psixologiyanın predmeti olan Psixikanın insan orqanizmində öyrənilməsi bu prosesləri daha da gücləndirəcək. Şübhəsiz, gec-tez həqiqi fundamental Psixologiya qələbə çalacaq.

Bu məktublarda qeyd edilirdi ki, Psixika Psixologiyanın həqiqi predmetidir. Biz Psixikanı öyrənməyə məhkumuq. Bu təbii prosesdir və təbii proseslərə qarşı mübarizə aparmaq qeyri-mümkündür. Psixikanın tədqiqi insan beyninin, zehninin və ümumiyyətlə, insan orqanizminin ətraflı şəkildə öyrənilməsinə əlverişli şərait yaradacaq, bu sahələrdəki böhranlı vəziyyəti aradan qaldırmağa kömək edəcək.

Mən onlara yazırdım ki, sizin Psixologiyanın təbii predmeti olan Psixikaya münasibətiniz anlaşılmaz və qəbuledilməzdir. Bu hal dünyada Psixologiya elmi daxilində kobud elmi böhran yaradıb. Müxtəlif dövlətlərdə Psixologiyaya müxtəlif təriflər verilir. Avro-

pada əsasən zehni öyrənən Ekspremental Psixologiya inkişaf edib, Amerikada Koqnitiv Psixologiya, Rusiayada və digər bəzi keçmiş Sovet Respublikalarında isə Psixologiya əsas fundamental tədqiqat istiqamətləri bəlli olamayan anlaşılmaz bohran içərisindədir.

Məsələn, Amerika Psixoloji Asossiasiyasının rəsmi internet səhifəsində yazılıb: **Psixologiya zehni (mind) və davranışı (behavior) öyrənir (Bax: http://www.apa.org/about/. "Psychology is the study of the mind and behavior.")**.

Belə olan halda, mən onlara sual verirdim: **niyə bu elmin adı Psixologiyadır.** Axı siz Psixologiyanın bir elm kimi məntiqli, obyektiv mövcudluq mənasını və strukturunu pozursunuz, inkar edirsiniz. Psixologiya ilk növbədə Psixika haqqında elmdir. İngilis dilində belə bu primitiv reallığı daha açıq məntiqi-filoloji anlamda görmək mümkündür: **Psychology=Psyche+loqos. Yəni** Psixika haqqında elm.

Əgər siz, bu primitiv reallığı qəbul etmirsinizsə, onda Psixologiyanın adını da öz dar, xüsusi istiqamətli tədqiqatlarınıza uyğunlaşdırın. Yəni Psixologiyanı ya **"Zehnologiya"**, ya da ki, **"Davranışologiya"** adlandırın.

Əgər siz, Psixikanı öyrənməkdə çətinliklər çəkirsinizsə və yaxud onun əzablı, mürəkkəb tədqiqindən qorxursunuzsa, bu o demək deyildir ki, siz, biz, bütün dünya Psixikadan – Psixologiyanın fundamental həqiqi predmetindən əl çəkməlidir. Bu elmi cəfəngiyyata son qoymağın vaxtı gəlib çatmışdır.

Bundan əlavə, bu məktublarda həmkarlarıma məsləhət gördüm ki, **"sovet"** və **"qərb"** psixologiyası kimi primitiv və səviyyəsiz siyasi-elmi məfhumlardan əl çəksinlər. Çünki artıq Sovet İttifaqı yoxdur. Keçmiş birtərəfli siyasi ideologiyalara və obyektiv olmayan elmi yanaşmalara üstünlük verməyə, onları yersiz şəkildə dəstəkləməyə heç bir ehtiyac qalmayıb. Belə olan halda, onlar perspektivli, ümumi olan beynəlxalq səviyyəli müsbət yeni elmi yanaşmalara və nəzəriyyələrə hörmətlə yanaşmalıdırlar.

Artıq Psixologiyanı siyasətdən, ideologiyadan və anlaşılmaz elmi yanaşmalardan tamamilə ayırmağın vaxtı gəlib çatıb. Psixologiyanı qlobal siyasətə, dünyadakı hökmranlıq xüsusiyyətlərinə tabe etdirmək olmaz. Müasir dövrdə bu neqativ yanaşma ABŞ-da daha

çox hiss olunur. Hansı ki, bu amili artıq bəzi ABŞ psixoloqları da tənqid etməyə başlayıblar. Bu kitaba ABŞ psixoloqları tərəfindən verilmiş elmi rəylərdə də bunu hiss edə bilərsiniz (**Bax: "Ön sözlər"**). Mən həmişə Amerikadakı həmkarlarıma bu neqativ xüsusiyyətlərdən əl çəkməyi məsləhət görmüşəm və onlara bütün təhliledici məktublarımda bu haqda yazmışam. Paralel olaraq onların illərdən boyu məşğul olduqları psixoloji problemlərdən birdən-birə əl çəkmələrinin çox çətin və ağır olduğunun mən tərəfdən hörmətlə başa düşüldüyünü onların nəzərlərinə çatdırmışam. Lakin təbii elmi-tarixi proseslərə, perspektivli beynəlxalq elmi nəzəriyyələrə və həqiqi fundamental elmi nəticələrə hörmət etmək, onları qeyri-şərtsiz qəbul etmək, harada yaşamasından asılı olmayaraq hər bir elm adamının borcudur.

Nəhayət, onlara bildirdim ki, bu böhranlı vəziyyətə son qoymaq, beynəlxalq səviyyədə Psixologiya elmini təkmilləşdirmək və ümumiləşdirmək üçün **"Yeni Fundamental Psixologiya"** və yaxud **"Yeni Psixologiya"** yaradıram. Artıq psixoloji elmlər sistemi daxilində bu proseslərin zəruriliyinə, qaçılmazlığına imkan verən təbii elmi şərait tam yetişmişdir.

**Yeni Fundamental Psixologiya öz əzəli fundamenti və predmeti olan Psixika üzərində qurulmuş həqiqi Psixologiyadır. Bu Psixologiya insan orqanizmində artıq müəyyənləşdirilmiş və öyrənilmiş Psixika üzərində qurulmuş orijinal Psixologiyadır. Yeni Psixologiya siyasətdən və ümumi ideologiyadan uzaq olan müstəqil Psixologiyadır. Yeni Psixologiya müasir qərb psixologiyasına bənzəmir və keçmiş sovet psixologiyasının varisi deyildir. Onların bəziləri susur, bəziləri qorxur (əsasən xaricdə işləyən keçmiş sovet respublikalarından olan psixoloqlar), bəziləri mənimlə razılaşaraq hətta məni təbrik də edirlər, digərləri isə öz yollarına davam edirlər. Bu cür münasibət təbiidir və müsbət mahiyyətlidir. Çünki perspektivli geniş inkişafın əsasında rəngarəng fikir ayrılıqları durur.**

Yeni Psixologiya yaratmaq ideyasını əsaslandıran və ona təkan verən digər mühüm amillər də mövcud olub. Məsələn, ilk günlərdən məni narahat edən məsələ tədqiq etdiyim Psixikanın və onu əhatə edən problemlərin, orada əldə olunan nəticələrin Psixologi-

yanın hansı sahəsinə aid edilməsi ilə əlaqədar idi. Adətən, mən bu tipli tədqiqat problemlərini, orada əldə olunmuş nəticələri Neyropsixologiyaya aid etmək haqqında düşünürdüm. Getdikcə, mənə məlum oldu ki, Psixika, onu əhatə edən problemlər genişdir, mürəkkəbdir və onlar Neyropsixologiyanın tədqiqat sahələrindən olduqca çox kənara çıxır. Çünki mən təkcə Psixikanı yox, zəruri tədqiqat tələbatı olaraq həm də beyni, insan orqanizmini ümumi qanunauyğunluqlar nəzərə alınmaqla psixoloji, bioloji və sosial baxımdan öyrənirdim.

Məlumdur ki, Psixikaya ilk növbədə yeni fundamental yanaşma lazımdır. Təbii ki, Psixika ilə paralel olaraq mövcud olan bütün problemlərə, alınmış nəticələrə yeni fundamental yanaşma tələb olunur. Bundan əlavə, alınmış nəticələr, elmi nailiyyətlər orijinal fundamental səviyyəyə aid edildiyi üçün bu nəticələri qorumaq lazım idi. Psixika və onu əhatə edən bütün problemlərin tədqiqat nəticələrini əsaslandırmaq, təsdiq etmək üçün onları ayrılıqda yeni bir elmi sahədə qorumaq, cəmləşdirmək zərurəti meydana çıxdı. Psixologiyanın həqiqi, əzəli predmeti olan Psixikanın insan orqanizmində öyrənilməsi, ümumi fundamental metodoloji yanaşma ilk növbədə yeni Psixologiyanı yaratmağı tələb etdi. Öz yaranma əsaslarına görə bu yeni Psixologiyanı "**Yeni Fundamental Psixologiya**" və yaxud "**Yeni Psixologiya**" adlandırmaq mümkündür. Çünki yalnız bundan sonra Psixologiya öz həqiqi predmeti, fundamenti üzərində yaranan həqiqi Psixologiya elminə çevriləcəkdir.

# 2. YENİ FUNDAMENTAL PSİXOLOGİYA NƏDİR? YENİ PSİXOLOGİYANIN YARANMA SƏBƏBLƏRİ

Yeni fundamental Psixologiyanın yaranmasının əsas məqsədi Psixologiyanın təbii predmeti olan Psixikanı tədqiq edərək real Psixologiya elmini yaratmaqdır. Psixika Psixologiyanın həqiqi predmetidir. Bu təkzibolunmaz amildir və bizdən asılı olmayan reallıqdır. Hər hansı bir elmin öyrənilməsi onun predmetindən, fundamentindən başlayır. Psixologiyanın predmeti və fundamenti Psixikadır.

**Niyə dünyanın müxtəlif ölkələrində Psixologiyaya müxtəlif təriflər verilir? Biz niyə Psixologiya elminin predmetini öyrənmək istəmirik? Niyə biz Psixikanın tədqiqindən qorxub geri çəkilmişik? Niyə biz həqiqi fundamental Psixologiyanı yaratmaq və inkişaf etdirmək istəmirik? Psixikanı öyrənməyib Psixologiya elmi daxilində beynəlxalq böhran yaradıb onu parçalamaq kimə və nəyə lazımdır?**

Bu sualların tarixi və müasir gerçəkliyə əsaslanan cavabları var. Lakin bütün cavablar bir nöqtədə cəmləşir. Bu da birbaşa insan orqanizmində Psixikanın və beynin öyrənilməsi ilə əlaqədardır. Hansı ki, bu problem qədim tarixə malikdir. Psixikanın insan orqanizmində müəyyənləşdirilməməsi, beynin ətraflı şəkildə öyrənilməməsi Psixologiyanı bir fundamental elm kimi tam formalaşmağa imkan verməmişdir. Nəticədə, hətta Psixika müəmmalı və mürəkkəb bir elmi problem kimi nəzərlərdən, fundamental tədqiqatlardan qıraqda qalmışdır.

Psixologiya elmləri daxilindəki bu predmet və tədqiqat böhranı bütün dünyanı əhatə etmişdir. Müasir günümüzdə də bu böhran bütün psixoloji tədqiqat sahələrində hiss olunur. Məlumdur ki, dünyanın müxtəlif ölkələrində Psixologiyaya müxtəlif təriflər verilir. Məsələn, ABŞ-da, Qərb ölkələrində Psixologiyanı zehni, davranışı öyrənən bir elm kimi qəbul edirlər. Rusiyada və əksər keçmiş sovet respublikalarında isə Psixologiyaya onlara hələ məlum olmayan, öyrənilməmiş Psixikanı, psixi qanunauyğunluqları öyrənən bir elm kimi baxırlar. Məlum olur ki, Psixologiya daxilindəki “soyuq müharibə” dövründən qalan “sovet” və “qərb” psixologiyaları arasın-

dakı rəqabət, tədqiqat ayrı-seçkiliyi qismən hələ də davam etməkdədir. Şübhəsiz bu rəqabətin və ayrı-seçkiliyin əsasında siyasi ideologiya və Psixika dururdu. Siyasət və ideologiya ilə bağlı problemlər bizə yaxşı bəllidir. Bu iki siyasi ideologiyanın Psixika probleminə münasibətləri çox qəribə və anlaşılmaz səviyyədə olub. XX əsrin iki nəhəng siyasi-ideoloji elmi istiqamətlərinin Psixika probleminə olan münasibətlərinə nəzər salaq.

Keçmiş sovet psixologiyasında xüsusilə də, XX əsrin ikinci yarısında Psixika ən çox öyrənilən problem kimi nəzəri cəlb edib. Lakin bu "öyrənilmə" çox qəribə tədqiqat mahiyyəti daşıyıb. Məsələn, heç vaxt, heç bir sanballı elmi tədqiqatlarda Psixikanın mahiyyəti, yerləşdiyi məkan və fəaliyyət strukturu haqqında ətraflı real elmi məlumatlar verilməyib. Elə ona görə sovet psixoloqlarının əksəriyyəti elə bilirdilər ki, onların gecə-gündüz haqqında oxuduqları, mühazirələr dinlədikləri Psixika tamamilə tədqiq edilib və onun ətraflı öyrənilməsinə belə ehtiyac yoxdur. Bu cür gülünc vəziyyət sovet psixoloqlarının Psixikaya tam materialist utopik yanaşmalarının real nəticəsi idi. İndi müasir rus psixologiyasında da və keçmiş sovet respublikalarında da vəziyyət o qədər də dəyişməyib. Onlar Psixikaya olan keçmiş münasibətlərini müəyyən mənalarda davam etdirirlər.

Qərb (ABŞ) psixologiyasında isə ümumiyyətlə, Psixika haqqında danışmaq belə istəmirlər. Onlar ümumiyyətlə, **Psixika** problemini və onun mövcudluq amillərini rədd edirlər. Bu da çox qəribə və ağlasığmazdır. Predmeti Psixika olan Psixologiya elmini öyrənirlər, lakin Psixikanı tədqiq etmək, hətta onun haqqında danışmaq belə istəmirlər. Onlar əsasən zehni, davranışı öyrənir, ekspremental psixologiyaya üstünlük verir, biheviorizm və əsasən koqnitiv psixologiyanı inkişaf etdirirlər. Ümumiyyətlə isə, onlar Psixikaya tam subyektiv (ruhi) varlıq kimi baxırlar. Yəni onlar Psixikanın insan orqanizmindəki bioloji obyektiv varlığını rədd edirlər. Elə müasir dövrdə də onlar bu istiqamətdə işlərini davam etdirirlər.

Deməli, qəribə bir elmi şərait yaranır. Keçmiş sovet psixologiyasında (müasir rus psixologiyası, əksər keçmiş sovet respublikalarında) psixoloqlar onlara, elmə məlum olmayan Psixikanı tədqiq edərək Psixologiyanı öyrənirlər. Qərbdə (ABŞ-da) isə psixoloqlar öz fundamental ixtisas predmetlərini yox, zehni, davranışı tədqiq

edərək, kütləvi ekspremenlər keçirərək Psixologiya elmi ilə məşğul olurlar. Hansı ki, zehn, davranış Psixikada yaranır və oradan da idarə olunur. **Belə olan halda görəsən, Psixikanı öyrənmədən Psixikada yerləşən zehni, davranışı öyrənmək mümkünmü?**

Nəticədə, Avropada Ekspremental Psixologiya, Amerikada Koqnitiv Psixologiya inkişaf edib, Rusiyada və digər bəzi keçmiş Sovet Respublikalarında isə Psixologiya əsas fundamental tədqiqat istiqamətləri bəlli olmayan anlaşılmaz bohran içərisindədir.

Şübhəsiz, dünya psixologiyasında yaranmış bu cür gülünc və böhranlı vəziyyətlə barışmaq çox çətindir. **Biz məhz, dünya Psixologiyası daxilindəki bu gülünc böhranlı şəraiti yeni fundamental Psixologiyanın yaranmasının ən əsas səbəbi kimi qiymətləndirə bilərik.**

Bundan əlavə, məlumdur ki, XX əsrdə dünyada müxtəlif psixoloji cərəyanlar istiqamətlər yaranmışdır. Məsələn, Freydizm (Psixoanaliz), neofreydizm, davranış psixologiyası (biheviorizm), koqnitiv psixologiya və sairə. Bütün bu istiqamətlər və cərəyanlar dünya psixologiyasının inkişfında mühüm əhəmiyyətə malik olmuşlar. Lakin bunlar müəyyən tarixi və elmi şərait tələbatlarından doğan proseslər kimi də qiymətləndirilə bilər. Müasir tarixi və elmi şərait isə daha məntiqli, cürətli addımlar ataraq beynəlxalq səviyyəli vahid fundamental Psixologiyanı yaratmağı tələb edir. Bu proseslərə şərait yaradan əsas amil isə Psixikanın insan orqanizmində müəyyənləşdirilib öyrənilməsidir. İnsan orqanizmində Psixikanın öyrənilməsi bizə imkan verir ki, Psixologiyanı tədqiq edilmiş həqiqi predmeti olan real fundamental elmə çevirək. Nəticədə, Psixologiya elmləri daxilində olan tədqiqat böhranına son qoyaraq, səpələnmiş, parçalanmış Psixologiya elmini ümumiləşdirərək həqiqi Psixologiyanın əsaslarını yarada bilərik. Psixologiya öyrənilmiş predmeti və ümumi tədqiqat metodikası olan vahid dünyəvi elmə çevrilməlidir. Deməli, Psixologiyaya yeni vahid beynəlxalq tərif verilməlidir.

Yeni fundamental Psixologiyanın yaranması zəruri tarixi-elmi prosesdir. Çünki bu Psixologiya yeni olsa da, əslində o, tarixən mövcud olmuş və indi artıq öz fundamental predmeti üzərində yaranmış Psixologiyadır. Artıq Psixikanın insan orqanizmində öyrənilməsi tarixən öz həllini gözləmiş məlum tipli çoxlu problemlərin

meydana çıxmasına səbəb olub. Bu kütləvi problemlər nəinki, Psixologiyanı, hətta beyni və ümumi insanı öyrənən bütün elmləri əhatə edir. Buradakı problemlər univerasl, ümumi problemlərdir və onlara psixoloji, bioloji, sosial baxımdan fundamental yanaşma tələb olunur. Təbii ki, bu ilk növbədə Psixologiya elmləri daxilində müsbət dəyişikliyə və yeniləşməyə səbəb olacaq. Belə olan halda, yeni Psixologiyanın yaranması müsbət əhəmiyyət daşıyan zəruri tədqiqat tələbatına çevrilir.

Deməк mümkündür ki, indi vahid fundamental Psixologiya elmini yaratmaq üçün əlverişli elmi-tarixi şərait tam yetişmişdir. Burada əsas ali metodik məqsədlər isə Psixikanı insan orqanizmində ətraflı şəkildə daimi öyrənmək, yeni Psixologiyanın perspektivli nəzəri və ekspremental tədqiqat əsaslarını yaratmaqdır.

Bu baxımdan, qarşımızdakı kitabın I və II hissələri Psixikanı insan orqanizmində əhatə edir. Orada Psixikaya müxtəlif istiqamətlərdən yanaşılır və əsasən Psixika psixoloji, bioloji, sosial problem kimi tədqiq edilir. Bu hissələrdə əldə edilmiş nəticələrə əsaslanaraq demək mümkündür ki, artıq yeni fundamental Psixologiyanın nəzəri yaranma əsasları qoyulmuşdur. Bizim üçün artıq yeni Psixologiya yaranmışdır. Biz Psixologiya elmləri daxilindəki bu fundamental dəyişikliklərin əsaslarını və nəticələrini qoruyub inkişaf etdirməliyik.

Nəticədə, Psixologiya həqiqi və dəqiq elmə çevrilməlidir. Psixologiya zehn, mənəviyyat, xarakter və davranış haqqında utopik filoloji mülahizələr toplusu olmamalıdır. Psixologiya sırf fəlsəfi ideyalar və qeyri-adiliklər elmi olmamalıdır. Biz Psixolgiyanı müəyyən edilmiş, öyrənilmiş predmeti olan psixoloji, bioloji və sosial əsaslı fundamental elm kimi formalaşdırıb inkişaf etdirməliyik. Çünki Psixologiya insanı öyrənən ən geniş və nəhəng elmdir.

Yeni fundamental Psixologiyanın siyasi-ideoloji əsasları mübahisələr doğura bilər. Artıq bəzi ABŞ psixoloqları yeni Psixologiyanın əsasında keçmiş sovet psixologiyasının durduğunu iddia edirlər. Təbii ki, bu belə deyildir. Bir daha qeyd edirik ki, yeni fundamental Psixologiya keçmiş sovet psixologiyasının varisi deyil və müasir qərb psixologiyasına da bənzəmir. Yeni fundamental Psixologiyanın siyasi-ideoloji əsasları yoxdur. Yeni fundamental Psixologiya idealist və materialist baxışları rədd edir. Burada ən ali məqsəd real və

həqiqi olanını tədqiq edərək dünyada beynəlxalq səviyyəli vahid fundamental Psixologiya elmini yaratmaqdır. Çünki real və həqiqi olanını tədqiq etmək ən qiymətli nailiyyət gətirici metodik vasitədir. Bu baxımdan, yeni fundamental Psixologiya siyasətdən, ideologiyadan, utopizmdən azad olmuş vahid müstəqil elm olacaq. Bu, müasir elmlər sistemnin tarixən tələbat duyduğu həqiqi Psixologiyadır.

Yeni fundamental Psixologiyanın yaranmasının əsas səbələrindən biri də zəruri təkmilləşməni, ümumiləşməni və mərkəzləşməni yerinə yetirməkdir. Yəni Psixologiya elmləri daxilində beynəlxalq səviyyədə ümumiləşməyə, bütövləşməyə şərait yaranacaq. Məsələn, keçmiş sovet psixologiyası (müasir rus və MDB dövlətlərindəki Psixologiya) ilə müasir qərb (ABŞ) psixologiyasının əsas tədqiqat istiqamətləri yeni fundamental Psixologiyada birləşib ümumiləşəcəkdir. Bu, zəruri təbii ümumiləşmədir və bütöv vahid Psixologiya elminin yaranmasına xidmət edən prosesdir.

Bundan əlavə, təbii olaraq həm qərb psixologiyasında, həm də keçmiş sovet psixologiyasında müsbət tədqiqat nəticələri və müsbət elmi xüsusiyyətlər vardır. Burada əsas məqsəd bu müsbət tədqiqat nəticələrini və müsbət elmi xüsusiyyətləri yeni Psixologiyaya gətirmək və onların ən ciddi, fundamental olanlarını Psixika ətrafında, yeni Psixologiya ətrafında cəmləməkdir.

Bu bütövləşmə (keçmiş sovet psixologiyası, müasir rus və MDB dövlətlərindəki Psixologiya ilə müasir qərb, ABŞ psixologiyası arasında) yeni Psixologiyada mərkəzləşmənin əsas istiqamətlərindən biri olacaq. Məlum prosesi primitiv şəkildə aşağıdakı kimi təsvir etmək mümkündür:

**Keçmiş sovet psixologiyası + Müasir qərb psixologiyası = Yeni Psixologiya**

Yeni fundamental Psixologiyanın yaranmasının çoxlu primitiv səbəblərini təsnifləmək mümkündür. Lakin burada ən əsas və fundamental səbəb elə yeni Psixologiyanın həqiqi predmeti olan Psixikanın öyrənilməsidir. Düşünürük ki, yeni Psixologiyanın yaranması təbii tarixi-elmi proseslərin real tələbatlı nəticəsidir. Təbii proseslərin qarşısını almaq isə qeyri-mümkündür.

**Bir daha xatırladırıq ki, yeni Psixologiya Psixologiya daxilində yeni istiqamət, yeni psixoloji cərəyan və yaxud yeni "psixoloji məktəb" deyildir. Yeni Psixologiya Psixologiyanın fundamental predmeti üzərində yaranan, əslində əsrlər boyu mövcud olan, bütün Psixologiyanı, psixoloji elmlər sistemini, əsas tədqiqat istiqamətlərini əhatə edən, özündə birləşdirən, bütövləşdirən həqiqi Psixologiya elmidir.**

Biz dünyada səpələnmiş, parçalanmış böhranlı Psixologiya elmini, artıq fundamental tədqiqat nəticələri olmayan psixoloji tədqiqatlar sistemini, yiyəsiz qalmış psixoloji elmlər sistemini öz fundamenti və öz "doğma ailəsi" olan Psixika ətrafina topladıq, onları təkmilləşdirdik, ümumiləşdirdik. Nəticədə, yeni müstəqil, fundamental vahid Psixologiyanı yaratmaq uğrunda mübarizədə beynəlxalq tələbata və real dəstəyə malik ilkin müsbət reaksiyalarla üzləşdik. Elə bu ilkin reaksiyalar bizim elmi cəhdlərimizin və mübarizəmizin düzgün qurulduğunu tezliklə sübuta yetirərək əsaslandırdı.

# 3. PSİXOLOGİYAYA YENİ VAHİD BEYNƏLXALQ TƏRİFİN VERİLMƏSİ. YENİ PSİXOLOGİYANIN ÜMUMİ STRUKTURU

## 3.1 PSİXOLOGİYANIN YENİ TƏRİFİ

Yeni Psixologiyaya yeni vahid beynəlxalq tərifin verilməsi ənənəvi elmi təriflərdən fərqlənəcək. Burada Psixologiya Psixikanı və insanı öyrənən nəhəng bir elm kimi təsdiqlənir. Əslində, burada alternativ yol yoxdur. Çünki Psixikanın psixoloji, bioloji və sosial problem olduğundan yeni Psixologiyanın geniş, ümumi tədqiqatlar sistemini əhatə etməsi təbiidir.

Bundan əlavə, Psixika insanı idarə edən koqnitiv-subyektiv əsaslı mərkəzdir. Nəticədə, Psixologiya həm də insanı öyrənən böyük müstəqil elmə çevrilir. Belə olan halda, yeni Psixologiyaya aşağıdakı qısa və ümumi vahid beynəlxalq tərifi vermək mümkündür.

**Psixologiya Psixikanın yaranma, formalaşma, fəaliyyət funksiyalarını və inkişaf proseslərini, insanın mövcudluq və yaşamaq xüsusiyyətlərini öyrənir.**

Psixologiya elminin genişlənməsi, ümumiləşməsi bütün elmlər sisteminə müsbət təsir edəcək. Müasir dünyada Psixologiyanın dinamik inkişafı təbii prosesdir. Çünki Psixologiya bütün elmlər sistemini əhatə edən universal sistemli bir elmdir. Yəni Psixologiya bütün elm sahələrinin daxilində mövcuddur və onların subyektiv mahiyyət kəsb edən mühüm tərkib hissələrindən biridir. Harada insan varsa, orada Psixika, psixoloji problemlər və deməli, Psixologiya var. Deməli, Psixologiya insanların daxilində (Psixikalarında) və onların öyrəndikləri, məşğul olduqları bütün elm sahələrinin daxilindədir.

Psixika Psixologiyanın fundamentidir, predmetidir. Psixika həm də, insanı idarə edən, onun davranışını, fəaliyyətini və həyatını tənzimləyən mərkəzdir, orqandır. Deməli, son nəticədə insan təbii

olaraq birbaşa Psixologiyanın tədqiqat predmetinə və öyrənilmə obyektinə çevrilir. Ona görə "insan" amili Psixologiyaya verilən tərifdə də nəzərə alınıb.

Xarici məkanda və insan orqanizmi daxilində baş verən bütün proseslərin məntiqi sonluğu Psixikaya gəlib çıxır. Psixika xarici məkanla və orqanizm daxili proseslərlə paralel şəkildə əlaqələrə malik olan ruhi və bioloji mahiyyətli yeganə orqandır. Tarixi-elmi məntiqi sonluq isə budur: **Psixika insanı öyrənən bütün elm sahələrinin və beyni öyrənən Neyroelmlər sisteminin təbii tədqiqat obyektinə çevriləcək. Psixologiya elmlər sisteminin "atası", "fəlsəfəsi" olacaq.**

## 3.2 YENİ PSİXOLOGİYANIN ÜMUMİ STRUKTURU

Yeni fundamental Psixologiyaya tərif verdikdən sonra onun **ümumi strukturu** haqqında məlumat vermək olar. Bu ümumi struktur blok-sxem şəklində tərtib olunub və orada yeni Psixologiyanı əhatə edən bütün əsas ümumi proselər, problemlər sistemi məlum strukturun tərkibinə daxil edilib. Psixologiyanın ümumi strukturunda məlum ümumi proseslər, problemlər sistemi maksimum səviyyədə dəqiqləşdirlib və ümumiləşdirilib. **Şəkil-20-də** Psixologiyanın ümumi strukturunun blok-sxemini görə bilərsiniz.




**Yeni Psixologiyanın ümumi strukturu**
**Şəkil-20**

# 4. YENİ PSİXOLOGİYANIN ƏSAS VƏZİFƏLƏRİ VƏ TƏDQİQAT İSTİQAMƏTLƏRİ. DÜNYADA PSİXOLOGİYA ELMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ ÜMUMİLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

## 4.1 YENİ PSİXOLOGİYANIN ƏSAS VƏZİFƏLƏRİ

Psixikanın insan orqanizmində öyrənilməsi və yeni fundamental Psixologiyanın yaranması ilk növbədə yerinə yetiriləcək əsas vəzifələrin və mühüm tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsini, seçilməsini tələb edir. Biz artıq bu haqda müəyyən mülahizələr və fikirlər irəli sürmüşük. İndi isə onları daha ətraflı və ümumi şəkildə təsnifləyib təhlil etməyə çalışacağıq.

Psixikanın öyrənilməsi, yeni fundamental Psixologiyanın yaranması ilk növbədə bütün elmlər sistemi üçün aşağıdakı **mühüm problemləri** həll edəcək və yaxud onların ətraflı formada araşdırılması üçün geniş tədqiqat imkanları yaradacaq.

a. **Psixika elmlər sistemi tarixində ilk dəfə olaraq insan orqanizmində müəyyənləşdirilib psixoloji, bioloji və sosial baxımdan öyrəniləcək.**

b. **Öyrənilmiş həqiqi fundamenti, predmeti olan yeni Psixologiya elmi yaranacaq.**

c. **Neyroelmlər sistemində, beynin ali funksiyalarının öyrənilməsində yeni fundamental tədqiqat istiqamətlərinin əsasları qoyulacaq. Psixika və beynin ayrı-ayrılıqda mövcudluq və fəaliyyət statusları dəqiqləşdiriləcək, onların əsas funksiyaları müəyyənləşəcək.**

d. **İnsanın öyrənilməsində mühüm addım atılacaq. Psixika insanı idarə edən, tənzimləyən mərkəz kimi təsdiq edilərək qəbul olunacaq. İnsanı idarə edən, tənzimləyən orqanın müəyyənləşdirilib tapılması insanın ətraflı şəkildə öyrənilməsinə əlverişlı şərait yaradacaq və oradakı problemlərin effektiv araşdırılmasına çox güclü təkan verəcək.**

**e. Gələcəkdə bütün elmlər sisteminin əsas tədqiqat layihələrində Psixika amili və yeni Psixologiyanın nailiyyətləri müsbət əhəmiyyət kəsb edəcək, onlar əsas tədqiqat istiqamətlərində nəzərə alınacaq. Xüsusilə də, insanın psixoloji-koqnitiv mahiyyətinin və onun neyroanatomik strukturunun öyrənilməsində müsbət dəyişikliklər baş verəcək.**

Bu baxımdan, **Psixikanın ətraflı şəkildə öyrənilməsi Yeni Psixologiyanın ən mühüm, ən təxirəsalınmaz və bütün tədqiqat istiqamətlərində nəzərə alınan ən fundamental vəzifəsi kimi qəbul edilməlidir.**

İndi isə yeni Psixologiyanın Psixologiya elmləri və elmlər sistemi daxilindəki digər əsas vəzifələrini, aparıcı tədqiqat istiqamətlərini nəzərdən keçirək.

Şübhəsiz, **növbəti ilkin əsas vəzifə Psixologiya elmləri və elmlər sistemi daxilində yeni Psixologiyanı, onun əsas tədqiqat istiqamətlərini formalaşdırıb inkişaf etdiməkdir.**

Bunun üçün ilk növbədə Psixikanın ətraflı şəkildə öyrənilməsi davam etdirilməli, yeni Psixologiyanın nəzəri və kliniki təcrübi əsasları tamamilə işlənib hazırlanmalıdır. Bu tədqiqat prosesləri insanın təbii şəkildə ətraflı araşdırılmasını da əhatə edir. Çünki yeni Psixologiyanın insan orqanizmi ilə qanunauyğun bağlılığı var. Bu bağlılığın psixoloji, bioloji, sosial və neyroanatomik əsasları mövcuddur.

Bu baxımdan, bu tipli problemlər və yeni Psixologiyanın formalaşma və inkişafını əhatə edən problemlər sistemi ətraflı şəkildə öyrənilməli, əldə olunmuş nəticələr yeni Psixologiyanın yaranmasının təbiiliyini, həqiqiliyini və fundamentallığını bir daha sübuta yetirməlidir.

**Yeni Psixologiyanın ilkin mühüm tədqiqat vəzifələrindən biri də fundamental əsaslara malik ruhi olanla (Psixika və idrakla) obyektiv formalı bioloji olanı (bütün orqanizmi) birləşdirmək, onların vahid tədqiqat metodologiyasını, qarşılıqlı fəaliyyət xüsusiyyətlərini öyrənmək, əsaslandırmaq və bu sahədə birmənalı mütərəqqi, perspektivli elmi yanaşmanın əsaslarını yaratmaqdır.**

Məlumdur ki, bu problemin mövcudluğu qədim tarixi əhatə edir. Psixika ilə insan orqanizminin birlikdə mövcudluğunu, fəaliy-

yətini, tərkib hissəli birliyini rədd etmək qeyri-mümkündür və bu istiqamət yalnış elmi yanaşmadır. Artıq Psixikanın orqanizmdə müəyyənləşdirilib öyrənilməsi timsalında bu problemin ətraflı birmənalı tədqiqində də yeni istiqamətlər və fundamental nailiyyətlər əldə etmək mümkün olacaq. Xatırladınq ki, bu elmi yanaşma çox mürəkkəb və geniş tədqiqat istiqamətlərini əhatə edəcək. Ona görə də, burada psixoloji, bioloji, neyroloji, fiziki, sosial və sairə kimi problemlərin olması təbii qarşılanmalıdır.

Amma demək mümkündür ki, Psixikanın öyrənilməsi artıq bu problemin real birmənalı tədqiqat bünövrəsinin əsaslarını qoymuşdur.

**Növbəti əsas vəzifə psixoloji və digər problemlərin tədqiqində fundamentallığı, ümumiliyi, universallığı qoruyub saxlamaqdır.**

Xatırlayırsınızsa, biz Psixikanın öyrənilməsində fundamental ümumi yanaşmadan istifadə etmişik. I və II hissələrdə əldə edilmiş nəticələr məhz, yeni fundamental ümumi yanaşmanın məhsullarıdır. Orada bütün problemlər, ali zehni proseslər (şüur, nitq, təfəkkür, hafizə, təxəyyül, qavrayış və digər idraki problemlər) yeni formalarda, yeni tədqiqat yanaşması ilə öyrənilib. Bu problemlərin əksəriyyətinin yerləşdikləri məkan, yarandıqları şərait də ilk dəfə olaraq müəyyənləşdirilib və öyrənilib. Məsələn, artıq dəqiq demək mümkündür ki, şüur koqnitiv şöbədə (sol yarımkürədə) yerləşir və onun özünəməxsus fundamental funksiyaları da məhz, bu şöbədə tədqiq edilir.

Şübhəsiz, fundamental problemlərə fundamental ümumi yanaşma zəruridir. Yeni fundamental Psixologiyanın yaranma əsaslarında da orijinallıq və fundamentallıq durur. Yeni problemlərə yeni fundamental yanaşma, yeni elmi nailiyyətlərin və yeni Psixologiyanın yaranmasına aparan yeganə əlverişli tədqiqat metodudur.

Deməli, ümumi, universal fundamental yanaşma mühüm aparıcı tədqiqat amilidir və bu yanaşma yeni Psixologiyanın tədqiqat istiqamətlərində, metodoloji tədqiqat əsaslarında daim nəzərə alınacaq.

**Yeni Psixologiyanın əsas vəzifələrindən biri də Psixikanın əsas fəaliyyət bünövrəsi və fəaliyyəti yaradan təhrik sindromları olan psixi proseslərin ətraflı, geniş şəkildə öyrənilməsini əhatə edir.**

I hissədə psixi proseslərin Psixikada yaranma və fəaliyyət xüsusiyyətlərini ətraflı şəkildə araşdırıb təhlil etmişik. Biz psixi pro-

seslərə insan Psixikasının yaranma, mövcudolma və fəaliyyət əsasları kimi baxırıq. Psixi proseslər Psixikanın funksional fəaliyyətini yaradan və bu fəaliyyət xüsusiyyətlərini bütün orqanizmə tətbiq edən nəhəng proseslər sistemidir. Psixikada yaranan ali zehni proseslər (şüur, nitq, təfəkkür, hafizə, təxəyyül, qavrayış və digər koqnitiv proseslər) məhz, psixi proseslərin işlənib hazırlanmış ümumi nəticə məhsullarıdır.

Psixi proseslərin yaranması insan orqanizmində baş verən ən mürəkkəb və ən nəhəng psixikadaxili fəaliyyət prosesidir. Təbii ki, insan Psixikasının və zehninin yaranma əsasında duran fundamental proseslərin öyrənilməsi uzun tarixi vaxt və əzablı elmi zəhmət tələb edir. Bu baxımdan, psixi proseslərin öyrənilməsi yeni Psixologiyanin da daimi və sonsuz tədqiqat obyektlərindən biri olacaq. Məlumdur ki, psixi proseslərin ətraflı tədqiqi Psixikanın da ətraflı öyrənilməsinin ana xəttini təşkil edir.

**Yeni Psixologiyanın növbəti əsas vəzifəsi Psixologiya elmləri daxilində yeni ümumiləşməni, bütövləşməni və təkmilləşməni yaratmaqdır.**

Psixika ümumi problemdir. Psixika insan orqanizminin ümumi psixoloji, bioloji və sosial proseslərinin birləşdiyi, ümumiləşdiyi mərkəzdir. Psixikadaxili proseslərin işi nəticəsində orqanizmin ümumi fəaliyyəti yaranır. Ona görə biz yeni Psixologiyanın əsas tədqiqat istiqamətlərində ümumiləşməyə və mərkəzləşməyə xüsusi diqqət yetiririk.

Bu baxımdan, yeni Psixologiya parçalanmış, səpələnmiş Psixoloji tədqiqatları, bunun nəticəsində böhranlı psixoloji elmlər sistemini özündə birləşdirməli, bütöv vahid Psixologiya elmini tamamilə formalaşdıraraq təkmilləşdirməlidir.

Yeni Psixologiyanın ümumiləşdirmə, təkmilləşdirmə funksiyası bütün psixoloji tədqiqatlar sistemində nəzərə alınacaq. Bu fundamental zəruri bütövləşmə yeni Psixologiyanı Psixologiya elmləri və elmlər sistemi daxilində təkmilləşdirməyə, vahidləşdirməyə kömək edəcək.

**Yeni Psixologiyanın əsas vəzifələrindən biri də yuxarıda qeyd etdiyimiz Psixologiya daxilindəki təkmilləşməni, ümumiləşməni dünya Psixologiyasına tətbiq etməkdir.**

Şübhəsiz, dünyada səpələnmiş, parçalanmış Psixologiyanı və oradakı böhranı yaradan real səbəblər var. Məsələn, dünya dövlətlərinin əksəriyyətində Psixologiyaya müxtəlif təriflər verilir. Bütün bunlara son qoymaq, hər şeyi öz adı ilə və həqiqi səviyyəsi ilə qiymətləndirmək üçün ilk növbədə dünya Psixologiyasını təkmilləşdirmək, ümumiləşdirmək və bütövləşdirmək lazımdır. Burada ilk növbədə təxirəsalınmaz addımların atılmasına ehtiyac var. Onlardan biri də Psixologiyaya beynəlxalq səviyyyəli ümumi vahid tərif verməkdir. Hansı ki, biz artıq bu zəruri addımı ataraq Psixologiyaya yeni vahid beynəlxalq tərif verdik.

Bundan əlavə, Psixologiyanın ümumi strukturu və əsas tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi də atılan ilkin mühüm addımlardandır.

Ümumiyyətlə, dünya Psixologiyasını təkmilləşdirmək, ümumiləşdirmək yeni fundamental Psixologiyanın yaranmasına təkan verən mühüm amillərdən biridir. Çünki insan orqanizmində Psixikanın öyrənilməsi, yeni Psixologiyanın yaranması və burada əldə olunan elmi nailiyyətlərin qorunması, qiymətləndirilməsi baxımından dünya Psixologiyasında yeni müsbət dəyişikliklər etmək, oradakı böhranı aradan qaldırmaq çox vacibdir. Yəni biz bu elmi nailiyyətləri, yaranmış əlverişli elmi şəraiti dəyərləndirib onlardan dünya Psixologiyasının təkmilləşdirilməsində, ümumiləşdirilməsində maksimum istifadə etməliyik.

**Yeni Psixologiyanın həyata keçirəcək növbəti əsas vəzifəsi əsrlər boyu adi insanları, alimləri narahat edən bu fundamental suallara cavab tapmaq və onları təhlil edib araşdırmaqdır: insanı idarə edən, onun subyektiv fəaliyyətini tənzimləyən mərkəz hansı orqandır? Həmin orqan harada yerləşir? O necə işləyir?**

Artıq demək mümkündür ki, Psixikanın insan orqanizmində müəyyənləşdirilib öyrənilməsi, yeni Psixologiyanın yaranması yuxarıdakı suallara mütəmadi olaraq cavab tapmağa imkan verəcək. Məsələn, artıq biz Psixikanı insanı idarə edən mərkəz, orqan kimi tədqiq etmişik və bu idarəetmə, tənzimləmə fəaliyyətini əsaslandıran və sübuta yetirən prosesləri aydınlaşdırmışıq. Nəticədə, məlum olub ki, Psixika insanı idarə etmək üçün lazım olan mühüm imkan-

lara, funksiyalara malikdir. Gəlin aşağıda ən mühüm imkanları, funksiyaları bir daha ümumiləşdirək.

**Birincisi,** Psixika sinirlər vasitəsilə bütün insan orqanizmi ilə sıx əlaqələrə malik olduğu üçün o, bütün orqanizmə tezliklə təsir etmək və ondan xəbər tutmaq xüsusiyyətləri qazanır.

**İkincisi,** Psixika ruhi və bioloji mahiyyətlidir. Psixika xarici məkanda olan ruhi və qeyri-subyektiv proseslərlə əlaqə yaratmaq imkanlarına malikdir.

**Üçüncüsü,** Psixika psixoloji, bioloji və sosial proseslərin məcmusundan yarandığı üçün o, özündə insanın yaranma və formalaşma qanunauyğunluqlarını əks etdirir. Mövcud olmaq (Psixikanın ekzistensial şöbəsi) və subyektivləşmək (Psixikanın koqnitiv şöbəsi) insanı formalaşdıran əsas funksional amillərdir. Psixika şöbələrinin bu qarşılıqlı fəaliyyəti nəticəsində insanı formalaşdıran fundamental proseslərin əsasları qoyulur. İnsanı formalaşdıran, idarə edən bu nəhəng psixikadaxili proseslər yeni Psixologiyanın da yaranma əsaslarını təşkil edir.

İnsan yalnız öz Psixikası tərəfindən qavranılır və dərk edilir. Qeyd etdiyimiz kimi, insan yalnız qavranıldığı, dərk edildiyi orqan tərəfindən idarə oluna bilər. Ona görə də "insan" problemi, onun mövcudluğunun fəlsəfi məsələləri və onun idarə olunması prosesləri həmişə yeni Psixologiyanın əsas tədqiqat istiqamətlərinin önündə gedəcək.

**Yeni Psixologiyanın növbəti təbii vəzifəsi Psixikanın real mövcudluq və fəaliyyət statusunu qoruyub saxlamaq, onu yeni elmi nailiyyətlərlə zənginləşdirmək, onun bioloji mövcudluğunu, daxili fəaliyyət xüsusiyyətlərini dəfələrlə sübuta yetirməkdir.**

Psixika mövcuddur, obyektivdir və insan orqanizmindədir. Dünyada, xüsusilə də, Avropada, ABŞ-da Psixikaya sırf subyektiv (ruhi) mahiyyətli qeyri-obyektiv (qeyri-bioloji) varlıq kimi baxırlar. Yəni Psixika yerləşdiyi məkanı, bioloji mövcudluğu və daxili strukturu olmayan zehni-ruhi proseslər sistemi kimi qəbul edilir. Ona görə onlar Psixikaya həmişə müəmmalı varlıq kimi baxaraq onu real problem kimi öyrənməkdən çəkinmişlər.

Biz isə Psixikanı insan orqanizmində müəyyənləşdirib öyrənməklə sübut edirik ki, Psixika realdır, biolojidir, obyektivdir, sub-

yektivdir və daxili fəaliyyət strukturuna, nəhəng iş xüsusiyyətlərinə malik bir orqandır. Bu baxımdan, əldə edilmiş nəticələri qoruyub daha da zənginləşdirmək üçün Psixikanın reallığı, obyektivliyi, daxili struktura malik bir orqan kimi mövcudluğu, bioloji varlığı həmişə yeni Psixologiya tərəfindən öyrəniləcək və müxtəlif istiqamətli tədqiqatlarla sübuta yetiriləcəkdir.

**Yeni Psixologiyanın əsas tədqiqat istiqamətlərindən biri də sinir hüceyrələrinin (neyronların) təbiətinin və fəaliyyət xüsusiyyətlərinin ətraflı şəkildə öyrənilməsi olacaq.**

Məlumdur ki, hüceyrələrin öyrənilməsi həmişə öz mürəkkəbliyi ilə nəzərləri cəlb edib. Bu da təbiidir, hüceyrələr orqanizmin bioloji mövcudluq əsaslarını təşkil edir. Hüceyrələrin öyrənilməsi müasir tibb elmlərinin əsas aparıcı problemlərindən biridir. Lakin bu sahədə sanballı elmi nailiyyətlər əldə etmək çox çətindir. Düzdür, müəyyən vaxtlarda hüceyrələrin öyrənilməsində əldə olunmuş nailiyyətlər haqqında məlumatlar verilir (xüsusilə də, ABŞ-da). Hər halda vaxt və elmi nəticələrin səviyyəsi göstərir ki, onların əksəriyyəti reklam xarakterli, real nəticələri olmayan və maliyyə fırıldaqlarına əsaslanmış, şişirdilmiş cəfəng məlumatlardır. Çünki bu sahədə (xüsusilə də, genetik mühəndisliyi əhatə edən problemlərin öyrənilməsində) real elmi nailiyyətlər qazanmaq olduqca çətin və çox vaxt, zəhmət tələb edən elmi tədqiqat prosesləridir.

Məlumdur ki, neyronlar (sinir hüceyrələri) isə insan orqanizminin ən mürəkkəb, ən aktiv, ən universal hüceyrələridir. Yeni Psixologiya da ilk növbədə Psixikada yerləşən neyronların fəaliyyət xüsusiyyətlərini və onların universal fəaliyyətinin dinamikasını, mahiyyətini müəyyənləşdirən tədqiqatlara üstünlük verəcək. Yəni müəyyən neyronların necə və hansı növ fəaliyyətə aid edilməsini müəyyənləşdirmək, bu fəaliyyəti Psixika şöbələrinin funksiyalarına uyğun dəqiqləşdirməkdir.

Bu baxımdan, Psixika neyroanatomik cəhətdən ətraflı şəkildə öyrənilməlidir. Bu tipli tədqiqatlar bizə Psixikanın fəaliyyətini bioloji və neyroloji cəhətdən əsaslandırmaq üçün də lazımdır.

Şübhəsiz, neyronların öyrənilməsi onların özü kimi mürəkkəbdir. Lakin Psixikanın insan orqanizmində öyrənilməsi, burada yeni tədqiqat metodlarından istifadə olunması yeni Psixologiyaya bu sa-

hədə müəyyən sanballı tədqiqatlar aparmağa və yeni fundamental nəticələr əldə etməyə real imkanlar yaradacaq.

**Yeni Psixologiyanın əsas vəzifələrindən biri də yeni, daha effektiv tibbi-müalicəvi kliniki və profilaktik tədqiqatların aparılması, yeni psixoterapevtik müalicə metodlarının hazırlanması problemlərini əhatə edir.**

İlkin psixoloji məsləhətlərdən, praktik psixologiyadan başlayaraq mürəkkəb kliniki-ekspremental tədqiqatlara qədər bütün proseslərdə, psixoterapevtik müalicə metodlarında Psixika amili, onun fəaliyyət xüsusiyyətləri nəzərə alınmalıdır. Bu amilin nəzərə alınması xüsusilə də, daha ağır psixoneyroloji xəstəliklərin müalicəsində mühüm rol oynaya bilər. Çünki biz artıq Psixika, onun daxili fəaliyyət strukturu və insanı idarəetmə xüsusiyyətləri haqqında ətraflı məlumatlar vermişik. Burada çoxlu elmi nəticələr əldə etmişik. Bu tədqiqat nəticələri, məlumatları Neyroelmlər sistemi ilə qarşılıqlı şəkildə müqayisə olunmalı, işlənməli, daha ümidverici və perspektivli psixoterapevtik, psixonevroloji müalicə metodları hazırlanmalıdır. Ümid etmək mümkündür ki, bu müalicə metodlarından praktik psixologiyada, ilkin psixoloji məsləhətlərdə, psixoterapiyanın müxtəlif sahələrində, hətta neyrocərrahiyyə əməliyyatlarında da istifadə etmək xeyirli olacaq.

Yeni psixoterapevtik müalicə metodlarının hazırlanması çox mürəkkəb farmakoloji problemləri əhatə edir. Burada təbii səbəblər əlbəttə ki, sinir hüceyrələrinin (neyronların) müalicəyə çox passiv reaksiya verməlari ilə bağlıdır. Ümumiyyətlə, neyronları müalicə etmək əksər hallarda qeyri-mümkün olur. Ona görə də yeni Psixologiyada yeni tibbi-psixoloji, psixoneyroloji və psixoterapevtik müalicə metodlarının hazırlanması üçün daha ciddi fundamental tədqiqatların aparılması lazım gələcək.

**Şübhəsiz, insanın mövcudluq və yaşamaq xüsusiyyətlərinin, insan psixologiyasının, insan təbiətinin ətraflı şəkildə öyrənilməsi də yeni Psixologiyanın əsas vəzifələrindən biri olacaq.**

Burada əsas tədqiqat istiqamətləri Psixikada yaranan insan psixologiyasının, mənəviyyatının, xarakterinin adi və yaxud streotipləşmiş xüsusiyyətlərinin öyrənilməsini əhatə edir. İnsan psixologiyası, mənəviyyatı, xarakteri və davranışı Psixikanın ümumi işinin,

onun şöbələrinin fəaliyyət nəticələri kimi həmişə diqqət mərkəzində olmalıdır. Bütün növ xarakter və davranış xüsusiyyətləri Psixikanın şöbələri ilə birbaşa əlaqəli olub həmin şöbələrin funksiyalarına uyğun şəkildə formalaşırlar. Müxtəlif insan Psixikalarında bu proseslər müxtəlif formalarda baş verir. Biz bu tipli problemləri I hissənin "Psixikadaxili ali xarakter və şəxsiyyət tipləri" mövzusunda təhlil edib araşdırmışıq.

Bundan əlavə, Psixika bütöv insan orqanizmini, insan təbiətini özündə əks etdirir. Ona görə Psixikada baş verən kiçik mənfi pozğunluqlar və xəstəliklər birbaşa bütün insan psixologiyasında, onun gündəlik həyatında, davranışında hiss olunur. Bu amil bir daha sübut edir ki, insanın yaşamaq və fəaliyyət xüsusiyyətləri yalnız Psixikaya aiddir və insanı, onun psixologiyasını, mənəviyyatını məhz Psixika idarə edir.

Psixikanın yaş mərhələləri üzrə formalaşması insan xarakterində ona məxsus ali şəxsiyyət xüsusiyyətlərinin yaranmasına səbəb olur. Tam formalaşmış Psixika tam formalaşmış insanı və şəxsiyyəti yaradır.

Bu baxımdan, yeni Psixologiya Psixikada insan psixologiyasının, insanın mövcudluq, yaşamaq xüsusiyyətlərinin yaranma və inkişaf proseslərinin öyrənilməsini yeni tədqiqat metodları ilə daha da zənginləşdirəcək. Bu da birbaşa Psixikanın və insan orqanizminin ətraflı şəkildə öyrənilməsinə xidmət edən zəruri tədqiqat tələbatları sisteminə çevriləcək.

**Sosial-psixoloji problemlərin və sosiallaşma proseslərinin öyrəniməsini də yeni Psixologiyanın əsas vəzifələrindən biri kimi qeyd etmək olar.**

İnsanın sosial varlıq kimi tədqiqi daim diqqət mərkəzində olmalıdır. Çünki hər bir fərd yaşamaq və fəaliyyətdə olmaq üçün dəyişilən mürəkkəb sosiallaşma proseslərini mənimsəməlidir. Təbii, sosial-psixoloji və sosiallaşma prosesləri insana yaşamaq uğrunda mübarizədə lazım olan mühüm əhəmiyyətli proseslərdir. Müasir elmi-texniki inkişaf, zəngin informasiyalar sistemi yaşamaq uğrunda mübarizənin sosial-psixoloji aktivliyini və mürəkkəbliyini daha da artırıb. Ona görə də müasir insanlar tez-tez dəyişən sosial dəyişikliklərə uyğunlaşmada müəyyən problemlərlə üzləşirlər. Nəticədə,

onlar müxtəlif formalı sosial-psixoloji uyğunlaşma problemlərini həll etməli olurlar. Qeyd etdiyimiz bu primitiv amil sosial-psixoloji problemlərin və sosiallaşma proseslərinin mühüm əhəmiyyətini, onların həllinin vacibliyini bir daha ön plana çəkir.

Deməli, yeni Psixologiya insanı sosial varlıq kimi yeni formalarda öyrənməli olacaq. Burada yeni elmi-texniki şərait və müasir informasiyalar sistemi nəzərə alınmalıdır. Məsələn, burada yeni Psixologiya insanları müasir elmi-texnikanın mənfi psixoloji təsirlərindən qorumaq üçün yeni tədqiqat və psixoterapevtik müalicəvi metodlar hazırlamalıdır.

Ümumiyyətlə, sosial-psixoloji problemlər, sosiallaşma prosesləri, sosial-mənəvi dəyərlər, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələləri yeni Psixologiyada ətraflı şəkildə öyrəniləcək əsas tədqiqat obyektləri olacaq. Bunu həm də, Psixikanın sosial-psixoloji və sosial problem kimi öyrənilməsi tələb edir. Bu tipli problemlərin bəzilərini biz I hissənin "Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması" fəslində araşdırmağa çalışmışıq.

Yuxarıda yeni fundamental Psixologiyanın əsas vəzifələri və onları əhatə edən tədqiqat istiqamətlərinin bəziləri haqqında məlumat verildi. Şübhəsiz, yeni Psixologiyanın bunlardan əlavə də çoxlu vəzifələri və araşdıracağı tədqiqat problemləri vardır. Bu problemlər yeni Psixologiyanın genişlənməsi və inkişafı ilə əlaqədar olaraq daha da artacaq.

## 4.2 YENİ PSİXOLOGİYANIN ƏSAS TƏDQİQAT İSTİQAMƏTLƏRİ

Nəzərdən keçirdiyimiz bütün vəzifələrin yerinə yetirilməsində aparıcı rol **tədqiqat istiqamətlərinə** məxsusdur. Yəni bu vəzifələr, problemlər sistemi məhz geniş, ümumi tədqiqatlarla həyata keçirilir. Deməli, biz yeni Psixologiyanın əsas tədqiqat istiqamətlərini müəyyənləşdirməliyik.

Artıq biz yeni Psixologiyanın əsas tədqiqat istiqamətlərini də işləyib hazırlamışıq. Burada yeni Psixolgiyanin bütün əsas vəzifələr

və problemlər sistemi ali tədqiqat istiqamətləri daxilində müəyyənləşdirilib və ümumiləşdirilib. Burada klassik və müasir Psixologiyanın bütün əsas problemlərini əhatə edən tədqiqat prosesləri nəzərə alınıb. Onlar ümumi tədqiqat istiqamətlərində sistemləniblər. Məlum tədqiqat istiqamətləri geniş bir blok-sxemdə öz əksini tapıb. **Şəkil-21, 22 və 23-də** siz yeni Psixolgiyanın əsas tədqiqat istiqamətlərini özündə əks etdirən bu blok-sxemləri görə bilərsiniz. Şübhəsiz, gələcəkdə bu tədqiqat istiqamətlərində təkmilləşmələr və ümumiləşmələrlə əlaqədar müəyyən dəyişikliklər ola bilər.

Biz I və II hissələrdə yeni Psixologiyanın yuxarıda qeyd edilmiş əsas vəzifələrini əhatə edən müəyyən mühüm problemlərini fundamental ümumi metodik yanaşma ilə araşdırmağa çalışmışıq. Deməli, artıq biz yeni fundamental Psixologiyanın əsaslarını, bünövrəsini yaratmışıq.

Şübhəsiz, gələcəkdə insan orqanizmində Psixikanın öyrənilməsi və yeni Psixologiyanın tam formalaşması ilə əlaqədar olaraq geniş tədqiqat yenilikləri, dəyişiklikləri olacaq. Hələlik isə yeni Psixologiyanı formalaşdırmaq, inkişaf etdirmək üçün yuxarıda qeyd etdiyimiz ilkin əsas vəzifələri və tədqiqat istiqamətlərini həyata keçirmək lazımdır. Bu sahədəki çətinliklərdən, təzyiqlərdən qorxmayaraq, səbirlə fundamental tədqiqatları davam etdirərək irəli getmək bizə, Psixikanı ətraflı şəkildə öyrənməyə və yeni həqiqi Psixologiyanı yaratmağa imkan verən yeganə mübarizə metodudur.




**Psixikanı əhatə edən əsas tədqiqat istiqamətləri**
**Şəkil-21**




**Yeni Psixologiyanın universal tərkibli ümumi tədqiqatlar sistemi**
**Şəkil-22**




**Yeni Psixologiyanı əhatə edən psixoloji elmlərin ümumi sistemi**
**Şəkil-23**

# 5. YENİ FUNDAMENTAL PSİXOLOGİYA VƏ ELMLƏR SİSTEMİ

## 5.1 YENİ PSİXOLOGİYA VƏ ELMLƏR SİSTEMİ

Məlumdur ki, yeni Psixologiyanın yaranma əsasında Psixikanın insan orqanizmində müəyyənləşdirilib öyrənilməsi durur. Bu baxımdan, yeni Psixologiyanın yaranması elmlər sisteminin tələbat duyduğu zəruri elmi prosesdir. Çünki Psixikanın tədqiqi nəinki Psixologiya elmlərinə, həm də insanı öyrənən bütün elmlərə müsbət təsir göstərərək orada müəyyən mühüm problemlərə yenidən daha sanballı şəkildə yanaşmağı tələb edəcək. Bu amilin də fundamental səbəbləri vardır. Bu səbəbləri aşağıda ümumiləşdirməyə çalışaq.

**İlkin əsas səbəb** ondan ibarətdir ki, Psixika ilk dəfə olaraq insan orqanizmində müəyyənləşdirilib öyrənilmişdir. Psixika insanı idarə edən və onun subyektiv fəaliyyətini tənzimləyən ali orqan kimi tədqiq edilir. Onun insan orqanizmində fəaliyyət dairəsi də müəyyənləşib. Təbii ki, bu amilin özü insanı öyrənən elmlər sistemində müəyyən fundamental problemlərə yenidən yanaşmağın əsaslarını qoyacaq.

**İkinci əsas səbəb** Psixika və beyin problemi ilə bağlıdır. Biz müəyyən etmişik ki, Psixika beyni idarə edir. Bu amil artıq beyni öyrənən bütün elm sahələrində (Neyroelmlər sistemində) əsas problemlərə yenidən, daha ətraflı yanaşmağı tələb edəcək və yeni yaranmış Psixologiya ilə qarşılıqlı əlaqələri, elmi əməkdaşlığı genişləndirəcək.

**Üçüncü əsas səbəb** ümumi elmi və fəlsəfi qanunauyğunluqlar sistemi ilə əlaqədardır. Bura əsasən insanın formalaşma və inkişaf qanunauyğunluqları daxildir. Bu qanunauyğunluqlar sistemi psixoloji, bioloji və sosial prosesləri əhatə edir. Psixikanın öyrənilməsi bu psixoloji, bioloji və sosial prosesləri əhatə edən qanunauyğunluqlarda fundamental dəyişikliklərə səbəb olacaq. Məsələn, Psixikanın insanı idarə edən mərkəz kimi öyrənilməsi insanın formalaşma və inkişaf qanunauyğunluqlarında təbii dəyişikliklər edir. Bu elmi-fəlsəfi qanunauyğunluqlardakı dəyişikliklər ümumi psixoloji, bioloji və sosial mahiyyətli olduğundan bütün elmlər sistemini əhatə edəcək.

Yuxarıda Psixikanın öyrənilməsi, yeni Psixologiyanın yaranmasının elmlər sisteminə müsbət təsirini sübuta yetirən üç ümumi səbəbi nəzərdən keçirtdik. Bu səbəblərin sayını artırmaq da mümkündür. Lakin Psixologiyanın digər elmlərlə qarşılıqlı əlaqələrini - və bu əlaqələrin müsbət əhəmiyyətini təhlil etmək də zəruridir. Burada müəyyən ümumi fikirlər irəli sürülə bilər. Məsələn, yeni Psixologiyanın yaranması ilk növbədə **Neyroelmlər** sisteminin perspektivli inkişafına əlverişli şərait yaradacaq. Buna Psixikanın və beynin ayrı-ayrılıqda fəaliyyət statuslarının və özünəməxsus ali funksiyalarının müəyyənləşdirilməsi imkan verəcək. Xüsusilə də, baş beynin və beyin yarımkürələrinin neyroanatomik baxımdan öyrənilməsində yeni nailiyyətlər əldə oluna bilər.

Bundan əlavə, Psixika həm də bioloji və sosial problem kimi öyrənildiyi üçün yeni Psixologiya bütün **bioloji və sosial elmlərlə** qarşılıqlı tədqiqat münasibətlərində olacaq. Getdikcə, bu qarşılıqlı münasibətlər zərurəti bioloji və sosial elmlər üçün daha geniş səpkidə aktuallıq kəsb edəcək. Xüsusilə də, **Biologiya** və **Sosiologiya** elmləri ilə qarşılıqlı tədqiqat əlaqələri yüksək səviyyəyə çatacaq. Bu elm sahələrində Psixika ilə bağlı ümumi universal problemləri əhatə edən yeni qarşılıqlı tədqiqat istiqamətləri yaranacaq. Bu da sanballı elmi nailiyyətlərin əldə olunmasına təkan verəcək.

Yeni fundamental Psixologiya **Fiziologiya** və **Neyrologiya** elmləri ilə daha sıx qarşılıqlı tədqiqat münasibətlərində olacaq. Əslində, yeni Psixologiya Fiziologiya və Neyrologiya elmləri ilə tərkib hissəli qarşılıqlı elmi əlaqələrə malikdir. Çünki əksər elmi tədqiqat istiqamətlərində Psixikanın ətraflı şəkildə öyrənilməsi fizioloji və neyroloji tədqiqatlarla üst-üstə düşür. Bundan əlavə, Psixikanın öyrənilməsində fizioloji, neyrofizioloji və neyroloji tədqiqatlarda qazanılmış tarixi elmi nailiyyətlərdən istifadə olunmuşdur. Bu elmi nailiyyətlərdən yeni Psixologiyada aparılan tədqiqatlarda da istifadə olunacaq və onlara istinad ediləcək.

Yeni Psixologiya **Fəlsəfə** elmləri ilə fundamental qarşılıqlı əlaqələrə malik olacaq. Bura Fəlsəfəyə yaxın digər sosial elmləri də daxil etmək olar. Bu baxımdan, yeni Psixologiyada insanın mahiyyətini, təbiətini, ali zehni prosesləri, Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması proseslərini əhatə edən çoxlu problemlər var-

dır. Əslində, bunlar tarix boyu insanları narahat edən ciddi fəlsəfi problemlər olmuşdur.

Fəlsəfə elmlərinin yeni Psixologiya ilə elmi əlaqələrini aktuallaşdıran amillər təkcə bunlar deyil. Burada insan, Psixika və təbiət münasibətləri, psixofiziki problemlər, məkanda psixi informasiyaların mövcudluğu kimi geniş aktual problemlər vardır. Bu tipli problemlərin mahiyyəti, universallığı Psixologiya və Fəlsəfə elmlərini, onların geniş tədqiqatlar sistemini tam əhatə edir.

İnsan orqanizmində Psixikanın öyrənilməsi, yeni Psixologiyanın yaranması **Fizika** elmləri ilə geniş qarşılıqlı əlaqələrin və yeni fundamental tədqiqat istiqamətlərinin əsaslarını qoyacaq. Bunun da müəyyən əsaslandırıcı fundamental səbəbləri var. Aşağıda onları araşdırmağa çalışaq.

İlk növbədə nəzəri cəlb edən amil Psixikanın insanı idarə edən mərkəz kimi ruhi və psixofiziki mahiyyətli olmasıdır. Psixika xarici məkanla, təbiətlə sıx qarşılıqlı əlaqədədir. Məlumdur ki, Psixika xüsusilə də, onun ekzistensial şöbəsi xarici məkanla ruhi və qeyri-subyektiv ruhi mahiyyətli qarşılıqlı əlaqələrə malikdir. İnsan orqanizminin təbiətlə qarşılıqlı münasibətlərdə olması təbiidir. Çünki insan canlı kimi təbiətin ayrılmaz bir hissəsidir.

Lakin insan orqanizmində Psixikanın öyrənilməsi müəyyən qlobal mahiyyətli problemlərə aydınlıq gətirdi. Məhz, Psixika xariclə, təbiətlə qarşılıqlı əlaqədə olaraq ilkin təsirləri hiss edir. Bu, çox vacib bir amildir. Çünki bu işi yalnız insanı idarə edən mərkəz, orqan yerinə yetirə bilər. Fəaliyyət göstərmək, insanı idarə etmək üçün Psixika xarici aləmin psixi və fiziki proseslərinin təsirlərinə məruz qalır və bu qarşılıqlı münasibətlər sistemindən istifadə edir.

Göründüyü kimi, yuxarıdakı amillər yeni Psixologiyanın Fizika elmləri ilə qarşılıqlı əlaqələrinin genişlənməsini tələb edir. Məsələn, Psixikanın ətraflı şəkildə öyrənilməsi canlılarla (insanlarla) təbiət arasında olan yeni psixi və psixofiziki proseslərin olmasını meydana çıxarır. Bu tipli fundamental psixofiziki problemlərin tədqiqi elmlər sistemi üçün də müsbət əhəmiyyət kəsb edəcək. Məlum problemləri ətraflı şəkildə öyrənmək üçün yeni **Psixofizikanın** yaranması zərurəti meydana çıxacaq. Yeni psixofiziki problemləri tədqiq etmək üçün gələcəkdə bu haqda ciddi şəkildə düşünmək lazımdır.

Bundan əlavə, yeni Psixologiyanın **Astrofizika** ilə də geniş qarşılıqlı tədqiqat münasibətlərinə malik olması müsbət əhəmiyyət daşıyacaq. Burada əsas tədqiqat istiqamətləri məkan daxilində olan psixi və psixofiziki inforamasiyaların mövcudluq və fəaliyyət xüsusiyyətlərinin öyrənilməsini əhatə edəcək.

Yeni Psixologiyanın tibb elmləri ilə qarşılıqlı tədqiqat əlaqələri yüksək səviyyədə olacaq. Psixikanın öyrənilməsi ilə bağlı olaraq insanın anatomik quruluşunda yaranan dəyişiklikləri nəzərə alaraq burada mövcud olan ümumi problemləri qarşılıqlı şəkildə tədqiq etmək zərurəti meydana çıxacaq. Xüsusilə də, müalicəvi əhəmiyyət daşıyan **Psixiatriya, Psixoterapiya** və **Tibbi Psixologiya** kimi elm sahələri ilə yeni Psixologiyanın qarşılıqlı tədqiqat münasibətləri daha müsbət elmi nailiyyətlər qazanmağa imkan verəcək. Təbii ki, burada əsas problem psixoloji və neyroloji xəstəliklərə qarşı mübarizədə səylər göstərmək və yeni kliniki, profilaktik müalicə metodlarını işləyib hazırlamaqdır.

## 5.2 YENİ PSİXOLOGİYA VƏ PSİXOLOJİ ELMLƏR SİSTEMİ

Yeni fundamental Psixologiyanın yaranması Psixologiya elmləri daxilində də yeniləşmə və inkişafa səbəb olacaq. Məsələn, əsasən **Ümumi Psixologiyada (General Psychology)** biliklərin və tədqiqatların təkmilləşməsi, yeniləşməsi zərurəti yaranacaq.

**Neyropsixologiya** Psixikada neyroloji və neyroanatomik xüsusiyyətlərin öyrənilməsi ilə bağlı olaraq geniş inkişaf perspektivləri əldə edəcək. Psixikanı neyroloji problem kimi öyrənmək imkanları daha aktuallıq kəsb edəcək.

Psixika daxilində yaşamaq xüsusiyyətlərinin yaranmasının yaş mərhələləri üzrə öyrənilməsi **Yaş Psixologiyasının** bir psixoloji elm sahəsi kimi genişlənməsinə, inkişafına imkan verir. Buraya şəxsiyyətin yaranması və formalaşması proseslərini də əlavə etmək olar. Biz I hissədə Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanma mərhələlərini blok-sxemdə təsvir etmişik. Bu blok-sxem Yaş Psixologiyası üçün əsas yeni tədqiqat istiqaməti sayıla bilər.

Yeni Psixologiyada **biopsixoloji** problemlərin öyrənilməsinə xüsusi diqqət yetirilə bilər. Şübhəsiz, Psixika həm də bioloji problem olduğundan orada psixoloji və bioloji problemlər tərkib hissəli qarşılıqlı proseslər kimi tədqiq ediləcək. Bu da **Biopsixologiyada** cəmləşərək onun genişlənməsinə və inkişafına səbəb olacaq. Psixikanın öyrənilməsi yeni istiqamətli biopsixoloji tədqiqatları reallaşdıracaq. Heyvanlar da Psixikaya malikdirlər. Deməli, Psixikanın öyrənilməsi və orada əldə olunan nəticələri bütün heyvanlara da aid etmək olar. Bunun nəticəsində də **Zoopsixologiyanın** yeni fundamental yeni fundamental tədqiqatlarla zənginləşməsi, inkişafı təbii prosesə çevrilir. Burada da yeni, daha perspektivli Zoopsixologiyanın yaranmasına ehtiyac duyulacaq.

Psixologiyanın ən geniş elmi sahələrindən biri olan **Sosial Psixologiyada** böyük tərəqqinin və inkişafın olması şübhəsizdir. Yeni Psixologiyada təbii olaraq sosial-psixoloji problemlərin və sosiallaşma proseslərinin tədqiqinə xüsusi diqqət yetiriləcək. Ona görə biz sosiallaşma və sosial-psixoloji problemlər mövzusuna gələcəkdə də bir daha toxunacağıq.

İnsan orqanizmində Psixikanın öyrənilməsi, yeni Psixologiyanın yaranması ümumi tədqiqat metodikalarının işlənib hazırlanmasına geniş imkanlar açacaq. Psixika ümumi, universal problem olduğundan bu tədqiqat metodikalarında psixoloji, bioloji və sosial proseslər nəzərə alınacaq. Elə bu amil yeni Psixologiyanın digər elmlərlə sıx qarşılıqlı əlaqələrdə işləməsinə təbii zərurət yaradır. I və II hissələrdə Psixikanı öyrənərkən məhz, bu cür ali ümumi metodik yanaşmadan istifadə etmişik.

Bundan əlavə, biz daha xatırladırıq ki, Psixika ümumi mahiyyətli problem olduğundan yeni Psixologiyanın bütün bioloji, neyroloji və sosial elmlərlə qarşılıqlı şəkildə işləməsi zəruri, məcburi bir elmi proses olacaq.

İnanırıq ki, insan orqanizmində Psixikanın öyrənilməsinin, yeni fundamental Psixologiyanın yaranmasının müsbət təsirləri tezliklə bütün elmlər sistemində, onların ümumi tədqiqat istiqamətlərində və əldə etdikləri elmi nailiyyətlərdə hiss olunacaq.

Yuxarıda yeni psixologiyanın yaranması ilə bağlı apardığımız ümumi təhlilləri və söylədiyimiz mülahizələri ümumiləşdirərək aşağıdakı məntiqi yanaşmanı irəli sürmək mümkündür:

**İndiyə qədər mövcud olan müasir psixologiya elmi Psixikanın insan orqanizmində müəyyənləşdirilib öyrənilməsi və qeyri-elmi, qeyri-həqiqi fundamental əsaslara malik olması ilə əlaqədar olaraq iflasa uğrayacaq və getdikcə gündəmdən çıxacaq, öz elmi əhəmiyyətini itirəcək və gələcəkdə elmlər sistemində yalnız tarixi məlumat kimi qorunub saxlanılacaq.**

# 6. YENİ PSİXOLOGİYADA RUH VƏ ZEHN PROBLEMLƏRİ

Yeni fundamental Psixologiyada Psixikadan sonra gələn ən mühüm, mürəkkəb problemlər **ruh** və **insan zehni (idrakı)** problemləridir. Bu problemlər tərkib hissəli proseslər sistemi kimi Psixika daxilindədirlər. Onlar Psixikada fəaliyyət göstərirlər və oradan idarə olunurlar. Lakin ruh və insan zehni problemləri arasında fundamental fərqlər vardır.

Tarix boyu ruh və zehn mürəkkəb, müəmmalı problemlər kimi nəzəri cəlb edib. Onlar haqqında alim filosoflar yalnız müxtəlif fikirlər və mülahizələr irəli sürməklə kifayətləniblər. İndi isə Psixikanın insan orqanizmində müəyyənləşdirilib öyrənilməsi ruh və insan zehni problemlərinə də yeni formalarda yanaşmağa əlverişli şərait yaradıb.

Düzdür, ruh və zehn problemlərini tam öyrənmək ağlasığmazdır, qeyri-mümkündür. Elə ona görə də biz də imkan daxilində onlar haqqında qısa və ümumi danışacağıq. Çünki ruh və insan zehni problemləri haqqında fundamental psixoloji və neyropsixoloji elmi nailiyyətlər əldə etmək çox çətindir. Lakin problemlərə yeni yanaşma onların lazım olan imkan çərçivəsində öyrənilməsinə ümidləri artırır. Məsələn, yeni Psixologiyada ruh və insan zehni problemləri ayrı-ayrı problemlər kimi qəbul olunur və tədqiq edilir. Ümumiyyətlə, yeni Psixologiyada Psixika, beyin, ruh, zehn ilkin olaraq ayrı-ayrı problemlər kimi qəbul edilərək öyrənilir. Baxmayaraq ki, onlar tərkib hissəli proseslər sistemidir. Hansı ki, "tərkib hissəlilik" amili sonradan tədqiqat proseslərində hökmən nəzərə alınır və heç vaxt bu amil diqqətdən kənarda qala bilməz. İnsan orqanizmi özü və ayrı-ayrılıqda onun tərkib hissəsinə daxil olan bütün orqanlar tərkib hissələrə malikdirlər. Deməli, "tərkib hissəlilik" bütün insan orqanizminə aid olan mahiyyət və mövcudluq qanunauyğunluğudur.

Bu baxımdan, Psixikanın, beynin, ruhun, insan zehninin ayrı-ayrı problemlər kimi öyrənilməsi və "tərkib hissəlilik" amili yeni Psixologiyanın əsas tədqiqat metodikalarında həmişə diqqət mərkəzində olacaq. Aşağıda bu metodik yanaşmanı nəzərə almaqla yeni Psixologiyanın ruh və insan zehni problemlərinə olan münasibətini məntiqli qısa mülahizələrlə ümumiləşdirək.

## 6.1 YENİ PSİXOLOGİYADA RUH PROBLEMİ

Xatırladırıq ki, I hissədə biz ruh probleminə Psixikanın öyrənilməsi baxımından toxunmuşuq. İndi isə ruh haqqında olan fikir və mülahizələrimizi həm Psixika, həm də yeni Psixologiya baxımından daha da dəqiqləşdirəcəyik.

Ruh yeni Psixologiya, Psixika və psixoloji elmlər sistemi üçün aşağıdakı formalarda mövcuddur. Ruh haqqında aşağıdakı ümumiləşdirilmiş mülahizələr yeni Psixologiyanin ruhi və psixi problemləri ilə bağlı bütün tədqiqat istiqmətlərində əsas nəticələr kimi nəzərə alınıb və bundan sonra da əsas istinad amilləri sayılacaq.

**1. Ruh vardır və o həm də insan orqanizmində mövcuddur.**
**2. Ruhun insan orqanizmində yerləşdiyi və idarə olunduğu məkan Psixikadır. Ruh yalnız Psixikadan və yaxud Psixikadan sonra bütün orqanizmə yayılır. Psixika ruhun daşıyıcısıdır.**
**3. İnsan xarici aləmlə yalnız Psixikası vasitəsilə və orada olan ruhi (psixi) proseslərlə əlaqə saxlayır.**
**4. Ruh insan orqanizminin enerji daşıyıcısıdır və əsas enerji mənbəyidir. Biz onu "psixi enerji" kimi də qəbul edə bilərik.**
**5. Ruh gözlə görünməyən, real bioloji anatomik əsasları olmayan, lakin Psixika daxilində yerləşən, orada fəliyyət xüsusiyyətləri olan mövcudluq və proseslər sistemidir.**
**6. İnsan orqanizminin bioloji mövcudluq əsasında (yəni hüceyrələrində) və mahiyyətində (Psixikasında, psixologiyasında, mənəviyyatında) ruh vardır. Çünki insan həqiqətən də ruhi və bioloji varlıqdır. Bu yanaşma Psixikaya malik bütün canlılara aiddir. Canlıları idarə edən Psixikanın özü də ruhi və bioloji varlıqdır.**
**7. Ruhun insana bəxş etdiyi ən nəhəng və ən əhəmiyyətli proseslər sistemi yalnız insana məxsus olan zehndir, idrakdır. Zehn insan orqanizmində həyati əhəmiyyətli subyektiv əsasları yaradır.**
**8. Psixi proseslərin və psixi informasiyaların fəaliyyət mənbəyində ruh durur. Deməli, onlar həm də ruhi proseslər və**

informasiyalardır. Ruh psixi olan bütün proseslərin mövcudluq və fəaliyyət əsaslarını təşkil edir. Artıq bunu qədim tarixi təcrübə və uzun illər boyu irəli sürülən kütləvi mülahizələrin məntiqi sonluğu da təsdiqləyir.

9. Ruhun orqanizmdə "gizləndiyi", fəaliyyət göstərdiyi məkan Psixika daxilində yerləşən sinir hüceyrələri (neyronlar) ola bilər. Deməli, ruh həm də neyropsixoloji problemdir. Bundan əlavə, ruh Psixika vasitəsilə bütün orqanizmə yayılır. Ruh orqanizmin bütün hüceyrələrində və ən kiçicik hissəciklərində belə vardır. Ona görə ruhu orqanizmin enerji mənbəyi, dayaq nöqtəsi və hərəkətverici amili saymaq mümkündür. Ruh bizim psixoloji, bioloji və fiziki fəaliyyətimizin, davranışımızın enerji mənbəyidir. Çünki ruh psixi proseslərin, psixi informasiyaların, hüceyrələrin mövcudluq və fəaliyyət əsasını təşkil edir.

10. Ruh materialist və idealist fikirlərə əsasən mövcud ola bilməz. Ruhun nəhəng, mürəkkəb mövcudluq və fəaliyyət mahiyyəti həmin fikirlərə uyğun deyil və onları rədd edir.

11. Ruhun necə və harada yaranması, daxili strukturu, təbiəti haqqında heç bir əsaslı, obyektiv elmi məlumatlar yoxdur. Biz yalnız ümumi anlamda ruhu yalnız Psixikaya aid edirik. Ruhi prosesləri incəlikərinə qədər araşdıra bilmədiyimiz üçün onun Psixikadakı ümumi funksiyalar sistemini araşdırırıq. Yəni Psixikada da ruhun mövcudluq və fəaliyyət xüsusiyyətlərinin forması, dinamikası məlum deyil. Deməli, burada sadə bir məntiqi anlam yaranır: hələlik ruh bizim üçün heç sırf subyektiv mahiyyətli də deyil və o, bəşəri problem olaraq qalır. Ümidsizliyə qapılmamaq üçün təkcə onu demək mümkündür ki, ruh haqqında deyilənlərin hamısı Psixikaya aiddir və insan üçün nəzərdə tutulmuş müəyyən növ ruhi proseslərin hamısı Psixikadan tənzimlənərək oradan da idarə olunur.

12. Ruh insanların, bütün canlıların dünya və təbiətlə mübarizə aparması üçün və onlarla həyati əhəmiyyətli qarşılıqlı əlaqələr yaradıb yaşaması üçün bizlərə müəyyən səviyyədə verilmiş nəhəng və əvəzolunmaz mövcudluq formasıdır.

## 6.2 YENİ PSİXOLOGİYADA ZEHN PROBLEMİ

Qeyd etdiyimiz kimi, ruh və zehn problemləri fundamental fərqlərə malkdirlər. Təbii ki, ilkin fərq odur ki, ruh daha geniş, böyük anlayış və mövcudluq formasıdır. Bundan əlavə, ruhun yaranma mənbəsi məlum olmasa da zehnin Psixikada yaranmasını və fəaliyyət göstərməsini söyləmək mümkündür. Nəticə etibarilə bu tipli fərqlər çoxdur. Ümumi olanı odur ki, zehn ruhi mahiyyətlidir və ruh da, zehn də Psixikadadır və oradan idarə olunurlar.

İndi isə zehn haqqında olan fikir və mülahizələrimizi ümumiləşdirək. Xatırladırıq ki, I və II hissələrdə zehn haqqında çox danışmışıq. Gəlin həmin yanaşmaları, fikirləri daha da dəqiqləşdirək.

Deməli, insan zehni yeni Psixologiya, Psixika və psixoloji elmlər sistemi üçün aşağıdakı formalarda mövcuddur.

**1. İnsan zehni insan Psixikasında yaranır, orada fəaliyyət göstərir və oradan idarə olunur.**

**2. İnsan zehni ruhi mahiyyətə, ruhi mövcudluq və fəaliyyət xüsusiyyətlərinə malikdir.**

**3. Zehnin ruha nisbətən insan orqanizmində mahiyyəti, fəaliyyət xüsusiyyətlərinin səviyyəsi və forması qismən məlumdur.**

**4. İnsan zehni subyektivdir, yalnız insanlara məxsusdur və insan Psixikasının nəhəng əvəzolunmaz yaradılışıdır.**

**5. Zehn insan Psixikasının koqnitiv şöbəsində (sol yarımkürədə) yerləşir və orada subyektiv mahiyyətli məntiqli fəaliyyət göstərir.**

**6. İnsan zehni Psixikada xüsusilə də, koqnitiv şöbədə yerləşən sinir hüceyrələrinin (neyronların) fəaliyyət məhsuludur. Zehn ilk növbədə psixoloji və neyropsixoloji problemdir.**

**7. İnsan zehni tərkib hissəyə malikdir. Psixi proseslərin tərkib hissəsinə daxil olan bütün ali zehni proseslər – şüur, nitq, təfəkkür, hafizə, təxəyyül, qavrayış, digər koqnitiv proseslər zehnin də tərkib hissəsinə daxildirlər.**

**8. Zehni Psixikada tam formalaşdıran orada yaranan psixi proseslər sistemidir. Psixi proseslərin ilkin ən nəhəng məhsulu insan zehninin, idrakının əsaslarını yaratmaqdır.**

**9. Zehn insanı hərəkətə, fəaliyyətə təhrik edən subyektiv xüsusiyyətlər sistemidir. Zehn bizim əqli və fiziki fəaliyyətimizin, davranışımızın məntiqli subyektiv mənbəsidir.**

**10. Zehn insanın yaşamaq, yaratmaq və inkişaf etdirmək kimi ali fəaliyyət xüsusiyyətlərini yaradır, tənzimləyir. Zehn dünya və təbiətlə mübarizə aparmaq üçün bir canlı kimi insana verilmiş ən aktiv və ən məhsuldar mübarizə metodudur.**

İnsan orqanizmində Psixikanın müəyyənləşdirilib öyrənilməsi zehnin ətraflı şəkildə tədqiqinə geniş şərait yaratmalıdır. Gələcəkdə yeni Psixologiya məhz, bu imkanlardan maksimum səviyyədə bəhrələnməyə çalışacaq. Psixikada insan zehninin neyroanatomik və neyropsixoloji əsaslarının tapılması üçün daha perspektivli tədqiqat metodları hazırlana bilər.

# 7. YENİ PSİXOLOGİYADA SOSİAL-PSİXOLOJİ PROBLEMLƏR

Psixikanın, insanın sosiallaşması, yaşamaq xüsusiyyətlərinin sosial-psixoloji əsasları, cəmiyyətdə insanların sosial-psixoloji davranışının formalaşması kimi proseslər şübhəsiz, yeni Psixologiyanın əsas tədqiqat problemləri olacaq.

Keçmiş psixoloji yanaşmalardan fərqli olaraq yeni Psixologiyada bütün problemlərin öyrənilməsi ilk növbədə Psixikanın fəaliyyət dairəsinə aid olacaq və onların tədqiqi öz mövcudluq əsaslarını birbaşa Psixikadan götürəcək. Deməli, sosiallaşma proseslərinin, sosial-psixoloji problemlərin öyrənilməsi də məhz, Psixikadan başlayacaq. Psixika həm də sosial problem olduğundan yeni Psixologiyada sosiallaşma prosesləri, sosial-psixoloji problemlər ana xətli tədqiqat istiqamətlərinə aid ediləcək. Bu da təbiidir. İnsanlar sosial-psixoloji varlıqlar kimi həmişə Psixologiyadan öz gündəlik sosial həyatlarını aktiv və sağlam şəkildə qurmaq üçün kömək gözləyirlər. Müasir dövrdə insanların sosial aktivliyi və sosial tələbatları daha da zənginləşib. Bu da təbii psixoloji problemlərin yaranmasına səbəb olur. Ona görə yeni Psixologiyada müasir insanın dünyadakı aktiv, geniş sosial proseslərə uyğunlaşmada üzləşdiyi problemləri həll etmək üçün birbaşa Psixika ilə bağlı olan yeni tədqiqat və psixoterapevtik müalicəvi metodlar hazırlana bilər. Bunun üçün ilk növbədə müasir insan Psixikasının yeni fundamental əsasları və sosial-psixoloji mahiyyət daşıyan mövcudluq xüsusiyyətləri müəyyənləşdirilməlidir.

İlk növbədə biz insanın ümumi sosiallaşma proseslərinə xüsusi diqqət yetirməliyik. İnsan mövcud olub yaşamaq üçün hökmən sosiallaşmalıdır. Bu təbiidir, sosiallaşma insanın mövcud olmaq və yaşamaq uğrunda mübarizəsinin əsas formalarından biridir.

Sosiallaşma prosesləri bütün insan ömrünü əhatə edir. Bu baxımdan, insanın sosiallaşmasında yaş dövrləri üzrə sistemlədiyimiz Psixikada yaşamaq xüsusiyyətlərinin formalaşma mərhələləri mühüm rol oynayır. Bütün bu sosial proseslər sisteminin formalaşması nəticəsində insan Psixikasında "sosial mən" yaranır. Şübhəsiz, sosial-psixoloji proseslər sistemi "sosial mən"in əsaslarını təşkil edir.

Bundan əlavə, insan yaşamaq uğrunda sosial-psixoloji mübarizənin əsaslarını təşkil edən özünəməxsus ali xarakter və şəxsiyyət kimi davranış xüsusiyyətlərinə də malik olur. Hansı ki, biz bu xüsusiyyətlər sistemini ali xarakter və şəxsiyyət tiplərində ümumiləşdirmişik **(Bax: I Hissə. "Psixikadaxili ali xarakter və şəxsiyyət tipləri").** Yuxarıda qeyd etdiyimiz sosiallaşma proseslərinin və sosial-psixoloji problemlərin əksəriyyəti kitabın I hissəsinin 7, 8 və 9-cu fəsillərində də araşdırılıb. Orada Psixikanın sosiallaşması və psixikadaxili sosial-psixoloji proseslərin mahiyyəti təhlil olunub. Bundan əlavə, orada Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələləri blok-sxemdə təsvir edilib. Demək mümkündür ki, biz artıq insan Psixikasının ilkin sosial və sosial-psixoloji əsaslarını müəyyənləşdirərək onun əsas tədqiqat istqamətlərini yaratmışıq.

Əsas sosial-psixoloji proseslər sisteminin məcmusu kimi daha çox diqqəti cəlb edən **xarakter** və **şəxsiyyət** problemlərinə bir daha toxunmaq istərdik. I hissədə xarakter və şəxsiyyət problemləri, onların müxtəlif xüsusiyyətlərini əhatə edən tipləri birbaşa Psixika və Psixika şöbələri ilə əlaqələndirilir. İndi isə biz bu problemlərə yeni fundamental Psixologiyanın yaranması baxımından onlar haqqında olan fikir və mülahizələri ümumiləşdirmək üçün yenidən toxunacağıq.

## 7.1 YENİ PSİXOLOGİYADA XARAKTER PROBLEMİ

Xarakter insan Psixikasında yaranan fərdi fəaliyyət və davranış xüsusiyyətlərinin məcmusudur. Hər bir insan özünəməxsus Psixikaya və təkrarolunmaz xarakterə malikdir. Psixikada fərdi fəaliyyət və davranış xüsusiyyətlərinin formalaşması şəxsin doğulduğu elə ilk günlərdən başlayır. Bu formalaşma yaşamaq mərhələləri üzrə insanın biolojiləşməsinin və sosiallaşmasının bütün proseslərini əhatə edir.

Beləliklə də, xarakterik fəaliyyət və davranış xüsusiyyətlərinin formalaşması Psixikadakı mərhəli fəaliyyət proseslərinin təsiri altında baş verir. Bu özünəməxsus fərdi formalaşma xüsusiyyətləri-

nə Psixikanın ümumi – psixoloji, bioloji və sosial proseslər sistemi daxildir. Məsələn, Psixikanın zehni aktivliyi həmin şəxsin xarakterində müəyyən fərqləndirici sosial-psixoloji xüsusiyyətlər yaradır. Əksinə Psixikası daha çox fiziki fəaliyyət aktivliyinə meyilli olan insanların xarakterində isə digər fərqli xüsusiyyətlər formalaşır və sairə. Bu formalaşma prosesləri təbii proseslərdir. Çünki "insan", "Psixika" və "xarakter" məfhumları özünəməxsus təkrarolunmaz xüsusiyyətlər sistemidir.

Xarakterin yaranıb tam təkmilləşməsi Psixikada zehni, fiziki və sosial fəaliyyət xüsusiyyətlərinin artıq formalaşması deməkdir. Çünki xarakter bizim fəaliyyət və davranışımızın təhrikedici subyektiv motivlərini təşkil edir. Yəni xarakterimiz yaranmış şəraitə uyğun olaraq bizi yaşamağa, sosial fəaliyyətə təhrik edən təbiiləşmiş psixikadaxili proseslər sistemidir. Ona görə də insanlar cəmiyyət daxilində öz xarakterlərinə uyğun fəaliyyət göstərir və yaşayırlar.

Psixikada xarakterin yaş mərhələləri üzrə formalaşması açıq şəkildə hiss olunur. Onun üçün də hər yaş mərhələsinin öz xarakterik xüsusiyyətləri olur. Psixika təkmilləşdikcə, inkişaf etdikcə xarakter də ümumiləşir, bütövləşir. Ali xarakter xüsusiyyətləri streotipləşir, ali xarakter tipləri isə tam formalaşır. I hissədə məhz, bu cür ali xarakter tiplərini psixikadaxili prosesləri nəzərə almaqla təsnifləmişik **(Bax: I Hissə, "Psixikadaxili ali xarakter və şəxsiyyət tipləri")**.

Bütün bunlara baxmayaraq, xarakter cəmiyyətdə əsasən sosial-psixoloji problem kimi nəzəri cəlb edir. Ona görə də yeni Psixologiyada xarakter məfhumunu əhatə edən sosial-psixoloji problemlər sistemi ilkin tədqiqatlar amili kimi daim diqqət mərkəzində olacaq.

İndi isə xarakter haqqındakı fikirləri və əldə olunmuş nəticələri ümumiləşdirərək aşağıda ona sadə bir tərif vermək mümkündür.

**Xarakter – Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələlərində formalaşan, hər bir fərd üçün özünəməxsus streotipləşmiş xarakterik proseslər sistemi kimi yaranan, fərdi fəaliyyətə və davranışa təhrik xüsusiyyətlərinin ümumi məcmusudur.**

## 7.2 YENİ PSİXOLOGİYADA ŞƏXSİYYƏT PROBLEMİ

İnsanı öyrənən ictimai elmlər sistemi daxilində şəxsiyyət haqqında çox danışılıb. Təbii ki, bu problemə münasibət birmənalı deyil. Yeni fundamental Psixologiyada şəxsiyyət probleminə münasibət isə çox sadə formada olacaq. Biz şəxsiyyətə tam formalaşmış, təkmilləşmiş Psixikaya malik insan kimi baxacağıq. Bu yanaşma təbii proseslərə əsaslanır. Bunu "insan" və "şəxsiyyət" məfhumları arasında real fərqlərin olması da tələb edir.

Ümumiyyətlə, yeni Psixologiyada şəxsiyyət məfhumuna əsas problem kimi yanaşmağın digər bir səbəbi də var. Məlum səbəb amili ondan ibarətdir ki, şəxsiyyət problemi bu gün də insanı öyrənən müəyyən müasir ictimai elmlərin əsas tədqiqat problemi kimi qəbul edilir.

Deməli, şəxsiyyət yeni Psixologiyada insanın Psixikada formalaşmış və təkmilləşmiş ən ali formasıdır. Ali şəxsiyyət xüsusiyyətləri də Psixika daxilində yaşamaq məfhumunun hazırlanması mərhələləri üzrə yaranır. Təbii ki, bu mərhələlər psixoloji, bioloji və sosial proseslərin qarşılıqlı əlaqələr sistemidir. Şəxsiyyət də, universal – psixoloji, bioloji və sosial problemdir.

Yeni Psixologiyada şəxsiyyətin Psixika daxilində universal formalaşma və yaranma xüsusiyyətləri əsas tədqiqat amili kimi qəbul ediləcək. Çünki şəxsiyyətin Psixikada ilkin formalaşma dövründə psixoloji, bioloji və sosial amillər eyni əhəmiyyətli proseslərdir.

Beləliklə də, yeni Psixologiyada şəxsiyyət tam formalaşmış ali insan kimi diqqət mərkəzində olacaq. İnsanın ən ali forması kimi şəxsiyyət məhumunun qəbul edilməsi amili bundan sonra daha məqsədəuyğun və perspektivli elmi metodik yanaşma ola bilər.

Şəxsiyyətin ilkin formalaşma dövründə psixoloji, bioloji və sosial xüsusiyyətlər mühüm rol oynasalar da artıq cəmiyyətə uyğunlaşmada, sosial münasibətlərdə sosial-psixoloji proseslər yüksək əhəmiyyət kəsb etməyə başlayır. Yeni Psixologiyada şəxsiyyətin sosial-psixoloji problem kimi öyrənilməsi insanın dəyişkən sosial münasibətlərə, yeni şəraitə və cəmiyyətə düzgün uyğunlaşma pro-

seslərini əhatə edir. Şəxsiyyətin düzgün, sağlam sosiallaşması aktiv və psixoloji cəhətdən sağlam olan müasir insanı formalaşdırır.

İndi isə şəxsiyyət məfhumunu əhatə edən bütün fikirlər və mülahizələr sistemini aşağıda ona verilən tərifdə ümumiləşdirək.

**Şəxsiyyət – Psixikada yaşamaq xüsusiyyətlərinin hazırlanması mərhələlərində psixoloji, bioloji, sosial xüsusiyyətlərin qarşılıqlı məcmusu kimi yaranan, zehni, fiziki fəaliyyəti və davranış proseslərini tam mənimsəmiş, bunun nəticəsində tam formalaşmış və təkmilləşmiş ali insandır.**

# 8. YENİ PSİXOLOGİYANIN FORMALAŞMA VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

İndi də son olaraq yeni fundamental Psixologiyanın formalaşması və inkişaf perspektivləri haqqında fikirləri ümumiləşdirməyə çalışaq.

Şübhəsiz, yaratmaq nə qədər çətin olsa da, məlum yarananı formalaşdırıb inkişaf etdirmək ondan da çətin bir prosesdir. Bu təbii qanunauyğunluğu yeni fundamental Psixologiyanın yaranması və formalaşma proseslərinə də aid etmək olar. Lakin bu məsələdə bizə kömək edən müəyyən ümidverici amillər vardır. Yəni tam yəqinliklə demək mümkündür ki, yeni Psixologiya formalaşmaq və inkişaf etmək üçün fundamental perspektivli imkanlara malikdir. Aşağıda bu perspektivli imkanları və yaranmış əlverişlı tarixi-elmi şəraiti ümumi şəkildə sistemləməyə çalışaq. Biz onların ən əsaslarını təsnifləyəcəyik.

**1. Yeni Psixologiyanın formalaşmasına, inkişafına şərait yaradan ilkin ən əsas perspektivli amil Psixikanın insan orqanizmində müəyyənləşdirilib öyrənilməsidir. Yeni Psixologiya öz həqiqi predmeti olan Psixikanın üzərində yaranmışdır. Həqiqi Psixologiya psixoloji, bioloji və sosial əsaslı fundamenti, bünövrəsi üzərində yarandığı üçün onun formalaşması və inkişafı zəruri prosesə çevriləcəkdir. Deməli, yeni Psixologiyanın tam formalaşması və inkişafı elmi baxımdan təbii qanunauyğun prosesdir. Öz həqiqi təbii predmeti, fundamenti üzərində yaranan bir elmin formalaşmasının və inkişafının qarşısını almaq mümkün olmayacaq. Gələcəkdə Psixikanın ətraflı şəkildə öyrənilməsi, yeni Psixologiyanın geniş psixoloji, bioloji və sosial əsaslı tədqiqatlar sisteminə malik olması bu prosesləri daha da gücləndirəcək.**

**2. Yeni Psixologiyanın tam formalaşmasına, inkişafına şərait yaradan əsas perspektivli amillərdən biri də artıq müəyyən elmi nailiyyətlərin və fundamental biliklərin mövcud**

olmasıdır. Bura tarix boyu formalaşmış, toplanmış elmi və təbii ictimai biliklər də daxildir. Bundan əlavə, Psixikanın psixoloji, bioloji və sosial problem olması bu sahədəki geniş elmi nailiyyətlərdən və biliklər sistemindən istifadə etməyə imkanlar yaradır. Təbii ki, bu amil birbaşa yeni Psixologiyanın inkişafına şərait yaradan perspektivli, geniş tədqiqatların aparılmasını zəruri edir. Bizim əldə etdiyimiz fundamental elmi nailiyyətlər və digər universal təbii biliklər sistemi yeni Psixologiyada çox geniş ümumi tədqiqat metodlarının işlənib hazırlanmasını tələb edəcək. Bu da yeni Psixologiyanın müxtəlif elm sahələri ilə qarşılıqlı əlaqələrinə və tədqiqat birliyinə xidmət edəcək. Fundamental elmi nailiyyətlərin, təbii biliklər sisteminin olması, ümumi tədqiqat metodlarının hazırlanması yeni Psixologiyanın formalaşdıran və inkişaf etdirən mühüm perspektivli amillərdir.

3. Yeni fundamental Psixologiyanı formalaşdıran, inkişaf etdirən perspektivli istiqamətlərdən biri də insanın öyrənilməsi ilə əlaqədardır. Məlumdur ki, Psixikanın insan orqanizmində tədqiqi insanın ətraflı şəkildə öyrənilməsi üçün də perspektivli geniş imkanlar yaradır. Nəticədə, yeni Psixologiyada insan problemi ilə bağlı fundamental problemləri yeni, daha ümidverici şəkildə tədqiq etmək mümkün olacaq. Məsələn, insanı idarə edən mərkəz olan Psixikanın öyrənilməsi öz-özlüyündə insanın tədqiqində yeni bir elmi nailiyyət və irəliyə böyük bir addımdır. Şübhəsiz, bu və digər elmi nailiyyətləri qorumaq, onları tədqiqatlarda genişləndirmək, inkişaf etdirmək zəruridir. Deməli, insanın öyrənilməsi proseslərində meydana çıxan bu cür zəruri addımlar yeni Psixologiyanin tam formalaşmasına, inkişafına yalnız təkan verə bilər.

Psixikanın insan orqanizmində müəyyənləşdirilməsi insanın öyrənilməsində müəyyən nəzəri və təcrübi dəyişikliklərə səbəb olub. Məsələn, "insan" probleminin mahiyyəti və təbiəti haqqındakı fəlsəfi yanaşmalarda müsbət dəyişikliklər baş verəcək. Psixikanın tədqiqi insanın bioloji və anato-

mik quruluşunda da müəyyən yeni nəticələrin əldə olunmasına imkan verəcək. Psixikanın sosial problem olması təbii ki, insanın sosial varlıq kimi yeni formada ətraflı öyrənilməsini tələb edəcək.

Bundan əlavə, Psixikanın tədqiqi insana fiziki varlıq kimi tamamilə dəyişkən, yeni bir yanaşmanın əsaslarını qoyacaq. Bu baxımdan, Psixikanın öyrənilməsi insanla təbiət arasında olan tam yeni psixofiziki problemlərin və tədqiqat istiqamətlərinin yaranması deməkdir.

Yuxarıdakı müsbət dəyişikliklər və zəruri, perspektivli tədqiqat istiqamətləri haqqında çox danışmaq olar. Bunu təbii qarşılamaq lazımdır. Çünki yeni Psixologiyanın predmeti Psixikadır və insandır.

Göründüyü kimi, Psixikanın tədqiqi, yeni Psixologiyanın yaranması insanın öyrənilməsində yeni fundamental problemlər meydana çıxarır, onların araşdırılmasını aktual və zəruri edir. Bütün bunlar birbaşa yeni Psixologiyanın tam formalaşmasına və perspektivli inkişafına təbii şərait yaradacaq.

4. Psixologiya elmləri daxilindəki beynəlxalq böhran yeni Psixologiyanın formalaşmasına və inkişafına təkan verən mühüm perspektivli amil kimi qiymətləndirilə bilər. Məlumdur ki, müasir dünyada Psixologiya müxtəlif dövlətlərdə və dövlətlər qrupunda müxtəlif cür öyrənilir və orada bu elmə fundamental münasibət də müxtəlif xüsusiyyətləri əhatə edir. Bununla bağlı olaraq bir çox perspektivsiz psixoloji istiqamətlər də yaranmışdır. Nəticədə, hətta Psixologiya bir elm kimi siyasətin və siyasi ideologiyaların real təsirlərinə məruz qalmışdır. Bu təsirlər XX əsrin ikinci yarısında öz maksimal səviyyəsinə çatdı. Şübhəsiz, bu cür neqativ hallar dünyada vahid Psixologiya elminin formalaşmasına, inkişafına və fundametal psixoloji tədqiqatların aparılmasına mənfi, pozucu təsir göstərmişdir. Ona görə də müasir dövrdə yeni beynəlxalq səviyyəli vahid Psixologiya elmini formalaşdırmaq və inkişaf etdirmək perspektivləri yüksək səviyyədə aktuallıq kəsb etməyə başlayır. Çünki ar-

**tıq Psixologiya elmləri daxilindəki predmet və tədqiqat böhranına son qoymaq üçün yeni, siyasi ideologiyasız vahid Psixologiyanı yaratmaq, formalaşdırmaq və inkişaf etdirmək alternativi olmayan zəruri amilə çevrilir. Bu amil də yeni Psixologiyanın formalaşma və inkişaf perspektivlərini yüksək səviyyəyə çatdırır.**

**5. Yeni fundamental Psixologiyanın formalaşmasına, inkişafına imkan verən əsas təhrikedici səbəblərdən biri də beyinlə bağlıdır. Beyin qədim tarixə malik bir problemdir. XX əsrdə onun öyrənilməsində müəyyən nailiyyətlər qazanıldı. Neyroelmlər sistemi yarandı. Biz Psixikanın öyrənilməsində bu elmi nailiyyətlərdən də əsaslandırıcı və sübutedici amillər kimi istifadə etmişik. Bu da təbiidir. Psixika və beyin tərkib hissəli fundamental qarşılıqlı əlaqələrə malik nəhəng orqanlardır. Bu baxımdan, Psixikanın öyrənilməsi ilk dəfə olaraq "Psixika" və "beyin" problemlərini də ayrı-ayrılıqda tədqiq etməyə imkan verdi. Nəticədə, Psixikaya və beyinə yeni fundamental baxışların əsasları qoyuldu.**

**Bundan əlavə, Psixika neryonlara və neyroanatomik struktura malik neyroloji problemə çevrildi. Şübhəsiz, qeyd etdiyimiz amillər Psixikanı, beyni öyrənən Neyroelmlər sistemində yeni, daha ümidverici tədqiqatların aparılmasını zəruri edir. Bu universal ümumi problemlər və müxtəlif istiqamətli tədqiqatlar sistemi həm də yeni Psixologiyanın perspektivli inkişafına, genişlənməsinə real imkanlar yaradacaq.**

Yuxarıda artıq yaranmış yeni Psixologiya elminin formalaşmasına və inkişafına imkan verən ən əsas perspektivli amilləri nəzərdən keçirtdik. Yəni bundan sonra biz artıq yaranmış həqiqi yeni Psixologiya danışacağıq. Lakin yeni Psixologiyanın yaranması müəyyən şəxslərə qəribə və qeyri-adi görsənə də bilər. Bir daha xatırladırıq ki, yeni Psixologiya yaratmaqla biz sadəcə olaraq tarix boyu mövcud olmuş həqiqi fundamental Psixologiyanı reallığa çevirmişik. Bununla da biz Psixologiyanın tarix boyu pozulmiş elmi mövcudluq hüquqlarını bərpa etmiş oluruq.

Deməmk mümkündür ki, elmlər sistemi daxilində yeni Psixologiyaya müasir tələbat mövcuddur. Lakin bu tələbatı dünyada beynəlxalq səviyyədə gerçəyə çevirmək üzunmüddətli mübarizə və sanballı elmi təbliğat metodları tələb edəcək. Ona görə də yaxın gələcəkdə Psixikanın insan orqanizmində ətraflı tədqiqi, yeni fundamental Psixologiyanın yaranması, dünya Psixologiyasının təkmilləşdirilməsi, ümumiləşdirilməsi ilə bağlı olaraq daha qəti və perspektivli addımların atılması lazım gələcək.

## QISA NƏTİCƏ MƏQALƏSİ

### Psixika: İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi

Psixika qədim tarixə malik bəşəri problemdir. Onun öyrənilməsi elmlər sistemi üçün həmişə problem olub. Lakin Psixikanın varlığına və fəaliyyətinə şübhə ilə yanaşmaq da qeyri-mümkündür. Psixika mövcuddur və o insan orqanizmindədir. Artıq böhranlı müasir Psixologiya elmində və Neyroelmlər sistemində Psixikanın öyrənilməsinin vaxtı gəlib çatıb. Psixikanı tədqiq etmədən beyni və insanı ətraflı şəkildə öyrənmək mümkün olmayacaq. Çünki Psixika insan orqanizminin idarəedici və tənzimləyici orqanıdır.

İlk növbədə Psixikanın bioloji varlığı, orqanizmdə yerləşdiyi məkan və iş strukturu öyrənilməlidir. Psixika ümumi problemdir. Onu psixoloji, bioloji və sosial baxımdan öyrənmək lazımdır. Deməli, Psixikanı tədqiq etmək üçün xüsusi nəzəri metodika tələb olunur. Biz məhz, bu cür yeni metodika ilə Psixikanı öyrənməyə çalışmışıq. Bu ümumi metodika insanın inkişaf və yaşamaq xüsusiyyətlərini nəzərə almaqla Psixikanın ətraflı şəkildə öyrənməyə imkan verir. Gəlin Psixika ilə və alınmış nəticələr ilə tanış olaq.

Psixika insan orqanizminin baş beyin hissəsində yerləşir. O, baş-beynin iki yarımkürəsindən (Hemispheria cerebri) və onlar arasında böyük bitişdirici (komissür) olan döyənək cisimdən (Corpus Callosum) ibarətdir. Bütün ali psixi və zehni funksiyalar – insan fəaliyyətinin, psixologiyasının, mənəviyyatının formalaşması məhz, burada baş verir. Psixika üçün bütün beyin və orqanizm işləyir. Lakin informasiyaların tam işlənib hazırlanmasında, ali psixi, zehni proseslərin yaranmasında böyük beyin yarımkürələri və döyənək cisim iştirak edirlər. Bu orqanları birlikdə biz **Psixika** adlandıracağıq. Deməli, Psixika, üç şöbədən ibarətdir. Sol yarımkürə, sağ yarımkürə və döyənək cisim. Bu şöbələrin psixikadaxili iş funksiyalarını nəzərə alaraq onları aşağıdakı terminlərlə adlandırmaq mümkündür. **Sağ yarımkürə – ekzistensial şöbə, sol yarımkürə – koqnitiv şöbə (subyektiv şöbə), döyənək cisim – qarşılıqlı əlaqə zonası (QƏZ) (Bax: Şəkil - 3)**

Ali psixi funksiyaları və insan fəaliyyətini yaradan ali zehni (idraki) proseslər Psixikada yerləşirlər. Bu, ali zehni proseslər **şüur, nitq, hafizə, təfəkkür, təxəyyül və qavrayışdır.** Onlar psixi prosesin yaranmasında vəzifələrinə və daxili iş funksiyalarına görə Psixikanın şöbələrində yerləşirlər. Onların yerləşdiyi məkan həmin şöbələrin beyin qabığıdır. Beyin qabığı psixi prosesin hazırlanmasını başlayan və sona çatdıran psixikadaxili məkandır.

Mövcudluğu, məkanı qavramağa kömək edən ali idraki (zehni) proseslər (hafizə, qavrayış, daxili ekzistensial nitq, ruhi proseslərlə əlaqə yaratmaq funksiyaları, digər ekzistensial və məkani proseslər) ekzistensial şöbədə (sağ yarımkürədə) yerləşirlər.

Subyektivləşdirici, dərkedici, analitik ali idraki proseslər isə (şüur, nitq, təfəkkür, təxəyyül, koqnitiv hafizə, digər koqnitiv və subyektiv proseslər) koqnitiv şöbədə (sol yarımkürədə) yerləşirlər. Deməli, Psixikanın iş strukturunu göstərən şəkil-sxem mürəkkəbləşdi **(Bax: Şəkil - 4).**

Beləliklə, Psixika böyük beyin yarımkürələrindən və döyənək cisimdən ibarətdir. Bu şöbələr Psixikanın ümumi işini yaradırlar. Ekzistensial və koqnitiv şöbələr qarşılıqlı əlaqə zonası (QƏZ) vasitəsilə əlaqə saxlayıb birgə işləyərək psixi prosesləri, ali psixi funksiyaları yaradırlar.

Ekzistensial şöbə (sağ yarımkürə) dünyanı, mövcudluğu qavrayaraq Psixikaya gətirir. Orada mövcudluq, dünya öz primitiv ilkin əksini tapır. Hafizənin əsası da ekzistensial şöbədədir. Məkanı, obyektiv əşyaları görmək, qavramaqla yanaşı həm də onları anlamaq, dərk etmək, nitqə çevirmək gərəkdir. Məsələnin bu analitik-əqli tərəfi ilə Psixikada koqnitiv şöbə (sol yarımkürə) məşğul olur.

## Psixikanın şöbələri

Məlum olur ki, ekzistensial və koqnitiv şöbələr özünəməxsus fəaliyyət funksiyalarına malikdirlər. Biri mövcudluğu qavramağa (ekzistensial şöbə) digəri isə bu mövcudluğu dərk etməyə, subyektivləşdirməyə (koqnitiv şöbə) xidmət edir. Psixikanın ümumi məhsulunu yaratmaq üçün onlar qarşılıqlı əlaqədə olmalıdırlar. Bu əla-

qə işini onlar qarşılıqlı əlaqə zonası (QƏZ) vasitəsilə yerinə yetirirlər. Nəticədə psixi proses yaranır. Bu təsvir sizə çox sadə görsənə bilər. Çünki bu ümumi yanaşmadır. Əslində psixikadaxili proseslər ziddiyyətli, mürəkkəb və nəhəng proseslərdir. Onları öyrənmək, böyük zəhmət və onilliklər tələb edəcək. Hələlik isə aşağıdakı suallara cavab verməyə çalışaq.

**Niyə Psixika bu üç şöbədən ibarətdir? Şöbələr arasında hansı köklü fərqlər var? Bu şöbələr Psixikada qarşılıqlı şəkildə işləmək üçün hansı imkanlara malikdirlər?**

Biz bilirik ki, şöbələr (yarımkürələr) ilk növbədə ayrı-ayrılıqda informasiyalar qəbul edirlər. Məlumdur ki, orqanizmin sol tərəfi sağ yarımkürəyə, sağ tərəfi isə sol yarımkürəyə informasiyaları ötürür. Sonra isə hər iki yarımkürələr və beyin qabığı bu informasiyalardan xəbər tutur. Psixika məhz, iki şöbənin (yarımkürələrin) qəbul etdiyi informasiyalardan istifadə edərək bu informasiyaların birgə qarşılıqlı əlaqəsi nəticəsində (QƏZ vasitəsilə) meydana çıxan psixi proseslərin, psixi fəaliyyətin yaranması üçün işləyir. Bu şöbələr Psixika üçün birgə işləməyə məcburdurlar. Çünki heç bir şöbə (yarımkürə) ayrı-ayrılıqda informasiyaları işləməyə qadir deyil. Yəni onların heç biri tam psixi prosesi yarada bilməz. Onlar ümumi işlə məşğul ola bilmirlər. Ona görə də şöbələr qarşılıqlı əlaqəyə həyati ehtiyac duyurlar. Psixika isə bu cür iş şəraitinə və ümumi məhsulu, yaratmağa qadirdir və ona xidmət edir. Bir Psixika, bir beyin, bir orqanizm vardır. Psixika da məhz, yeganə iş strukturuna və fəaliyyətə malikdir.

Psixikanın iş prinsipi insanın inkişaf və yaşamaq qanunauyğunluqlarına əsaslanır. İnsanı və onun orqanizmini yaşadan qanunauyğunluqlar Psixikada öz əksini tapır. Bu qanunauyğun proseslər orada birgə işləyərək Psixikanı formalaşdırırlar. Yəni mövcud olmaq (ekzistensial şöbə) və subyektivləşmək (koqnitiv şöbə) və nəhayət, insan kimi yaşamaq məfhumu Psixikada cəmləşir.

Deməli, Psixika inkişafın və yaşamağın real qanunauyğunluqları ilə işləyir. Bu adi fəlsəfi reallıqdır. Şübhəsiz Psixikanın işini bu cür qurmaqda bizə kömək edən əsas amil əsrlər boyu beynin tədqiqində əldə edilmiş elmi nailiyyətlər olub. İndi biz yarımkürələrin iş funksiyaları haqqında müəyyən klinik eksperimental nəticələrə ma-

likik. **Bu baxımdan, XX əsrin ikinci yarısında ABŞ-da "döyənək cisimləri kəsilib çıxarılmaqla iki ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar"ın fundamental nəticələri isə daha aktualdır.** Bu tədqiqatlarda yarımkürələrin təbiəti və onların ayrı-ayrılıqda iş funksiyalarının öyrənilməsinə cəhdlər edilmişdi. Müəyyən fundamental nəticələr əldə olunmuşdur **(Bax: S. Sprinqer, Q. Deyç. "Levıy mozq, pravıy mozq". M. 1983. S. Springer, G. Deutsch «Left Brain, Right Brain». 1981).** Bu tədqiqat nəticələri bizim Psixikanı öyrənməyimizdə əsaslandırıcı və təsdiqedici amillər kimi çıxış edə bilərlər.

İndi də gəlin Psixikanın şöbələri ilə tanış olaq.

## Ekzistensial şöbə (sağ yarımkürə)

Ekzistensial şöbə mövcudluğu, məkanı qavrayaraq Psixikaya gətirir. Bu şöbənin köməyi ilə dünya formal şəkildə Psixikada öz primitiv əksini tapır. Sonradan bu primitivlik Psixikaya yayılaraq aşınır, subyektivləşir. Ekzistensial şöbədə məkanı, əşyaları qavramaq üçün hafizə, qavrayış, daxili ekzistensial nitq yerləşir. Bundan əlavə, ekzistensial şöbə ruhi, qeyri-subyektiv ruhi proseslərlə ilkin əlaqə yaratmaq imkanlarına malikdir və bu şöbədə böyük informasiya ehtiyatları var.

Ekzistensial şöbə (sağ yarımkürə) daha müəmmalı, sirli və mistik şöbədir. Koqnitiv şöbəyə nisbətən ona daha ciddi yanaşmaq lazım gəlir. Onun daxili iş strukturu da çox mürəkkəbdir. Elə ona görə də Neyroelmlər sistemində ekzistensial şöbəyə aid tədqiqat nəticələri olduqca azdır. Lakin aparılmış müəyyən kliniki tədqiqatlar, təsadüfi müşahidə materialları ekzistensial şöbənin mövcudluğu görmə, qavrama funksiyalarına malik olmasını təsdiqləyir. Ekzistensial şöbənin zədələnməsi insanın məkanı qavrama qabiliyyətlərini kobud şəkildə pozur. Aqnoziyanın (tanımada anomallıq) bütün növləri sağ yarımkürənin zədələnməsində özünü büruzə verir. Məsələn: məkan aqnoziyası. Belə halda şəxs yaşadığı evi, küçəni tanımır, fiqurların qurulmasını planlaşdıra bilmir.

Şübhəsiz, ekzistensial şöbə bu qavrama işini əsasən qavrayış və hafizənin köməyi ilə görür. Qavrayış vasitəsilə ekzistensial şöbədə ilkin qavrama məhsulları primitiv hafizəyə çevrilir. Yəni əşyalar, şeylər, mövcudluq olduğu kimi primitiv şəkildə hafizənin köməyi ilə ekzistensial şöbədə yaranır. Burada hafizənin statusu müəyyən ziddiyyətlər yaradır.

**Hafizə** nəhəng və mürəkkəb strukturdur. O, bütün Psixikada işləyir. Bütün Psixika hafizəli təcrübəyə malikdir. Lakin hafizə öz yaranma əsaslarını ekzistensial şöbədən götürür. Çünki mövcudluq, məkan məhz, hafizənin hesabına ekzistensial şöbədə qavranılır, qorunur. Yəni Psixika üçün hafizə ekzistensial şöbədən başlayır. Hafizənin bütün Psixikada gəzməsinə baxmayaraq onun "iqamətgahı" ekzistensial şöbədir. Əgər bu belə olmasaydı mövcudluq, reallıq Psixikaya daxil ola bilməzdi, orada qorunub subyektivləşməzdi. Bu baxımdan, ekzistensial şöbə nəhəng informasiya ehtiyatlarına malikdir. Ona görə də bu şöbə qapalıdır, müəmmalıdır.

**Daxili ekzistensia nitqi nədir?** Psixikada ekzistensial şöbənin ümumi fəaliyyətini formalaşdıran və bu fəaliyyəti informasiya reaksiyası halına salan məhz, **daxili ekzistensial nitqdir (daxili məkan nitqidir)**. Daxili ekzistensial nitq o deməkdir ki, bizim qavradığımız mövcudluq Psixikada (ekzistensial şöbədə) öz ilkin primitiv əksini tapır. Yəni daxili ekzistensial nitq mövcudluğu olduğu kimi ekzistensial şöbədə təsdiq edən formal informasiyalar sistemidir. Məsələn, qavranılan bina Psixikada daxili məkan nitqinin "bina" informasiyasıdır. Bu "bina" formalı informasiya reaksiyası koqnitiv şöbəyə keçərək ümumi insan nitqinin yaradılmasında iştirak edir. Daxili məkan nitqi olmadan insan nitqi yarana bilməz: Mövcudluq, obyektiv məkan informasiyaları daxili məkan nitqindədir. Psixikanın iş prinsipinə uyğun olaraq ekzistensial şöbədəki məkan nitqi koqnitiv şöbədəki məntiqi-analitik nitqlə birləşərək subyektiv insan nitqinin formalaşdırırlar.

Ekzistensial şöbə ruhi və qeyri-subyektiv proseslərlə əlaqələr qurmaq imkanlarına və funksiyalarına malikdir. Bu mülahizə qəribə səslənə bilər. Lakin məlum mülahizəni söyləməyə imkan verən amillər mövcuddur. Ekzistensial şöbə (sağ yarımkürə) həmişə sirli və müəmmalı olub. Sol əl də (sağ yarımkürə ilə birbaşa əlaqəli olan əl)

müəmmalı əl kimi nəzəri cəlb edir. Onun xüsusi hafizəyə malik olması barədə mülahizələr söylənilir. Dinlər daxilində də sol ələ xüsusi münasibət var. Dini adət-ənənələrdə bu amil nəzərə alınır.

Ekzistensial şöbənin ruhi və qeyri-subyektiv proseslərlə əlaqə saxlaması təbiidir. Çünki məhz, bu şöbə ilk növbədə məkanla, mövcudluqla sıx əlaqələrə malikdir. Ruhi və qeyri-subyektiv proseslər bütün Psixikaya təsir etmək imkanlarına malikdirlər. Biz bilirik ki, Psixika həm də sırf ruhi mahiyyətə malikdir. Psixikada bu işlə ilk növbədə və əsasən ekzistensial şöbə məşğul olur. Subyektivliyi, idrakı insanlara və onların Psixikasına koqnitiv şöbə (sol yarımkürə) bəxş edir. Bu baxımdan, heç cür qeyri-subyektiv və ruhi proseslər koqnitiv şöbə ilə əlaqədə ola bilməzlər. Ruhi proseslər Psixikaya məhz, ekzistensial şöbə vasitəsilə daxil və xaric olur.

## Koqnitiv şöbə (sol yarımkürə)

Koqnitiv şöbə (sol yarımkürə) mütəxəssislərin diqqətini çoxdan cəlb etmişdir. Sadəcə olaraq, bu yarımkürənin sağ əllə əlaqəsi artıq onun məntiqi və analitik mahiyyəti haqqında müəyyən mülahizələr söyləməyə imkan verirdi. Ona görə artıq XIX əsrdə sol yarımkürənin nitqi tənzimləməsi və onun məhz, oradan idarə olunması təsdiqləndi (Zona Broka və Vernike).

**Niyə biz sol yarımkürəni koqnitiv şöbə adlandırırıq?**

Sol yarımkürə Psixikaya subyektivlik gətirən onu insan Psixikası kimi formalaşdıran fundamental xüsusiyyətlərə malikdir. Bu yarımkürə psixi prosesin yaranmasında aktiv fəaliyyət göstərən ali idraki proseslərə (nitq, şüur, təfəkkür, təxəyyül) malikdir. Subyektivləşmək, insan kimi yaşamaq xüsusiyyətləri sol yarımkürədən öz əsaslarını götürür. Orada informasiyalar işlənərək insan fəaliyyətinə sosial subyektivlik gətirir. Məhz, bu insan orqanizminin sağ tərəfinə (sağ ələ, sağ ayağa, sağ tərəfə) aktivlik, məntiqi fəaliyyət bəxş edir.

Subyektivləşmiş (koqnitiv) şöbənin iş fəaliyyətinin düyün nöqtəsi **şüurda** cəmləşir. Bu təbiidir ki, şüur Psixikada subyektivləşməyə xidmət edən ən ali idraki prosesdir. Məhz, şüur Psixikaya koqnitiv mahiyyət bəxş edir. Koqnitiv səviyyə insan Psixikasının

fəaliyyət əsasıdır. Şüuru çox vaxt Psixika ilə müqayisə edirlər. Şüur Psixika və onun nəhəng, geniş fəaliyyət xüsusiyyətləri ilə müqayisə oluna bilməz. Çünki o özü Psixika daxilində yerləşir və Psixikanın ən ali zehni prosesidir.

Koqnitiv şöbəyə məntiqi və analitik mahiyyət gətirən ikinci nəhəng zehni struktur **nitqdir**. Nitqin sol yarımkürədə (koqnitiv şöbədə) olması çoxdan məlum idi (Zona Broka və Vernike). Nitq ali subyektivləşdirici amildir. Nitq insan Psixikasının adi subyektiv reaksiyasıdır. Fəaliyyətin, davranışın ali tənzimləyici amilidir.

**Təfəkkür və təxəyyülün** sol yarımkürədə (subyektivləşmiş şöbədə) yerləşməsi də artıq heç kəsdə şübhə doğura bilməz. Nitq, şüur harada yerləşib fəaliyyət göstərirsə, təfəkkür və təxəyyül də orada olmalıdır. Bunu ali idraki proseslər və subyektivləşmə tələb edir.

Deməli, koqnitiv şöbəni analitik-məntiqi düşüncəyə qulluq edib Psixikaya subyektivlik gətirən bir şöbə olması təsdiqlənə bilər. Bu baxımdan, subyektivləşmiş şöbə məntiqi idrakı yaradır. Hissi idrak isə ekzistensial şöbəyə aiddir. Bu şöbələrin birgə işi insan üçün ümumi idrakı və zehni fəaliyyəti yaradır. Şöbələrin bu cür nəhəng və mürəkkəb qarşılıqlı əlaqələri isə qarşılıqlı əlaqə zonası (QƏZ) vasitəsilə yerinə yetirilir.

## Qarşılıqlı əlaqə zonası (Döyənək cisim)

Əvvəllər döyənək cisim yarımkürələri bir-birinə bitişdirən ən böyük kommisur kimi nəzəri cəlb edirdi. Sonralar neyrofizioloqlar, neyrobioloqlar bu ali kommisurun funksiyaları ilə daha ciddi maraqlanmağa başladılar. Döyənək cisim 200 milyondan çox hüceyrəyə malikdir. Onun bitişdirmə sahəsi 700 $mm^2$-dir.

Deməli, döyənək cisim təkcə bitişdirici orqan deyil, o həm də nəhəng əlaqəyaradıcı orqandır. Psixikada biz onu **qarşılıqlı əlaqə zonası (QƏZ)** kimi adlandırmışıq.

**"Döyənək cisimləri kəsilib çıxarılmaqla iki ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar"**ın nəticələri sübut edir ki, döyənək cisimsiz adi insan fəaliyyətinin tamlığı, ümumiliyi pozulur. Əslində, bu psixi proseslərin tamlığının pozulması demək-

dir. Deməli, bu Psixikanın işinin pozulmasıdır. Döyənək cisimsiz Psixikada birgə işin qarşısı alınır. Nəticədə, yarımkürələr (şöbələr) öz keçmiş psixi təcrübələrindən istifadə edərək cismən fəaliyyət göstərməyə müyəssər olurlar.

Qarşılıqlı əlaqə zonasının köməyi ilə Psixikada şöbələrin birgə işi yaranır. Bu işi görmək üçün QƏZ hər iki şöbənin bütün hissələrini, nahiyələrini bir-biri ilə əlaqələndirilir və onları qarşılıqlı təsirə məruz qoyur. QƏZ (döyənək cisim) bu cür nəhəng qarşılıqlı əlaqələri yaratmaq üçün neyroanatomik baxımdan bütün imkanlara malikdir. Belə ki, QƏZ-dən keçən sinirlər hər iki şöbənin bütün nahiyələrini bir-birinə bitişdirir. Yarımkürələr (şöbələr) arasında olan ötürücü sinir lifləri də QƏZ-in köməyinə gəlir (kommisural, assosiativ və proyeksional sinif lifləri).

Döyənək cisim ən böyük kommisurdur. İki yarımkürə arasında digər kiçik kommissurlar sinir bitişdiriciləri də vardır. Məsələn, ön bitişmə (commissura anterior), tağ bitişmə (commissura fornicis). Lakin bütün kommisurlar eyni əlaqələndirici və informasiya ötürmək funksiyalarını yerinə yetirirlər.

Beləliklə də, QƏZ Psixikadaxili əlaqələri yaradaraq psixi prosesin yaranması üçün əlverişli şərait yaradır. Psixi proses tam şəkildə yaranır. QƏZ təsəvvüredilməyən əlaqələndirici, informasiyaları qəbul edən, ötürən nəhəng bir strukturdur. Dünyada bu cür superəlaqələndirici yoxdur. Təbii olaraq beyin və Psixikanın nəhəng mürəkkəb işlərini də hansı isə bir reallıqla müqayisə etmək qeyrimümkündür.

## Psixi proseslərin yaranması.
## Psixika necə işləyir?

**Psixika necə işləyir? Orada şöbələr arasında qarşılıqlı əlaqələr necə qurulur? Psixi proseslər necə yaranır?**

Psixikanın işə başlaması üçün ilk növbədə informasiyalar və təhrikedici reaksiyalar lazımdır. Bizim orqanizmimiz gözlə görünməyən informasiyalar da qəbul edir. Bu gözlə görünməyən informasiyaları da Psixika qəbul edir və onlara cavab verir. Məsələn,

dalğalar, səs, hiss olunanlar və s. Beyin öz funksiyaları ilə buna qadir deyil. Psixika isə həm ruhi, həm də bioloji informasiyaları qəbul edib, onları işləmək üçün ali zehni proseslərə – şüur, nitq, təfəkkür, hafizə, təxəyyül, qavrayışa digər fundamental funksiyalara malikdir. Psixika ruhi və bioloji fəaliyyət göstərməyə qadir ali idarəetmə mərkəzidir. Bundan əlavə, Psixika öz daxili işində nəhəng sayda informasiyalar yaradır. Bu informasiyalardan psixi prosesin yaranması üçün istifadə edilir. Psixikanın özü nəhəng informasiya ehtiyatıdır. Psixika daxilində şöbələr arasında daimi qarşılıqlı informasiya əlaqələri gedir. Psixika ümumiyyətlə, orqanizmdən və xaricdən daima informasiyalar alır. İndi isə gəlin baxaq Psixikada qarşılıqlı əlaqə və psixi proses necə yaranır.

Deməli, Psixika informasiyalar və impulsiv reaksiyalar qəbul edərək neyronların köməyi ilə psixi proseslərin yaranması üçün işə başlayır. Artıq bizə məlumdur ki, Psixika şöbələrində psixi proseslərin yaranmasına şərait yaradan bütün hissi, idraki proseslər və neyroanatomik imkanlar var. Beyin qabığı (indi bu qabığa "Psixikanın qabığı" da demək mümkündür) psixi proseslərin hazırlanmasını başlayan və sona çatdıran psixikadaxili məkandır. Mövcudluğu, məkanı, əşyaları qavramaq funksiyalarını yaradan ali psixikadaxili zehni proseslər – qavrayış, hafizə və s. ekzistensial şöbədə (sağ yarımkürədə). Subyektivləşdirici, dərkedici, analitik ali psixikadaxili proseslər isə - şüur, nitq və s. koqnitiv şöbədə (sol yarımkürə) yerləşirlər (Bax: Şəkil 4). Beləliklə, Psixikada psixi proseslərin yaranması üçün lazım olan bütün şərait vardır.

Burada diqqətli olmaq gərəkdir. Çünki psixi prosesin yaranması mürəkkəb və qeyri-standart prosesləri əhatə etdiyi üçün onu blok-sxemdə təsvir etmək qeyri-mümkündür. Sadəcə olaraq, bu prosesin təsvirini diqqətlə izləyin. Psixi prosesin yaranması Psixikanın fəaliyyətinin əsasını təşkil edir. Burada biz psixi prosesin yaranmasına ümumi yanaşırıq, məlum prosesləri ümumi şəkildə təsvir edirik. Onları ətraflı şəkildə təsdiq etmək gələcəyin işidir. İndi isə gəlin psixi prosesin yaranma təsvirini izləyək.

Təsəvvür edin ki, informasiyalar və impulsiv reaksiyalar Psixikaya daxil olur. Bu o deməkdir ki, Psixikanın şöbələrinin beyin qabıqları məlum informasiyaları və impulsiv reaksiyaları ilkin olaraq

qəbul etmişlər. Bu informasiyalar və impulsiv reaksiyalar həm daxildən (Psixika daxilindən, daxili nitqdən), həm orqanizm daxilindən, həm də xarici məkandan gələ bilər. Bu məsələnin qəbuletmə formasını dəyişmir, yəni informasiyalar ilk növbədə Psixika şöbələrinin beyin qabıqlarına daxil olur.

Beləliklə, Psixika gələn informasiyaya uyğun olaraq aktiv reaksiya halına düşür. Səfərbər olunmuş Psixika ani olaraq gəlmiş informasiyanın və impulsiv reaksiyanın mövcudluq mahiyyətindən, səviyyəsindən xəbərdar olur. Psixika bu informasiyanı və impulsiv reaksiyanı tanıya da bilər. Çünki Psixika (şöbələrin beyin qabıqları) informasiya ehtiyatlarına və hafizəli təcrübəyə malikdirlər.

Ümumiyyətlə, Psixikanın fəaliyyəti elə qurulub ki, ora gəlmiş hər hansı bir informasiya və impulsiv reaksiyalara cavab verməyə məcburdur. Psixika və onun şöbələri bu cür fasiləsiz "qul" kimi işləmək üçün formalaşıblar.

Psixikaya gəlmiş informasiya və impulsiv reaksiyalardan ilk növbədə şöbələrin daxili - ağ maddə xəbərdar olur. Çünki bu informasiya və impulsiv reaksiyalar şöbələrin beyin qabığına – boz maddəyə elə şöbələrin daxilindən - ağ maddədən keçib getmişlər. Özü də qarşılıqlı əlaqə zonası imkan verir ki, informasiya və impulsiv reaksiyalar ani olaraq hər iki ağ maddəyə keçsin. Lakin şöbələrin daxili - ağ maddə bu informasiya və impulsiv reaksiyalardan primitiv şəkildə xəbərdar olurlar. Yəni bu informasiya və impulsiv reaksiyaların şöbələrin beyin qabığına – boz maddəyə getdikləri yol oradan keçdiyi üçün şöbələrin daxili - ağ maddə bu primitiv xəbərdarlığı əldə etmiş olur. Çünki bizə bəllidir ki, bütün informasiya və impulsiv reaksiyalar ilk növbədə şöbələrin beyin qabığına – boz maddəyə daxil olur. Sadəcə olaraq burada şöbələrin daxili - ağ maddələr çox asanlıqla informasiya və impulsiv reaksiyaları öz şöbələrinin beyin qabığına – boz maddəyə ötürürlər. Unutmayaq ki, qarşılıqlı əlaqə zonası (döyənək cisim) baş beyində məhz, ağ maddələrin olduğu məkanı bir-birinə bitişdirir və əlaqələndirir.

Beləliklə, hər şöbənin beyin qabığı gəlmiş məlum informasiya və impulsiv reaksiyalara uyğun olaraq öz fundamental funksional işinə başlayır. Onlar informasiya ehtiyatlarından, ali idraki proseslərdən və hafizəli təcrübələrindən istifadə edirlər. Lakin bu işi yeri-

nə yetirməyə yalnız onların öz funksiyaları bəs edir. Gəlmiş informasiya və impulsiv reaksiyaların psixi proses halında tam işlənilməsi üçün hər iki şöbənin funksional nəticələri lazımdır. Bu zaman hər şöbənin özünəməxsus funksiyalarına uyğun hazırlanmış informasiya nəticələri arasında geniş qarşılıqlı əlaqə başlayır. Şöbələrin beyin qabıqlarından bu nəticələr şöbələrin daxilinə - ağ maddəyə qayıdır və qarşılıqlı əlaqə zonası vasitəsilə hər iki şöbənin qarşılıqlı əlaqəsı yaranır. Hər iki şöbə və onların beyin qabıqları bir-birlərinin hazırlanmış fundamental funksional informasiya nəticələrindən bəhrələnirlər.

Burada psixi proseslərin səviyyələri yaranır. Məsələn, ola bilsin psixi proses ekzistensial şöbənin (sağ yarımkürənin) beyin qabığında bitsin. Bu qavranılmış primitiv formal psixi prosesdir. Primitiv formal psixi proses primitiv hafizəyə və daxili ekzistensial nitqə əsaslanır. Məsələn, sadəcə olaraq biz stolu "stol" forması kimi görüb qavrayırıq. Onun söz kimi səsləndirilməsini, mahiyyətini və ondan istifadəni reallaşdırmaq üçün insanı analitik, məntiqi-subyektiv fəaliyyətə təhrik edən mürəkkəb psixi proseslərin yaranması lazımdır. Bu cür proseslərin yaranması üçün isə koqnitiv şöbənin (sol yarımkürənin) köməkliyi gərəkdir. Əgər hər hansı bir şöbədə ümumi olmayan psixi proseslər yaranırsa onda həmin psixi proseslər primitivdir və tam deyil.

Burada bir vacib məsələyə diqqət yetirək. Şöbələrin beyin qabıqlarının informasiyaya uyğun nəticə məhsulları son anda koqnitiv şöbənin (sol yarımkürənin) beyin qabığında cəmləşərək tam normal psixi prosesləri yaradırlar. Bəli, psixi proseslərin məntiqi –subyektiv baxımından tam hazırlanması koqnitiv şöbənin (sol yarımkürənin) beyin qabığında sona çatır. Yaranmış psixi proseslər daxili nitqə keçir. Sonradan hazırlanmış psixi proseslər insanın ümumi nitqinə və ünsiyyət vasitələrinə keçərək real fəaliyyətə çevrilirlər. Ola bilsin daxili nitq də fəaliyyət proseslərini yaratsın. Məsələn, biz müxtəlif zehni fəaliyyətlərdə, yaradıcılıq proseslərində məhz, daxili nitqdəki hazır psixi proseslərdən daha çox bəhrələnirik. Deməli, daxili nitq Psixika daxilində hazır psixi proseslərin büruzə verildiyi ilkin məkandır. Bundan əlavə, daxili nitq Psixika daxilində yeni psixi prosesləri yaradan məkanda ola bilir. Müxtəlif zehni fəaliyyətlərdə, yaradıcılıq proseslərində

yeni ideya və fikirlərin yaranması buna misal ola bilər. Bu zaman biz bu yeni ideya və fikirləri xaricə çıxarmayaraq elə daxili nitqimizdə fikirləşərək yaradırıq. Bunlar daxili nitq vasitəsilə Psixika daxilində yeni psixi proseslərin yaranması deməkdir.

Psixi proseslərin yaranması Psixika daxilində ani olaraq mürəkkəb qarşılıqlı əlaqələrin nəticəsində baş verir. Bu qarşılıqlı iş nəticələri sinir lifləri vasitəsilə sinir hüceyrələrinin (neyronların) universal fəaliyyətindən yaranır. Bir daha qeyd edirik bu qarşılıqlı iş əlaqələrini Psixika daxilində kommisural və assosiativ sinir lifləri, Psixika şöbələrinin beyin qabıqları ilə orqanizm arasında isə proyeksion sinir lifləri həyata keçirir.

Yuxarıda psixi proseslərin yaranmasının mürəkkəb strukturunu ümumi şəkildə təsvir etməyə cəhd etdik. Göründüyü kimi, psixi proseslərin mürəkkəb yaranma və mövcudluq mahiyyəti vardır. Gələcəkdə bu prosesləri ətraflı və dəqiq öyrənmək üçün uzun vaxt və böyük zəhmət tələb olunacaq. Hələlik, ümumi şəkildə onu demək mümkündür ki, psixi proseslər ilkin olaraq iki formalı fəaliyyətə təhriki yaradır. Birinci forma sadə psixi proseslər, şərtsiz reflekslər fonunda insanın gündəlik fəaliyyətində primitiv halda meydana çıxır. İkinci forma isə daha mürəkkəb psixi prosesləri – şərti reflekslər fonunda zehni və məntiqi-subyektiv fəaliyyəti əhatə edir. Bu iki formalı psixi proseslər ümumilikdə tam normal insan fəaliyyətini və sosial həyatını gerçəkləşdirir. Hər halda bütün növ psixi proseslərin yaranması nəzərdən keçirdiyimiz ümumi sistem üzrə baş verir.

Gəlin sadə bir psixi prosesin yaranmasını təsvir edək. Məsələn, **"dəftəri görmək"**. Dəftəri bir əşya kimi görmək informasiya formasında göz sinirləri vasitəsilə Psixikaya daxil olur. "Dəftər" informasiyasına uyğun olaraq Psixika işləməyə başlayır. Yuxarıda qeyd etdiyimiz sistem üzrə bütün Psixika "dəftər" informasiyasından xəbər tutur. Şöbələrin qabıqları özünəməxsus funksiyalarını yerinə yetirməyə başlayırlar. Ekzistensial şöbənin beyin qabığında qavrayış və hafizə dəftəri "dəftər" formasında qavrayır. Artıq dəftər "dəftər" formasında qavranılmış primitiv hafizə şəklində hazırdır və o daxili ekzistensial nitqdədir. Yəni dəftərin "dəftər" formasında mövcudluğu Psixikada artıq təsdiqləndi. İndi isə onu "dəftər" sözü kimi adlandırıb daxili nitqə gətirmək və dərk etmək lazımdır. Yəni

"dəftər"ə həm nitqdə, həm də ümumi Psixikada subyektiv məntiqi status verilməlidir. Bunun üçün ani olaraq qavranılmış "dəftər" informasiyası qarşılıqlı əlaqə zonasından koqnitiv şöbənin beyin qabığına keçir. Koqnitiv şöbədə dəftər "dəftər" sözünə çevrilir və dərk edilir. Daxili və şifahi nitqdə istifadə edilməyə başlayır. Əslində, koqnitiv şöbə bu "dəftər" informasiyasını gözləyirdi. Çünki bütün Psixika kimi o da "dəftəri görmək" informasiyasından xəbərdar idi və bu iş üçün səfərbər olunmuşdu.

"Dəftəri görmək" kimi sadə psixi prosesin yaranmasındakı qəribə ardıcıllığı hiss etdinizmi? Gördüyünüz kimi, "dəftəri görmək" psixi prosesinin hazırlanması ekzistensial şöbədə başladı, koqnitiv şöbədə isə sona çatdı. Bu, ilk növbədə onunla əlaqədardır ki, ekzistensial şöbə həqiqətən nəhəng informasiya ehtiyatlarına malikdir. O, mövcudluğu, məkanı qavrayış vasitəsilə qavrayır, hafizə vasitəsilə onları Psixikanın yaddaş strukturlarına keçirir. Koqnitiv şöbə isə insanın, subyektiv fəaliyyət və davranışını yaradan prosesləri hazırlayıb orqanizmə tətbiq edir.

Sonralar "Dəftəri görmək" psixi prosesi koqnitiv şöbənin, daxili nitqin informasiya ehtiyatlarına daxil olaraq saxlanılır. Artıq insan dəftəri görəndə nitq öz informasiya ehtiyatına əsaslanaraq dəftəri tanıyır və "dəftər" sözünü dilə gətirir. "Dəftər" forması qavranılmış və primitiv hafizə şəklində ekzistensial şöbədə də qorunub saxlanılır.

Daha mürəkkəb psixi proseslərin (məsələn, fikirləşmək, əqli təxəyyül prosesləri və s.) yaranmasında müəyyən mahiyyət fərqləri var. Lakin onların yaranması da sizə təqdim etdiyiniz ümumi dinamik sxem üzrə baş verir.

Yuxarıda qeyd etdiklərimizi ümumiləşdirərək aşağıda "psixi proses" anlamını qismən sadə tərif formasına salaq.

**Psixi proses Psixikanın qəbul etdiyi informasiyalara, impulsiv reaksiyalara uyğun olaraq Psixika şöbələrinin aktiv qarşılıqlı əlaqəsində sinir hüceyrələri (neyronlar) vasitəsilə işlənib hazırlanan, ilk dəfə əsasən daxili nitqdə mövcud olan, Psixikanın fəaliyyət bünövrəsini təşkil edən, Psixika vasitəsilə beynin (əsəb sistemi sinirlərinin) köməyi ilə orqanizmin daxili və xarici fəaliyyətə təhrik xüsusiyyətlərini yaradan tərkib hissəli əsas psixi məhsuldur.**

Bundan əlavə, psixi prosesləri yaranma mahiyyətinə və fəaliyyətə təhrik xüsusiyyətlərinə görə təsnifləyə bilərik. Bu təsnifdə bütün psixi prosesləri ümumiləşdirmək mümkündür.

**1. Sadə psixi proseslər.** Bura gündəlik fəaliyyəti, davranışı tənzimləyən dəyişən şəraitlə bağlı yaranan psixi proseslər daxildir. Məsələn, müəyyən bir yeni obyekti görüb yadda saxlamaq, şəraitə uyğun davranmaq, təhlükəni hiss etmək və s.

**2. Mürəkkəb psixi proseslər.** Bura fikirləşmək, yaradıcılıq və ümumi zehni fəaliyyətlə məşğul olmaqla əlaqədar yaranan psixi proseslər daxildir.

**3. Asılı olmayan avtomatik yaranan davranış psixi prosesləri.** Bura orqanizmin psixoloji və biofizioloji aktivliyini tənzimləyən, gündəlik fəaliyyətdə yaşamaq tələbatlarını ödəməyə xidmət edən psixi proseslər daxildir. Məsələn, qida qəbul etmək istəyi, istirahətə meyil, digər primitiv davranış xüsusiyyətləri və s. buna misal ola bilər. Bu cür psixi proseslərin yaranmasında əsasən orqanizmin daxilindən gələn təbii impulsiv reflektor reaksiyalar mühüm rol oynayır.

Biz psixi prosesin yaranmasında daxili nitqdən çox danışdıq. Əslində bunu anlamaq çətin deyildir. Psixi prosesin ilk dəfə daxili nitqdə mövcud olmasını və oradan işə başlamasını hamımız açıq-aydın görə bilərik. Məsələn, əgər siz stulu pəncərənin qabağına qoymaq istəyirsinizsə, artıq bu sizin daxili nitqinizə gələn psixi proses məhsuludur. Bu zaman siz digər şəxslərlə ünsiyyətdə olmayanda da stolu götürüb pəncərənin qabağına qoyursunuz. Elə bu situasiya sizin Psixikanızda psixi prosesin yaranıb daxili nitqə keçməsi, orada fəaliyyətə başlaması və bitməsi deməkdir. Digər hallarda siz fəaliyyət üçün xarici (şifahi) nitqdən də istifadə edə bilərsiniz. Hər hansı bir halda proseslər bizim daxili nitqimizdən başlayır.

Şübhəsiz bizi daha çox maraqlandıran şöbələr arasındakı əlaqələrin forması və səviyyəsidir. Bu əlaqələr dinamikasını təsəvvür etmək çox çətindir. Çünki bu proses çox güclü ani sürətə malikdir. Biz yuxarıda yalnız bu ani sürətli proseslərin ümumi baş vermə sxemini sizə təqdim etmişik. Bu məhz, qarşılıqlı əlaqədə yaranan psixi prosesin yaranma sxeminin təsəvvürüdür. Gələcəkdə biz bu psixikadaxili qarşılıqlı əlaqələrin mürəkkəbliyinə baxmayaraq onla-

rı sistematik şəkildə neyropsixoloji və neyroanatomik cəhətdən öyrənməliyik.

Psixi prosesin yaranmasında nəzəri cəlb edən məsələlərdən biri onun **tərkib hissəsi** ilə bağlıdır. Psixi proses Psixikanın iş məhsulu olduğundan onun tərkib hissəsini görmək çətin deyil. Məsələn, psixikada qavranılan, görülən ağac təkcə qavrayışın məhsulu deyil. Ən azı ona görə ki, ağacı bizim psixikamızda "ağac" edən ilk növbədə hafizədir. Hafizənin hesabına ağac qavranılmış formada Psixikanın yaddaş ehtiyatına keçir. Bundan əlavə, "ağac" sözünü söyləmək üçün koqnitiv şöbədə yerləşən nitq lazımdır. Ağacın mahiyyətini anlamaq və ondan istifadə etmək üçün isə şüur və təfəkkür tələb olunur. Deməli, ağacla bağlı psixi proseslər mürəkkəbləşdikcə Psixika daxilindəki bütün ali idraki proseslər (şüur, nitq, təfəkkür, qavrayış, hafizə, təxəyyül) bu işə qoşulur. Psixikanın daxili iş məhsulları psixi prosesin tərkib hissəsinə keçir. Əgər psixi prosesin yaranması üçün lazım olan tərkib hissə öz heyəti ilə tam deyilsə, sağlam, normal psixi fəaliyyət formalaşa bilməz. Biz artıq **"döyənək cisimləri kəsilib çıxarılmaqla iki ayrılmış beyin yarımkürələri üzərində aparılmış tədqiqatlar"**ın test nəticələrində bunun şahidi olmuşuq. Orada yarımkürələrin (Psixikanın şöbələrinin) ayrılıqda işi qeyri-tam və sağlam olmayan davranış və fəaliyyət yaradırdı.

Psixi prosesin tərkib hissəsinə bütün ali psixikadaxili proseslər daxildir. Psixi prosesdə ilkin büruzə verilən tərkib hissələr qavrayış, hafizə, nitq və şüur olur. Psixi proseslər mürəkkəbləşdikcə təfəkkür və təxəyyül də tərkib hissəyə daxil olurlar. Psixi prosesin tərkib hissəsinin ilkin nəticələri şübhəsiz, daxili nitqdə büruzə verilir.

Tam formalaşmış psixi proses koqnitiv şöbədə (sol yarımkürədə) yaranır və oradan da orqanizmin fəaliyyəti üçün tətbiq edilir. Tam formalaşmış psixi prosesin Psixikanın koqnitiv şöbəsində yaranmasının psixoloji və biofizioloji əsasları vardır. Psixioloji baxımdan bu hal qanunauyğundur. Çünki koqnitiv şöbədə nitq, şüur və təfəkkür yerləşir. Hansı ki, onlar psixi prosesin tərkib hissəsində fundamental subyektiv mahiyyətə malikdirlər. Onlar məntiqli, analitik subyektiv funksiyaları yerinə yetirirlər.

**Psixikanın mövcudluq və fəlaiyyət xüsusiyyətləri**

Tam formalaşmış psixi prosesin koqnitiv şöbədə bitib fəaliyyətə çevrilməsi orqanizmin biofizioloji, xüsusiyyətlərinə də uyğundur. Çünki insan orqanizmi subyektivləşmək (koqnitiv şöbə, sol yarımkürə) və mövcud olmaq (ekzistensial şöbə, sağ yarımkürə) üçün lazım olan biofizioloji orqanlara və anatomik bədən strukturuna malikdir. Orqanizmin sol və sağ tərəflərə malik olması, onların funksiyaları da məhz, Psixikanın işinə uyğundur və ona xidmət edir. Orqanizmin fəaliyyət aktivliyini yerinə yetirən orqanlar da Psixikanın iş prinsiplərinə uyğun qurulub. Məsələn, psixi proses sol yarımkürədə (koqnitiv şöbədə) yaranır və orqanizmin sağ tərəfində fəaliyyətə tətbiq edilir. Bu amil insan orqanizmində ağırlıq və fəaliyyət yükünü tənzimləməyi nəzərdə tutur. Bu baxımdan, ürək aktiv orqan kimi sol yarımkürə (koqnitiv şöbə) tərəfdə yerləşir. Təbii ki, orqanizmin fəaliyyəti zamanı ağırlıq sağ tərəfə (sağ ələ, ayağa) düşür. Bizim sol tərəfimiz düşünür, tənzimləyir, idarə edir, sağ tərəfimiz isə fəaliyyətdə olur, yaradır, yerinə yetirir. Orqanizmimizin sol tərəfi müəmmalı, ziddiyyətli mahiyyət daşıyır. Ürək də çox mürəkkəb bir orqan kimi məhz, bizim sol tərəfimizdə yerləşib. Bunun əksinə olaraq sağ tərəfimiz praktiki, dəyişdirici, fiziki gücə malikdir. Fiziki olanı ümumiyyətlə, sağ yarımkürəyə (ekzistensial şöbəyə) və orqanizmin sağ tərəfinə aid etmək olar. Çünki mövcudluq, əşyalar, fiziki olanlar həm sağ yarımkürə (ekzistensial şöbəyə) vasitəsilə qavranılaraq Psixikaya gətirilir, həm də sağ əl, sağ tərəf vasitəsilə praktik olaraq dəyişdirilir, fəaliyyətə çevrilir.

Deməli, mövcudluğu, məkanı qavrayan və həm də fiziki formada dəyişdirən sağ yarımkürə (ekzistensial şöbə) sağ tərəfinizdir. Mövcudluğu, məkanı anlayan, dərk edən və həm də fəaliyyətlə idarə edib tənzimləyən isə sol yarımkürə (koqnitiv şöbə) sol tərəfinizdir. Açıq-aydın görünür ki, insan orqanizminin bioloji və anatomik quruluşu da Psixikaya onun iş strukturuna xidmət edir. Şübhəsiz, Psixika və bütün orqanizm paralel formalaşma, qarşılıqlı əlaqələr və inkişaf prinsiplərinə malikdirlər.

Burada sual oluna bilər, Psixikada ali dominant şöbə varmı? Neyroelmlər sistemində mütəxəssisləri hansı beyin yarımkürəsinin

komanda verən dominant şöbə olması çox maraqlandırır. Bizim üçün bu problem Psixikanın ümumi işi ilə bağlı olan bir məsələdir. Ümumiyyətlə, Psixikada hegemon əhəmiyyətli dominant şöbə yoxdur. Çünki bu dominantlıq Psixikanın adi iş prinsipi üçün əhəmiyyət daşımır. Diqqətlə fikir versək görərik ki, koqnitiv şöbə və yaxud şüur ekzistensial şöbəyə və yaxud hafizəyə rəhbərlik edə bilməz. Və yaxud əksinə, ekzistensial şöbədə koqnitiv şöbəyə komanda vermək xüsusiyyətlərinə malik deyil. Lakin onlar bir-birlərindən asılıdırlar və güclü qarşılıqlı əlaqə mövcuddur. Şöbələr ümumi işlə məşğuldurlar. Psixika elə bir işlək aparatdır ki, orada hansı isə bir şöbə digərinin üzərində rəhbərlik edə bilməz. Psixikanın ümumi işi, şöbələrarası asılılıq pozular. Lakin orada ciddi fəaliyyət ierarxiyası mövcuddur.

Psixikanın daxili işinin qurulması, mövcudluğu qavrama, təcrübə və informasiya ehtiyatları baxımından Psixikada ekzistensial şöbə dominant fəaliyyətə, əhəmiyyətə malikdir. Tənzimləmə, idarəetmə, subyektiv analitik, fəaliyyət baxımından isə Psixikada dominant mövqe koqnitiv şöbəyə məxsusdur.

Şübhəsiz, Psixika daxilində "idarəetmə" məsələsi daha çox diqqət cəlb edir. Demək olar ki, Psixikada bu işlə tam koqnitiv şöbə deyil, yalnız onun beyin qabığının **alın payı** məşğul olur. Deməli, koqnitiv şöbənin alın payı nahiyəsi Psixikada idarəetmə ilə məşğul ola bilən bir sahə kimi mövcuddur. Ümumiyyətlə isə Psixikanın şöbələrinin alın payları həmin şöbənin idarə olunmasında əsas rola malikdirlər. Şöbələrin daxili işi də onların alın payları tərəfindən idarə olunur.

Məlumdur ki, alın payı elmlər tarixində həmişə diqqət mərkəzində olmuşdur. Xalq təbabətində, xalq psixologiyasında da alın payı ilə bağlı çoxlu mülahizələr mövcuddur. Deməli, Psixikanın ali fəaliyyət funksiyalarının, psixi prosesin tam yarandığı və Psixikanın idarə olunduğu sahə kimi koqnitiv şöbənin alın payının seçilməsi məqsədəuyğun sayıla bilər. Müşahidələr, kliniki eksperimental tədqiqatlar da sol yarımkürənin (koqnitiv şöbənin) alın payının subyektiv mahiyyəti ilə əlaqədar mühüm nəticələr əldə etmişlər. Şüur, nitq, təfəkkür, təxəyyül məhz, koqnitiv şöbənin alın payı hissəsində yerləşirlər.

Ümumiyyətlə, bundan sonra biz beyin qabığı paylarını (**alın, gicgah, ənsə və təpə** payları) Psixikanın payları kimi də adlandıra və tədqiq edə bilərik. Çünki artıq onlar Psixikanın daxilində yerləşirlər.

Hiss edirsiniz ki, biz şüur haqqında az danışırıq. Bu o demək deyildir ki, biz şüurun ali funksiyalarını və hegemon fəaliyyətini heçə endiririk. Şüur anladığımız ali funksiyaları elə Psixikada da yerinə yetirir. Biz onu koqnitiv şöbənin və müəyyən mənalarda Psixikanın da "rəhbəri" kimi də qiymətləndirə bilərik. Lakin şüuru Psixika səviyyəsinə qaldırmaq heç vaxt qəbul edilə bilməz.

Şüur məhz Psixika daxilində yerləşir. Öz ali funksiyalarını da Psixika daxilində yerinə yetirir. Bu işdə ona bütün Psixika kömək edir. Şüura Psixika daxilində böyük üstünlüklər verən onun ali subyektiv funksiyalarıdır. Elə bu amil imkan yaratmışdı ki, şüuru Psixika ilə müqayisə edib onu hətta Psixika kimi qəbul etsinlər. Şüur Psixikanın funksiyalarını və fəaliyyət xüsusiyyətlərini yerinə yetirə bilməz. Burada insan orqanizmi üçün mürəkkəb, nəhəng proseslər və inkişaf qanunauyğunluqları tələb olunur. Burada insanın subyektiv varlığının formalaşması üçün lazım olan bioloji və anatomik məkan tələb olunur. Bu cür fəaliyyət məkanına və iş prinsiplərinə isə məhz, Psixika malikdir. Elmlər tarixində Psixikanın müəmmalı və mürəkkəb mahiyyəti, onun tədqiqindəki qətiyyətsizlik imkan vermişdi ki, şüuru insan orqanizmində ən əsas idarəedici və tənzimləyici orqan kimi qəbul etsinlər. Əslində isə, şüur ən ali funksiyalı struktur kimi məhz, Psixikanın daxilində, koqnitiv şöbədə öz subyektiv məntiqi funksiyaları ilə məşğul olmuşdur. Şüur da Psixikanın ümumi məhsulu üçün işləyir. Psixikada güclü qarşılıqlı əlaqə və asılılıq mövcuddur. Yəni Psixika daxilində olan şüur, hafizə, nitq, təfəkkür, qavrayış, təxəyyül sıx qarşılıqlı əlaqə və asılılıq şəraitində işləyərək psixi prosesləri, orqanizmin subyektiv fəaliyyətini yaradırlar.

## Psixikada neyronların fəaliyyəti

Psixikanın öyrənilməsində və onun fəaliyyətində ən mühüm amil Psixika daxilində işləyən neyronlarla (sinir hüceyrələri) bağlıdır. Psixikada ümumi iş prinsipi mövcuddur. Psixika çox nəhəng

idarəedici və tənzimləyici işlə məşğuldur. Bu nəhəng və mürəkkəb ümumi işi neyronlar yerinə yetirirlər. Psixikanın şöbələri də öz funksiyalarına uyğun ümumi işlə məşğuldurlar. Təbii ki, Psixikada işləyən bütün neyronlar yalnız və yalnız Psixikanın ümumi nəticə məhsulu üçün işləyirlər. Beyin və bütün orqanizm Psixikaya informasiyalar ötürməklə məhz, onun ümumi fəaliyyətinə xidmət edirlər.

Psixika daxilində yerləşən neyronların ümumi fəaliyyət prinsipləri şöbələrdən başlayır. Yəni hər hansı bir neyron öz şöbəsinin ümumi funksiyaları üçün işləyir. Ekzistensial şöbənin neyronları mövcudluğu, məkanı qavrama funksiyaları üçün işləyirlər. Koqnitiv şöbənin neyronları isə subyektiv fəaliyyət funksiyalarına uyğun işləyirlər. Nəticədə, neyronlar psixi prosesin tərkib hissələrini işləyib hazırlayırlar. Burada bir amili xüsusilə qeyd etmək lazımdır. Psixikada və onun şöbələrində ayrılıqda şüur və yaxud hafizə üçün işləyən neyronlar yoxdur. Neyronlar yalnız və yalnız Psixikanın şöbələrin ümumi işi üçün fəaliyyət göstərirlər. Hər şey tam psixi prosesin yaranmasına xidmət edir.

Psixika daxilindəki neyronlar fəaliyyət və kimyəvi tərkib hissələrinə görə fərqlənirlər. Bu fərqlər Psixikanın ümumi işində mühüm əhəmiyyət kəsb edir. Məlum fərqlərin əsasını şöbələrdəki **ağ** və **boz** maddələr təşkil edir. Şöbələrin ağ maddələrində yerləşən neyronlar əsasən Psixika daxilində əlaqə yaratmaq informasiyalarını ötürməklə məşğul olurlar. Burada nəhəng miqdarda olan informasiyalardan söhbət gedir. Şöbələrin boz maddəsində (beyin qabıqlarında) yerləşən neyronlar isə Psixikanın ən ali funksiyalarını, psixi proses məhsullarını hazırlamaqla məşğul olurlar. Psixi proseslər məhz, boz maddədə yaranır. Biz Psixika daxilindəki neyronları gördükləri işlərə görə iki ümumi qrupa bölə bilərik:

**1. Əlaqə yaradan neyronlar (ağ maddə, şöbələrin daxili və qarşılıqlı əlaqə zonası. QƏZ).**
**2. Hazırlayıcı funksional iş neyronları (boz maddə, şöbələrin qabığı).**

Şöbələrdaxili neyronların bu cür qruplaşmasına baxmayaraq onlar Psixikanın ümumi fəaliyyətinə və nəticə məhsuluna bağlıdır-

lar. Yəni onlar müstəqil deyil, məhz, ciddi tabeolma prinsiplərinə uyğun ardıcıl işləyirlər.

Bundan əlavə, Psixikanın neyronları universal fəaliyyət xüsusiyyətlərinə malikdirlər. Bu universallıq xüsusiyyətləri neyronlara daha geniş və aktiv fəaliyyət göstərmək üçün imkanlar yaradır. Psixikanın neyronları çox aktiv, "ağıllı",və "vicdanlı" fəaliyyət göstərirlər.

## Psixika və beyin

Şübhəsiz, Psixikanın insan orqanizmində tədqiq edərkən "Psixika və beyin" problemi ilə üzləşməli olacağıq. Psixikanı insan orqanizmində öyrənməklə əsrlər boyu mövcud olan bu problemə aydınlıq gətirmək mümkün olacaq. Burada nəzəri cəlb edən ilkin sual vardır. Görəsən, Psixika beyni, yoxsa beyin Psixikanı idarə edir?

Psixikanın tədqiqindəki nəticələrimizə əsaslanaraq deyə bilərik ki, məhz Psixika beyni idarə edir. Əlbəttə, beyin ali əqli və psixi funksiyaları işləyib hazırlaya bilməz. Bu işlə məşğul olmaq üçün məhz, Psixika bioloji, psixoloji və sosial üstünlüklərə malikdir. Çünki psixi proseslər orada yaranır, əqli fəaliyyət orada baş verir. İnsanın şüurlu-məntiqli fəaliyyəti, davranışı və həyatı Psixikada yaranaraq oradan idarə olunur.

Bundan əlavə, Psixika xaricdən gələn ruhi və qeyri-subyektiv informasiyaları qəbul edib onları işləmək imkanlarına malikdir. Beyin bu cür işləri görməyə qadir deyil. Lakin beyin bu həyati funksiyaları yerinə yetirmək üçün Psixikaya hava və su kimi lazımdır. Elə ona görə Psixika beynin daxilində yerləşir və beyinlə birgə işləyir. Beyin ümumi sinir strukturudur və ümumi iş prinsiplərinə malikdir. Onun daxilində yerləşən bütün neyronlar da beynin ümumi işi üçün fəaliyyət göstərirlər. Bu baxımdan, beynin ümumiyyətlə, insanın fəaliyyətini tənzimləyən, onu idarə edən komandirin və komanda heyətinin olması zəruridir. Bu komandir və idarə etmək mərkəzi məhz Psixikadır. Komandir Psixika, onun daxili komanda heyəti isə şüur, nitq, hafizə təfəkkür, təxəyyül və qavrayışdır.

Biz psixikaya müasir Psixologiya elmlərinin və neyroelmlər sisteminin əsas problemi kimi baxırıq. Çünki bütün beyin orqanları,

bütün insan orqanizmi sinirlər vasitəsilə Psixika ilə sıx əlaqədədirlər və onlar sıx qarşılıqlı əlaqədə işləyirlər. Orada insan subyektivləşir, sosiallaşır. Psixikada yaşamaq xüsusiyyətləri yaranır, insan mənəviyyatı və xarakteri formalaşır. Nəhayət, insan zehni və subyektiv davranışı Psixikada formalaşaraq oradan idarə olunur. Psixika insanı idarə edən mərkəzdir.

Psixika insanın ruhi və fiziki, varlığını idarə etmək üçün lazım olan bütün psixoloji, bioloji, sosial və anatomik xüsusiyyətlərə malikdir. Psixikada insanın formalaşma, inkişaf və yaşamaq qanunauyğunluqları vardır. Psixikada insanın dünya ilə paralel yaşama və inkişaf prinsipləri nəzərə alınıb. İnsan, orqanizmində Psixikadan başqa ruhi, bioloji və sosial mahiyyətli olan digər orqan yoxdur.

Bu baxımdan, Psixika insanı idarə etməyə qadir orqandır. Çünki məhz Psixika vasitəsilə insan öz bioloji subyektiv mövcudluğunu görür, hiss edir, dərk edir. Deməli, insan yalnız dərk edildiyi, subyektivləşdiyi ali orqan tərəfindən idarə oluna bilər. Bu təbii rasionallıqdır, formalaşma və inkişaf qanunauyğunluğudur.

İnsan orqanizmində psixikanın müəyyən edilməsi və öyrənilməsi bizə imkan verir ki, yeni həqiqi psixologiyanın əsaslarını yaradaq. Yəni artıq psixologiya elmi öz öyrənilmiş predmeti və fundamenti olan psixika üzərində yaranıb inkişaf edəcəkdir.

# PSYCHE: DETERMINATION AND STUDYING OF PSYCHE IN THE HUMAN ORQANIZM. THE FOUNDATIONS OF NEW FUNDAMENTAL PSYCHOLOGY

## INTRODUCTION

Determination and studying of Psyche in the human organism has become a scientific necessity. Psyche is a complex fundamental problem of mankind, which has an old history. The studying of Psyche has always been problem for system of sciences. However approaching with doubt to existence and activity of Psyche is impossible. Psyche is available and it's in the Human Organism. It's already time to research of Psyche in the contemporary crisis Psychology sciences and Neuroscience system. Firstly, the biological existence of Psyche have to be studied. Psyche is a common and universal problem. Psyche is a psychological, biological and social problem. It has to be studied on psychological, biological and social aspects. So, to study of Psyche a new specific theoretical method is required. We have attempted to study of Psyche just the same kind of new method. This method gives opportunity all-round to research of Psyche. Psyche is an administrative center of Brain and Human organism. To control manage Human, Psyche has all advantages in Organism. I think, to research Psyche will help us to study the Brain and Human Organism in detail. Let's be introduce with Psyche.

## THE INNER STRUCTURE OF PSYCHE

Psyche is located in Brain. The three organs of Brain are xactly the three divisions of Psyche. According the internal work f Psyche, these divisions could be named as follows: **1. Existence**

**division (Right hemisphere). 2. Cognitive division (Left hemisphere). 3. Zone of Interaction (ZIA, Corpus Callosum).** Each division has special activity functions. As a whole, they create general work of Psyche.

Consciousness, Speech, Thinking, Imagination, Cognitive Memory, Other cognitive and analytical processes is situated in the Cognitive Division (Left hemisphere, in the Cerebral Cortex). Memory, Perception, Spatial speech, Other existential and spatial processes, Rich reserves of information is situated in the Existence division (Right hemisphere, in the Cerebral Cortex). Besides, Existence division have the functions of relation with fundamental spiritual processes. These divisions, being in interaction, create psychical processes and functional activity of Psyche. Psyche described in the **Figure - 1**.




**Figure - 1**

There are all opportunities for activity of Psyche in the Human Organism. Existence division of Psyche perceives and comprehends existence, space, spatial things - the all World. But Cognitive division of Psyche makes them cognizable. Zone of Interaction (ZIA) of Psyche creates reciprocal connection between these two divisions. Interaction processes between Psyche divisions is vital important for healthy and fruitful activity of Psyche.

## DIVISIONS OF PSYCHE

**Existence Division (Right Hemisphere).** Existence Division perceives existence and brings this perception information to Psyche. In due to this division, the World finds formal primitive reflection in Psyche.

Existence division situated Memory, Perception, Inner Spatial speech, other existential and spatial processes to perceive the space, things, all the world. In addition to this , Existence division is able to make primary relation with fundamental spiritual and non-subjective processes.

Existence division (right hemisphere) is so obscure and mysterious division. This division needs to be approached more seriously than Cognitive division. Its internal structure is very poorly investigated in a modern Neurology and Neuropsychology. However, some of done clinical studies confirm that Existence division has perception and memory functions. In case the Existence division is damaged, a place of perception ability of the Human are broken completely. All kinds of agnosia appears itself in injuring of right hemisphere. For instance, visual-spatial agnosia. In this case a person can't know the home address, building of figures. Doubtless, the Existence division does this perception work by primitive memory. It means that things, existence are created in primitive form in memory. The status of memory creates some contrary. Memory is a huge and difficult structure. It works in whole Psyche. All Psyche have memory experience. But, the memory takes its

basements on creating from Existence division. It means the memory for Psyche begins from the Existence division. In spite of walking of the memory in whole Psyche, its "residence" is in Existence division. If it wasn't such, existence, reality couldn't enter Psyche. In this respect the Existence division has huge information base. That's why this division is obscure and secret.

**What is "Spatial speech"?** Spatial speech is the space that formalizes of general activity of the existential division and makes this activity as information reaction. Owing to on Internal Spatial speech means the existence we perceive finds its primary primitive reflection in Psyche. For example, the formal information reaction, which confirms the building as "building" in Existence division, is the spatial speech. It's primitive "building" memory information of the spatial speech in Psyche. This "building" type information reaction participates in the creation of the general Human speech, by pass to the Cognitive division. Human speech can't be created without Spatial speech: existence, objective information are in the Spatial speech. In according to the work principle of Psyche, the Spatial speech (Existence division), by joining with the logical-analytical speech (Cognitive division), formalize normal Human speech.

The Existence division has primary relation with spiritual processes. This version can be sounded an interesting. However, there are available factors that give opportunity to tell that version. The Existence division (right hemisphere) has always been mysterious and obscure. And the left hand (the hand that has immediate relation with the right hemisphere) attracts view as mysterious hand. There are the versions that this hand has special memory. There's special attitude to left hand in the religion. This factor is considered in religion traditions. It's normally that the Existence division keeps relation with spiritual processes. Because, only this division has closer relations, firstly, with space, existence. Spiritual processes are able to impress on all Psyche.

**Cognitive division (Left Hemisphere).** The Cognitive division (left hemisphere) had long been attracted by professionals. Simply, the relationship of this hemisphere with right hand was

giving opportunity to tell some versions about its logical, intellectual and analytical meaning. That's why, speech adjustment of left hemisphere and controlling by there was confirmed in the end of XIX century (Zone Language, Broca's and Wernicke's area). Why do we name left hemisphere as the Cognitive division? Left hemisphere has the fundamental specialties that bring cognizable subjectivity to Psyche and formalize it as Human Psyche. This hemisphere possesses the complex mental processes (speech, consciousness, thinking, imagination ), which are so active in the creation of psychical process .

It's normal. For example, Consciousness is the complex mental process that serves for cognition in Psyche. Only Consciousness presents cognitive sense to Psyche. Cognitive lever is an activity base of Human Psyche. For many times, Consciousness is compared with Psyche. It's mistake, Consciousness is the complex mental process of Psyche and situated in the Psyche.

The second huge structure, which brings logical and analytical sense to the Cognitive division, is Speech. It has been long known that speech is in left hemisphere (Zone Language ). Speech is the highest cognitive factor. Speech is a subjective reaction of Human Psyche. It's the highest adjustment factor of Behavior.

It's doubtless for everybody that, the Thinking and Imagination are situated in left hemisphere (the Cognitive division). Thinking and Imagination have to be where Speech and Consciousness are acting in. It's required by Mind, Cognition.

So, Cognitive division is a division that serves for analytical, intellectual and logical thinking and brings cognizable to Psyche. In this respect, the Cognitive division creates Mind. And feeling Mind belongs to all Psyche. Altogether mind work of these divisions creates logical-subjective perception and action of the world for Human. And, such difficult and huge mutual relations of the divisions are implemented by Zone of Interaction.

**Zone of Interaction ZIA. (Corpus collosum).** Previously, corpus collosum was drawing view as the biggest commissure that made joint of hemispheres. Corpus collosum has as many as 200

million neurons. Its connected area is 700 mm2. Corpus collosum is not only the organ that connects, that is but also the organ that creates great relation. We have named it Zone of Interaction (ZIA) in Psyche.

The general work of the divisions creates by Zone of Interaction. To do this work, Zone of Interaction connects of all parts, regions of divisions. Zone of Interaction (Corpus collosum) has all kind of abilities to create such huge relations. The nerves pass from Zone of Interaction, connect all parts of both divisions. Passing nerve fibres (commissural, associative, and projection) are available between the divisions come for helping Zone of Interaction.

So, Zone of Interaction makes suitable condition for relations in Psyche for creation of psychical processes. Psychical process is created in completed form. There's no another such super connecting in the world. Generally, in normal, Psyche is impossible to compare with any reality.

## THE FOUNDATIONS OF NEW FUNDAMENTAL PSYCHOLOGY

Determination and studying of Psyche in the Human organism enables us to create foundations of new Fundamental, Real Psychology. Because, Psyche is a original subject of Psychology and Psychological Sciences. To create the new Fundamental Psychology has become a natural scientific necessity in the World. The main aim of creation the new Fundamental Psychology is to create real Psychology science by researching its original subject Psyche. This unsolved problem is belonging to ancient history. The principal reason of this problem was determination and investigation, of very complex Psyche in the Human Organism.

Now the favorable scientific and historical condition have fully matured for creation real original Psychology Science. The creation of new Fundamental Psychology will originate auspicious conditi-

on for the development of Neuroscience system. Psyche and Brain are closely interrelated, but they are separate organs. The studying of Psyche may help to eliminate crisis in researching fundamental functions of Brain. All the complex mental processes (Consciousness, Speech, Thinking, Cognitive Memory, Imagination, Perception) and other problems is studying in the new methodical forms in the new Fundamental Psychology.

We should study Psyche and to create new Fundamental Psychology. First of all, the Psychology is a science about a Psyche ( Psychology = Psyche + logos). It's the primitive reality. We need not to be frighten of difficulties of studying of Psyche. Because, we have not alternative variant.

## GENERALIZATION AND PERFECTION OF THE MODERN PSYCHOLOGY IN THE WORLD

I think, studying of Psyche in the Human Organism and creation of new real Psychology will help us to eliminate modern crisis in the Psychology, to generalize and improve the World Psychology. As known, the different Countries of the World the Psychology has different Definition. Naturally, it is the International crisis of the Psychology.

Besides, one of the reason of this crisis is connected with the policy and political ideology. Even disintegration of Soviet Union has not solved the international crisis of Psychology in the World. We should separate Psychology from policy and political ideology. We should generalize and improve Psychology in the World.

That's why, I have given to Psychology the new single common International Definition. Generalization and Perfection of the World Psychology – one of the main aim and duty of new Psychology. I have generalized and improved Structure and the main system of Researches of Psychology. Below, in the **Figure – 2, Figure – 3, Figure – 4, Figure – 5 shows this information.** In the

future will maybe additional perfected changes in the Structure and the main Researches system of new Psychology.

New Fundamental Psychology not a psychological direction (school) in inside Psychology. Generally, it's new Psychology. The New Fundamental Psychology covers all Psychology and psychological Sciences. New Psychology covers all research fields of Psychology.

The new Fundamental Psychology is not like neither to former Soviet Psychology nor modern Western Psychology. It's a new scientific approach. It's free from policy, political ideology and fundamental Psychology. It's evolution of Psyche and evolution new Psychology in the Science System.

## General structure of new Fundamental Psychology




**Figure – 2**




**The main directions of research of Psyche.**
**(Figure 3)**




**The common and universal problems of new Psychology (Figure – 4)**




**The general system of psychological sciences of new Psychology (Figure-5)**

## Internet resources:

http://www.udallas.edu/istp/resources/ISTP2001PROGRAMME.htm
http://www.icp2004.org/symposia-1.htm
http://www.hicsocial.org/Social2003Proceedings/Shukram%20Dadayev.pdf
http://www2.u-netsurf.ne.jp/~wisdom/ICPO4abstract.pdf (page 154)
http://www2.u-netsurf.ne.jp/~wisdom/ICPO4abstract.pdf (page 432)
http://www.hicsocial.org/SOCO4.PDF (page 837)
http://www.ecp2005.com/horary.asp (7 july, 2005. Poster)
http://www.hicsocial.org/SOC2005.pdf (page 548)
http://www.hicsocial.org/SOC2006.pdf (page 1743)

The contents of the book:

**PSYCHE: DETERMINATION AND STUDYING OF PSYCHE IN THE HUMAN ORGANISM. THE FOUNDATIONS OF NEW FUNDAMENTAL PSYCHOLOGY**

**Part I. DETERMINATION OF PSYCHE IN THE HUMAN ORGANISM**

1. Introduction: Psyche as fundamental and worldwide problem
2. The inner structure of Psyche. Divisions of Psyche.
3. Functional activity of Psyche. Creation of psychical processes. How does Psyche work?
4. Formation of Psyche.
5. Characteristics of internal activity of Psyche.
6. Preparation of characteristics of living in the Psyche.
7. Types of character and personality in the Psyche.
8. Characteristics of sexual existence of Psyche.

**Part II. PSYCHE, BRAIN AND HUMAN ORGANISM**

1. Activity of neurons in the Psyche.
2. Psyche and Brain organs.
3. Psyche and Human Organism.
4. Psychical information.
5. The psychical immunity of Human organism.
6. Creation of dream in the Psyche.
7. Psyche as a constitution of Human organism.

## Part III. THE FOUNDATIONS OF NEW FUNDAMENTAL PSYCHOLOGY

1. What is new Fundamental Psychology? The foundations of new Psychology.
2. The new International Definition of Psychology. General structure of new Psychology.
3. The main missions (tasks) of new Psychology. The generalization and perfection problems of modern World Psychology.
4. The main research directions of new Psychology.
5. The new Psychology and the Science system.
6. Problems of Spirit and Mind in the new Psychology.
7. Perspectives of formation and development of new Psychology.

**Recommendation literature:**


**Sally D. Springer, Georg Deutsch (1981). "Left Brain, Right Brain". Deutsch, Georg.PUBLISHER.**

**David H. Hubel (1988). "Eye, Brain, and Vision". By Scientific American Library.**

**Floyd E. Bloom, Arlyne Lazerson, Laura Hofstadter (1985). "Brain, Mind, and Behavior". W.H.Freeman.**

**Gerald M. Edelaman, Vernon B. Mountcastle (1978). "Tne mindful Brain". The Massachusetts Institute of Technology.**

**Luria A.R (1962). "The Human Brain and psychical processes" (in russian language).**

**Kuffler S.W, Nicholls J.G (1977). "From neuron to Brain".**

**Shukran M Dadayev (1994). "Psychic energy". Baku, "Azerbaijan" publishing house (in azeri language)**

# ПСИХИКА: ОПРЕДЕЛЕНИЕ И ИЗУЧЕНИЕ ПСИХИКИ В ЧЕЛОВЕЧЕСКОМ ОРГАНИЗМЕ. ОСНОВЫ НОВОЙ ФУНДАМЕНТАЛЬНОЙ ПСИХОЛОГИИ

Психика является научно-исторической проблемой. Её существование и её изучение всегда было проблемой для системы наук. Но, Психика реальная, объективная проблема. Психика существует и она находится в человеческом организме. Уже созрело время определить и изучить Психику в человеческом организме, потому что Психика является центром контроля и управления мозгом и человеческим организмом. Кроме того это требует современный международный кризис внутри психологии и психологических наук.

Психика расположена в головном мозге. **Большие полушария** головного мозга (**Hemispheria cerebri**) и самый большой коммисур, который соединяет оба полушария – **мозолистое тело (Corpus Callosum)** являются основными внутренними органами и частю Психики. Эти органы мы будем называть **Психика**.

Согласно внутренней работе Психики, эти части можно назвать следующим образом: **1. Экзистенциальная часть** (Часть существования, Правое полушарие). **2. Когнитивная часть** (Познавательно-субъективная часть, Левое полушарие). **3. Зона взаимных отношений** (ЗВО, мозолистое тело).

Каждая часть имеет специальные функции деятельности. В целом, они создают общую работу Психики.

**Сознание, речь, мышление, воображение, когнитивная память, другие познавательные и субъективно-аналитические процессы** расположены в когнитивной части (левое полушарие, в коре головного мозга).

**Память, восприятие, внутренняя экзистенциальная речь (пространственная речь), другие экзистенциальные и пространственные процессы, большие запасы информации расположены** в экзистенциальной части (правое полушарие, в

коре головного мозга). Кроме того, экзистенциальная часть имеет функции отношения **с фундаментальными духовными процессами.**

Эти части, находящиеся во взаимодействиях, взаимоотношениях создают психические процессы и функциональную деятельность Психики. Психика описана в **рисунке - 1.**

## Психика




**Рисунок – 1. Психика**

Есть все возможности для деятельности Психики в человеческом организме. Экзистенциальная часть Психики воспри-

нимает существование, пространственные вещи - весь мир. Когнитивная часть Психики делает их познаваемыми, субъективными. Зона взаимных отношений Психики создает взаимную связь между этими двумя частями. Процессы взаимодействия, взаимных отношений между частями жизненно важны для общей и универсальной деятельности Психики.

Психика - психологическая, биологическая и социальная проблема. Психика должно быть изучено на психологических, биологических и социальных аспектах. Психика не является только проблемой психологии. Психика является проблемой психологических наук и современных **Нейронаук**. Значит чтобы исследовать Психику требуется новый универсальный теоретический метод. Мы делали попытку исследовать Психику с помощью нового универсального метода. Этот метод дает возможность подробно исследовать Психику.

Не изучая Психику невозможно будет эффективно исследовать высшие функции мозга и человеческого организма.

Определение и изучение Психики в человеческом организме позволяет нам создать основы **новой фундаментальной психологии**. Поскольку, Психика является фундаментальным предметом психологии и психологических наук, создать новую Фундаментальную Психологию стало естественной научной потребностью в мире.

Главная цель создания новой психология состоит в том, чтобы создать реальную науку психологию, исследуя ее оригинальный предмет - Психику. Эта проблема имеет древнюю историю. Основной причиной этой проблемы было определение и исследование Психики в человеческом организме.

Я думаю что изучение Психики в Человеческом Организме и создание новой реальной Психологии поможет нам устранить современный кризис в психологии, обобщить и улучшить мировую психологию. Как известно, в различных странах мира психология имеет различное определение. Естественно, это уже Международный кризис Психологии.

Кроме того, одна из причин этого кризиса связана с политикой и политической идеологией. Даже распад Советского

Союза не решил международный кризис психологии в мире. Мы должны отделить Психологию от политики и от политической идеологии. Мы должны обобщить и улучшить психологию в мире.

Именно поэтому, я дал психологии новое общее международное **Определение**. Обобщение и совершенствование мировой психологии является одной из главной цели и обязанности новой психологии. Я обобщил и улучшил структуру и систему главных направлений исследования психологии.

Новая фундаментальная психология не является психологическим направлением, или психологической школой внутри психологии. Это совершенно новая Психология. Новая фундаментальная психология охватывает всю психологию, психологические науки и все области исследования Психологии.

Новая фундаментальная психология не похожа ни на прежнюю **советскую психологию**, ни на современную **западную психологию**. Это новый научный подход. Это психология является свободной от политики и от политической идеологии.

Мы должны изучать Психику и создавать новую фундаментальную психологию. Потому что, Психология является наукой о Психике (Психология = Psyche + logos). Это – примитивная действительность. Мы должны понять эту действительность и продолжать фундаментальные исследования в этих направлениях, поскольку, мы не имеем альтернативнога варианта.

Можно сказать что исследование Психики, создание новой психологии, обобщение и совершенствование мировой психологии является современными естественными процессами в системе наук.

**Интернет-ресурсы:**

http://www.udallas.edu/istp/resources/ISTP2001PROGRAMME.htm
http://www.icp2004.org/symposia-1.htm
http://www.hicsocial.org/Social2003Proceedings/Shukram%20Dadayev.pdf
http://www2.u-netsurf.ne.jp/~wisdom/ICPO4abstract.pdf (стр. 154)
http://www2.u-netsurf.ne.jp/~wisdom/ICPO4abstract.pdf (стр. 432)
http://www.hicsocial.org/SOCO4.PDF (стр. 837)
http://www.ecp2005.com/horary.asp (7 июля, 2005. Poster)
http://www.hicsocial.org/SOC2005.pdf (стр. 548)
http://www.hicsocial.org/SOC2006.pdf (стр. 1743)

**Основные главы книги:**

**Психика: Определение и изучение Психики в человеческом организме. Основы новой фундаментальной Психологии**

**Часть I. Определение Психики в человеческом организме**

1. Введение: Психика как фундаментальная проблема
2. Внутренняя структура Психики. Части Психики
3. Функциональная деятельность Психики. Создание психических процессов
4. Формирование Психики
5. Особенности внутренней деятельности Психики
6. Подготовка особенностей проживания в Психике
7. Основные типы характера и личности в Психике
8. Особенности сексуального существования Психики

**Часть II. Психика, мозг и человеческий организм**

1. Деятельность нейронов в Психике
2. Психика и органы мозга
3. Психика и человеческий организм
4. Психическая информация
5. Психический иммунитет (психоиммунитет) человеческого организма
6. Создание сновидении в Психике
7. Психика как конституция человеческого организма

**Часть III. Основы новой фундаментальной Психологии**

1. Что такое новая фундаментальная психология? Основы новой психологии.
2. Новое международное определение психологии. Общая структура новой психологии
3. Главные задачи новой психологии
4. Проблемы обобщения и совершенствования современной мировой психологии
5. Главные направления исследования новой психологии
6. Новая психология и система науки
7. Перспективы формирования и развития новой психологии

# ƏDƏBİYYAT

*Rus dilində:*

1. Альбер Камю. “Бунтуюший человек”. Москва, 1990.
2. Аристотел. “Книга о душе”. “Мысль”, Москва 1975. Том 1.
3. Блум. Ф, Лейзерсон. А, Хофстедтер. Л. “Мозг, разум, поведение”, М. 1998.
4. Гегель. В. “Энциклопедия философских наук”. М. 1977, Том – 3.
5. Ибн Сина (Авиценна) “Избранные философские произведение” М, “Наука” 1980.
6. Еделман. Дж, Маунткасл. В. “Разумный мозг”- М. 1981.
7. Куффлер. С, Николс. Дж. “От нейрона к мозгу”. Москва, 1979
8. Лурия. А.Р. “Мозг человека и психические процессы” М. 1963
9. Лурия. А.Р. “Язык и сознание”. МГУ. 1979.
10. Пиаже. Ж . “Избранные психологические труды” М. 1969.
11. “Психологические тесты для мужчин”- Киев, 1997.
12. Спрингер. С, Дейч. Г. “Левый мозг, правый мозг”. М. 1983.
13. Фрейд. З. “Толкование сновидение”- М. 1989.
14. Фрейд. З. “Я и оно”. Книга I. Тбилиси “Мерани” 1991.
15. Фрейд. З. “Я и оно”. Книга II. Тбилиси “Мерани” 1991.
16. Фромм. Е. “Бегство от свободы”- М, 1989.
17. Фромм. Е. “Душа человека”. М, 1992.
18. Хьюбел. Д. “Глаз, мозг, зрение”. Москва. 1990.
19. Хессет. Дж. “Введение в психофизиологию”. М, 1981.
20. Цвейг. С. “Собрание сочинений в семи томах” Т – 1. М, 1963.
21. Ярошевский. М.Г. “История психологии”. М, “Мысль”-1985.

*Azərbaycan dilində:*

1. Bayramov. Ə.S. Əlizadə. Ə.Ə. "Psixologiya". Ali məktəblər üçün dərslik. Bakı, 2002.
2. Dədəyev. Ş. "Psixi enerji"- Bakı. "Azərbaycan" nəşriyyatı, 1994.
3. Dədəyev. Ş. "Azadlıq sosial-psixoloji problem kimi". "Qanun" jurnalı, 1998-ci ilin 8, 9 (10), 11 (12) və 13 (14)-cü nömrələri.

# İSTİFADƏ OLUNMUŞ ŞƏKİLLƏRİN GÖTÜRÜLDÜYÜ KİTABLARIN VƏ İNTERNET ÜNVANLARININ SİYAHISI


**Balakişiyev. K. "İnsanın normal anatomiyası". III cild, "Maarif" nəşriyyatı, 1982. Bakı. Səh. 110**

**Блум. Ф, Лейзерсон. А, Хофстедтер. Л. "Мозг, разум, поведение", М. 1998.**

**Хьюбел. Д. "Глаз, мозг, зрение". Москва. 1990.**

**Спрингер. С, Дейч. Г. "Левый мозг, правый мозг". М. 1983.**

http://www.sew-wrc.com/idea-motivator/images/LeftRight Brain-big.jpg

http://www.hawdale-associates.co.uk/i/imgRightAndLeft Brain.jpg

**http://www.ninds.nih.gov/disorders/brain_basics/know_your_brain.htm#top#top**

http://www.epilepsyfoundation.org/answerplace/Medical/seizures/science/brain/images/brainlobes.gif

**http://en.wikipedia.org/wiki/Image:Neuron-no labels.png**

**http://users.rcn.com/jkimball.ma.ultranet/BiologyPages/N/Neurons.html**

**http://upload.wikimedia.org/wikipedia/commons/b/b2/Illu diencephalon .jpg**

**http://www.neuroskills.com/images/cerebellum.jpg**

**http://www.neuroskills.com/images/cerebellum.jpg**

# QEYD ÜÇÜN

## QEYD ÜÇÜN

ŞÜKRAN DƏDƏYEV

# PSİXİKA:

## İNSAN ORQANİZMİNDƏ PSİXİKANIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ ÖYRƏNİLMƏSİ

YENİ FUNDAMENTAL

PSİXOLOGİYANIN ƏSASLARI

NƏŞRİYYAT REDAKTORU:
*Nərimn ƏBDÜLRƏHMANLI*

KOMPÜTER TƏRTİBATI:
*Sahib QƏNİYEV*

YIĞICI:
*Xəyalə MİKAYILOVA*

KORREKTOR:
*Ceyran ABBASOVA*

Çapa imzalanmışdır: 12.12.2007
Formatı 60x90 1/16.
Fiziki ç/v 25,28.
Tirajı 500.

QANUN NƏŞRİYYATI

*Bakı, AZ 1001,*
*Natəvan döngəsi 1.*
*Tel: 493-84-30; 431-16-62;*
*437-52-84; 498-76-04*
*Faks: 493-84-30; 498-76-04*
*E-mail: ms@azdata.net*
*Web: qanun.az*